بسم الله الرحمن الرحيم

*Bismillahir-Rəhmanir-Rəhim*

# DİN TƏLİMLƏRİ

# რელიგიური განათლება

***Tarix***
***Əqaid***
***Əxlaq***
***Əhkam***

---

**«DİN TƏLİMLƏRİ» kitabı**

Hazırlayan: Seyyid Həsən Musəvi
Ramin İgidov

Məsləhətçi: Məhəmməd Baqir Saivər

Kompüter tərtibatçısı: Nəqi Cəlil-Xoca

---

**Tbilisi 2015**

# Kitabdakı mövzular

## ƏQAİD

- TÖVHİD
- ƏDL
- NÜBUVVƏT
- İMAMƏT
- MƏAD

## 14 MƏSUM

1. HƏZRƏT MUHƏMMƏD (S)
2. HƏZRƏT ƏLİ (Ə)
3. HƏZRƏT FATİMƏ (S.Ə.)
4. HƏZRƏT HƏSƏN (Ə)
5. HƏZRƏT HÜSEYN (Ə)
6. HƏZRƏT ZEYNƏL-ABİDİN (Ə)
7. HƏZRƏT BAQİR (Ə)
8. HƏZRƏT SADİQ (Ə)
9. HƏZRƏT KAZİM (Ə)
10. HƏZRƏT RZA (Ə)
11. HƏZRƏT MUHƏMMƏD TƏQİ (Ə)
12. HƏZRƏT ƏLİYYƏN NƏQİ (Ə)
13. HƏZRƏT HƏSƏN ƏSGƏRİ (Ə)
14. HƏZRƏT MEHDİ (Ə)

## ƏXLAQ

- VALİDEYNİN HÜQUQU
- MEHRİBANÇILIQ
- ƏXLAQİ DAVRANIŞLAR
- GÖZƏL XASİYYƏT
- QOHUM-ƏQRƏBANIN HÜQUQU
- QONŞULARIN HÜQUQU
- TƏVAZÖKARLIQ
- ƏHDƏ VƏFALI OLMAQ
- SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAQ
- ƏFV VƏ GÜZƏŞT
- QƏZƏB
- İNSAF
- ZARAFAT VƏ GÜLƏRÜZLÜLÜK
- MÖMİNLƏR ARASINDA SÜLH VƏ ƏMİN-AMANLIĞIN BƏRQƏRAR OLUNMASI
- YETİM VƏ KİMSƏSİZLƏRƏ QAYĞI GÖSTƏRMƏK
- SALAM VERMƏK
- ƏMANƏT
- QEYBƏT
- XƏBƏRÇİLİK VƏ MƏSXƏRƏ
- HƏSƏD (PAXILLIQ)
- YALAN
- DİŞLƏRİN YUYULMASI
- DIRNAQLARIN TUTULMASI
- ƏTİRLƏRDƏN İSTİFADƏ

## ƏHKAM

- HÖKMLƏRİN QİSMLƏRİ
- TƏHARƏT
- NƏCASƏT
- SULARIN HÖKMLƏRİ
- DƏSTƏMAZ
- QÜSL
- TƏYƏMMÜM
- NAMAZ
- ORUC
- XUMS
- ZƏKAT
- ƏMR BE MƏRUF (YAXŞI İŞLƏRƏ DƏVƏT ETMƏK)
- CİHAD VƏ MÜDAFİƏ
- ALQI-SATQI
- İCARƏ
- BORC
- VƏDİƏ (ƏMANƏTDARLIQ)
- ARİYƏ
- SƏDƏQƏ
- YEMƏK VƏ İÇMƏK
- MƏHRƏM VƏ NAMƏHRƏM
- EVLƏNMƏK
- MƏSCİDİN HÖKMLƏRİ
- QƏSB, AND, YALAN, QEYBƏT

# ƏQAİD

# GİRİŞ

Dinimizin əsasları bir sıra etiqadlardan (tövhid, ədl (ədalət), nübuvvət (peyğəmbərlik), imamət və məad) ibarətdir ki, onlar dinin əsasını və dayaqlarını təşkil edirlər. Həmişə insanlar arasında cürbəcür əqidələr mövcud olmuşdur və indi də vardır. Başqa sözlə desək, hərəsi bir əqidənin sahibidir. Ona görə də hamıya zəruridir ki, öz əqidəsinin əsaslarını dəlil və sübutla tanısın. Bununla da qərəzli və zəhərli təbliğatın müqabilində öz əqidəsini müdafiə edə bilsin, səbr və dözüm nümayiş etdirsin, nəticə etibarilə hər gün bir tərəfə çəkilməsin.

Söylədik ki, hər bir şəxs gərək öz əqidəsinin əsaslarını dəlil və sübutlar üzərində qurmalıdır, ancaq bu o demək deyildir ki, o, illər uzunu dini elmlərin təhsili ilə məşğul olmalı, fəlsəfi kitablar oxumalıdır. O, sadəcə olaraq öz əqidəsinin əsas prinsiplərini sadə, aydın və möhkəm dəlillərlə əsaslandıra bilərsə, bu qədər kifayət edər. Belə bir məşhur misal vardır:

İp əyirməklə məşğul olan qoca bir qarıdan soruşurlar:

- Tanrının varlığını sübut etmək üçün hansı dəlilin var?

Həmin qadın dərhal toxucu dəzgahından əlini çəkir və dəzgahın çarxı dayanır. O belə deyir:

- Bu kiçiklikdə bir çarx onu fırladan olmasa dayanır. Necə ola bilər ki, bu böyüklükdə dünya, onun bütün ulduzlu göyləri, günəşi və yer kürəsi ilə birlikdə heç bir fırladanı olmadan, heç bir hərəkət verəni olmadan fırlanmaqdadır və öz hərəkət və seyrini davam edir!?

İnsan öz dini əqidəsinin əsaslarını tutarlı dəlil və sübutlarla öyrəndikdən sonra, dinin şaxələri sahəsində – məsələn, namaz, oruc, həcc və başqa əməllərdə ilahi hökmlər sahəsində mütəxəssis olan müctehidlərə müraciət edib onlara təqlid edə bilər. Necə ki, bir şəxs xəstə olduqda həkimə, ev tikmək istədikdə mühəndisə və ya memara müraciət edir. Əgər şəxs özü dini ehkamlar sahəsində mütəxəssis - yəni, müctehid deyilsə, gərək səlahiyyətli müctehidə müraciət etsin, onun fikrini və təyin etdiyi yolu öz əməli fəaliyyətində örnək tutsun.

# TÖVHİD

## TANRININ VARLIĞINA İNAM FİTRƏTİMİZDƏDİR

İnsanın uşaqlıq dövrü başa çatdıqda, yaxşılıqları və pislikləri ayırd etmək həddinə yetişdikdə öz vicdanına üz tutur və bununla da aşağıdakı cəhətləri özü üçün müəyyənləşdirir: o, doğru danışmağı, ədalət və insaflı olmağı, insanpərvərliyi, insanlara xidmət göstərməyi və başqa bu kimi bəyənilmiş sifətləri xoşlayır, yəni bu sifətlərin yaxşı simasını dərk edir.

Belə şeyləri ilkin mərhələdə dərk etmək üçün dərs və kitab oxumağa və öyrənməyə heç bir ehtiyac yoxdur. Bir nəfər ondan soruşsa ki: “Hansı dəlilə görə düzgün danışmağın yaxşı iş olduğunu başa düşdün?”, - cavabında belə deyər:

“Bunu dəlil və sübutla öyrənməmişəm. Bunun yaxşı bir iş olması duyğusu mənim vicdan və fitrətimə nüfuz etmişdir”.

Tanrı varlığına inam və etiqad (dünyanı və bütün mövcudatı yaradanın varlığına inam) da bəşərin bu sayaq fitrətindən doğan bir haldır. İnsanda belə bir əqidənin yaranması üçün müəllim, məktəb və kitaba ehtiyac yoxdur. O, yalnız öz vicdan və fitrətinə müraciət etməklə belə bir məsələni dərk edir və anlayır ki, varlıq dünyasının qüdrətli və bilən yaradıcısı vardır.

Bu baxımdan, bəşərin keçmiş tarixinə müraciət etsək, görərik ki, bütün keçmiş dövrlərdə, hətta bəşər yarımvəhşi halda yaşadığı zamanlarda, mədəniyyət və təlimlə məşğul olmadığı dövrdə belə Allaha etiqad və inam duyğusu olmuşdur. Əlbəttə, bəzən Tanrını tanımaqda və müəyyənləşdirməkdə səhvlərə yol vermişlər. Məsələn, günəş və bəzi ulduzları, yer cisimlərini dünyanın və özlərinin tanrısı güman etmişlər, lakin Tanrı və yaradana olan etiqadın əsasını duymuşlar.

Tanrıya etiqad və inamın fitri olması bəlli olduqdan sonra aşağıdakı cəhəti qeyd etmək lazım gəlir.

Fitri şeylər bəzən xüsusi səbəblər və amillərin təsiri ilə unudulur. Qalın parça işıqlı lampanın üzərini örtüb onun işığının yayılmasına mane olduğu kimi, Allahı tanımaq fitrəti də bəzən elmi, bəzən də həvəslərin və şəhvani amillərin təsiri ilə qalın qəflət pərdəsi altında gizlənir. Bu isə insanı Allahdan elə şəkildə xəbərsiz edir ki, sanki onun fitrətində və canında Allahı tanımaq əqidəsi yoxdur. Ancaq bu pərdələr götürüldükdən sonra adam öz-özünə diqqət yetirir və onun varlığını duyur.

Günah və şəhvətpərəstlik üzündən Allahı tanımağın əsl fitrətindən qafil olan insanlar təyyarədə, avtomobildə və ya hər hansı bir şəraitdə müəyyən həyat təhlükəsi ilə qarşılaşarkən nicat yolu olmadığını hiss edən kimi və əlləri bir yana yetişməyincə, hamı birlikdə və həmrəyliklə Allaha üz tuturlar, ondan yardım istəyirlər. Yəni belə bir məqamda onların fitrətində olan Allah axtarışı, Allahı tanımaq istəyi və Tanrıya pərəstiş duyumu açıq-aydın təzahür edir.

Altıncı mə'sum imam Həzrət Sadiq (ə) bu incə məsələyə işarə etmişdir:

Bir nəfər o Həzrətdən xahiş etdi ki, ona Tanrı və yaradanı tanımaq üçün yol göstərsin, Tanrının varlığını sübut etmək üçün dəlil göstərsin. Həzrət onun cavabında buyurdu:

- Heç gəmiyə minmisənmi?

O şəxs cavab verdi:

- Bəli.

- Olubmu ki, sizin gəmi sınıb, sizi nicat etmək üçün başqa bir gəmi də olmayıb, özün də nicat üçün üzə bilməyibsən (yəni sənin əlin bir zahiri vasitəyə yetişməyib)?

- Bəli, olub.

- Sənin ümidin hər yerdən və hər şeydən kəsilən məqamda qəlbinin dərinliklərində elə bir ümid qaynağı olubmu ki, sənə nicat verə bilsin və təhlükəni sovuşdursun?

- Bəli, olub. Özlüyümdə belə bir hiss olub və belə bir qüdrətin varlığına ümid etmişəm ki, o, məni ölüm təhlükəsindən qurtara bilər.

İmam Sadiq (ə) buyurdu:

- Sənin qəlbində müraciət etdiyin həmin qüdrət Tanrıdır.

İnsanın aciz və həssas məqamlarda istər-istəməz üz tutub müraciət etdiyi kəs Tanrıdır.

Təkəbbür, özünübəyənmə, adamlara və başqa zahiri vasitələrə etimad pərdələri aradan qalxdıqdan sonra insanın yardım və nicat üçün üz tutduğu böyük qüdrət Tanrıdır.

Tanrı - dünyanı yaradan, ehtiyacları ödəyən və yolda qalanlara nicat verən qüdrətdir. Bəşərin əzəli və əbədi pənahı, ümid və təsəlli qaynağı, haqq və həqiqət yoluna yönəldən böyük və ulu Tanrıdır.

# MÜŞAHİDƏ ETDİKLƏRİMİZ TANRININ VARLIĞINA DƏLİLDİR

Əgər saat, tikiş maşını, soyuducu, motor, avtomobil, təyyarə və bu kimi qurğuları nəzərdən keçirsək, onların hər birində özünəməxsus bir nizam və qaydanın olduğunu müşahidə edərik. Ehtimal edə bilərsinizmi ki, bu dəqiq və nizamlı qurğular alim və mütəxəssislər dəxalət etmədən öz-özünə meydana gəlmiş olsunlar?

Təyyarə motorunun heyrətləndirici qüdrət və nizama malik olması əqli baxımdan öz-özünə mümkün deyildir və bu həqiqəti siz qəbul edirsiniz. Bəs bütün dünya varlığını əhatə edən bu heyrətləndirici nizam və onun hər bir guşəsində avtomobil və təyyarə motorunun nizamından min dəfələrlə daha artıq nizam və ardıcıllıq olan gerçəkliklər haradan əmələ gəlmişdir?

Dünyanın varlıq aləmində müşahidə edilən əsrarəngiz nizam və qanun-qayda mütəfəkkirləri də öz sirli təbiəti ilə heyrətə salmışdır. Bu nizam haradan yaranmışdır?

Bir qədər ağıl, düşüncə və fikir işlətməklə insan dərrakəsi belə hökm verir ki, bilən, qüdrətli və hikmətli bir yaradan bu dünyanın nizamını, bu qədər əsrarəngiz mövcudatı yaratmış və əmələ gətirmişdir.

Varlıq aləmində olan nizamı anlamaq üçün təkcə insanın bədən üzvlərindən birinin, məsələn gözün fəaliyyətini nəzərdən keçirin.

Göz adlanan bu kiçik üzv o qədər dəqiq və sirlidir ki, mütəxəssis həkimlər onu tanımaq üçün ömürlərini sərf etsələr də, yenə də onun bütün sirlərini tanımaqda aciz qalmışlar.

Elə bir ağıllı adam tapılarmı ki, göz kimi bir üzvün bu qədər dəqiq və nizama və heyrətləndirici xüsusiyyətə malik olmasını öz-özünə və səbəbsiz bir hadisə kimi qəbul etsin?! Belə bir ehtimal mümkündürmü?!

İnsan bədəninin tənəffüs və həzm orqanlarının hər biri özünəməxsus qanun və sistemə malikdir. Bunların hər biri kainatın bilən, qüdrətli və hikmətli yaradanı olduğuna dəlalət etmirmi?! Bunların hər biri xüsusi hesab və ölçü ilə yaradılmayıbmı?!

İnsan və onun bədənindən keçək bitki aləminə. Bir buğda dənəsi və ya badam tumu yerə düşərək cücərir, ya sünbülə çevrilir, ya da ağac kimi böyüyüb meyvə verir. Nəzər yetirin: o zaman ki, bu dən torpağın altında yerləşir, sonra torpağı yarıb çıxır, sünbülə çevrilir, bu böyümə prosesini dəqiq izləmək üçün necə də geniş və dəqiq tənzimlər lazımdır.

Buraya bulud, külək, günəş işığı və hərarətini əlavə etsək, ilin fəsilləri, günlər, gecələr və həmçinin qulluq edən adamın qayğısını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bir sünbülün və ya meyvə ağacının boya-başa çatması, məhsul verməsi üçün nə qədər səy və çalışma, nə qədər amillər zəruridir. Bu sadə həyati misal hər bir varlığın nə qədər mürəkkəb və çeşidli qanunauyğunluqla tənzim olunduğunu göstərir. Həmin badam ağacı və ya taxıl sünbülü Tanrının varlığını anlamaq, onun qüdrət, bilik və iradəsini duymaq üçün kifayət deyilmi?!

Məgər demək olarmı ki, bu nizam və bu qurğu öz-özünə mövcuddur?!

İnsan ağlı belə bir hökmü söyləməyə icazə verərmi ki, deyək: günəş, ay, ulduzlar, dörd fəsil, gündüzlər, gecələr və bütün hər şey yaradan olmadan vardır, öz-özünə mövcuddur?

Altıncı imam Həzrət imam Sadiqin (ə) şagirdlərindən biri olan Müfəzzəl bir dəfə ona dedi:

- Biz dünya yaradılışının nizamını şərh edərkən materialist dəstələr Allahın varlığına şəkk edir və ya onu inkar edərək deyirlər: "Bunların hamısını təbiət yaratmışdır!"

İmam Sadiq (ə) buyurdu:

- Əgər təbiət dedikdə onların məqsədi qüdrət, bilgi, iradə və ixtiyar sahibidirsə, bu elə həmin Tanrıdır, onlar adını səhv salmışlar, Allahı təbiət adlandırmışlar. Əgər təbiət dedikdə onların məqsədi elm, qüdrət və tədbiri olmayan bir şeyi nəzərdə tutursa, ola bilməz ki, belə bir nizamlı və heyrətamiz dünyanı şüursuz təbiət kor-koranə şəkildə yarada bilsin.

Sözün qısası budur ki, ağıl və düşüncənin hökmünə görə varlıq dünyasının elmli, qüdrətli və hikmətli bir yaradanı vardır ki, bu da həmin Tanrıdır. Şüursuz və nadan təbiətin belə bir dəqiq nizam və qurğunu yaratması mümkün deyildir.

# İMAM SADİQLƏ (ə) BİR SÖHBƏT

Materialist baxışlara malik olan Əbu Şakir Disani imama xidmət göstərmək şərəfinə nail oldu.

O, imama belə söylədi:

- Allahın varlığını mənim üçün sübut et!

Bu sualı edərkən yaxınlıqda balaca bir uşaq əlində yumurta oynayırdı. Həzrət imam (ə) yumurtanı uşağın əlindən aldı, üzünü Əbu Şakirə tutub dedi:

- Bu yumurtanı görürsənmi? Elə bil qapalı bir qaladır, bərk, möhkəm və qapısı bağlı. Bu qalanın içərisində, divarlarının altında olduqca nazik bir pərdə vardır. Onun daxilində bir qədər əridilmiş qızıl və gümüş (yumurtanın sarısı və ağı) vardır. Ancaq bunlar heç vaxt bir-birinə qarışmır. Demək olarmı ki, yumurtanın ağının və sarısının belə bir xüsusiyyətə malik olması öz-özünə olmuşdur?

Əbu Şakir! Heç kəs bu yumurtanın içindən xəbərdar deyil və bilmir ki, buradan çıxan cücə xoruz olacaq, yoxsa fərə. Cücə başını yumurtadan çıxardıqda maraqlı və rəngbərəng boyalarla boyanmış olur. Misal üçün, tovuz quşunu nəzərinizə gətirin ki, onun qanadları necə də al-əlvandır. Cücəni bu rənglərə boyayan hansı gücdür?! Bir toyuğun və ya tovuzun rənglənməsi bir rəssam tablosunun rənglənməsindən azmı işdir?! Demək olarmı ki, rəssam tablolarının yaradanı vardır, amma bu təbii rəngləmələrin sahibi yoxdur və öz-özünə olmuşdur?!

Sonra İmam (ə) Əbu Şakirə belə buyurdu:

- Məgər sən qəbul etmirsənmi ki, bu yumurta və ondan çıxan cücənin bu qədər çeşidli xüsusiyyətləri ola-ola, onların tədbirli, bilən və hikmətli bir yaradanı da olmalıdır?

Əbu Şakir bir qədər fikirləşdi. Elə bil yuxuda idi və birdən ayıldı. Dərhal dedi:

- Bəli, şəhadət verirəm ki, yaranış dünyasının yaradanı vardır. Onun adı Allahdır, bütün kamal sifətlərə malikdir. Şəhadət verirəm ki, Muhəmməd (s) Allahın bəndəsi və onun peyğəmbəridir. Sən də peyğəmbərin canişini və Allahın hüccətisən, onun ardınca getmək vacibdir.

Bəli, dünyanın mövcud varlıqlarından hər bir varlıq, atomlardan hər biri, hər bir hüceyrə və canlı varlığın zərrəsi onu yaradan və düzəldənin varlığına aydın dəlildir.

Bütün yaranış ürək Tanrısına dua edir.
Tanrını etiraf etməyən ürək, ürək deyil.
Varlıq divarında gördüyün bu qədər qəribə naxışlar
Səni (Tanrını) fikirləşməsə, divardakı cansız naxış kimidir.

# KAİNATIN TƏSADÜF NƏTİCƏSİNDƏ YARANMASI QEYRİ MÜMKÜNDÜR

Bütün quruluşu qanun-qaydaya və nizam-intizama əsaslanan bu nəhənglikdə dünyanın bir təsadüf nəticəsində yaranması mümkündürmü?! Plastik maddəni əridib yerə töksək, ondan bir ölçüdə və bir-birinə uyğun təsbeh dənəcikləri kimi dənəciklər yaranarmı?! Təsbeh dənəciklərini bir-birinin üstünə töksək, onlardan təsadüf nəticəsində sapa düzülmüş təsbeh yaranarmı?! Yaqut dənəcikləri kimi bir-birinin yanına düzülmüş, xüsusi pərdəciyə bükülmüş, gözəl iyə və dada malik nar necə mümkündür ki, Allahın qüdrətindən bəhrələnməyərək təsadüf nəticəsində meydana gəlsin?! Arpa və buğda dənələrinin təsadüf nəticəsində bir-birinin yanına düzülməsi mümkündürmü?! İnsan dişlərinin təsadüf nəticəsində ağıza yerləşdirilməsi mümkündürmü?! Bir az torpaq və gili bir yerə töksək, ondan təsadüf nəticəsində bir ölçüyə malik kərpiclər yaranarmı?!

Əgər bir maşın kərpici bir-birinin üstünə töksək təsadüf nəticəsində onların səliqə ilə bir-birinin üstünə yığılaraq divar əmələ gətirməsi mümkündürmü?! Məlum olduğu kimi, bir insanın və ya heyvanın yaranmasında milyardlarla hüceyrələrdən istifadə edilmişdir. Bu hüceyrələrin toplusu insan bədənini formalaşdırır. Bu çoxsaylı və böyük əhəmiyyətə malik hüceyrələr təsadüf nəticəsində və heç bir xaliqi olmadan yarana bilərmi?! Əgər dəmir parçalarını bir-birinin üstünə töksək, ondan təsadüf nəticəsində minik maşınının ehtiyat hissələri yaranarmı?! Müxtəlif rəngləri rəssam tablosunun kənarına qoysaq, təsadüf nəticəsində tabloda insan, gül və ya gözəl bir mənzərə yaranarmı?! Maşının ehtiyat hissələrini bir-birinin üzərinə toplasaq, təsadüf nəticəsində maşın qurularaq meydana gələrmi və ehtiyat hissələrinin hər biri öz yerini tuta bilərmi?! Bəs necə mümkündür ki, yaranması maşın düzəltməkdən milyon dəfələrlə çətin olan insanın və ya heyvanın xaliqi olmasın və təsadüf nəticəsində yaransın?!

Müxtəlif rənglərdə olan pambıq və yunu bir-birinin üzərinə töksək ondan sapla müəyyən qayda-qanuna tabe olaraq toxunmuş xalça yaranarmı və həmin xalça üzərində bir dəstə gül şəkli çəkilərmi?!

Təbiət səhnəsində şahidi olduğumuz bu cür gözəlliklər necə təsadüf nəticəsində yarana bilər?! Müxtəlif gözəlliklərə malik ağaclar, güllər, müxtəlif bədən quruluşuna malik heyvanlar necə təsadüf nəticəsində yarana bilər?! Yazmağı bacara bilməyən savadsız bir adam əlinə qələm alaraq yazmaq məqsədilə kağızın üzərinə bir xətt çəksə bunun təsadüf nəticəsində mənaya malik bir cümləyə çevrilməsi mümükndürmü?!

Bildiyimiz kimi müxtəlif otların toxumları və heyvanların nütfəsi (sperması) laboratoriyalarda asanlıqla bir-birindən seçilir. Bunlar necə yaranmışlar ki, hər birinin daxilində yalnız aid olduğu otun, ağacın, insanın və heyvanın xüsusiyyətləri mövcuddur və həmin toxumdan başqası deyil, yalnız aid olduğu ot göyərir? Onların yaranmasında hansı elm və qüdrətdən istifadə olunmuşdur ki, indiyə qədər dünya alimləri elə bir toxum və ya nütfə (sperma) icad edə bilməyiblər ki, ondan ot və ya insan yaransın. Mümkündürmü ki, hər birindən ağac, ot, heyvan və ya insan yaranan toxum və nütfənin (spermanın) yaranması təsadüf nəticəsində və xaliqi olmadan meydana gəlsin?!

İnsan geyiminin formasnı nəzərə almadan parçanı kəsik-kəsik etsək və yenidən insan geyiminin formasını nəzərə almadan kəsdiyimiz hissələri bir-birinə tiksək, təsadüf nəticəsində hər hansı bir insanın əyninə olan geyim (libas) yaranarmı?! Hər hansı bir insan və ya heyvan necə, təsadüf nəticəsində yaranarmı?!

**Hər hansı bir şeyin təsadüf nəticəsində yaranması qeyri-mümkündür.**

Allah-təalanın mövcudluğunun fəlsəfi dəlillər vasitəsilə sübuta yetirən zamanda qeyd edəcəyik ki, heç bir şey səbəbsiz mövcud olmur. Təsadüfi adlandırdığımız hər bir şeyi həqiqətən onun bir sıra müxtəlif səbəbləri yaradır. Bəzən hər hansı bir şeyin yaranmasında özümüzdən xəbərsiz iştirak edirik və sonradan etdiyimiz işin nəticəsindən xəbərsiz olaraq bunun təsadüfı olduğunu deyirik.

Püşk atarkən püşkün hər hansı bir şəxsin adına çıxmasını biz təsadüf adlandırırıq. Halbuki, püşkün həmin şəxsin adına çıxmasının bir sıra səbəbləri vardır. Bu səbəb hər şeydən əvvəl püşk iştirakçılarının püşk ətrafına toplaşması və püşkün içindəkindən xəbərsiz olmalarıdır.

# ALLAHIN İSBATI

Allahın tək olması və yeganəliyini müxtəlif yollarla sübut etmək olar. Lakin bu dərsdə yalnız iki dəlil ilə kifayətlənirik.

**Birinci dəlil:**

Yaranış dünyasının ahəngdarlığı, birliyi öz-özlüyündə yaradanın təkliyi üçün aydın şahiddir.

Fərz edək ki, 500 səhifəlik kitab sizin qarşınızdadır, hələlik isə onu oxumamısınız. İndi də bilmirsiniz ki, bütün bu kitab bir yazıçının qələm və fikrinin məhsuludur və yaxud onun hər bir hissəsini ayrı-ayrı yazıçı yazıb. İstər-istəməz bu həqiqəti anlamaq üçün gərək bütün kitabı mütaliə edəsiniz. Əgər görsəniz ki, burada verilən mətləblərin ruhu, dəlillərin üslubu, yazı və cümlə qurumu ahəngdar və eyni xətt üzrədir, asanlıqla başa düşəcəksiniz ki, bütün kitabı bir şəxs yazıb. Çünki bu əsər iki və daha çox nəfərin məhsulu olsaydı, kitabda bir sıra uyarsızlıqlara rast gələrdiniz. Ola bilsin ki, bu ixtilaf və uyğunsuzluqlar müəyyən dərəcədə incə, az və gizli şəkildə olsun. Belə olduqda adi adamlar həmin fərqləri tapa bilməzlər, lakin mütəxəssis olanlar bu kitabın bir nəfər tərəfindən yazılmadığını çox asan yollarla və vasitələrlə müəyyənləşdirə bilirlər. Buna görə yaradılış dünyasının bu müqəddiməsini öyrənməklə alimlərin dediyi kimi aşağıdakı məsələnin şərhinə girişək.

# BÜTÜN ALƏM HAQQ - TƏALANIN KİTABIDIR

Bu mövzu ətrafında dünyanın yaranışı haqqında bəhs edən bütün elmlərin mütəxəssisləri ilə müzakirəyə başlayırıq. Bilmək istəyirik ki, bu kitabın bütün səhifələri yaradılışın əzəməti ilə uyğun və eynidirmi? Əgər uyğun və eyni tərzdə olarsa, bunun özü yaradanın təkliyinə və vəhdətinə ən böyük dəlildir. Doğrudan da bu elm sahəsinə aid mütəxəssislərin hər birindən sual edəndə həmin elmin müəyyən guşəsini öyrənməklə məşğul olan həmin mütəxəssis öz cavabında dünyanın başdan-başa vahid nizamla hökm sürdüyünü deyir və bizə anladır ki, bu dünya vahid bir xəritənin üzərində qurulmuşdur, onun hər bir hissəsi kainatın ümumi qanunları ilə uzlaşır, əhatəli və hər şeyə şamil edilən qanunların hökmünə tabedir. Hər hansı bir xırda varlıq üzərində təcrübə və sınaq aparmaqla bütün dünyada hökm sürən vahid və böyük bir qanunun varlığını asanlıqla sübut etmək olar.

Bu qanunauyğunluğu bütün alimlər, fiziklər, bioloqlar, atom mütəxəssisləri və astronomlar təsdiq edirlər.

Bundan da yüksək qanunauyğunluq və oxşarlıq olarmı ki, günəş sistemi və digər başqa böyük ulduzlar sistemi atomun tabe olduğu qanuna tabedirlər. Biz hamımız bilirik ki, böyük ulduzların öz oxu ətrafında dövr etməsi iki qüvvənin - cazibə qüvvəsi və mərkəzdənqaçma qüvvəsinin təsiri ilə gerçəkləşir.

Atom ulduzla müqayisədə bir millimetrdən yüz milyonlarla az yer tutur və burada da iki təzadlı qüvvənin (cazibə və mərkəzdənqaçma) təsirini görürük. Bu iki gücün əhatəsində elektronlar cazibə orbitində protonların ətrafında fırlanırlar.

Əgər bitki aləminə və canlıların - yəni insan və heyvanların həyatına nəzər salsaq, orada da bu uzlaşmanın şahidi olarıq. Bitkilər və canlılar arasında da yaranma və çoxalma qanunu vardır və bu baxımdan ümumi bir oxşarlıq görsənir. Çoxları belə bir fikri təsdiq edirlər ki, onların bütün növləri bir əsldən, bir kökdən yaranmışdır.

Siz yəqin ki, lent üzərinə yazılmış bir neçə nitqə qulaq asarkən deyiliş tərzi və ifadə qüdrətinə görə onun eyni natiq tərəfindən söylənildiyini dərk edə bilərsiniz. Sözün deyim tərzi, eyni səpkidə bəyan edilməsi, cümlə quruluşu, fikir ardıcıllığı və ya qırıq-qırıq ifadələrin olması, yaxud məntiqi əlaqələrin uyarı əsasında həqiqəti tapmaq mümkündür.

Yaradılış dünyası da çoxlu və saysız vərəqləri olan bir kitabdır, onun hər vərəqini, bəlkə də hər sətrini minlərlə alim araşdırmış və indi də araşdırır. Hamının rəyi birdir və bu da ondan ibarətdir ki, bu kitab bir silsilə ümumi qanunlara tabedir. Məsələn, hər yerdə səbəb qanunu vardır. Bütün maddi aləmdə cazibə qanunu hökm sürür. Bütün atomların mərkəzi nüvəsi vardır. İşıq qanunu hər yerdə eynidir.

Yaranış kitabında müşahidə edilən bu yeganəlik və ahəngdarlıq onu yaradanın vahid və tək olmasına dəlalət etmirmi?!

Əgər dünyanın iki yaradanı olsaydı, onun vəziyyəti və idarə olunması, dünyanın nizamı və qurumu qatışıq və müxtəlif olardı.

İmam Sadiqin (ə) cavan və istedadlı şagirdlərindən olan Hişam o Həzrətdən soruşdu:

- Allahın birliyinə dəlil nədir?

Həzrət cavabında yuxarıda qeyd etdiyimiz dəlili söylədi və qısa bir cümlədə belə xülasə etdi: "Yaranış dünyasının bütövlüyü, bağlılığı və tarazlığı".

Hər şey bir-birinə qırılmaz tellərlə bağlıdır, mövcudat və məxluqat bütöv tam kimidir və kamil bir qurumdur. Bu da yaradanın vəhdətinə və təkliyinə şəhadət verir.

**İkinci dəlil:**

Allah tərəfindən insanlara yol göstərmək üçün göndərilmiş bütün peyğəmbərlər öz peyğəmbərlik vəzifəsini çoxlu dəlillər və möcüzələrlə sübut etmişlər, bütün camaatı və hamını bir Allahı tanımağa və təkallahlıq əqidəsinə dəvət etmişlər. Aydındır ki, əgər dünyada Allahın sayı birdən çox olsaydı, bu qədər peyğəmbərlər camaatı bir Allaha etiqad etməyə çağırmazdılar, hər bir peyğəmbər hansı Allah tərəfindən göndərilmişdirsə, o da camaatı həmin Allahı tanımağa dəvət edərdi. Elə tanrılar olubmu ki, bəndələrini hidayət etmək üçün peyğəmbər göndərməmiş olsunlar?!

Bu fikir əsassızdır. Necə ola bilər ki, Tanrı öz seçilmiş və üstün məxluqu sayılan bəşərin hidayəti üçün peyğəmbər göndərməsin?!

Tanrı peyğəmbərləri öz bəndələrinin səadəti üçün göndərir.

Əmirəl-möminin (ə) imam Həsənə (ə) bu həqiqət barəsində belə buyurur:

"Ey oğul! Bil ki, bir Allahdan savayı başqa bir Allah olsaydı, onların da öz peyğəmbərləri olardı. Amma görürük ki, bütün peyğəmbərlər bizi bir Allaha tərəf dəvət edirlər. Bunun özü təkallahlıq əqidəsi üçün böyük dəlildir. Bir Allahdan başqa Allah yoxdur. Əgər Allahın şəriki olsaydı, onun mülk, səltənət və Allahlıq qüdrətinin nişanələri aşkar olardı. Başqa bir Allahın qüdrətinin əlamətlərini görmürüksə, deməli yəqin bilirik ki, Allahın şəriki yoxdur".

# **ALLAHIN** SİFƏTLƏRİ
## ELMİ VƏ QÜDRƏTİ

Allahın elmi, onun zatı ilə eyni olması baxımından əzəli və sonsuzdur. Allah-təala zatında olan elmindən əlavə, onun zatından kənar olan, bu və ya başqa külli və cüzi şeylərə də, istər baş verməsindən öncə olsun, istər baş verdikdən sonra, agahdır. Bu məsələni Qurani-kərim vurğulayaraq buyurur: **"Həqiqətən, Allah hər şeyi biləndir!".**

Həmçinin buyurur: **"Məgər yaradan (her şeyi) bilməzmi?! Allah (hər şeyi) incəliyinə qədər biləndir, (hər şeydən) xəbərdardır!"**

Peyğəmbər(s) əhli-beytindən olan imamlardan da Allah-təalanın elminin əzəli və genişliyini dönə-dönə vurğulayan hədislər vardır. İmam Sadiq (ə) bu xüsusda buyurur: "O (Allah), yeri onu (yeri) yaradandan əvvəl də özünün onu (yeri) yaratmasından sonra olduğu kimi bilirdi. Onun bütün işləri bilməsi də belədir" (Allah artıq yaratmış olduğunu, yaradandan əvvəl də (əzəldən) bilirdi.

Allahın qüdrəti də elmi kimi əzəlidir və onun elmi kimi zatı ilə eyni olduğundan hüdudsuzdur. Qurani-kərim Allahın qüdrətinin genişliyi üzərində təkid edərək buyurur: **"Allah hər şeyə qadirdir!".** Həmçinin buyurur: **"Allah hər şeyə (hər bir şeyi yaratmağa və məhv etməyə) qadirdir!"**.

İmam Sadiq (ə) buyurur: "Hər şey bilik, qüdrət, təsəllüt (hər şey üzərində hakim olma), malikiyyət və Allahın onlara əhatəliyi baxımından bərabərdir."

Onu da qeyd edək ki, mövcud olması qeyri-mümkün olan əşyanın vücuda gətirilməsi Allahın qüdrət və əzəmətindən xaric olması, Allahın ona qüdrəti çatmadığına görə deyil, həmin əşyanın özünün vücuda gəlməsi və var olmasının mümkün olmaması üzündəndir.

Həzrət Əli(ə) qeyri-mümkün varlıqların vücuda gəlməsi barədə verilən suala belə cavab vermişdir: **"Allah-təala acizlik və bacarıqsızlıqdan uzaqdır, sual etdiyin şeyin özü olası bir şey deyil".**

## ALLAH DİRİDİR, EŞİDƏN VƏ BİLƏNDİR

Alim və qadir olan Allah qəti olaraq həm də diridir. Belə ki, öncə vəsf etdiyimiz iki sifət diri olan varlığın xüsusiyyətlərindəndir və elə bununla da Allahın diri olmasının dəlilləri aşkar olur. Əlbəttə, Allahın dirilik sifəti, digər sifətlərində olduğu kimi, hər cür nöqsandan uzaqdır və insan və bu kimi varlıqlarda olan bu sifətlərin xüsusiyyətlərindən (diriliyin müqabilində ölümün də olması kimi) münəzzəhdir. Belə ki, o zatən diridir və ölüm ona əsla yol tapa bilməz. Başqa sözlə, Allahın varlığı (vücudu) mütləq kamaldır. Nöqsan sifətlərdən olan ölüm qətiyyən onun zatına yol tapa bilməz. Allah-təala buyurur: **"Ölməz, həmişə diri olan Allaha bel bağla!"**

## TANRI EŞİDƏN VƏ GÖRƏNDİR

"Səmi'" və "bəsir" eşidən və görən deməkdir. Allahın eşidən və görən olması dedikdə nəzərdə tutulan məna belədir ki, Allah bütün eşidilən və görülən şeylərdən xəbərdardır; necə ki, bütün dünyada olan varlıqlardan xəbərdardır, onların hamısı Tanrı bərabərində hazırdır.

Əlbəttə, insanlarda və heyvanlarda görmək və eşitmək göz və qulaqladır. Biz deyəndə ki, Allah görən və eşidəndir, bu o deməkdir ki, Allah-təala bütün eşidilən və gözlə görülən şeylərdən agahdır, hər şey onun qarşısında hazırdır. Aydındır ki, Allahın gözlə görülən və qulaqla eşidilən şeyləri bilməsi üçün onun göz və qulağa ehtiyacı yoxdur.

İmam Sadiq (ə) bu barədə belə buyurub:

«Biz deyəndə ki, Allah eşidən və görəndir, məqsədimiz bu deyildir ki, o, göz və qulaqla görür və eşidir, bəlkə əksinə, o, gözsüz görür və qulaqsız eşidir».

İndi belə bir sual oluna bilər: hansı dəlilə görə Allah görən və biləndir?

Bu sualın cavabı çox sadədir:

Biz öyrəndik ki, Tanrının elmi hüdudsuzdur, onun hər şeydən xəbəri vardır. Bu bilgi və elmin zəruri şərti bütün eşidilən və görülən şeylərdən xəbərdar olmaqdır.

Buna görə də bu iki sifəti (eşidən və görən) sübut etmək və ayrıca dəlilə ehtiyacımız yoxdur. Bundan əlavə, qabaqca oxuduq ki, dünyanın yaradanı bütün kamal sifətlərə malik olmalı, hər sayaq nöqsanlardan pak və uzaq olmalıdır. Görmək və eşitmək keyfiyyəti də bir növ kamal əlaməti və naqislikdən uzaq olmaqdır.

# ƏDL

## TANRI ƏDALƏTLİDİR

Əvvəlki dərslərdə öyrəndik ki, dünyanı yaradan gərək bütün kamal sifətlərə malik olsun, bütün nöqsan və eyblərdən pak və uzaq olsun.

Allahın kamil sifətlərindən biri ədalət sifətdir. Zülm və sitəmi o kəslər edirlər ki, ya etdiyi zülmün pis olmasını bilmir, ya da özünün müəyyən ehtiyaclarını ödəmək üçün zülmə əl atır.

Məsələn, camaatın malını zorla və məcburən onların əlindən alanlar ya bu işin pis əməl olduğunu anlamır, ya da bu yol ilə öz ehtiyacını ödəmək istəyir, yaxud sərvətinin azaldığını nöqsan hesab edir və bunu düzəltmək istəyir.

Dünyanı yaradan Tanrı mütləq mənada ehtiyacsızdır və bütün kamalların qaynağıdır. O, öz sonsuz bilgisi ilə hər şeyin yaxşısını və pisini bilir. Buna görə də onun zülm etməsinə heç bir əsas yoxdur.

Biz bəzi dualarda belə oxuyuruq:

"Ey Tanrı! O adam zülmə əl atar ki, zəif və gücsüz olsun, zülm yolu ilə öz zəifliyinin əvəzini çıxmaq istəsin. Ancaq Sənin müqəddəs və ulu məqamın bu cür nöqsanlardan pak və təmizdir".

Şiələr ədalət məsələsini öz din və məzhəblərinin ikinci əsas məsələsi hesab edirlər. Bu ondan irəli gəlir ki, bir sıra savadsız insanlar ədaləti Tanrı üçün vacib bilmirlər - yəni deyirlər ki, əgər Allah-təala özünün itaətkar və yaxşı əməl sahibi olan bəndəsini cəhənnəmə aparsa, bu iş zülm hesab edilməz, pis iş kimi qiymətləndirilməyəcək.

Ona görə də, bu sayaq iddiaların müqabilində şiələr möhkəm dəlillər gətirməklə Tanrı üçün ədalət sifətini sübut etmiş və demişlər: «Şübhə yoxdur ki, zülm etmək qəbahətli və pis iş sayılır və biz də bilirik ki, heç vaxt Tanrıdan pis işlər baş verməz. Başqa sözlə, Tanrı kamildirsə, Ondan nöqsanlı işlər törəməz».

Elə bu səbəbdən ədalət şiə məzhəbində dini etiqadların ikincisi hesab edilir və bu da onların üstünlüyünü göstərir.

İmam Sadiq belə buyurur:

"Allah-təala günahsızı başqalarının günahı hesabına cəzalandırmaz. Uşaqlara atalarının günah və xilafına görə əzab vermir. Allah-təala günahı bağışlaya bilər. O, kiməsə zülm etmək mövqeyindən qat-qat yüksəkdir".

## XOŞAGƏLMƏZ VƏ ACI HADİSƏLƏRİN FƏLSƏFƏSİ

Yer üzündə baş verən müxtəlif xoşagəlməz və acı hadisələr (zəlzələ, təbii fəlakətlər, müxtəlif bəlalar və s.) bəzən Allah-təalanın öz bəndələrini öz pis əməllərinə görə cəzalandırmasıdır. Necə ki, Lut peyğəmbərin tayfası beləcə cəzalandırıldı: "Bizim hökmümüz (əzab etmək üçün) çatanda, oranı alt-üst edib, arası kəsilməyən daş-kəsək yağışı yağdırdıq!". Qurani-kərim naşükür və üsyançı (tüğyankar) Səba camaatı barəsində belə buyurur: "Onlar Allahın itaətindən üz çevirdilər və biz viranedici seli onlara göndərdik!"

Bəzi xoşagəlməz hadisələr isə insanları qəflət yuxusundan ayıltmaq məqsədi daşıyır: "Xalqın pis işləri nəticəsində quruda və dənizdə fəsad törəndi. Allah istəyir ki, onlara bəzi əməllərinin cəzasını dadızdırsın, bəlkə (Ona doğru) qayıdalar!".

## TANRININ İNKAR SİFƏTLƏRİ

İnkar sifətlər o sifətlərə deyilir ki, onların insanda olması naqislik və ehtiyac anlamını bəyan edir. Allah-təala ehtiyac və naqislik məfhumu bildirən hər bir sifətdən pak və uzaqdır. Çünki Tanrı kamillik qaynağıdır.

İzahat üçün bəzi sifətlər haqqında bəhs edirik.

**1. Allah cism deyil.**

Aydındır ki, hər cismin müəyyən məkana ehtiyacı vardır. Əgər Tanrı cisim olarsa, onun da məkana ehtiyacı olar. Əvvəlcə də oxuduq ki, Allah-təala ehtiyacsızdır, çünki özü möhtac olan varlıq yaradan ola bilməz və başqalarının da ehtiyacını ödəyə bilməz.

Deməli, Tanrı cisim deyil, çünki cismin məkana ehtiyacı vardır.

**2. Tanrı mürəkkəb deyil.**

Tanrı mürəkkəb deyil, çünki mürəkkəb şeyin tərkib hissələri vardır. Deməli bu, Tanrı barəsində mümkün deyil. Məsələn, bir dərman tərkibi və ya müxtəlif tərkiblərdən ibarət bir mürəkkəb filiz öz tərkib hissələrinə ehtiyac duyur. Belə ki, tərkib hissələrindən biri olmazsa, artıq həmin dərman və ya filiz mövcud ola bilməz.

Əgər Allahın zatı bir sıra hissələrdən təşkil olunsaydı, o, öz tərkib hissələrindən asılı olardı və onlara ehtiyacı olardı. Lakin Tanrı ehtiyacsızdır, özlüyündə mövcuddur. Onun heç nəyə ehtiyacı yoxdur.

**3. Tanrı gözlə görünmür.**

Hər bir varlığın görünməsinin xüsusi şərti vardır. Onlardan biri həmin varlığın cisim olması və məkana malik olmasıdır. Belə olmadıqda onu gözlə, lap diqqətlə baxdıqda belə görmək olmaz. Biz sübut etdik ki, Tanrı cisim deyil, məkanı yoxdur. Deməli, onu heç vaxt gözlə görmək mümkün deyil. Demək olmaz ki, görünməyən şey mövcud deyil. Elə varlıqlar vardır ki, gözlə görünmür, lakin onlar mövcuddur. Məsələn, elektrik dalğaları, biz onları təsir və nəticəsinə görə mövcud olmasını öyrənirik.

Beləliklə, hər bir varlığın gözlə görünməsi zəruri deyildir və eyni zamanda demək olmaz ki, gözlə görünməyən şey mövcud deyil.

**4. Allahın heç bir vəchlə heç bir şeyə ehtiyacı yoxdur.**

Əgər Tanrının nəyəsə ehtiyacı olsaydı, onunla başqa varlıqlar arasında fərq olmayacaqdı. Başqa varlıqların mövcud olması ayrı şeylərə bağlıdır, ayrı şeylərə ehtiyacı var. Deməli, bu varlıqların mövcud olması üçün ehtiyacları ödənməlidir. Əgər Tanrının da ehtiyacı olarsa, bu qaydada olmalıdır, yəni onun başqa bir Allaha ehtiyacı olmalıdır ki, onun ehtiyacını ödəsin. Buna görə də prinsipcə Tanrının başqa Tanrıya ehtiyacından söhbət gedə bilməz və ikiliyə yer yoxdur. Tanrı hamının ehtiyaclarını ödəyir, əgər Tanrının nəyəsə ehtiyacı olsaydı, başqalarının ehtiyaclarını ödəyə bilməzdi, Tanrı məqamında anlaşıla bilməzdi.

Quran bu barədə belə buyurur:

**"Ey camaat! Siz [və bütün varlıqlar] Allaha möhtacsınız. Təkcə Allahdır ki, zəngin və mütləq mənada ehtiyacsızdır".**

# NÜBUVVƏT

## ÜMUMİ PEYĞƏMBƏRLİK

Dini etiqad əsaslarının üçüncüsü peyğəmbərlik və peyğəmbərlərə olan etiqaddır. Birinci əsas - tövhid, ikincisi isə ədalət məsələsidir ki, keçən dərslərdə onlardan bəhs etdik.

Peyğəmbərlik və ya nübuvvət nə deməkdir?

Peyğəmbərlər Tanrı tərəfindən bəşərin hidayəti, onlara yol göstərmək üçün göndərilir. Bəzi rəvayətlərə görə peyğəmbərlərin sayı 124 mindir.

Sonuncu peyğəmbər İslamın əziz peyğəmbəri Muhəmməd ibn Əbdullahdır(s) ki, ondan sonra peyğəmbər gəlməyib və gəlməyəcəkdir.

Peyğəmbərlərin göndərilməsinin zəruriliyi aydındır. Hikmətli yaradan bu geniş dünyanı hədəfsiz və məqsədsiz yaratmamışdır.

Aydındır ki, xilqətin hədəfi elə bir şey deyil ki, onun faydası Allahın özünə çatsın. Əvvəlki dərslərdə oxuduğumuz kimi böyük Tanrının nöqsanı və ehtiyacı yoxdur. Deməli o, dünyanı yaradarkən onu öz xeyrinə və ehtiyacına görə yaratmayıb, bundan məqsəd özünü kamilləşdirmək və ehtiyacını ödəmək olmayıb.

Buna görə xilqətin hədəfi gərək yaranan şeylərə qayıtsın. Bu dünya üçün təsəvvür və dərk edə biləcəyimiz yeganə hədəf bütün mövcudatın təkamülüdür. Burada insanın təkamülü xüsusi yer tutur, insanın hərtərəfli təkamülü xilqətin hədəfi sayılır.

Aydındır ki, insanların inkişaf və təkamülü ilahi bir tərbiyəçinin rəhbərliyi olmadan, ayrıca proqram qurulmadan mümkün deyil. Qeyri ilahi rəhbərlər öz bilgi və gerçəkliyi dərketmə baxımından olan məhdudiyyətlərinə görə bəşərə düzgün rəhbərlik edə bilmirlər. Onlar xəta və səhvdən uzaq deyil, bəlkə səhv və xətaya qərq olmuşlar, adi rəhbərliyə ləyaqətləri yoxdur. Adi rəhbərlər ilahi rəhbərlərin göstərişlərini əsas tutmaqla insanları düzgün yola yönəldə bilərlər.

İlahi rəhbərlər qeyb aləmi ilə əlaqə və ünsiyyətdə olurlar və hər sayaq xəta və səhvdən uzaqdırlar. Ona görə onlar insanları həqiqi səadətə yetirə bilirlər. Onlar rəhbərlik işində səhvə yol verməzlər. Deyilənlərdən nəticə çıxarırıq ki, insanın tərbiyə proqramı bəşərin bütün tələblərini bilən, nəyin insan üçün zərər və nəyin isə xeyir olduğunu düzgün təyin edən Allah tərəfindən tənzim edilməlidir. Bu proqramlar peyğəmbərlik və rəhbərlik məqamına layiq olan və qeyb aləmi ilə ünsiyyət saxlaya bilən şəxsiyyətlər vasitəsilə insanlara çatdırılmalıdır.

## İNSAN İCTİMAİ VARLIQDIR

Hamının ümumi bir əqidəsi vardır ki, insan ictimai bir varlıqdır. Yəni tək-tənha bir küncdə başqaları ilə təmas və ünsiyyət saxlamadan yaşaya bilməz, əksinə başqaları ilə yanaşı yaşamağa məcburdur. İnsanların yanaşı və birgə həyat tərzi cəmiyyəti təşkil edir. Şübhəsiz ki, insanların birgə yaşayışı zamanı onlar arasında ixtilaflar və mübarizələr yaranır. Əgər bəşər cəmiyyətini idarə edən düzgün və ədalətli qanunlar olmasa, insan birliyi xoşbəxtlik və təkamülə doğru addımlıya bilməz. Ona görə də hər bir fərdin və ümumi ictimai birliyin hüquqlarını tənzim edən və qoruya bilən düzgün, möhkəm və ədalətli qanunların lazım olması aydın və aşkar bir məsələdir. İndi baxaq görək ki, bu qanunu kim tərtib etməlidir? Ən yaxşı qanunverici kimdir? Onun şərtləri nədir?

Qanunvericinin ilkin şərti budur ki, camaatın və ictimaiyyətin ruhi və cismani xüsusiyyətlərini, daxili hisslərini, istək və tələblərini və başqa cəhətlərini bilsin, dərindən xəbərdar olsun. Hərtərəfli və əhatəli bilgi isə Tanrıdan başqa kimsəyə məxsus deyildir. Çünki odur yaradan və yalnız yaradan insanın daxili və xarici aləmini, onun fiziki və ruhi səciyyələrini tam bilir və Allahdır ki, insan həyatı boyu baş verən hadisələri, müxtəlif cərəyanları, ictimaiyyəti haldan-hala salan amilləri bilir. Buna görə bəşər üçün ən düzgün qanun təyin edən, onun həyatının bütün mərhələləri üçün faydalı olan və onu məhv olmaqdan xilas edən bir qayda-qanunu yazan bir olan Allahdır. Allah-təala öz qanunlarını günah və xətadan uzaq olan, üstün, görkəmli və ləyaqətli insanlar içərisində xüsusi mövqe tutanlara öyrədir, onlar vasitəsilə camaata çatdırır. O istəyir ki, bəşər bu ilahi qanunların işığında çalışsın və rəftar etsin. Çünki bu qanunlar insanı hər tərəfli təkamülə yetirir.

Peyğəmbərlər insanlara rəhbərlik işindən başqa bir məqama da malikdirlər. Belə ki, onlar özləri Tanrı qanununu icra edən ilk insanlardır. Qanunu gətirməklə yanaşı müəllim və tərbiyəçi kimi qanuna

necə əməl etməyi adamlara öyrədirlər, özləri həmin qanunların icrasının nümunə və meyarı olurlar. Bundan məqsəd başqalarının da onların ardınca ilahi qanunları öz həyat proqramı kimi rəhbər tutmasını tənzim və təmin etməkdir.

Bu baxımdan Tanrını tanıyan və ona pərəstiş edən cəmiyyətdə belə bir əqidə hökm sürür ki, Tanrı hər bir zaman ictimaiyyəti idarə etmək üçün peyğəmbər və ya peyğəmbərlər göndərmişdir ki, öz ilahi təlimləri ilə insanlara səadət və təkamül yoluna düşməyi öyrətsinlər.

Bir şəxs İmam Sadiqdən (ə) soruşdu:

- Peyğəmbərlər nə üçündür?

O Həzrət cavabında buyurdu:

- Bizə dəlillər və əsaslı sübutlarla məlum oldu ki, bizim hikmətli yaradanımız vardır, bu yaradan bizi yoxdan vücuda gətirmişdir. Eyni zamanda sübut olundu ki, Tanrı cism və maddə aləmindən deyil, fiziki varlıq deyil, bütün öz məxluqatından yüksək və üstündür. Heç bir məxluq onu görə bilməz, müşahidə edə bilməz. Onunla öz işlərinin islahı barəsində və fəsadı haqqında söhbət edə bilməz. Tanrı ilə ünsiyyətə girib ondan sual edən tapılmaz. Belə olduğu təqdirdə peyğəmbərlər və Tanrı elçilərinə ehtiyac duyulur. Onların varlığı ona görə lazımdır ki, camaatı xeyir və səadət yoluna yönəltsinlər. Peyğəmbərlər xalqın zərər və ziyanına olan şeyləri də bəyan edirlər. Bütün dövrlərdə gərək insanlar arasında yol göstərənlər olsun ki, yer üzü Tanrı hüccətindən boş qalmasın.

## PEYĞƏMBƏRLƏR GƏRƏK MƏSUM OLSUNLAR

Öyrəndik ki, peyğəmbərlərin gəlməsindən məqsəd xalqa başçılıq və rəhbərlik etməkdir. Şübhəsiz ki, əgər rəhbər özü günah və xoşagəlməz işlərə əl atmış olarsa, camaatı paklığa və təmizliyə yönəldə bilməz. Bu cəhətdən ilahi peyğəmbərlər gərək hər sayaq günah və xilaf işlərdən qorunsun və uzaq olsun. Belə olduqda camaat onların yolu ilə gedər və səadət tapar.

Başqa sözlə ifadə etsək, əgər hər bir şəxs camaatı doğru danışmağa və əmanəti saxlamağa dəvət edərsə, lakin özü yalan danışarsa, işində yalan və xəyanət müşahidə edilərsə, heç vaxt onun dedikləri camaata təsir göstərməyəcəkdir. Onun kimi də əgər ilahi peyğəmbərlər xəta və səhvdən qorunmasalar və camaat onların danışığında (və ya ilahi hökmlərin bəyanında) səhv ehtimal etsələr, heç vaxt onların dediklərini tam xatircəmliklə qəbul etməzlər. Belə olduğu tərzdə onların yolu ilə getmək düzgün olmayacaq və gəlməklərinin hədəfi əməli baxımdan yerinə yetirilməyəcəkdir.

Bəli, Allah-təala şirk və günahdan qorunmayan adamları risalət və peyğəmbərlik üçün seçmir. Bu böyük məqam üçün elə şəxsiyyətləri seçir ki, hər sayaq günah və aludəlikdən pak olsun və gələcəkdə də günah və səhvlərdən qoruna bilsin.

## PEYĞƏMBƏRLƏR GƏRƏK MÖCÜZƏYƏ MALİK OLSUNLAR

Hər kimin sağlam düşüncəsi varsa, dəlilsiz heç bir iddianı qəbul etmir. Hər kim dəlilsiz iddianı qəbul edərsə, bu, onun ağlının nöqsanına dəlalət edir. Ona görə də lazımdır ki, bütün peyğəmbərlər iddialarını sübut etmək üçün dəlil və sübut gətirsinlər - yəni onların peyğəmbər olması, özlərinin Allah tərəfindən peyğəmbərliyə seçilməsi camaat üçün sübut edilsin.

Peyğəmbərlərin qeyb aləmi ilə əlaqəsini təsdiq edən dəlillərdən biri möcüzə məsələsidir. Möcüzə elə bir işdir ki, peyğəmbərin yerinə yetirdiyi iş elə bir şəraitdə baş verir ki, başqalarından asılı olmur. Məsələn, ölünü diriltmək, müalicəsi mümkün olmayan xəstəlikləri vasitə olmadan sağaltmaq.

İmam Sadiq (ə) bu barədə belə söyləyir: «Hər bir peyğəmbərin özü ilə şahidi olmalıdır ki, onun düzgün danışmağına zamin olsun».

Aydın şahidlərdən biri möcüzədir ki, camaat onun vasitəsilə peyğəmbərlik iddiasında olanların sözünün düzgünlüyünü təyin edir.

Peyğəmbərliyin lüzumu haqda bir çox ayə və hədislər mövcuddur ki, onlardan bir neçəsini diqqətinizə çatdırırıq:

**«Şübhəsiz hər bir ümmət üçün Allaha sitayiş və tağutdan çəkinsinlər deyə peyğəmbər göndərdik».**

**«Və (ilahi əzabdan) qorxutmaq üçün, peyğəmbər göndərmədiyimiz bir ümmət yoxdur».**

Nəql olunmuş hədisdə bir nəfər imam Sadiqdən (ə) soruşdu:

- Zərdüştlər üçün peyğəmbər gəlmişdirmi?.... Çünki mən onların bir növ şəriətə əməl etdiklərini görmüşəm.

İmam Sadiq (ə) cavabında buyurdu:

- İlahi əzabdan qorxutmaq üçün peyğəmbər göndərilməmiş bir ümmət yoxdur. Şübhəsiz, zərdüştlər üçün Allah tərəfindən peyğəmbər və (asimani) kitab göndərilmiş, lakin onlar onu inkar etmişlər.

# PEYĞƏMBƏRLİYİN FƏLSƏFƏSİ

Yəqin ki, «peyğəmbərlər nə üçün gəlmişdir?» sualı sizi də maraqlandırır.

Qurani-kərimin müxtəlif ayələrini gözdən keçirtdikdən sonra belə bir nəticəyə gəlmək olar ki, peyğəmbərlərin gəlişi aşağıdakı işlər və məqsədlər üçündür.

**1**-Xalqı tövhidə tərəf dəvət və zülmkarlardan çəkindirmək;

Qurani-kərimdə buyurulur:

**«Şübhəsiz, hər bir ümmət üçün Allaha sitayiş və tağutdan çəkinsinlər deyə peyğəmbər göndərdik».**

**2**-Xalqa hakimiyyət;

Qurani-kərimdə oxuyuruq:

**«Allah xalq arasında öz peyğəmbərlərini (saleh insanlara) müjdə vermək və (günahkarları) qorxutmaq üçün göndərdi və xalq arasında olan bir sıra ixtilafları həll etsinlər deyə onlarla birlikdə həqiqət olan (asimani) kitab göndərdi».**

**3**-Xalq arasında ədaləti bərpa etmək;

Qurani-kərimdə buyurulur:

**«Şübhəsiz, xalq arasında ədalət bərpa olsun deyə öz peyğəmbərlərimizi aşkar dəlillərlə göndərib, onlarla birlikdə (asimani) kitab və ədalət (haqq) ölçüsü göndərdik».**

**4**-Xalqın təlim-tərbiyəsi;

Qurani-kərimdə oxuyuruq:

**«O Allahdır ki, xalq üçün ilahi ayələri oxumaq, onların (əxlaqlarının) saflaşdırılması, həmçinin onlara elm və hikmət öyrətmək üçün özlərindən peyğəmbər göndərdi».**

**5**-Xalqa höccətin tamamlanması.

Qurani-kərimdə oxuyuruq:

**«Allah (saleh bəndələrinə) müjdə verib, (günahkarları cəhənnəmdən) qorxutmaq üçün peyğəmbərlər göndərdi ki, onlardan sonra xalqın Allaha heç bir höccəti olmasın (və Axirət aləmində bəhanə gətirməsinlər), Allah həmişə qüdrətli və hikmətlidir».**

Beləliklə, ilahi peyğəmbərlərin göndərilməsindən məqsəd, insanları tövhidə dəvət etmək, zülmkarlardan çəkindirmək, xalq arasında dini hakimiyyət yaratmaq, ədaləti bərpa etmək, həmçinin xalqın təlim-tərbiyəsi və onlara ilahi höccətin tamamlanması olmuşdur.

# İLAHİ PEYĞƏMBƏRLƏRİ TANIMAQ YOLLARI

Tarix boyu bir sıra insanlar özlərinin ilahi peyğəmbər olmasını iddia etmiş və xalqı özlərinə itaət etməyə çağırmışlar. Onların doğruçu və ya yalançı olmasını ayırd etmək həmişə çətin bir iş olmuşdur. Elə bu səbəbdən də, çoxlu insanlar yalançı peyğəmbərlərə aldanmış və özlərini azğınlıqlara düçar etmişlər. Amma ilahi peyğəmbərləri yalançı peyğəmbərlərdən ayırd etmək üçün aşağıdakı yollar qeyd olunmuşdur:

**1** - Peyğəmbərin özünəməxsus rəftarı, həyat boyu azğın yollara düşməməsi və xalq arasında pis adam kimi tanınmaması;

**2** - Özündən qabaqkı və sonrakı peyğəmbərlərdən xəbər verməsi;

**3** - Xalqı bir olan Allaha itaət edib, günahlardan çəkindirməsi;

**4** - Sözlərinin sağlam ağıl və düşüncə ilə uyğun gəlməsi;

**5** - Öz ilahi dəvətini isbat etmək üçün möcüzə gətirməyə qadir olması;

Möcüzə bir çox qeyri-adi işlərə deyilir ki, ilahi peyğəmbərlər özlərinin haqq olduğunu isbat etmək üçün Allahın izni ilə onları göstərir və bu da onların iddia etdiyi peyğəmbərliyin doğru olduğunu çatdırır.

Bəzi şəxslər möcüzəni düzgün başa düşməyib, onun sehr olduğunu güman edirlər. Əsasən möcüzə ilə sehrin (cadunun) bir-biri ilə aşağıdakı fərqləri vardır:

**1** - Sehr və cadu təlim-tərbiyə ilə əldə olunan bir şeydir. Möcüzə isə bunun əksinə olaraq yalnız Allahın izni ilə zahir olur.

**2** - Sehr və cadunu təsirdən salmaq mümkündür, möcüzəni isə yox.

Yəni hər hansı bir sehrbaz və ya cadugər başqasının sehr və cadusunu aradan aparıb, öz sehri ilə ona qələbə çala bilər, möcüzə qarşısında isə heç bir iş görmək mümkün deyildir. Elə buna görə də, möcüzə sehr və cadunun əksinə olaraq mübarizəyə çağırmaq kimi xüsusiyyətə malikdir.

**3** - Sehr və cadu əksərən maddi məqsədlər və dünyəvi maraqlar üçün həyata keçirilir, amma möcüzə belə deyildir.

Bütün bu dəlillərə əsasən Həzrət Muhəmməd (səlləllahu əleyhi və alihi və səlləm) Allahın peyğəmbəri olub, xalqın hidayəti üçün göndərilmiş ilahi elçidir.

İndi isə ümmətlərin ilahi peyğəmbərlərə münasibəti və onlara qarşı etdikləri rəftarları diqqətinizə çatdırırıq.

Qurani-kərimin bu mövzuya aid olan ayələrinə nəzər saldıqda ilahi peyğəmbərlərə qarşı olan belə bir rəftarları görmək olar:

**1**-Məsxərə və istehza;

Tarix boyu caamatın bir dəstəsi Allah tərəfindən göndərilmiş peyğəmbərlərə istehza ilə yanaşır və haqq sözü qəbul etmək əvəzinə onları məsxərə edirdilər.

**2**-Təhqir;

Xalqın bir dəstəsi ilahi peyğəmərlərin nüfuzunu aradan aparmaq üçün həmişə onları təhqir edirdilər.

**3**-İftira;

Onlar ilahi peyğəmbərlərdən möcüzə gördükdə onları sehrbaz, ilahi ayələri isə əfsanə adlandırırdılar.

**4**-Mücadilə;

Fitrəti yatmış kafirlər ilahi peyğəmbərləri dinləyib məntiqə uyğun sözü qəbul etmək əvəzinə, onlarla sözləşir və çaşdırmaq üçün araya söz atırdılar.

**5**-Təhdid;

Kafirlər günü-gündən ilahi peyğəmbərlərin tərəfdarlarının artmasını görüb onları ilahi təbliğdən ayırmaq üçün öldürmək, daşqalaq, sürgün, və s. işlərlə hədələyir və onlar öz vəzifəsindən əl çəksin deyə bir çox rüşvət vədləri verirdilər.

**6**-Kobudluq və qətl.

Kafirlər ilahi peyğəmbərləri özlərinin bütün planları qarşısında səbrli və təmkinli gördükdə isə kobudluğa əl atıb onları qətlə yetirirdilər.

Amma Allah-təala da azğın millətlərin bu kobud və yaramaz hərəkətləri qarşısında sükut etməmiş və onları müxtəlif bəlalara düçar etmişdir.

Buna misal olaraq, Həzrət Nuh peyğəmbərin millətinin tufanda qərq olması və Lut peyğəmbərin qövmünün başına daş yağdırılmasını qeyd etmək olar. Bu yaramaz rəftarların səbəbi onların təkəbbürlük, inadkarlıq, öz ata-babalarına kor-koranə təqlid etmələri və s. ağılsızlıqlardan ibarət idi.

Biz də bu keçmiş millətlərin insanlıqdan uzaq olan rəftarlarına nəzər salıb ibrət dərsi almalı və nəmrudlar, fironlar, əbucəhllər, əbusüfyanlar və başqalarının tutduqları pis yolları bir daha təkrar etməkdən ciddi şəkildə çəkinməliyik.

# PEYĞƏMBƏRLİYƏ AİD BİR NEÇƏ SÖZ

Nübuvvət fəslinin sonunda peyğəmbərliyə aid bir neçə mühüm mövzunu diqqətinizə çatdırırıq:

**Birinci:**

Əhli-beyt məktəbinin əqidəsinə əsasən hər bir peyğəmbər aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

**1**- Kişi olması;

Bütün ilahi peyğəmbərlərin kişi olması zəruridir və Qurani-kərim bu sözü təsdiq edir:

**«(Ey peyğəmbər) səndən qabaq vəhy etdiyimiz kişilərdən başqa, (ayrı) bir peyğəmbər göndərmədik».**

**2**-Peyğəmbərlərin öz xalqlarının dilində danışması;

Qurani-kərimdə buyurulur:

**«(Ey peyğəmbər!) Allah hökmlərini bəyan etmək üçün öz qövmünün dilində danışan peyğəmbərdən başqa bir peyğəmbər göndərmədik».**

**3**-Peyğəmbərlərin xalqdan mükafat (pul və s.) almaması;

İlahi peyğəmbərlər bütün çətinliklər, əzab-əziyyətlər və dini yaymağın əvəzində xalqdan heç bir şey almamalıdır.

Qurani-kərimdə oxuyuruq:

**«(Ey Peyğəmbər! İslam ümmətinə) de ki, mən sizdən yaxınlarıma (Əhli-beytimə) məhəbbətdən başqa bir əcr istəmirəm».**

**4**-Peyğəmbərlərin məsum olması;

İlahi peyğəmbərlər dünyaya gələndən vəfat edənədək heç bir günah iş görməmiş, ilahi vəhyi (hökmləri) xalqa çatdırmaqda səhv etməmiş və bu işdə heç bir şeyi yaddan çıxarmamışlar. Bu isə təkcə iddia olmayıb, istər ağıl, istərsə də ayə və hədislər vasitəsi ilə təsdiq olunur. Çünki günahkar, unudan və səhv edən şəxsin peyğəmbər olması heç də qəbul olunası bir şey deyildir.

Əks təqdirdə, xalq günahkar peyğəmbərin (özü günahkar olduğuna görə) sözlərinə baxıb günaha batar, həmçinin səhv edib unudan (yaddaşsız) peyğəmbər isə Allah hökmünün əvəzinə xalqa yanlış hökmləri çatdırar. Bu isə ilahi peyğəmbərlərin göndərilməsi tərzi-təfəkküründən çox-çox uzaqdır.

Qeyd etdiyimiz kimi, peyğəmbərlər insanları Allah ibadətinə dəvət etməyə və günahdan çəkindirmək üçün göndərilmişdir.

Bu haqda olan bir neçə ayə və hədisləri də diqqətinizə çatdırırıq. Qurani-kərimdə oxuyuruq:

**«Mənim əhdi-peymanıma (peyğəmbərlik və rəhbərliyə) zalım şəxslər nail ola bilməz».**

Ayrı bir ayədə isə belə buyurur:

**«Şübhəsiz Allah hüdudlarını (qayda-qanunlarını) ayaq altında qoyan şəxslər özlərinə zülm etmiş (zalımlardır)».**

Beləliklə günah edən şəxs zalım, zülmkar şəxs isə heç vaxt peyğəmbərliyə (rəhbərliyə) çata bilməz.

**İkinci:**

Bizim əqidəmizə görə qədim zamanlardan indiyədək insanların doğru yola hidayət olunması üçün 124000 peyğəmbər gəlmişdir ki, onların birincisi Həzrət Adəm (ə), sonuncusu isə Həzrət Muhəmmədir (s).

Bu peyğəmbərlərdən 26-nın adı Qurani-kərimdə zikr olunmuşdur ki, bu haqda Nisa surəsinin 163 və 134-cü, Ənam surəsinin 84-86-cı, Ənbiya surəsinin 85-ci, Hud surəsinin 50, 61, 84-cü, həmçinin Fəth surəsinin 29-cu ayələrinə baxa bilərsiniz.

Əbuzər (r.ə.) nəql edir ki, Həzrət Muhəmmədən (s) peyğəmbərlərin sayını soruşduqda buyurdu: «İlahi peyğəmbərlər yüz iyirmi dörd min nəfərdir».

**Üçüncü:**

Allah tərəfindən göndərilmiş 124000 peyğəmbər heç də bir-biri ilə bərabər olmamış, məqam və mənzilətdə bir-birləri ilə fərqlənmişlər.

Qurani-kərimdə buyurur:

**«Bu ilahi elçilərin bəzisini bəzisindən üstün etdik».**

Həmçinin buyurur:

**«Şübhəsiz bəzi peyğəmbərləri (nəbiləri) bir-birindən üstün etdik».**

**Dördüncü:**

İlahi peyğəmbərlərdən yalnız 5 nəfəri **«Ulul-əzm»** peyğəmbərlər kimi tanınmış və bunun səbəbi onların şəriət və dinlərinin bütün dünya üçün gəldiyi və asimani kitaba malik olmalarından ibarətdir.

Ulul-əzm peyğəmbərlər - Həzrət Nuh (ə), Həzrət İbrahim (ə), Həzrət Musa (ə), Həzrət İsa (ə) və Həzrət Muhəmmədir (s) ki, onlara nazil olan kitablar aşağıdakılardan ibarətdir:

**1** – Suhuf - Nuh (ə);

**2** – Suhuf - İbrahim (ə);

**3** – Tövrat - Musa (ə);

**4** – İncil - İsa (ə);

**5** - Quran- Həzrət Muhəmməd (s).

Ulul-əzm peyğəmbərlərin daha üstünü isə islam peyğəmbəri Həzrət Muhəmmədir (səlləllahu ələyhi və alihi və səlləm). O Həzrət (s) buyurur:

«Mən Cəbrail, Mikail, İsrafil və Allahın bütün yaxın mələklərinin üstünü, xalqın daha yaxşısı və Adəm övladlarının seyyidi və ağasıyam».

**Beşinci:**

Qurani-kərim Həzrət Muhəmmədə (s) iki dəfə nazil olmuşdur ki, birinci dəfə o Həzrətin mübarək qəlbini nurlandırıb vəhyə hazırlamaq üçün icmali şəkildə, ikinci dəfə isə tədriclə olaraq 40 yaşından başlayıb 63 yaşında sona çatmışdır.

**Altıncı:**

Qurani-kərim Həzrət Muhəmmədə (s) nazil olduğu kimi qalmış və heç bir təhrifə məruz qalmadan bizim əlimizə çatmışdır.

Bunun əksinə etiqad bəsləyənlər isə bəsirətsiz olub, yersiz danışan və kor-koranə yol gedənlərdir.

Əlbəttə bu, heç də sırf iddia deyil, əksinə, Quranın möhkəm ayələri və mötəbər hədislər əsasındadır.

Qurani-kərim bir sıra möhkəm dəlillərə əsasən Tövrat və İncilin əksinə olaraq, heç vaxt təhrif olunmamışdır. Yəni ona artırılmamış və ya ondan heç bir şey azaldılmamışdır. Bu sözə aid bir neçə dəlilləri qeyd edirik.

Allah-təala Quranın hər növ təhrifdən qorunub saxlanılması haqda belə vəd edir:

**«Şübhəsiz Quranı biz nazil etmiş və həqiqətən biz onu qoruyacağıq».**

Digər bir ayədə belə buyurur:

**«Şübhəsiz Allah öz vədəsinə yalançı çıxmaz».**

Qurani-kərimdə onun batildən (təhrif və yalandan) uzaq olması haqda buyurulur:

**«Və həqiqətən bu kitab izzətlidir, heç vaxt batil onun önü və arxasındandan onunla birgə olmaz, çünki o (Quran) hikmətli və (sifətləri) bəyənilmiş Rəbbin tərəfindən nazil olmuşdur».**

**Yeddinci:**

Həzrət Muhəmməd (s) peyğəmbərlərin sonuncusu və üstünü olduğu kimi, İslam dini də dinlərin sonu, üstünü və əbədisidir. Həqiqətdə İslam dininin zühur etməsi ilə sair dinlər öz etibarlarını itirmişlər.

Həzrət Muhəmməddən (s) sonra isə heç bir peyğəmbər gəlməyəcəkdir. Qurani-kərimdə oxuyuruq:

**«Muhəmməd (s) (Allah elçisi olub), sizlərdən heç birinizin atası deyildir. Lakin o, Allahın elçisi və peyğəmbərliyi xətm edəndir (sona çatdırandır) və Allah hər bir şeydən agahdır».**

**Səkkizinci:**

Qurani-kərimdə buyurulduğu kimi, bəzi vaxtlar eyni zamanda iki şəxs peyğəmbərlik etmiş, amma onlardan biri digərinə tabe olmuşdur ki, Həzrət İbrahim (ə) və Həzrət Lutu (ə) buna misal vurmaq olar.

**Doqquzuncu:**

Biz müsəlmanlar İslam dini və Həzrət Muhəmmədin (s) sair dinlər və peyğəmbərlərdən üstün olmasına inanmaqdan əlavə, bütün ilahi dinlər, peyğəmbərlər və onlara gələn ilahi kitablara dərin hörmət bəsləyirik.

Qurani-kərimdə oxuyuruq:

**«Allah elçisi ona nazil olanlara iman gətirmişdir və möminlər də hamılıqla Allaha, onun mələklərinə, göndərdiyi (asimani) kitablara və peyğəmbərlərə iman gətirərək deyərlər: «Allahın göndərdiyi peyğəmbərlərin heç birinin arasında fərq qoymarıq». Və (möminlər) hamılıqla deyərlər: «Biz Allahın fərmanını eşidib (ona) iman gətirdik. İlahi, biz Sənin bağışlamağını istəyir və Sənə tərəf qayıdacağımızı bilirik».**

## SONUNCU PEYĞƏMBƏR

Öyrəndik ki, sonuncu peyğəmbər Həzrət Muhəmməd ibn Əbdullahdır (s). O, qırx yaşında peyğəmbərliyə yüksəlmişdir. Tarixin şahidliyinə görə o, bütün ömrü boyu bir an da bütə pərəstiş etməmiş və Allaha şərik qoşmamışdır.

O, həmişə, xüsusilə peyğəmbərlik məqamına yetməzdən qabaqkı illərdə Həra dağının (Həra mağarasının) ayrıca bir yerində Tanrıya dua və pərəstiş edərdi.

O, Tanrı tərəfindən elə tarixi dövrdə hökm və göstəriş aldı, elə bir zamanda adamları Tanrı qanunları ilə idarə etmək tapşırığı ilə çıxış etdi ki, bəşər cəmiyyəti hərc-mərclik, müharibə və qanlı səhnələrin şahidi idi. Beyinlərdə xurafat və puç əfsanələr hökm edirdi.

O, öz peyğəmbərlik məqamını elan etdi, bunun sübutu üçün çoxlu möcüzələr və şahidlər gətirdi.

Onun möcüzələri içərisində birisi olduqca canlı, gözəçarpan və möhkəm idi. Bu məsələ indi də Muhəmmədin peyğəmbərliyinə şahid olacaq dərəcədə öz gücünü və təsirini saxlayır.

Bu canlı sənəd və əbədi möcüzə Qurani-məciddir ki, indi də parlaq bir günəş kimi cəmiyyətdə nur saçır, onun davamçılarının qəlbini işıqlandırır.

Quran indi də uca səslə belə söyləyir:

«Məni gətirən adi insan deyil, mən sadə insan fikrinin qurub yaratdığı söz toplusu da deyiləm. Məni gətirən üstün və fəzilət sahibi bir insandır ki, qeyb aləmi ilə və bu dünyanın yaradanı ilə əlaqəsi vardır. Allah onu bəşəri düz yola hidayət etmək üçün göndərmişdir".

**İslam peyğəmbəri belə deyirdi:**

"Ey camaat! Mən Allah tərəfindən peyğəmbərliyə seçilmişəm, bu Quran mənim peyğəmbərliyim üçün canlı sənəd və şahiddir. Əgər mənim dediklərimə şəkk edirsinizsə, hamınız bir yerə toplaşın, bir - birinizə kömək və yardım edin, bu Quranın surələrinə bənzər bir surə gətirin. Əgər bu işdə uğur qazansanız və mənimlə bərabər olsanız, o zaman mənim peyğəmbərliyimi qəbul etməyə bilərsiniz. Ancaq əgər müvəffəq olmasanız, (və yəqin ki, heç vaxt olmayacaqsınız) onda bilin ki, mən Tanrı ilə Tanrının xalqı arasında vasitəyəm. Onun peyğəmbəri və elçisiyəm ki, sizi xoşbəxtlik və kamal yoluna hidayət edəm".

O zaman bütün söz ustaları, yazıçı və şairlər, xüsusilə fəsahət və bəlağət sahəsində mahir olanlar nəinki Quranda olduğu kimi bir ayə yarada bilmədilər, əksinə hamısı öz acizliyini etiraf etdi. O zamandan bu günə kimi islamın düşmənləri islama qarşı zidd olan bütün vasitələrdən istifadə etdilər, lakin müsəlmanların müqəddəs kitabı olan Quranla mübarizə apara bilmədilər, Qurana bənzər bir ayə də yarada bilmədilər.

## QURAN ƏBƏDİ MÖCÜZƏDİR!

Quran təkcə fəsahət və bəlağət, ifadə gözəlliyi, ibarə və tərkiblərin şirinliyi, cümlələrin yığcam və mənalı olması, cazibədarlıq, ruhi cəzbetmə qüvvəsi baxımından möcüzəli sayılmır, bu müqəddəs kitab bir çox cəhətdən də möcüzəli hesab edilir. Onlardan bəzilərini xülasə şəklində qeyd edək.

Bütün tarix yazarlar belə bir məsələdə eyni fikirdədirlər ki, islamın hörmətli peyğəmbəri (s) "ümmi"- yəni dərs oxumamış və təhsil almamış bir şəxs idi. Qırx yaşında peyğəmbərliyə yetişmişdi. Bu vaxta qədər heç kəsin yanında dərs oxumayıb. Bununla belə islam peyğəmbəri Quranda keçmiş peyğəmbərlərdən böyük bir qisminin həyatını nəql etmişdir. Əlbəttə başqalarının sərgüzəştini bəyan etmək təklikdə möcüzə deyil. Bu əhvalatlar yəhudilərin və xaçpərəstlərin kitablarında (əhdi-qədim və əhdi-cədid) da verilmişdir. Biz Quranın bu hissəsini (yəni peyğəmbərlərin əhvalatını) əhdi-qədim və əhdi-cədid (Tövrat və Zəbur) ilə müqayisə edə bilərik. Bu yol ilə də Quranın səmavi kitab olduğunu başa düşərik. Çünki biz yəhudi və xaçpərəstlərin əhdi-qədim və əhdi-cədid kitablarının indiki variantına müraciət etsək, görərik ki, bunları yazanlar o qədər nadan olublar ki, tarixin ən görkəmli insanları və pak müəllimləri olan peyğəmbərlərin tarixini ibrətamiz bir tərzdə bəyan etməmişlər, bəlkə onlara böhtanlar yazmışlar.

Quran ən böyük ədalət məktəbidir, ictimai ədalətin qaynağıdır. Quran xalq arasında sərvəti elə ədalətli bir şəkildə bölür ki, əgər bu göstəriş və qanunlar həyata keçirilərsə, onda yer üzərində insanlar arasında aclıq və yoxsulluğun kökü kəsiləcəkdir.

Quran cəmiyyətin asayişinin bərqərar olması üçün möhkəm cəza qanunları gətirmişdir ki, bu qanunlar insanların rifah və asayişini təzmin edir. İslamın hərbi qanunu, ordu quruluşu və müharibə proqramı o dərəcədə mütərəqqidir ki, hətta düşmənin hüquq və namusu da nəzərdən qaçmamışdır.

Nəhayət islam hüququ o qədər genişdir ki, bəşər həyatını onun dünyaya qədəm qoyduğu gündən torpağa tapşırılan günədək hərtərəfli və insani proqramlar əhatəsinə alır, hər şey üçün - cüzi məsələ olsa da müəyyən hökm nəzərdə tutur.

Bir nəfər dərs oxumamış adam qeyb aləmindən kömək almadan və Tanrı ilə ünsiyyət saxlamadan belə bir ağıllı və parlaq qanunları verə bilərmi?

İslamın üstünlüyü və Quranın möcüzə olması təkcə bu deyilən söhbətlərdə xülasə olunmur. Bu mənada bir sıra başqa amillər də vardır ki, bizə mühüm bir məsələni anladır.

Quranı gətirən şəxs ilahi bir rəhbər, başçı və müəllimdir, onun proqram və qanunları da ilahi qanunlardır.

İmam Rza (ə) buyurur:

Cəddim Həzrət Sadiqdən (ə) soruşdular:

- Nə üçün Quran nə qədər çox yayılarsa da, qulaq onun qiraətinə nə qədər tanış olub öyrəşsə də, onu nə qədər oxuyub təlim etsələr də köhnəlmir? Bəlkə əksinə, günbəgün onun təravəti və təzəliyi artır.

İmam Sadiq (ə) belə cavab verdi:

- Bu ona görə belədir ki, Quran xüsusi zaman üçün və ayrıca adamlar üçün nazil olmamışdır. Ona görə də bütün zamanlarda yeni və təzədir.

Bəli, əgər Quranı öz həyat proqramımız kimi götürsək, şübhəsiz bizim səadət və kamal məqamına yetməyimiz təzmin olunacaqdır. Necə ki, islamın əvvəl çağında müsəlmanlar Quran işığında qısa müddət ərzində izzət və əzəmətə yetişdi, biz də yenə öz itirilmiş əzəmət və şövkətimizi bərqərar edəcəyik.

Lakin təəssüflər olsun ki, müsəlmanlar Quranı unutmuşlar, ona görə də islam dünyası müşahidə etdiyimiz bir vəziyyətə düşmüşdür.

# İMAMƏT

Dinin əsas etiqadlarının dördüncüsü imamətdir.

İmamət nədir? İmamət - yəni xalqın dini və dünyəvi işlərinin idarə olunması və rəhbərliyinin islam peyğəmbəri Muhəmməd ibn Əbdullahın (s) canişininə tapşırılması.

İmamın olması peyğəmbərdən sonrakı dövr üçün iki cəhətdən zəruridir:

**1** - Danışığı və fərmanı nüfuzlu olmayan bir rəhbər olmadan ictimai həyatın uğurlu olması mümkün deyildir. Nə qədər ki, peyğəmbər sağ idi, müsəlmanların hakimiyyət və rəhbərlik məsələləri onun əli ilə idarə olunurdu. Diqqət yetirmək lazımdır ki, peyğəmbər göylərin səfiri və nümayəndəsi idi, bundan əlavə o, eyni zamanda müsəlmanların hakim və hökmdarı idi.

Bu cəhətdən peyğəmbərin vəfatından sonra müsəlmanların rəhbərlik və hökumət məsələləri hərəkətdən qalmamaq üçün onun canişini bu məqamı ələ almalı, peyğəmbərin hədəflərini bütün dünyada olan tövhid qanunlarına əsasən həyata keçirməli, xalqı isə istənilən kamal dərəcəsinə çatdırmalı idi. Əgər belə olmasaydı, Rəsuli-Əkrəmin (s) zəhmətləri aradan gedərdi və müsəlmanlar təkamül karvanından geri qalardı. Doğrudan da bir zamanlar tədbirli və uzaqgörən başçıların olmaması ucbatından islam dünyası çox şey itirmişdir.

Peyğəmbər (s) təkcə müsəlmanların hakim və başçısı deyildi, o, həmçinin ilahi səfir idi ki, həqiqətləri xalq üçün açıqlayırdı.

İslam peyğəmbərinin vəfatından sonra həqiqətləri öyrətmək və dini-məzhəbi məfhumları izah etmək üçün, islam peyğəmbərinin izah etmədikləri dini hökmləri xalqa çatdırmaq üçün bir şəxs olmazsa, yəni xalq arasında bu böyük vəzifələri həyata keçirən bir başçı rəhbər olmasa, islam dünyasına xələl yetişər, böyük çətinliklər qarşıya çıxar. Bu cəhətdən lazımdır ki, peyğəmbərin canişini hesab edilən imam işləri öz öhdəsinə götürsün. Beləliklə də xalqın dini və əqidə baxımından olan problemləri həll edilmiş olsun.

Bəzən belə söylənilir ki, peyğəmbər islam qayda-qanunlarını kamil şəkildə xalqa bəyan etmişdir. Bu o deməkdir ki, o, islam ayinlərini ümumi və külli halda, bütöv bir sistem kimi tam şəkildə xalqa çatdırmışdır. Ancaq eyni zamanda bütün bu ümumi məsələləri izah etmək və çətinlikləri aradan qaldırmaq üçün Quranın ali həqiqətlərini camaata öyrətmək üçün öz məlumat səviyyəsinə görə peyğəmbərin(s) səviyyəsinə uyğun böyük bir müəllimin varlığına mütləq və zəruri bir ehtiyac vardır.

İmam Sadiqin (ə) şagirdlərindən biri ilə bir nəfər sünni alimi arasında peyğəmbərdən sonra imam və rəhbərin zəruri olması haqqında gedən söhbət və mübahisəyə fikir verək. Bu söhbətdə bir sıra mühüm cəhətlər açıqlanmışdır.

İmam Sadiqin (ə) cavan və görkəmli şagirdlərindən olan Hişam belə söyləyir:

Cümə günü Bəsrə şəhərinə daxil oldum, məscidə getdim. Əmr ibn Übeyd Mötəzili məsciddə oturmuşdu, böyük bir dəstə də onun ətrafında həlqə vurmuşdu. Ona müxtəlif suallar verirdilər. Mən də məclisin bir tərəfində onların arasında oturdum. Hər bir kəs bir söz soruşurdu. Mən də Əmrə üz tutub dedim:

- Ey alim şəxs! Mən bu şəhərin adamlarından deyiləm. İcazə versəz sizdən bir sual edim?

Əmr dedi:

- Ürəyin nə istəyirsə soruş.

Dedim:

- Sizin gözünüz varmı?

Dedi:

- Məgər görmürsənmi mənim gözüm var, daha niyə bunu soruşursan? Dedim:
- Mənim suallarım bu növdür.

Dedi:

Soruş, doğrudur ki, sualların faydasızdır.

Dedim:

- Sizin gözünüz varmı?
- Bəli, var.
- Gözlə nə edirsiniz?
- Onunla görməli şeyləri görürəm, onların rəngini, növünü və s. təyin edirəm.
- Diliniz də varmı?
- Bəli, var.
- Onunla nə iş görürsünüz?

- Onunla yeməyin dadını və ləzzətini bilirəm.
- Qoxu və iybilmə hissiniz varmı?
- Bəli, var.
- Onunla nə edirsiniz?
- Onunla qoxuları duyuram.
- Sizin bunlardan başqa qəlbiniz (və ağlınız) da vardırmı?
- Bəli, var.
- Onunla nə edirsiniz?
- Əgər mənim başqa bədən üzvlərim və duyğularım şəkk və tərəddüd edərsə, qəlbim şəkk və şübhəni aradan qaldırar. Çünki aydındır ki, bəzi hallarda insanın beş hiss duyğusu səhvə yol verir, onların səhvlərini aradan qaldırmaq üçün ağıl və qəlb məhkəməsinə müraciət edirik, bununla da onların səhvlərini aşkar edirik.

Hişam deyir:

- Elə ki, Əmr ibn Übeyd bu cümləni dedi, mən də onun söylədiklərini təsdiq etdim və dedim:
- Bəli, Allah insanın üzvlərinin və beş duyğu orqanlarının fəaliyyətini istiqamətləndirmək üçün eyni zamanda onların xəta və səhvlərini aradan qaldırmaq məqsədilə qəlbi yaratmışdır. Ey alim! Belə söyləsək düzgün olarmı: Tanrı insanın gözünü, qulağını və başqa üzvlərini yol göstərənsiz yaratmamışdır. Mehriban Tanrı Rəsuli-Əkrəmdən (s) sonra müsəlmanları rəhbərsiz və yol göstərənsiz qoymuşdursa, nəticədə insanlar şəkk, şübhə, tərəddüd və ixtilaf içində qalmazmı və yoldan çıxmağa, məhv olmağa yuvarlanmazmı?

Bir düşünmək gərəkdir: hansı sağlam fikir və düşüncə bu mətləbi qəbul edər?!

Hişam daha sonra deyir:

«O zaman bu sayaq sadə suallardan belə bir böyük nəticə ortaya qoydum. Əmr ibn Übeyd başa düşdü ki, mən şiəyəm və İmam Sadiqin(ə) şagirdlərindənəm. Bu səbəbdən sakit oldu, mənə başqa cavab verə bilmədi. Təkcə xoşagəlimli ümumi sözləri deməklə mübahisəni və söhbəti bitirdi».

Hişam bu mübahisə və söhbətdən belə nəticə çıxarmaq istəyir:

Allah-təala peyğəmbərdən sonra onun canişini olaraq mütləq rəhbər və başçılar təyin etmişdir ki, bir-birinin ardınca müsəlmanların rəhbəri və başçısı olsun.

Bəli, islamın adlı-sanlı filosofu Əbu Əli Sinanın dediklərinə diqqət yetirək:

«Allah-təala hikmətlidir, insan üçün onun ən kiçicik və zəruri ehtiyacını ödəmək üçün kiprik və qaş yaratmışdır. Belə olduğu təqdirdə ağıl və məntiqə uyarlı olarmı ki, bu qədər mehriban olan Tanrı insanın ən böyük ehtiyacını - yəni ona yol göstərən təyin etməyi unutsun və bundan qafil olsun, insanı başçısız, rəhbərsiz, tərbiyəçisiz və müəllimsiz qoysun, xalqı başlı-başına buraxsın».

# İMAMƏT (2)

Müsəlmanların imam və başçısı, Rəsuli-əkrəmin (s) canişini kimi xalqın dini və dünyəvi işlərinin idarə olunmasını öz öhdəsinə götürmək istərkən gərək bir sıra imtiyazlara malik olsun.

Günah, xəta və səhvdən uzaq olsun ki, ictimaiyyəti səadətə doğru yönəldə bilsin və xalqa rəhbərlik etməyə haqqı olsun. Çünki özü təmiz olmayan şəxs xalqı doğru yola yönəldə bilməz.

İmam gərək qeyb aləmi ilə təmas və ünsiyyətdə olsun, tükənməz ilahi elmdən faydalana bilsin. Deməli, belə olduqda, o, islam maarifinin həqiqətlərini və hökmlərini olduğu kimi müsəlmanlara çatdıra bilər. Çünki əgər o da başqa adamlar kimi güman və zənn əsasında fikir söyləsə və adi bəşəri elmlərdən istifadə etsə, onun dedikləri xatircəmlik yaratmayacaq, xalq islam maarifinin həqiqətlərinə yetişməyəcək.

İmam Tanrı tərəfindən Rəsuli-əkrəm (s) vasitəsilə və ya ondan qabaqkı imam vasitəsilə təyin olunmalıdır. Çünki Tanrıdan və peyğəmbərdən savayı heç kəs bir şəxsin məsum olması barəsində hökm verə bilməz.

Buna görə də imamın seçilməsini ümumi xalqın öhdəsinə buraxmaq düzgün deyil, çünki camaat çox zaman müəyyən şəxsləri pak və məsum hesab edir, ancaq həqiqətdə onlar pak deyillər. Camaat bugünkü zahiri vəziyyətə görə bir şəxsin paklığını görüb təsdiq edir, lakin gələcəkdə onların xətaya düçar olacağından xəbərdar deyillər.

Yalnız və yalnız Allahdır ki, indidən və gələcəkdən, zahir və batindən xəbərdardır. O bilir ki, hansı şəxsiyyəti Rəsuli-əkrəmdən(s) sonra xalqa rəhbərlik və cəmiyyətə imamlıq etməyə təyin etmək olar.

Qurani-məcid belə buyurur:

**"Allah daha yaxşı bilir ki, xalqın dini və dünyəvi rəhbərliyini və risalət işini kimin öhdəsinə tapşırsın".**

Kim peyğəmbərin(s) canişini kimi təyin edilmişdir?

İslam peyğəmbəri Muhəmməd(s) Allahın fərmanı ilə bütün vəsiləri və canişinlərini xalqa bəlli etmişdir, onların adını bir-bir çəkmişdir, onların imamət hüququnu müəyyən etmişdir. Xüsusilə Əmirəl-möminin Əlinin(ə) canişinlik məqamını dəfələrlə xalqa xatırlatmışdır. Tarix kitablarına, hədis toplularına müraciət etməklə məlum olur ki, o Həzrət iyirmi üç illik peyğəmbərlik və risalət dövründə hər qarşıya çıxan münasib zamanda Əlinin(ə) canişinlik məsələsini irəli sürmüş və söyləmişdir. Burada iki məqama diqqət yetirməklə kifayətlənirik. Bunlardan biri Rəsuli-əkrəmin (ə) besətinin ilk çağına, o birisi isə o Həzrətin ömrünün son dövrünə təsadüf edir.

**1. Nübuvvət və imamət bölünməz tamdır.**

Təqribən Rəsuli-əkrəmin(s) peyğəmbərlik məqamına yetişməsindən üç il keçmişdi ki, bu ayə nazil oldu:

**"Öz yaxın qohumlarını ilahi əzabından qorxut, onları Allaha pərəstişə dəvət et".**

Təfsirçilər bu ayənin təfsiri barəsində belə yazırlar:

Allah-təala Rəsuli-əkrəmə (s) fərman verdi ki, öz yaxın qohumlarını bir olan Allaha pərəstişə dəvət etsin. Həmin gün peyğəmbər (s) yaşı on beşdən artıq olmayan Əliyə (ə) göstəriş verdi ki, yemək hazırlasın. Sonra Əbdülmüttəlibin 40-a qədər övladını dəvət etdi ki, öz risalətini onlara bildirsin. O gün yeməkdən sonra peyğəmbərin əmisi Əbu Ləhəb öz əsassız və boş sözləri ilə məclisi dağıtdı.

Rəsuli-əkrəm (s) ikinci dəfə məclis təşkil etdi. Yeməkdən sonra öz dəvətini elan etdi və söylədi:

"Mən Allah tərəfindən peyğəmbərliyə seçilmiş və yüksəlmişəm. Dünya və axirətin xeyrini sizin üçün gətirmişəm. Allah-təala mənə əmr etmişdir ki, sizi Onun tərəfinə çağırım".

Sonra Rəsuli-əkrəm (s) elə həmin məclisdə belə söylədi:

"İndi sizlərdən kim hazırdır ki, mənim arxamda dursun və tərəfimi saxlasın? O adam mənim qardaşım, vəsim və canişinim olsun!".

Əli (ə) dərhal ayağa qalxdı və hazır olduğunu bildirdi. Rəsuli-əkrəm (s) ona üz tutub buyurdu:

- Otur.

O öz sözünü üç dəfə təkrar etdi. Hər üç dəfədə Əlidən (ə) başqa kimsə cavab vermədi.

Bu anda peyğəmbər Həzrətləri orada olanlara üz tutub belə söylədi:

«Bu cavan (Əli) sizin aranızda mənim qardaşım, vəsim və canişinimdir. Onun ardınca gedin və onun sözlərinə qulaq asın».

Bu hadisə sünni və şiə tarixində təsdiq olunub və onda heç bir şəkk-şübhə yoxdur. Həmin məsələ bir daha sübut edir ki, imamət və peyğəmbərlik məsələsi bir-birindən ayrılmazdır. Allahın peyğəmbəri xalqa təqdim və elan edildiyi kimi, ondan sonra həmin gün xalqın imam və başçısı da elan edilir.

Əslində bilməliyik ki, nübuvvət və imamətin özülünü eyni şey təşkil edir. Bu iki məqam zəncir həlqələri kimi bir-birinə bağlıdır. İmamət bir növ risalət proqramının ardı və davamıdır. İmam və canişin peyğəmbərin getdiyi yolu, yerinə yetirdiyi işləri edir. Bircə məsələ var ki, peyğəmbər dinin əsas və bünövrəsini qoyan, imam isə onu bəyan edəndir.

**2. Ğədir hədisi**

Peyğəmbəri-əkrəm(s) ömrünün son ilində Tanrı evində olan həcc ziyarətindən qayıdan zaman Ğədir Xum adlı bir yerdə dayandı. Bu yerdə müsafirlərin yolları bir-birindən ayrılırdı. Hamının onu görə biləcəyi hündür bir yerdə dayandı. Sonra Əlinin(ə) canişinlik məsələsini yüz min nəfərə yaxın toplaşan adamlara elan etdi. Əlinin(ə) əlini yuxarı qaldırdı. Camaat hamısı bu vəziyyəti görürdü. Peyğəmbər dedi:

«Ey camaat! Mən sizin vəliniz və ixtiyar sahibi olduğum, sizin canınıza və malınıza hakim olduğum kimi, Əli də sizin mövlanız və vəlinizdir. Mən hər kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".

Beləliklə, bütün camaat üçün bir daha məlum oldu ki, Əli(ə) Rəsuli-əkrəmin (s) birbaşa canişinidir. Həmin gün camaat bu ali məqama görə Əliyə(ə) təbrik sözləri dedilər.

Hətta həmin gün Ömər Əliyə(ə) belə söylədi:

"Bəh-bəh. Sən mənim mövlam və bütün müsəlmanların mövlası oldun!"

Bəli, islam peyğəmbəri Əmirəl-mömininin canişinlik məsələsini öz ölümündən iki ay yarım qabaq neçənci dəfə olaraq təkrar-təkrar elan etdi ki, camaat bunu bilsin. Yəni camaat bilsin ki, o Həzrətin vəfatından sonra müsəlmanların rəhbəri və başçısı kimdir.

**3. Səqəleyn hədisi.**

Rəsuli-əkrəm(s) ömrünün son günlərində yenə də camaata belə söylədi:

"Ey camaat! Mən sizin aranızdan gedirəm, sizin üçün iki ağır, qiymətli şey qoyuram: Quran və itrətim (Əhli-beytim). Bu iki amildən yapışsanız və bu iki yadigarımın ardınca getsəniz, yoldan azmazsınız".

**4. Cabirin hədisi.**

Cabir ibn Əbdullah Ənsari belə söyləyir: «İşlərin valisi (hökmdarı) haqqında ayə nazil olarkən Allahın Rəsulu Muhəmmədə (s) dedim:

- Ya Rəsuləllah! Biz Allahı və onun Rəsulunu tanımışıq. Vacibdir ki, bu ayədə itaəti bizim üçün vacib buyurulan işlərin valisini də tanıyaq. İşlərin valisi dedikdə kim nəzərdə tutulur. Bunu bizə izah edin.

Rəsuli-əkrəm (s) buyurdu:

- Ey Cabir! Onlar mənim canişinlərim və məndən sonra gələn imamlardır. Onların birincisi Əli ibn Əbu Talibidir. Sonra bu sıra ilə gəlir:

**Həsən ibn Əli**
**Hüseyn ibn Əli**
**Əli ibn Hüseyn**
**Muhəmməd ibn Əli**

Bu ad Tövratda Baqir adı ilə məşhurdur, sən onun zamanını qocalıqda dərk edəcəksən, onu hər vaxt görsən, mənim salamımı yetir.

Muhəmməd ibn Əlidən sonra qalanları bu ardıcıllıqla gəlir:

**Cəfər ibn Muhəmməd**
**Musa ibn Cəfər**
**Əli ibn Musa**
**Muhəmməd ibn Əli**
**Əli ibn Muhəmməd**
**Həsən ibn Əli**

Ondan sonra onun övladı gəlir, onun adı və künyəsi mənim adım və künyəm ilə birdir.

O elə bir şəxsiyyətdir ki, Allah-təala onu bütün dünyaya üstün və hakim təyin etmişdir. Xalqın nəzərindən qeyb olub gizli qalan odur. Onun qeyb olması və gizli qalması çox uzun bir müddət çəkəcəkdir. O zamanadək ki, imanı möhkəm və əzmlə olan, onun imamlığına əqidəsi olanlar qalacaqdır.

Əlbəttə Rəsuli-əkrəmin (s) canişinlərinin adları yazılan hədislər çoxdur, biz yuxarıdakı hekayəti nümunə üçün nəql etdik.

Əvvəlki dərslərdə oxuduğumuz kimi, imam məsum olmalı və qeyb aləmi ilə sıx bağlı olmalıdır. Peyğəmbərimiz Rəsuli-əkrəmdən(s) sonra, on iki imamdan başqa heç kəsin barəsində məsumluq haqqında iddia edən olmamışdır, eyni zamanda, heç kəs bu on iki nəfər kimi elm və maarif mövzularını bəyan edə bilməmişdir.

Bu mövzunu isbat etmək üçün bir şey kifayət edər:

Əlinin(ə) "Nəhcül-bəlağə" kitabını və ya başqa imamların söhbətlərini mütaliə edin.

## İMAM DİNİN MÜHAFİZƏÇİSİDİR

İmam, heç bir vaxt yeni din və şəriət yaratmır. Həqiqətdə, onun vəzifəsi islam peyğəmbərinin (s) şəriətini olduğu kimi qoruyub saxlamaq, onu təbliğ və təlim etməkdir. İmam (ə) insanları Muhəmməd peyğəmbərin (s) dininə doğru çağıraraq, onları bu müqəddəs dinlə yaxından tanış edir.

**İmam ən elmli şəxsdir.**

İmam dinin bütün əsaslarını, hökmlərini, Quranın məna və şərhini olduğu kimi bilməli və anlamalıdır. Deməli, imam Allah tərəfindən ona bəxş olunan elmə və peyğəmbərin (s) vasitəsilə öyrəndiyi təlimlərə əsasən ən elmli bir şəxs olmalıdır. Bəli, yalnız belə bir elmin sahibi insanların etimadını qazanaraq, islamın həqiqətini anlatmaqda ən gözəl yardımçı və rəhbər ola bilər.

## ƏLİ (ə) SƏHABƏLƏRİN ƏN FƏZİLƏTLİSİ İDİ

Həzrət Əli (ə) səhabələrin ən üstünü və ən fəzilətlisi idi. O, İslam peyğəmbərindən sonra İslam ümmətinin birinci şəxsiyyətidir. Amma bununla belə, onun barəsində həddindən artıq olan bəzi xurafatlar boş, əsassız və haramdır. Həzrət Əliyə (ə) Allahlıq nisbəti verən, onu Allaha oxşar sayan hər bir şəxs kafirdir və müsəlmanların cərgəsindən xaric olmuşdur. Biz belə şəxslərin küfrlə dolu

etiqadlarından uzağıq. Təəssüflər olsun ki, bu şəxslərin küfrlə dolu etiqadları bəzən "şiə" adı ilə qarışıq düşərək, səhv anlayış bağışlayır. Şiələrin pak etiqadlarının "ğüluvv" (Əliallahi) edən şəxslərin etiqadı ilə səhv salınması bəzən bir çox xoşagəlməz hallara səbəb olur. Bir halda ki, bütün şiə alimləri öz kitablarında belə şəxslərin (Əliallahi) müsəlman olmadığını, İslamdan xaric olduğunu dəfələrlə bəyan etmişlər.

## BİZİM ZƏMANƏ İMAMIMIZ

Dünyaya bir islahatçı ruhani şəxsiyyətin gəlişi, onun bu dünyanın çöhrəsini dəyişdirəcəyi, zülm və sitəm dolu bir dünyada ədalət və insaf aləmi yaradacağı məsələsi bütün səmavi kitablarda və dini əqidələrdə vardır. İslam Peyğəmbəri (s) şiə və sünni rəvayətlərinin bir çoxunun təsdiq etdiyi kimi belə buyurmuşdur:

«Dünya zülm və sitəmlə dolu olan bir dövrdə (bəşər cəmiyyəti vəhşi bir icmaya çevrilən zaman) mənim on birinci övladım zühur edəcəkdir. Onun adı və künyəsi mənimlə eynidir, yəni Muhəmməd Əbülqasimdir. Onun zühur etməsilə bütün bədbəxtliklərə son qoyulacaq və islam öz həqiqi mənasında bütün dünyada yayılacaqdır.

On ikinci imam Həzrət Mehdinin xüsusiyyətləri sünni və şiə rəvayətlərində nəql edilmişdir, onlardan bir qismini burada veririk.

O Həzrət Peyğəmbərin, Əlinin, Fatimənin və Hüseynin övladıdır. İmam Hüseynin doqquzuncu övladı, İmam Sadiqin altıncı övladı, İmam Rzanın dördüncü övladı olmaqla, İmam Həsən Əskərinin birbaşa övladıdır;

Onun iki qeybəti (qeyb olması) vardır ki, bunlardan birinin müddəti qısa, o birinin müddəti uzun olacaqdır;

İkinci qeybətin müddəti o qədər uzun çəkəcək ki, imanı möhkəm olmayan adamlar yavaş-yavaş tərəddüd və şəkk-şübhədə olacaqlar;

O Həzrətin ömrü uzun olacaqdır;

Zühur edəndə dünya ədalət və insafla dolacaq, bütün dünyada ilahi bir hökumət bərqərar olacaqdır.

Bu xüsusiyyətlər, yüzlərlə sünni və şiə rəvayətlərində verilən başqa cəhətlər ona görə nəql olunur ki, camaat özünü yalandan Mehdi kimi qələmə verən adamları tanısın, onlara aldanmasın və düz yoldan çıxmasın.

On ikinci imam Həzrət Mehdi (ə) hicri qəməri iki yüz əlli beş və ya əlli altıncı ildə Samirrə şəhərində dünyaya gəldi. O Həzrətin atası dünyadan gedən ilədək, yəni hicri yüz altmışıncı ilə kimi çox adamlar o Həzrəti İmam Həsən Əskərinin (ə) evində uşaq çağında görmüşdülər. Onda imamlıq, böyüklük və əzəmət nişanələri hamıya bəlli idi və İmam Həsən Əskəri (ə) özü də vəziyyətin imkan verdiyi kimi Həzrət Mehdinin (ə) imamlığını camaata xatırlatmışdı.

O Həzrətin atası dünyadan köçən ildən sonra Həzrət Mehdi xalqın nəzərindən qeyb oldu. Abbasi xəlifələri onu öldürmək məqsədi daşıyırdılar və bütün mənada niyyətləri bu idi ki, onu ələ keçirsinlər. Kiçik (səqir) qeybət adlanan təqribən 70 il müddətində şiələrin o Həzrətlə əlaqəsi kəsilməmişdi. Çünki bu müddətdə o Həzrət dörd nəfəri bir-birinin ardınca özünə nayib təyin etmişdi ki, camaat onlara müraciət etsin, onların vasitəsilə öz dini ehtiyaclarını və elmi tələblərini imama çatdırsınlar və eyni zamanda imamdan cavab alsınlar. Lakin hicri üç yüz iyirmi doqquzuncu ildə o Həzrətin dördüncü nayibi dünyadan getdi və bu tarixdən etibarən böyük qeybətin (qeybəti-kübra) dövrü başlandı. O Həzrət özü üçün bir daha nayib təyin etmədi. Camaat dini maarif və ehkamlar sahəsində göstəriş almaq üçün böyük din alimləri və fəqihlərə müraciət etməli oldular.

İndi böyük qeybətdən min ildən çox vaxt keçmişdir və şiələr o ədalət və haqq məzhərinin gəlişini gözləyirlər ki, gəlib müsəlmanların bədbəxtliklərinə son qoysun, onlara həqiqi islama və səadətə yetişmək yolunda rəhbərlik etsin.

Əlbəttə, İmam Zamanın gəlişini gözləmək o mənada deyildir ki, bütün müsəlmanlar əlini əlinin üstünə qoyub islam hədəflərini irəli aparmaq yolunda heç bir tədbir görməli deyillər, təkcə o Həzrətin gəlişini gözləməlidirlər. Əvvəllər də böyük alimlərin qədim vaxtlarda dediyi kimi, bütün müsəlmanların vəzifəsi budur ki, hər bir şəraitdə islam maarifi və ehkamının bərqərar olması və genişlənməsi yolunda çalışsınlar. Zülm, sitəm və günah müqabilində dözüm və səbat göstərsinlər, bütün imkanları ilə mübarizə aparsınlar.

Başqa ifadə ilə desək, çalışmaq lazımdır ki, ədalət və insaf hökuməti üçün zəmin yaradılsın, yəni cəmiyyəti bu tərzdə tərbiyə etmək lazımdır. Əgər cəmiyyətdə zülm və cəfa hökm edərsə, hamı ona etiraz etməlidir. Xülasə, hər bir müsəlmanın vəzifəsi budur ki, islam və iman yolunda fədakarlıq etsin,

həmişə Mehdinin (ə) gəlişini qarşılamağa hazır olsun - yəni öz həyatını elə tərzdə təmin etsin ki, o Həzrətin qoyduğu qanunlara uyğun olsun və o Həzrətlə bir sırada qədəm qoya bilsin.

Əvvəlcə qeyd olunduğu kimi, Həzrət İmam Zaman (ə) hicri iki yüz altmışıncı ildən indiyədək qeyb olmuş və o Həzrətin zühuru heç kəs üçün məlum deyil. Əgər bir nəfər o Həzrətin zühuru üçün tarix təyin edərsə, bizim borcumuzdur ki, onu təkzib edək və dediklərini qəbul etməyək.

Bəli, o gün ki, zülm və cövr ən yüksək dərəcəsinə çatacaq, o gün ki, camaat zülm və sitəmdən yorulacaq və hamı həqiqi ədalətin bərqərar olmasını istəyəcək, yəni düşüncə tərzi dəyişəcək, o gün ki, Tanrı xalqın məsləhətinə uyğun on ikinci imamın zühurunu zəruri biləcək, onda o Həzrət zühur edəcək, dünya bir mədəniyyət mərkəzinə və cənnətli gülüstana çevriləcəkdir.

## QEYBƏT ZAMANI XALQIN VƏZİFƏSİ

İmam Zamanın (ə) özündən nəql edildiyi kimi, camaatın qeybət dövründə vəzifəsi budur ki, dini işlərdə, şəriət ehkamlarının icrasında və ictimai vəzifələrinin ifasında alimlərə və təqlid qaynağı sayılan rütbəli müctəhidlərə müraciət etsinlər, həyatın bütün sahələrində onların göstərişlərinə uyğun əməl etsinlər.

Aydındır ki, böyük alimlər və möhtərəm müctəhidlər özlərindən heç bir fitva vermirlər, onlar Quran, peyğəmbər və pak imamların kəlamlarından istifadə etməklə xalqa hökmlər verirlər. Hətta onlara müraciət etmək peyğəmbərə, imama və Qur'ana müraciət etmək deməkdir. Onlarla müxalifətdə olmaq isə Quran və İmam Zamanla müxalifət etməkdir.

## İNSANIN MİN İL VƏ DAHA ÇOX YAŞAMASI MÜMKÜNDÜRMÜ?

Alimlər və araşdırıcılar söyləyirlər ki, ömür uzunluğu ölümün əsas səbəbi deyil, əsl səbəb bədənin bütün üzvlərində və ya onlardan bir qismində baş verən pozuntulardır. Belə olmasa, ölüm də tez baş verməz. Bu pozuntular qocalıqdan qabaq və təbii ömür prosesində baş verərsə, cavan adam da ölər, belə olmasa ölüm ancaq qocalıqda insanı yaxalayardı.

Buna görə də bir adam özünü həmin pozuntulardan qoruya bilərsə, uzun ömür surər və ölümün vaxtını uzada bilər.

Qəzet və jurnallarda oxuduğumuz kimi, alimlər elə bir ixtira etmək istəyirlər ki, onun köməyi ilə bədənin uzun ömür sürməsi üçün onun qabiliyyətini artırsınlar. Deməli, bəşərin daha uzun ömür sürmək qabiliyyəti vardır, amma gərək o, ölümü tezləşdirən amillərin qarşısını alsın.

Bu hesabla əgər bir nəfərin güclü və sağlam beyni, ürəyi, əsəbləri, böyrək, ciyər və mədəsi varsa, bütün sağlamlıq qaydalarını bilib onlara riayət edərsə, yemək və içməyin xüsusiyyətlərini bilməklə onlardan lazımınca faydalanarsa, heç bir maneəsiz adi adamların yaşadığı ömürdən bir neçə qat çox yaşaya bilər və bəlkə də min il ömür sürər.

Əlbəttə, indiki şəraitdə hər bir adam bunu edə bilməz, ancaq belə bir fərdin olması (məsələn, imam kimi) zəruri olarsa - Tanrı onun yaradılış quruluşunu və gerçəklikdən faydalanma yolunu elə şəkildə tənzimləyər ki, müəyyən dərəcədə uzun ömür yaşaya bilsin. Biz əqli və nəqli dəlillərlə sübut etdik ki, İmam Zamanın (ə) varlığı dünyaya zəruridir, eyni zamanda bəşər üçün uzun ömür də mümkündür, gərək onun şərtlərinə riayət edilsin. Allah-təala istədiyi şəxs üçün uzun ömür imkanı verə bilər. Deməli, Allah-təala İmam Zaman (ə) üçün də uzun bir ömür təyin edə bilər.

Şiə əqidəsinə görə, on ikinci imam hicri iki yüz əlli beş və ya iki yüz əlli altıncı ildə dünyaya gəlmiş, indiyədək və bundan sonrakı bir müddətə kimi Tanrının istədiyi qədər diri qalacaqdır. Bu məsələdə heç bir elmi və təbii uyğunsuzluq və çətinlik yoxdur.

Bundan əlavə əgər adi qanunlarla bir fərdin ömrü bu qədər davam etməsə də, Allah-təalanın sonsuz qüdrətinə əsasən istisna olaraq bir fərdin ömrü uzun sürə bilər və o şəxs cavan da qala bilər.

# MƏAD

Dinin əsas etiqadlarının beşincisi məad məsələsinə etiqad bəsləməkdir.
**(Tövhid - Ədl - Nübuvvət - İmamət - Məad)**
Məad - yəni öz əməllərinə görə cəza və mükafata yetişmək üçün həyatın təzələnməsi.
Bu prinsip - yəni sonrakı həyat bəşər cəmiyyətinin ən qədim əqidələrindən biridir. Bu düşüncənin izləri neçə minillik tarixi olan bir sıra qədim xalqların tarixində müşahidə edilir.
Dünyanın məşhur dini təlimləri arasında əbədi həyata qayıdış məsələsi onların ümumi prinsipləri sırasında gedir. Maraqlıdır ki, sərlövhəsində yenidən dirçəliş ideyası olmayan heç bir məslək ilahi din və məzhəb səviyyəsində qəbul edilmir.
Bütün dünya xalqlarının keçmiş tarixində bu əqidənin olması onu göstərir ki, bu düşüncə bəşərin ümumi fitri məsələsidir. Çünki mümkün deyil ki, bu qədər qədim və uzun tarixə malik olan, ayrı-ayrı xalqlar arasında bu qədər geniş yayılan bir əqidə insanların ürəklərində olan fitri istəklərdən və çağırışlardan ilham almamış olsun. Bəlkə də hər bir fərd xüsusi hallarda hiss edir ki, onun həyat ipi ölümlə tam qırılmır, ölüm heç də onun həyat zəncirindəki son həlqəsi deyil. O, təkcə bu dünyəvi həyatda bir neçə müddət üçün müxtəlif bədbəxtliklər və problemlər burulğanında gün keçirmək üçün yaradılmayıb. Bəlkə də qaranlıq gecənin ardınca bir səhər gözlənilir, ölüm isə onun əbədi həyatı üçün bir nəfəscikdir.
Ona görə də demək lazımdır ki, məada etiqad bəsləmək fitri bir duyumdur, əslən dəlilə ehtiyacı yoxdur. Ancaq eyni zamanda daha çox izah vermək üçün məadın əsası və dirçəlişin (oyanışın) zəruri olması haqqında iki dəlil söylənilir.

## TANRI ƏDALƏTİ VƏ HİKMƏTİNİN MƏAD İLƏ ƏLAQƏSİ

Bəşərin yaşadığı dünya elə bir dünyadır ki, onun əsaslarını ədalət və hüquq təşkil edir. Dünyanın xaliqi və yaradanı da ədalətli və insaflıdır. O, öz bəndələrinə göstəriş vermişdir ki, bu dünyada öz həyatlarını ədalət üzərində möhkəmlətsinlər, zülm və sitəmdən uzaq olsunlar. İnsanları düz yola yönəltmək üçün peyğəmbərlər göndərmişdir ki, bu məsum adamlar xalqa xeyir və şər yolunu göstərsinlər.
Ancaq ilahi fərmanların və peyğəmbərlərin düz yola dəvətinin qarşısında camaat iki dəstəyə bölünür.
Birinci dəstə başdan ayağa müti və Allah fərmanına qulaq asandır, din, əxlaq və məzhəbin düz yolundan sapınmamışlar, bütöv mənada özlərini napak işlərdən, aludəlikdən, günah və pis əxlaqdan kənar saxlamışlar və yaxud onlar heç olmazsa, bu fikirdədirlər ki, pak olsunlar.
İkinci dəstə, yəni başqa bir dəstə şəhvətpərəstlik, aludəlik, Allah bəndələrinə zülm və sitəm etmək kimi pis işlərə əl atmışlar. Onların rəftarı elədir ki, guya heç Allah tərəfindən onlar üçün peyğəmbər və fərman gəlməmişdir, onlara düzgün yol göstərilməyib. Onların həyatda özlərini təmin etmək, şəhvətpərəstlik, hiylə və fırıldaq, zülm və insafsızlıqdan başqa məqsədləri yoxdur. Öz hədəflərinə yetmək üçün heç bir cinayətdən çəkinməzlər.
Məsələn, tarixdən oxuyuruq ki, filan hakim (adı tarixdə qorxu və dəhşət doğurur) belə deyir:
«Mən Allah bəndələrinin bir qismini oda tökürəm, onlar alov içində yanaraq nalə və fəryad etdikcə ləzzət alıram. Mənim nəzərimcə pənahı və arxası olmayan adamların od içində naləsi və işgəncə altında fəryadı ən yaxşı musiqidir». Bu, bir insanın xislətidir.
Başqa bir insan isə belə söyləyir:
«And olsun Allaha, əgər yer üzünün səltənətini mənə versələr ki, bir zəif qarışqaya zülm edim, heç vaxt bu işə əl atmaram».
Biz özümüz də dünyada elə adamlar tanıyırıq ki, rəzalət və çirkinlikdən başqa bir əməlləri olmayıb. Eyni zamanda elə adamları da tanıyırıq ki, öz həyat və asayişini müsəlmanların asayişinə sərf edib.
Allahın insaf və ədaləti icazə verərmi ki, bu iki dəstə adamın aqibəti eyni olsunlar?
O böyük və adil Tanrının qarşısında bütün bəndələrin hesabı aydın olarkən, hər şeyin zahiri və batinindən xəbərdar olarkən, bu iki dəstəyə eyni gözlə baxa bilərmi?
Sağlam insan ağlı hökm edir ki, bu iki dəstə bir-birindən fərqlənirlər, onlardan hər birisi öz rəftar və əməllərinin cəzasına çatmalıdır.
Allaha iman bəsləyən və yaxşılıq edən kəs özü də yaxşılıq görsün, Allaha iman bəsləməyən, zülm və haqsızlıq edən və çirkin əməllərə qatlaşan adamlar isə öz pis işlərinə layiqdir və buna uyğun cəza

görməlidirlər. Beləliklə, Allah-təalanın ədalət və hikməti tələb edir ki, imanlı və yaxşı əməl sahibi olan adamlar ilə müşrik və bəd əməl sahibləri arasında fərq olsun. Deməli, birincilərə imtiyaz və üstünlük verilməlidir. Şübhəsiz ki, bu üstünlük və imtiyaz dünyada tam şəkildə əldə edilmir. Biz öz gözlərimizlə görürük ki, bir çox imansız və bəd işlər görən şəxslər bu dünyada tam rifah, asayiş, naz-nemət içərisində ömür sürürlər, camaatın qanını sormaqla öz üzlərini qızardırlar.

Bunun müqabilində isə imanlı və yaxşı əməl sahiblərini görürük. Onlar öz ömrünü xalqa xidmət yolunda, cəmiyyəti islah etmək, fərdi və ictimai vəzifələrini yerinə yetirmək yolunda sərf edirlər.

Lakin bununla belə onlar tam narahatlıq, təzyiq, yoxsulluq, zindan və işkəncə içində həyat sürürlər. Nəhayət, bu vəziyyətdə də can verirlər.

Ona görə də, Allahın ədalət və hikmətinin tələbi ilə başqa bir dünya da olmalıdır ki, hər şey orada tarazlaşsın - yəni yaxşı əməl sahibləri öz yaxşılığının əvəzini, pis əməl sahibləri də öz pisliyinin cəzasını görsün.

Həmin başqa dünya məad və oyanış, dirçəliş dünyasıdır.

Bu anlam bütün dünya dinlərində və xüsusilə də islamda əsas sütun kimi, dinin əsas etiqadlarından biri kimi tanınmışdır.

## MƏADIN İSBATI ÜÇÜN İKİNCİ DƏLİL

Bizim etiqad bəslədiyimiz Allah-təala hikmətli və bilən Tanrıdır, onun işləri hikmət üzərində qurulub. Bu dünyanı və insanı yaratmaqda, eyni zamanda insana ağıl verməkdə, böyük peyğəmbərləri xalqı hidayət etməyə göndərməkdə məqsəd və hədəfi olmuşdur.

Məgər insanı yaratmaqda hədəf təkcə bundan ibarətdir ki, o, bir neçə gün dünyada öz nəfsani təmayüllərinə uyğun yaşasın, neçə min kiloqram yemək yesin, neçə yüz min litr su içsin, bir qədər ömür sürəndən və ya məhrumiyyətdən sonra yenə də başını torpağın altına qoysun?!

Doğrudan da, əgər yaranışın hədəfi budursa, deməli, insan boş və mənasız yerə yaradılmışdır. Halbuki yaradan və pərvərdigar hikmətlidir, ondan puç və mənasız iş baş verməz.

Əgər bir qədər fikirləşib düşüncələrə dalsaq, bu nəticəyə yetişərik ki, insanın yaradılmasından hədəf həmin məhdud dünya həyatı deyil. O, qeyri-məhdud və əbədi bir həyat üçün yaranmışdır. Bu isə ölümdən sonrakı bir həyat deməkdir.

Qurani-məcid bir dəlilə işarə edərək ayələrin birində belə buyurmuşdur:

**"Siz güman edirsiniz ki, sizləri əbəs və bihudə yerə yaratmışıq və siz bizim tərəfə qayıtmayacaqsınız?!"**

Quranda bu məzmunda ayələr çoxdur.

## MƏAD CİSMANİ ANLAMDIR

Quran ayələrindən istifadə etməklə bəlli olur ki, məad və ölümdən sonrakı diriliş cismani bir anlamdır. Yəni insanın ruhu bir daha bədənə qayıdır, ruh və bədən hər ikisi öz əməllərinin cəzasına çatırlar.

Günlərin birində islama müxalif olanlardan biri, Ubbi ibn Xələf adlı bir nəfər çürümüş bir sümüyü peyğəmbərin (s) yanına gətirdi, onu əlində un kimi yumşaltdı, toz halına salıb havaya səpələdi. Məadı inkar etmək məqsədilə bu dağılmış hissəciklərin bir daha pərakəndə haldan toplanaraq əvvəlki vəziyyətə qayıtmağının mümkün olmadığını sübut etmək üçün söylədi:

- O hansı qüdrətdir ki, bu çürük və torpağa çevrilmiş sümükləri ikinci dəfə diriltməyə qadirdir?

Allah-təala Rəsuli-əkrəmə fərman göndərdi ki, belə desin və onun cavabını versin:

- Həmin Allahdır ki, başlanğıcda bu sümükləri torpaqdan yaratdı, ona həyat və ömür verdi. Yenə də həmin Allah bir daha bu dağınıq və çürük sümükləri cəmləyib diriltməyə qadirdir.

## MƏADA İNAMIN TƏSİR VƏ NƏTİCƏSİ

Məada inamın böyük əqli, mənəvi və əxlaqi təsiri vardır.

Bu inam insanı öz vəzifəsini yerinə yetirməkdə çalışqan edir, o öz işindən möhkəm yapışır. Çünki o belə öyrənib ki, heç bir əməl əvəzsiz qalmaz. Tanrı hər şeyin haqq-hesabını dəqiq biləndir, hər şeyin gizlin və aşkar cəhətlərini bilən ədalətli hakimdir. Bu inamla insan tam ümidvarlıq hissi ilə, arxayın halda öz xidmətlərini davam etdirir, özünü islah etməklə məşğul olur.

Yenidən dirçəliş inamı insana həyat müjdəsi verir, insan bilir ki, təkcə bu məhdud həyat üçün yaradılmayıb, ölümlə həyatın yeni bir mərhəlsinə qədəm qoyur. Bu yeni həyat dünyadan daha genişdir. İnsan bilir ki, dünya axirət həyatının müqəddiməsidir, geniş axirət həyatı isə insanın dünya həyatında əldə etdiyi əməllər, rəftar, əxlaq və ruhiyyəsinin nəticəsidir. Axirət dünya həyatından ayrılmaz deyil, bağlıdır. Necə deyərlər, axirətdə həmin dünya həyatında əkdiyi toxumun məhsulunu əldə edir.

Bu baxımdan, Qurani-məcidin bu hikmətli kəlamına diqqət yetirək. O, bu barədə belə buyurur:

"Hər kim bir zərrə ağırlığında və ölçüsündə xeyir iş görmüşsə, onun əvəzini görəcək. Eyni zamanda, hər kim bir zərrə ölçüsündə pis iş görmüşsə, onun əvəzini görəcək".

Hikmətli bir kəlamda belə deyilir: «Qoca kəndli öz oğluna nə gözəl demişdir: Ey gözümün işığı, əkdiyindən başqa bir şey biçməzsən!"

# AXİRƏT ALƏMİNİN MƏRHƏLƏLƏRİ

Axirət aləminə aid olan bir sıra mövzulardan sonra onun mərhələləri haqda danışmaq münasib olardı:

**1-Ölüm;**

Ölüm ruhun təmamilə bədəndən ayrılmasına deyilir ki, hər bir insan müxtəlif xəstəliklər, hadisələr və s. səbəblərdən bu dünyadan köçəcək və dünyada etdiyi əməllərə görə Allah qarşısında hazır olacaqdır.

Bir sıra hədislərə əsasən ölüm, mömin və yaxşı əməl sahibləri üçün asan, kafirlər və günahkarlar üçün isə çətin və ağır olacaqdır.

Kafirlər və qeyb aləmini inkar edənlər ölümü aradan gedib məhv olmaq kimi qələmə verir, möminlər və saleh bəndələr isə onu məhv olmaq deyil, əksinə, əbədi yaşayışa qovuşmaq bilirlər.

**2-Qəbir;**

Ruhu bədənindən çıxmış insan qüsl, kəfən və s. işlərdən sonra qəbirdə dəfn olunur.

Kafir, müşrik və günahkarlar üçün qəbir sıxıntısı ən qorxulu və dözülməz hadisələrdən biri sayılır.

İstər müsəlman, istərsə də qeyri-müsəlman üçün qəbir məsələlərindən biri də münkir və nəkirin ölüdən bir sıra suallar soruşmasıdır. Onlar qəbirdə olan insandan Allah, peyğəmbər, müqəddəs kitab, imam və s. məsələlər haqda sual edəcəkdir.

**3-Bərzəx;**

Bərzəx aləmi Qiyamət gününədək möminlər və kafirlərin qalacağı müvəqqəti bir yerdir ki, möminlər Qiyamət gününədək orada cənnətə oxşar müvəqqəti yerdə, kafirlər isə cəhənnəmə oxşar bir yerdə qalacaqlar.

Bu aləm dünya həyatı ilə Axirət arasında olan ayrılıq və boşluğu doldurduğu üçün «Bərzəx» adlanmışdır. (Qurani-kərimin Möminun surəsinin 100-cü ayəsi, həmçinin bir sıra hədislərdə Bərzəx aləmi haqda danışılmışdır).

**4- Qiyamət;**

«Qiyamət» sözü ayağa qalxmaq və dirçəliş mənasını daşıyır. Qurani-kərimdə bu gün «Yəvmud-din» (cəza və mükafat), «Yəvmul-axir» (son gün), «Yəvmul-həsrət» (həsrət günü), «Yəvmul-üsr» (çətin gün) və «Yəvmə tubləs-sərair» (pərdələrin kənara gedib, sirlərin aşkar olduğu gün) kimi adlarla yad edilmişdir.

Qurani-kərimin buyurduğuna görə, iki dəfə İsrafilin vasitəsi ilə şeypur çalınacaq.

Birinci dəfə çalınanda yerdə və göylərdə olan canlı varlıqlar öləcək və bununla da Qiyamət günü başlanacaqdır.

Şeypur ikinci dəfə çalındıqda isə, ölmüş canlılar bir daha diriləcək və Allah hüzurunda dayanacaqlar. Qurani-kərimdə oxuyuruq:

**«İsrafil şeypuru çalacaq və Allah istədiyi kəslərdən başqa göylərdə və yerdə olan bütün canlılar öləcəkdir və sonra bir daha şeypur çalındıqda, insanlar ölümdən ayılaraq (məhşərə) baxacaqlar».**

Qiyamət gününün necə ağır və dəhşətli olduğunu diqqətinizə çatdırmaq üçün bir neçə ayəni qeyd edirik:

**«Bağışlayan va mehriban Allahın adı ilə. Ey insanlar! Rəbbinizdən (qorxub) pərhizkar olun ki, şübhəsiz Qiyamət gününün zəlzələsi çox böyük bir hadisədir. O gün bütün südverən analar qorxudan öz körpələrini unudacaq və bütün hamilə qadınlar uşaqlarını salacaqlar.**

**O gün xalqı məst halda görəcəksən, halbuki onlar məst deyil və lakin Allahın əzabı şiddətlidir».**

Nəql olunmuş rəvayətə əsasən, bu ayələr «Bəni-müstələq» döyüşündə Həzrət Peyğəmbərə (s) nazil oldu. Peyğəmbər onu müsəlmanlar üçün oxudu və onlar qorxudan ağlayaraq pərişan oldular.

Hamılıqla o günün şərrindən Allaha pənah aparırıq.

## 5-Qəbrdən qalxmaq;

Həzrət İsrafilin çaldığı ikinci şeypurdan sonra əvvəldən dəfn olunmuş insanlar öz qəbirlərindən qalxacaq və etdiyi əməllərin hesabını görəcəklər.

Qurani-kərim bu haqda buyurur:

**«(Onlar) qəbrlərdən çıxaraq həşəratlar kimi məhşərə səpələnəcəklər».**

## 6-Əməllərin hesablanması;

Qurani-kərimin buyurduğuna əsasən, Qiyamət günündə zərrə qədər də olsa yaxşı və pis əməllər ölçüləcək və onların hər biri üçün savab və cəza veriləcəkdir.

Hədislərdən belə başa düşülür ki, yaxşı əməlləri artırıb daha çox savab almaq üçün Həzrət Peyğəmbər (s) və onun pak ailəsinə salavat göndərmək, (Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd) sözünü demək, həmçinin xoş əxlaqlı olmaq çox faydalıdır.

Bu mərhələdə əməllərin ölçülüb hesablanması üçün bir sıra şahidlər şəhadət verəcəkdir. Qurani-kərimin ayələrindən istifadə olunduğu kimi, Qiyamət günündə şəhadət verənlər aşağıdakılardan ibarətdir:

**Birinci:** Allah-təala;

**İkinci:** İslam ümmətinin peyğəmbəri;

**Üçüncü:** İnsanın bədən üzvləri;

**Dördüncü:** Mələklər;

**Beşinci:** Yer; (Bu barədə Həcc surəsi, ayə 17, Nisa surəsi, ayə 41, Nəhl surəsi, ayə 89, Nur surəsi, ayə 24, Qaf surəsi, ayə 21 və Zəlzələ surəsi 4-5-ci ayələrə baxa bilərsiz).

Həmçinin Qurani-kərimdə Qiyamət günündə İslam ümməti, əməllər kitabı və əməllərin şəhadət verməsi barədə də söz açılmışdır. (Bu barədə Bəqərə surəsi ayə 143, Kəhf surəsi ayə 49, Ali İmran surəsi ayə 30 baxa bilərsiz).

## 7-Əməllər kitabının verilməsi;

Axirət aləminin həyəcanlı mərhələlərindən biri də insanlara əməllər kitabının verilməsidir.

Bu kitab insana sağ tərəfdən verilərsə, onun cənnətə, sol tərəfdən verilərsə, cəhənnəmə gedəcəyi məlum olacaqdır.

İnsanların bütün yaxşı və pis işləri bu kitabda yazılı halda təhvil veriləcəkdir ki, Qurani-kərimdə bu haqda belə buyurulur:

**«Onlar deyərlər: Vay olsun bizə! Bu nə cür kitabdır ki, bizim bütün kiçik və böyük əməllərimizi (unutmamış) və saxlamışdır!».**

## 8-Sirat körpüsü;

Axirət aləminin ən qorxulu mərhələlərindən biri də bütün insanların siratdan keçməsidir. Sirat yeddi dayanacaqdan ibarət bir körpüdür. Bu dayanacaqlar aşağıdakılardan ibarətdir:

**Birinci:** Rəhim (qohum-əqrəba ilə yaxşı rabitə), əmanət və məsumların vilayət və imaməti;

**İkinci:** Namaz;

**Üçüncü:** Xums və zəkat;

**Dördüncü:** Oruc;

**Beşinci:** Həcc;

**Altıncı:** Təharət və təmizlik;

**Yeddinci:** Məzalim (xalqın hüquqları).

Məryəm surəsinin 70-ci ayəsinə əsasən, bütün insanlar bu sirat körpüsündən keçməli, amma günahkarlar sirat üzərində büdrəyib Cəhənnəmə düşəcəklər.

Sadaladığımız yeddi dayanacağın hər birində insandan bu əməllərin yerinə yetirib-yetirməməsi soruşulacaq, onları yerinə yetirmişsə, tez keçəcək, əks təqdirdə isə ayağı büdrəyəcəkdir. Amma mömin şəxslər bu körpünü bir gözqırpımında keçəcəklər.

**9-Behişt ya Cəhənnəm:**

Axirət aləminin sonuncu və əbədi mərhələsi Cənnət və ya Cəhənnəmdən ibarətdir ki, Cənnət yaxşı əməl sahibləri olan möminlər, Cəhənnəm isə müşrik və kafirlər üçün əbədi bir yerdir.

Məşhur alim Şeyx Səduq (r.ə.) bu barədə deyir:

«Cənnət haqda əqidəmiz belədir: Həqiqətən Cənnət əbədilik və sağlamlıq evidir. Orada ölüm, qocalıq, xəstəlik, ziyan və fanilik yoxdur. Həmçinin Cənnətdə heç bir qəm-qüssə, hacət və yoxsulluq olmayacaq. Cənnət ehtiyacsızlıq və səadət evidir.

Cəhənnəm haqda olan əqidəmiz isə belədir: Həqiqətən Cəhənnəm zillət evi olub, küfr və günah əhlindən intiqam alınmaq yeridir ki, yalnız küfr və şirk əhli orada əbədi olaraq qalacaqdır».

# AXİRƏT ALƏMİ BARƏDƏ BİR NEÇƏ SÖZ

**1**-Məlum olduğu kimi, dünyada yaxşı əməl sahibi olan möminlər əbədi olaraq Cənnətdə, kafirlər və müşriklər isə əbədi olaraq Cəhənnəmdə qalacaqdır. Amma günahkar müsəlmanlar müvəqqəti cəhənnəm əzabından sonra Cənnətə aparılacaq və əbədi olaraq orada qalacaqlar.

**2**-Şəfaət bir şeyin digər bir şeyin kənarında durmasına deyilir. İmtahandan iki almış şagirdə bir qiymət əlavə edərək üç qiymətlə müəllim tərəfindən edilən bu hörmət, şəfaət üçün ən yaxşı bir misaldır.

Bizim əqidəmizə əsasən Qiyamət günü peyğəmbərlər, imamlar, alimlər, şəhidlər və salehlər bəzi günahkar bəndələrə şəfaət edəcək və beləliklə Allah-təala onların təqsirindən keçəcəkdir. Qurani-kərimdə oxuyuruq:

**«Qiyamət günü Allahın izn verdiyi və sözlərini bəyəndiyi şəxslərdən başqa heç bir kəsin şəfaəti fayda verməz».**

Qeyd etmək lazımdır ki, şəfaət heç də səhlənkar, müqəssir və bu kimi digər şəxslərə aid olmayıb, yalnız məxsus insanlar üçün Allah izni ilə həyata keçəcəkdir.

**3**-Müsəlman məzhəbləri arasında olan ixtilaflardan biri də «vəd» və «vəid» məsələsidir. «Vəd» savab və xeyir, «vəid» isə əzab və cəza üçün işlədilir. Bizim əqidəmizə əsasən Allah-təala heç vaxt öz vədinə yalançı çıxmaz. Necə ki, Qurani-kərimdə buyurur:

**«Bu, Allahın vədidir və Allah heç vaxt öz vədinə yalançı çıxmaz, lakin xalqın çoxu bundan agah deyildir».**

Lakin vəid (cəza və əzab vədəsini) yerinə yetirib-yetirməməkdə ixtiyar sahibidir. Yəni Allah-təala bir şəxs və ya bir millət üçün vəid (cəza və əzab vədi) verərsə, bu vədinə əməl edib-etməməsi öz ixtiyarındadır. Necə ki, Qurani-kərimdə buyurur:

**«Göylərdə və yerdə olan hər bir şey Allaha məxsusdur. O, istədiyini bağışlayar və istədiyinə əzab verər və Allah bağışlayan və mehribandır».**

# TARÍX

# BİRİNCİ MƏSUM
# HƏZRƏT MUHƏMMƏD (s)

PEYĞƏMBƏRİN (s) ŞƏXSİYYƏTİ

**Adı:** Muhəmməd.
**Ləqəbi:** Əmin.
**Kunyəsi:** Əbül-Qasim.
**Atasının adı:** Abdullah.
**Anasının adı:** Aminə.
**Doğulduğu yer:** Məkkə.
**Doğulduğu tarix:** Fil hadisəsindən iki ay sonra (570-ci miladi il).
**Vəfat tarixi:** Hicrətin on birinci ili.
**Vəfat yeri:** Mədinə.
**Məzarı:** Mədinə.

## QUREYŞ QƏBİLƏSİ

Qureyş qəbiləsi Hicazda olan ərəb qəbilələri arasında ən hörmətli qəbilələrdən biri sayılırdı. Həzrət Peyğəmbərin (s) dördüncü babası Qüsəy ibn Kilab Allah evinin (Kəbənin) xidmətçisi və nəzarətçisi idi. Qureyş müxtəlif tayfalardan ibarət idi ki, həmin tayfaların da ən hörmətlisi Bəni Haşim idi.

Haşim ağıllı, şöhrətli və Məkkə əhalisi arasında böyük nüfuz sahibi olan bir şəxsiyyət kimi tanınmışdı. O, xalqın bütün məsələlərinə böyük həvəslə maraq göstərirdi, hətta Məkkə əhalisinin güzəranını təmin etmək məqsədilə yay və qış səfərlərini də təşkil etmişdi. Göstərdiyi böyük və əvəzsiz xidmətlərinə görə əhali ona Seyyid - yəni ağa, başçı ləqəbini vermişdilər. Elə buna görədir ki, onun və Peyğəmbərin (s) nəslindən olanlar da Seyyid adlanır.

Haşimdən sonra oğlu Müttəlib, daha sonra isə nəvəsi Əbdülmüttəlib xalq arasında olduqca böyük hörmətə malik idi. O zaman Əbrəhənin Məkkəyə basqın edərək ağır məğlubiyyətə uğraması Əbdülmüttəlibin xalq içərisində olan etibarını daha da artırmışdı.

Abdullah isə Əbdülmüttəlibin ən çox sevdiyi oğlu idi. Abdullah iyirmi dörd yaşında ikən Aminə adlı pak və nəcabətli bir qız ilə evləndi və bu mübarək evliliyin nəticəsində Fil hadisəsindən iki ay sonra Muhəmməd adlı nurlu bir oğlan uşağı dünyaya gəldi. Abdullah hələ oğlu dünyaya gəlməmişdən əvvəl vəfat etmiş və Rəbbimizin rəhmətinə qovuşmuşdu. Az müddət sonra anasını da əldən verən sevimli Peyğəmbərimizin tərbiyəsi ilə məşğul olmağı babası Əbdülmüttəlib öz öhdəsinə götürdü. Həzrət Peyğəmbər (s) Allahın himayəsi sayəsində çox qısa bir müddətdə camaatın sevdiyi, hörmət bəslədiyi bir cavana çevrildi. Belə ki, bütün Məkkə əhalisi ona təkcə hörmət və məhəbbət bəsləmir, mal-dövlətlərini də onun yanında əmanət qoyurdular. Sonralar o Həzrətə bu üstün əxlaqi səviyyəsinə görə Qureyşin əmini (yəni Qureyşin ən etibarlı şəxsi) ləqəbini vermişdilər.

O Həzrət məzlum və kasıbların tərəfini saxlayaraq, onları qoruyur, onlarla birlikdə oturub-durur, yemək yeyir, dərdlərinə qulaq asır və onların çıxış yolunu axtarıb tapırdı. Daha sonra Həzrət Muhəmməd (s) əmisi Əbu Talibin istəyilə Xədicənin karvanına qoşuldu. Düzlüyü və etibarlılığına görə karvanın başçısı seçilən Muhəmmədə onun camaatın içindəki hörmətinə heyran qalan Xədicə ona evlənmək təklifi irəli sürdü.

Həzrət Peyğəmbər (s) bu evliliyi münasib hesab etdiyindən Xədicə ilə evlənməyi qəbul etdi. Bu mübarək izdivacın meyvəsi bütün məsum imamların anası olan Həzrət Fatimədir (s.ə.).

## RAHİB BEHEYRANIN HADİSƏSİ

Bir müddət Həzrət Muhəmməd (s) öz əmisinin yanında yaşadı və hələ həddi-buluğa yetişməmiş yaşında bir dəfə əmisi onu götürüb ticarət üçün Şama getdi. Böyük bir dəstə ağır karvanla çoxlu mal götürüb yola düşdülər. Suriya torpağında Bəsri şəhərinə yetişərək bir məbədin yanında xeymə quraraq dayandılar. Beheyra adlı rahib məbəddən çıxaraq karvanı qonaq olmağa dəvət etdi, hamı bu dəvəti

qəbul edib getdilər. Əbu Talib də Həzrəti Muhəmmədi (s) şeylərin yanında qoyub dəstəyə qoşularaq qonaqlığa getdi.
Beheyrə soruşdu:
- Hamınız gəlmisiniz?
Əbu Talib dedi:
- Hamıdan kiçik olan bir cavandan başqa hamı gəlib.
Beheyra dedi ki, onu da gətirsinlər.
Əbu Talib zeytun ağacının altında gözləyən Muhəmmədi (s) səslədi, o da rahibin yanına gəldi. Beheyra o Həzrətə (s) dərin baxışla nəzər salaraq dedi:
- Yanıma gəl sənə sözüm var.
Sonra onu yanına gətirdi, Əbu Talib də onların yanına getdi.
Beheyra ona dedi:
- Səndən bir şey soruşum, səni and verirəm Lat və Üzzaya ki, cavab verəsən.
(Lat və Üzza Məkkədə camaatın pərəstiş etdiyi iki böyük bütün adıdır).
O Həzrət (s) buyurdu:
- Mənim nəzərimdə bu iki büt ən qəzəb düçar olmuş əşyadır.
Beheyra dedi:
- Səni and verirəm bir Allaha ki, düz danış.
O Həzrət (s) buyurdu:
- Mən həmişə düz danışıram və heç vaxt yalan danışmamışam. Sən öz sualını soruş.
Beheyra dedi:
- Nəyi daha çox sevirsən?
Buyurdu:
- Təkliyi.
Beheyra söylədi:
- Nəyə çox tamaşa etməyi xoşlayırsan?
Buyurdu:
- Göylərə və ulduzlara.
Beheyra dedi:
- Nə fikirləşirsən?
O Həzrət (s) sükut etdi, lakin Beheyrə diqqətlə onun alnına baxırdı.
O dedi:
- Nə vaxt və nə fikirlə yatırsan?
Buyurdu:
- Gözlərimi göylərə dikərək ulduzlara baxıram, onları öz ətəyimdə, özümü isə onlardan yuxarıda görürəm.
Beheyra dedi:
- Yuxuda nə görürsən?
Buyurdu:
- Bəli, yuxuda nə görürəmsə, ayılanda da onu görürəm.
Beheyra soruşdu:
- Məsələn, nə yuxu görürsən?
O Həzrət (s) susdu. Beheyra da dinmədi. Bir qədər susduqdan sonra yenə dedi:
- Sənin çiyinlərinin arasını görə bilərəmmi?
O Həzrət (s) tərpənmədən dedi:
- Gəl bax.
Beheyra yerindən qalxaraq onun yanına gəldi, paltarını çiynindən yuxarı qaldırdı, kürəyində qara bir xal göründü. Rahib ona baxaraq dodaqaltı söylədi:
- Özüdür ki, var.
Əbu Talib soruşdu:
- Nədir? Nə danışırsan?
Beheyra dedi:
- Bizim kitablarda bəhs edilən nişanədir.
Əbu Talib soruşdu:
- Hansı nişanə?
Beheyra söylədi:
- Bu cavan sənin kimindir?

Əbu Talib o Həzrəti (s) öz övladları kimi sevdiyindən dedi:
- Mənim övladımdır.
Beheyra dedi:
- Yox, bu cavanın atası gərək ölmüş olsun.
Əbu Talib təəccübləndi:
- Sən haradan bilirsən? Bəli, bu cavan qardaşım oğludur.
Beheyra Əbu Talibə dedi:
- Qulaq as, bu cavanın gələcəyi heyrətamiz və çox parlaqdır. Mən gördüyümü başqaları da görsələr və onu tanısalar, öldürərlər. Onu düşmənlərdən qoruyub saxla!
Əbu Talib soruşdu:
- De görüm, o kimdir?
Beheyra söylədi:
- Onun gözlərində böyük bir peyğəmbərin gözlərinin əlamətləri və kürəyində isə onun açıq-aydın nişanəsi vardır.

## NƏSTURİ RAHİBİNİN QİSSƏSİ

Bir neçə ildən sonra yenə o Həzrət (s) Xədicənin ticarət işləri ilə əlaqədar Şam tərəfə getmişdi. Xədicə öz qulamı Meysərəni də onunla göndərmiş, ona Muhəmmədə (s) tam itaət etməyi tapşırmışdı. Bu səfərdə Suriya torpağına yetişəndə Bəsri şəhərində bir ağac altında əyləndilər. Yaxınlıqda bir xristian məbədi var idi ki, burada bir rahib qalırdı.
Rahib Meysərəni tanıyırdı və ondan soruşdu:
- Ağac dibində dincələn kimdir?
Meysərə dedi:
- Qureyşdən bir nəfərdir.
Rahib söylədi:
- Peyğəmbərlərdən başqa kimsə bu ağacın dibində mənzil salmaz.
Sonra dedi:
- Gözlərində qırmızılıq nişanəsi varmı?
Meysərə dedi:
- Bəli, onun gözləri həmişə bu halda olur.
Rahib söylədi:
- O özüdür, Allahın sonuncu peyğəmbəridir. Kaş onun dəvət etdiyi günü görəydim.

## TAİF

Peyğəmbərliyin on üçüncü ilində o Həzrət (s) və Bəni-Haşim Şüəb vadisindən çıxdı. Həmin il Peyğəmbəri-əkrəm (s) Məkkənin 100 kilometrliyində olan Taif şəhərinə səfərə çıxaraq buranın camaatını islama dəvət etdi. Lakin şəhərin cahilləri hər tərəfdən tökülüşüb söyüş söyərək onu daşa basdılar. O Həzrət (s) şəhərdən çıxdı.

Peyğəmbəri-əkrəm (s) Taifdən Məkkəyə qayıtdı və bir müddət burada qaldı, lakin onun həyatı əmin-amanlıqdan uzaq idi. O, camaat arasında görünmürdü. Məkkənin böyükləri şəraitin öz istək və mənafelərinə uyğun olduğunu görüb şəhərin məşvərət məclisi sayılan Darül-nədvədə o Həzrətin (s) işinə birdəfəlik son qoymaq məsələsini irəli sürdülər və bu barədə qərar çıxardılar.

Məclisin qərarına əsasən ərəb qəbilələrinin hər birindən bir nəfər nümayəndə seçilməli və sonra həmin nümayəndələr bir yerə toplaşaraq birlikdə o Həzrətin (s) evinə tökülüşərək onu qətlə yetirməli idilər. Bütün qəbilələrdən olan nümayəndələrin bu tədbirdə iştirakı onunla bağlı idi ki, Bəni-Haşim - yəni Peyğəmbərlərin (s) qəbiləsi onlara qarşı müqavimət göstərə bilməsin. Üstəlik Bəni-Haşimdən bir nəfərin bu tədbirdə olması bu qəbilənin dilini gödək edirdi.

Düşmənlər bu çirkin tədbiri gerçəkləşdirmək üçün qəti addım atdılar və müxtəlif qəbilələrdən toplanan 40 nəfərə yaxın dəstə o Həzrəti (s) öldürmək məqsədilə gecə ikən onun evini mühasirəyə aldılar. Onlar səhərə yaxın evə tökülüb öz qərarlarını icra etmək istədilər. Lakin Allahın iradəsi onların iradəsindən üstün idi və ona görə qəbilələrin tədbiri alt-üst oldu. Allah-təala Peyğəmbəri-əkrəmə (s) vəhy göndərdi və bu tədbir barədə onu xəbərdar etdi. Bu vəhyə uyğun Peyğəmbərimiz (s) Məkkədən Mədinəyə mühacirət etdi.

Peyğəmbəri-əkrəm (s) məsələni Həzrəti-Əliyə (ə) bildirdi və ona öz yatağında yatmağı əmr etdi. O, vəsiyyətini edib gecə ikən evdən çıxdı. Peyğəmbərimiz (s) yolda Əbu Bəkri də özü ilə götürüb Mədinəyə yollandı. Mədinənin bir sıra böyük adamları bundan qabaq Peyğəmbərimiz (s) ilə görüşmüş və ona iman gətirmişdilər. Hətta onunla peyman bağlamışdılar ki, əgər o Həzrət (s) Mədinəyə gəlsə onun tərəfinə keçib müdafiə etsinlər, irsini və canını qorusunlar.

## MÜŞKÜLLƏRİ HƏLL ETMƏK MƏHARƏTİ

Həzrət Peyğəmbərin (s) evlənməsindən on il keçdikdən sonra Məkkəni sel basaraq əhaliyə çoxlu maddi ziyan vurdu. Qureyş bu hadisədən sonra Kəbənin tezliklə təmir olunması qərarına gəldi və heç bir ixtilaf baş verməsin deyə, Kəbənin təmiri Qureyş tayfaları arasında bölüşdürüldü. Kəbəni təmir etdikdən sonra Həcərül-əsvədin (Qara daşın) yerinə qoyulması məsələsi tayfalar arasında böyük bir problemə çevrildi. Çünki hamı bu şərəfli işin ona nəsib olmasını istəyirdi. Bu barədə ixtilaflar o qədər şiddətləndi ki, tayfalar arasında az qala müharibə başlayacaqdı.

Həzrət Peyğəmbər (s) tez bu məsələyə müdaxilə edib, əvvəlcə ortaya bir palaz sərdirdi və orada olanlara daşı həmin palazın üstünə qoymalarını və hər tayfadan bir nəfərin palazın bir tərəfindən tutub Həcərül-əsvədi Kəbəyə yaxınlaşdırdılar və Rəsuli-əkrəm daşı götürüb yerinə yerləşdirdi. Bu tədbirin nəticəsində hər bir tayfa öz arzusuna çatdı və həm də böyük bir faciənin qarşısı alınmış oldu.

## PEYĞƏMBƏRLİK VƏZİFƏSİNİN VERİLMƏSİ

O, artıq qırx yaşında idi. Günlərin birində Həra mağarasında Allaha ibadət və duaya məşğul ikən Cəbrailin gətirdiyi vəhy vasitəsilə Allah-taala tərəfindən peyğəmbərlik vəzifəsinə təyin olundu. Bu hadisədən həyacanlanmış Həzrət Peyğəmbər (s) bir müddət istirahət etmək məqsədi ilə Kəbəyə getdi, lakin vəhy mələyi təzədən ona nazil olaraq təbliğə başlamasını əmr etdi.

İlk əvvəl Həzrət Peyğəmbərin (s) dəvəti gizli gedirdi. Ona inanan adamlar da bu işə tam gizli bir şəkildə əməl edirdilər.

Ona ilk iman gətirənlər həyat yoldaşı Xədicə və Əli (ə) oldu. Aradan üç il ötdükdən sonra Məkkə və Məkkə ətrafı məntəqələrdə təbliğat üçün münasib bir şərait yarandı. Peyğəmbərə (s) insanları bir olan Allaha dəvət etmək və bütlərə qarşı mübarizə aparmaq vəzifəsi tapşırıldı. Bu iş olduqca təhlükəli idi. Çünki qəbilə başçılarının hakimiyyəti çox güclü idi. Onlar hakimiyyəti əldən vermək istəmirdilər. İllər boyu sitayiş etdikləri bütləri sındırmaq onlara çox ağır gəlirdi. Amma böyük bir hədəf olan tək Allaha inanmaq, tövhid ideyasının yayılması üçün çətinliklərə, ağır şəraitə sinə gərməkdən başqa bir çarə yox idi.

Açıq və ümumi təbliğatdan sonra, müşriklər onunla müxalifət edib aşkar bir şəkildə öz düşmənçiliklərini peyğəmbərə bildirdilər.

Bütpərəst quldurlar tövhid hərəkatının qabaqcıl əsgəri sayılan Həzrət Muhəmmədin (s) təbliğinin qarşısını almaq üçün əllərində mövcüd olan bütün imkanlardan istifadə edirdilər. Əvvəlcə rüşvətlə o Həzrəti tutduğu yoldan döndərmək istəsələr də, bu işləri heç bir nəticə vermədi. Ondan sonra belə qərara gəldilər ki, o Həzrətə müxtəlif təhdid və təzyiqlər yetirsinlər. Müsəlman olanlara lağ edib döyür, işgəncə verir, mallarını əllərindən alırdılar. Amma bu təşəbbüslər nəinki tövhid hərəkatına mane ola bilmədi, əksinə bu, hərəkatı daha da gücləndirdi.

Müşriklər, Peyğəmbərimiz və dostları Məkkədən çıxana qədər öz çirkin əməllərindən əl çəkmədilər. İlk müsəlmanlar düşmən şərrindən qorunmaq üçün üç il Əbu Talib adlı aclıq və susuzluqla mühasirə olunmuş bir yerdə qalmağa məcbur oldular. Ancaq müşriklər bunu da onlara çox görüb həmin məhəlləyə nəzarəti gücləndirdilər. Belə ki, heç kim cürət edib onlara yemək və su apara bilmirdi. Təkcə bir fədakar dəstə gecənin qaranlığından istifadə edərək onların bu ehtiyaclarını təmin etməyə cəhd edirdilər.

Bu sıxışdırmaların və mühasirənin heç bir nəticə vermədiyini görən müşriklər, müsəlmanların bu inamlı müqavimətləri qarşısında yeganə çıxış yolunu onları öldürməkdə görürdülər. İntiqamdan da qorxduqları üçün onlar belə qərara gəlmişdilər ki, bütün qəbilələri öz tərəflərinə çəkərək birlikdə Peyğəmbərin evinə hücum edib o Həzrəti qılıncdan keçirsinlər.

# MƏDİNƏYƏ HİCRƏT

Həzrət Peyğəmbər (s) vəhy mələyi vasitəsi ilə müşriklərin planından xəbərdar olmuşdu. Peyğəmbərimizin canını qorumaq üçün, o gecə onun yerində yatan və həyatını təhlükəyə atan Həzrət Əli (ə) olmuşdu. Peyğəmbər (s) gecənin qaranlığından istifadə edib Məkkədən çıxaraq Mədinəyə yola düşdü. Elə həmin gecə müşriklər peyğəmbərimizin evinə basqın etdi, lakin yataqda Həzrət Əlini gördükdə təəccüblənib tezliklə Peyğəmbəri (s) təqib etməyə başladılar. Ancaq bu işdən də heç bir nəticə almayıb Məkkəyə qayıtmaq məcburiyyətində qaldılar.

Əziz Peyğəmbərimiz (s) doqquz gündən sonra çox çətinliklə və ağır zəhmətlə Mədinə yaxınlığındakı Quba adlı bir məntəqəyə yetişdikdə burada xalq tərəfindən təntənəli şəkildə qarşılandı.

Həzrət Peyğəmbərin (s) orada gördüyü ilk iş məscid tikdirmək oldu ki, həm camaatın ibadət ehtiyaclarını təmin etsin, həm də ora müsəlmanların yığıncaq yerinə çevrilsin. Mədinə əhalisi böyük şövqlə Quba məscidini tikdilər. İnşaat işlərində Peyğəmbərimizin özü də iştirak edirdi.

Məscid tikintisi qurtardıqda ilk dəfə olaraq cümə namazı orada qılındı və birinci xütbəni də Həzrət Peyğəmbər (s) elə həmin məsciddə oxudu. Məkkədə öz yerinə nümayəndə olaraq qoyduğu Həzrət Əli (ə) və onunla birlikdə gəlməli olan Bəni Haşim qadınlarının həmin şəhərə yetişməsi üçün Həzrət Peyğəmbər bir müddət Qubada qalmalı olmuşdu.

Həzrət Əli (ə) Məkkədə üç gün qalaraq xalqın Həzrət Peyğəmbərin (s) yanında olan əmanətlərini sahiblərinə qaytardı. Daha sonra Bəni Haşim qadınları ilə birlikdə gecə yarısı Mədinəyə yola düşüb Qubada Peyğəmbərimizə çatdı.

Həzrət Peyğəmbər (s), Həzrət Əli (ə) və qadınlarla birlikdə Mədinə əhalisinin coşqun və həyəcanlı qarşılama mərasimi altında şəhərə daxil oldu. Hamı Peyğəmbərimizi (s) öz evinə qonaq aparmaq istəyirdi. Ancaq Həzrət Peyğəmbər (s) belə buyurdu: “Dəvəmin qabağından çəkilin, dəvə kimin evinin önündə yatsa, qalacağım yer də ora olacaq”.

Dəvə Mədinənin dar və qarışıq küçələrindən irəliləyib axırda Əbu Əyyub Əl-Ənsarinin evinin önündə yerə çökdü. Beləliklə Peyğəmbərin (s) qalacağı yer məlum oldu.

Həzrət Peyğəmbərin (s) Mədinədə ilk fəaliyyəti öz peyğəmbərliyini təbliğ edib, islamı yaymaq üçün tikdirdiyi məscid oldu.

Sonra isə yəhudilərin təhriki nəticəsində yaranan və 120 il davam edən Ovs və Xəzrəc qəbilələri arasındakı düşmənçiliyə son qoydu.

Peyğəmbərimizlə Məkkədən köçüb gələn müsəlmanlara “mühacir”, Mədinədə islamı qəbul edənlərə isə “ənsar” deyilir. Peyğəmbərimiz mühacirlərin ənsara artıq zəhmət verməməsi və bir-birləri ilə qardaş kimi yaşamaları üçün aralarında qardaşlıq mərasimi təşkil etdi. Mədinə iqtisadiyyatının nəbzini əllərində tutan yəhudilər isə özlərini ciddi bir təhlükədə hiss edib müsəlmanlarla pis rəftar etməyə başladılar.

Onlar müsəlmanların birliyini pozmağa və onları bir-birinə qarşı düşmən etməyə çalışırdılar. Amma dahi Peyğəmbərimiz onların bu planlarını puça çıxartdı.

## QİBLƏNİN DƏYİŞDİRİLMƏSİ

Peyğəmbərimiz (s) 13 il Məkkədə və 17 ay Mədinədə yəhudilərin qibləsi olan Məscidul-əqsaya tərəf namaz qıldı. Bu da yəhudilərin etirazına səbəb oldu. Belə ki, onlar “əgər biz haqq yolunda deyiliksə, nəyə görə bizim qibləmizə tərəf namaz qılırsınız?” - deyə deyinmişdilər.

Həzrət Peyğəmbər (s) bir gün namaz qılanda vəhy mələyi ona belə əmr etdi: “Üzünü Kəbəyə çevir!”

O andan etibarən müsəlmanların qibləsi Kəbə (Məscidul-həram) oldu.

Bu vəziyyət yəhudilərə çox ağır gəldiyindən onlar belə deyirdilər ki, “əgər sizin qibləniz Kəbədirsə, niyə indiyə qədər Məscidul-əqsaya tərəf namaz qılırdınız?” Halbuki, onlar bilmirdilər ki, bunların hamısı islam düşmənləri və dostlarının bəlli olması və kimlərin bu vəzifədə Peyğəmbərlə əməkdaşlıq, kimlərin də onunla müxalifətçilik edəcəyini müəyyən etmək üçün bir imtahandır.

# PEYĞƏMBƏRİN MÜHARİBƏLƏRİ

### BƏDR MÜHARİBƏSİ

Həzrət Peyğəmbər (s) yaxşı şəkildə təchiz olunduqdan sonra, əvvəlcə Mədinənin ətrafındakı qəbilələrlə, onların Mədinəyə hücum etmələrinin qarşısını almaq məqsədilə bir sülh müqaviləsi bağladı.

Sonra belə qərara gəldi ki, Şama gedən və o məntəqədən keçən Qureyşin böyük bir karvanına hücum etsin. Bununla o, həm küfr ilə şirk başçılarının qürurunu sındıracaq, həm də mühacirlərin Məkkədəki var-dövlətlərini talan edərək evlərini yıxanlara cavab verəcəkdi.

Bu müharibə Bədr quyularının yanında baş verdiyinə görə Bədr müharibəsi adlandı. Peyğəmbərimiz (s) bu müharibədə səhabənin böyükləri ilə məsləhətləşdiyi və düşmənin vəziyyətindən kifayət qədər xəbərdar olduğu üçün tezliklə hücuma başlamaq əmrini verdi.

Düşmənin sayı min nəfər, İslam ordusunun sayı cəmi 313 nəfər olmasına baxmayaraq əshabın imanı və Allahın lütfü sayəsində müsəlmanlar qələbə çaldı, müşriklər isə məğlub oldular.

## ÜHÜD MÜHARİBƏSİ

Müsəlmanların Bədr müharibəsində qələbə çalması və müşriklərin öldürülməsi, onların başçılarını çox əsəbiləşdirmişdi. Belə ki, Əbu Süfyan heç kimə ölənlərə yas tutmağa icazə verməmişdi. Digər tərəfdən isə, yəhudilər müsəlmanların qələbəsindən çox nigaran idilər. Buna görə də yəhudilərdən Kəb ibn Əşrəf adlı birisi sürətlə Məkkəyə gəlib camaatı üsyana çağıran şerlər oxuyaraq, müşriklərin ölülərinə ağlaya-ağlaya Qureyşi onların intiqamını almağa təhrik edirdi. Müşriklər Darün-nüdvədə yığıncaq keçirərək bir çox müzakirələrdən sonra, gələn müharibənin büdcəsi olan əlli min dinar qızılı təsdiq və təmin etdilər. Sonra da müharibə üçün könüllü döyüşçü yığmağa və Məkkə ətrafındakı qəbilələrdən kömək almağa başladılar.

Üç min nəfərdən ibarət olan müşrik ordusu Mədinəyə tərəf yola düşdü.

O günə kimi müsəlman olduğunu gizlədən Abbas ibn Əbdülmüttəlib peyğəmbərimizin köməyinə gəlmişdi. O, Mədinəyə tərəf sürətlə hərəkət edən bir nəfərə verdiyi məktubda vəziyyəti Həzrət Peyğəmbərə (s) bildirdi.

Əbu Süfyanın komandanlığı altında hərbi təchizatla hərəkət edən müşriklər ordusu Ühüd dağları yaxınlığında çadır qurdu. Onların piyada əsgərlərinin sərkərdəsi Xalid ibn Vəlid idi. Peyğəmbər (s) vəziyyətdən xəbər tutan kimi əshabı ilə məsləhətləşib əksəriyyətin təsdiqi ilə qüvvələrini Mədinədən xaricə çıxarmağı qərara aldı.

Həzrət Peyğəmbər (s) 1000 nəfər könüllü əsgərdən ibarət islam ordusu ilə hicri 3-cü ilin Şəvval ayının yeddisində, sübh namazından sonra Ühüdə sarı yola düşdü. İslam ordusu düşmənin düşərgəsi yaxınlığında çadır qurdu.

Peyğəmbər (s) Abdulla ibn Cubeyri əlli ox atan ilə birlikdə Ühüd keçidinə göndərdi ki, mühüm əhəmiyyətə malik olan həmin keçidi qorusunlar. Onlara nə olursa olsun, (qələbə yaxud məğlubiyyət) oranı tərk etməyə haqları olmadığını söylədi.

Nəhayət tövhid və şirk orduları qarşı-qarşıya gəldilər və ilk toqquşma Qureyş əsgərlərindən olan Əbu Əmir tərəfindən başlandı.

Əvvəlcə qüdrətli İslam ordusu tam cəsarət və imanla döyüşüb küfr ordusunu dağıtdı, ancaq birdən-birə müharibənin şəkli dəyişdi.

Peyğəmbərimizin (s) həmin keçidi qorumaq üçün göndərdiyi əsgərlər müharibənin qurtardığını güman etdiklərinə görə qənimət yığmaq üçün oranı tərk etdilər və mühüm əhəmiyyətə malik olan həmin keçid müdafiəsiz qaldı.

Düşmənin piyada hissələrinin sərkərdəsi Xalid ibn Vəlid bu fürsətdən istifadə edərək qüvvələri ilə birlikdə dağın arxa tərəfinə keçərək qənimət yığmaqla məşğul olan müsəlmanlara hücum edərək onların çoxlarını öldürdülər.

Müsəlmanlar yetmiş şəhid verərək müharibə meydanından geri çəkilməyə məcbur oldular. Müharibədə müşriklər qələbə çaldılar. Ancaq Allahın Peyğəmbəri Həzrət Əlinin (ə) fədakarlıqları nəticəsində əsgərləri təzədən toplayıb düşməni təqib edərək onlardan bir qismini öldürməklə, müşriklərin yenidən Mədinəyə basqın etməsinin qarşısını aldı.

## XƏNDƏK (ƏHZAB) MÜHARİBƏSİ

Mədinə yəhudiləri xəyanət və düşmənlə əməkdaşlıq etdiklərinə görə bu şəhərdən sürgün olunmalarına baxmayaraq yenə də xəyanətdən əl çəkməmişdilər. Onların başçıları Məkkəyə gedib Qureyşi müsəlmanlarla müharibə etməyə təşviq etmiş və beləliklə də onlara kömək edəcəklərinə söz vermişdilər. Nəhayət, yəhudilərin təhriki nəticəsində ayrı-ayrı qruplardan ibarət islam düşmənlərindən bir cəbhə yarandı. Buna görə də bu müharibəyə Əhzab (qruplar) müharibəsi deyilir.

Müşriklərdən, müstəkbirlərdən, yəhudilərdən, münafiqlərdən və Mədinədən qaçanlardan ibarət bu

qüvvələrin hamısı islam əleyhinə bir birlik yaratmışdılar.

Onlar tezliklə islamı aradan apara biləcəklərini güman edirdilər.

On min nəfərdən ibarət olan müşriklər ordusu Hicri 4-cü ilin Şəvval ayında Əbu Süfyanın komandanlığı altında Mədinəyə tərəf yürüşə başladı.

Xuzaə qəbiləsindən bir neçə atlı sürətlə özlərini Mədinəyə çatdırıb vəziyyəti Peyğəmbərə (s) bildirdikdə, Allahın Peyğəmbəri (s) müharibəyə hazırlıq əmrini verərək hərbi sərkərdələrin fikrini öyrəndi, uzun sürən müzakirədən sonra Salmanın fikri qəbul edildi. Mədinənin ətrafında xəndək qazıldı, müsəlmanlar isə xəndəyin arxasında keşik çəkdilər.

Üç min fədakar müsəlman gecə-gündüz çalışaraq 12000 metr uzunluğu, 5 metr dərinliyi və təqribən 6 metr eni olan xəndəklər qazdılar. Xəndək boyunca keçid üçün yol-körpü salıb, oralara növbətçi qoydular. Xəndəyin arxasında müxtəlif səngərlər düzəldərək şəhəri müdafiə etmək üçün orada ox atanları yerləşdirdilər.

Müşriklərin ordusu Mədinəyə çatanda qarşılarında keçilməsi mümkün olmayan bir xəndəyin olduğunu gördülər. Buna görə də xəndəyin arxasında çadır qurmağa məcbur oldular.

Əbu Süfyan ordunun əhval-ruhiyyəsini yaxşılaşdırmaq üçün Bəni Nəzir yəhudilərinin başçısı Həyy ibn Əxtəbi çağırtdırıb əmr etdi ki, Bəni Qüreyzə yəhudilərinin başçısı Kəəb ibn Əsəd ilə görüşərək onlara itaət edənlərlə birlikdə Mədinədə üsyan qaldırsınlar. Bu cür olarsa müşriklərin həmləsi üçün də yol açılacaqdı. Həyy ibn Əxtəb Əbu Süfyanın əmrini yerinə yetirdi. Lakin Peyğəmbər (s) öz uzaqgörənliyi ilə işin bu cür baş verəcəyini anlamışdı və beş yüz döyüşçünü şəhərin içindən gözlənilən hər hansı bir təhlükəyə qarşı hazır vəziyyətdə saxlayırdı. Beləliklə də, düşmənin bu hiyləsi də boşa çıxdı.

Bu vəziyyəti görən müşriklərin əsgərləri gecə-gündüz xəndəyin arxasında gözləmək məcburiyyətində qaldılar.

Bir gün müşrik döyüşçülərindən beş nəfər Əmr ibn Əbdüvədin başçılığı ilə xəndəyin eni gödək olan bir yerindən keçməyə müvəffəq oldular.

Əmr bağıraraq deyirdi: «Ey öldürüldükdən sonra cənnətə gedəcəklərini iddia edənlər, haradasınız? Gəlin, sizi oraya göndərək».

Əmr ərəblərin ən qüvvətli qəhrəmanlarından biri idi. Həzrət Əlidən (ə) başqa heç kəs Əmrin cavabını verməyə cürət etmədi. Peyğəmbər (s) Əlini (ə) dua edərək döyüşə yola saldı. Vəziyyət çox ağır idi. Hətta peyğəmbər belə dedi: «Bütün küfrlə bütün iman qarşılaşmışdır».

Döyüş əsnasında Əli (ə) ildırım kimi onun üstünə şığıyaraq bir zərbə ilə onu yerə sərib ucadan "Allahu Əkbər" dedi.

Əmrin yanında olanlardan biri qaçanda xəndəyin içinə düşdü, amma Əli (ə) ona da aman verməyib öldürdü. On nəfər isə qaçıb canını qurtara bildi.

Əlinin (ə) qüdrəti və cürəti islam əsgərləri üçün meydana böyük bir zəfər gətirmişdi. Belə ki, Peyğəmbər (s) buyurdu: “Əlinin zərbəsi insanların və cinlərin Qiyamət gününədək etdiyi ibadətdən üstündür.”

Səhərsi gün Xalid ibn Vəlid məğlubiyyətin əvəzini çıxmaq üçün atlı dəstələrlə birlikdə xəndəyi keçmək istədi. Ancaq islam əsgərləri onların da qarşısını aldılar. Bu vəziyyət düşmənin əhval-ruhiyyəsini tamam pozmuşdu. Peyğəmbər (s) Nəim ibn Məsudun vasitəsilə müşriklərlə Bəni Qüreyzə yəhudiləri arasında ikitirəlik yarada bildi. Məhz ondan sonra bu iki qəbilə arasındakı müqavilə pozuldu.

Bundan əlavə, Xüzeyfə adlı bir nəfəri də gecə çağı düşmən əsgərlərini ruhi cəhətdən zəiflətməkdən ötrü məmur etmişdi. O, müşriklərə havanın soyuqluğu və təhlükəli tufandan danışmış, axırda əsgərlərlə sərkərdələr arasında fikir ayrılığı meydana gəlmişdi.

Nəhayət Əbu Süfyan qüvvələrini toplayıb Məkkəyə qayıtmaq məcburiyyətində qaldı. Bunun üçün isə gecənin qaranlığından istifadə etdi.

Sübh tezdən, müsəlmanlar namaz qılmaq üçün qalxdıqları zaman düşmənlərdən bir izin belə qalmadığını gördülər.

Peyğəmbər (s) düşmənin qaçdığını öyrəndikdən sonra əshabına hərbi mövqelərini buraxıb şəhərə qayıtmalarını əmr etdi.

## BƏNİ QÜREYZƏNİN AQİBƏTİ

Xəndək müharibəsindən sonra Peyğəmbər (s) Bəni Qüreyzə qalasına tərəf hərəkət etdi. İyirmi beş gün davam edən mühasirədən sonra onları təslim olmağa məcbur edib, Həzrət Əlinin (ə) köməyi sayəsində tərkisilah etdirdi.

Bəni Qüreyzə məğlub olduqdan sonra Peyğəmbərdən (s) Mədinədən getmək üçün icazə istədilər.

Lakin, Peyğəmbər (s) onların bu istəyini qəbul etmədi, çünki, onların fürsət tapdıqda yeni bir müharibə planı hazırlayacaqlarını qabaqcadan çox gözəl bilirdi. Eyni şəkildə Bəni Qəynüqə yəhudiləri də fürsət tapandan sonra Ühüd müharibəsi və Bəni Nəzir yəhudiləri də Xəndək müharibəsinə girişmişdilər.

Nəhayət onlar müharibə əsnasında düşmənlə əməkdaşlıq və xəyanət etdiklərinə görə Səd ibn Übadənin hökmünə təslim oldular. Həmin hökmə əsasən kişilər öldürülməli, var-dövlətləri isə müsadirə olunmalı idi.

## HÜDEYBİYYƏ SÜLHÜ

Müsəlmanların müharibələrdə qələbə çalması, düşmənlərin, xüsusilə Bəni Müstələq qəbiləsinin məğlubiyyətə uğraması və Həzrət Peyğəmbərə (s) iman gətirmələri Qureyşi bərk qorxutmuşdu. Həzrət Peyğəmbər (s) hicri 7-ci ilin Zilqədə ayında müsəlmanlardan ibarət min dörd yüz nəfərlə Kəbəni ziyarət etmək məqsədi ilə Mədinədən Məkkəyə yola düşdü. Zül-hüləyfə adlı bir yerdə ehram bağladılar. Bu səfərin mənəvi və ibadi nöqteyi-nəzərindən əlavə, əhəmiyyətli dəyəri var idi. Bu vəziyyət müsəlmanların Ərəbistan yarımadasında mövqelərinin yaxşılaşması demək idi.

Qureyşlər Peyğəmbərin (s) hərəkətindən xəbərdar olduqları vaxt Məkkəyə girməklərinə əngəl olacaqlarına dair bütlərə and içərək Xalid ibn Vəlidi iki yüz atlı ilə birlikdə onların qabağını almaq üçün müsəlmanların üstünə göndərdilər.

Peyğəmbər (s) toqquşma baş verməsin deyə, kəsə yoldan gedərək Hüdeybiyyə ərazisinə çatdı. Peyğəmbər (s) əvvəlcə bir neçə elçi göndərdi ki, Qureyşə onlarla müharibə etmək fikrində olmadıqlarını və müsəlmanların məqsədinin ancaq həcc mərasimini yerinə yetirmək olduğunu bildirsinlər. Lakin onlar Peyğəmbərin (s) göndərdiyi qasidlər (xəbər gətirənlər) ilə yaxşı rəftar etmədilər. Onların rəftar və hərəkətlərindən fikirlərinin yalnız müharibə etmək olması aydınlaşdı.

Həzrət Peyğəmbər (s) bir ağacın altında əshabından yenidən beyət aldı. Onların hamısı Peyğəmbərə (s) söz verdilər ki, son nəfəslərinə kimi öz hədəflərinə bağlı qalacaqlar. Qureyşlər əhvalatı öyrənəndən sonra qorxub Süheyl adlı bir nəfəri Peyğəmbərlə (s) sülh müqaviləsi imzalamaqdan ötrü Həzrət Muhəmmədin (s) yanına göndərdilər.

Onların istəyi bu idi ki, müsəlmanlar bu il Məkkəyə daxil olmaqdan vaz keçərək geri qayıtmalı, gələn il isə silahsız gəlməlidirlər. Qureyş isə müsəlmanların dini mərasimlərinə şərait yaradaraq, onların mal və canlarını qoruyacaqlar.

Müsəlmanlardan bəziləri isə Məkkənin fəthinə zəmin yaradan bu müqavilənin parlaq gələcəyini hələ anlaya bilməmişdilər. Lakin bütün bunlara baxmayaraq Qureyş beş maddədən ibarət sülh müqaviləsini imzaladı. Dediyimiz kimi, müsəlmanlardan bəzisi narahat olub Peyğəmbərə (s) etiraz etdilər. Müqavilənin maddələrindən biri bu idi: "Əgər Məkkə müsəlmanlarından biri Mədinəyə pənah gətirərsə, Qureyşə geri qaytarılacaq". Onlar belə güman edirdilər ki, bu iş müsəlmanlar üçün zillət və alçaqlıq gətirəcəkdir.

Peyğəmbər (s) bu barədə çıxış edərək onların cavabını verdi.

İmam Sadiq (ə) bu sülh müqaviləsinin dəyəri haqda belə buyurub: "Həzrət Peyğəmbərin (s) həyatında heç bir hadisə Hüdeybiyyə müqaviləsindən xeyirli olmayıb."

## XEYBƏR MÜHARİBƏSİ

Hicri 7-ci ilin Rəbbiyul-əvvəl ayında Həzrət Peyğəmbər (s) min altı yüz islam əsgəri ilə birlikdə Mədinədən Xeybər qalasına doğru hərəkət etdi. Həmin qalada yəhudilər məskunlaşmışdı. Düşməni qəfildən məğlub etmək üçün sürətlə Qətfan torpaqları ilə Xeybər arasında olan Rasi adlı bir yerə istiqamət aldı. Məqsəd bu idi ki, aralarında hərbi ittifaq olan Qətfan ərəbləri ilə Xeybər yəhudilərini bir-birindən ayıraraq onların yardım yollarını kəsmək.

Xeybər qalası hələ gecə ikən müsəlmanlar tərəfindən mühasirəyə alındı. İslam döyüşçüləri xurmalıqlar arasında münasib bir yer seçərək, Xeybər və düşmən əsgərlərinin vəziyyətini öyrənib vuruşmağa başladılar. Cəsarətlə canlarından keçərək qalalaları bir-bir ələ keçirdilər. Sadəcə yəhudilərin müdafiə etdikləri iki əhəmiyyətli qala qalmışdı ki, onlar yuxarıdan müsəlmanları ox yağışına tutdular.

Peyğəmbərin (s) əmri ilə islam ordusu üç gün ardı-arası kəsilmədən Əbu Bəkr, Ömər və Səd ibn Übadənin başçılığı altında ayrı-ayrı qalalara basqın etsələr də, məğlubiyyətə uğradılar. Bunu görən Həzrət Peyğəmbər (s) buyurdu: "Sabah bayrağı elə bir adama verəcəyəm ki, o, Allah və onun rəsulunu sevir, Allah və onun rəsulu da onu sevir. Allah bu qalanı onun əli ilə fəth edəcək. O, heç vaxt qaçmaz!"

Hamı o şəxsin kim olduğunu öyrənmək üçün səhəri gözləyirdi və arzulayırdı ki, həmin şəxs məhz onun özü olsun. Həmin şəxs Həzrət Əlidən (ə) başqa kim ola bilərdi?!

Sabahkı gün Həzrət Peyğəmbər (s) soruşdu: Əli haradadır? Dedilər ki, onun gözü ağrıyır. Həzrət buyurdu: Ona deyin gəlsin!

Əlini bir dəvəyə mindirib peyğəmbərin çadırının qarşısına gətirdilər. Həzrət mübarək əlini onun gözlərinə çəkib dua etdi. Əlinin gözləri ömrünün axırına qədər bir daha ağrımadı. Peyğəmbər (s) zəfər bayrağını Əliyə (ə) verərək qalanı fəth etmək vəzifəsini onun öhdəsinə qoydu. Bununla Həzrət Peyğəmbər (s) Həzrət Əlinin o biri sərkərdələrdən daha üstün və dəyərli olduğunu göstərdi.

Əlinin (ə) əsgərləri qalaya yaxınlaşdıqları vaxt Haris və Məhrab adlı iki döyüşçü qardaş əllərindəki toxmaqları ilə onlara həmlə edirdilər. Nəticədə müsəlmanlar onların həmləsinə tab gətirməyib qaçdılar. Amma Həzrət Əli (ə) öz böyük və sarsılmaz müqaviməti ilə onların hər ikisini öldürdü. Yəhudilər qorxularından qalaların qapılarını bağladılar. Qaçanlar bu səhnəni görəndə müharibə meydanına qayıtdılar, Həzrət Əli (ə) ilə birgə döyüşə atıldılar.

Həzrət Əli (ə) qəzəbli şir kimi qalaya tərəf gələrək onun qapısını yerindən çıxararaq onu özü üçün qalxan etdi. Daha sonra qapını qalanın ətrafındakı xəndəyin üstünə atıb əsgərlərin keçməsi üçün körpü düzəltdi. Bu qapı o qədər ağır idi ki, müsəlmanlardan səkkiz nəfər belə onu yerindən tərpədə bilmirdi.

Həzrət Əli (ə) özünün bu heyrətləndirici gücü barədə buyurdu: "Mən onu öz adi gücümlə qaldıra bilməzdim. Allahın köməyi və imanım sayəsində bu işi görə bildim".

Nəhayət islam qüvvələri bütün qalaları ələ keçirərək yəhudiləri ağır məğlubiyyətə uğratdılar. Yəhudilər Peyğəmbərə (s) bildirdilər ki, öz yerlərində qalıb əkinçiliklə məşğul olmaq və qazanclarının yarısını müsəlmanlara vermək istəyirlər. Peyğəmbər (s) bu istəyi qəbul edib onları sərbəst buraxdı.

## FƏDƏK QƏSƏBƏSİ

Xeybər qalasının müsəlmanlar tərəfindən fəth olunması xəbəri Fədək qəsəbəsində yaşayanlara çatan kimi, onlar da qorxularından tez Peyğəmbərin (s) hüzuruna nümayəndə göndərərək sülh müqaviləsi imzaladılar və Fədəkin yarısını Peyğəmbərə verdilər. Həzrət Peyğəmbər (s) həmin qəsəbəni qızı Fatiməyə bağışladı ki, ona və məhrumlara yardım olsun.

Həzrət Peyğəmbər (s) Xeybər müharibəsindən sonra yəhudilərin başqa bir mərkəzi olan Vadil-Qürrə məntəqəsinə tərəf hərəkət edib oranı da mühasirə vasitəsi ilə ələ keçirdi. Daha sonra onlara da Xeybər yəhudiləri kimi, öz torpaqlarında qalaraq qazanclarının yarısını müsəlmanlara vermələrinə icazə verdi.

Həzrət Peyğəmbər (s) bu müqavilələrlə islam ordusunun düşmən qarşısındakı həmlə və müdafiə gücünü artırmaq üçün öz iqtisadi vəziyyətini düzəltmiş oldu.

## MUTƏ MÜHARİBƏSİ

Peyğəmbər (s) Vusra padşahını islama dəvət etmək üçün onun yanına elçi göndərdi. Elçi Mutə torpaqlarına çatdıqda, həmin diyarın hakimi peyğəmbərin elçisini şəhid etdi. Həmin hadisədən sonra Peyğəmbər (s) on altı təbliğatçını oraya göndərdi. Ancaq onların hamısı öldürüldü, onlardan yalnız bir nəfər sağ qaldı.

Sağ qalan təbliğatçı gecə vaxtı qaçaraq Mədinəyə gəldi. Bu iki hadisə Peyğəmbərə (s) çox ağır təsir etdi və səbəb oldu ki, hicri səkkizinci ilin cəmadül-əvvəl ayında Mutəyə ordu göndərsin. Müharibə elan olunduqdan sonra on min nəfər könüllü əsgər müharibəyə hazırlaşdı. Peyğəmbər (s) onlar üçün bir nitq söylədi. Daha sonra sərkərdələri aşağıdakı şəkildə təyin etdi: Cəfər ibn Əbu Talib birinci sərkərdə, Zeyd ibn Harisə ikinci sərkərdə, Abdullah ibn Rəvahə üçüncü sərkərdə. Əgər onlardan hansı biri şəhid olsaydı, ardıcıl olaraq o birisi onun yerinə keçəcəkdi. Əgər üçü də şəhid olsaydı, əsgərlər öz aralarından bir nəfəri seçib sərkərdə təyin edəcəkdilər.

İslam əsgərləri Mutə torpaqlarına tərəf hərəkət edib Muan şəhərinə çatdıqda oradakı müsəlmanlar xəbər verdilər ki, Rum qeysəri Herakl yüz min nəfərdən ibarət Rum ordusu ilə yüz min nəfər ərəb ordusunu bir yerə toplayıb. İki yüz min nəfərdən ibarət düşmən ordusu on min nəfərdən ibarət islam ordusuna hücum etdi. Cəfər şəhid olana qədər şücaətlə döyüşdü. İkinci və üçüncü sərkərdə də eyni şəkildə döyüşərək şəhid oldular.

Daha sonra əsgərlər Xalid ibn Vəlidi özlərinə sərkərdə seçdilər. Xalid təcrübəli və ağıllı adam idi. O, belə fikirləşdi ki, əgər müharibə bu şəkildə davam etsə, onların hamısı öləcək. Deməli, bir vasitə ilə düşmənin hərəkət və həmləsinin qarşısını almaq lazımdır.

O, əsgərlərə gecə yarısı geri çəkilmələrini, səhər isə hay-küylə müharibə meydanına yenidən girmələrini əmr etdi. Bu zaman düşmən belə güman edəcəkdi ki, Mədinədən təzəköməkçi qüvvələr yetişibdi.

Xalid bu taktika ilə düşməni qorxudub müharibəni dayandırmağa müvəffəq oldu.

Əshabın şəhid olması xəbəri Peyğəmbərə (s) çatanda o Həzrət çox narahat olub onların ölümünə ağladı, Xalidi isə müvəffəqiyyətinə görə təbrik etdi.

## MƏKKƏNİN FƏTHİ

Müsəlmanların Mutə müharibəsində geri çəkilməyə məcbur olmaları, Qureyş müşriklərini cəsarətləndirmişdi. Onlar müsəlmanların zəiflədiyini güman edirdilər. Ona görə də Hüdeybiyyə müqaviləsinə baxmayaraq, müşriklər Bənu Bəkir qəbiləsinin köməyinə gəlib müsəlman Xüzaə qəbiləsinə hücum edərək onların bir çoxunu öldürdülər.

Bu hadisənin cavabsız qalmayacağını düşünən Əbu Süfyan, Peyğəmbərlə (s) müqavilənin müddətini uzatmaq və bu hadisəyə görə üzr istəmək üçün tez Mədinəyə gəldi.

Amma Peyğəmbər (s) onunla soyuq davranıb müsbət cavab vermədi. Əbu Süfyan əliboş Məkkəyə qayıtdı. Həzrət Peyğəmbər (s) müharibə elan edən kimi on min döyüşçü hazır olduqlarını bildirdilər.

Düşmənə qəfildən həmlə etmək və bu barədə müşriklərə heç bir xəbərin çatmaması üçün Mədinənin ətrafına növbətçi qoyuldu.

Amma Hatib adlı xəyanətkar bir şəxs Məkkədə qohumları olduğu və Qureyşdən qorxduğu üçün, bir qadının vasitəsilə Qureyşə məktub yazdı. Ancaq bundan xəbər tutan müsəlmanlar məktubu həmin qadından alıb, Hatibi cəzalandırdılar. Peyğəmbər (s) əmr etdi ki, heç kim onunla danışmasın. Bu cəza onun üçün ölümdən də ağır idi.

Həzrət Peyğəmbər (s) hicri səkkizinci ilin Ramazan ayının onunda hərəkət əmrini verdi. İslam əsgərləri sürətlə irəliləyib bir həftə ərzində Məkkəyə çataraq şəhər yaxınlığında çadır qurdular. Peyğəmbər (s) öz müharibə taktikası əsasında əmr etdi ki, əsgərlər gecə vaxtı çöldə od yandırsınlar. Beləliklə düşmən Məkkədən böyük bir ordu gəlməsini və onların müharibəyə hazır olmasını zənn edəcəkdi. Tonqallardan qalxan alovlar, müsəlmanların hay-küyü, dəvə və atların kişnəməsi bütün çölü bürümüşdü. Əbu Süfyan və Qureyş böyüklərindən bir qism vəziyyəti daha yaxından öyrənmək üçün islam qoşununun yanına gəldikləri vaxt çox qorxdular. Əbu Süfyan yanında olanlara heyrətlə belə demişdi: İndiyə qədər belə böyük bir ordu görməmişəm.

Əbu Süfyan Abbasla görüşüb danışmağa başladı. Abbas Əbu Süfyana aman verib onu Peyğəmbərin (s) hüzuruna gətirdi və dedi: «Əbu Süfyan qüdrət sevir və onun bu zəif cəhətindən müsəlmanlar yaxşı istifadə edə bilərlər».

Həzrət Peyğəmbər (s) müsəlmanların xeyrini nəzərə alıb buyurdu: "Hər kim Əbu Süfyanın evinə girsə, amandadır. Əbu Süfyan bu haqda Məkkə əhalisinə söz verə bilər." Əbu Süfyan bu imtiyazı alıb Məkkəyə qayıtdıqda, islam əsgərlərinin əzəmətini camaat üçün danışaraq onları qorxutdu.

Beləliklə, onları islam əsgərlərinə qarşı döyüşməkdən çəkindirdi. Nəhayət, Məkkə qan tökülmədən müsəlmanların əlinə keçdi.

## ÜMUMİ ƏFV

Müsəlmanların bir hissəsi, xüsusilə də mühacirlər, intiqam almaq istəyirdilər. Lakin Həzrət Peyğəmbər (s) ümumi əfv elan edib buyurdu: “Bu gün rəhmət günüdür, intiqam almaq günü deyildir. Heç kimin camaatla, bir neçə nəfəri çıxmaq şərtilə, pis rəftar etməyə haqqı yoxdur. O neçə nəfəri isə harda tapsanız, öldürün. Çünki onların cəzasını əfv etmək mümkün deyil.”

Daha sonra Peyğəmbər (s) onların adını sadaladı. Həzrət Peyğəmbər (s) bir az istirahət etdikdən sonra Allahın hərəminə gedib Kəbəni o murdar bütlərdən təmizlədi. Daha sonra Bilal azan verərək hamı birlikdə namaz qıldılar.

## HÜNEYN MÜHARİBƏSİ

Müşriklərin mərkəzi olan Məkkənin müsəlmanların əlinə keçməsi Məkkə ətrafındakı qəbilələr arasında böyük qorxu yaratmışdı. Həmin qəbilələr müsəlmanların əleyhinə hərbi ittifaq təşkil etmək üçün bir yerə yığışdılar.

Onlar müştərək bir qərara gələrək Həvazin qəbiləsinin başçısı Malik ibni Aufu özlərinə sərkərdə seçdilər.

Bu hərbi ittifaqın təşkil olunması xəbəri Həzrət Peyğəmbərə (s) çatan kimi bir nəfəri qəbilələrin arasına göndərdi ki, vəziyyəti yaxından öyrənsin. Peyğəmbərin (s) göndərdiyi adam öz öhdəliyini yerinə yetirdikdən sonra Məkkəyə qayıdıb vəziyyət barədə o Həzrətə (s) məlumat verdi.

Həzrət Peyğəmbər (s) düşmənin vəziyyətini tam şəkildə öyrəndikdən sonra on iki min silahlı əsgərlə hicri 8-ci ilin Şəvval ayının beşində Hüneyn vadisinə tərəf hərəkət etdi. Düşmən əsgərlərinin sərkərdəsi Malik üç nəfəri kəşfiyyat üçün islam əsgərlərinin arasına göndərdi.

Onlar islam əsgərlərinin qüdrətini görəndən sonra qayıdıb vəziyyəti öz sərkərdələrinə danışdılar.

Malik başa düşdü ki, müsəlmanlarla bacara bilməyəcək. Ona görə də əsgərlərinə əmr etdi ki, Hüneyn boğazının təpəsinə çıxıb, qayalıqların arasında gizlənsinlər və orada özləri üçün səngər düzəltsinlər. O istəyirdi ki, islam əsgərləri boğazdan keçəndə onlara qəfildən hücum edilsin.

Hicri 8-ci ilin Şəvval ayının onunda çərşənbə axşamı islam əsgərləri Hüneyn vadisinə çatdılar.

Peyğəmbərin (s) əmri ilə gecəni istirahət etdilər. Səhər çağı əsgərlərin sərkərdəsi olan Xalid vadiyə girdi.

Hər baxımdan hazırlaşmış olan düşmən birdən-birə hər tərəfdən islam əsgərlərinə həmlə etdi.

Gecənin qaranlığı, atların ürkməsi və təzə müsəlman olan iki min əsgərin islam ordusunda olması düşmən üçün əlverişli şərait yaratmışdı. Bunun nəticəsində Xalid geri çəkilmək məcburiyyətində qaldı. Daha sonra əsgərlər qaçmağa başladılar. Həzrət Peyğəmbərin (s) ətrafında olan mühafiz dəstəsindən yalnız on nəfər qalmışdı. Peyğəmbər (s) uca səsi olan bir nəfərə əmr etdi ki, qaçanları köməyə çağırsın və onlardan geri qayıtmalarını tələb etsin.

Abbasın uca səsi qaçanları geri qaytardı. Müharibənin əvvəlində qələbə çalan düşmən qoşunu yavaş-yavaş öz gücünü itirməyə başladı. Nəhayət düşmənin müdafiə xətti qırıldığından düşmən əsgərləri bir çox qənimət qoyaraq qaçmağa başladılar. Həzrət Peyğəmbər (s) bir hərbi hissəni onların dalınca göndərdi ki, düşməni darmadağın etsinlər, bir daha yığışıb təşkilat yarada bilməsinlər.

Düşməni qovan hissə öz vəzifəsini yerinə yetirib qayıtdıqdan sonra Peyğəmbər (s) qənimətləri əsgərlərin arasında böldü.

## TƏBUK MÜHARİBƏSİ

Hicri 9-cu ilin Rəcəb ayında Peyğəmbərə (s) xəbər verildi ki, müsəlmanların şimal-şərq (Ərəbistan) sərhədi Rum imperiyası tərəfindən təhdid olunur və onlar islam torpaqlarına həmlə etmək arzusundadırlar.

Həzrət Peyğəmbər (s) güclü bir ordu topladıqdan sonra, əvvəllər öz hədəfini gizlətdiyi halda, bu dəfə əksinə, hədəfini hamıya elan etdi və müsəlmanlardan əllərindən gələn köməyi islam ordusundan əsirgəməmələrini istədi. Xalq böyük həvəs və istəklə əsgərlərə lazım olan hər şeyi toplayıb müharibə xəzinəsini doldurdular.

Münafiqlər könüllü islam əsgərlərinin səfərbər olduqları andan etibarən müxtəlif şaiyələrlə xalqı Rum əsgərlərindən qorxudurdular. Münafiqlər zəhərli təbliğatlarını apara bilmək və xalqı cihadda iştirak etməkdən çəkindirmək üçün bir məscid də tikdilər. Allah-taala Quranda həmin məscidi "zirar" (zərərli) məscid adlandırır. Peyğəmbərin (s) qəti mövqeyi onların bütün hiylələrini puça çıxardı.

Həzrət Peyğəmbərin (s) əmrilə münafiqlərin yığıncaq mərkəzi olan Süveyləmin evi yerlə yeksan olundu və bununla da onların bütün planları nəticəsiz qaldı.

Otuz min döyüşçüdən ibarət misilsiz islam ordusu hazırlandıqdan sonra Mədinə çölündə çadırlar quruldu.

Həzrət Peyğəmbər (s) komandanlığı öz öhdəsinə aldı və ordunu təftiş etdikdən sonra əsgərlər üçün bir nitq söylədi.

Daha sonra Əlini (ə) Mədinədə öz canişini təyin edib Təbukə doğru yola düşdü. İslam ordusu çölün qızmar istisində 600 kilometr yol gedib Təbukə çatdıqda orada Rum ordusundan heç bir əsər-əlamətin olmadığını gördülər. Onlar, qəlbi şəhidlik eşqi ilə vuran güclü islam ordusunun hərəkət etməsindən xəbərdar olan kimi şimala tərəf geri çəkilmişdilər.

İslam ordusu iyirmi gün gözlədikdən sonra heç bir toqquşma baş vermədən, Peyğəmbərin (s) əmrilə Mədinəyə qayıtdı.

Təbukdan qayıdanda xalqdan qorxduqları üçün orduya qoşulan münafiqlərdən bir qrupu Təbukun dar keçidlərində gizlənərək gecənin qaranlığından istifadə edib Peyğəmbərin (s) dəvəsini ürküdərək, Həzrəti dərəyə atıb öldürmək istədilər, amma onların bu hiyləsi nəticəsiz qaldığı üçün qaçmağa məcbur oldular. İslam əsgərləri onları öldrümək istədilər, lakin Peyğəmbər (s) bu işdə onlara mane

oldu.

Həzrət Peyğəmbər (s) qayıdandan sonra Allahın əmrilə münafiqlərin mərkəzi olan zirar məscidini uçurtdu.

## MÜBAHİLƏ

Həzrət Peyğəmbər (s) əhəmiyyətli ölkələrin başçılarına məktub göndərdikdən sonra Nəcran xristianlarının hakiminə də məktub yazaraq oranın xristianlarını islama dəvət etdi. Həzrət (s) həmin məktubda onlardan ya islama iman gətirmələrini, ya da vergi verərək islam hökumətinin himayəsi altında yaşamalarını istəmişdi.

Xristianların başçısı müqəddəs kitablarda oxumuşdu ki, Həzrət İsadan sonra başqa bir peyğəmbər gələcək. Buna görə də həqiqəti öyrənmək üçün Mədinəyə bir neçə tədqiqatçı göndərdi. Onlar Mədinəyə gələndən sonra Peyğəmbərlə mübahisə etsələr də qane olmamışdılar. Allah tərəfindən bir mələk nazil olub dedi ki, hər iki qrup qabaqcadan təyin olunmuş bir vaxtda çölə gedib Allaha yalvarsınlar və yalançı olan qrupa lənət oxusunlar.

Mübahilə vaxtı gəlib çatdıqda Peyğəmbər (s) müsəlmanlar və qohumlarının arasından yalnız dörd nəfəri özü ilə birlikdə seçib gətirdi. O, Hüseyni (ə) qucağına aldı, Həsənin (ə) əlindən tutmuşdu. Fatimə (ə) ilə Əli (ə) isə onun dalınca gəlirdilər. Xristianların başçısı onları görən kimi belə dedi:

“Allaha and olsun, elə simalar görürəm ki, əgər lənət etsələr, bu çölü cəhənnəmə çevirərlər, əzabı Nəcrana qədər çatar. Buna görə də bütün xristianların məhv olmasından qorxuram.” Xristianlar o andan etibarən vergini ödəməyi, eləcə də hər il müsəlmanlara iki min uzun paltar və otuz zireh verməyi qəbul etdilər.

## VİDA HƏCCİ

Həzrət Peyğəmbər (s) hicri 10-cu ilin Zilqədə ayının iyirmi beşində əmr etdi ki, xalqa belə elan etsinlər: “Allahın Peyğəmbəri (s) Allah evini ziyarət etməyə gedəcək və hər kim istəsə, onunla birlikdə gedə bilər.”

Bu xəbər xalqı həyəcana gətirdi və coşqun qəlbli minlərlə müsəlman bu işə hazır olduqlarını bildirdilər. Peyğəmbər (s) Əbu Dəcanəni Mədinədə özünə vəkil seçib əshabı ilə birlikdə yola düşdü. Zül-hüləyfə ərazisinə çatdıqları vaxt ehram geyib “ləbbeyk” deyərək Məkkəyə doğru yola düşdülər. On gün sonra Məkkəyə çatıb həcc əməllərini yerinə yetirdilər. Həzrət Peyğəmbər (s) ərəfə günü və ondan sonrakı gün xalq üçün nitq söyləyib onları dində sabit qalmalarına, eləcə də bu dinə daha sıx bağlılığa çağırıb tövsiyələrini verdi.

## QƏDİR-XUM

Zilhəccə ayının 18-i cümə axşamı günü, Peyğəmbər (s) Cühfədən Xum vadisinə çatdığında Cəbrail Allahdan xəbər gətirdi ki, Əlini (ə) özündən sonra xəlifə təyin etsin.

Bu öhdəliyi yerinə yetirmək üçün Həzrət (s) hamını çağırıb belə buyurdu: “Peyğəmbər sizinlə əhəmiyyətli bir mövzu haqqında danışacaq. Hamı gəlsin!”

Minlərlə hacı o qızmar havada Peyğəmbəri (s) eşitmək üçün bir yerə toplaşdı. Peyğəmbər (s) namaz qılandan sonra, onun üçün düzəldilmiş xüsusi yerdə oturub buyurdu: “Həmd və səna Allaha məxsusdur. Ondan yardım dilər, Ona inanar və Ona təvəkkül edərəm! Mən şəhadət verirəm ki, Ondan başqa tanrı yoxdur, Muhəmməd Onun qulu və Peyğəmbəridir. Ey camaat, mən sizin aranızdan gedəndə iki dəyərli şeyi - Quranı və Əhli-beytimi (ailə üzvlərimi) sizin üçün əmanət qoyuram. Onlar qiyamət günündə Kovsər hovuzunun başında mənə qovuşmayınca heç vaxt bir-birindən ayrılmayacaqlar. Buna görə də Qurana və Əhli-beytə bağlanın və onlardan heç vaxt uzaqlaşmayın ki, həlak olarsınız!”

Daha sonra Əlinin (ə) qolundan tutub göyə qaldırdı və buyurdu: “Ey camaat, mən hər kimin mövlasıyamsa (rəhbəriyəmsə), Əli də onun mövlasıdır. Allahım! Onu sevəni sev, onunla düşmən olanla düşmən ol, onun dostlarına yardım et, onu alçaltmaq istəyənləri alçalt!”.

Peyğəmbər (s) xütbəni qurtardıqdan sonra o Həzrətə mələk nazil olaraq Allah-taalanın bu müjdəsini çatdırdı: “Bu gün (Əlinin seçilməsiylə) islam dinini kamilləşdirdim və nemətlərimi sizə tamamlamış oldum.”

Əbu Bəkr, Ömər, Osman başda olmaqla bütün müsəlmanlar gəlib Əlini (ə) təbrik etdilər.

# HƏZRƏT MUHƏMMƏDİN (s) VƏFATI

Peyğəmbər (s) həcc səfərindən qayıtdıqdan sonra xəstələnib yatağa düşdü. Hiyləgər və həmişə fürsət sorağında olan bir qrup peyğəmbərlik iddiası etsələr də Peyğəmbərin əmri ilə qətlə yetirildilər. Bir gün Peyğəmbər (s) ağır xəstə olduğu halda, Əli (ə) ilə birgə Bəqi qəbristanlığına, əshabın qəbirlərini ziyarət etməyə getdi. Daha sonra evinə qayıtdı. Peyğəmbərin (s) xəstəliyi gün-gündən şiddətlənirdi. Nəhayət, hicri 11-ci ilin Səfər ayının 28-də, başı Həzrət Əlinin (ə) sinəsində ikən Allaha qovuşdu və bütün islam dünyasını sonsuz bir yasa boğdu.

# PEYĞƏMBƏRİN (s) ƏXLAQI

Peyğəmbərdən bir şey istədikdə, o heç vaxt yox cavabı verməzdi. Həzrət Əlidən (ə) nəql olunur ki, peyğəmbər insanlar içərisində ən əliaçıq, qəlbigeniş, doğrudanışan, öhdəliklərinə ən yaxşı vəfa edən, yumşaq təbiətli, mülayim davranışlı idi. Hər kəs onunla ilk dəfə qarşılaşanda ondan qorxardı, lakin onunla ciddi tanış olandan sonra onu sevərdi. Ondan qabaq və ondan sonra onun kimisini görmədim.

Əmirəl-mömininindən (ə) nəql olunur ki, döyüş başlayanda və iki tərəf üz-üzə gələndə, biz Allahın rəsuluna sığınardıq, peyğəmbərdən düşmənə qarşı ən ön cərgədə duran yox idi.

Düşmənləri onu əmanətdarlığı ilə tanıyardılar, hətta düşmənləri arasında «Əmin» adı ilə məşhurlaşmışdı. Onu ən doğru danışan şəxs kimi tanıyırdılar. Hətta Əbu-cəhl ona demişdir ki: «Biz səni yox, sənin gətirdiklərini təkzib edirik». Buna görə də «onlar səni təkzib etmirlər» ayəsi nazil oldu.

Onun məclisi elm, helm, həya, vüqar məclisi olardı. Onun dizləri yanında oturanın dizlərindən qabağa keçməzdi (yəni ayaqlarını uzatmazdı).

Baxışlarını səmadan çox, yerə dikərdi.

Az danışan idi, ehtiyac duyulmadığı yerdə danışmazdı, yaxşı söz danışmayanlardan kənar gəzərdi.

Gülüşü təbəssüm idi.

Kəlamı aydın idi (və ya haqqı batildən ayıran idi). Razılıq və qəzəb zamanı ancaq haqqı danışardı.

Oturanda və duranda ancaq zikr deyə-deyə hərəkət edərdi.

Yanında kimsə əyləşsəydi, həmin şəxs durmamış peyğəmbər öz yerindən durmazdı.

Cəmil ibn-Dərrac mötəbər hədisdə İmam Sadiqdən (ə) nəql edir ki, Allahın rəsulu öz baxışlarını səhabələri arasında bərabər bölərdi. Heç vaxt ayaqlarını onların yanında uzatmazdı. Biri ilə əl verib görüşəndə o şəxs əlini çəkməmiş peyğəmbər əlini çəkməzdi.

Bir gün səfərə getmişdi. Öz əshabına bir qoyun kəsməyi əmr etdi. Onlardan biri dedi: «Ey Allahın rəsulu, qoyunu kəsmək mənim boynuma». Digər bir şəxs soymağı, biri onu bölməyi, dördüncü şəxs isə bişirməyi boynuna götürdü. Həzrət dedi: «Sizin üçün odun yığmaq da mənim boynuma». O şəxslər razılaşmayıb dedilər: «Atamız və anamız sənə fəda olsun, ey Allahın rəsulu! Sənə əziyyət olar. Biz sənin əvəzinə odun yığarıq». Həzrət dedi: «Bilirəm ki, siz mənim əvəzimə odun yığarsız, amma Allahın, yoldaşları ilə bir yerdə olub onların arasından seçilən bəndədən acığı gəlir». Ayağa qalxıb, onlar üçün odun yığmağa getdi.

Ənəs nəql edir ki, bir ərabi (çöl ərəbi) peyğəmbərin yanına gələrək onun köynəyini bərk-bərk çəkdi və dedi: «Ey Muhəmməd! Sənin yanında olan Allahın malından mənə də ver!»

Mən gördüm ki, çöl ərəbinin köynəyi bərk çəkməsi nəticəsində peyğəmbərin boynuna iz düşüb. Həzrət onun üzünə gülümsədi, ona mal verilməsini əmr etdi.

Bir yəhudi peyğəmbərin yanına gəldi. Ayişə də peyğəmbərin yanında idi. Yəhudi peyğəmbərə «əssamu ələykum (ölüm olsun sizə) deyərək onu təhqir etdi. Peyğəmbər «sizə olsun!» deyə cavab verdi. Başqa bir şəxs içəri daxil olub həmin yəhudinin dediyini təkrarladı. Həzrət ikinci şəxsə də birincisinə verdiyi cavabı verdi. Üçüncü bir şəxs də daxil olub özündən əvvəlkilərinin dediyini təkrar etdi. Peyğəmbər ona da əvvəlkilərə verdiyi cavabı verdi. Aişə qəzəblənərək dedi: «Ölüm, qəzəb, lənət sizlərə olsun ey yəhudilər, ey meymun və donuzların qardaşları!» Peyğəmbər Aişəyə dedi: «Ey Aişə! Söyüş numunə olsa, pis numunədir. Xoş rəftar istənilən şeyin üzərinə qoyulsa, onu zinətləndirər. Üzərindən götürüldükdə isə, onu kobudlaşdırar».

İmam Sadiqdən (ə) nəql edilir ki, bir kişi peyğəmbərin yanına gəldi. Həzrətin paltarı köhnəlmişdi. On iki dirhəm verib dedi: «Ey Əli, bu dirhəmləri götür və mənə bir paltar al, geyinim».

Əli (ə) deyir: «Bazara gəlib on iki dirhəmlik ona bir köynək aldım və peyğəmbərin yanına gətirdim. Peyğəmbər köynəyə baxıb dedi: «Əli, başqa köynək mənə daha xoş gələr. Görəsən, bu köynəyin sahibi bunu geri götürər?»

Dedim ki, bilmirəm.
Həzrət dedi:
- Bax, gör geri götürərmi?
Mən köynəyin sahibinin yanına gəldim və dedim: «Allahın Rəsulunun bu köynəkdən xoşu gəlmir. Ondan aşağı səviyyəli bir köynək istəyir».
Köynəyi geri qaytardım və dirhəmləri geri alıb peyğəmbərin yanına gətirdim. Həzrət köynək almaq üçün mənimlə bazara getdi. Gözü, yolda durub ağlayan bir kənizə sataşdı. Həzrət ondan soruşdu:
- Nə olub sənə?
O dedi:
- Ey Allahın Rəsulu! Ev əhli mənə dörd dirhəm vermişdi ki, ehtiyac duyduqları əşyaları alım. Dirhəmlər itdi, mən də onların yanına qayıtmağa cəsarət etmirəm.
Allahın Rəsulu ona dörd dirhəm verdi və dedi: «Öz ailənin yanına qayıt!»
Peyğəmbər bazara gəlib dörd dirhəmə bir köynək alıb geyindi. Və Allaha həmd etdi. Bazardan çıxanda üryan bir kişini gördü ki, deyir: «Hər kəs məni geyindirsə, Allah ona Cənnət libasını geyindirər». Peyğəmbər aldığı köynəyi əynindən çıxardıb həmin şəxsə geyindirdi. Sonra yenidən bazara qayıdıb qalan dörd dirhəmə başqa bir libas alıb geyindi və Allaha həmd etdi. Evinə qayıdanda gördü ki, həmin kəniz yolda durub. Həzrət ondan soruşdu:
- Niyə ailənin yanına qayıtmırsan?
Kəniz cavab verdi:
- Ey Allahın rəsulu! Mən onların dediklərini gec yerinə yetirmişəm. Qorxuram ki, məni döyərlər.
- Düş qabağıma və məni ailənin yanına apar!
Peyğəmbər onların qapısına qədər gəlib dedi:
- Salam olsun sizə, ey ev əhli!
Amma cavab gəlmədi. Peyğəmbər salamı təkrarladı və yenə də cavab vermədilər. Həzrət yenidən salam verdi. Onlar «Əleykuməssəlam və rəhmətullah və bərəkatuh, ey Allahın rəsulu!» - deyərək cavab verdilər. Peyğəmbər dedi: «Nəyə görə birinci və ikinci salamımın cavabını almadınız?»
- Ya Rəsuləllah! Salamını eşitdik, amma istədik ki, çox salam verəsiniz.
- Bu kəniz gecikib, onu cəzalandırmayın!
- Ya rəsuləllah! Bu kəniz səninlə gəldiyi üçün azad olunur.
Həzrət dedi:
«Həmd olsun Allaha! Bundan bərəkətli on iki dirhəm görmədim. Allah bu on iki dirhəmlə iki üryanı geyindirdi və bir kənizi azad etdi».

# İKİNCİ MƏSUM
# HƏZRƏT ƏLİ (ə)

## İMAMIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Əli |
| **Ləqəbi:** | Əmirəl-möminin |
| **Kunyəsi:** | Əbül-Həsən |
| **Doğulduğu tarix:** | Hicrətdən 23 il əvvəl |
| **Xəlifəliyi:** | Hicrətdən 35 il sonra |
| **Xəlifəlik müddəti:** | 5 il |
| **Ömrü:** | 63 |
| **Şəhadəti:** | Hicri 40-cı ildə xaricilərdən olan İbn Mülcəm (lən.) adlı bir şəxs tərəfindən qətlə yetirilmişdir. |
| **Məzarı:** | İraq, Nəcəf şəhəri |

## TƏVƏLLÜDÜ

Peyğəmbərin hicrətindən 23 il qabaq, cümə günü Rəcəb ayının 13-də Əbu Talibin ailəsində təkcə Məkkəyə deyil, bütün dünyaya nur saçan mübarək bir uşaq dünyaya gəldi.

Bu təvəllüd haqqında Məkkə əhalisindən Qunəb adlı birisi belə deyir: Abbas ilə bir yerdə oturmuşduq. Birdən Əsəd qızı Fatimənin sancı çəkərək Kəbəyə tərəf getdiyini gördük. O belə deyirdi:

“Ey Allahım! Sənə və peyğəmbərinə inanıram. Sənin əmrinlə bu evi tikən peyğəmbərin (İbrahimin), eləcə də bətnimdəki uşağın izzəti hörmətinə bu körpənin dünyaya gəlişi əziyyətini mənim üçün asan et”.

Elə həmin andaca Allah evinin divarı yarılaraq, Fatimənin oraya girməsini, daha sonra isə divarın bir-birinə yaxınlaşaraq bitişib bağlanmasını öz gözlərimizlə gördük. Hamımız qorxudan titrəyirdik. Daha sonra ayağa qalxdıq və sürətlə Kəbəyə sarı qaçdıq ki, qapını açıb arvadlarımızı Fatiməyə kömək etmək üçün içəri göndərək. Amma nə qədər çalışdıqsa qapını aça bilmədik. Bu qəribə xəbər çox sürətlə Məkkənin hər tərəfinə yayıldıqda hamı bundan heyrətləndi. Məkkə qadınları Fatimə ilə görüşü həyəcanla gözləyirdilər. Nəhayət dörd gündən sonra Fatimə qucağında gözəl bir uşaqla Kəbədən bayıra çıxıb dedi:

“Allah qadınlar arasında məni seçdi, Onun evində ikən mənim üçün cənnət xörəklərindən və meyvələrindən göndərdi”.

Fatimə evinə doğru gedən zaman ətrafına yığışan qadınların “uşağın adını nə qoyacaqsan?” - deyə verdikləri suala belə cavab verdi: “Allahın hərəmində əyləşdiyim vaxt birdən səs eşitdim: uşağın adını Əli qoy!”.

Bəli, haqqında danışdığımız Həzrət Əlidir (ə). O ülvi şəxsiyyət körpəlik və uşaqlıq dövranını təmiz, pak bir şəkildə başa vurdu. Necə ki, Həzrətin özü də bu barədə “Nəhcül-bəlağə”də belə buyurur:

“Uşaqlığımda Peyğəmbər (s) məni qucağına alıb köksünə sıxar və yeməyi çeynəyib ağzıma qoyardı”.

## UŞAQLIQ DÖVRÜ

Həzrət Əlinin (ə) özü bu dövr barədə belə buyurur: “Peyğəmbər hər il Hira dağına gedər və onu məndən başqa heç kəs görməzdi. İslamın hələ evlərə yayılmadığı ilk anlarda, təkcə Peyğəmbər ilə həyat yoldaşı Xədicə müsəlman olmuşdular. Mən isə vəhy və risalət nurunu görüb, nübuvvət ətrini duyan ikinci şəxs idim”.

Peyğəmbərin qohumlarını islama dəvət etmək üçün Allah əmri nazil olanda, Həzrət Əli (ə) Peyğəmbərin (s) yaxın adamlarından qırx nəfəri o Həzrətin evinə qonaq çağırmışdı. Xörəyin azlığına baxmayaraq artıq hamı yeyib doymuşdu.

Şam yeməyindən sonra Peyğəmbər (s) məclisdəkilərə xitab edərək buyurdu:

“Ey Əbdülmüttəlib övladları! Allah mənə əmr edib ki, sizləri çağıraraq islamı sizlərə tanıtdırım. Hər kəs mənə kömək edib dinimə iman gətirərsə, mənim qardaşım və xəlifəm olacaqdır”.

Peyğəmbər (s) bu mətləbi üç dəfə təkrar etsə də Əlidən başqa heç kəs ona cavab vermədi. Həzrət

Peyğəmbər (s) hər dəfə öz istəyini təkrar etdikdə yerindən qalxıb Həzrətin əlindən tutan və ona iman gətirdiyini elan edən yeganə şəxs hələ uşaq yaşında olan Həzrət Əli (ə) idi. Elə bu əsnada Peyğəmbərimiz belə buyurdu:

“Əli mənim qardaşım və xəlifəmdir. Onun sözünə qulaq asın və əmrlərinə itaət edin”.

## GƏNCLİK DÖVRÜ

Həzrət Əli (ə) artıq uşaqlıq və yeniyetməlik dövrünü geridə qoyub qüdrət və qüvvət çağı olan gəncliyə çatmışdı. Eynilə bir kəpənəyin şamın başına fırlandığı kimi, Həzrət Əli (ə) da Həzrət Peyğəmbərin (s) başına fırlanaraq, biləyinin gücündən islamın və Peyğəmbərimizin xeyrinə istifadə edirdi.

Misal üçün, Hüneyn müharibəsində müsəlmanlar məğlub olub qaçdıqları vaxt Peyğəmbərin ətrafında gəzib onu qoruyan və düşməni qorxuya salan təkcə Həzrət Əli (ə) idi. Xeybər müharibəsində kafirlərin sərkərdəsi olan, eləcə də hamının onun gücü və cəsarətindən qorxduğu Məhrabı yerə yıxmışdı, iyirmi nəfərin güclə açıb bağlaya bildiyi qapını qaldıraraq xəndəyin üstünə atmış və onu əsgərlərin üstündən keçə biləcəyi bir körpüyə çevirmişdi.

Buna oxşar yüzlərlə misal Həzrət Əlinin (ə) iman və fədakarlığının açıq dəlili, tutarlı bir sübutudur.

## HƏZRƏT ƏLİNİN (ə) FƏDAKARLIĞI

İnsan məhz özünü çox sevər və canını başqasına fəda etməz. Amma Həzrət Əli (ə) islamı və Peyğəmbəri (s) özündən daha çox sevdiyinə görə canını Peyğəmbərin (s) yolunda fəda etməyə həmişə hazır idi.

Bu hadisə Məkkə müşriklərinin özlərinin məğlubiyyət təhlükəsi ilə qarşı-qarşıya gördükdə bu barədə mühüm bir qərar çıxarmaq üçün toplandıqları zaman baş vermişdi.

Onların hamısı Darün-nədvə adlı bir yerdə yığışaraq geniş müzakirədən sonra belə qərara gəldilər ki, hər qəbilədən bir nəfər seçsinlər, onlar da gecə vaxtı Peyğəmbərin evinə həmlə edərək onu öldürsünlər. Bütün qəbilələr onun qanını tökməkdə şərik olduqlarına görə heç kim intiqam almağa təşəbbüs göstərməyəcəkdi.

Onların bu planını Allah öz Peyğəmbərinə bildirdi və ona hələ gecə ikən evindən çıxıb Məkkədən hicrət etməsini əmr etdi. Peyğəmbər (s) bu hədəf üçün canını fəda etməyə hazır olan etibarlı bir sirdaş axtarırdı. Bu fədakarlığı yalnız Həzrət Əli (ə) öz öhdəsinə götürə bilərdi.

Məhz elə buna görə də Peyğəmbər (s) əhvalatı Həzrət Əliyə (ə) danışdı. Bu fədakar və mömin cavan üzündə təbəssüm, sevinərək bu işi bütün varlığı ilə qəbul etdi.

Gecənin qaranlığı hər yeri bürümüşdü. Əli (ə) Peyğəmbərin yatağında arxayın və ürək rahatlığı ilə yatmışdı. Həzrət Peyğəmbər (s) də artıq evindən çıxıb Məkkənin kənarında olan Sövr mağarasına getmişdi. Qureyşli qatillər evi mühasirə edib əllərində qılınc və bıçaq hücuma hazırlaşdılar.

Hücum əmri verildikdə onların hamısı siyrilmiş qılıncla Peyğəmbərin evinə girib yatağına tərəf getdilər. Lakin birdən-birə yataqdakının Əli olduğunu gördükdə, sarsılmış və narahatlıqla Peyğəmbərin evini tərk edib dərhal atlıları o Həzrətin dalınca göndərdilər. Lakin çox keçmədi ki, əliboş və ümidlərini itirərək geri qayıtdılar.

## ƏLİ (ə) VƏ ALLAH YOLUNDA MÜHARİBƏ

İslam həyat və sülh dinidir. Bu müqəddəs din insanların öldürülməsi ilə ziddir. Bu din günahsız bir insanı öldürən kimsəyə ağır cəzalar tətbiq edir. Lakin daxili və xarici düşmənlər müsəlmanlara qarşı təcavüzə əl atdıqda, o zaman bu müqəddəs din ağıl və şəriətə əsasən müdafiə etməyi əmr edir. Bu isə islam cihadının bir hissəsidir.

Həzrət Peyğəmbərin (s) müdafiə xarakteri daşıyan bütün müharibələrində Həzrət Əli (ə) saf ruhlu bir igid təki, Peyğəmbərlə (s) çiyin-çiyinə islam yolunda var qüvvəsilə döyüşürdü.

O, Allahdan başqa heç bir şeydən qorxmayan bir mömin bəndə, eləcə də yorulmaz bir mücahid sayılırdı. O, belə deyərdi: “Allaha and olsun ki, əgər haqqı bir tərəfdə və bütün xalqı da batil olaraq haqq müqabilindəki digər tərəfdə görsəm, haqq uğrunda tək-tənha qılınc oynadar, onların qabağında inamla duraraq bu yoldan bir an belə geri dönmərəm”.

## HƏZRƏT ƏLİNİN (ə) ƏDƏBİ

İslam hökumətinin mərkəzi Kufə şəhəri idi. Elm öyrənməkdən ötrü dünyanın hər tərəfindən bu böyük islam mərkəzinə axışırdılar.

Bir gün şəhər qırağında iki nəfər bir-biri ilə rastlaşdı. Bunlardan biri Həzrət Əli (ə), o birisi isə onu tanımayan bir xristian idi. Xristian Kufə şəhərinin ətrafındakı bir məntəqəyə, Həzrət Əli (ə) isə Kufəyə gedirdi. Onlar birlikdə olduqları müddətdə darıxmamaq üçün söhbətə başladılar. Yol ayrıcına çatdıqları vaxt xristian sağollaşıb yoluna davam etdi. Ancaq müsəlman yoldaşının, yolu başqa tərəfə olduğuna baxmayaraq onunla bir gəldiyini görüb heyrətlə soruşdu:

- Məgər siz Kufəyə getmirdiniz?

Həzrət Əli (ə) buyurdu: - Bəli.

- Bəs onda nəyə görə bu tərəfə gəlirsiniz?

- Bir az səninlə birgə yol getmək istəyirəm. Çünki Peyğəmbərimiz (s) belə buyurub: "İki nəfər yol yoldaşı olduqda, birinin digərinin boynunda haqqı yaranır". İndi sənin mənim boynumda haqqın var ki, səni ötürəm. Mən də bu haqqı ödəmək üçün səninlə bir az yol gedəcəyəm. Beləliklə, sənin haqqını bu dünyada ödəyəcək və sonra arxayınlıqla öz yoluma davam edəcəyəm".

Həzrət Əlinin (ə) bu insani rəftar və davranışı xristianın xoşuna gəlib öz-özünə dedi: "İslam əgər belə bir mədəni dindirsə, tərəfdarları bu qədər yüksək səviyyəli insanlardırsa, mən də gərək müsəlmanlığı qəbul edəm".

Yol yoldaşının islam rəhbəri Həzrət Əli (ə) olduğunu bildikdə daha da heyrətlənən xristian dərhal Əlinin (ə) hüzurunda müsəlmanlığı qəbul edib islama iman gətirdi.

## HƏZRƏT ƏLİNİN (ə) ÖZÜNÜ ƏLƏ ALMASI

İnsan təbii şəraitdə özünü daha yaxşı ələ ala bilər. Belə ki, müxtəlif pislik və günahlardan çəkinərək iradəsinə hakim olar. Lakin qəzəb, hirs və əsəbləşdikdə insanın haqqı görməsi və Allahı xatırlaması olduqca çətin və ağırdır. Buna görə də cinayətlərin çoxu adətən insanın əsəbləşdiyi vaxt baş verir.

Amma kamilliyə çatıb, nəfsini tərbiyə etmiş Həzrət Əli (ə) kimi ülvi bir insanın rəftar və davranışı digər insanlardan fərqlidir. Hər hansı bir vəziyyətdə olursa olsun, yalnız Allahın razılığını nəzərdə tutur, Allaha görə olmayan işlərdən çəkinirdi.

İstər evdə olsun, istər müharibə meydanında, istər sevincli anlarında olsun, istərsə də əsəbləşəndə, onun üçün heç bir fərqi yox idi. Məsələnin daha da aydınlaşmasından ötrü o Həzrətin müharibə meydanındakı rəftarına diqqət yetirək.

Bütün Mədinə xalqının şəhər ətrafında böyük xəndəklər qazaraq, düşmənin yolunu bağlamaq üçün su ilə doldurduğu Xəndək müharibəsində məşhur ərəb cəngavəri Əmr ibn Əbdüvəd düşmən əsgərləri arasında dolanaraq döyüşmək üçün özünə rəqib axtarırdı. Müsəlmanlar arasında onunla döyüşə girməyə heç kəs cəsarət etmirdi.

Elə bu vaxt Həzrət Əli (ə) mətin addımlarla irəli addımlayıb iman dolu qəlbi ilə onun qarşısına çıxaraq belə buyurdu: "Ey Əmr! Başından yekə danışma! Səninlə döyüşmək istəyən qarşındadır!"

Əmr Həzrət Əliyə (ə) baxıb lovğa-lovğa dedi: "Geri qayıt! Səni öldürmək istəmirəm. Çünki atanla dost olmuşam."

Əli (ə) ona belə cavab verdi: "Allaha and olsun, mən isə səni öldrümək istəyirəm".

Bu sözdən hirslənib atından düşən Əmr qılıncını siyirərək Həzrət Əliyə (ə) hücum etdi. Lakin qılınc şiddətlə Əlinin qalxanı ilə toqquşduqda həmləsi boşa çıxdı.

Daha sonra Həzrət Əli (ə) onu yalnız bir zərbə ilə yerə yıxıb öldürmək üçün sinəsinin üstündə oturdu. Bu zaman Əmr Həzrət Əlinin (ə) mübarək üzünə tüpürdü. Həzrət Əli (ə) birdən Əmrin sinəsi üstündən qalxıb bir müddət meydanda yeridikdən sonra təzədən Əmrə tərəf getdi. Əmr soruşdu: «O cür zərbədən sonra məni buraxmağının mənası nədir?"

Həzrət Əli (ə) buyurdu: "Ey Əmr! Mən Allah üçün qılınc çəkirəm, öz nəfsim üçün yox. Səni yerə yıxıb sinən üstündə oturduğum vaxt üzümə tüpürdün və məni hirsləndirdin. Əgər o anda səni öldürsəydim, savab qazanmayacaqdım. Çünki artıq əsəbləşmişdim. Səni məni əsəbləşdirdiyinə görə öldürəcəydim, Allaha görə yox. Buna görə də sənin üstündən qalxdım və bir az yeriyib hirsimi yatırtdım".

Həzrət Əlinin (ə) şücaəti, səbri və nəfsinə hakim olması ərəb pəhlivanı Əmrə çox böyük təsir etmişdi. Hamı - istər dost, istərsə də düşmən, Həzrət Əliyə (ə) diqqət yetirirdi. Dostların dilindən təkbir səsləri ucalarkən, düşmənin canını artıq qorxu bürümüşdü ki, bu da düşmənin tam məğlubiyyətinə zəmin hazırladı. Həzrət Peyğəmbər (s) Əlinin (ə) bu parlaq qələbəsi haqqında belə buyurdu:

"Əlinin Xəndək müharibəsində gördüyü iş və endirdiyi zərbənin dəyəri Allah yanında insanların və

cinlərin ibadətindən daha çox və üstündür".

## HƏZRƏT ƏLİNİN (ə) MEHRİBANLIĞI

Həzrət Əlinin (ə) müharibə meydanında göstərdiyi qəhrəmanlıq və igidliyini müşahidə etdik, lakin qəhrəman və qorxmaz bir insanın əgər mərhəmət və mehribanlığı olmazsa, həmin qəhrəmanlığın heç bir dəyəri yoxdur. O, müharibə meydanında yeridikdə yaralıların, acların və susuzların halını gözləyirdi. Quduz düşmənləri öldürərdi, ancaq ac, yaxud susuz bir düşmən əsgəri ilə qarşılaşıb üzbəüz gəldikdə isə ona rəhm edib, yarasını müalicə edərdi.

Düşmənlərlə qəhrəmanlıqla döyüşərdi. Lakin heç vaxt düşməni ac və susuz öldürməz, ev və ocaqlarını dağıtmazdı. Çünki o, belə rəftar və davranışın imana zidd olmasını bilirdi.

Məhz elə buna görə də Siffeyn müharibəsində suyu Müaviyə ordusunun əlindən ala biləcəyi halda, əsgərlərinə əmr etdi ki, su yolunu bağlamasınlar. Eləcə də düşmən əsgərləri sudan istifadə etmək istədikdə onlara mane olmasınlar.

Bu zaman Həzrət Əlinin (ə) ordusunda olanlar etiraz edib dedilər: Düşmən bizi sudan uzaqlaşdıraraq bununla da bizləri təslim olmağa məcbur etmək istəyirdilər. Əgər eyni işi biz də görsək, biz də mütləq müvəffəq olar, bu müharibədə qələbə çalarıq. Gərək bu fürsətdən istifadə edək.

Əli (ə) onların cavabında belə buyurdu: "Xeyr, biz düşmənlə kişi kimi döyüşəcəyik. Biz belə işləri mərhəmət və şəfqətə zidd hesab edirik. Əgər onların gördüyü işi biz də görməli olsaq, o zaman onlarla aramızda olan fərq nədir?! Bilin ki, bütün işlər Allah üçündür və biz də Onun əmrinə zidd rəftar etməməliyik."

## HƏZRƏT ƏLİNİN (ə) RƏHBƏRLİK DÖVRÜNDƏKİ DAVRANIŞLARI

### XALQ İLƏ BİRGƏ

Bütün çətinliklərə baxmayaraq, Əli (ə) şəxsən özü xalqın işlərinə yetişir, onların ağır problemləri ilə yaxından tanış olurdu. Heç vaxt o, düşmənlə şəxsi qərəzlik üzündən düşmənçilik etməzdi. Hətta onların maaşlarını da beytul-maldan verərdi. Dostlarına isə dostluqlarına görə güzəştə getməzdi. Ətrafındakılara isə həmişə xalqla ədalətli və insaflı davranmalarını əmr edərdi. Qurana zidd olan işləri əsla bağışlamazdı.

Misal üçün, Sudə adlı bir qadın haqqını almaq üçün onun yanına gəldikdə, Həzrət namaz qılırdı. Əli (ə) namazını tez qurtarıb təbəssümlə ondan soruşdu: "Nə istəyin var?" Gözü yaşlı Sudə vergi məmurundan və onun etdiyi zülmlərdən o Həzrətə şikayət etdi.

Həzrət Əli (ə) elə həmin yerdə ağlayaraq buyurdu: "Allahım! Sən şahidsən ki, mən onlara Sənin bəndələrinə zülm etməmələrini əmr etmişəm". Sonra bir dəri parçası götürüb məmurunu vəzifəsindən azad etdiyini yazıb məktubu Sudəyə verdi ki, aparıb həmin məmura çatdırsın.

Daha sonra Əli (ə) belə buyurdu: "Allaha and olsun, əgər əlimdə olan bu vəzifədən məzlum insanların qurtuluşu üçün istifadə edə bilməsəm, əgər zülmün qarşısını ala bilməyib haqqı bərpa etməyi bacarmasam, bu vəzifə mənim üçün köhnə ayaqqabıdan da dəyərsiz olacaq. Rəhbərlik və xəlifəlik mənim üçün hədəf deyildir. Bu məqam ona görədir ki, ondan məhrum və məzlum xalqların xeyrinə istifadə edəm".

## AYRI-SEÇKİLİYİN ARADAN QALDIRILMASI

Xalq Həzrət Əliyə (ə) beyət edikdə, o Həzrət minbərə çıxıb buyurdu:

"Allaha and olsun, o zamana qədər ki, Mədinədə tək bir xurma ağacım var, özümə beytul-maldan bir şey götürməyəcəyəm".

Qardaşı Əqil ayağa qalxıb dedi: "Məni Mədinədə yaşayan zənci ilə bir tutursan?" Əli (ə) belə buyurdu: "Otur qardaşım, sənin o zənci ilə müqayisədə iman və təqvadan başqa heç bir üstünlüyün yoxdur". Daha sonra Əli (ə) elan etdi ki, hökumətində ayrı-seçkiliyə yol verməyəcəkdir.

Yenə bir yay axşamı qardaşı Əqil, qardaşını evinə şama qonaq çağırmışdı. O güman edirdi ki, bununla da maaşının çoxaldılmasını Həzrət Əliyə (ə) qəbul etdirə biləcəkdir. Əli (ə) belə buyurdu: "Hazırladığın bu şamın pulunu haradan qazanmısan?"

Əqil cavabında belə dedi: "Mən və arvadım öz şəxsi xərclərimizi azaldıb qalan pulu yığıb sənə yaxşı yemək hazırlamaq istədik".

Həzrət Əli (ə) belə buyurdu: "Sabahdan sənin aylıq maaşını sənə kifayət edəcək qədər verəcəyəm

(yəni azaldacağam). Çünki etiraf etdiyinə görə, bir az qənaət edəndə daha az xərcləyirsən".

Əqil qardaşının sözlərindən hirslənib çığır-bağır salmağa başladıqda Həzrət Əli (ə) yanındakı dəmiri odda qızdırıb qardaşının əlinə basdı. Əqil qışqırıb "vay yandım" - dedi. Həzrət Əli (ə) bu zaman belə buyurdu: "Qəribədir, sən mənim yandırdığım oddan qorxub qışqırdığın halda necə olur ki, öz rahatlığın üçün Allahın mənə hazırladığı əzab odunda yanmağıma razı olursan. Bu var-dövlət xalqındır və mən də onların etibar etdikləri adamam".

Həzrət Əlinin (ə) yanında çalışan məmurlardan bəzisi Həzrətin hamıya bərabər gözlə baxmasına etiraz edib belə deyirlər: "Əgər üsyan edənlərə və qoşun başçılarına bir az artıq qiymət versəydin, yenicə qurulmuş bir islam sistemini daha yaxşı idarə edə bilərdin".

İmam (ə) isə onların cavabında buyururdu: "Çox qəribədir, siz məndən islam naminə qurulmuş hökumətin təməlini zülm və ədalətsizlik üstündə qurmağımı tələb edirsiniz? Allaha and olsun ki, əsla bu işi görmərəm! Hətta bütün müsəlmanların dövləti mənim olsa belə, yenə də belə bir işə girişmərəm. Halbuki, bu mallar xalqındır və mən onların etibar etdiyi bir nəfərəm".

Bir gün Həzrət Əliyə (ə) xəbər çatdı ki, Bəsrə valisi varlılardan birisinin qonağı olub. Həzrət çox hirsləndi və onu danlayacaq bir məktub yazıb onun üçün göndərdi: "Eşitmişəm yoxsulların olmadığı, dövlətlilərin süfrəsində oturubsan. Bunu bil ki, sənin rəhbərin və imamın olan mən, əgər istəsəm, ən yaxşı və ləziz yeməkləri yeyə bilərəm. Amma mən heç vaxt bu işi görmədim. Çünki məmləkətdə ac qarnına yatanlar ola bilər. Mən sizin dünyanızdan təkcə xurma və çörəkdən ibarət az bir xörəklə və sadə bir paltarla qənaət etdim. Siz mənim kimi ola bilməsəniz də, çalışın ki, yolunuz məndən ayrılmasın".

Həzrət Əli (ə) bu məktubla ona xəbərdarlıq edərək öz rəhbərlik borcunu yerinə yetirdi.

İmamın (ə) həyatı başdan-başa ədalətlə zəngindir. Bir gün o Həzrətin düşməni olan Müaviyə onun əshabından biri olan Ədiy ibn Hatəm ilə qarşılaşıb ona belə sual verdi: "Əlini imamət və xəlifəliyi zamanında necə gördün?"

O, isə cavabında dedi: "Quldurlar onun hökumətində quldurluq edə bilməz, gücsüzlər isə onun ədalətindən həmişə faydalanıb ümidsizliyə düşməzlər".

Həzrət Əlinin (ə) özü də həmişə belə buyurardı: "Xalq məni özünə rəhbər və xəlifə seçdiyi halda, camaatın müxtəlif problem və çətinliklərinə şərik olmağım zəruri deyilmi?!"

Bir gün qoşun başçıları keçmiş səhabə İbn Abbas ilə birlikdə o Həzrətin hüzuruna gəldilər. Həzrət ayaqqabısını yamaqlamaqla məşğul idi. Əli (ə) onlara belə buyurdu:

- Bu ayaqqabının dəyəri nə qədərdir?

İbn Abbas dedi:

- Onun dəyəri bir neçə dirhəmdən artıq olmaz.

- Allaha and olsun, əlimdə olan bu vəzifədən zülmün qarşısını almaq və haqqı bərpa etmək üçün istifadə edə bilməsəm, mənim üçün bu ayaqqabıdan daha dəyərsizdir.

Yəni bu məqam və rəhbərlik mənim üçün hədəf olmayıb, yalnız məhrum xalqların xeyrinə istifadə etmək üçün yeganə vəsilədir.

## ŞİKAYƏTLƏRİ ARAŞDIRMAQ

Həzrət Əli (ə) öz hökuməti və rəhbərliyi dövründə şəxsən şikayətləri dinləyərək məsələləri özü həll edirdi.

Əgər bir nəfərin şikayəti olsaydı, imamın yanına rahatlıqla gəlib şikayətini ona söyləyə bilərdi.

İsti günlərin birində Həzrət bir divarın kölgəsində oturmuşdu. Bir qadın ona tərəf gəlib narahatlıqla dedi:

- Ərim mənə zülm edib, bu istidə məni evdən çölə atıb.

Həzrət Əli (ə) belə buyurdu:

- Ay xanım, hava çox istidir. Hava sərinləyənə kimi dözə bilsən, yaxşı olar. Onda mən də səninlə birlikdə bu məsələyə sərəncam çəkərəm. Qadın belə dedi: - Qorxuram ərim yenə hirslənsin. Əgər mümkünsə tez gedək!

- Yaxşı, sən get, mən də dalınca gəlirəm.

Əli (ə) o qadınla birlikdə gedib o cavan oğlanın qapısını döydü. Qapıya gələn ev yiyəsi Əlini (ə) tanımadı. Amma başa düşdü ki, arvadı bu kişini köməyə çağırıb.

Əli (ə) ev yiyəsinə belə dedi:

- Bu xanım deyir ki, sən onu evdən qovmusan. Mən gəlmişəm ki, sənə nəsihət verib deyəm ki, Allahdan qorxub arvadınla yaxşı rəftar edəsən.

Məğrur cavan Həzrət Əliyə (ə) pis sözlər söylədikdən sonra dedi:

- Bunun sənə heç bir dəxli yoxdur. Mən istədiyim işi görərəm. Hələ üstəlik səni də öz yanında gətirdiyinə görə vay olsun onun halına.

İmam (ə) cavan oğlanın sözlərindən narahat olub etiraz edərək səsini ucaltdı və onu cəzalandırmaq üçün əlini qılıncına tərəf apardı. İmamın səsini eşidən camaat evlərindən bayıra çıxmağa başladılar. Camaat Əlini (ə) görüb ehtiram ilə qabağa gəlib salam verdilər. Bunu görən cavan oğlan başa düşdü ki, qarşısında duran Həzrət Əlidir. Bilmirdi ki, nə etsin. Əlinin ayaqlarına düşüb üzr istəməyə başladı:

- Nə əmr etsəniz, itaət edəcəyəm və bundan belə arvadımla yaxşı rəftar edib onu narahat etməyəcəyəm.

Əli (ə) isə belə buyurdu: "İnşaallah elə olarsan".

Daha sonra qadına tərəf dönüb dedi: Evinə qayıt. İnşaallah sən də ərinə yaxşı arvad olarsan.

## QƏDİR-XUM HADİSƏSİ

Həzrət Peyğəmbər (s) hicrətin onuncu ilində həcc mərasimini təntənəli bir şəkildə yerinə yetirməsi üçün Allah evinə getmişdi. Çünki bu, Həzrət Peyğəmbərin (s) sonuncu həcci idi. Mərasimlər nizam-intizamla yerinə yetirildikdən sonra, Peyğəmbər (s) ilə əshabı Mədinəyə qayıdırdılar. Yol boyu Həzrət Peyğəmbər (s) ümməti üçün vəfatından sonra baş verəcək hadislərədən ötrü çox nigaranlıq keçirirdi. O, bir tərəfdən gələcəkdəki hadisələri görür, digər tərəfdən isə Allahın Əli (ə) haqqında əmr etdiyi borcunu yerinə yetirmək məcburiyyətində qaldığını hiss edirdi.

Həmin borc Əlini (ə) xəlifə təyin etmək idi. Vəhy mələyinin Həzrət Peyğəmbərin (s) ruh və qəlbinə nazil etdiyi vəhyin səsi qulaqlarında əks-səda verir: "Böyük bir borcun var. Əgər bu borcu yerinə yetirməsən, elə bil heç risalətini təbliğ etməyibsən. Bil ki, Allah səni düşmənlərin hiylə və tələlərindən qoruyacaqdır".

Peyğəmbərdən (s) sonrakı şəxs Peyğəmbərin (s) bütün kamal və dəyərlərinə sahib olmalı idi. Bu şəxsiyyət Əli ibn Əbu Talibdən başqa kim ola bilərdi?! O Əli ki, Peyğəmbər dəfələrlə onu xalqın arasında tərifləyib buyurmuşdu: "Əli ümmətimin ən bilicisidir. Mən elmin şəhəriyəm, Əli də onun qapısıdır. Hər kəs mənim elmimi öyrənmək istəyirsə, Əliyə müraciət etsin".

Elə buna görə də Həzrət Əli (ə) minbərdə həmişə belə deyərdi: "Ey camaat! Məni əldən verməmişdən əvvəl, istədiyinizi soruşun!"

Allahın əmrinə görə Həzrət Peyğəmbər (s) Allahın buyurduğu şəkildə islam dinini təkmilləşdirmək üçün Əlini (ə) xəlifəliyə seçmək qərarına gəldi. Allah öz Peyğəmbərini təbrik edib müjdə verdi: "Bu gün islam dinini mükəmməl edib, sizlərə nemətimi tamamladım".

Həmin həcc müqəddəs və bərəkətli bir həcc idi. Yüz iyirmi mindən çox insan Peyğəmbərlə birlikdə idilər.

Onların hamısı Zilhəccə ayının 18-də Cöhfə deyilən yerdə Qədir-xum adlı məntəqəyə çatdıqları vaxt Həzrət Peyğəmbər (s) karvanların dayanmasını əmr etdi. Peyğəmbərin (s) əmri ilə hamı o isti havada dayanıb öz-özlərinə fikirləşdilər ki, mütləq əhəmiyyətli bir məsələ vardır ki, Peyğəmbər bizi bu istidə saxlayıbdır. Onların düşündükləri kimi həqiqətən də bu mövzu çox əhəmiyyətli idi.

Peyğəmbər üçün dəvələrin yəhərlərindən ibarət bir minbər düzəltdilər. Bir neçə nəfəri də camaatın arasında Peyğəmbərin sözlərini təkrar etmələri üçün yerləşdirdilər.

Həzrət Peyğəmbər (s) ətrafındakı əshabı ilə gəlib minbərə çıxdı və belə buyurdu:

"Ey camaat! Mən peyğəmbərlik vəzifəmi yerinə yetirib var qüvvəmlə çalışdım. Bilin ki, özümdən sonrakılar üçün iki dəyərli şeyi (əmanəti) qoyub gedirəm. Bu ikisi bir-birindən heç vaxt ayrılmazlar: Allahın kitabı və Əhli-beytim".

Daha sonra hamının görə bilməsi üçün Həzrət Əlinin (ə) əlini uca bir bayraq kimi qaldırıb buyurdu:

"Mən hər kəsin mövlasıyamsa (rəhbəriyəmsə), bilsin ki, Əli də onun mövlasıdır. Allahım! Əli ilə dost olanla dost, düşmən olanla isə düşmən ol. Ona yardım edənə yardım et. Onunla müharibə edənlə düşmən ol. Ey burada olan müsəlmanlar, burada olmayanlara sözlərimi yetirin. İnşaallah ki, eşidib qəbul edərlər".

Bundan sonra hamı, hətta Əbu Bəkr, Ömər və Osman da gəlib Əlini (ə) təbrik etdilər.

## HƏZRƏT ƏLİNİN (ə) XƏLİFƏ SEÇİLMƏSİ

Vəzifəyə çatmaq üçün islamı qəbul edən və özlərini Peyğəmbərlə birlikdə göstərməyə çalışanlar, xəlifəliyi Bəni Haşim nəslindən almaq üçün gizli yığıncaqlar keçirirdilər. Onlar planlarını həyata keçirməkdən ötrü münasib bir fürsətin sorağında idilər. Çünki bilirdilər ki, qarşılarında olan şəxsin

islama xidmətlərini hamı təsdiqləyib. Peyğəmbər onun haqqında tövsiyə edib və Qədir-xum günündə hamı ona beyət edibdir. Peyğəmbərin (s) vəfatından sonra həmin planlar ardıcıl surətdə həyata keçirilməyə başladı. Belə ki, Həzrət Əlini (ə), o yüksək şəxsiyyəti susmaq məcburiyyətində qoydular. Çünki o, təkcə islamı düşünür, məqam və vəzifəyə meyl göstərmirdi. Əgər məsələni qılıncla həll etməyə cəhd etsəydi, düşmənlərinin arzusunu yerinə yetirmiş olacaqdı.

Nəhayət xalqın narazılığı ən yüksək zirvəsinə çatdığından inqilab qığılcımı xalq kütlələrinin ürəyində alovlanmağa başladı.

Vəziyyətdən bezmiş xalq coşqun bir sel kimi Osmanın evinə tərəf axıb onu qılıncdan keçirdilər.

Xalq o qədər coşmuşdu ki, Həzrət Əlinin (ə) Osmanın canını qurtarmaq üçün göndərdiyi imam Həsən (ə) və imam Hüseynin (ə) sözünə də qulaq asmadılar. Camaat qılınclarından qan damarkən və həyəcan odunda yanarkən Həzrət Əlinin (ə) evinə tərəf axışıb böyük bir məhəbbət və sevinclə onu özlərinə tərəf çəkib beyət etdilər və beləliklə, onu özlərinə xəlifə və rəhbər seçdilər.

## HƏZRƏT ƏLİNİN (ə) ŞƏHADƏTİ

Nəhrəvan müharibəsindən sonra "xaricilər" adlı bir dəstə Məkkədə hər gün yığıncaqlar təşkil edib Nəhrəvanda ölənlər üçün ağlayırdılar. Bir gün onlar öz aralarında belə bir fikrə gəldilər ki, oturub ağlamağın mənası yoxdur. İslam hökumətini devirib qardaşlarımızı öldürən adamları məhv etməliyik. Əvvəlcə Əli, Müaviyə və Əmr ibn Ası öldürmək lazımdır. Bu üç nəfəri öldürmək üçün könüllülər tələb olunduqda ibn Mülcəm (lən.) ayağa qalxıb "mən Əlini öldürəcəyəm", - dedi. Daha sonra Əmr ibn Bəkr Təmimi "mən də Əmr ibn Ası öldürəcəyəm", - söylədi. Bir başqası da Müaviyəni öldürməyi öz öhdəsinə aldı.

Onların üçü də and içib mübarək Ramazan ayının 19-u planlarını həyata keçirmək üçün münasib vaxt bildilər. Sonra isə qərarlaşdıqları günü gözləmək üçün öldürəcəkləri adamların yaşadıqları şəhərlərə yollandılar. Təəssüflər olsun ki, o iki nəfər işlərində müvəffəq olmadılar, amma İbn Mülcəm (lən.) müvəffəq oldu.

İbn Mülcəm (lən.) Kufəyə gəlib Əlinin (ə) düşmənləri ilə əlaqə yaradaraq Ramazan ayının 19-cu gününə qədər onların evində qaldı.

Bir gün Əli (ə) Kufə küçələrindən birində onunla qarşılaşdı. İbn Mülcəm (lən.) özünü gizlətmək istədisə də, Əli (ə) onu görüb belə buyurdu: "Kufəyə nəyə gəldiyini bilirəm".

Bu sözləri eşidən İbn Mülcəm (lən.) qorxdu və ayaqları titrəməyə başladı. Həzrət Əliyə (ə) belə dedi: "Onda ey Əli, əmr et ki, məni öldürsünlər, ya zindana atsınlar, ya da sürgün etsinlər".

Əli (ə) ona baxıb belə dedi: "Bu üç təklifdən hər birini sənin haqqında tətbiq edə bilərəm, amma islam dini öldürmə və cinayətdən qabaq qisası rəva görməz. Səni sərbəst buraxıram ki, bəlkə fikrindən dönəsən".

Nəhayət, hicri 40-cı ilin Ramazan ayının 19-da İbn Mülcəm (lən.) namazda səcdə halında olan Həzrət Əlinin (ə) başına zəhərli bir qılınc vurdu. Bununla da təqva və iman dağı olan Həzrət Əlini (ə) şəhid edərək islam dünyasını matəmə qərq etdi. Həzrət Əlinin (ə) mehrabdakı "and olsun Allaha ki, artıq feyzə çatdım" səsinin dalınca Cəbrail mələyin səsi yüksəldi: "Vallahi, hidayət sütunları yıxıldı və Əli şəhid edildi."

Camaat Əlinin (ə) qatilini tutub imam Həsən-Müctəbaya (ə) təhvil verdilər. İmamın yaralı bədənini isə öz evinə apardılar.

İmam Əli (ə) öz qatili barəsində oğlu Həsənə belə buyurdu: "Oğlum! Mənim qatilim olan bu adama xörək və su verin. Onu sərbəst buraxmayın. Əgər diri qalsam, ona nə edəcəyimi bilirəm. Amma əgər ölsəm, ona bir qılınc zərbəsindən artıq vurmayın."

Amma əfsus ki, Əli (ə) daha yaşamadı və Ramazan ayının 21-də, 63 yaşında əbədiyyətə qovuşdu. Onun pak bədəni gizlin şəkildə Nəcəfi-əşrəf şəhərində torpağa tapşırıldı.

# ÜÇÜNCÜ MƏSUM
# HƏZRƏT FATİMƏ (s.ə.)

## HƏZRƏT FATİMƏNIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Fatimə (s) |
| **Atasının adı:** | Muhəmməd (s) |
| **Anasının adı:** | Xədicə (s.ə.) |
| **Təvəllüdü:** | 20 cəmadiüs-sani, cümə günü, besətin 5-ci ili. |
| **Doğulduğu yer:** | Məkkə |
| **Şəhadət ili:** | Hicri 11-ci il |
| **Dəfn olunduğu yer:** | Məlum deyildir. |

İslamdan əvvəl, cahiliyyət dövründə qadınları bədbəxtlik səbəbi hesab edir, buna görə də qız uşaqlarını diri-diri basdırırdılar.

Amma islam dini belə inam və düşüncələrə zidd olduğuna görə Həzrət Peyğəmbər (s) həmişə cahiliyyət millətinin fikri və əməllərini tənqid edirdi. O, qadınların da kişilər kimi insan olduqlarını, onların da insanlıq imtiyaz və hüquqlarından istifadə edə bilmələrinin zəruriliyini və heç kəsin qadınları təhqir etmək haqqına malik olmadığı fikrini müdafiə edirdi.

İslam və Quran tərbiyəsi ilə böyüyən Xədicə, Fatimə və Zeynəb kimi şəxsiyyətlərlə islamın qadınlara verdiyi böyük qiymət nümayiş etdirilir. Bütün əsrlərin qadınları üçün örnək olmalı belə misilsiz qadınların yetişməsi qadın olmağın həqiqi mənasını ifadə edir.

Indi isə həmin qadınlardan biri olan, Peyğəmbərin (s) qızı, Əlinin (ə) xanımı, Həsən və Hüseynin, Zeynəbin anası Həzrət Fatimənin (s.ə.) həyatını oxuyacağıq. Bununula da nümunəvi müsəlman qadının necə olduğunu müşahidə edəcəyik inşaallah.

## TƏVƏLLÜDÜ

Həzrət Zəhranın (s.ə.) doğumu əsnasında Allahın Peyğəmbəri (s) Xədicəyə belə buyurdu: “İndi Cəbrail mənə muştuluq verdi ki, pak və gül kimi bir qız uşağımız dünyaya gələcək, bütün imam və məsum rəhbərlər onun nəslindən gələcək”.

Həzrət Fatimə (s.ə.) besətdən (Həzrət Muhəmmədin peyğəmbərliyə seçilməsindən) beş il sonra, cəmadiüs-sani ayının iyirmisində, cümə günü Məkkə şəhərində dünyaya göz açdı. O vaxtlar Qureyş hələ Kəbənin binasını yenidən tikdirirdi.

## HƏZRƏT FATİMƏNİN (s.ə) TƏRBİYƏSİ

Həzrət Fatimə (s) nübuvvət və risalət evində tərbiyə alıb Peyğəmbərin elmindən faydalandı. Quranı Peyğəmbərin (s) dilindən eşidib öyrənirdi. Həzrət Fatimə (s.ə.) Quran və atasının sözlərinə çox bağlanmışdı.

Bir gün Ayişə Peyğəmbərə (s) belə bir sual verdi: «Nəyə görə Fatiməni bu qədər sevirsən? O içəri girdiyi vaxt onun üçün ayağa qalxır, yanında otuzdurub əlini öpürsən?»

Peyğəmbər (s) onun cavabında belə buyurdu: “Ey Ayişə! Əgər mənim onu nə üçün sevdiyimi bilsən, sən də onu mənim qədər sevərsən!”.

Peyğəmbərimiz (s) Həzrət Fatiməni (s.ə.) öz bədəninin bir hissəsi hesab edib, həmişə belə buyurardı: “Fatimə mənim bədənimin bir hissəsidir, hər kəs ona əziyyət etsə, mənə əziyyət edibdir, hər kəs də onu sevindirsə, məni sevindiribdir”.

Həzrət Peyğəmbər (s) bir gün Həzrət Fatiməyə (s.ə.) belə buyurdu: “Ey Fatimə! Allah sənin qəzəbinlə qəzəblənir, sənin razılığınla və sevincinlə isə sevinir”.

## FATİMƏNİN (s) PEYĞƏMBƏRƏ BƏNZƏMƏSİ

Həzrət Fatimənin (s.ə.) siması, danışığı və hərəkətləri atasına çox bənzəyərdi. Belə ki, Ümmü Sələmə bu haqda belə deyir: “Peyğəmbərə ən çox bənzəyən Fatimə idi”.

Ayişə isə belə deyir: “Danışıqda Peyğəmbərə Fatimədən daha çox bənzəyən birisini görmədim”.

## ATA VƏ QIZ

Peyğəmbərlə (s) Fatimə (s.ə.) arasında olan sevgi və məhəbbət birtərəfli deyildi. Həzrət Zəhra (s) da atasını çox sevirdi. Buna görə də anası Xədicə vəfat edəndən sonra Həzrət Fatimə (s.ə.) altı yaşında olmasına baxmayaraq, atasının evdəki bütün ehtiyaclarını təmin edərək rahat olmasına cəhd göstərirdi.

Atasının mübarək alnından qan damlaları töküldüyü vaxt balaca əlləri ilə atasının üzünü təmizləyib yaralarını müalicə edər, şirin sözlərlə atasına təsəlli verərdi.

Elə bir ata ki, peyğəmbərlik kimi ağır bir vəzifəni öhdəsinə alaraq cəbhələrdə bütpərəstlik və cəhalətlə döyüşdüyü üçün öz vətənində qərib, şəhərində və qohumlarının arasında tək qalmışdı, hamı ondan üz döndərmişdi.

Həzrət Fatimə (s) öz məhəbbəti ilə atasının ürəyini sevinclə doldurub onun risalətinə inanan, ona qüvvət və ümid verən bir qız idi.

Elə buna görə də atası onun haqqında belə buyurmuşdu: “Atası Fatiməyə fəda olsun”. Və ona “atasının anası” ləqəbini vermişdi. Çünki o, atasına bir ana kimi qayğı göstərirdi.

## HƏZRƏT FATİMƏNİN (s.ə.) İZDİVACI

Həzrət Fatimənin (s.ə.) artıq ərə getmək vaxtı çatmışdı. Onun əri elə bir adam olmalı idi ki, insanlıq dəyərlərində və kamal üstünlüyündə Fatimə ilə bərabər olsun. Eləcə də Zəhraya layiq olan hörmət və sevgini ona göstərib dəyərini dərk etsin. Həzrət Fatiməyə (s.ə.) bir çox ailələrdən elçilər gəlirdi. Bunlardan bəziləri isə Ömər, Əbu Bəkr və başqaları idi. Amma Həzrət Peyğəmbər (s) qızına elçi gələnlərə belə buyurardı: “Bu barədə vəhy gözləyirəm”.

Nəhayət vəhy gəldi və Həzrət Fatimənin (s.ə.) əri bəlli oldu. “Ey Peyğəmbər! İşığı işıqla - Fatiməni Əli ilə evləndir!”.

Əlinin (ə) Həzrət Fatimə (s.ə.) ilə evlənəndə, əlində dünya malından bir şey olmasına baxmayaraq, bütün maddi dəyərlərdən daha üstün və dəyərli bir xəzinəsi var idi: İnsanlıq şərəfi və təqva.

Peyğəmbər (s) Həzrət Əlinin (ə) istədiyini qəbul etdikdən sonra qızının fikrini soruşmaq üçün onun yanına gəlib buyurdu:

“Sən də Əlini yaxşı tanıyırsan, o xalqın arasında mənə ən yaxın olanı, islama saysız-hesabsız xidmətlər göstərmiş fəzilətli bir adamdır. Bax, Allah da sənin üçün Əlini seçib. Sənin bu haqda fikrin nədir?”

Fatimə susdu. Peyğəmbər onun sükutundan xanım Zəhranın bu məsələyə razı olmasını başa düşüb çox sevindi.

## TOY MƏRASİMİ

Peyğəmbərin (s) əmri ilə Bəni Haşim qəbiləsi və əshab o gün bir yerə yığıldılar. Daha sonra Peyğəmbər (s) bir xütbə oxuyaraq Əli ilə Fatiməni evləndirdi. Kəbininə də dörd yüz misqal gümüş təyin etdi.

Əshabdan birisi deyir: "Həzrət Fatimənin (s.ə.) kəbin mərasimində Peyğəmbər (s) qoyun kəsib sadə bir yemək verəndən sonra, hamıdan bu barədə şahidlik aldı".

Həzrət Zəhranın (s.ə.) kəbininin kəsilməsindən bir ay sonra, hicrətin ikinci ilində toy mərasimi keçirildi. O axşam Peyğəmbər (s) Fatimənin (s.ə.) əlini Əlinin (ə) əlinin üstünə qoyub buyurdu:

“Ey Əli! Fatimə sənin üçün seçilmiş ən yaxşı xanımdır.” Sonra isə Fatiməyə sarı dönüb buyurdu: “Ey Fatimə! Əli də sənin üçün seçilən ən yaxşı ərdir”. Sonra “artıq öz evinizə gedə bilərsiniz”, - deyərək onları evlərinə yola saldı.

Mühacir, ənsar və Bəni Haşim qadınları, əshab və dostlar şamdan sonra Həzrət Fatiməni (s.ə.) Peyğəmbərin (s) dəvəsinə mindirib sevinc və şadlıqla onu Həzrət Əlinin (ə) evinə apardılar.

Əli (ə) və Fatimə (s.ə.) Mədinədən səkkiz kilometr uzaqlıqda, Quba məscidinin yanında yeni həyatlarına başladılar. Həmin məscid hicrət əsnasında Peyğəmbərin (s) Həzrət Əlini (ə) bir həftə gözlədiyi yerdə tikilmişdi.

Çox çəkmədi ki, onlar yenidən Mədinəyə köçüb özlərinə Peyğəmbərin (s) qonşuluğunda bir ev tikdilər. Çünki Peyğəmbər (s) üçün Əli və Fatiməni yanında görməmək, onlardan uzaq qalmaq çox çətin idi. Əli (ə) öz evini palçıq, xurma ağacının yarpaq və budaqlarından tikdi. Onların evlərinin kiçik qapısı ilə Peyğəmbərin evinin qapısı hər gün səhər çağı, iki ürəyin bir-birinə qovuşduğu kimi, bir-birinin üzünə açılırdı.

Quran və hədislərdə bu qədər təriflənən, bütün pisliklərdən uzaq olduğu qeyd olunan Əhli-beyt, itrət evi və ailəsi, məhz elə bu ev və bu ailədə idi.

Elə bir ev ki, Əli orada ata, Fatimə ana, Həsən və Hüseyn oğlu, Zeynəb ilə Ümmi Gülsüm isə qızı idilər.

Bu ev bütün zaman və illərdə nəsillər üçün nümunəvi bir örnəkdir.

## BƏRƏKƏTLİ AİLƏ

Həzrət Fatimə (s.ə.) Əli (ə) ilə birgə böyümüşdü, onu qayğıkeş bir ər və atasının ətrafında dolanan yüksək bir insan kimi tanımışdı.

Artıq bu iki insanın qəlbi xüsusi bir şəkildə bir-biri ilə qovuşmuşdu. Belə ki, heç birinin cahiliyyətlə əlaqəsi yox idi. İkisi də həyatlarının ilk illərindən başlayaraq risalət dənizi ilə vəhy nurunun kölgəsində böyümüşdülər. Həzrət Fatimə (s.ə.) bilirdi ki, Həzrət Əlinin (ə) maddi sərvəti yoxdur, onun ən böyük sərmayəsi yalnız atasının hədəfləri uğrunda fədakarlıq etməsidir.

O bilirdi ki, əri bütün cavanlığını inam və cihad ilə keçirərək ömrü boyu islam və müsəlmanlara xidmət etmiş, cihaddan başqa bir şey düşünməmişdir.

Xanım Zəhra özü un üyüdər, çörək yapar və bütün ev işlərini görərdi. Halbuki, bacıları Zeynəb, Rüqəyyə və Ümmü Gülsüm ərlərinin evində bolluq və nemət içində yaşayırdılar.

Fatimə (s.ə.) cavan ağac kimi vəhy işığının kölgəsində böyüyüb, azadlıq və ədalət meyvəsi yetişdirərək Quranın buyurduğu kimi “Şəcəreyi Təyyibə” (yaxşılar ağacının) başlanğıcı olmalı idi.

## NÜMUNƏVİ AİLƏ

Həzrət Əli (ə) ilə Fatimənin (s.ə.) həyatı bütün nəsillər üçün laiyqli bir məktəbdir ki, ondan nümunəvi dərslər öyrənmək lazımdır.

Onların arasındakı əməkdaşlıq diqqətə layiqdir. Belə ki, Əli (ə) çöl işlərindən əlavə ev işlərində də Fatiməyə kömək edərdi. Fatimə (ə) də həmişə Əlinin (ə) razılığını cəlb etməyə, eləcə də onun narahatlıq və yorğunluğunu azaltmağa çalışardı.

Bir-birlərinə qarşı olan rəftarları sanki tərbiyə və ədəbdən yoğrulmuşdu. Belə ki, bu iki həyat yoldaşı heç vaxt bir-birlərini adları ilə çağırmazdılar.

Əli (ə) xanımını çağıranda “ya bintə Rəsulullah” (ey Peyğəmbərin qızı) - deyə onu səsləyər, Fatimə (s) isə ərini “ya Əmirəl-möminin” - deyə çağırardı.

Bir belə çətinliklərlə yanaşı uşaqlarının təlim-tərbiyəsini də unutmurdular. Onların sözlərinə qulaq asır, müxtəlif suallarına cavab verərək bu balaca uşaqlar ilə çox mehriban rəftar edirdilər. Heç vaxt onların üstünə qışqırmaz və ya narahatedici bir söz söyləməzdilər.

## İZDİVACIN MEYVƏLƏRİ

Hicrətin 3-cü ilində Həzrət Fatimənin (s.ə.) ilk uşağı dünyaya gəldi və uşağın adını Həsən (ə) qoydular.

Bu övladın doğumu ilə Peyğəmbərimizin kin, düşmənçilik və dostlarının işgəncəyə məruz qalmasından yoğrulmuş ruhu sevindi və həyatın şirinliyini daddı.

Peyğəmbər (s) dərhal sevinc və şadlıq içində Fatimənin evinə gəlib Fatimə ilə Əlinin ilk meyvəsi olan uşağı qucağına alaraq qulağına azan oxudu və onun saçının ağırlığı qədər Mədinənin yoxsullarına gümüş payladı.

Bir il sonra isə ikinci övladları Hüseyn (ə) dünyaya gəldi.

Artıq Peyğəmbərin (s) Allahın təqdiri ilə əlindən gedən iki oğlu, Qasim və Tahirin yerinə iki övladı dünyaya gəlmişdi.

Sanki Allah, Peyğəmbərin (s) nəslinin təkcə Fatimənin (s.ə.) uşaqları ilə davam etməsini istəmişdi. Bu ulduzların dünyaya gəlməsi ilə yeni bir üfüq yarandı. Çünki, Həzrət Muhəmməd (s) özünü, Əlini və Fatiməni bu iki uşağın simasında görürdü.

Peyğəmbər (s) Həsən ilə Hüseyni iki uşağının əvəzində bağışladığı üçün öz Allahına şükr edirdi. O Həzrətin Həsən və Hüseynə olan dərin məhəbbəti hamını heyrətdə qoymuşdu.

Bir gün Fatimənin evinə gəldiyi vaxt Əli (ə) ilə Fatimə (s.ə.) yatmış, Həsəni isə ağlayan görüb yavaşca tez bir qoyunu sağıb südünü Həsənə (ə) içirdərək onu ovutdu.

Başqa bir gün isə Fatimənin (s.ə.) evinin yanından keçəndə Hüseynin (ə) ağladığını eşitdi. Tez evə girib Fatiməyə (s.ə.) buyurdu: “Bilirsənmi ki, onun ağlaması məni də ağladır?!”

Hüseyndən (ə) bir il sonra bir qızları dünyaya gəldi, adını Zeynəb qoydular. Bir il sonra yenidən bir qızları oldu və onun da adını Ümmü Gülsüm qoydular.

Zeynəb və Ümmü Gülsüm Peyğəmbərin (s) vəfat edən iki qızının adları idi. Hicrətin 8-ci ilində Allah-taala Peyğəmbərinə (s) daha bir övlad ehsan etdi ki, adını İbrahim qoydular. Amma bir il sonra o öldü.

Artıq Peyğəmbər (s) qızının uşaqlarına elə bağlanmışdı ki, onlardan heç cür ayrıla bilmirdi. Evdən çıxıb Mədinənin küçələrində gəzdiyi vaxt, həmişə bu iki uşaqdan birisini özü ilə gəzdirərdi.

## ATASININ ÖLÜM YATAĞINDA

Peyğəmbər (s) xəstələnmişdi, başı Həzrət Əlinin (ə) sinəsi üstündə, əli ilə onun əlindən tutmuşdu. Fatimə (s.ə.) də Peyğəmbərin (s) yatağının yanında oturub ağlayırdı. Atası gözlərini açıb Həzrət Fatiməni (s.ə.) ağlayan gördükdə ona belə buyurdu: “Qızım, mənə Quran oxu!”. Fatimə (s.ə.) də Qurandan bir neçə ayə oxudu. Peyğəmbər (s) həyatının son anlarında, ölümünün rahat ötməsi üçün qızının səsini eşitmək istəyirdi.

Peyğəmbər (s) dünyadan köçərkən evini qəm və matəmə bürümüşdü.

Atasının vəfatından kədərlənən Fatimənin (s.ə.) bədəninə sanki ağır bir zərbə endirilmişdi. Az bir müddət keçməmiş yeni bir zərbə endirildi: o da ərinə qarşı törədilən cinayət idi.

Həzrət Fatimeyi-Zəhra (s.ə.) əvvəlki kimi yenə də fədakarlıqla ərinin qəsb olunmuş haqqını müdafiə edirdi.

Belə ki, hətta bir gün Bəni Haşim və ənsardan olan qadınlarla birgə atasının məscidinə gəlib, xəlifənin hüzurunda fövqəladə təsiredici bir xütbə oxuyaraq sözlərini açıq-aşkar bəyan etməsi oradakıların hamısını ağlatmışdı. Amma onların qayğısını görməmişdi. Sanki, onların üstünə soyuq su ələnib zillət tozu qonmuşdu.

Həzrət Fatimə (s) əsəbi və narahat bir şəkildə evə gəlib, Əliyə (ə) buyurdu: “Nəyə görə haqqını müdafiə etmirsən?”

Həzrət Əli (ə) Fatimənin (s.ə.) cavabında belə buyurdu: “Atanın adının məscidlərdə ucalmasını istəyirsənmi? Atanın hədəflərinin məhv olmamasını istəyirsənmi?”

Fatimə “Bəli” - dedi.

Əli (ə) belə buyurdu: “Əgər onların istədiyi kimi mən də qılınca əl aparsam, atanın və ərinin zəhmətləri puça çıxar və hamımız məğlub olarıq.”

Fatimə (s.ə.) heç bir söz danışmadı və öz sükutu ilə mübarizəsinə davam etdi. Eynilə iyirmi beş il susaraq məzlumluğunu aləmərə əməli ilə car çəkib nümayiş etdirən əri Həzrət Əli (ə) kimi.

# HƏZRƏT FATİMƏNİN ŞƏHADƏTİ

Artıq yaşaya bilmirdi Zəhra. Gün keçdikcə yaradanına qovuşmaq üçün səbirsizləşirdi. Nəhayət hicri 11-ci ilin cəmadiüs-sani ayının üçüncü bazar ertəsi günü, atasının vəfat etdiyi ildə, uşaqlarını öpüb onlarla vidalaşdı.

Qoy bütün nəsillər bilsin ki, Peyğəmbərimizin (s) qızı xanım Zəhra öz əcəli ilə ölməmişdir. Onu və onun bətnindəki hələ dünyaya gəlməmiş Möhsününü xəyanətkar zalımlar şəhid etmişlər. Çünki, xanım Zəhra öz atası və ərinin qəsb olunmuş haqqını müdafiə etdiyi üçün o xəyanətkarlar tərəfindən amansızcasına qətlə yetirilmişdir. Bəli, o gecə Zəhra bütün ailəsi ilə vidalaşdı:

Yeddi yaşında olan Həsən (ə) ilə;

Altı yaşında olan Hüseyn (ə) ilə;

Beş yaşındakı Zeynəb (ə) ilə;

Üç yaşında olan Ümmü Gülsüm ilə;

Axırda isə Əli (ə) ilə vidalaşdı. Nə çətin idi o vida anları! Fatimə (s.ə.) qüsl etmək üçün su istədi. Allahı ilə görüşə getdiyi üçün təzə paltar geydi. Sonra isə üzü qibləyə tərəf uzandı və gözləməyə başladı. Bir az sonra gözlərini yumub dünyadan köçməsi ilə Əlinin (ə) evində yanan bir şam artıq sönmüşdü.

Əli (ə) Fatimənin (s.ə.) vəsiyyətinə əməl edərək ona özü qüsl verdi, kəfənləyib dəfn etdi.

Xanım vəsiyyət etdi ki, qəbrinin yeri gizli qalsın. Həzrət Fatimə (s.ə.) bu vəsiyyətilə gələcək nəsillərə bunu demək istəyirdi ki, mənə zülm olundu, ürəyim qəmlə doludur və mən intiqam gününü gözləyirəm.

Artıq Əli (ə) yalqızdır. Tənha özü qalıb, bir də uşaqları...

Həzrət Zəhranın (s.ə.) qəbrinin yanında oturub Peyğəmbərin (s) qəbrinə xitabən dedi: “Ey Allahın Peyğəmbəri! Mənə tapşırdığın əmanəti sənə qaytarıram. Başıma gələn bütün əhvalatları qızın sənin üçün olduğu kimi danışacaqdır. Bütün suallarını ondan soruş. O, hamısını sənə deyəcək!"

# DÖRDÜNCÜ MƏSUM
# İMAM HƏSƏN (Ə)

İMAMIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Həsən |
| **Ləqəbi:** | Müctəba |
| **Kunyəsi:** | Əbu Muhəmməd |
| **Atası:** | Əli (ə) |
| **Anası:** | Fatimeyi-Zəhra (s.ə.) |
| **Babası:** | Peyğəmbər (s) |
| **Doğum ili:** | Hicri 3-cü il |
| **İmamlıq müddəti:** | 10 il |
| **Ömrü:** | 48 il |
| **Şəhadəti:** | Hicri 50-ci ildə, Müaviyənin təhriki ilə zəhərləndirilmişdir. |
| **Məzarı:** | Mədinə, Bəqi qəbristanlığı. |

## TƏVƏLLÜDÜ VƏ UŞAQLIĞI

Üçüncü hicri ilinin mübarək Ramazan ayının 15-də Həzrət Əlinin (ə) evində ilk uşaq dünyaya gəldi. Həzrət Peyğəmbər (s) Allah-taalanın əmri ilə nəvəsinin adını Həsən qoydu. İmam Həsən (ə) atası Əli (ə) və anası Fatimeyi-Zəhranın (s.ə.) tərbiyəsi sayəsində böyüdü. Babasının, eləcə də atasının məktəbindən elmi dərslər aldı.

O, Peyğəmbər (s) nəzərində çox dəyərli və üstün bir uşaq idi. Günlərin bir günündə Həzrət Peyğəmbər (s) minbərdə söhbət etdiyi vaxt imam Həsənin (ə) ağlamaq səsini duyduqda tez minbərdən aşağı düşüb, onun qəlbini ələ aldıqdan sonra yenidən minbərə çıxdı. Camaat bu hərəkəti barədə Peyğəmbərə (s) sual verdikdə, o Həzrət belə buyurdu: "Onu ağlayan gördükdə, dözə bilmirəm".

Peyğəmbər (s) namazını camaatla birgə qılıb qurtardıqdan sonra imam Həsəni (ə) qucağına alıb belə buyurdu: "Hər kim məni sevirsə, Həsəni də sevsin!".

Bir dəfə isə Həzrət Peyğəmbər (s) imam Həsəni (ə) çiyni üstə götürüb belə buyurdu: "Allahım, bu uşağın sayəsində ümid edirəm ki, ümmətimi (bütün pisliklərdən) təmizləyəcəksən".

Başqa bir hədisində isə belə buyurub: "Həsən və Hüseyni sevən məni də sevir, bu iki nəfərlə düşmənçilik edən isə mənimlə düşmənçilik edir. Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır".

Başqa bir hədisdə isə: "Həsən və Hüseyn Allah ərşinin iki qoşa nurudur ki, Allahın cənnəti onlarla fəxr edir" - deyə buyurmuşdur.

## ELM VƏ ƏXLAQI

Bir gün Peyğəmbər (s) məscidində qoca bir kişi düzgün olmayan bir şəkildə dəstəmaz alırdı. İmam Həsən (ə) ona dəstəmazının səhv olduğunu başa salıb anlatmalı idi, amma necə? Əgər ona desəydi ki, dəstəmazın səhvdir, onda qəlbi sınar, yaxud narahat olub qəbul etməyə bilərdi. O, qardaşı imam Hüseyn (ə) ilə birlikdə belə qərara gəldilər ki, özləri dəstəmaz alıb həmin qoca kişini də onların bu hərəkətinə qiymət verməyə çağırsınlar.

İmam Həsən (ə) imam Hüseynə (ə) dedi: "Mən səndən daha yaxşı dəstəmaz alıram".

İmam Hüseyn (ə) isə onun cavabında: "Yox, mən səndən daha yaxşı dəstəmaz alıram" - dedi.

İkisi də qoca kişinin yanına gəlib dedilər: "Bizim dəstəmaz almağımıza baxıb, hansımızın daha düzgün dəstəmaz almağımızı söylə". Sonra dəstəmaz almağa başladılar. Özü də dəstəmazlarını düzgün və tam şəkildə yerinə yetirdilər.

Qoca kişi başa düşdü ki, onlar onun doğru dəstəmaz almadığını demək istəyirlər. Buna görə də onlara belə dedi: "İkinizin də dəstəmazı düzdür. Dəstəmaz almağı düzgün bilməyən cahil isə mən idim. Siz məni başa salmaq istəyirdiniz. Mən də sizə minnətdaram".

## TƏQVA VƏ İXLASI (SƏMİMİYYƏTİ)

İmam Həsən Müctəba (ə) camaatdan daha artıq ibadət edər və dünyaya meyl göstərməzdi. Həcc mərasimini yerinə yetirməkdən ötrü Məkkəyə gedəndə piyada gedər, namaz qılanda, ya dəstəmaz alanda isə özünü Allah qarşısında aciz görüb bədəni titrəyər və buyurardı ki, Allahın əmanətini əda etməyin vaxtıdır.

Məscidə girib mehrabda durduğu vaxt başını göylərə qaldırıb buyurardı: “Allahım, hüzurunda duran şəxs Sənin qonağındır. Sənin günahkar bəndən Sənə doğru gələrək onun pis işlərini bağışlamağını ümid edir. Çünki Sən rəhman və rəhimsən!”.

## HƏZRƏTİN SƏBRİ

İmam Həsən (ə) bir gün atla bir küçədən keçərkən, Müaviyənin dostlarından biri ilə rastlaşdı. Həmin adam onun İmam Həsən (ə) olduğunu biləndə pis sözlər söyləyərək o Həzrəti təhqir etməyə başladı. Həzrət (ə) isə onun söylədiklərini dinlədikdən sonra buyurdu: “Güman edirəm ki, sən qəribsən və buralı deyilsən. Düşmənlər tərəfindən təhrik olmusan, onların yalan və iftiraları sənin qəlbini bizə qarşı kinlə doldurubdur. Əgər bir ehtiyacın vardırsa, həll edək, acsansa doyduraq, paltarın yoxdursa, paltar verək, yox əgər qalmağa yer axtarırsansa, səni öz evimə aparıb qonaq saxlayım”.

Həmin adam imamın bu rəftarından utanıb söylədiyi pis sözlərdən peşman oldu. O, gördüyü işdən o qədər narahat olmuşdu ki, ağlaya-ağlaya imamdan üzr istəyib dedi: “Düşmənlərinizin sözləri məni aldatmışdı. Bundan qabaq ən çox kin-küdurət və ədavət bəslədiyim adamlar sən və atan idiniz. İndi isə sənin bu gözəl əxlaqını görəndən sonra ən çox sevdiyim adamlara çevrildiniz. Artıq anladım ki, sizin ailəniz Peyğəmbərin (s) xəlifəliyinə layiq olan bir ailədir. Ömrüm boyu sizləri sevəcək və sizin haqqınızı müdafiə edəcəyəm”.

Həmin kişi ölənə qədər verdiyi sözün üstündə durdu.

## İMAMIN SƏXAVƏTİ

Bir nəfər imam Həsənin (ə) hüzuruna gəlib dedi: "Yoxsulluq və bədbəxtlik məni incidir. İsmət və təharət ailəsi olan sizlər, məni bu zalım düşmənin əlindən qurtarın".

Həzrət imam Həsən (ə) xidmətçisini çağırıb ondan “yanında nə qədər pul var?” - deyə soruşdu. Xidmətçi " əlli min dirhəm" - deyə cavab verdi. İmam Həsən (ə) buyurdu: “O pulun hamısını bu kişiyə ver ki, məişəti və işinin sərmayəsinə çevrilsin, qoy yoxsulluqdan qurtulsun”.

Bir gün imam Həsən (ə) Allah evində ibadətə məşğul ikən bir kişinin dua edib belə söylədiyini eşitdi: “Allahım! On min dirhəmə ehtiyacım var. Sən ey rəhman və rəhim, (mehriban və bağışlayan) Allah, bu neməti mənə nəsib eylə!” Bunu eşidən imam Həsən (ə) evə qayıdıb həmin məbləği o kişi üçün göndərdi.

Günlərin bir günündə yoxsul və kasıb bir kişi imam Həsənin (ə) hüzuruna gəlib aşağıdakı məzmunda bir şer oxudu:

"Heç bir şeyim, hətta bir dirhəmim belə qalmadı. Satmaq üçün artıq heysiyyətimdən başqa bir şeyim yoxdur. Sənin onu alacağını bilirəm".

Həzrət Həsən (ə) dərhal xidmətçisini çağırıb belə buyurdu: “Yanında nə qədər pul varsa, ver bu adama”.

Xidmətçi o adama on min dirhəm pul verdi. Həzrət (ə) isə ona belə deyib üzr istədi: “Sənə verə biləcək yalnız bu qədər pulum var idi. Onu al və özünə maya et və elə bu pulla da öz ehtiyaclarını təmin elə. Beləliklə yoxsulluqdan qurtaracağını ümid edirəm”.

Yuxarıda qeyd etdiyimiz bu bir neçə hekayə göstərir ki, imam Həsən (ə) xalqın axirətini düşündüyü kimi, dünyasını də nəzərdə tuturdu. Çünki dünya ilə axirət bir-birilə əlaqədardır. Bəzən yoxsulluq və aclıq bəzi adamların axirət haqqında düşüncələrinin qarşısını alır.

Onun köməklikləri nəinki xalqı dilənçilikdən azad edirdi, üstəlik onlar üçün iş və çalışmaq zəmini də yaradırdı.

## İMAM HƏSƏNİN (ə) XƏLİFƏLİYİ

Hicri 40-cı ilin Ramazan ayının 21-ci gecəsi atası Əli ibn Əbu Talib (ə) vəfat edərək hamını matəmə qərq etdi. O zaman 27 yaşında olan imam Həsən (ə) xalqla birlikdə məscidə gələrək minbərə çıxdı və

atasının şəhadəti haqqında belə buyurdu: “Dünən gecə sizin aranızdan elə bir insan getdi ki, həm keçmişdəkilər, həm də gələcəklər arasında elm, təqva və davranışında yeganə və nümunəvi bir şəxsiyyət idi. Peyğəmbər (s) ilə birgə müharibələrdə iştirak edib, islamın qorunması uğrunda əlindən gələni əsirgəməmişdi. Düşmənlərin gözündə tikan, dostların könlündə isə solmaz bir gül idi. Əlinin, ailəsinə xidmətçi tutmaq üçün yığdığı yeddi yüz dirhəmdən başqa dünya malından heç bir şeyi yox idi”.

Bu sözləri deyib qurtardıqdan sonra hönkür-hönkür ağlamağa başladı və camaat da ona qoşuldu. Daha sonra camaatın imamət və rəhbərlik məqamının özünə aid olduğunu anlamaları və beləliklə də doğru yoldan çıxıb zəlalətə, azğınlığa düşməmələri üçün özü haqqında belə buyurdu:

“Mən Peyğəmbərin, Əlinin və Fatimənin oğluyam. Mən nübuvvətin parlaq nurlarından bir nümunəyəm. Elə bir ailəyə mənsubam ki, Allah onlardan bütün pislikləri uzaqlaşdırıbdır.”

Daha sonra Abdullah ibn Abbas ayağa qalxıb dedi: “Ey camaat! Bu, Peyğəmbərimizin və imamımızın oğludur. Bilin ki, o, Əlinin haqq xəlifəsidir. Ona beyət edin!”

Camaat dəstə-dəstə imam Həsənə (ə) beyət etdilər. Bu zaman Həzrət imam Həsən (ə) onlarla belə bir şərt bağladı: “Hər kimlə müharibə etsəm, siz də mənə qoşulub müharibə edəcəksiniz, yox əgər məsləhət görüb sülh etsəm, onda siz də qəbul edəcəksiniz”. Hamısı bu şərti qəbul edib razılıqla öz imamlarına boyun əydilər.

## MÜAVİYƏNİN HİYLƏLƏRİ

Müaviyə Şamda özü üçün bir hökumət qurmuşdu və illərlə Əlinin (ə) əleyhinə müxtəlif plan və hiylələr quraşdırırdı. Əlinin (ə) əshabını öldürərək azğın bir qrup olan xariciləri meydana gətirmişdi. Xalqın Həzrət Əlinin (ə) şəhadətindən sonra Həzrət Həsənə (ə) beyət edərək onu Peyğəmbərin (s) xəlifəsi seçdiklərini eşidib bu vəziyyəti qəbul edə bilməyən Müaviyə Kufə və Bəsrəyə çoxlu casus göndərib əhvalatı öyrənmək, daha sonra da imam Həsəni (ə) devirmək üçün müxtəlif hiylə planlarını hazırlamaq, lazım gəlsə üsyan və hərc-mərclik yaratmaq istəyirdi.

İmam Həsən (ə) casusları tutub edam etmələrini əmr etdi. Sonra da Müaviyəyə aşağıdakı məzmunda məktub yazdı. “Ey Müaviyə! Casus göndərib hərc-mərclik törətmək istəyirsənmi?! Güman edirəm ki, müharibə xəyalına düşmüsən və müharibəni sevirsən. Mən hazıram. Gözlə, müharibə yaxındadır, inşaallah...

Ey Müaviyə! Təəccüblənirəm ki, layiq olmadığın bir məqamı zorla ələ keçirmək niyyətindəsən. Nə dində bir fəzilətin var, nə də xoş bir işin. Müsəlmanlar mənə beyət etdilər. Əgər sən də onlar kimi etsən, bu, islamın məsləhətinə uyğun olacaq. Batilin dalınca düşmə. Sən də başqa adamlar kimi mənə beyət et. Müsəlmanların qanına hörmət et, ehtiram qoy. Əgər mənim nəsihətlərimi qəbul etməyib üsyana qalxsan və müsəlman qanı töksən, müsəlmanlarla əlbir olub səni məhkəməyə çəkəcəyik”.

Müaviyə isə imamın məktubuna belə cavab verdi: "Əbu Bəkr öz təcrübəsinin çoxluğuna görə xəlifəliyi Əlidən aldığı kimi, mənim də təcrübəm səndən çoxdur və bu məqama səndən daha layiqəm. Əslində sən mənə beyət etməlisən. Beləliklə xəlifəlik məndən sonra sənin olacaq və mən ömrüm boyu İraqın bütün gəlirini sənə verəcəyəm".

Müaviyə nəinki beyət etmədi, üstəlik imamı öldürtmək üçün Kufəyə casuslar da göndərdi. Buna görə də imam Həsən (ə) namaz qılanda paltarının altında bir zireh saxlayardı. Bir dəfə Müaviyənin göndərdiyi satqın adamlardan birisinin atdığı ox zirehə dəydi və bununla da imam Həsən (ə) böyük təhlükədən qurtardı.

## MÜHARİBƏNİN BAŞLANMASI

Çox keçmədi ki, Müaviyə müsəlmanların birliyini təmin etmək bəhanəsi ilə İslamla müharibə etmək üçün İraqa böyük bir ordu göndərdi. İmam Həsən (ə) Müaviyə ordusunun hərəkət etməsinin xəbərini eşidən kimi, camaatı məscidə çağırıb minbərə çıxdı. Allah-taalaya həmd və Peyğəmbərə (s) salavat və salam göndərdikdən sonra xalqa xitab edib buyurdu: “Müaviyə öz ordusu ilə birlikdə İraqa tərəf gəlir. Müharibə üçün hazır olmağınız, dininizi və şərəfinizi qorumağınız zəruridir”.

Amma o zamanın pis və rahatlıq sevən xalqı imama cavab vermədilər. Ədiyy ibn Hatəm xalqın arasından ayağa qalxıb orada olanlara belə dedi: "Siz necə millətsiniz?! Bu ölümü yada salan səssizlik nə deməkdir? Nəyə görə imama, Peyğəmbərinizin oğluna cavab vermirsiniz? Allahın əzabından qorxun və imamınızın əmrinə tabe olun. Qalxın, kişi kimi silah götürüb şərəf, namus və dininizi müdafiə edin. Beləliklə Allah və imamınızı özünüzdən razı salın!"

Bu sözlər bəzilərində böyük təsir qoydu. Nəhayət, xalq müharibə üçün hazır olduğunu elan etdi.

Ədiyy ibn Hatəm imama xitab edərək buyurdu: "Biz hazırıq və sənin bu barədəki əmrlərini gözləyirik".

Həzrət imam Həsən (ə) buyurdu: "Mən Nüxəylə tərəfinə gedirəm. Bilirəm ki, sözünüzün üstündə durmayacaqsınız və Müaviyə sizi aldadacaq. Amma buna baxmayaraq kim istəyirsə, mənimlə gəlsin".

## İMAMIN ƏMRİNDƏN ÇIXMAQ

İmam Həsən (ə) Nüxəyləyə çatdığı vaxt "müharibə, müharibə!" şüarını verənlərin əksəriyyətinin orada olmamasını və onun əmrinə itaət etməkdiklərini gördü. Çünki orada olanlar aşağıdakılardan ibarət idi:

1. İmamın əmrinə itaət etmək üçün deyil, Müaviyə ilə döyüşmək üçün gələn xaricilər.
2. Müharibədə qənimət əldə etmək üçün gələnlər.
3. Qəbilələrinin başçısının əmrini yerinə yetirmək üçün gələnlər.

Buna görə də belə buyurdu: "Məni də məndən əvvəl imam olan atam kimi aldatdınız. İmamla, yoxsa Allah və Peyğəmbərinə inanmayanlarla müharibə aparacaqsınız?"

Sonra Həkəm adlı bir kişini sərkərdə seçərək dörd min əsgəri onun sərəncamına verdi və onu Anbar şəhərinə göndərdi ki, orada Müaviyənin qoşununun qarşısını alsın və növbəti əmrlərini gözləsin. Amma Müaviyə pul və yalan vədələrlə Həkəmi aldatdı və o, iki yüz nəfərlə birgə Müaviyə ordusuna qoşuldu.

İmam (ə) Bəni Murad qəbiləsindən bir nəfəri onun yerinə seçib buyurdu: "Hərçənd sizə də etibar etmək olmaz. Amma bu bir imtahandır, siz də gedin". Müaviyə onun gəldiyini eşidən kimi bir neçə nəfər nümayəndə və beş min dirhəm pul göndərib ona hökumətlik vədini verdi. O da aldanıb Müaviyə ordusuna qoşuldu.

## İMAMIN MƏYUS OLMASI

İmam Həsən (ə) sərkərdələrin Müaviyə ordusuna qoşulduğu xəbərini eşidəndə çox narahat olub buyurdu: "Mən demədimmi ki, sizdə vəfa yoxdur və hiylə ilə rəftar edirsiniz?"

Nəhayət, Həzrət Həsən (ə) belə qərara gəldi ki, özü əsgər yığıb müharibəyə getsin. Əshabının köməkliyi ilə qırx min nəfər toplanmışdı. İmam (ə) Mədainin Sabat şəhərinə gedib, oradan on iki min əsgəri qabaqcıl olaraq, fədakarlıq və əhval-ruhiyyələrini sınamaq üçün Übeydullah ibn Abbasın sərkərdəliyi və Qeys ibn Səd ibn Übadənin müavinliyi altında Müaviyə ilə müharibə etməyə göndərdi.

Müaviyə bir milyon dirhəm verib bəzi məmurları imamın ordusuna göndərdi ki, Qeysi aldatsınlar. Qeys isə qəbul etməyib dedi:

"Müaviyə bunu bilsin ki, dinimi məndən pulla satın ala bilməz. Mən heç bir hiyləyə aldanıb imamımdan əl çəkmərəm!".

Məmurlar Qeysdən ümidlərini kəsdilər və əsl sərkərdə olan Übeydullah ibn Abbasın yanına gəlib onu aldatmağa müvəffəq oldular. Übeydullah ibn Abbas gecə ikən dostları ilə birgə Müaviyənin tərəfinə keçdi. İmamın ordusu başsız qaldığı üçün Qeys onun yerinə keçib camaat namazını qılandan sonra sərkərdə oldu.

Qeysin fədakarlıqla döyüşməsi Müaviyəni dəhşətə salmışdı. Nəhayət Müaviyə ordunun arasına casuslar göndərərək, Müaviyə ilə imamın barışdığı və burada olanlarla yersiz döyüşdüyü şayiəsini yaydı. Bununla da Müaviyə xariciləri imamdan ayırıb aldatmağa müvəffəq oldu və onları imamla düşmən etdi.

## XARİCİLƏRIN QİYAMI

Bu axmaq dəstə Müaviyənin casuslarının sözlərinə inanıb imamın əmrini rədd edərək, guya imamın da atası kimi kafir olduğunu və Müaviyə ilə əməkdaşlıq etdiyini elan etdilər. Onlar imamın çadırına həmlə edərək əllərinə keçəni qarət etdilər, hətta imamın səccadəsini belə ayağının altından çəkib apardılar.

Nəticədə imam Həsən (ə) oranı tərk etmək məcburiyyətində qaldı. Səhabələrdən bir dəstə onun ətrafında ikən atını mindi. Elə bu vaxt xaricilərdən biri gizləndiyi yerdən çıxıb imamı yaraladı. İmamı dostlarından birisinin evinə aparıb müalicə etdilər. İş o yerə çatmışdı ki, imamın sərkərdələrinin çoxu gizlincə Müaviyəyə məktub göndərib ona "biz sənin əmrinə itaət edirik. Tezliklə İraqa gəl. Bu imamı tutub sənə təhvil verəcəyik" - deyə vədlər verirdilər. Müaviyə həmin məktubları öz məktubu ilə bir yerdə imama göndərib məktubunda belə yazdı: "Bunlar sənin atana vəfa etmədilər, səninlə də birlikdə olmayacaqlar. İndi səninlə müqavilə bağlayıb müharibədən əl çəkməyə hazıram".

# İMAM HƏSƏN (ə) SÜLHÜ NİYƏ QƏBUL ETDİ?

Xaricilərin əməlləri və dostlarının xəyanəti Həzrət imam Həsəni (ə) Müaviyə ilə sülh etmək məcburiyyətində qoymuşdu. Amma imamın onunla sülh etməsi bu demək deyildi ki, Müaviyəyə tabe olub onun zülmkarlığını qəbul etmişdi. Bu, yalnız Müaviyə ilə atəşi dayandırmağa dair müqavilə bağlamaq mənasında idi. Çünki əgər Müaviyə müharibədə qələbə çalsaydı, islamın bütün hədəfləri məhv olub aradan gedəcəkdi.

Bundan əlavə Rum imperatoru islam ölkəsinə həmlə etmək fikrindəydi və bu ixtilaf onun üçün böyük bir fürsət idi.

Dərd və həsrətdə qovrulan imam Həsən (ə) qəm və kədərlə vəfasız səhabələrinə belə buyurdu: “Bilirəm ki, siz mənim üçün hiylə və kələk qurubsunuz. Həyasız və dinsiz bir dəstə məni tamamilə Müaviyəyə təslim etdi. Vay olsun sizin halınıza! Allaha and olsun ki, Müaviyə verdiyi sözlərə vəfa etməyəcəkdir. Mən sizin üçün haqq dini bərpa etmək istəyirdim, amma siz mənə yardım etmədiniz. Mənə qarşı çıxıb xəyanət etdiniz. Sizin bu əməlləriniz məni müqaviləni imzalamağa məcbur etdi. Allaha and olsun ki, əgər köməyim olsaydı, bu işi Müaviyəyə həvalə etməzdim. Çünki mən xəlifəliyi Bəni Üməyyə üçün haram bilirəm. Bu yaxınlarda Müaviyənin rəftarlarının acı nəticəsini dadacaqsınız”.

İmam sazişi imzalamaq məcburiyyətində qaldığına görə Müaviyəyə belə bir məktub yazdı: “Mən haqqı yaşadıb batili məhv etmək niyyətində idim. Allahın kitabı və Peyğəmbərin sünnəsini xalqa hakim etmək istəyirdim. Amma xalq mənimlə eyni fikirdə olmadı və məcbur qaldığım üçün səninlə sülh edirəm. Bu sülh üçün bir sıra şərtlər qoysam da, sənin onların heç birinə əməl etməyəcəyini çox gözəl bilirəm. Amma çox keçməyəcək ki, bunun sənin üçün heç bir faydası olmayacaq və öz işindən peşman olacaqsan”.

**Həmin müqavilənin bir neçə maddəsi bunlardan ibarət idi**:

**1.** Şiələrin qanının tökülməsinin qarşısı alınacaq və hüquqları tapdalanmayacaq;

**2.** Həzrət Əli (ə) və şiələri söyülməyəcəklər;

**3.** Müaviyə Allahın kitabı və Peyğəmbərin sünnəsinə əsasən əməl edəcək;

**4.** İmamın əshabı və dostları, harada olurlarsa-olsunlar, Müaviyə və adamlarının şərrindən amanda qalacaqlar;

**5.** İmam (ə) Müaviyəni “əmirəl-möminin” olaraq tanımayacaq və xütbələrdə onun adını əsla çəkməyəcək;

**6.** Müaviyə xəlifəliyi özündən sonra başqa bir nəfərə tapşırmayacaq.

## MÜAVİYƏNİN MÜQAVİLƏNİ POZMASI

Müqavilənin imzalanmasından sonra Kufə Müaviyənin diqqət mərkəzinə çevrildi. O, bir cümə günü Nüxəylədə cümə namazı əsnasında belə dedi: "Ey camaat! Mən sizin namaz qılmağınız, ya da oruc tutmağınız üçün müharibə etmədim. Sizlər istəməsəniz belə, sizin hökmdarınız olmaq üçün müharibə etdim. Mən, Həsən ibn Əli ilə imzaladığım müqavilənin maddələrini ayağım altına qoyub əzirəm".

Lakin Müaviyənin bir sıra rəftarları onun, imamın nüfuzundan çox qorxduğunu aydın göstərirdi. Buna görə də müqavilənin bəzi maddələrini həyata keçirmək məcburiyyətində qaldı. Misal üçün, Kufənin valisi Ziyad imamın əshabından birisini tutdurmaq istəyəndə, imam (ə) əhvalatı Müaviyəyə yazdı. Müaviyə də dərhal Ziyadı bu işi üçün məzəmmət edib danladı.

Nəhayət, Müaviyə özündən sonra oğlu Yezidi xəlifə təyin etmək qərarına gəldi. Amma Həzrət imam Həsən (ə) ilə imzaladığı müqavilə ona mane olurdu. Buna görə də xalqdan zorla beyət almaq və oğluna bu iş üçün yol açmaq məqsədi ilə imamı zəhərlətmək istəyirdi. Bu məqsəd istiqamətində də imamın arvadı Cüdəni aldadaraq ona bir qabda zəhər göndərdi və vəd etdi ki, əgər ərini zəhərləsə, ona yüz min dirhəm verib oğlu Yezidə arvad edəcək.

## XAİN ƏL İMAMIN QABINA ZƏHƏR TÖKDÜ

Şeytani vəsvəsələr, pul və şöhrət imamın arvadının gözünü tutub qəlbini kor etdi və səbəb oldu ki, tarixin heç bir zaman unutmayacağı bir xəyanəti həyata keçirib Müaviyənin bu murdar təklifini qəbul etsin. İmam Həsən (ə) dəfələrlə öz arvadının əli ilə şəhid olacağını söyləmişdi. Ona “indi ki, belədir, onu boşa və evindən qov” demişdilər, amma o Həzrət (ə) belə buyurmuşdu: “O, hələlik bir günah etməyib, buna görə də əgər onu qovsam, yaxşı iş görməmiş olaram. Çünki o, bu işi bəhanə edərək “məni günahsız olduğum halda evdən qovdu” - deyəcək və bununla da xəyanətini gizlədib öz gördüyü

işin doğru olduğunu iddia edəcək. Bunu bilin ki, Müaviyə öz xəyanətli əməllərindən əl çəkməyəcək və mən arvadımı boşasam da, məndən əl götürməyib özünü məzlum göstərərək planını həyata keçirməyə cəhd göstərəcəkdir”.

Nəhayət, Cüdə hicri 50-ci ilin Səfər ayının 28-də, havanın çox isti və imamın oruc olduğu bir gündə, onun süd içdiyi qaba zəhər töküb, iftar üçün hüzuruna gətirdi.

İmam (ə) zəhərli süddən bir az içdikdən sonra arvadına tərəf dönüb buyurdu: “Ey Allahın və Peyğəmbərin düşməni, məni öldürdün, Allah səni öldürsün. Allaha and olsun ki, sən və Müaviyə zəlil olacaqsınız.” O Həzrətin dediyi kimi də oldu. Çox keçmədən Cüdə Müaviyənin sarayından qovulub öldü. Müaviyə də ağır bir xəstəliyə tutulub öldü.

Həzrət imam Həsən (ə) vəfat etdikdən sonra Mədinədəki Bəqi qəbristanlığında torpağa tapşırıldı. Allahın və Peyğəmbərin salam və rəhməti onun pak və təmiz ruhuna olsun.

# BEŞİNCİ MƏSUM
# İMAM HÜSEYN (ə)

İMAMIN ŞƏXSİYYƏTİ

**Adı:** Hüseyn (ə)
**Ləqəbi:** Seyyidüş-şühəda
**Kunyəsi:** Əbu Əbdillah
**Atası:** Əli (ə)
**Anası:** Fatimeyi-Zəhra (s.ə)
**Babası:** Peyğəmbər (s)
**Doğum ili:** Hicri 4-cü il
**İmamlıq müddəti:** 10 il
**Ömrü:** 57 il
**Şəhidlik:** Hicri 61-ci ildə Yezidin əmri ilə şəhid edildi.
**Məzarı:** İraq, Kərbəla.

## TƏVƏLLÜDÜ

Həzrət Fatimənin (s.ə.) ikinci övladı 4-cü hicri ilinin Şəban ayının 3-də Mədinə şəhərində dünyaya göz açdı. Həzrət Peyğəmbər (s) bu xəbəri eşidən kimi, sevinə-sevinə qızının evinə tərəf yola düşdü. Zəhranın xidmətçisi Əsma uşağı ağ bələyə büküb Həzrət Peyğəmbərin (s) hüzuruna gətirdi.

Əziz Peyğəmbərimiz (s) körpəni qucağına alıb sağ qulağına azan, sol qulağına isə iqamə oxuyub Həzrət imam Hüseyni (ə) birinci dəfə olaraq Allahın adı ilə yaxından tanış etdi.

Təvəllüdün yeddinci günü Allah tərəfindən Həzrət Peyğəmbərə (s) nazil olan mələk belə dedi: “Harun, Musa peyğəmbərə qardaş, dost və bütün çətinliklərdə onun köməyinə gələn bir sirdaş olduğu kimi, Əli də sənin dostun və qardaşındır. Buna görə də bu uşağın adını Harunun oğlunun adı olan Şübeyr (ərəbcəsi Hüseyn) qoy!”. Beləliklə Həzrət imam Hüseynin (ə) adı Allah tərəfindən qoyuldu.

Hüseynin təvəllüdünün yeddinci günü, Fatimə (s.ə.) oğlu üçün bir qoyun qurbanlıq edib ətini yoxsullara payladı.

Həzrət Peyğəmbər (s) dəfələrlə bu uşağı qucağına alıb onu öpər, ağlayar və belə buyurardı: “Hüseyni qarşıda böyük bir müsibət gözləyir. Bəni Üməyyədən olan bir dəstə zalım, oğlumu öldürəcəkdir. Onlar qiyamət günü həmişəlik olaraq mənim şəfaətimdən məhrum olacaqlar”.

## PEYĞƏMBƏRİN HÜSEYNƏ OLAN MƏHƏBBƏTİ

Həzrət Peyğəmbərin (s) əshabından olan Salman Farsi bu barədə belə deyir: “Peyğəmbərin (s), oğlu Hüseyni dizi üstündə oturdub onu öpərkən nəvaziş etdiyini gördüm. Bu zaman Həzrət belə buyurdu: "Sən imamsan, imamın oğlu və imamların atasısan. Sənin nəslindən doqquz imam dünyaya gələcəkdir ki, onların axırıncısı vəd olunmuş Mehdidir”.

Peyğəmbərin (s) Hüseynə (ə) olan sevgi və məhəbbətini ən yaxşı şəkildə ifadə edən cümləsi budur: “Hüseyn məndən, mən də Hüseyndənəm. Hər kim Həsən və Hüseyni sevsə, məni sevib. Hər kəs onlarla düşmənçilik etsə, mənimlə düşmənçilik edibdir.”

## HÜSEYN (ə) ATA-ANASINA KÖMƏKÇİ İDİ

Həzrət imam Hüseyn (ə) ömrünün altı ilini babası Peyğəmbər (s) ilə keçirib. Peyğəmbərin (s) vəfatından sonra isə otuz il atası Əli (ə) ilə yaşayaraq onun bütün dərdlərinə, çətinliklərinə şərik olmuş və həmişə atasını müdafiə etmişdi. Bir gün Peyğəmbərin (s) məscidinə gəlib ikinci xəlifənin babasının minbəri üstündə oturub danışdığını görəndə, Hüseyn (ə) fəryad edib dedi: “Babamın və atamın minbərindən düş aşağı! Ora sənin yerin deyil”.

Atasının xəlifə olduğu bir neçə il ərzində fədakar və yorulmaz bir əsgər kimi islamı müdafiə edir, eləcə də zalımlar əleyhinə mübarizə aparırdı.

Cəməl, Siffeyn və Nəhrəvan müharibələrində o da qardaşı imam Həsən Müctəba (ə) kimi iştirak

etmiş, dəfələrlə atası ilə çiyin-çiyinə düşmənə qarşı döyüşmüşdü.

Atasının şəhadətindən sonra qardaşına rəsmən beyət edib, onu rəhbər və imam kimi qəbul etmiş və özünə verilən sualları qardaşı imam Həsənə (ə) həvalə etmişdi.

## İMAM HÜSEYN (ə) MÜAVİYƏNİN DÖVRÜNDƏ

İmam Həsən (ə) Müaviyə tərəfindən şəhid edildikdən sonra Əlinin (ə) 46 yaşında olan ikinci oğlu imam Hüseyn (ə) xəlifəlik və imamət məqamına yetişmişdi.

İmam Hüseyn (ə) çox yaxşı bilirdi ki, müsəlmanların başına gələn bütün bədbəxtliklər Müaviyə tərəfindəndir və Müaviyə müxtəlif hiylə və planlarla islamın əsaslarını məhv etmək istəyir. Amma Müaviyə özünü xalqa elə göstərirdi ki, guya islam və müsəlmanların halına yanan yeganə adamdır. Buna görə də imam Hüseyn (ə) onunla aşkar şəkildə mübarizə apara bilmirdi. Çünki bilirdi ki, mübarizəyə qalxarsa, özünün də taleyi qardaşının taleyi kimi olacaq.

Buna görə də imam (ə) çalışırdı ki, xalqı cəhalət və nadanlıq yuxusundan ayıldıb, tədriclə şüurlu adamları öz tərəfinə çəkərək onlardan islamın mənafeyi naminə istifadə etsin.

İmam (ə) hələ mömin şəxslərin tərbiyəsi ilə məşğul ikən, bəzən Müaviyənin əleyhinə də danışırdı. Müaviyə oğlu Yezid üçün xalqdan beyət aldığı zaman, imam Hüseyn (ə) bu işə qarşı çıxıb Müaviyəyə göndərdiyi məktublar vasitəsilə onu rüsvay etmişdi. Həmin məktublardan bəzilərini qeyd edirik:

1. “Ey Peyğəmbər xəlifəsi olduğunu iddia edən Müaviyə! Sən Əzra çölündə Hicr ibn Ədiyyi və dostlarını öldürmədinmi? Demək, sən qatil və günahkarsan, səni cəzalandırmaq lazımdır və sənin, ümmətin rəhbəri olmağa haqqın yoxdur”.
2. “Ey Müaviyə! Sən illər boyu xalqın arasında atası bəlli olmayan Ziyadı öz qardaşın və Əbu Süfyanın haramzadə oğlu olaraq tanıtmadınmı? Beləliklə sən öz ailənin təmiz olmadığını etiraf edibsən. Buna görə də sənin islam ümmətinə rəhbərlik etməyə haqqın yoxdur”.
3. “Ey Müaviyə! Sənin çirkin əməllərindən biri də budur ki, Yezid adlı səfeh bir cavan oğlunu xalqa hakim edib onun üçün camaatdan zorla beyət alırsan. Deməli, sən Allahın dinini xarab edib müsəlmanları oyuncaq hesab edirsən”.

## İMAM HÜSEYN (ə) YEZİDİN QARŞISINDA

İmam Hüseynin (ə) öz sərt çıxışları və məktubları ilə Bəni Üməyyə xanədanını rüsvay etməsinə baxmayaraq, Müaviyə ona qarşı heç bir tədbir görmürdü. Çünki bunu öz məsləhətinə uyğun bilmirdi.

Müaviyənin ölümündən sonra Yezid özünü islam hökmdarı elan edib, hakimiyyətinin təməlini daha da möhkəmlətmək üçün böyük şəxsiyyətlərə məktub göndərərək onları beyət etməyə çağırırdı. Buna görə də Mədinədəki valisi Vəlidə də bir məktub yazıb Hüseyndən beyət almasını və beyət etmədiyi təqdirdə öldürüb başını Yezidə göndərməsini ondan tələb etmişdi. Müaviyə dəfələrlə, hətta ölüm yatağında olarkən, Yezidə Hüseyn (ə) ilə işi olmamasını tövsiyə etmişdi. Çünki bu işin axırı yaxşı qurtarmayacaqdı. Amma buna baxmayaraq, səfeh və xudbin Yezid ona edilən nəsihətlərə məhəl qoymadan Hüseynə qarşı çıxdı.

Mədinə valisi imam Hüseynə (ə) məktubun məzmununu bildirdikdə Həzrət buyurdu: “Mən şəhid olmağa hazıram. Bu murdar Yezidin islama rəhbər və hakim olduğu gün, islamın ruhuna fatihə oxumaq lazımdır”. İmam Hüseyn (ə) bilirdi ki, qarşı çıxdığı üçün daha Mədinədə qala bilməyəcəkdir. Elə buna görə də Həzrət (ə) və əshabı gecə ilə Mədinədən Məkkəyə yola düşdü. Hüseynin bu hicrəti Yezidə beyət etməyə qarşı bir növ etiraz əlaməti idi. Bu iş bütün Mədinəni ayağa qaldırmışdı. Daha sonra xüsusilə imamın hacılara nitq söyləyib Yezidin hökumətini tənqid etdiyi zaman Məkkə də ayağa qalxdı.

İmam Hüseynin (ə) bu hərəkəti Kufə və ətrafdakı şəhərlərə çox böyük təsir etmişdi və xalq məsələnin nə yerdə olduğunu başa düşmüşdü. Belə ki, onlar Yezidin hakimiyyətinin haqq olmadığını və ona beyət etməyin islama, eləcə də müsəlmanlara böyük xəyanət sayıldığını çox gözəl bilirdilər.

## İMAMIN KUFƏYƏ DƏVƏT OLUNMASI

İmam Hüseynin (ə) qiyamı və hicrət etməsi xəbəri Yezidin hakimiyyəti altında olan Kufə şəhərinə çatdıqda, hamı imamı Kufəyə dəvət edib onu islam və müsəlmanların xəlifəsi məqamına seçmək qərarına gəldilər. Onlar müxtəlif elçilər vasitəsilə Məkkəyə məktublar göndərərək rəsmən imam Hüseyni (ə) Kufə şəhərinə dəvət edirdilər.

Lakin imam (ə) kufəlilərin vəfasız olduğunu bildiyi və onların atası və qardaşına vəfadar qalmadığını

gördüyü üçün əmioğlusu Müslimi ora göndərdi ki, əhvalatı yaxından öyrənib, məsləhət bildiyi təqdirdə imamı da Kufəyə çağırsın.

Müslim imamın əmrinə itaət edib Kufəyə yola düşdü. Kufəyə çatdığı vaxt, xalq onu sevinclə qarşılayıb məscidə apardılar və orada minlərlə adam onunla beyət edərək namaz qıldılar.

Müslim imama bir məktub göndərib o Həzrətin tezliklə yola düşməsini orada xatırlatdı. İmam (ə) Zilhəccə ayının 8-nə qədər Məkkədə qalıb müxtəlif vaxt və yerlərdə camaata xitab edərək onları Yezidə qarşı çıxmağa dəvət etdi. Daha sonra İraqa tərəf hərəkət etdi.

## İMAMIN NÜMAYƏNDƏSİNİN AQİBƏTİ

Müslimin hərəkəti və Kufə əhlinin onunla beyət etməsindən xəbərdar olan Yezid dərhal ən murdar yoldaşlarından biri olan İbn Ziyadı tam səlahiyyətlə Kufəyə göndərdi.

Kufə xalqının əxlaqına yaxşı bələd olan İbn Ziyad onların imanının zəifliyindən, ikiüzlü və qorxaq olmalarından istifadə edib xalqı təhdid edərək onları Müslimdən uzaqlaşdırdı. Hətta iş o yerə çatdı ki, imama dəvət məktubu göndərənlər döyüş paltarı geyinərək imam Hüseynin (ə) nümayəndəsi ilə vuruşmağa başladılar.

Müslim çarəsiz qalıb özü tək başına İbn Ziyadın muzdurları ilə vuruşduqdan sonra qəhrəmanlıqla şəhid oldu, daha doğrusu onu tutub şəhid etdilər. İmam (ə) Mədinədən hərəkət etdiyi gecədən başlayaraq döyüş və şəhidlikdən xəbər verib buyururdu: “Bizim yolumuzda öz canından keçməyə hazır olan və Pərvərdigarının görüşünə getmək istəyən varsa, bizimlə gəlsin”.

Məkkədə də öz əshabına cihad və şəhidlikdən danışdı. Hətta yarı yolda şair Fərəzdəq, Müslimin şəhid olması xəbərini ona verdikdə Həzrət belə buyurdu: “Müslim Allahın rəhmətinə qovuşdu. O, öz vəzifəsini yerinə yetirdi və bu öhdəliyin yerdə qalan yükünü bizim boynumuza qoydu. Ümid edirəm ki, tezliklə bu yükü məqsədə yetirə biləcəyik”.

## HÜSEYNİN (ə) MƏQSƏDİ

İmam Hüseyn (ə) bu qiyamdan güddüyü hədəfləri belə bəyan etmişdir: "Yezidin hökumətini rüsvay etmək, “yaxşılığa əmr edib, pislikdən çəkindirmək” üsulunu bərpa etmək və zülmə qarşı durmaq.

Bu öhdəlik Allahın ona verdiyi bir vəzifə idi. Babası Peyğəmbər (s) və atası Əli (ə) da dəfələrlə övladlarının şəhid olacağını bəyan etmişdilər.

İmam Hüseynin (ə) özü də, imamlıq elminə əsasən bilirdi ki, bu hicrətin sonu şəhid olacaqdır. Lakin imam Hüseyn (ə) ölüm və şəhidlikdən qorxan və Allahın əmrinə etinasız qalan bir adam deyildi. O, bəlanı kəramət, şəhadəti isə səadət sayan bir adam idi. Nəhayət Kərbəlaya tərəf hərəkət edərək öz əshabı ilə birlikdə şəhid oldu, ailə üzvləri əsir düşdülər və əsirlik paltarında Kərbəla şəhidlərinin missiyasını şəhərlərin küçə-bazarındakı xalqa çatdırıb Bəni Üməyyənin törətdiyi cinayət və əlaltılarını rüsvay etdilər.

## HÜSEYN (ə) VƏ ƏSHABI AŞURA GÜNÜNDƏ

İmam Hüseyn (ə) Aşura günündə bir nur kimi parıldayaraq öz əshabına qüvvət və ümid verirdi. Həmin imam ki, babası onun haqqında belə buyurmuşdur: “Hüseyn hidayət çırağı və ümmətin qurtuluş gəmisidir”.

Hüseyn (ə) fəryad edirdi: “Ey dünya əhli! Bilin ki, müharibəni mən başlamadım və qılınca birinci mən əl atmadım. Cinayətkarlar nəslindən olan Yezid adlı bir murdar məni iki şeydən birini seçməyə vadar etdi: ya qılınc çəkib dinimi və şərəfimi müdafiə etməli, ya da zillət və alçaqlığa boyun əyməliydim. Amma bilirsiniz ki, zillət və təslim olmaq bizdən çox-çox uzaqdır. Mən zalımlara qarşı döyüşmək məcburiyyətindəyəm”.

Daha sonra Həzrət imam Hüseyn (ə) Yezidin əsgərlərinin qarşısına çıxıb onlara xitab edərək buyurdu: “Mənimlə döyüşüb məni öldürməyiniz din və dünyanızın xeyrinə deyildir. Əgər müharibə etmək istəyirsinizsə, yaxşı olardı ki, bir şura təşkil edib orada iştirak edənlərdən soruşasınız ki, kim “Peyğəmbərin övladı ilə döyüşür” - deyir və hansı azğın və bədbəxt məni öldürməkdə sizinlə əməkdaşlıq etməyə hazırdır. İraqın valisi Mərcanənin oğlu (İbn Ziyad) murdar və iqtidar dalınca olan bir kişidir. O, sizi bədbəxt etmək istəyir. Mən bilirəm ki, mənim şəhadətimdən sonra peşman olub bir-birinizi qınayacaqsınız. Elə buna görə də müharibəyə başlamazdan əvvəl görmək istədiyiniz işin haqqında düşünün. Bilin ki, mənim arxamda Allah durub və mən heç nədən qorxmuram. Mən babamdan belə buyurduğunu eşitmişəm: “Dünya kafirlərə cənnət, möminlərə isə zindandır”. Ölüm

bizim üçün şəhadət başlanğıcı, sizin üçün isə bədbəxtliyin əvvəlidir. Bu dünya ilə o biri dünyanın arasında bir körpü vardır ki, o da ölümdür.

Əgər siz müharibə etsəniz, biz də öz əshab və övladlarımızla müdafiə olunmağa başlayacağıq. Əgər qələbə çalsaq, bizim üçün təzə bir şey deyildir; əgər öldürülsək, dünya bilir ki, biz məğlub olmamışıq.

Ay yazıqlar! Bilici adamlar çalışırlar ki, yolu azmamaq üçün özlərinə bir çıraq tapsınlar. Mən bu ümmətin çırağıyam. Siz isə öz çırağınızı söndürmək istəyirsiniz. Kiminlə döyüşdüyünüzü bilirsinizmi? Siz mənimlə deyil, Allah və Peyğəmbəri (s) ilə döyüşürsünüz".

Həzrət imam Hüseynin (ə) sözlərindən sonra düşmən qoşununda qarmaqarışıqlıq yarandı. Müharibə istəyənlər gördülər ki, əgər müharibəyə başlamasalar, Hüseyn (ə) öz sözləri ilə onların ordusunu hərəkətə gətirib bütün planlarını puça çıxaracaqdır. Elə buna görə də müharibəni başlamaq əmrini verdilər.

Hüseyn (ə) isə belə fəryad etdi: "Ey mənim böyük və dəyərli əshabım! Qalxın, döyüş vaxtıdır!" Züheyr və Həbib kimi əshabı imamın müharibə əmrini verdiyinə görə sevindilər. Onlardan hər biri birinci olaraq imamın onu müharibə meydanına getmək icazəsi verməsini istəyirdi. Bəni Haşimin ay parçası olan Əbülfəzlil - Abbas, Əli Əkbər, Qasim və başqaları da döyüş üçün hazırlaşdılar. Onlar şir kimi düşmənin qoşununa hücum edib qarşılarına çıxanları cəhənnəmə vasil edirdilər. İmam Hüseynin (ə) özü elə şücaət və igidliklə döyüşürdü ki, İbn Şəhraşubun yazdığına görə, təkcə o Həzrətin özü təxminən iki min düşmən əsgərini öldürmüşdü.

Hüseyn (ə) əshabından və yaxınlarından birisi gözlərinin qabağında şəhid olanda, daha qüvvətli, güclü və qərarlı addımlarla irəliləyirdi. Düşmən əsgərlərindən olan bir nəfər Aşura gününün heyrətləndirici hadisələri haqqında belə deyib: "Aşura günündə Hüseyn (ə) bir şəhid verəndən sonra ruhdan düşmək əvəzinə, onun sifətinin daha açıq və daha parlaq olduğunu və daha da qüvvətlə döyüşdüyünü görürdük.

Fədakar döyüşçülər, ac və susuz olmalarına baxmayaraq, elə igidlik və qəhrəmanlıq göstərirdilər ki, düşmən əsgərlərinin sərkərdəsi olan İbn Səd belə bağırmaq məcburiyyətində qaldı: "Əgər belə döyüşəcəksinizsə, hamınız Hüseyn və əshabının qılıncı ilə öldürüləcəksiniz".

Buna görə də təxminən dörd min nəfər ox atanlara birdən ox atmalarını, qılıncla döyüşənlərə isə birdən yürüş etmələrini əmr etdi. Müharibə qızışdı. İmam Hüseynin (ə) əshabından hər biri atdan yerə yıxılıb şəhid olanda belə deyirdi:

"Pərvərdigara! Bu fədakarlığı bizdən qəbul elə!"

Allahın salamı pak ruhunuza olsun ey Allahın və Hüseynin yolu ilə gedənlər, ey Quran yolunun döyüşçüləri. Hüseynin (ə) özü də, bədənindən qan axmasına baxmayaraq, əllərini göyə qaldırıb buyurdu: "Ey mənim ümid arzularımın qaynağı olan Allah! Sənə arxalanıb, Sənə ümid bəsləyirəm. Pərvərdigara! Bu qurbanları bizdən qəbul elə!"

Nəhayət, Şeyx Müfidin yazdığına görə, Hüseyn (ə) ilə əshabı hicri 61-ci ilin Məhərrəm ayının onu, şənbə günündə şəhadət şərbətini içib, gələcək nəsillərə şərəf və igidlik dərsi verdilər.

## İMAM HÜSEYN (ə) NİYƏ UNUDULMUR?

Allah yolunda şəhid olan, ailə üzvləri əsir düşən kimsə heç vaxt unudulmaz. Əksinə, zaman keçdikcə xalqın imam Hüseynə (ə) olan sevgisi, məhəbbəti daha da çoxalır və ildən-ilə xalqın o "sadiq inqilabçı"ya olan eşqi daha da artır.

Hüseyn (ə) əlli altı il davam edən bərəkətli həyatını Allah yolunda və Allaha qovuşmaq üçün həsr etdi və dəfələrlə piyada Allahın evini ziyarət etməyə getdi.

O, namazı, Allaha yalvarmağı, duanı daha çox sevərdi. Hətta ömrünün son gecəsində belə düşmənlərindən Allaha ibadət etməsindən ötrü möhlət istədi. Dostlarından birisi Hüseynin ibadətləri və onun ərəfə duası barəsində belə deyib: "Zilhəccə ayının 10-cu günü Hüseyn (ə) Ərəfatın qızmar çölündə Kəbəyə tərəf dönüb ürəyinin dərinliklərindən bu duanı oxudu:

"Allahım! Səni deyib, Sənin varlığına şahidlik edirəm. Məni Sən yaradıbsan, həmişə qoruyubsan və mənə müxtəlif nemətlərdən ruzi veribsən. İradəsini heç bir şey dəyişə bilməyən və bağışlamağına heç kəs mane ola bilməyən Allaha həmd olsun.

Ey Allah! Ehtiyacsızlığı nəfsimdə və canımda, yəqini könlümdə, ixlası əməlimdə, işığı gözümdə və bəsirəti isə dinimdə qərar ver".

## HÜSEYN (ə) DOSTLARININ XATİRƏSİNDƏ

Xalqın imam Hüseynə (ə) bəslədiyi hörmət o Həzrətin xalqla birgə yaşayıb, özünü onlardan ayrı saymadığına görədir. Necə ki, bir gün bir yerdən keçdiyi vaxt, yoxsul adamlardan bir neçəsinin süfrələrini açıb, bir az quru çörəyi yeməklə məşğul olduqlarını gördükdə onların dəvətini qəbul edib süfrələrində əyləşərək kasıblarla birgə duz-çörək kəsməyə başladı və onların xörəyindən yeyə-yeyə belə buyururdu: "Allah özünü bəyənən adamları sevmir". Bu və bu kimi yüzlərlə əxlaqi misallar səbəb oldu ki, onun xatirəsi və şəhadəti xalqın yaddaşında əbədi qalsın. Hər il xalqın imam Hüseynə (ə) olan bağlılığı daha da möhkəmlənir.

İmam Hüseynin (ə) nə sarayı, nə əsgərləri, nə də cürbəcür qulluqçuları var idi. Heç vaxt evinin qapısını, zalım və tağut adamlar kimi, xalqın üzünə bağlamazdı və heç vaxt Peyğəmbərin (s) hərəmini onun üçün boşaltmazdılar.

Əshabından olan bir nəfər onun haqqında belə deyir: "İmam Hüseynin (ə) kürəyi qabarlı idi. Bunun səbəbini oğlu imam Zeynül-abidindən (ə) soruşduqda o Həzrət belə buyurdu: "Atam gecələr dul arvadların, yetim uşaqların və yoxsul ailələrin evlərinə kisə içərisində çörək aparardı. Bu qabarlar da belində apardığı həmin kisələrin izidir".

Alimlərdən birisi Hüseyn (ə) haqqında belə deyir:

"Biz tarixdə yalnız bir yaxşı xasiyyətinə görə tanınan insanlarla qarşılaşırıq; bəzisi şücaət, bəzisi zöhd, bəzisi isə səxavətinə görə tanınır. Lakin imam Hüseyn (ə) bir, yaxud bir neçə sifətə görə səciyyəvi şəxsiyyət deyildi. O, bütün üstün sifətlərə malik idi və bütün insani dəyərləri özündə cəmləşdirmişdi". Bəli, belədir Muhəmməd nübuvvətinin varisi, Əlinin ədalət və igidliyinin varisi, Fatimənin nəciblik və paklığının varisi.

O, bütün fəzilətlərin, fədakarlıqların simvolu, Allaha sitayiş və ülvi bir şəkildə Onu arzulamağın örnəyidir.

## AŞURA HANSI GÜNDÜR?

Aşura ərəblərin cahiliyyət dövründə rəsmi bayram günləri idi. Həmin gündə xalq oruc tutub şənlik keçirirdilər. Bizdə novruz günü bayram günü hesab edildiyi kimi, ərəblər arasında da Aşura günü, tarixi bayram günü və ayrı-ayrı ərəb qəbilələrinin bir-birinin görüşünə getdiyi gün kimi qeyd olunurdu. Həmin gündə camaat təzə paltar geyib şəhəri bəzəyirdilər. Hələ də Yezidi tayfası adlı bir ərəb tayfası hər il həmin günü bayram kimi qeyd etməkdədirlər.

Kərbəla hadisəsinin baş verdiyi hicri 61-ci ildə ərəblərin və müsəlmanların ənənəsi dəyişildi. Haram aylardan sayılan, müharibə və öldürməyin qadağan olduğu Aşura günü Həzrət Adəmin ən yaxşı övladlarından birisi - imam Hüseynin (ə) şəhadət gününə, şiələrin qəm, matəm və şəhidlərin xatirəsinin qeyd olunduğu bir qəmli günə çevrildi.

Həzrət Hüseyn (ə) və əshabının şəhid olmasının birinci ildönümündə minlərlə şəxs qəbrin ətrafında yığışıb matəm mərasimi keçirdilər. Bəni Üməyyə və Yezid hökumətinin başlanğıcından bu günədək, Əhli-beyt dostlarından milyonlarla insan matəm və xatirə mərasimləri təşkil edir və qafilələr Kərbəlaya gəlir.

Kərbəladan uzaqda yaşayanlar isə öz şəhərlərində əza məclisləri qururlar.

Misirdə Fatimilər Aşura gününü matəm günü elan etdilər. Camaat Ümmü Gülsümün qəbri ətrafında yığışıb əzadarlıq edib növhə oxuyurdular. Fatimilərin dövründə Misirdə Aşura günü rəsmi əza və matəm günü olaraq qalırdı.

İranda Müizüd-dövlə Deyləmi Aşura gününü rəsmi tətil günü elan edib bütün dövlət qulluqçuları və xalqa əmr etdi ki, işlərini buraxıb yas tutsunlar.

İran, İraq, Misir, Hindistan və sairə ölkələrdə əzadarlıq mərasimləri keçirildiyi üçün müsəlman xalqı arasında ruhi bir hərəkat və fikir dəyişikliyi əmələ gətirdi. Müsəlmanların bu günkü hərəkatı onun təsirlərinin nəticəsidir. Bu mərasimlərin ildən-ilə daha da zənginləşərək geniş şəkildə qeyd edilməsi xalqın doğru yola gəlib, səhvlərini düzəltmələrinə səbəb olacaq və onların qüdrətini çoxaldacaq, inşaallah.

Hüseyn (ə) və əshabı belə bir gündə şəhid olduğu üçün, artıq Aşura günündə şənlik keçirmək, şəhəri bəzəmək və oruc tutmaq haram oldu.

# KƏRBƏLA QİYAMINDA KİM QƏLƏBƏ ÇALDI?

Bir sıra sadəlövh adamların Aşura günündə Yezidin qələbə çalıb, imam Hüseynin (ə) məğlub olduğunu güman etməsinə baxmayaraq, tarixi diqqətlə araşdırdıqda məlum olur ki, əhvalat bunun əksinə imiş. Çünki qələbə insanın diri qalıb düşmənin ölməsi demək deyildir. Qələbə bundan ibarətdir ki, insanın özü ölsə də hədəf, fikir və idealları əbədi olaraq yaşasın. Məğlubiyyət isə döyüş meydanında həlak olmaq deyil, fikir və ideyaların məhv olmasıdır.

Aşura qiyamında Hüseyn (ə) ilə əshabı şəhid oldular, uşaqları əsir düşdü, var-dövlətləri qarət oldu, lakin imam Hüseynin (ə) hədəfi diri qaldı. Çünki onun hədəfi islamı yaymaq və zülmün qarşısını almaq idi. Şübhəsiz Hüseyn (ə) öz hədəfinə çatdı. Tarix boyu milyonlarla insan bu etiqad və hədəfin bayraqdarına çevriliblər. Yezidin hədəfi isə məhv oldu. Çünki onun hədəfi yalnız imam Hüseyn (ə) və əshabını öldürməkdən ibarət deyildi, o, islamı, islam Peyğəmbərinin (s) təlimlərini aradan aparmaq istəyirdi və güman edirdi ki, imam Hüseyni (ə) öldürməklə, uşaqlarını əsir etməklə öz hədəfini təmin edə bilər. Lakin bilmirdi ki, Allah-taala İslam, Quran və Peyğəmbərin (s) təlimlərinin qoruyucusudur. Peyğəmbərlərə qarşı çıxan, onlarla müharibə aparan zülmkarlar tarix boyu peyğəmbərləri öldürüb, yaxud sürgün ediblər və həmişə eyni murdar hədəfi güdüblər. Lakin onların heç biri öz işində müvəffəqiyyət əldə edə bilməyib. Nə Nəmrud müvəffəq oldu, nə Firon, nə də başqaları.

Bundan daha aydın, daha yaxşı olan qələbə vardırmı ki, əsrlər keçdikdən sonra o zülmkarlardan heç bir iz qalmayıb, lakin ilahi peyğəmbərlər və dini rəhbərlər həmişə ayıq və insanpərvər adamların qəlbində yaşayırlar. Xalq onların xatirəsini həmişə əziz tutub yad edir. Bu gün görürük ki, dini rəhbərlərin və əsl qiyamçıların məzarının uzaq yollardan, çoxlu çətinliklərə dözərək gələn ziyarətçiləri vardır ki, oraya gələrək hörmətlə diz çöküb dua edirlər.

Lakin zülmkarların qəbrinin heç bir ziyarətçisi yoxdur, çünki bir şeyləri yoxdur ki, kimsəyə versinlər.

Kərbəla faciəsindən sonra imam Hüseynin (ə) qələbə çalması və Yezidin məğlubiyyətə uğramasının nişanələri aşkar oldu. Çünki xalq Hüseynin (ə) varislərini getdikləri hər yerdə sevgi ilə qarşılayır, onların düşmənlərinə lənət göndərirdilər.

Hətta öz ailəsi arasında kimsə Yezidə hörmət bəsləmirdi, bəzi yaxın adamları belə ona etiraz edib, gördüyü pis əməlinə görə onu qınayırdılar.

# ALTINCI MƏSUM
# İMAM SƏCCAD (ə)

İMAMIN ŞƏXSİYYƏTİ

**Adı:** Əli
**Ləqəbi:** Səccad və Zeynül-abidin
**Kunyəsi:** Əbu Muhəmməd
**Atası:** Həzrət imam Hüseyn (ə)
**Təvəllüd tarixi:** Hicri 38-ci il
**İmamlıq müddəti:** 35 il
**Ömrü:** 57 il
**Şəhadəti:** Hicri 95-ci ildə Hişam ibn Əbdülməlikin əmri ilə zəhərlənmişdir.
**Məzarı:** Mədinə, Bəqi qəbristanlığı.

## TƏVƏLLÜDÜ

İran, ikinci xəlifə Ömərin dövründə müsəlmanlar tərəfindən fəth olunduqdan sonra İran şahı Yəzdgirdin qızları Mədinəyə gətirildilər.

Hamı Mədinə məscidinə yığışaraq Ömərin nə əmr edəcəyini gözləyirdi. Ömər onları satmaq istədikdə Əli (ə) bu işə mane olub belə buyurdu: “Qızları sərbəst burax, qoy öz istədikləri adama ərə getsinlər”.

Bu vaxt qızlardan biri Hüseyn ibn Əlini (ə), o birisi isə imam Həsən Müctəbanı özünə ər seçdi. Əli (ə) Hüseynə (ə) buyurdu: “Bu qızı lazımınca qoru, çünki onun bətnində Allahın yer üzündə ən yaxşı bəndəsi və bütün imamların atası olan bir imam dünyaya gələcəkdir”.

Çox keçmədi ki, Əli ibn Hüseynin (ə) vücudunun günəşi, hicri 38-ci ilin Şəban ayının beşində cümə axşamı günü, Mədinədə işıqlandı. Uşağın adını Əli qoydular, sonralar isə Zeynül-abidin və Səccad ləqəblərinin sahibinə çevrildi.

## HƏZRƏT ZEYNÜL-ABİDİNİN (ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

**1. Təqva.**

O Həzrətin əxlaqi xüsusiyyətlərindən biri təqva və pəhrizkarlığı idi. Bu barədə imam Sadiq (ə) belə buyurmuşdur: “Əli ibn Hüseyn (ə), Bəni Haşim övladları arasında öz gözəl rəftarına əsasən Həzrət Əliyə (ə) çox bənzəyirdi”.

O Həzrətin oğlu imam Muhəmməd Baqir (ə) isə bu barədə belə buyurmuşdur: “Bir gün atamın yanına gəldikdə onun Allaha ibadətlə məşğul olduğunun şahidi oldum. Belə ki, o Həzrətin gözləri ağlamaqdan qızarmış, ayaqları isə səcdəyə getməkdən şişib, topuğu qabar olmuşdu. Bu vaxt mən ona dedim: "Əziz ata, niyə ibadətdə ikən özündən gedir və özünü bu qədər incidirsən?” Atam ağlayıb buyurdu: “Övladım! Allaha nə qədər ibadət etsəm belə, yenə baban Əli ibn Əbu Talibin (ə) ibadətlərinin yanında heçdir”.

Tavus Yəmani deyir: "İmamın Kəbədə səcdə halında ikən belə söyləməsinin şahidi oldum: “Pərvərdigara! Sənin bəndən, Sənə möhtac olan, Sənin evində Sənin rəhmətini, əfvini və ehsanını gözləyir.”

**2. Xalqın həyat və məişəti ilə maraqlanmaq.**

Həzrət iyirmi dəfə Məkkəyə piyada getmiş, həmişə də xalqı Quranın cəzbedici ayələri ilə hidayət edib, onlara doğru yolu göstərərdi. Dünyadakı bütün insani sifətlər o Həzrətin vücudunda cəm olmuşdu. O, müqavimət, fədakarlıq və rəhmətin ən mükəmməl nümunəsi idi. Yüzlərlə yoxsul və ac ailəni dolandırır, gündə evində bir neçə qoyun kəsdirərək kasıblar arasında paylayır, paltarsızlara

paltar verir, borcluların borclarını ödəyirdi, özü isə sadə geyinib, sadə dolanırdı.

Günlərin bir günündə bir kişi Əli ibn Hüseynin (ə) hüzuruna gəlib söyməyə başladı. İmam mehribanlıqla həmin kişiyə belə buyurdu: “Ey qardaş, əgər doğru deyirsənsə və bu saydığın sifətlər məndə varsa, Allah məni bağışlayıb günahımdan keçsin. Yox əgər yalan söyləyirsənsə, Allah səni bağışlayıb günahından keçsin”. O kişi imamın bu ehtiramından utanıb Həzrətdən üzr istədi.

İmamın dostlarından olan Əbu Həmzə Səmali Həzrətin xidmətçisindən xülasə olaraq imamın əxlaqından ona danışmasını xahiş etdikdə, xidmətçi öz sözünü belə başladı: “İllərdir ki, onun qulluğundayam. Düzlük, doğruluq, təqva və paklıqdan başqa o Həzrətdə heç bir şey görməmişəm. Mövlam, bütün çətinliklərə baxmayaraq, xalqın məsələləri ilə maraqlanaraq onların qarşılaşdıqları çətinlikləri yorulmadan həll edir”.

Zeyd ibn Üsəma ölüm yatağında ikən, imam Səccad (ə) onun yanına gəldikdə Zeydi ağlayan görüb ondan nəyə görə ağladığını soruşdu. Zeyd belə cavab verdi: “On beş min dinar borcum var ki, gərək ödəyəm, lakin mal-dövlətimə baxdıqda isə görürəm ki, heç borcum qədər deyil”. İmam (ə) buyurdu: “Ağlama, mən sənin bütün borclarını ödəyərəm, buna əmin ola bilərsən”.

Axşamlar hava qaraldıqda və hamı yatandan sonra Həzrət Səccad (ə) ayağa qalxıb, müxtəlif azuqələri bir kisəyə tökərək tanınmasın deyə üzünü örtüb, kisəni dalına çatıb yoxsulların evinə aparardı.

Həzrət (ə) Mədinədə yaşayan təxminən yüz başsız ailəni idarə edirdi ki, onların da çoxu yoxsul və kasıblardan ibarət idi. Qəribədir ki, həmin ailələrdən biri də bilmirdi ki, onların məişətini idarə edən imam Zeynül-abidindir. Onlar yalnız imam şəhid olduqdan sonraköməklərinin kəsildiyini görüb başa düşdülər ki, onlara yardım edən şəxs Həzrət Səccad (ə) imiş.

## ATASI İLƏ BİRLİKDƏ

İmam Zeynül-abidinin (ə) atası Kərbəlaya hicrət etdiyi gündən etibarən onun ardınca qədəm-qədəm irəliləyirdi. Hətta Aşura günündə atası kömək istədikdə xəstə olmasına əhəmiyyət verməyib atasının köməyinə yetmək üçün ayağa qalxdıqda Həzrət Zeynəb (ə) ona mane olub buyurdu: “Sən bu ailənin yeganə yadigarı, Hüseyndən sonrakı imamımız və hamımızın qoruyucususan. Sənin borcun bizi qorumaq və şəhidlərin missiyasını xalqa yetirməkdir”.

Bir sıra cahil adamlar imamı (ə) əldən düşmüş bir xəstə kimi təsəvvür etsələr də, yanılırlar. Çünki imamın Kərbəladakı xəstəliyi ilahi bir məsləhət imiş ki, düşmən qılıncından amanda qalaraq Həzrətin özü Kərbəlanın canlı tarixi olsun. İmam Hüseyn (ə) və bütün əshabı şəhid olduqdan sonra, Şümr (lən.) və Bəni Üməyyə qatillərindən bir dəstə imamın çadırına girib Hüseynin varisini də öldürmək istədilər. Lakin imamı xəstə gördükdə Şümrlə (lən.) gələnlər ona etiraz etdilər. Ömər Səd də Şümrü tutacağı əməlinə görə qınayaraq onu imamın çadırından çıxarıb dedi: "Görmürsən bu xəstədir və heç bir iş görə bilməz?! Onunla işin olmasın!”

## HƏRƏKATIN BAŞLANMASI VƏ İMAMIN (ə) HƏRƏKATDAKI ROLU

Hicri 61-ci ilin Məhərrəm ayının 11-də səhər çağı, imam Zeynül-abidin (ə) şəhidlərin ailəsi ilə birlikdə düşmən tərəfindən mühasirə olunmuş bir vəziyyətdə ikən əl-ayağını da zəncirlə bağlayaraq o Həzrətin daha çox narahat olması üçün şəhidlərin başlarını gözünün qabağına qoymuşdular.

Heç şübhəsiz əgər bu imam (ə) Kərbəlada olmasaydı və Yezidin cinayətlərini yaxından görməsəydi və həmin cinayətləri Kufədə və Şamda xalqa izah etməsəydi, Bəni Üməyyə hökuməti tarixdə bu dərəcədə rüsvay olmazdı.

Hüseyn (ə) xanədanı, onları məğlub hesab edən bir dəstə cahilin güman etdiyinin əksinə olaraq getdikləri hər bir yerdə öz inqilablarının qələbəsindən, Yezidin isə məğlubiyyətindən danışırdılar. Bundan üstün qələbə nə ola bilər ki, düşmən onlardan qorxurdu və danışmağa ağızlarını açanda xalq onları alqışlayıb afərin deyərək düşmənlərinə lənət söyləyirdilər?!

Əsirlər karvanı Kufəyə çatdıqda camaat onları görmək üçün pişvazlarına çıxmışdılar. İmam Səccad (ə) Kufəlilərin etinasızlığından başa düşdü ki, onları tanımayıblar. Buna görə əli ilə işarə edərək onlara susmaq əmrini verdi. Camaat susdu. Hüseynin (ə) yadigarı sözə başlayıb belə buyurdu: "Ey Kufə camaatı! Mən Əli və Fatimənin övladı, Peyğəmbərin övladı olan Əliyəm. Mən uşaqları öldürülmüş, var-dövləti talan olunmuş, xanədanı əsir alınaraq qarşınızda saxlanılan imamın övladıyam.

Siz atama məktub göndərib dəvət etdiniz. O isə sizə tərəf gəldikdə onu öldürdünüz. Sabah qiyamət günündə Allahın və Peyğəmbərin cavabını necə verəcəksiniz?!

Siz peyğəmbərinizin hörmətini saxlamadınız, onun ruhunu incitdiniz. Vay sizin halınıza, siz çox pis adamsınız!".

İmam (ə) bu sözləri ilə yatmış vicdanları oyadaraq qəlbləri riqqətə gətirdi. Bununla da Əməvilərin şənliyini yasa çevirdi.

## İBN ZİYADIN SARAYINDA

Məmurlar Kufə şəhərində vəziyyətin gərginləşdiyini İbn Ziyada xəbər verdikdə əsirlərin tezliklə saraya gətirilməsini əmr etdi.

Ziyadın alçaq və satqın oğlu təntənəli bir yığıncaq təşkil edib Kufənin böyüklərini də oraya dəvət etmişdi. Beləliklə də öz qüdrətini onlara göstərib, lovğalanmaq və riya etmək istəyirdi.

Elə bu vaxt Hüseynin (ə) sağ qalmış ailə üzvlərini oraya gətirdilər. Orada olanların hamısı onlara baxırdılar. Əsirlərin heç biri Kufə cəlladı ibn Ziyada məhəl qoymadı. İbn Ziyad qəzəblənmişdi və onlara hörmətsizlik etmək istəyirdi, lakin cəsarəti çatmadı. Həzrət Səccad (ə) ona xitab edib buyurdu: "Ey Ziyad oğlu! Bu gün qüdrət taxtında oturubsan, Peyğəmbərin (s) uşaqları isə qarşında durublar. Belə güman etmə ki, bizim nəzərimizdə qiymətli bir dəyərin vardır".

Bu cümlələr ona elə təsir etdi ki, Kufənin zülmkar hakimi əl-ayağını itirib yaman söyləməyə və təhdid etməyə başladı. O, əmr etdi ki, imam Səccadı (ə) da öldürsünlər. Əsirlərin hərəkəti və orada olanların etirazı ibn Ziyadın verdiyi əmri geri götürmək məcburiyyətində qoydu. Amma imam Səccad (ə) yenidən ona xitab edərək belə buyurdu: "Məni öldürməklə qorxudursan? Öldürülmək bizim adətimiz, şəhid olmaq isə kəramətimizdir". İbn Ziyad çaş-baş qalmışdı, onun əsirlərini oradan aparmaq əmrini verməkdən başqa heç bir çarəsi qalmamışdı.

## YEZİDİN MƏCLİSİNDƏ

Peyğəmbər (s) xanədanı artıq yorğun və narahat idi. Onları iplə bir-birinə bağlayıb Yezidin sarayına apardılar. Onlar Yezidlə də ibn Ziyadla davrandıqları kimi rəftar etdilər. Bu vaxt imam Səccad (ə) buyurdu: "Ey Yezid! Sən özünü müsəlman hesab edirsən, amma əgər Peyğəmbər (s) bizi bu vəziyyətdə, belə bağlanmış halda görsə, səninlə necə rəftar edər və sənə nə deyər?"

İmamın bu qəti cümləsi orada olanların hamısını ağlatdı. Yezid isə qorxusundan tez iplərin kəsilməsini əmr etdi.

Daha sonra Yezid ağır sözlər deməyə başladı. Lakin Hüseynin (ə) övladları, o cümlədən imam Səccad (ə), qarşısında dayanıb ifşaedici sözlərilə onu rüsvay etdilər. İş o yerə çatdı ki, Yezidin hərəmxanasının içindən belə etiraz və ağlamaq səsləri ucaldı. Bu etiraz və ağlamaqların hər biri Yezidin başına dəyən bir çəkicə bənzəyirdi ki, onu işrət yuxusundan oyadırdı. O, başa düşdü ki, əgər Peyğəmbərin (s) varislərini bir az da öz sarayında saxlasa, qiyam başlanar və o zaman da Yezid həlak olar. O, özünü xalqın etiraz və qəzəb dənizində qərq olunmuş bir vəziyyətdə görür, o yan bu yana baxaraq özünə bəraət qazandırmaq üçün çıxış yolu axtarırdı. Birdən qışqırıb dedi: "Allah bu ibn Ziyada lənət eləsin. Mən Hüseyni öldürmək və ailəsini əsir aparmağa razı deyildim". Lakin artıq iş işdən keçmişdi və hamı bilirdi ki, əsl cinayətkar onun özüdür. Buna görə də rüsvayçılıq artmasın deyə dərhal əmr etdi ki, əsirləri qabaqcadan onlar üçün hazırlanmış xüsusi yerə aparsınlar. Peyğəmbərin övladlarını həmin yerə apardılar. Lakin onlar orada da sakit durmayıb xalqa Yezidin cinayətləri barədə məlumat verirdilər. Hətta imam Hüseynin (ə) üç yaşında olan qızı Rüqəyyə də bu mübarizədə iştirak edirdi.

# İMAM (ə) ŞAM MƏSCİDİNDƏ

Bir gün Yezid məğlubiyyətini aradan aparmaq üçün hökmdarlığı və qüdrətinin mərkəzi olan Şam məscidində təntənəli bir məclis qurub satqın natiqlərə əmr etmişdi ki, onu mədh edib Peyğəmbərin (s) ailəsinə yaraşmayan sözlər desinlər. Bununla da xalqın qarşısında bəraət qazanıb Peyğəmbərin (s) övladlarını təqsirkar göstərmək istəyirdi. İmam Səccad (ə) məscidin bir küncündə oturub dinləyirdi. Natiq Yezidi mədh edib, Peyğəmbərin (s) xanədanına pis sözlər dediyi vaxt, o Həzrət (ə) uca səslə fəryad etdi: "Vay olsun sənin halına, ey satqın muzdur! Yezidi sevindirmək üçün Allahı qəzəbləndirdin, özün üçün isə cəhənnəm qazandın!"

Sonra Yezidə tərəf dönüb buyurdu: "Qoy bu taxtaların üstünə çıxım və Allah ilə xalqı sevindirən bir söz danışım".

Yezid əvvəlcə əhəmiyyət verməyib icazə vermək istəmədi. Lakin məclisdə olanlar Yezidin imama icazə verməsini istədilər. Yezid çarəsiz qalıb icazə verdi, lakin bu işin axırından qorxurdu.

İmam (ə) minbərə çıxıb Allaha həmd və səna etdikdən sonra buyurdu: "Ay camaat! Allah-taala bizə elm, dözüm, səxavət, şücaət, iman və pəhrizkarlıq əta etmişdir. Bilin ki, islam Peyğəmbəri (s) bizdəndir, Əli (ə) və Cəfər Təyyar bizdəndir, Həmzə Seyyidüş-şühəda və Peyğəmbərin (s) qəlbinin meyvələri olan imam Həsən (ə) ilə imam Hüseyn (ə) bizdəndirlər".

Birdən-birə xalq özünə gəlib, qəlblər sinələrdə çırpınmağa başladı və bütün gözlər imama zilləndi. Deməli, bizə yalan demişdilər ki, bunlar hökumət əleyhinə qiyam edən xaricilərdir. Bunlar Allahın yer üzündəki ən yaxşı bəndələridirlər.

İmamın sonrakı cümlələri xalqı daha da ayıltdı. İmam (ə) belə buyurdu: "Mən Məkkənin, Minanın övladıyam, mən zəmzəm və səfanın övladıyam (yəni onlar bizə aiddir). Mən meraca getmiş bir şəxsin övladıyam, mən Allah Peyğəmbərinin (s) övladıyam, mən Əliyyi-Mürtəzanın (ə), Fatimeyi-Zəhranın (s.ə.) övladıyam, mən Kərbəlada günahsız öldürülən Hüseynin (ə) övladıyam".

Birdən onlar qəhərlənib, kişili-arvadlı ağlamağa başladılar. Özünü mühasirədə hiss edən Yezid "azanverənə azan vermək əmrini verin" - dedi. Azan səsi yüksəldi: "Allahu Əkbər". Həzrət (ə) buyurdu: "Ən böyük Allahdır." Azan verən dedi: "Əşhədu əlla ilahə illəllah". Həzrət (ə) belə buyurdu: "Ətim, dərim və sümüklərim də buna şahiddir". Azan verən dedi: "Əşhədu ənnə Muhəmmədən Rəsulullah". Həzrət (ə) buyurdu: "Ey azançı! Adını çəkdiyin Peyğəmbərə (s) xatir bir az döz dayan". Sonra Yezidə xitab edərək buyurdu: "Ey Yezid! Adını çəkdikləri bu Peyğəmbər (s) mənim babamdır, yoxsa sənin baban?! Əgər "mənim babamdır" - desən, yalan deyibsən və əgər "sənin babandır" - desən, onda nə üçün Kərbəlada oğullarını öldürüb, uşaqlarını əsir etdin?"

Yezid cavab verə bilməyib xalqı aldatmaq üçün tez namaza qalxdı. İmam isə Şam əhalisindən bir dəstə ilə birlikdə etiraz nişanəsi olaraq məscidi tərk etdi.

Bu sözlər, bu kəlamlar o qədər təsiredici idi ki, Yezid Peyğəmbərin (s) Əhli-beytini (ə) ehtiramla Mədinəyə göndərmək məcburiyyətində qaldı. Bu etirazlar xalqın qəzəb və nifrətini Yezid və Əməvi dövlətinə qarşı inqilab bayrağını dalğalandırdı. Artıq Mədinə Yezid əleyhinə üsyan və qiyama başlamışdı.

Yezid qiyamı qırğınla yatırtmaq istəyirdi, amma artıq bunun heç bir faydası yox idi. Buna görə də Müslim ibn Əqəbə adlı murdar bir kişinin sərkərdəliyi altında Mədinəyə hərbi bir hissə göndərdi. O da üç gün əsgərləri ilə birlikdə xalqın evinə soxulub var-dövlətlərini talan edərək, təxminən on min nəfər öldürdü. Lakin bunların heç biri fayda vermədi və ondan sonra Yezid bir gün görmədi.

Nəhayət hicri 64-cü ildə Yezidin həyatının qara kitabı bağlanıb dünyadan getdi və oğlu ikinci Müaviyə onun yerində oturdu. Lakin qırx gündən sonra atasının cinayətləri və xanədanının abırsızlığına görə vəzifəsindən istefa verdi. İllərlə xəlifəlik məqamına göz dikən Abdullah ibn Zübeyr Məkkədə qiyam edib hakimiyyəti ələ keçirdi. Şamda isə Mərvan qüdrətə çatdı. Hakimiyyət uğrunda mübarizə başlandı. İkisi də bir-birlərini aradan aparmaq üçün hazırlaşırdılar. Çox keçmədi ki, Mərvan öldü və oğlu Əbdülməlik onun yerində oturdu.

O, hakimiyyəti ələ keçirdikdən sonra hicri 73-cü ildə Məkkəni mühasirə edib Abdullah ibn Zübeyri öldürdü.

Əbdülməlik xəsis və alçaq bir adam idi. Ondan insanlıq və mərhəmətdən bir nişanə belə yox idi. Əbdülməlikin ən böyük cinayətlərindən biri də Həccacı Kufəyə və Bəsrəyə hakim təyin etməsidir.

Həccac çox rəhimsiz və daşürəkli bir adam idi və qısa bir müddət ərzində Həzrət Əlinin (ə) ardıcıllarından təxminən yüz iyirmi min nəfərini öldürüb çoxlarını da zindana saldı.

Əbdülməlik Həzrət Səccadı (ə) nəzarət altında saxlayır və bir bəhanə axtarırdı ki, o Həzrəti tutdursun. Nəhayət onu tutdurub Şama gətirtdi. Lakin xalqın etirazı nəticəsində Həzrəti Mədinəyə qaytarmaq məcburiyyətində qaldı.

## İMAM SƏCCADIN (ə) HİŞAMLA OLAN ƏHVALATI

Əbdülməlik illərlə davam etdiyi cinayətlərindən sonra öldü və oğlu Hişam atasının taxtında oturdu. O, həcc günlərinin birində Məkkəyə, özü demişkən, Allahın evini ziyarət etməyə gəlmişdi. Bununla da sadəlövh insanları aldatmaq istəyirdi. Təvaf zamanı izdiham çox olduğuna görə təvaf edə bilmədiyindən məcbur qalıb bir küncdə oturdu. Birdən imam Səccad (ə) hərəmə girdikdə camaat o Həzrəti saxlamayaraq onun rahat təvaf etməsi üçün yol açdılar.

Həzrət (ə) təvaf etdikdən sonra Həcərül-əsvədə tərəf getdi ki, ona əl sürtsün. Bu əhvalatı görən Hişam bərk narahat olub etinasızlıqla soruşdu: "Bu kişi kimdir, onu tanımıram?" Azad bir şair olan Fərəzdəq tez Hişama tərəf dönüb dedi: "Ey Hişam, onu tanımamağın çox təəccüblüdür. Qulaq as, onu sənə təqdim edib tanıtdırım.

Bu, Məkkə yurdu və
Allah hərəminin tanındığı bir şəxsdir,
İslam Peyğəmbəri onun babasıdır
Allah həmişə onlara salam göndərir.
Bu, Allahın bəndələrinin ən xeyirlisinin oğludur.
Bu həmin məşhur pəhrizkar insandır.
Sənin "onu tanımıram" – deməyin, ona heç ziyan yetirməz.
Əgər sən onu tanımasan da, bütün ərəb və əcəm onu tanıyır.

Hişam Fərəzdəqin sözlərindən qəzəblənib onu zindana aparmalarını əmr etdi.

İmam Səccad (ə) zindanda ona hədiyyə göndərərək çəkdiyi zəhmətlərinə görə təşəkkür edərək nəhayət, onu zindandan azad etdirdi.

## İMAM SƏCCAD (ə) VƏ SƏHİFEYİ-SƏCCADİYYƏ

İmam Səccad (ə) nəzarət altında olduğu üçün təbliğat vəzifəsini dua şəklində bəyan etmək məcburiyyətində qalmışdı. O Həzrətin dualaranın külliyyatı "Səhifeyi-Səccadiyyə" adlı bir kitabda toplanıbdır. Bu kitab riyaziyyat, biologiya, astronomiya, əxlaq, siyasət və sairə kimi elmləri ehtiva edir.

Əslində isə bu kitab həqiqətləri, çətinlikləri və dərdləri ifadə edir. Biz burada nümunə olaraq həmin kitabdan bir neçə qısa və sadə cümlənin tərcüməsini sizlərə təqdim edirik.

**1.** "Ey Pərvərdigara! Ömrüm Sənin bəndələyində və Sənə itaət etməklə keçdiyi müddətdə məni diri saxla; Şeytanın otlağına çevrildikdə isə məni Özünə tərəf apar və canımı al".

**2.** "Ey övlad! Ata-anana hörmət göstər. Çünki ata olmasaydı, sən də yox idin. Səni bütün varlığın ilə qoruyan anana bax. O, səni qidalandıraraq özünün ac qalmasından qorxmur; səni geyindirərək özünün paltarsız qalmasından qorxmur, səni kölgədə saxlayaraq özünün gün altında qalmasından çəkinmir. Sən onun zəhmətinin əvəzini verməyə qadir deyilsən. Bu işi yalnız Allah görə bilər".

**3.** "Övladına yaxşı bax. Çünki yaxşı halda da, yaman halda da səndən asılıdır və sən ona təbriyə vermək və doğru yol göstərməyə məsulsan".

**4.** "Bacı-qardaşlarınla mehriban ol. Çünki onlar sənin izzətin və qüdrətindirlər. Düşmən qarşısında onlara yardım et və həmişə onların xeyrini istə".

**5.** "Müəllimə hörmət bəslə və o olan yerdə sən də ədəbli ol və onun sözlərinə qulaq as".

**6.** "Qonşuna ehtiram göstər və ona yardım et. Əgər onun bir eybini görsən, aşkar etmə, səhv etdikdə isə ona nəsihət ver".

7. "Yoldaşınla insafla davran və o səni necə istəyirsə, sən də onu elə sev. Əgər günah etmək istəsə, ona mane ol. Onunla həmişə qəzəbli deyil, mərhəmətlə davran".

## HƏZRƏTİN ŞƏHADƏTİ

Nəhayət o böyük imam (ə) hicri 95-ci ilin Məhərrəm ayının 25-də, 57 yaşında ikən, bir çox narahatçılıqlar və zəhmətlər çəkdikdən sonra Hişam ibn Əbdülməlik tərəfindən zəhərləndirilərək şəhid oldu. Bəqi qəbristanlığında imam Həsənin (ə) yanında dəfn olundu. Bu gün mübarək və müqəddəs məzarı yolunun aşiqləri və ardıcıllarının ziyarətgahına çevrilmişdir.

# YEDDİNCİ MƏSUM
# İMAM MUHƏMMƏD BAQİR (ə)

İMAMIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Muhəmməd |
| **Ləqəbi:** | Baqir |
| **Kunyəsi:** | Əbu Cəfər |
| **Atası:** | Həzrət Səccad (ə) |
| **Təvəllüd tarixi:** | Hicri 58-ci il |
| **İmamlıq müddəti:** | 23 il |
| **Ömrü:** | 59 il |
| **Şəhid olduğu tarix:** | Hicri 114-cü il |
| **Məzarı:** | Mədinə, Bəqi qəbristanlığı. |

## TƏVƏLLÜDÜ

Beşinci imam Həzrət Muhəmməd Baqir (ə) 57-ci hicri ilinin Rəcəb ayının birində Mədinədə dünyaya gəldi. Babasına çox bənzədiyi üçün o Həzrətin adını Muhəmməd qoydular. Elmin sirlərini aşkar etdiyinə görə isə ona Baqir ləqəbini verdilər.

Atası Həzrət Səccad (ə), anası isə imam Həsənin (ə) qızlarından sayılan Fatimə idi. O Həzrət (ə), nəsli həm ata, həm də ana tərəfindən Həzrət Peyğəmbərə (s) çatan ilk imam sayılır. İmam Muhəmməd Baqirin (ə) həyatını iki hissəyə ayırmaq olar:

1. İmamətdən qabaqkı 35 illik həyatı. (Həmin dövrdə imam Mədinədə yaşayırdı).
2. Təxminən iyirmi il davam edən imamlıq dövrü. (Bu dövr islam elm və biliklərini təbliğ etdiyi zamandır).

## HƏZRƏTİN ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

İmam Muhəmməd Baqir (ə) həmişə təzə və səliqəli paltar geyər, özünə ətir vurar və yavaş-yavaş yeriyərdi.

Bir gün darfikirli insanlar o Həzrəti tənqid edərək "baban Əli (ə) köhnə və ucuz paltarlar geyərdi, bəs sən niyə bahalı libaslar geyinirsən? - deyə soruşdular. O Həzrət (ə) onların cavabında belə buyurdu: “O dövrdə camaat yoxsul və kasıb yaşadığı üçün, Əli (ə) da ucuz paltarlar geyməli, sadə xörək yeməli idi. Lakin bu gün camaat rifah və rahatlıqda ömür sürdüyünə görə mən belə paltarlardan geyinməliyəm. Babamın o dövrdə gördüyü iş ədalət və rəhbərliyinə uyğun olduğu kimi, mənim də gördüyüm iş ədalət və rəhbərliyimə uyğundur.

O Həzrətin ədəb və tərbiyəsi haqqında belə yazıblar. Heç vaxt ucadan gülməz, həmişə ahəstə və ədəbli danışardı. İmam Muhəmməd Baqir (ə) heç vaxt əsəbləşməzdi, həmişə rastlaşdığı adama hörmət göstərib onunla mehribanlıqla görüşərdi. Özü isə bu haqda belə buyurur:

“Bu iş ürəkləri bir-birinə yaxınlaşdırıb, düşmənçilikləri aradan qaldırar”.

İmam dua edərkən çox ağlar, amma heç vaxt ucadan, hönkür-hönkür ağlamazdı. Danışarkən sözünü Allah adı ilə başladığı kimi, Allah adı ilə də bitirərdi.

O Həzrətin çoxlu bağları və tarlası vardı. Onun özü də sadə bir əkinçi kimi tarlaya gedər, fəhlələrlə birgə işləyib xörək yeyərdi. Həzrət öz xadimləri ilə yaxından əməkdaşlıq edən bir malik idi.

Həzrət (ə) öz bağ və tarlalarından əldə etdiyi qazancı Allah yolunda sərf edib, fəhlələrin bütün ehtiyaclarını təmin edərdi. Belə ki, öz zamanında Hicazda ən səxavətli şəxsiyyət kimi tanınmışdı.

Şeyx Müfid imam Muhəmməd Baqir (ə) haqqında belə yazıb: “O Həzrət bütün elm və mərifətlərə bələd idi. Bütün ömrünü öz Allahına itaət etməklə başa vurmuşdu. Təqva və pəhrizkarlığında möhkəm və sarsılmaz idi. Birilə bağladığı əhd-peymanına həmişə sadiq qalardı. Ürəyinin saflığı, ruhunun paklığı və insani rəftarları hamını heyran qoymuşdu. O, camaata islam əxlaqını təlim edərək onları məhz bu əxlaqla tərbiyələndirirdi. Təəssübkeş sünnü alimlərindən olan ibn Həcər o Həzrətin əxlaqı barədə yazır: “İmam Muhəmməd Baqir (ə) səfalı və pak qəlbə malik bir şəxsiyyət idi. Sözü ilə əməli bir idi. Davranışı insani və islami idi. O, böyük arif, misilsiz bir abid idi. Onun insani ziynətlərini vəsf etməkdə

acizəm".

O Həzrətin xidmətçilərindən biri onun haqqında belə demişdir: "Həzrətlə birlikdə Məkkəyə getmişdik. Gözü Allahın evinə sataşdıqda o qədər ağladı ki, bihuş oldu. Ərz etdim ki, niyə bu qədər ağlayırsan? Buyurdu: "Bəlkə Allah bu göz yaşlarıma görə qiyamət günündə məni bağışlasın və rəhm etsin".

Sonra imam namaz qılmağa başladı və uzun müddət səcdə halında qaldı. Başını qaldırdıqda isə səccadəsi Həzrətin göz yaşlarından islanmışdı."

Yalançı şəxs sayılan Muhəmməd ibn Münkədir belə demişdir: İmamın çox işlədiyini görüb öz-özümə fikirləşdim ki, Həzrət dünya malına aşiqdir və gərək bir gün qabağını kəsib bu barədə ona nəsihət edəm. Nəhayət bir gün onu qızmar havada çox işlədiyinə görə tərləmiş görüb qabağına gedərək salam verdim və dedim:

- Ey Peyğəmbərin oğlu, niyə bu qədər dünya malının dalıncasan? Əgər bu vəziyyətdə ölsən, nə edərsən?"

İmam (ə) buyurdu:

- Bu mənim ən yaxşı zamanımdır. Çünki sizə və başqalarına möhtac olmamaq üçün işləyirəm. Əgər Allah bu vəziyyətdə mənim canımı alsa, çox sevinərəm. Çünki Ona ibadət və itaət halındayam.

Mən bu cavabdan başa düşdüm ki, yanılırmışam. O Həzrətdən üzr istəyib dedim: "Mən sizə nəsihət vermək istəyirdim. Halbuki, siz mənə nəsihət verərək məni ayıltdınız".

Kuleyni isə o Həzrətin haqqında belə yazıb: "İmamın dostlarından bir dəstə belə deyirlər: "Günlərin bir günündə imamla görüşmək üçün evinə getdik. Salam verib halını soruşduqdan sonra gördük ki, Həzrət çox narahatdır. Səbəbini soruşduqda övladının ağır xəstə olduğunu öyrəndik. "Əgər bu uşaq ölsə, imamın başına nə gələr" - deyə düşündük. Xudahafizləşib getdik. Sabahısı günü halını soruşmaq üçün Həzrətin mənzilinə təkrar gəldikdə imamı xoşhal gördük. "Yəqin Allah lütf edib uşağı sağaldıb. İmam da buna görə xoşhaldır" - deyə düşündük. Lakin məlum oldu ki, uşaq ölüb. Biz imamdan "nəyə görə uşağın ölümündən qabaq çox narahat idiniz, lakin ölümündən sonra xoşhalsınız" - deyə soruşduqda imam cavabımızda belə buyurdu: "Övladım xəstə idi, mən də atalıq və insanlıq borcuma görə çox narahat idim və sağalması üçün cəhd edib Allahdan şəfasını diləyirdim. Lakin Allah onun ölərək əzab-əziyyətdən qurtarmasını məsləhət gördü. Mən də Onun əmr və istəyinə təslim olub Allaha şükr etdim. Biz Onun rizayəti naminə hər bir şeyə razıyıq və Onun sevdiyini sevirik".

## İMAMIN (ə) ELMİ MƏQAMI

İmam Muhəmməd Baqirin (ə) elmi məqamı haqqında Şeyx Tusi belə yazmışdır: "Şam əhalisindən olan bir kişi imam Muhəmməd Baqirin (ə) hüzuruna gəlib dedi: "Sən elmli və biliklisən. Belə ki, sənin məclisin mənim üçün çox mənfəətli və dəyərlidir. Lakin sənin məclisində iştirak etsəm də, özünü və xanədanını özümə düşmən hesab edirəm".

İmam heç bir cavab vermədi. Neçə gündən sonra həmin kişi xəstələnib yatağa düşdü. İmam dostları ilə birlikdə onun yanına gəlib yatağının yanında əyləşdi və halını soruşdu. Bu alicənablığı görən şamlı kişi dediyi sözdən peşman olub imamdan nə cür üzr istəyəcəyini bilmirdi.

Həzrət (ə) xəstənin dərmanları və pəhrizi haqqında ailəsinə danışdı və sağalmasını dua etdi. Çox çəkmədi ki, o kişi yaxşılaşıb xəstəlik yatağından qalxdı. Sabahısı gün imamın dərsinə gəlib dediyi sözdən peşman olduğunu söyləyərək ondan üzr istədi. Beləliklə də həmin şamlı kişi həmişəlik olaraq imamın dostlarından birinə çevrildi.

## CABİR İMAMIN (ə) HÜZURUNDA

Həzrət Peyğəmbər (s) təqvalı səhabələrindən biri sayılan Cabir ibn Abdullaha buyurmuşdu: "Ey Cabir! Sən sağ qalaraq Tövratda adı Baqir olaraq yazılmış övladım Muhəmməd ibn Əli ibn Hüseyni görəcəksən. O zaman mənim salamımı ona yetirərsən".

Peyğəmbər (s) vəfat etdikdən sonra Cabir uzun müddət yaşadı. Bir gün Cabir imam Zeynül-abidinin (ə) evinə gəldikdə orada balaca bir uşaq gördü və imam Səccaddan (ə) "bu uşaq kimdir?" - deyə soruşdu.

İmam (ə) cavab verdi: "Bu oğlum Muhəmməd Baqirdir ki, məndən sonra müsəlmanların imamı olacaq".

Bu zaman Cabir imamın ayağını öpüb dedi: "Sənə canım qurban olsun, ey Peyğəmbərin (s) övladı. Baban Peyğəmbərin (s) salamını qəbul et. O mənim vasitəmlə sənə salam göndərmişdir".

İmamın gözləri yaşardı və buyurdu: "Babam Peyğəmbərə (s) göy və yerlər durduqca salamlar olsun, sənə də ey Cabir salam olsun ki, onun salamını mənə yetirdin".

## İMAMIN (ə) TƏRBİYƏ METODU

O biri imamlar kimi imam Muhəmməd Baqirin (ə) də elm və biliyi vəhydən qaynaqlandığı üçün bütün məsələlərin cavabını bilirdi. İmamın elmi şəxsiyyəti o qədər yüksək idi ki, alimlər onun məclisində uşaqlar müəllimin qarşısında əyləşdikləri kimi əyləşirdilər.

İmam öz dərs məclisində bir bulud kimi elm yağışını tələbələrin zehninə yağdırırdı və hər kəs istedadı qədər ondan istifadə edirdi.

Məşhur şair Hişam 106-cı hicri ilində şamlılardan olan bir dəstəylə Məkkəyə gəlmişdi. O, həcc mərasimindən sonra istirahət etmək üçün Məscidül-həramda əyləşmişdi. Birdən gözü imam Muhəmməd Baqirə (ə) sataşdı. Həzrət bir küncdə əyləşmişdi, camaat da onun ətrafına yığışmışdı və hər kəs də öz məsələsini ondan soruşurdu. Bunu görən Hişam hirslənib alimlərdən biri olan Nafeni o Həzrətin yanına göndərdi ki, imama cavabını bilmədiyini zənn etdiyi suallar verərək Həzrətin nüfuzunu xalqın gözündə azaltsın.

Saray alimi qabağa gəlib salam verərək sual vermək üçün imamdan izn istədi. İmam (ə) onun salamını alıb buyurdu: “İstədiyin sualı ver!”.

Nafe soruşdu: - İsa ilə Muhəmmədin arasında zaman fərqi nə qədərdir?

İmam buyurdu: - Bizim nəzərimizə əsasən 500 il.

Nafe soruşdu: - Peyğəmbərə “vəsəl” (soruş) buyuran ayə onun kimdən soruşmasını nəzərdə tutur?

İmam (ə) cavab verdi: - İçində hər şey yazılmış olan Allahın lövhi-məhfuzundan.

Nafe soruşdu: - Allah nə vaxtdan mövcuddur?

İmam buyurdu: - Vay sənin halına! Zamanı Allah yaradıbdır. O, cisİm deyil və doğulmayıbdır ki, zamana da ehtiyacı olsun.

Nafe utanıb dedi: - Allaha and olsun ki, sən zəmanənin ən bilici şəxsiyyətisən.

Bir nəfər Abdullah ibn Ömərə sual verdi. O da sualın cavabını bilməyib onu verənə dedi: “Bu uşaq imam Muhəmməd Baqirdir (ə). Onun yanına get və sualını ondan soruşduqdan sonra aldığın cavabı mənə də deyərsən”.

Həmin adam imamın yanına gəlib sualını Həzrətdən soruşdu və doğru cavab aldı. Sonra da Abdullah ibn Ömərin yanına gəlib imamın verdiyi cavabı ona dedi. Abdullah ibn Ömər cavabı eşitcək dedi: “Onlar Allahın elm və bilik ziynəti ilə bəzədiyi xanədandırlar”.

## İMAMIN (ə) XRİSTİAN ALİMLƏ OLAN MÜBAHİSƏSİ

İmam Sadiq (ə) buyurmşudur: “Bir gün atamla birlikdə Hişamın məclisindən qayıdırdıq ki, yolumuz xristianların yığışıb alimlərinə sual verdikləri yerdən düşdü. Yaxınlaşdıq ki, görək nə xəbərdir.

Saçı ağarmış bir qoca kişinin onların arasında oturduğunu, məsihi ardıcıllarının da onun qarşısında əyləşdiklərini və ona müxtəlif suallar verdiklərini gördük. Biz də onların arasında oturduq.

Qoca xristian atam imam Muhəmməd Baqiri (ə) gördükdə dedi:

- Sən bizdən, ya Muhəmmədin ardıcıllarındansan?

Atam cavab verdi: - Muhəmmədin ardıcıllarındanam.

Qoca kişi dedi: Alimlərdənsən, ya cahillərdən?

Atam buyurdu: - Cahillərdən deyiləm.

Qoca kişi dedi: - Mən səndən soruşum, ya sən məndən soruşursan?

Atam buyurdu: - Sən soruş.

Qoca kişi heyrətlə atama baxdı və dedi: - Ey Allahın bəndəsi! Gecə olmayan və gündüz də olmayan saat hansı saatdır?

Atam buyurdu: - Danın söküldüyü ilə günəşin çıxdığı vaxtın arası.

Qoca dedi: - Hansı saatlardandır?

Atam buyurdu: - Cənnətin saatlarındandır. Bu saatda xəstələr ayılar, ağrılar toxtayar və gecə yuxusuz qalan yuxulayar.

Kişi dedi: - Cənnət əhli yeyib-içərlər, amma bir şey ifraz etməzlər. Bu dünyada da onlara bənzər bir şey varmı?

Atam buyurdu: - Bəli, uşaq anasının bətnində yeyər, lakin yediyi şeyi ifraz etməz.

Qoca dedi: - İddia edirsən ki, cənnət əhli cənnətin meyvələrindən nə qədər yesələr də o meyvələrdən heç bir şey azalmaz və əvvəlki halına qayıdar. Dünyada da elə bir şey varmı?

Atam buyurdu: - Bəli, çıraqdır. Əgər yüz çırağı bir çıraqdan yandırsan, yenə də ondan bir şey azalmaz.

Xristian alim yerindən qalxıb dedi: “Bu kişi məndən daha alimdir!” Mübahisə etdiyi adamın imam Muhəmməd Baqir (ə) olduğunu öyrənən kimi ona iman gətirib müsəlman oldu.

## HİŞAMIN MƏCLİSİNDƏ

İmam Sadiq (ə) buyurmuşdur: “İllərin birində Hişam ibn Əbdülməlik həcc üçün Məkkəyə gəlmişdi. Həmin il mən də atamla birlikdə həccə getmişdim. Bir gün yığıncaqda mən belə dedim: “Allaha həmd olsun ki, xalqa doğru yolu göstərmək üçün Muhəmmədi (s) peyğəmbərliyə seçdi və bizə də o Həzrətin varlığı sayəsində dəyər verdi. Biz Allahın bəndələrinin seçilmişləri və Onun yer üzündəki xəlifələriyik. Bizə tabe olan xoşbəxtdir, bizimlə müxalif və düşmən olanlar isə bədbəxtdirlər”.

Camaat arasındakı Hişamın xüsusi casusu olan qardaşı eşitdiklərini Hişama xəbər verdi. Hişam Məkkədə bizə toxunmadı, lakin Şama qayıtdıqdan sonra Mədinədəki nümayəndəsinə məni və atamı Şama göndərməsini yazdı. Mədinənin hakimi bizi Şama göndərdi. Hişamın məclisinə daxil olduğumuz zaman Şamın əyanlarının hamısının orada olduğunu gördük.

Hişamın özü səltənət taxtında oturmuş, əyanları isə onun qarşısında durmuşdular. Uzaq bir məsafədə bir nişan qoymuşdu ki, hamı ona ox atırdı.

Məclisə girdikdə Hişam atama hörmət edib, dedi: - Yaxın gəl sən də ox at.

Atam buyurdu: “Mən qocalmışam, məndən ox atmağı istəmə”.

Hişam and içdi ki, əl çəkməyəcək. Atam çarəsiz qalıb yayı götürüb nişan aldı. Ox hədəfin tam ortasına dəydi. Bir ayrı ox atdı, o da əvvəlki oxun ortasına dəyib onu yarı böldü, üçüncü ox da ikincinin ortasına dəyib onu yarı böldü. Bu iş doqquzuncu oxa qədər davam etdi.

Hişam dedi: “Bəsdir, ey Əbu Cəfər. Sən ox atmaqda hamıdan mahirsən!”

Qəzəb odunda yanan və işindən peşman olan Hişam elə orada atamı qətlə yetirmək qərarına gəldi və özünü vəziyyətdən qurtarmaq üçün yaltaqlanmağa başlayıb dedi: “Qureyş qəbiləsi ərəblər və əcəmlərdən üstündür, çünki sənin kimi bir şəxsə sahibdir”.

Daha sonra atamdan belə soruşdu: - Belə dəqiq ox atmağı hardan öyrənmisən?

Atam cavab verdi: - Allah-taala hər bir elm və mərifəti tam şəkildə bizə əta etmişdir.

Hişam atamın sözlərindən çox qəzəblənib, başını aşağı saldı, sonra qaldırdı və belə dedi:

Məgər bizlər və sizlər Əbd Mənafın nəslindən deyilik? Məgər Peyğəmbər (s) Əbd Mənafın nəslindən deyildi ki, Allah onu bütün xalqın rəhbəri olaraq təyin etdi? Siz bu biliyi haradan irs aparmısınız?

Atam onun cavabında belə buyurdu: “Biz vəhy ailəsiyik və Allah bizə, başqa adamlara bəxş etmədiyi xüsusiyyətləri bəxş etmişdir. Necə ki, Peyğəmbər (s) kürəkəni Əliyə (ə) başqa adamlara demədiyi sirləri deyirdi. Əlinin (ə) özü də belə idi. Belə ki, o Həzrət bir gün Kufədə belə buyurdu: “Allahın Peyğəmbəri elmin min qapısını mənim üzümə açmışdı ki, hər bir qapıdan min təzə qapı açılır.

Ey Hişam, təkcə biz o elmləri irs aparmışıq, başqaları yox”.

Hişam heç bir söz demədi və əmr etdi ki, bizi ehtiramla Mədinəyə yola salsınlar.

## İMAMIN (ə) ƏSHABI

İmam Muhəmməd Baqirin (ə) zamanında Əməvi xəlifələri öz şəxsi işləri ilə məşğul olduqlarından və həm də Abbasilərlə hakimiyyət uğrunda mübarizə apardıqlarından o Həzrət üçün islam maarifini yaymaq fürsəti yaranmışdı. İmam (ə) bu fürsətdən istifadə edərək dərs və tədqiqat məclisləri təşkil etməyə başladı və öz məktəbində öz səviyyələrində misilsiz olan tələbələr yetirdi. Həmin tələbələrdən bəzisi bunlardan ibarətdir:

1. İmam Səccad (ə), imam Baqir (ə) və imam Sadiqin (ə) məhzərində dərs oxuyan, zəmanəsinin görkəmli elmi şəxsiyyətlərindən sayılan, təfsir, fiqh, hədis və lüğət elmlərində dərin biliyə sahib olan Əban ibn Təğlib. İmam Baqir (ə) ona belə buyurmuşdu: “Ey Əban, Mədinə məscidində otur, xalqa fətva ver!"
2. İmam Muhəmməd Baqir (ə) və imam Sadiqin (ə) məzhərində dərs oxuyan, hədis, fiqh və şiə maarifindən dərin elmə malik olan Zürarə. İmam Sadiq (ə) onun haqqında belə buyurmuşdur: “Əgər Zürarə və dostları olmasaydılar, Peyğəmbərin (s) əsərləri məhv olmuşdu”.

3. Görkəmli şair, lüğət və ədəbiyyat elmlərində ustad olan Küməyt Əsədi. Küməyt həqiqətləri bəyan etmək və zülmkar hakimləri tənqid etməkdə misilsiz idi. O, gözəl şerləri ilə Əhli-beyti (ə) müdafiə edirdi, buna görə də bəzən öldürülməklə təhdid olunurdu. Əhli-beytin (ə) əsərlərini və onların üstünlüklərini bəyan etmək Əməvilər zamanında olduqca təhlükəli bir iş idi. Lakin bu azad şair, Əhli-beyt (ə) üçün bütün təhlükələrə sinə gəlirdi.

Küməyt imam Muhəmməd Baqiri (ə) çox sevirdi. Bir gün imamın hüzurunda çox gözəl və rəvan şerlər oxuduqda Həzrət (ə) Kəbəyə tərəf dönüb belə buyurdu: “Ey Allah! Küməytə rəhmət qıl”.

4. “Əhli-beytin fəqihi” ləqəbini alan Muhəmməd ibn Müslim, imam Muhəmməd Baqir (ə) ilə imam Sadiqin (ə) həqiqi dostlarından sayılırdı. İmam Sadiq (ə) onun haqqında belə buyurmuşdur: “Əhli-beyt (ə) elmləri onun vasitəsilə davam etmişdir”.

## İMAMIN (ə) ŞƏHADƏTİ

Nəhayət, imam Muhəmməd Baqir (ə) illərlə zəhməti və islam maarif və mədəniyyətinə xidmət etdikdən sonra hicri 114-cü ilin Zilhəccə ayının 4-də 59 yaşında ikən, Hişamın əmri ilə zəhərlənib şəhid oldu. O Həzrətin pak bədənini Bəqi qəbristanlığında, başqa imamların yanında torpağa tapşırdılar.

# SƏKKİZİNCİ MƏSUM
# İMAM CƏFƏR SADİQ (ə)

İMAMIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Cəfər |
| **Ləqəbi:** | Sadiq |
| **Kunyəsi:** | Əbu Əbdillah |
| **Atası:** | Həzrət Muhəmməd Baqir (ə) |
| **Təvəllüd tarixi:** | Hicri 80-cı il |
| **İmamlıq müddəti:** | 31 il |
| **Ömrü:** | 68 il |
| **Şəhid olduğu tarix:** | Hicri 148-ci ildə Abbasi xəlifəsi Mənsurun əmri ilə zəhərlənmişdir. |
| **Məzarı:** | Mədinə, Bəqi qəbristanlığı. |

## TƏVƏLLÜDÜ

İmam Sadiqin (ə) mübarək vücudu 83-cü hicri ilin Rəbiül-əvvəl ayının 17-də Mədinə şəhərində parladı. O Həzrətin anasının adı Ümmi Fərhə idi. Atası imam Muhəmməd Baqir (ə) oğlunun dünyaya gəlməsindən çox sevinmişdi. O Həzrətin anası Həzrət Əlinin (ə) əshabından olan Muhəmməd ibn Əbu Bəkrin nəvəsi idi. Həzrət Əli (ə) onun haqqında daim belə buyurardı: "Muhəmməd mənim mənəvi nəvəmdir". Muhəmməd ibn Əbu Bəkrin anası isə təqvalı və həmişə Həzrət Fatiməyə (s.ə.) xidmət etməkdən iftixar hissi duyan Əsma bint Üməys idi.

İmam Sadiq (ə) öz anası haqqında belə buyurmuşdur: "Anam təqvalı, imanlı və xeyirxah qadınlardan idi".

İmam Sadiq (ə) babası imam Səccad (ə) dünyadan köçəndə 15, atası şəhid olduqda isə 34 yaşında idi.

İmam Hüseynin (ə) şəhadətindən sonra Əməvi hökuməti artıq sarsılmış, xalq isə onlarla düşmən olmuşdu. Bu da hakimiyyəti Abbasilərin ələ keçirməsinə zəmin yaratmışdı. Bu iki qüdrət mərkəzi hakimiyyət uğrunda mübarizəyə qalxdığından şiə düşüncələrini təbliğ etmək və yaymaq üçün fürsət yaranmışdı. Məhz belə bir vaxtda İmam Sadiq (ə) öz elmi hərəkatı ilə islam incəliklərini bütün dünyaya yaymağa müvəffəq oldu.

## İMAMIN (ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

Məlum olduğu kimi insanların zahiri rəftarı onların daxili əxlaq və düşüncələrini əks etdirir. Belə ki, insanları onların rəftar və davranışları ilə tanımaq mümkündür. Az adam tapılar ki, qəlbində olanları öz rəftar və hərəkətləri ilə büruzə verməsin.

İmam Sadiq (ə) da başqa imamlar kimi bütün həyatı boyu həqiqi islamı təlim edirdi. O Həzrətin özü də islam əxlaqının parlaq nümunəsi idi. İnsanlar arasında hər cəhətdən, istər fikri, istər əxlaqi, istərsə də düşüncə baxımından bir-birilə eyni olan ata və oğul tapmaq olmaz. Lakin Həzrət Peyğəmbərin (s) ailəsi, eləcə də o Həzrətin canişinlərinin hamısı eyni istiqamətdə, eyni nöqteyi-nəzər və eyni üslubda vahid bir hədəfə doğru irəliləyərək öz müqəddəs borclarını yerinə yetirirdilər. Onların fikirləri, sözləri və davranışları arasında heç bir fərq yoxdur.

İmam Sadiqin (ə) əxlaqi üstünlük və dəyərlərini isbat etmək üçün təkcə bu kifayətdir ki, onun dörd min tələbəsi arasında bir nəfər belə tapılmadı ki, o Həzrətin əxlaq və üslubunu bəyənməyib ondan narazı qalsın. O, natiqlikdə, yeriməkdə, başqaları ilə rəftarında, yeməkdə, hətta istirahət etməkdə belə müsəlmanlar üçün əbədi bir örnək idi. O Həzrət öz uşaqları ilə necə davranırdısa, dostları ilə də eyni şəkildə davranırdı.

# İMAMIN (ə) ZÖHD VƏ TƏQVASI

Zöhd və təqva insan dəyərinin ölçüsüdür. İmam Sadiq də (ə), babası Əli (ə) kimi o qədər təqvalı idi ki, hamını heyrətləndirmişdi. Malik ibn Ənəs deyir: "İmam Sadiq (ə) həmişə Allahı zikr etməklə məşğul idi. O, böyük zahidlərdən sayılırdı".

Əbdül-əla isə belə deyir: "Yayın isti günlərinin birində imam Sadiqi (ə) Mədinə küçələrindən birində gördüm ki, harasa gedirdi. O Həzrətə dedim: "Qurbanın olum, sən ki, Peyğəmbərin (s) qohumusan, nə üçün yayın bu istisində özünü zəhmətə salırsan?"

İmam (ə) buyurdu: "Ruzimi qazanmaq üçün işləməyə evdən çıxmışam, çünki başqalarına möhtac qalmaq istəmirəm".

Başqa bir nəfər isə o Həzrətin haqqında belə demişdir: "İmam Sadiqi (ə) qalın bir paltarla fəhlə kimi bağda işləyib tər tökən gördükdə, o Həzrətə "ey Peyğəmbərin övladı, icazə verin mən sizin yerinizə işləyim" - dedim. Həzrət (ə) cavabımda belə buyurdu: "Güzəranımı təmin etmək üçün işləməyi sevirəm. İstəyirəm başqa adamlar kimi mən də qızmar günəşin altında çalışmağın zəhmətini dadım".

İmam bir yerə gedəndə yeni, təmiz və bahalı paltar geyinər, yorğa at minərdi. Bir sıra cahil adamlar belə güman edirdilər ki, o Həzrətin bu əməli zöhd və təqvaya ziddir və elə buna görə də imama etiraz edərdilər. Lakin imamın cavabını eşitdikdə utanıb geri qayıdırdılar.

# İMAMIN (ə) YALANÇI MÜQƏDDƏSƏ DEDİYİ SÖZLƏR

Bir gün Süfyan adlı bir yalançı müqəddəs imam Sadiqin (ə) qarşısını kəsib dedi: - Siz Peyğəmbərin (s) ailəsindənsiniz, bəs niyə belə bahalı paltarlar geyinirsiniz?

- İmam (ə) buyurdu: "Ey Süfyan, bax bu paltarın altında köhnə bir köynək var və mən özüm bilə-bilə onun üstündən bu paltarı geymişəm ki, ağılları gözlərində olanlar mənim yoxsul və möhtac olduğumu zənn etməsinlər. Lakin sən isə əynində olan bu kobud paltarın altından yumşaq bir paltar geyinmisən ki, camaatı aldadasan və özünü zahidlər kimi göstərəsən. Ey Süfyan, bu qədər dargözlü olma".

Başqa bir gün Süfyan imamı fəhlələrlə tarlada işləyən görüb dedi: "Sən məni təəccübləndirirsən. Nəyə görə bu qoca yaşında dünyaya tamah salıb işləyirsən?"

İmam (ə) buyurdu: "Mən zəhmət çəkərək güzəranımı təmin edirəm və xalqa möhtac deyiləm. Əgər bu vəziyyətdə Allahın görüşünə getsəm, çox sevinərəm".

Başqalarının zəhmətinin nəticəsini yeyənlər və onların vasitəsilə qüdrətə çatanlar, eləcə də onlara xidmət və məhəbbət əvəzində özlərini onlardan üstün sayanlar çox bədbəxtdirlər. Onlar da Süfyan kimi aldadıcı zahirə malikdirlər, lakin batinləri pozğun və xarabdır.

# İMAM (ə) VƏ ƏDALƏTLİ MƏNFƏƏT

İmam Sadiq (ə) əshabından olan Müsadif adlı bir nəfərə min dinar vermişdi ki, ticarətlə məşğul olub mənfəət əldə edərək güzəranını yaxşılaşdırsın. Müsadif də imamın verdiyi pulla mal alıb tacirlərlə birlikdə Misirə getdi. O, Misirin yaxınlığında şəhərdən qayıdan bir karvanla rastlaşdı. O, gətirdiyi malın ticari durumunu öyrənmək üçün onlardan müxtəlif suallar soruşdu. Karvandakılar ona dedilər ki, şəhərdə onun gətirdiyi maldan çox az tapılır, buna görə də müştərisi çoxdur və mütləq gətirdiyini baha qiymətə sata biləcək.

Müsadif bu sözləri eşitdikdə sevinib yoldaşları ilə danışdı ki, gətirdikləri əmtəəni ikiqat baha qiymətə satsınlar və bu qiymətdən aşağı enməsinlər. Şəhərə daxil olandan sonra dedikləri kimi də etdilər və bunun nəticəsində Müsadif min dinar da artıq qazandı. Mədinəyə qayıtdıqdan sonra sevincək imamın evinə gəldi, Həzrətin hüzuruna getdikdə hərəsində min dinar olan iki kisəni imamın qabağına qoyub dedi: "Bir kisə sizin sərmayənizdir, o birisi isə alverin qazancıdır".

İmam (ə) buyurdu: "Bu qədər mənfəəti necə əldə eləmisən?" Tacir kişi əhvalatı olduğu kimi Həzrət üçün danışdı. Birdən-birə imam (ə) narahat olub belə buyurdu: "Allaha pənah aparıram. Müsəlmanların ziyanına əlbir olubsunuz ki, malınızı ikiqat qiymətinə satasınız?!"

İmam (ə) verdiyi pulu götürdükdən sonra ikinci kisəni Müsadifə qaytarıb buyurdu: "İnsafsızlıqla əldə olunan bu qazanca mənim ehtiyacım yoxdur. Ay kişi, bunu bil ki, halal yolla var-dövlət qazanmaq çox çətindir".

## İMAMIN (ə) SƏBRİ VƏ DÖZÜMÜ

İnsanın həyatda qarşılaşdığı müxtəlif çətinliklər və hadisələr onun bacarıq və imanının nə dərəcədə olduğunu aşkar edə bilər. İmam Sadiqin (ə) həyatında meydana gələn çətinliklər və o Həzrətin göstərdiyi səbr və dözümlülük onun dəyərli şəxsiyyətini sübuta yetirib aşkar etmişdir.

O Həzrəti nə qədər söysələr də, əziyyət etsələr də həmişə öyüd-nəsihət verər və heç vaxt bir kimsəni söyüb qarğışlamazdı.

## POZULAN DOSTLUQ

İmam Sadiqi (ə) çox sevən və daim onun yanında olan bir kişi var idi. Bir gün həmin kişi imamla birlikdə pinəçilər bazarına getmişdilər. O kişinin zənci qulu da onların dalınca gəlirdi.

Qulun başı dükanlara baxmağa məşğul olduğundan sahibindən uzaq düşürdü. İmamın dostu da hərdən arxasına baxır, amma qulunu görmədiyindən çox narahat olub hirslənirdi. O, birdən gələn qulu görüb onun anasını söydükdən sonra soruşdu: - Harada idin?

Kişinin bu sözlərindən təəccüblənən imam Sadiq (ə) əlini əlinə vurub buyurdu: "Sən onun anasını söyürsən?! Mən elə güman edirdim ki, sən təqvalı və pəhrizkar bir kişisən. Buna görə də uzun müddət səninlə dostluq edib dostlarım arasında səni tərifləyirdim. Yaxşı oldu ki, sənin düz-əməlli bir dost olmadığını anladım. Tez məndən uzaqlaş!".

## TƏBLİĞATI İMAMDAN ÖYRƏNƏK

Şəqrani gizlində pis işlər görən cavan bir oğlan idi. Onun babasını Həzrət Peyğəmbər (s) azad etmişdi, elə buna görə də camaat onu Peyğəmbərin (s) yaxın adamlarından hesab edirdilər. Bir gün Şəqrani, Abbasi xəlifəsi Mənsurun beytul-maldan pul payladığını eşitdikdə ondan pul almaq üçün oraya yollandı. Lakin orada heç kimi tapmadığı üçün bir şey ala bilmədi. Bu arada gözü imam Sadiqə (ə) sataşdı, qaça-qaça onun yanına gəlib Həzrətdən onun üçün xəlifədən bir pay almasını xahiş etdi. İmam da onun istəyini qəbul edib getdi və xəlifədən onun payını alıb gətirdi. İmam pulları ona verən zaman belə buyurdu: "Hər kəs yaxşı iş görsə, yaxşıdır, lakin sən bizə bağlı olduğun üçün yaxşı iş görsən, daha yaxşıdır. Hər kəs pis iş görsə, pisdir, lakin sən pis iş görsən, daha pisdir".

İmam bunu deyib getdi. Pulları alan Şəqrani bir müddət fikrə dalıb anladı ki, imam (ə) onun pis iş gördüyünü başa düşdüyündən bu sözlə onu bu işdən çəkindirmək istəyib.

İmamın bu davranışı səbəb oldu ki, pis iş görən kişi özündən utanıb pis işləri buraxsın.

## İMAMIN (ə) YOXSULLARA OLAN YARDIMI

**1.** İmamın dostlarından olan Müəlla ibn Xünəys belə deyir: "Qaranlıq və yağışlı bir gecədə imam Sadiqi (ə) küçələrində gördüm ki, Həzrət ağır bir kisəni dalına qoyub aparırdı. Onun dalınca düşdüm ki, Həzrətin hara getdiyini öyrənim. Kisədə olan çörəklərdən bir azı yerə tökülmüşdü. Mən çörəkləri yığıb imamın yanına getdim və salam verdikdən sonra çörəkləri ona verdim. İmam (ə) onları alıb kisənin içinə qoyduqdan sonra yenidən öz yoluna davam etdi. Çox keçmədi ki, yoxsullardan bir dəstəsinin yaşadığı bir yerə çatdı. Onlar orada yatmışdılar. Onların hərəsinin başının altına iki dənə çörək qoyub qayıtdı. Mən imamdan "onlar sizin şiələrinizdən idilər" - deyə soruşduqda buyurdu: "Xeyr, əgər şiələrimizdən olsaydılar, onlara daha yaxşı xidmət göstərərdik".

**2.** İmamın başqa bir dostu Hişam ibn Salim belə deyir: "İmam Sadiqin (ə) işi belə idi ki, qaranlıq gecələrdə bir qədər ərzaq götürüb yoxsulların qapısına aparar, onu gizlincə qapıdan içəri qoyardı. İmam vəfat etdikdən sonra onun etdiyi yardımlar kəsildiyi üçün yoxsullar başa düşdülər ki, gecələr onların qapısına gəlib onlara yardım edən naməlum şəxs imam Sadiq (ə) imiş. Buna görə də çox narahat olub yasa batdılar".

## İMAM (ə) VƏ EHTİKARLA MÜBARİZƏ

İllərin birində Mədinədə buğda qıtlığı olduğundan camaat qorxub çox nigaran olmuşdu. Hər kəs o ilin ehtiyaclarını təmin etmək üçün çalışıb buğda yığırdı.

Bu arada yoxsul adamlar gündəlik ehtiyaclarını bazardan almaq məcburiyyətində qalmışdılar. Bir gün imam Sadiq (ə) xidmətçisi Mütəbdən "bu il evdə buğdamız varmı?" - deyə soruşduqda, Müətəb cavab verdi: "Bəli, bir neçə aylıq buğdamız var".

İmam buyurdu: "Apar onları bazarda sat!"
Mütəb dedi: "Mənim mövlam, axı Mədinədə buğda tapılmır. Əgər bunları satsam, sonra özümüz üçün buğda almaq çətin olar və daha baha qiymətə almalı olarıq".
İmam (ə) buyurdu: "Dediyim işi gör. Bundan belə Mədinə yoxsulları kimi gündəlik ehtiyacımızı bazardan al. Çünki mənim evimin çörəyi ilə xalqın yediyi çörək arasında heç bir fərq olmamalıdır".

## İMAMIN (ə) İCTİMAİ FƏALİYYƏTİ

TAMAHKAR DİLƏNÇİ VƏ ŞÜKR EDƏN YOXSUL

İmamın əshabından biri deyir: "Həzrətlə Minada üzüm yeməyə məşğul olduğumuz vaxt bir yoxsul adam gəlib diləndi. İmam (ə) bir salxım üzüm ona verdi. Yoxsul adam üzümü almayıb pul istədi. İmam buyurdu: "Allah sənə yetirsin".
Dilənçi bir az uzaqlaşdıqdan sonra qayıdıb üzümü istədi. Həzrət ona belə buyurdu: "Allah sənə yetirsin". O kiş getdi və başqa bir yoxsul adam gəlib imamdan köməklik istədikdə imam (ə) ovucunu üzümlə doldurub ona verdi. Kişi üzümü alıb Allahına şükr etdikdən sonra imam (ə) ona iyirmi dirhəm pulla bərabər öz köynəyini də verdi. Kişi onları alıb imama dua edə-edə bizdən uzaqlaşdı. Öz-özümə düşündüm ki, əgər bu kişi belə davam etsəydi, imam var-yoxunu da ona verərdi.

## İSLAM UNİVERSİTETİNİN QURULMASI

İmam Sadiq (ə) müxtəlif fənlərdə tələbə tərbiyə etmək üçün Mədinədə islami bir universitet qurmaq qərarına gəldi. O Həzrətin elm çeşməsi o qədər qaynar idi ki, hətta dünyanın dörd tərəfindən belə alimləri Mədinəyə sarı çəkirdi. Elm öyrənmək istəyən yüzlərlə cavan dünyanın hər yerindən Mədinəyə axışırdılar ki, imamın dərslərində iştirak etsinlər.
İmam (ə) müxtəlif elmi sahələrdə görkəmli alimlər yetişdirmişdir ki, onlardan bəzilərinin adlarını sizlərə təqdim edirik:

1. Fiqh fənnində Zürarə və Muhəmməd ibn Müslim.
2. Əqaid və kəlam elmində Hişam və Möminüt-taq.
3. İrfan və islam maarifi fənni üzrə Müfəzzəl və Səfvan.
4. Riyaziyyat və təcrübə elmləri üzrə Cabir ibn Həyyan.

Bunlarla birlikdə bir çox başqa alimlər də imamın tələbəsi olub, hərəsi ayrı-ayrı islami elm və fənnin təməlini qoymuşdular. Onların kitabları uzun illər Avropada qərb dillərinə tərcümə olunaraq tədris olunmuşdur. Məlum olduğu kimi, Həzrət Əlinin (ə) zamanında islam elmlərini yaymaq üçün belə bir münasib şərait yox idi. Çünki düşmən o Həzrəti vətəndaş müharibəsi ilə məşğul edirdi ki, beləliklə də islami elmlərin yayılmasının qarşısı alınırdı. Bu vəziyyət imam Səccadın (ə) zamanına qədər davam etmişdir. İmam Baqirin (ə) zamanından isə islam elmləri mədrəsələri təşkil olundu və imam Sadiq (ə) zamanında öz yüksək mərhələ və zirvəsinə yetişdi. İmam Sadiqin (ə) universitetində dörd min tələbə müxtəlif elmi sahələrdə yetişdirildi. Onlar da dünyanın dörd tərəfinə gedib xalqa təlim-tərbiyə verməklə məşğul olurdular.

## NƏ ÜÇÜN ŞİƏLİK CƏFƏRİ MƏZHƏBİ ADLANIR?

Şiə məzhəbinin imam Cəfər Sadiqin (ə) elmi və siyasi fədakarlıqları sayəsində genişlənib yayılmasına görə bu məzhəbə "Cəfəri" məzhəbi adı verilmişdir. Bizim məzhəbimiz Cəfəri məzhəbidir və biz bu adla fəxr edirik. Çünki Həzrət Peyğəmbərin (s) əsil islamının missiyasını imam Hüseynin qanında, bəyanını isə imam Sadiqin təlimlərində tapmaq mümkündür. Cəfəri islamı, Həzrət Əlinin (ə) onun yolunda cihad etdiyi, imam Həsənin (ə) sülh etdiyi, imam Hüseynin (ə) şəhid olduğu, imam Səccadın (ə) əsir düşdüyü islamdır. Əgər islam, hökumdarlarının qəsb olunmuş taxtda oturduqları, Zəhranı (s.ə) qəzəbləndirən və Əlini (ə) zalıma beyət etməyə məcbur edən islam olsaydı, heç vaxt belə bir islama boyun əyməzdik. Çünki bilici, mömin və Peyğəmbərin (s) xanədanına etiqad bəsləyən alimlərin məntiqinə görə, Peyğəmbərin (s) ailəsinin kənarda qaldığı islam hökmdarlarını müaviyələr, yezidlər və s. icad etdiyi islamdır. Şiəliyin tarixi sübuta yetirmişdir ki, hər kəs Əli (ə) xanədanını çıxmaqla islamı qəbul etsə, bu yolda nə qədər çalışsa belə, heç bir yerə çatmayacaq və axırda da müstəmləkəçilərin əlaltısına çevriləcəkdir.

## MƏNSURUN İMAM SADİQƏ (ə) ETDİYİ ZÜLMLƏR

Qəribədir ki, Abbasilər Kərbəla şəhidlərinin intiqamını almaq və Əməvilərin zülmünə qarşı mübarizə etmək bəhanəsi ilə xalqı öz ətraflarına yığıb Əli (ə) xanədanına məhəbbət bəsləyən iranlıların vasitəsilə və xorasanlı Əbu Müslimin köməyi ilə Əməvi hökumətini yıxdılar, lakin xəlifəliyi zəmanənin imamı Həzrət Sadiqə (ə) tapşırmaq əvəzinə özləri hakimiyyət başına keçdilər. 132-ci hicri ilində Əməvi hökuməti devrildikdən sonra Səffa və Mənsur adlı Abbasilərə mənsub iki şəxs xəlifə oldular ki, birincisi on il, ikincisi isə iyirmi iki il hökmranlıq etdi. Onlar bu müddət ərzində fasiləsiz olaraq imam və rəhbərlərə əziyyət verdilər. İmam Sadiq (ə) Mənsur zamanında şiddətli təzyiq altında idi. Hətta bəzi vaxtlar xalqın o Həzrətlə görüşməsinə icazə verilmirdi. Misal üçün, Harun adlı bir şəxs imamdan bir məsələ soruşmaq istəyirdi, amma imamla görüşə bilmək üçün bir yol tapmırdı. Nəhayət səbət içində xiyar satan bir kişini gördükdə bir az fikirləşdikdən sonra onun yanına gəlib bütün xiyarlarını səbətlə bir yerdə ondan alıb onun köhnə paltarını da əmanət alaraq əyninə geyib xiyar satmaq bəhanəsi ilə imamın qapısına getdi və ora daxil olandan sonra məsələsini soruşub düzgün cavabını alıb geri qayıtdı.

Mənsur imamın əshabının çoxunu tutub zindana salmışdı, bir neçə dəfə imamın özünü qətlə yetirmək istəmişsə də, lakin hər dəfəsində imamın möcüzəsi nəticəsində planı nəticəsiz qalmışdı.

## İMAMIN (ə) MƏNSURU İFŞA ETMƏSİ VƏ MÜQAVİMƏTİ

Müxtəlif yolları imtahan edib ümidi kəsilən Mənsur “biz Abbas xanədanından və Peyğəmbərin ailəsindənik” deyə xalqı aldatmağa başladı. Özünün ləyaqəti olmadığını və bu vəzifəyə Peyğəmbərin (s) həqiqi övladlarının layiq olduğunu bilə-bilə özünü Peyğəmbərin (s) həqiqi varisi və xəlifəliyə haqqı çatan bir şəxs kimi tanıtmağa çalışdı.

İmam Sadiq (ə) Mənsurun bu həyasız rəftarına qarşı çıxaraq öz məktublarında bu xanədanı rüsvay etdi.

1. Bir gün Mənsur imama belə yazdı: Niyə başqa adamlar kimi bizim yanımıza gəlmirsən?

İmam (ə) Mənsurun cavabında belə yazdı: “Bizim dünyadan heç bir şeyimiz yoxdur ki, ona görə də səndən qorxaq. Sənin də axirət və mənəviyyatdan bir şeyin yoxdur ki, ona xatir sənə ümid bəsləyək. Onda nəyə görə sənin yanına gələk?”

Başqa bir gün Mənsur imama belə yazdı: “Gəl bizə nəsihət ver!

İmam (ə) bunun cavabında belə yazdı: “Hər kəs dünya əhli olsa, sənə nəsihət verməz, hər kəs də axirət əhli olsa, sənin yanına gəlməz”.

2. Günlərin bir günündə imam (ə) Mənsurun məclisində idi. Bir milçək Mənsura çox əziyyət verirdi və nə edirdisə də milçək getmirdi və yenə gəlib onun üzünə qonurdu. Mənsur hirsli-hirsli imamdan soruşdu: “Allah nə üçün milçəyi xəlq edib?”

İmam (ə) dərhal bu cavabı verdi: “Güclü zalımları onun vasitəsilə incidib alçaltmaq üçün”.

Mənsur narahat olmasına baxmayaraq öz yerində oturdu və imama getməsi üçün icazə verdi.

## İMAMIN (ə) MƏDİNƏ VALİSİNƏ HİRSLƏNMƏSİ

Mənsur, Bəni Haşim nəslindən bir neçə nəfəri şəhid etdikdən sonra Şəybə adlı bir kişini Mədinəyə vali təyin etdi ki, imam Sadiqin (ə) hərəkətlərini nəzarət altında saxlasın. Şəybə cümə günü məscidə gəlib namazdan sonra minbərə çıxıb Əli (ə) və Peyğəmbərin (s) xanədanı barədə nalayiq sözlər deməyə başladı. Peyğəmbərin (s) xanədanını yaxından tanıyan və onlara məhəbbət bəsləyən camaat çox narahat oldular, lakin bir söz deməyə cəsarət etmədilər.

Bu arada imam Sadiqin (ə) ayağa qalxıb danışığının şahidi oldular: “Ay kişi, saydığın yaxşılıqlar bizə layiqdir, saydığın pisliklər isə səninlə Mənsura”. Sonra isə camaata sarı dönüb buyurdu: “Bilirsiniz, qiyamət günündə kimlər hamıdan çox ziyan görəcək? Axirətini başqalarının dünyasına satanlar. Bu vali də belə adamdır”. Camaat sevinib imama afərin dedilər. Vali də utana-utana məsciddən çıxıb getdi.

## İMAMIN (ə) ŞƏHADƏTİ

Mənsur imamı özünə tərəf çəkməyə, ya təhdidlə onu sakit etməyə müvəffəq olmadığı üçün o Həzrəti şəhid etmək qərarına gəldi. Nəhayət imam Cəfər Sadiq (ə) 148-ci hicri ilinin Şəvval ayının 25-də zəhərlənərək şəhid olundu və o Həzrətin pak vücudu Mədinədə Bəqi qəbristanlığında dəfn edildi.

# DOQQUZUNCU MƏSUM
# İMAM MUSA KAZİM (ə)

## İMAMIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Musa |
| **Ləqəbi:** | Kazim |
| **Kunyəsi:** | Əbul-həsən |
| **Atası:** | Həzrət imam Sadiq (ə) |
| **Təvəllüdü:** | Hicri 128-ci il |
| **İmamlıq müddəti:** | 35 il |
| **Ömrü:** | 54 il |
| **Şəhadəti:** | 182-ci Hicri-qəməri ilində Abbasi xəlifəsi Harunun əmri ilə zəhərlənmişdir. |
| **Məzarı:** | İraq, Kazimeyn şəhəri. |

## TƏVƏLLÜDÜ

İmam Musa Kazim (ə) 128-ci Hicri-qəməri ilinin Səfər ayının yeddisi, bazar günü Məkkə ilə Mədinə arasında yerləşən Əbva adlı yerdə Həmidə adlı bir xanımdan dünyaya gəldi və 21 yaşında ikən imamlığa çatdı.

Bu barədə Əbu Bəsir belə demişdir: "İmam Cəfər Sadiq (ə) ilə birlikdə həccə gedirdik. Əbvaya çatdıq. Səhər yeməyimizi yedikdən sonra imama xəbər verdilər ki, Allah sizə bir oğlan uşağı əta etmişdir. Həzrət sevincək qalxıb xanımı Həmidənin yanına getdi. Bir azdan sonra gülə-gülə qayıdan imam bizə belə buyurdu: "Allah mənə ən yaxşı hədiyyəsi olan bir uşağı əta edibdir. Anası deyir ki, uşaq dünyaya gələndə başını səcdəyə qoyub Allaha şükr edibdir ki, bu da onun imamlığının nişanəsidir".

Həzrət (ə) Mədinəyə qayıtdıqdan sonra üç gün ehsan verərək bütün yoxsulları ehsan məclisinə dəvət etdi. Yəqub Sərrac deyir: "Mədinədə imam Sadiqin (ə) yanına getdim. Onu oğlu imam Musa Kazimin (ə) beşiyinin yanında əyləşən gördüm. Həzrətə salam verdim. Gülərüzlə cavabımı verib buyurdu: "Məndən sonrakı imamın yanına gəl və ona da salam ver!". Yaxınlaşıb salam verdim, uşaq səlis dillə cavabımı verib buyurdu: "Allah sənə bir qız verib, amma ona yaxşı ad qoymamısan, get onun adını dəyiş!"

O Həzrət atası imam Sadiqin (ə) sayəsində tərbiyə alaraq dini məsələləri o Həzrətdən dərindən öyrənmişdi. Belə ki, imam Sadiq (ə) qadınlara dini məsələləri ondan soruşmalarını əmr edərdi.

İmamın həyatını iki hissəyə ayırmaq olar:

1. İmamətdən qabaqkı, Həzrətin Mədinədə atasının xidmətində olduğu dövr (20 il).
2. Mübarizə, zindan və sürgünlə zəngin imamlıq dövrü.

## İMAMIN (ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

İmamın cismi cəhətdən arıq olmasına baxmayaraq, ruhi baxımdan olduqca güclü idi. Paltarının altından köhnə köynək geyər, daimə piyada gedər, həmişə xalqa salama verər, ailəcanlı və hörmətcil idi. Həzrət həmişə yoxsulların fikrini çəkər, belə ki, gecələr gizlincə ərzaqı yoxsul ailələrin evinə aparar və onlardan bəzisinə aylıq maaş verərdi.

İmamın dostlarından biri o Həzrətin səbr və dözümü barədə belə demişdir: "Həzrət həmişə öz nümunəvi əxlaqı ilə düşməni utandırardı".

Mədinədə bir kişi var idi ki, hər vaxt imamı görəndə qabağını kəsib onu söyərdi. Bir gün imamın dostları "icazə ver onu tənbeh edək" - söylədikdə imam (ə) buyurdu: "Onunla işiniz olmasın və ona toxunmayın". Artıq bu söhbətdən bir neçə gün keçmişdi, lakin həmin kişidən bir xəbər çıxmadı. İmam (ə) onun halını soruşduqda, dedilər: "Mədinə çölündəki tarlasına gedib". Bunu eşitcək imam (ə) da həmin tarlaya getdi. Həmin kişi imamı görən kimi uzaqdan səslənib dedi: "Mənim tarlama girmə. Mən səni və sənin ata-babanı özümə düşmən sayıram". İmam (ə) ona yaxınlaşıb salam verdi, kefini soruşduqdan sonra mehribanlıqla ona belə buyurdu: - Bu tarlaya nə qədər xərcləmisən?

Kişi dedi: - Yüz dinar.

İmam soruşdu: - Nə qədər gəlirin olacağına ümid edirsən?

Kişi dedi: - İki yüz dinar.

Həzrət (ə) içində üç yüz dinar olan bir kisəni çıxardıb ona verdikdən sonra buyurdu: "Bu pulu al, tarlan da özünə qalsın".

İllər boyu Həzrəti təhqir edən kişi belə bir şeyi gözləmirdi. Elə buna görə də utanıb imamın əlindən öpdü və ondan üzr istədi. İmam (ə) Mədinəyə qayıtdıqdan sonra "Şəri özünüzdən belə uzaqlaşdırın" - deyə buyurdu. Elə buna görə də imama "Kazim" (qəzəbləndiyi zaman narahatçılığını büruzə verməyən) ləqəbi verilmişdir.

O Həzrət (ə) bütün pislik və yamanlıqların qarşısında yaxşılıq edərək düşmənlərini utandırardı. İmam (ə) öz qohumlarına məhəbbət bəsləyər və belə buyurardı: "Qohumların arasında nə qədər düşmənçilik olsa da, əgər bir-birləri ilə qarşılaşdıqları zaman əl verib görüşsələr, düşmənçilikləri aradan qalxar və hamısı dinclik və şadlıq hissi keçirər".

## İMAMIN (ə) SƏXAVƏTİ

İmam Musa Kazim (ə) əliaçıqlıq və səxavət baxımından xalq arasında məşhur idi. Belə ki, bir dəfəyə min nəfər qulu azad etdirmiş və dar gündə onlara əl tutaraq onların borcunu ödəyirdi. İbn Şəhr Aşub belə nəql edir: "Bir gün Mənsur imam Musa Kazimi (ə) saraya çağırtdırıb əmr etdi ki, novruz günü orada oturub gətirilən hədiyyələri təhvil alsın. İmam bu işə həvəsi olmasa da çarəsiz qalıb qəbul etdi. Rəsmi salam mərasimində iştirak edən böyüklər və zadəganlar Mənsurun əmri ilə hədiyyələri o Həzrətə təhvil verirdilər. Bir nəfər də Mənsurun tərəfindən orada durub gətirilən hədiyyələri siyahıya alırdı. Axırda bir qoca kişi gəlib dedi: "Ey Peyğəmbər övladı! Mənim dünya malından hədiyyə etmək üçün heç bir şeyim yoxdur. Amma baban Hüseynin (ə) müsibətinə dair bir şer yazıb sənə hədiyyə gətirmişəm".

Qoca kişi yazdığı şeri oxudu, onun bu şeri imama çox təsir etdi. Həzrət (ə) Mənsurun məmuruna əmr etdi ki, get, Mənsurdan soruş, gör bu hədiyyələrlə nə edəcək? Məmur gedib qayıtdıqda imama dedi: "Əmir deyir ki, hədiyyələrin hamısını sizə bağışladım, istədiyiniz adama verə bilərsiniz". Həzrət (ə) yoxsul qoca kişiyə tərəf dönüb buyurdu: "Babam Hüseynin (ə) müsibətlərinə dair yazdığın şerə görə bu hədiyyələrin hamısını sənə bağışlayıram ki, yoxsulluqdan qurtulasan".

## İMAMIN (ə) SƏYİ

O Həzrət (ə) həmişə öz xüsusi tarlasında məişətini təmin etmək üçün çalışardı, bəzən də çox işləməkdən bütün bədənini tər basırdı. Bir gün əshabından olan Əli Bətaini onu görmək üçün Həzrətin tarlasına gəldi və imamın çox işləməkdən tərlədiyini və yorulduğunu gördükdə "qurbanın olum, niyə bu işi başqa adamlara gördürmürsən?" - deyə soruşdu.

İmam (ə) buyurdu: "Niyə başqalarına gördürüm? Halbuki məndən daha yaxşı adamlar həmişə belə işlərlə məşğul olublar".

Bətaini soruşdu: - Kimlər?

İmam (ə) buyurdu: "Allahın Peyğəmbəri, Əmirəl-möminin və bütün ata-babalarım. İşləyib çalışmaq Allahın peyğəmbərləri ilə vəsilərinin üsuludur və Onun ləyaqətli bəndələri həmişə öz güzəranlarını təmin etmək üçün işləyiblər".

## İMAMIN (ə) TƏBLİĞ ÜSULU

Günlərin bir günündə imam (ə) bir küçədən keçəndə bir evdən çal-çağır səsini eşitdi. Zadəganlardan sayılan ev sahibi özü üçün kef məclisi qurub əylənməklə məşğul idi. Birdən evin qapısı açılıb zibilləri bayıra atmaq üçün bir kəniz eşiyə çıxdı. Kənizin gözü imama sataşan kimi ona salam verdi. İmam ondan soruşdu: - Bu evin yiyəsi bəndədir, ya azad (yəni quldur, ya qeyri-qul).

Kəniz dedi: - Azad insandır.

İmam (ə) buyurdu: "Azad olduğu bəllidir. Əgər bəndə olsaydı, Allahdan qorxub bu işləri görməzdi".

Kəniz evə qayıtdıqdan sonra ağası nə üçün gecikdiyini ondan soruşduqda kəniz əhvalatı olduğu kimi onun üçün danışdı.

O kişi bir az duruxub imamın sözləri barədə düşündü. Birdən yerindən qalxıb ayaqyalın imamın dalınca qaçdı. Özünü o Həzrətə yetirib salam verdi və imamın hüzurunda öz əməlindən peşman olduğunu söyləyib tövbə etdi. O gündən sonra kef məclisini ibadətgaha çevirdi və həmin günün

xatirəsini əbədi yaşatmaq üçün o gündən etibarən ayaqyalın gəzərdi. Buna görə də Büşri-hafi (ayaqyalın Büşr) ləqəbi ilə məşhur oldu.

## İMAMIN (ə) İBADƏTİ

İmam təqva və ibadət baxımından çox məşhur idi və hər yerdə onun haqqında danışılanda "o, ibadət və Allaha bəndəlik etməyin aşiqidir" - deyərdilər.

Şeyx Müfid onun haqqında belə yazıbdır: "O Həzrət öz zəmanəsinin ən ibadətkar şəxsiyyəti idi. Gecələr Allaha ibadət edərkən Allahın qarşısında səcdəyə düşüb, səcdəsini uzadar və o qədər ağlayardı ki, hətta saqqalı islanardı".

Sünni alimlərindən olan Şəblənci o Həzrətin haqqında belə yazmışdır: "İmam Musa Kazim (ə) öz zəmanəsinin ən abid və ən arif şəxsiyyəti idi. Hamıdan daha bilikli və daha səxavətli idi. Daim yoxsulların vəziyyəti ilə maraqlanar, vaxtının çoxunu ibadət və dua etməklə keçirərdi. O, belə deyərdi: "Ey Allah! Ölümü mənim üçün asanlaşdır və hesab günündə məni bağışla".

Allaha olan məhəbbəti hamını heyrətdə qoymuşdu. Zindanda Fəzl adlı keşikçini ağlatmışdı və Harunun xüsusi kənizini heyran etmişdi. Belə ki, o arvad ağlaya-ağlaya Harunun yanına qayıdaraq imamı zindana saldığına görə Haruna öz etirazını bildirmişdi.

## FƏX HADİSƏSİ

Abbasi hökuməti tərəfindən Əli (ə) övladına olunan zülm və haqsızlıqlara görə imam Musa Kazimin (ə) əmri ilə Mədinə şiələrindən Hüseyn ibn Əli 300 nəfərlə birlikdə Abbasi xəlifəsi Hadinin əleyhinə qiyam etmişdi. Nəhayət Hadinin əsgərləri onları Fəx adlanan bir yerdə mühasirəyə alaraq çoxunu öldürdülər. Sonra başlarını kəsib əsirlərdən bir dəstə ilə Hadinin yanına göndərdilər. Hadi isə əmr etdi ki, bütün əsirləri öldürsünlər. Bu hadisə Fəx hadisəsi, Hüseyn ibn Əli də Fəx şəhidi adı ilə məşhur oldu.

## İMAMIN (ə) BAĞDADA OLAN İLK HİCRƏTİ

Mənsur 158-ci Hicri-qəməri ilində öldükdən sonra səltənət və xəlifəlik oğlu Mehdiyə yetişdi ki, o da öz çirkin siyasətini həyata keçirirdi. Belə ki, xalqın qarşısında özünü dindar göstərir, gizlində isə müxtəlif günahlar törədirdi.

Xilafəti ələ aldıqdan sonra imamın şiələrindən ibarət siyasi məhbusları sərbəst buraxdı və müsadirə olunmuş malları öz yiyələrinə qaytardı. Lakin bütün bunlarla yanaşı Əli (ə) xanədanına yaramaz sözlər deyən şairlərə isə çoxlu bəxşiş verirdi. Necə ki, Büşar ibn Bürdə 70 min dirhəm, Mərvana isə 100 min dirhəm vermişdi.

Müsəlmanların beytül-malını öz istədiyi kimi xərcləyirdi. Necə ki, oğlu Harunun toyuna 50 milyon dirhəm pul xərcləmişdi.

Bir gün casusları ona imamın xalq arasında sevildiyini və xalqın o Həzrətə meyl etdiyini xəbər verdilər. Mehdi hirslənib əmr etdi ki, imamı Bağdada göndərərək zindana salsınlar.

Əbu Xalid belə demişdir: "Bir gün imamla birlikdə məmurlar Zübalədə mənim evimə gəldilər. İmam (ə) qısa bir fürsətdə, - məmurların gözündən iraq - mənə bir neçə gizli söz tapşırıb, bəzi şeyləri də onun üçün almağımı istədi. Mən çox narahat idim və ağlayırdım. İmam (ə) mənə belə buyurdu: "Mənim barəmdə heç nigaran olma. Çünki tezliklə qayıdacağam. Filan gün, filan yerdə məni gözlə".

İmam buyurduğu kimi həmin gün oraya getdim və imamı karvanın qabağında irəliləyən gördüm. Sevinib qabağa getdim və əlini öpdüm. Həzrət (ə) buyurdu: "Ey Əbu Xalid, məni təzədən Bağdada aparacaqlar və o səfərdən daha qayıtmayacağam".

İmamın azad buraxılmasının səbəbini soruşduqda mənə dedilər ki, imamı zindana saldıqları gecə Mehdi yuxusunda Həzrət Əlini (ə) görüb ki, qəzəblə onu qınayırmış. Sabahısı gün isə imamı azad buraxıb ehtiramla Mədinəyə göndərib.

İmam (ə) Mədinədə mövcud olan boğucu vəziyyətə baxmayaraq xalqı hidayət etməklə məşğul idi. Çox keçmədən Mehdi dünyadan getdi və oğlu Hadi onun yerinə keçdi. Hadi atasının əksinə olaraq açıq-aşkar Əli (ə) övladları və şiələrlə mübarizə aparmağa başladı. Onun ən qəddar işi isə qeyd etdiyimiz Fəx hadisəsi idi ki, Kərbəla hadisəsindən sonra tarixin ikinci faciəvi hadisəsi sayılır.

Hadi ləyaqətsiz və murdar bir kişi idi və əylənməsi üçün çoxlu pul xərcləyirdi, onun üçün şer və mahnı oxuyanlara isə böyük bəxşişlər verərdi. Hadi 170-ci Hicri-qəməri ilində öldü və Harun onun yerinə keçdi. Bu vaxt imam Musa Kazimin (ə) 42 yaşı var idi. Harunun xəlifəlik dövrü Abbasi

hökumətinin ən qüdrətli və müvəffəqiyyətli dövrü hesab olunurdu.

Harun xalqdan beyət aldıqdan sonra iranlı Yəhya Bərməkini öz vəziri təyin elədi və ona tam səlahiyyət verdi. Özü də beytül-malı korlamağa başladı. O zamanlar beytül-malın gəliri çox idi, buna baxmayaraq Harun onun hamısını öz əyləncəsi üçün xərcləyirdi. Necə ki, bir dəfə yeyəcəyi xörək üçün dörd min dirhəm xərclənirdi.

## HARUNUN ƏLİ (ə) XANƏDANINA QARŞI ETDİYİ ƏZİYYƏTLƏR

Harun, Əli (ə) övladlarının Abbasilərə qarşı mübarizə aparmasından çox əziyyət çəkirdi və hər nə cür olursa-olsun, xalqı Əli (ə) xanədanından ayırmağa çalışırdı. Şairlərə Əli (ə) övladı haqqında yaramaz sözlər demək və onları istehza etmək üçün çoxlu pul verirdi.

Şiə və Əli (ə) övladı olan seyidləri Bağdaddan Mədinəyə sürgün etdi və onlardan çoxunu öldürtdü. Harunun Xorasanda nümayəndəsi olan Həmid ibn Qəhtəbə, Abdullah Bəzzaz Nişaburiyə belə nəql etmişdir: “Harunun Tusda bir bağı var idi ki, hər il oraya gəlirdi. Yenə bir dəfə ora gəldikdə gecə yarısı məni çağırtdırıb belə dedi: - Mənə nə qədər vəfalısan?”

Dedim: - Canımı, malımı sizə fəda edərəm.

Dedi: - Daha nəyi?

Dedim: - Namusumu, arvad-uşağımı.

Dedi: - Daha nəyi?

Dedim: - Dinimi, məzhəbimi.

Harun başını qaldırıb uca səslə gülüb dedi: “İstədiyimi dedin. Onda bu qılıncı al, mənim qulumun sənə əmr etdiyinə itaət et”.

Harunun qulu məni Əli (ə) övladından altmış nəfərin həbs olunaraq saxlanıldığı bir evə apardı. Sonra həbsdə olanları bir-bir çıxardıb mənə çıxartdığı adamı öldürməyimi əmr etdi. Mən də dərhal əmri yerinə yetirirdim. Onların hamısını öldürdükdən sonra meyitləri qabaqcadan həyətdə hazırlanmış quyuya atdım. Ey dost! Hər vaxt bu hadisə yadıma düşəndə bütün bədənim titrəyir”.

Harun bütün bu elədikləri azmış kimi, hətta imam Hüseynin (ə) məzarı və ətrafındakı evlərin uçurdulmasını da əmr etdi. Bununla da istəyirdi ki, xalqın oraya ziyarətə getməyinin qarşısını alsın.

## İMAMIN (ə) MÜXALİFƏTİ

Təbiidir ki, Həzrət imam Musa Kazim (ə) belə bir qəddar və cinayətkar hökumətlə saziş edə bilməzdi və elə bunun nəticəsi idi ki, o Həzrət bütün çirkin əməllərin qarşısında öz etiraz səsini yüksəldirdi. O Həzrət (ə) münasib bildiyi hər yerdə Harunun çirkin əməllərini sayıb onu xalq içində rüsvay edirdi. Öz dostlarına da əmr edirdi ki, Haruna heç bir kömək etməsinlər. O cümlədən dostlarından olan Səfvana belə buyurmuşdu: “Sən hər baxımdan yaxşı adamsan, təkcə dəvələrini Haruna kirayə vermək baxımından başqa”. Səfvan “mən öz dəvələrimi yalnız həcc müsafirəti üçün kirayə verirəm, özüm də getmirəm” - dedikdə Həzrət (ə) buyurdu: “Ey Səfvan! Dəvələrin qayıdanacan Harunun diri qalıb kirayə pulunu ondan almağını istəmirsənmi?”

Səfvan dedi: “Bəli”.

Həzrət (ə) buyurdu: “Hər kəs bir zülmkarın diri qalmasını arzu etsə, zalımlardan sayılar”.

Səfvan həccə getmək istəyən xəlifənin yükünü dəvələri ilə daşımaq üçün Harun ilə müqavilə bağlamasına baxmayaraq, imamın sözünü eşitdikdən sonra dəvələrini satdı. Harun onu çağırtdırıb qınadı və dəvələrini nəyə görə satdığının səbəbini israrla soruşdu, lakin Səfvan səbəbini demədi. Nəhayət Harun əhvalatı öyrənib ona dedi: “Əgər dost olmasaydıq, dərhal əmr edərdim ki, səni öldürsünlər. Mən yaxşı bilirəm ki, kimin əmri ilə bu işi görmüsən. Musa ibn Cəfər bu əmri sənə veribdir”.

İmamın (ə) Harunun qarşısında möhkəm dayandığına və heç kimə zərrə qədər Harunla əməkdaşlıq etməyə icazə verməməsinə baxmayaraq, bəzi ləyaqətli və imanlı şəxslərə əmr etmişdi ki, Harunun hökumət aparatına nüfuz edib dar gündə dostlarının köməyinə gəlsinlər və alınan qərarları öz dostlarına bildirsinlər. Necə ki, Əli ibn Yəqtinə, Harunun vəziri olub şiələrə və dostlara yardım etməsi üçün icazə vermişdi. Bir gün imam (ə) ona belə bir məktub yazdı: “Tək olanda bizim kimi dəstəmaz al, başqaları ilə olanda isə onlar kimi dəstəmaz al. Harunun sənə imtahan üçün verdiyi hədiyyələri qəbul et”.

## HARUNUN İMAMA (ə) VERDİYİ SUALLAR VƏ ALDIĞI CAVABLAR

Harun çalışırdı ki, imama elə suallar versin ki, imam cavabını bilməyib nüfuzdan düşsün. Lakin hər dəfə imamın elm dənizinə yaxınlaşanda çarəsiz qalıb rüsvay olurdu. O cümlədən də bir dəfə Harun imamı Mədinədən Bağdada gətirib onunla mübahisə etməyə başladı:

Harun: - Uzun müddətdir düşünüb cavabını tapmadığım bir şeyi sizdən soruşmaq istəyirəm. Xahiş edirəm mənim cavabımı verin.

İmam: - Əgər danışmaqda sərbəst olsam, cavabını verərəm.

Harun: - Sərbəstsiniz, istədiyinizi buyurun. Nəyə görə siz belə düşünürsünüz ki, bizlərdən, yəni Abbas övladından üstünsünüz? Halbuki biz eyni ağacdanıq, yəni Haşimi övladıyıq.

İmam: - Biz Peyğəmbərə (s) sizdən daha yaxınıq.

Harun: - Necə?

İmam: - Belə ki, bizim atamız Əbu Talib ilə Peyğəmbərin s) atası Abdullah eyni ata-anadandırlar, lakin sizin atanız Abbas təkcə ata tərəfindən Peyğəmbərlə (s) qohumdur.

Harun: - Peyğəmbər (s) vəfat edəndə sizin atanız Əbu Talib dünyadan getmişdi, ancaq bizim atamız Abbas hələ sağ idi və məlumdur ki, əmi yaşayınca əmioğluna, yəni sizə irs çatmaz.

İmam: Övlad olunca da əmiyə irs çatmaz. Demək Fatimeyi Zəhra ola-ola sizin atanız Abbasa irs yetişə bilməzdi.

Harun: - Onda nəyə görə xalqa icazə verirsiniz ki, sizi Peyğəmbərin (s) övladı çağırsınlar. Halbuki siz Əlinin övladısınız. Çünki hər kəsi atası ilə tanıyarlar və Peyğəmbər də ana tərəfindən sizin babanızdır.

İmam: - Əgər Peyğəmbər (s) dirilib sizin qızınızın elçiliyinə gəlsə, qızınızı ona verərsiniz?

Harun: - Məmnuniyyətlə.

İmam: - Amma Peyğəmbər (s) heç vaxt mənim qızımın elçiliyinə gəlməz.

Harun: - Niyə?

İmam: - Çünki o, ana tərəfdən olsa belə yenə mənim atamdır. Lakin sənin isə atan deyildir. Buna görə də mən özümü Peyğəmbərin (s) övladı adlandıra bilərəm.

İmamın dişsındırıcı cavabları Harunu susdurdu və imamın ondan bir şey istəməsini xahiş etdi. İmam (ə) isə belə buyurdu: “Mən sizdən heç bir şey istəmirəm. Yalnız icazə verin sərbəst olaq və öz işimizi görək”.

## İMAMIN (ə) QOHUMLARINDAN BİRİNİN XƏYANƏTİ

İmamın qardaşı İsmailin oğlu Əli, Harunun dostları tərəfindən Bağdada dəvət olunmuşdu ki, oraya gedib Harunu imam Musa ibn Cəfərin vəziyyətindən xəbərdar etsin. İmam (ə) əhvalatı öyrənib Əlini çağırdı və ona belə buyurdu:

- Hara getmək istəyirsən?
- Bağdada.
- Nə üçün?
- Borcluyam. Ona görə Bağdada gedirəm ki, bəlkə borclarımı ödəmək üçün pul tapım.

İmam buyurdu: “Mən sənin bütün borclarını ödəyib, ailənin xərclərini öz öhdəmə götürürəm”. Əli qəbul etməyib yenə də getmək istədiyini bildirdi. Nəhayət imama belə dedi: “Mən getmək qərarına gəlmişəm və sizdən mənə nəsihət verməyinizi istəyirəm”.

İmam (ə) belə buyurdu: “Sənə mənim qanımda şərik olmağını vəsiyyət edirəm. Çünki sonu yaxşı deyildir”. Əli ibn İsmail bir şey qanmayıb yenə nəsihət verməsini istədi. İmam yenə də o cümləni təkrar etdi. Lakin Əli bilmirdi ki, imam (ə) nələrin baş verəcəyindən xəbərdardır?!

Əli getmək istədikdə imam ona üç yüz dinar verib “bu da balaların üçün” - dedi. Əli pulu alıb getdi.

Sonra imam (ə) orada olanlara tərəf dönüb belə buyurdu: “Allaha and olsun ki, bu qardaşoğlum mənim qanıma şərik olub mənim uşaqlarımı yetim qoyacaq”. Dedilər: “Ey Peyğəmbərin övladı! Sən onun xəyanət edəcəyini bilə-bilə nə üçün ona kömək etdin?” Buyurdu: “Babam Həzrət Peyğəmbər (s) belə buyurubdur: “Hər kim qohumlarından birinin məhəbbət və yaxşılığı qarşısında ona pislik etsə, Allah ona əzab verəcək və o, öz hədəfinə çatmayacaq”.

İmamın buyurduğu kimi də oldu. Əli Bağdada gəlib Yəhya Bərməkinin evinə getdi və onunla birlikdə Harunun yanına gəlib ona dedi: “Ey Harun! Musa ibn Cəfər Mədinədə hökumət qurub və ətrafdan ona çoxlu pul yetişir və belə qərara gəlib ki, sizin əleyhinizə qiyam edib xilafətinizi devirsin. Bu sözləri eşidən Harun sevinib ona iki yüz dirhəm pul verdi. Əli pulları alıb sevinə-sevinə çıxdı ki, evinə qayıtsın, lakin bu zaman boğazından bir sancı tutdu ki, elə orada da həlak oldu.

Harun Mədinəyə gələrək imamı tutub zindana salmaq qərarına gəldi. Həmin ildə o yan bu yana məktub yazıb hamını bir yerə yığdı və Məkkə ilə Mədinəyə getdi. Qayıdanda isə Mədinə valisinə imamı tutub Bəsrəyə göndərmək əmrini verdi. İmam bir il Bəsrə valisi Yəhyanın zindanında qaldı. İmamın insani və ibadi əxlaqı Yəhyaya elə təsir qoymuşdu ki, o, Haruna belə yazdı: “Ey Harun! Mən bu müddət ərzində Həzrətdən

yaxşılıq və paklıqdan başqa heç bir şey görməmişəm və bundan artıq onu zindanda saxlaya bilmərəm. Onu geri al, yoxsa azad edəcəyəm".

Harunun əmri ilə o ilahi şəxsiyyəti Bağdada aparıb Fəzlin zindanında həbsə aldılar. O da Yəhya kimi, imamın əxlaqına heyran olub Harundan imamı ondan təhvil almağını tələb etdi. Nəhayət o Həzrəti pis və napak bir insan olan Sindi ibn Şahkin zindanına göndərdilər.

## İMAMIN (ə) ZİNDANDAKI MÜQAVİMƏTİ

Harun hansı yolla olursa-olsun, imamın nəzərini özünə cəlb etmək istəyirdi və bir gün Yəhya ibni Xalisi zindana Musa ibn Cəfərin (ə) yanına göndərdi ki, imamı razı salıb ondan bağışlanmasını istəsin. Amma imam (ə) buna razı olmadı. Həzrət imam Musa Kazim (ə) Haruna belə yazdı: "Burada hər günüm mənə çətin keçsə də sən rifah içində olacaqsan. Cinayətkarların zərərə düşəcəyi günü gözlə ki, ikimiz də o günün şahidi olacağıq".

İmam (ə) heç bir vəchlə Haruna təslim olmadı və zindanın ən ağır şəraitində belə sarsılmadan dayanıb müqavimət göstərdi.

## ZİNDANLARIN ARDICIL OLARAQ DƏYİŞDİRİLMƏSİ

Zindanların dəyişilməsinin səbəbi bundan ibarət idi ki, Harun zindan qarovulçularından imamı öldürmələrini tələb etdikdə onların heç biri bu işi görməyə razı olmurdu. Nəhayət daşürəkli cəllad Sindi imamı zəhərlədi.

Harun yalançı şahid gətirməklə çalışdı ki, imamın zindanda öz əcəli ilə öldüyünü isbat etsin və bu hiylə ilə də həm özünə bəraət qazansın, həm də imamın tərəfdarlarının üsyanının qarşısını alsın. Lakin onun bu hiyləsi baş tutmadı və nəhayət Harunun qohumlarından olan Süleymanın cəhdləri nəticəsində Bağdadda üsyan baş verdi ki, bu da imamın meyidinin gizlincə dəfn edə bilmələrinə, eləcə də Harunun özünün də əzadarlara qoşularaq dəfn mərasimində iştirak etmək məcburiyyətində qalmasına səbəb oldu. Nəhayət imam (ə) xalqın matəm və əzası altında Kazimeyndə torpağa tapşırıldı. O Həzrətin məzarı bu gün də şiələrin ziyarətgahıdır.

## İMAMIN (ə) ƏSHABI

Həzrətin atası imam Sadiq (ə) vəfat edəndə onun tələbələri İmam Musa Kazimə (ə) tərəf gəlib 33 il ərzində o Həzrətin elm və bilik ümmanından yararlandılar. Həmin tələbələrdən bəzisi bunlardır:

1. İbn Əbi Üməyr: Bu şəxs üç imamın (imam Musa Kazim(ə), imam Rza(ə) və imam Cavadın(ə)) məhzərindən yararlanıb və öz zəmanəsinin tanınmış alimlərindən hesab olunurdu. Ondan çoxlu rəvayətlər yadigar qalıbdır.

O zamanın hökumətinə xəbər vermişdilər ki, ibni Üməyr İraq şiələrini tanıyır. Onu tutub tanıdığı adamların adlarını deməsini tələb etdikdə qəbul etmədiyindən soyundurulub xurma axacına bağlayaraq şallaqla yüz zərbə vursalar da lakin heç bir şey demədi.

Şeyx Müfidin verdiyi məlumata görə bu böyük səhabəni 17 il zindana salıb, var-dövlətini məhv etdilər, lakin bütün əzab-əziyyətlərə dözərək heç bir söz danışmadı.

2. Əli ibn Yəqtin: İmam Sadiqin (ə) dostlarından və əshabından idi. Mərvan onu təqib edərək tutdurmaq istəsə də, o qaçaraq arvad-uşağını Mədinəyə göndərdi. Əməvilər devrilib yerinə Abbasilər keçdikdən sonra Kufəyə qayıdıb Abbasilərlə yaxın əlaqə qurdu və dövlət məqamlarında yüksək vəzifələrə çataraq şiələrə böyük yardımlar etdi.

Harun onu öz vəziri təyin etmişdi. Amma o, əslində imamın səhabəsi idi və imamın əmrlərini yerinə yetirirdi.

O, dəfələrlə Abbasilərdən uzaqlaşmaq istəsə də, imam (ə) buna mane olmuşdu. O, imam (ə) zindanda ikən vəfat etdi. Ondan Əhli-beyt (ə) əsərləri olan bir çox kitablar yadigar qalmışdır.

3. Möminüt-taq: O, imam Sadiq (ə) və imam Musa Kazimin (ə) əshabından idi. İmam Sadiq (ə) onu əshabının böyüklərindən sayaraq ona çox əhəmiyyət verirdi. Mömin mübahisədə çox bacarıqlı idi. Belə ki, hər kimlə mübahisə etsəydi, qalib gələrdi.

İmam Sadiq (ə) onun barəsində belə buyurmuşdur: "Mömin, ovunun başına qonan qartal kimidir".

4. Hişam ibn Həkəm: O, mübahisədə ustad idi və hər yerdə elmi bir məsələ qabağa gəldikdə imam Sadiq (ə) onu göndərərdi ki, həmin məsələni həll etsin.

İmamlıqla əlaqədar mövzularda dərin biliyə malik idi, hazır-cavab idi, tövhid və əqaidlə əlaqədar məsələlərdə ustad sayılırdı. O, çoxlu kitablar yazıb ayrı-ayrı alimlərlə mübahisə edib hamısını məhkum etmişdi.

# ONUNCU MƏSUM
# İMAM RZA (ə)

İMAMIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Əli |
| **Ləqəbi:** | Rza |
| **Kunyəsi:** | Əbül-həsən |
| **Atası:** | Həzrət imam Musa Kazim (ə) |
| **İmamlıq müddəti:** | 21 il |
| **Ömrü:** | 55 il |
| **Vəfatı:** | 203-cü Hicri-qəməri ilində Abbasi xəlifəsi Məmun tərəfindən zəhərlənmişdir. |
| **Məzarı:** | İran, Məşhəd şəhəri. |

## TƏVƏLLÜDÜ

148-ci Hicri-qəməri ilinin Zilqədə ayının 11-də Mədinə şəhərində Musa ibn Cəfərin (ə) evində bir uşaq dünyaya gəldi ki, atasından sonra müsəlmanların imamlığını öz öhdəsinə aldı.

Bu körpənin adını Əli, ləqəbini isə Rza qoydular. İmamın əziz anası Nəcmiyyə iman və üstün ağıl baxımından zəmanəsinin ən görkəmli qadınlarından biri sayılırdı.

Uşaqlıq çağından etibarən atası imam Kazim (ə) ilə birlikdə idi. İmam Musa Kazim (ə) həmişə öz əshabına belə buyurardı: “Məndən sonrakı imam, budur”.

Bu barədə Məxzumi belə demişdir: “Günlərin bir günündə Musa ibn Cəfər (ə) bizi çağırıb “sizi dəvət etdim ki, bu oğlanın məndən sonra mənim varisim və canişinim olacağına şahid durasınız” - deyə buyurdu”.

İmamın zamanında boğucu şərait və şiddətli təzyiq həmin mühitə hakim olduğuna görə sözlərinin axırına belə əlavə etdi: “Sizə dediyim yanınızda qalsın və kimsəyə söyləməyin, bizim dostumuz və əshabımız olanlardan başqa”.

## İMAMIN (ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

Məsum imamlar Allahın seçmiş olduğu, hamıdan üstün şəxsiyyətlər idilər. Onlar həyatda başqalarına örnək olub xalqa həyat dərsi verirdilər. Onlar özlərini camaatdan ayırmaz, zülmkarların metodu ilə yaşamaz, eləcə də heç kimə etinasızlıq göstərməzdilər. Bu barədə mərhum şeyx Səduq, İbrahim ibn Abbasdan nəql edərək belə yazmışdır: “İmam Rzanın (ə) sözlə bir kimsəyə zülm etməsini, yaxud kimsənin sözünü yarıda kəsməsini heç vaxt görmədim. Həzrət (ə) başqalarının yanında ayaqlarını uzatmaz, süfrə salınanda xidmətçiləri süfrəyə dəvət edərək onlarla birgə xörək yeyər, gecələr istirahət etdikdən sonra isə qalxıb ibadətlə məşğul olar, ata-babaları kimi o da gecəyarısı ərzağı çiyninə alıb yoxsul evlərə aparardı”.

Muhəmməd ibn Əbi İbad, imam (ə) haqqında belə deyir: “Həzrət (ə) yayda həsirdən, qışda isə yun xalılardan istifadə edərdi. Sadə bir evdə yaşayardı, lakin bayıra çıxanda təmiz və təzə paltar geyərdi. Qonağa hörmət edərdi.

Bir gecə evdə yanan çıraq xarab olur, qonaq qalxıb çırağı düzəltmək istədikdə, imam (ə) onu bu işdən çəkindirir və özü çırağı düzəldib buyurur: “Biz qonaqlarımızı işlətmərik”.

İmamın xidmətçisi Yasir deyir: “İmam (ə) bizə belə buyurardı: “Yemək yediyiniz vaxt əgər sizi çağırsam, xörəyinizi yeyib qurtarmayınca qalxmayın”. İmamın əshabından olan başqa bir nəfər isə o Həzrətin əxlaqı barəsində belə deyibdir: “Bir gün yad bir adam imamın evinə gəlib: “Mən sizin dostlarınızdanam, yoxsul da deyiləm, lakin pulum qurtarıb və qayıtmaq üçün xərcim yoxdur, əgər bir az siz mənə pul versəniz, öz şəhərimə çatandan sonra sizin tərəfinizdən sədəqə verərəm” - dedi. İmam (ə) qalxıb o biri otağa keçərək oradan 200 dirhəm gətirib qapının üstündən ona verdi və buyurdu: “Al bunu, mənim tərəfimdən sədəqə verməyin də lazım deyildir”.

İmamdan “belə etdin ki, səni görməsin?” - deyə soruşdular. İmam (ə) onların cavabında belə

buyurdu: “Belə etdim ki, gözü mənə sataşıb utanmasın”.

İmamın əshabından olan Süleyman deyir: “Bir gün Həzrətlə evə getdik. Fəhlələr işləyirdilər. Orada imamın tanımadığı özgə bir kişi də var idi. İmam (ə) buyurdu: - Bu kişi kimdir?

Dedilər: - Onu bizə kömək etmək üçün gətirmişik.

- Onunla müqavilə bağlayıb muzdunu təyin etmisinizmi?
- Xeyr, ancaq yaxşı kişidir və nə qədər versək, qəbul edib etiraz etməz.

İmam (ə) bu sözdən çox narahat olub buyurdu: “Həmişə sizə demişəm ki, birini işlətməyə gətirəndə əvvəldən muzdunu təyin edin. Çünki muzdu təyin olub muzdundan çox ona pul versəniz, sevinər. Amma əgər muzdu təyin etməsəniz, onda muzdunun üç qatını da versəniz, elə güman edər ki, muzdunu verməmisiniz.”

## QÜRURLANMA

Əhməd Bəzənti öz zəmanəsinin tanınmış alimlərindən idi. O, Həzrət Rzaya (ə) məktublar göndərib, o Həzrətdən cavablarını aldıqdan sonra Həzrətin imamlığına etiqad bəsləmişdi. Bir gün Bəzənti imama (ə) belə dedi: “Xəlvət bir saatda hüzurunuza gəlib sizinlə danışmaq istəyirəm”.

Həzrət (ə) da onun istəyini qəbul edib, hətta öz miniyini də Bəzənti üçün göndərdi. O gün gecəyarısına qədər bir-birləri ilə elmi mübahisə apardılar və Bəzənti öz müşkül məsələlərini imamın məclisində həll etdi.

Yatmaq vaxtı çatanda imam (ə) xidmətçisini çağırıb buyurdu: “Mənim şəxsi yatağımı gətirib mənim yanımda böyük məqama malik olan qonaq üçün sər ki, istirahət etsin!”.

İmamın sözləri Bəzəntini şişirtdi, ürək quşu havalandı və öz-özünə belə dedi: “İmamdan sonra dünyada mən hamıdan yaxşıyam. Bu mənəm ki, imam öz miniyini mənim üçün göndərdi, öz yatağını mənə verir və saatlarla mənimlə oturub söhbət edir”.

Bəzənti öz xəyalları ilə məşğul idi ki, birdən imam (ə) otağa qayıdıb ona buyurdu: “Ey Bəzənti! Heç vaxt bunlarla başqalarının yanında qürurlanma. Çünki Həzrət Əlinin (ə) dəyərli əshabından olan Səsəə xəstələndikdə onu görmək üçün yanına gedib saatlarla ona nəvaziş göstərdikdən sonra məğrur olmaması üçün buyurdu:

“Əziz dost, bu gördüklərini əsla özünə qurur vəsiləsi edərək “mən beləyəm, mən eləyəm, imam mənə məhəbbət göstərdi” - deyə məğrurlanma. Mən bu işi dini və insanlıq borcumu yerinə yetirmək üçün edirəm”.

Bəzənti belə deyir: “Həzrət bu əhvalatı danışaraq, mənə yanıldığımı başa saldı. Ondan sonra belə qərara gəldim ki, heç vaxt batili fikr etməyim, öz niyyət və əməllərimə diqqət yetirim”.

Bəlx əhalisindən olan bir kişi deyir: “Həzrət Rza (ə) ilə Xorasan səfərində idik. Süfrə salındıqda o Həzrət əmr etdi ki, hamı gəlib süfrə başında otursun. Dedim: “Qurbanın olum, icazə ver qulların süfrəsini ayırım”. Həzrət (ə) belə buyurdu: “Sus. Bunu bil ki, heç birimiz başqasından üstün deyilik. Bizim Allahımız birdir, ata-anamız birdir. Biz yalnız təqvamıza görə bir-birimizdən fərqlənə bilərik”.

Cabir Zəhhak belə deyir: “Məmunun əmri ilə Həzrəti Mədinədən Mərvə gətirirdim. Allaha and olsun ki, imamın xidmətində olduğum bu müddət ərzində o dərəcədə təqvalı və pak bir kişi görməmişdim”.

## İMAM RZA (ə) VƏ QARDAŞ NƏSİHƏTİ

Həzrət Rza (ə) Xorasana dəvət olunub bir sıra şərtlərlə Məmunun vəliəhdi olmağı qəbul etmək məcburiyyətində qaldığı zaman Mədinədə qiyam edən qardaşı Zeyd də Məmunun əmri ilə Xorasana gətirildi. Məmun imamın hörmətinə onu azad buraxıb cəzalandırmadı.

Bir gün izdihamlı bir məclisdə imam (ə) xalqa söhbət edərkən eşitdi ki, Zeyd məclisin bir bucağında oturub özünü tərifləyir və “mən eləyəm” - deyir. İmam (ə) dedi: “Ey Zeyd! Kufənin baqqallarından eşidib inandığın sözləri camaata satırsan?! Bu sözlər nədir ki, deyirsən? Əli (ə) ilə Zəhranın (s.ə) övladları ancaq Allahın əmrinə təslim olduqları və özlərini günahdan uzaq saxladıqları zaman dəyərli və üstün sayılarlar. Olmaya belə güman edirsən ki, Musa ibn Cəfər, Həzrət Səccad və başqa imamlar kimisən?! Halbuki onlar Allah yolunda əzab-əziyyətlər çəkərək gecə-gündüz Allaha ibadət və sitayiş edirdilər. Sən əsla zəhmət çəkmədən nailiyyət əldə edəcəyini güman edirsənmi?! Bunu bil ki, əgər bizim Əhli-beytimizdən olan bir şəxs yaxşı iş görərsə, iki qat savab aparar. Çünki həm başqaları kimi yaxşı iş görüb, həm də Peyğəmbərin (s) hörmətini saxlayıbdır. Lakin əgər pis iş görsə və bir günah etsə, iki günah qazanıbdır: biri budur ki, başqaları kimi pis iş görüb, o birisi də budur ki, Peyğəmbərin (s) abrını aparıbdır.

Ey qardaş! Hər kim Allaha itaət etsə, biz Əhli-beytdəndir, lakin günahkar olsa, bizdən deyildir. Necə

ki, Allah-taala, öz mənəvi əlaqəsini atası ilə qıran Nuhun oğlu barədə buyrub: "O, sənin nəslindən deyildir. Əgər sənin nəslindən olsaydı, ona nicat verərdik".

Şeyx Səduq, Həsən Növfəlidən belə nəql edibdir: "Məmun dünyanın müxtəlif din alimlərini yığaraq bir məclis qurmağı, imam Rzanı (ə) da bu yığıncağa dəvət etməyi və onu elmi baxımdan etibarsız edərək nüfuzunu aradan aparmağı planlaşdırmışdı. Məmun həmin yığıncağı təşkil etmək əmrini vəziri Fəzl ibn Səhlə verdi. Məmun adam göndərib imam Rzanı (ə) da həmin məclisə dəvət etdi. İmam (ə) yığıncaqda iştirak etməkdən əvvəl evindən çıxanda Həsən Növfəliyə belə buyurdu:

"Bilirəm ki, Məmunun bu yığıncağı qurmaqda məqsədi nədir. Amma bunu da bil ki, xristianlarla öz kitablarından, yəhudilərlə Tövartdan, məcusilərlə də farsca danışdığım zaman Məmun bu işdən peşman olacaq".

İmamın dediyi kimi də oldu. İmam məclisə girəndə hamı onun ehtiramına ayağa qalxdı. Həzrət (ə) Məmunun yanında əyləşdi. Məmun xristianların böyük ruhanisi Casəliqə "istədiyin sualı ver" - dedi. Casəliq belə dedi: - İsa haqqında nə bilirsən?

İmam (ə) buyurdu: - Bizim etiqadımıza görə İsa (ə) Allahın peyğəmbəri olub.

Casəliq dedi: - Öz peyğəmbərinizin nübuvvətinə dair dəliliniz nədir?

İmam (ə) buyurdu: "Məgər İncildə oxumamısan ki, Yuhənna İsanın belə buyurduğunu nəql edir: "Məndən sonra keçmiş peyğəmbərlərin dinini kamilləşdirəcək bir peyğəmbər gələcəkdir".

- Oxumuşam. Amma onun kim olduğunu və harada olacağını deməyibdir.

Həzrət (ə) buyurdu: - Sənə İncil kitabından oxumağımı istəyirsənmi?

- Oxu.

Həzrət (ə) üçüncü bölməni oxuyub İsanın belə buyurduğu yerə çatdı. "Mən sizin Pərvərdigarınıza doğru gedəcəyəm və Barqilita, (yəni Muhəmməd) sizə doğru gələcək və küfrü məğlub edəcəkdir".

Casəliq susub heç bir söz demədi. Sonra Həzrət (ə) yəhudilərin başçısı Rəsül-caluta tərəf dönüb belə buyurdu: - Musanın peyğəmbər olduğuna dair hansı dəliliniz vardır?

Dedi: - Musanın əsanı ilana çevirmək, Nil çayını yarmaq və ondan keçmək və əlindən saçılan işıq kimi möcüzələri vardır.

Həzrət (ə) buyurdu: - Nəyə görə İsanın peyğəmbərliyinə inanmadınız?

Dedi: - Deyilənlərə görə İsa ölünü dirildib, dəri xəstəliklərini sağaldırmış. Amma biz bunu görmədik ki, ona iman gətirək.

Həzrət (ə) buyurdu: - Onda nəyə görə Musadan qabaq olan peyğəmbərlərə, habelə Musanın özünə inanırsınız, məgər onların möcüzələrini görmüsünüzmü?

Dedi: - Bizə nəql olunduğuna görə o, kimsənin söyləmədiyi sözləri söyləyib və qabaqcadan kimsənin görə bilmədiyi işləri görübdür.

İmam (ə) buyurdu: - Bu sözləri onun demiş olduğunu haradan bilirsiniz?

Hürmüzan dedi: - Tarixdən və bu sözləri eşidənlər vasitəsilə eşitmişik.

İmam (ə) buyurdu: - Başqa dinlər və tarixə istinad edirlər. Onda siz onları necə öz dininizə dəvət edəcəksiniz?

Hürmüzan susub bir söz demədi. İmam (ə) sonra məcusların başçısına belə buyurdu: "Sən də istədiyini soruş". Ömran, Allah və yaradılışın fəlsəfəsi haqqında bir neçə sual verib cavabını aldı və Həzrətin vasitəsilə müsəlmanlığı qəbul etdi. Məclis imamın qələbə və müvəffəqiyyəti ilə sona çatdı. Belə bir şeyi gözləməyən Məmun ilan sancmış adam kimi qıvrılırdı və məclisi qurduğu üçün özünü danlayırdı.

## İMAMIN (ə) QUM ŞƏHƏRİNƏ GƏLMƏSİ

Məmun imamı Xorasana dəvət etdiyi zaman Həzrət (ə) Mədinədən Bəsrəyə, oradan da Quma gəldi. Qum əhalisi imamı qarşılamağa çıxmışdılar. Hamı da istəyirdi ki, imamı öz evinə qonaq aparsın. Həzrət (ə) belə buyurdu: "Qırağa çəkilin. Mənim dəvəm bu işin məmurudur. Hər kimin qapısında dayanıb otursa, ora mənim qalacağım yer olacaq". Dəvə Qumun əyri-üyrü küçələrindən keçib bir evin qapısına çatanda yerə oturdu. İmam (ə) isə (bu gün Qum şəhərinin elmi mədrəsələrindən biri Rəzəviyyə mədrəsəsi olan) evə qonaq oldu.

İmam (ə) Xorasan yolunda hara çatırdısa, camaat sevincək Həzrətin ətrafına yığışıb ən dərin məhəbbətlərini biruzə verib göstərirdilər.

## İMAMIN (ə) NİŞAPUR ŞƏHƏRİNƏ GƏLMƏSİ

O dövrdə Nişapur şəhəri İranın iri, cəmiyyətli və abad şəhərlərindən biri sayılırdı. Şəhər əhalisinin imam Rzaya (ə) təşkil etdikləri qarşılama mərasimi tarixdə misilsiz idi. Sonralar bu şəhər monqollar tərəfindən işğal olundu. İmam gələndə isə Nişapurun alimləri, əllərində kağız-qələm, şəhərin darvazasında yığışmışdılar ki, imamın sözlərini yazsınlar. O zamanlar Nişapurda yüzlərlə alim, hədisçi və fəqih yaşayırdı. Böyük rəvayətçi və hədisçilərdən sayılan Muhəmməd ibn Əsləm Tusi qabağa gəlib imamdan camaat üçün bir hədis söyləməsini xahiş etdi. İmam (ə) kəcavənin pərdəsini qaldırıb başını kəcavədən çıxartdı. Xalqın gözü imama sataşan kimi salavat və təkbir səsləri göyə ucaldı. İmam (ə) sakit olmalarını işarə etdikdə hamı susdu. Sonra bir hədis oxudu:

"Allah-taala buyurmuşdur: "La ilahə illəllah" mənim qala və hasarımdır. Hər kəs bu kəlməni dilə gətirsə, mənim qalama daxil olub əzabımdan qurtulacaqdır".

Bu hədisin ardıcıl sənədi Peyğəmbər, Cəbrail və Allaha yetişdiyinə görə "Silsilətüz-zəhəb" adlandırılmışdır.

## İMAMIN (ə) SƏNABADA GƏLMƏSİ

Əba Səlt belə nəql edir: "Həzrət (ə) Sənabad kəndinə çatdıqda günorta idi, Həzrət namaz qılmaq istəyirdi. Su istədi, dedilər ki, suyumuz yoxdur. İmam Rza (ə) bir yeri qazdı və həmin yerdən su qaynayıb çıxdı. İmam (ə) ilə yoldaşları dəstəmaz alıb namaz qıldılar. Sonra bu gün daş qablama qayırmaq üçün xammal olan dağa dayanıb belə buyurdu: "Pərvərdigara! Bu dağa xeyir və bərəkət əta et". Sonra əmr etdi ki, evinin bütün qablamalarını bu dağın daşından düzəltsinlər. Həzrət (ə) daha sonra Həmid ibn Qəhtəbənin evində yerləşən məqbərəyə daxil olub Harunun qəbrinin yanında əli ilə bir xətt çəkərək buyurdu: "Bura mənim qəbrimdir, məni burada dəfn edəcəklər. Allaha and olsun ki, hər kəs mənim ziyarətimə gəlsə, Allahın rəhməti və bizim şəfaətimiz ona nəsib olacaq". Daha sonra qibləyə tərəf dayanıb bir neçə rəkət namaz qılıb, dua etdikdən sonra uzun səcdəyə getdi.

## İMAMIN (ə) MƏRV ŞƏHƏRİNƏ GƏLİŞİ

Həzrət (ə) Mərv şəhərinə gələndə Məmun onu ehtiramla qarşılayıb, bütün böyükləri bir məclisdə toplayaraq Həzrətə belə dedi: "Xəlifəliyi buraxıb hakimiyyəti sizə tapşırmaq istəyirəm". İmam (ə) onun cavabında buyurdu: "Əgər xəlifəlik paltarını Allah sənə geydiribsə, xəlifəliyi buraxıb başqa bir nəfərə tapşırmağın yersizdir; əgər xəlifəlik sənin deyilsə, onda nə üçün onu öz öhdənə almısan?"

Məmun dedi: "Artıq bu, qərara alınıbdır və xəlifəliyi qəbul etməlisən". İmam (ə) Məmunun gizli planını bildiyinə görə, onun israrına baxmayaraq qəbul etmədi. Daha sonra Məmun belə dedi: "Mənim vəliəhdliyimi qəbul etməlisən". İmam (ə) isə buyurdu: "Bu qədər israr etmə. Ata-babalarımdan eşitmişəm ki, səndən qabaq dünyadan gedəcəyəm. Məni zəhərləyib atan Harunun yanında dəfn edəcəklər. Məmun "səni kim zəhərləyəcək?" - deyə soruşduqda imam buyurdu: "Sən özün onun kim olduğunu yaxşı bilirsən, məndən soruşma".

Məmun narahat olub ağladı. Sonra belə dedi: "Mənim vəliəhdliyimi gərək qəbul edəsən. Bu bir əmrdir ki, əgər onu rədd etsən, səni öldürtdürərəm". Həzrət (ə) çarəsiz qalıb Məmunun vəliəhdliyini qəbul etdi, lakin bu müddət ərzində hökumət işlərinə qarışmayacağını bildirdi. Məmun bu şərti də qəbul edib təntənəli bir yığıncaq quraraq Həzrəti ora gətirdi və camaata dedi: "Hamınız imamla beyət etməlisiniz. Məndən sonra xəlifə odur. Onun sözünü qəbul edib əmrlərinə tabe olun".

Məmun əmr etdi ki, xalq Abbasilərin qara rəngli paltarını çıxardıb Bəni Haşimin yaşıl rəngli paltarlarını geyinsinlər. Həmçinin qızı Ümmü Həbibi Həzrətə verib, o biri qızı Ümmü Fəzli isə Həzrətin oğlu imam Muhəmməd Təqiyə adaxladı və elə bu siyasətlə onların ikisini də nəzarət altında saxlamaq istəyirdi.

## BAYRAM NAMAZI

Bayram günü Məmun bayram namazını imamın (ə) qılacağını bildirib əmr etdi ki, böyüklərin də hamısı onun dalında namaz qılsınlar. İmam bunu qəbul etmədi. Lakin Məmunun israr etməsi ilə qəbul etmək məcburiyyətində qaldı, bu şərtlə ki, namazı babası Peyğəmbərin (s) qıldığı kimi qılsın. Məmun qəbul etdi və imam (ə) bayram günü sübh təmiz paltar geyib, özünə ətir vurub, başına ağ əmmamə qoyaraq və ayaqyalın təkbir deyərək şəhərin çölünə tərəf hərəkət etdi. Camaat da imamla birlikdə yola

düşdülər. Onlar sevindiklərindən uca səslə ağlayıb Peyğəmbər (s) və xanədanına salam göndərirdilər. Elə bir vəziyyət yaranmışdı ki, sanki göy, yer və bütün məxluqlar imamın səsinə səs verərək təkbir deyirdilər.

Məmunun vəziri Fəzl ibn Səhl vəziyyəti belə təhlükəli gördükdə Məmuna xəbər verdi ki, əgər imam bu şəkildə namaz qılsa, üsyan və hərcmərclik törənəcək. Hamımızın həyatı təhlükə altındadır. Tezliklə imamın yanına bir nəfər göndər ki, mərasimi yarımçıq qoyub qayıtsın. İmam (ə) Məmunun göndərdiyi adamın sözünü eşidən kimi ayaqqabısını geyib ata mindi və şəhərə qayıtdı. Beləliklə də o Həzrət xalqa göstərdi ki, bunların hamısı Məmunun oyunlarıdır. Xalqın Məmuna qarşı olan qəzəb və nifrəti, imama qarşı isə sevgi və məhəbbəti daha da çoxaldı. Hamı Məmunun ikiüzlü və hiyləgər olduğunu və imam haqqında gördüyü işlərin siyasi bir məqsəd güddüyünü başa düşdülər.

## MƏMUN NƏ ÜÇÜN İMAMI (ə) XORASANA DƏVƏT ETMİŞDİ?

Bunu nəzərə almaq lazımdır ki, Məmun zirək və ağıllı bir adam idi. Onun imamı Mərvə dəvət edərək onu vəliəhd təyin etməsi müvəffəqiyyətsiz qalan siyasi bir plan əsasında qurulmuşdu. Məmunu maraqlandıran məsələlər bunlardan ibarət idi:

1. Ələvilər məmləkətin hər tərəfindən hökumətə qarşı qiyam etmişdilər. Bundan əlavə İslam ərazisi genişlənib nəzarət altından çıxmışdı. Buna görə də zahirdə xəlifəliyi ələvilərdən birinə verib onların qiyamının qarşısını almaq qərarına gəlmişdi ki, bununla da onların hamısı geri çəkilib üsyandan vaz keçəcəkdilər. Abbasilərin siyasəti hiyləgər bir siyasət idi. Onlar Peyğəmbərin (s) aiələsinin qanına susamışdılar, lakin ələvilərin üsyanından qurtulmaq, şiələri razı salmaq üçün xalqa Əli (ə) ailəsinin səmimi dostu olduqlarını göstərmək məcburiyyətində idilər.

2. Məmun istəyirdi ki, Bəni Haşim xanədanı da hökumətin qərarlarını həyata keçirməkdə iştirak etsinlər və Həzrət Rzanın (ə) Məmuna dediyi kimi, xalqa belə göstərsin ki, Bəni Haşim xanədanı dünyanı sevirlər və özlərini dünyaya etinasız göstərmələri yalandır. Guya onlar da qüdrətə çatsalar başqa adamlardan heç də fərqlənməyəcəklər. Lakin, qüdrətləri olmadığı üçün kənara çəkiliblər və əgər bir gün qüdrətə çatsalar, camaatın heç ağlına gələ bilməyəcəyi işləri görəcəklər. Məmun bu fikri aşılamaqla xalqı onlardan uzaqlaşdırıb onların xalq arasında olan mənəvi dəyərlərini məhv etmək istəyirdi.

Məmun dəfələrlə üsyan edən şəhərlərə vali təyin etmək üçün imam Rzaya (ə) öz adamlarından bəzilərini namizəd göstərməsini təklif etmişdi, amma o Həzrət (ə) ona belə cavab vermişdi: “Mən vəliəhdliyi qəbul edəndə hökumətin heç bir işinə qarışmayacağımı şərt etdikdə siz də onu qəbul etdiniz. Əgər müqaviləmizə bağlı qalmağımı istəyirsənsə, siz də müqaviləmizə bağlı qalın”. Məmun susub heç bir söz demədi.

İmam Rza (ə) anlamışdı ki, Məmun gördüyü işləri ona nisbət verib xalqı ondan uzaqlaşdırmaq istəyir. Buna görə də Məmunun heç bir təklifini qəbul etmədi və elə bunun nəticəsində də Məmunun bütün planları puça çıxdı.

3. Məmunun güddüyü başqa bir hədəf isə bundan ibarət idi ki, imamı Xorasana gətirməklə ələviləri paytaxtda toplayıb nəzarət altında saxlasın və maneçilik yaradan ələviləri öldürtsün. Necə ki, imamı zəhərləyib, ələviləri öldürdü və qabaqcadan bağladığı bütün əhd-peymanları tapdaladı.

## AZAD ŞAİR DƏBƏL

Dəbəl deyir: Əli (ə) xanədanı haqqında məşhur qəsidəmi Həzrətə oxumaq üçün Xorasana getmək qərarına gəlmişdim. Nəhayət Xorasana gəldim və imamın hüzurunda qəsidəmi oxudum. Həzrət Rza (ə) da Tusda şəhid olması ilə əlaqədar bir neçə beyti mənim şerimə əlavə etdikdən sonra belə buyurdu: “Şerini gizlət və daha heç kəsə oxuma”.

Məmun mənim oraya gəlməyimdən və imama qəsidə oxumağımdan xəbərdar olmuşdu. Məni çağırtdırıb qəsidəni ona da oxumağımı istədi. Mən belə bir qəsidəni oxuduğumu inkar etdim, amma Məmun imamı da məclisə çağırtdırıb dedi: “İmamın hüzurunda Əli (ə) xanədanının dəyəri haqqında oxuduğun məşhur qəsidəni mənim hüzurumda da oxu”.

Mən də məcbur qalıb oxudum. Məmun zahirdə sevinərək məni mükafatlandırdı, onun vəziri Fəzl də mənə yorğa bir at hədiyyə etdi. Həzrət Rza (ə) da Məmunun o Həzrətin adına kəsdirdiyi sikkələrdən yüz dinar mənə verib “bunu saxla; bir gün karına gələr” - deyə buyurdu.

Mən imama belə dedim: “Sizdən geymiş olduğunuz bir köynək istəyirəm ki, öləndən sonra kəfənim olsun”. Həzrət (ə) qəbul edib köynəklərindən birini mənə verərək buyurdu: “Bu köynək səninlə olduğu

müddətdə təhlükələrdən qorunacaqsan".

Mən Həzrətlə xudahafizləşib Fəzlin verdiyi atla karvana qoşulub Tusdan çıxdım. Yolda oğrular karvanımıza həmlə edib var-yoxumuzu apardılar. Çox keməmişdi ki, mənim atıma minən oğrubaşçısını gördüm. Atın üstündə mənim şerimi oxuyurdu. Ona yaxınlaşıb "bu şeri yazan şairin kim olduğunu bilirsənmi" - deyə soruşdum. Dedi: - Bəli. Dəbəl Xüzaidir.

Dedim: - Mənim şair Dəbəl olduğumu bilirsənmi?

O, təəccüblənib sözümə inanmadı. Dedim: - Karvandakılardan soruş.

Mənim Dəbəl olduğumu soruşub öyrəndikdən sonra karvandan oğurlayıb öz aralarında paylaşdırdıqları malları, mənim hörmətimə yiyələrinə qaytardı və imamın buyurduğu kimi bu köynək mənim və dostlarımın azad buraxılmasına, əldən getmiş malların qaytarılmasına səbəb oldu.

Dəbəl bu hadisədən sonra Qum şəhərinə gəldi. Camaat onu sevinclə qarşılayıb imamın hüzurunda oxuduğu şeri onlar üçün də oxumasını istədilər. Dəbəl qəbul edib Qum məscidinə getdi və şerini onlar üçün də oxudu. Camaat ona çoxlu pul və hədiyyələr verdilər və Həzrətin köynəyinin əhvalatını öyrəndikdən sonra ona yalvarıb köynəyin müqabilində istədiyi pulu alıb köynəyi onlara verməsini istədilər. Dəbəl qəbul etmədi. Onlar köynəyin bir tikəsini istədilər. Dəbəl yenə qəbul etmədi.

Dəbəl Qumdan çıxdıqdan sonra cavanlardan ibarət bir dəstə yolunu kəsib köynəyi ondan aldılar və Quma qayıtdılar. Dəbəl də Quma qayıdıb köynəyinin geri verilməsini xahiş etdi. Lakin qəbul etmədilər. Dəbəl köynəyin bir tikəsinin ona qaytarılmasını xahiş etdikdə, qəbul edib köynəkdən bir hissəsini min dirhəmlə birlikdə ona verdilər. Dəbəl vətəninə qayıtdıqdan sonra öz evinə tərəf getdi, lakin gördü ki, oğrular onun evini qarət edib hər şeyini aparıblar. Dəbəl imamın yüz dinarı ona verəndə "bunu saxla; bir gün karına gələr" - deyə buyurduğunu xatırladı. Pulları bazara aparıb hər bir dinarını yüz dinara satıb on min dinara sahib oldu. Bu arada çox sevdiyi arvadı da xəstələnmişdi. Həkimlər isə onu sağalda bilməmişdilər.

Dəbəl imamın köynəyindən ona yadigar qalan parçanı arvadının gözünə bağladı. Sabahısı gün parçanı açanda artıq arvadının gözləri sağalmışdı. Dəbəl cəsarətlə yazdığı məşhur qəsidə və şerlərinə görə həm var-dövlət, həm də hörmət sahibi oldu. Ondan sonra bütün şiələr ona ehtiram edərdi və özü də tarixdə cəsarətli və azad bir şair kimi tanındı.

Onun dəyərli şerlərindən olan bəzi misraların tərcüməsi belədir.

Peyğəmbər övladının yıxılmış evini görüncə ağladım,
Yiyələrinin qovulub münafiqlərin onların
yerində oturduğu evlər,
Quran təfsiri söylənib vəhyin nazil olduğu evlər
İndi cinayətkarların zülmləri ucbatından,
Quran səsindən məhrum qalıb.
Evin yiyələri Peyğəmbərin mirası
və ümmətin ən yaxşı adamları sayılırdılar.
Yoxsullara yardım edən kişilər.
Onların sərvətini zülmkarlar əlində
olduğunu, onların bərəktli əllərinin
boş qaldığını gördüm.
Kufə, Mədinə, Kərbəla və Fəxdə
yatan imamlıq səmasının ulduzlarına,
islam yolunda öz canından keçən
ulduzlara salam göndərirəm.
Bağdadda bir qəbir vardır,
orada pak və mübariz bir can yatıbdır.
O qəbir cənnətin otaqlarından biridir.

Dəbəl deyir: "Bura çatanda Həzrət Rza (ə) belə buyurdu: "Mən də sənin qəsidənə bir beyt əlavə edirəm ki, kamil olsun:

Tus şəhərində də bir qəbir vardır.
Bu qəbir böyük bir müsibətə sahibidir
və qiyamətə qədər ürəkləri yandırıb,
nalələri yüksəldər.

(İmamın özünün şəhid olacağını və Tusda dəfn olunacağını xəbər verməsi o Həzrətin böyük möcüzələrindən biri sayılır).

# İMAMIN (ə) ŞƏHİD OLMASI

Şəhid olduğu gecə imam (ə) yuxuda babası Peyğəmbəri (s) görmüşdü ki, ona belə buyurdu: "Sabah bizim yanımıza gəl. Bizim yanımızda olan, indi içində olduğundan daha yaxşıdır".

Hərsəmə belə deyir: "Gecə yarısı imam (ə) məni hüzuruna çağırdı. Mən imamın yanına getdim. Həzrət mənə belə buyurdu: "Məmun sabah məni üzüm və narla zəhərləyəcək. Bunu bil ki, şəhid olduğumdan sonra o, məni qüsl etmək istəyəcək. Ona belə de ki, bu işi görmə, yoxsa Allah sənə möhlət verməz. Elə bu vaxt heç kimin görüb bilmədiyi bir şəkildə oğlum Mədinədən gəlib qüsl və kəfən edəcək. Sonra mənim meyidimi Harunun məqbərəsinə aparacaqlar və Məmun məni onun arxasında dəfn etmək istəyəcək. Lakin vurduğu külüng yeri qazmayacaq. Bu vaxt sən Məmuna de ki, qəbrin önündə külüngünü yerə vursun. Sonra hazır bir qəbir görünəcək və başının üstündə şəffaf su qaynayıb daşacaq və suyun içində kiçik balıqlar görünəcək. Sonra böyük bir balıq gəlib kiçik balıqları yeyəcək, ondan sonra su çəkilib gedəcək. Bu vaxt məni qəbrə qoyun, amma qəbrimə torpaq tökməyin. Çünki qəbir öz-özünə dolacaq. Ey Hərsəmə, dediyim işləri görün və qoymayın ki, ayrı iş görülsün, yoxsa Allah sizi əzablandırar".

Nəhayət Məmun o Həzrəti Mərvdən Bağdada gedən yolda, Tus şəhərində zəhərli üzümlə zəhərlədi. Həzrət (ə) evinə qayıdıb köhnə dostu Əba Səltə belə buyurdu: "Evin xalçalarını yığışdır və heç kimi evə gəlməyə qoyma. Mənim can verən zamanımdır. Mən də babam Hüseyn kimi torpaq üstündə can vermək istəyirəm".

İmamın şəhid olmasından qabaq Məmun Həzrətin yanına gəldi. İmam (ə) gözlərini açıb ona belə dedi: "Oğlum imam Muhəmməd Təqi ilə yaxşı rəftar et. Çünki səninlə onun vəfatı bir-birinə yaxındır".

İmamın pak bədənini qabaqca Harunun dəfn olunduğu məqbərədə, qəbrin önündə torpağa tapşırdılar. Bu faciə 203-cü Hicri ilinin Səfər ayının son günündə, imam 55 yaşında ikən baş verdi.

İmamın şəhid olmasından sonra Xorasanda böyük bir üsyan baş verdi və Məmun özünü əzadar göstərmək üçün ağlaya-ağlaya başına döyürdü. Lakin əksəriyyət bilirdi ki, Məmun imamın qatilidir. Məmun üsyançıların qorxusundan və qiyamın genişlənməsinin qarşısını almaq üçün bir gecə-gündüz icazə vermədi ki, imamın meyidini evdən çıxartsınlar. O, həmçinin xalqın arasına öz adamlarını göndərdi ki, imamın öz əcəli ilə öldüyü şayiəsini yayıb Məmunun bu işdə əli olmadığına inandırsınlar. Lakin bütün bu cəhdlərə baxmayaraq o, özünü günahsız göstərməyə müvəffəq olmadı. Günü-gündən xalqın gözündə daha dəyərsiz oldu və nəhayət çox pis bir vəziyyətdə öldü.

# ON BİRİNCİ MƏSUM
# İMAM MUHƏMMƏD TƏQİ (ə)

İMAMIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Muhəmməd |
| **Ləqəbi:** | Təqi və Cavad |
| **Kunyəsi:** | Əbu Cəfər |
| **Atası:** | Həzrət imam Rza (ə) |
| **Təvəllüdü:** | Hicri 195-ci il |
| **İmamlıq müddəti:** | 17 il |
| **Ömrü:** | 25 il |
| **Şəhadəti:** | 220-ci Hicri-qəməri ilində Mötəsimin əmri ilə zəhərlənmişdir. |
| **Məzarı:** | İraq, Kazimeyn şəhəri. |

## TƏVƏLLÜDÜ

Səkkizinci imamın şərəfli ömründən qırx ildən çox vaxt ötsə də, hələ oğlan övladı dünyaya gəlməmişdi. Səbri daralan şiələr Allahdan bir oğlan övladını o Həzrətə əta etməsini diləyirdilər. Çünki keçmiş rəhbərlərindən doqquzuncu imamın səkkizinci imamın oğlu olacağını eşitmişdilər. Onlar bəzən imamın hüzuruna gələrək o Həzrətdən canişini haqqında müxtəlif suallar soruşurdular. Həzrət (ə) isə onların cavablarında buyururdu: “Allah-taala mənə bir oğlan verəcəkdir ki, mənim varisim və məndən sonrakı imam olacaqdır”.

Nəhayət 195-ci hicri ilin Rəcəb ayının onunda şiələrin intizarı sona çatdı və Həzrət imam Muhəmməd Təqi (ə) Xəyzəran adlı anasından dünyaya gəldi. Xəyzəran Peyğəmbərin (s) həyat yoldaşı olan Mariyə Qibtiyyənin nəslindən idi ki, ərəblərin arasında paklıq və insanlıq kimi dəyərli sifətlər ilə tanınmışdır.

Həzrətin ləqəblərinə misal olaraq Təqi və Cavad adlarını nümunə göstərmək olar.

İmam Rzanın (ə) bacısı Həkimə belə deyir: “Həzrətin dünyaya gəldiyi gecə qardaşım mənə əmr etdi ki, həyat yoldaşının yanında olum. Körpə dünyaya gəldikdən sonra göyə baxıb tövhid və islam peyğəmbərinin (s) risalətinə şəhadət verdi. Mən bu hadisədən heyrətlənərək qardaşımın yanına gəlib əhvalatı olduğu kimi ona danışdım. Qardaşım isə mənim cavabımda belə buyurdu: “Bacı, narahat olma hələ bundan sonra da maraqlı hadisələrin şahidi olacaqsan”.

Bu təvəllüd çox mübarək və ümidverici idi. Çünki şiələri çaşqınlıq və şəkk-şübhədən qurtarmışdı.

Bu barədə Növfəli belə demişdir: "Həzrət Rzadan (ə) Xorasan səfəri əsnasında “mənə görə bir əmriniz yoxdurmu?” - deyə soruşdum. Həzrət (ə) buyurdu: “Sən məndən sonra övladıma tabe olmalı və məsələlərini ondan soruşmalısan”.

İmam (ə) həmişə əshabına belə buyururdı: “Mənə yazıb məndən soruşmağınız lazım deyil. Məndən sonra imam olan bu balaca uşaqdan soruşun. Allah-taala Həzrət İsanı Əbu Cəfərdən daha kiçik ikən peyğəmbərliyə seçdi. Peyğəmbərlik və imamlıqda yaşın müəyyən bir təsiri yoxdur.”

Doqquzuncu imam Həzrət Cavad (ə) doqquz yaşında ikən imamlıq vəzifəsinə çatdı. İmamın səhabələrindən biri bu barədə belə deyir: “Mədinədə o Həzrətin əmisi Əli ibn Cəfər xalq arasında xüsusi hörmət sahibi idi və hər vaxt məscidə gəldikdə hamı onun ətrafına yığışıb məsələlərini ondan soruşurdular”.

Bir gün imam Muhəmməd Təqi (ə) məscidə gəldi və qoca kişi olan Əli ibn Cəfər ayağa qalxıb imamın əlini öpdü və elə ayaqüstə də durdu. İmam (ə) buyurdu: “Əmi, əyləş!” Əli ibn Cəfər isə belə dedi: “Siz ayaq üstündə olduğunuz vaxt mən necə otura bilərəm?!” Daha sonra Əli ibn Cəfər öz dostlarının yanına qayıtdıqda onlar onu danlayıb dedilər: “Sən onun əmisi və qoca kişisən, nə üçün ona bu qədər hörmət edirsən?” Əli ibn Cəfər dedi: “Susun! İmamlıq ilahi bir mənsəbdir. Allah imamətə bu qoca kişini deyil, bu uşağı layiq bilmişdir. Sizin borcunuz da onun əmrinə tabe olmaqdır”.

## İMAMIN (ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

Atası vəfat edən zaman imam hələ uşaq idi, lakin heç vaxt uşaqlar kimi hərəkət etməzdi. Bir gün atası sağ ikən dostlarından biri o Həzrət üçün oyuncaq alıb gətirmişdi. Oyuncağı görən Həzrət (ə) narahat olub buyurdu: “Mən bunları neynirəm? Biz elm və fəzilət xanədanıyıq”.

Həzrət Rzanın (ə) şəhadətindən bir il sonra Məmun bir dəstə atlı ilə ova çıxmışdı. Küçədə uşaqlar oynayırdılar, bir uşaq da qıraqda dayanıb onların oyunlarına baxırdı. Uşaqlar Məmun ilə atlılarını görən kimi qaçıb getdilər. Lakin on bir yaşlı uşaq yerində dayanıb durdu. Məmun yaxınlaşıb “Ay oğlan, bəs sən niyə o biriləri kimi qaçmadın?” - deyə soruşduqda, həmin oğlan belə buyurdu: “Yol elə də darısqal deyildi ki, sənin yolunu tutmuş olam. Bir pis iş də görməmişəm ki, qorxam. Sizin səbəbsiz olaraq birini incidəcəyinizi də güman etmirəm. Demək qaçmağım mənasız idi”.

Məmun bu uşağın ədəb və cəsarətindən heyrətə gəlib soruşdu:

- Adın nədir?

Cavab verdi: - Muhəmməd.

- Kimin oğlusan?
- Əlinin oğlu.
- Sən Həzrət Rzanın oğlu deyilsənmi?
- Bəli.

Məmun ona afərin deyib atlıları ilə çıxıb getdi.

## İMAMIN (ə) QEYB ALƏMİ İLƏ OLAN ƏLAQƏSİ

İmam Rzanın (ə) şəhadətindən sonra alimlərdən ibarət səksən nəfər zəvvar müqəddəs həcc mərasimini yerinə yetirmək üçün Məkkəyə getdilər. Onlar yolüstü Mədinəyə gəlib imamın evinə də dəydilər. Hələ uşaqlıq dövrünü yaşayan imam (ə) məclisə daxil olduqda hamı onun ehtiramına ayağa qalxdı. Daha sonra onları maraqlandıran məsələləri soruşub cavab aldılar və çox sevindilər. Onlardan İshaq adlı birisi deyir:

“Mən imamdan soruşmaq üçün bir neçə məsələ yazmışdım. Eləcə də ondan Allahın mənə bir uşaq verməsi üçün dua etməsini xahiş edəcəkdim. Məclis çox izdihamlı oluduğundan gedib sabah gəlmək istəyirdim ki, imamın gözü mənə sataşdı və belə buyurdu: “Ey İshaq! Allah istəyini qəbul etdi və sənə bir oğlan uşağı verəcəkdir. Adını Əhməd qoy”. Daha sonra məsələlərimin cavabını verdi. Soruşmadığım məsələlərin cavabını imamdan eşitmək məni olduqca heyrətləndirirdi və öz-özümə dedim ki, bizə bu neməti əta edən Allaha şükr olsun. Bu, Allahın höccətidir.

Mən öz şəhərimizə qayıtdım və çox keçmədən, imamın dediyi kimi, Allah mənə bir oğlan uşağı əta etdi ki, adını Əhməd qoydum”.

Əşəri Qummi isə deyir: “İmamın hüzuruna gedib dedim ki, sizin tərəfdarlarınızdan olan bir qadın məndən özünə kəfən etmək üçün sizin paltarlarınızdan birini ona aparmağımı istəyibdir. Həzrət (ə) buyurdu: “Onun artıq bu işə ehtiyacı yoxdur”. Mən imamın sözünü yaxşı başa düşməsəm də bir söz demədən xudahafizləşib getdim. Sonradan xəbərdar oldum ki, həmin qadın mən imamın hüzuruna getməmişdən bir neçə gün qabaq ölübmüş və imam da onun öldüyünü bildiyindən işarə ilə onun öldüyünü mənə bildirmək istəyibmiş”.

## HƏZRƏT RZANIN (ə) ÖZ OĞLUNA MƏKTUBU

Bəzəndi deyir: “Bir gün Həzrət Rza (ə) Mədinədə olan oğluna belə bir məzmunda məktub yazdı: “Övladım, eşitdiyimə görə qulluqçular icazə vermirlər ki, xalq sizinlə asanlıqla əlaqə yaradıb məsələlərini soruşsunlar. Bunu bil ki, onlar sənin xeyir və səadətini istəmirlər. Sənə əmr edirəm ki, qapın hamının üzünə açıq olsun, qoy hamı gediş-gəlişdə sərbəst olsun ki, səndən bir şey soruşmaq istədikdə imkan tapsınlar.

Bir yerə getmək istədikdə mütləq yanında pul götür ki, ehtiyacı olan bir şəxs ilə qarşılaşdıqda ona kömək edə biləsən. Çətinlikdə olan qohumlarını unutma, onların vəziyyəti ilə yaxından və ən yaxşı şəkildə maraqlan. Heç vaxt yoxsullara kömək etmək və yardım etməyi unutma!”

## İMAMIN (ə) EVLƏNMƏSİ

Məmun imam Rzanı (ə) zəhərləyəndən sonra çox çalışdı ki, camaatın içində imamın öz əcəl ilə öldüyünü yaysın, lakin getdikcə hiyləsi aşkara çıxdı, şiələr və ələvilər Məmunun bu cinayətini başa düşdülər. Elə buna görə də hər tərəfdə Məmunun əleyhinə üsyanlar baş qaldırdı.

Məmun üsyanların qarşısını almaqdan ötrü imamın oğlunu Mədinədən Xorasana gətirdərək qızı Ümmü Fəzli o Həzrətlə evləndirmək istəyirdi. Abbasilər bu işə mane olmağa cəhd etdilər. Lakin Məmun qəbul etməyib dedi: "Siz onu tanımırsınız. Əgər tanısaydınız, məndən Allahın ən yaxşı bəndəsi və xalqın ən biliklisini öz kürəkənim olaraq seçməyə mane olmazdınız. Siz onu imtahan edə bilərsiniz, əgər sualınızın cavabını verib sizi məhkum etsə, daha heç bir söz deməyib istəyinizdən vaz keçin, yox əgər cavabınızı verə bilməsə, mən sizin istəyinizi qəbul edib qızımı ona vermərəm".

Abbasilər Yəhya ibn Əksəmin yanına gələrək ondan bir neçə məsələ hazırlayıb Məmunun məclisində imam Cavaddan (ə) soruşmasını istədilər. Yəhya onların istəyini qəbul etdi, onlar da Məmunun yanına gəlib Əksəmin razı olduğunu ona bildirdikdə Məmun bu iş üçün xüsusi bir gün təyin etdi. Abbasilər Yəhya ibn Əksəmlə birlikdə məclisə gəldilər. Təntənəli bir məclis qurmuşdular. Böyüklərin hamısı həmin məclisdə iştirak edirdilər. Bu arada imam məclisə daxil oldu, hamı ayağa qalxdı. O Həzrət, qabağa gəlib Məmunun yanında əyləşdi. İmama cavabını verə bilmədiyi suallar verilməsini tələb edən Məmun imama "Yəhya ibn Əksəm sizdən bəzi məsələləri soruşmaq istəyir" - dedi. Həzrət buyurdu: "İstədiyi məsələni soruşsun!"

Yəhya dedi: - Ehram paltarı geyib Allahın evinin ziyarətinə gedən və orada bir heyvan ovlayan şəxs barədə nə deyirsiniz?

Həzrət (ə) buyurdu: - Ey Yəhya, bu məsələnin müxtəlif şəkilləri var. Onlardan hansını soruşursan? Bu şəxs hərəmin içində imiş, yoxsa bayırında? Bu işin haram olduğunu bilirmiş, ya yox? Heyvanı qəsdən öldürüb, yoxsa səhvən? Qul imiş, ya azad?

Bu işindən peşman olub, yoxsa işinə davam etmək istəyir? Heyvanı gecə ovlayıb, ya gündüz? Birinci dəfə imiş, yoxsa ikinci, yaxud üçüncü dəfə? Heyvan quş imiş, ya yox? Böyük imiş, ya kiçik?

İmamın məsələni bu cür xırdalaması Yəhyanı çaş-baş etdi və məğlubiyyət nişanələri üzündə aşkar olaraq dili tutuldu. Məclisdə olanların hamısı imama afərin dedilər. Sonra Həzrət (ə) Yəhyaya belə buyurdu: - Mən də sizdən bir məsələ soruşmaq istəyirəm.

Yəhya dedi: - Buyurun, əgər cavabını bilsəm, deyərəm. Əgər bilməsəm, sizdən eşidib istifadə edərəm.

İmam (ə) Yəhyadan bir məsələ soruşdu. Hamı susub Yəhyanın cavab verməsini gözləyirdilər. Abbasilər və Məmunun tərəfdarları narahatlıqdan titrəyir və öz-özlərinə deyirdilər: Əgər Yəhya cavab verə bilməsə, hamımız rüsvay olacağıq və imamın nüfuzu daha da artacaq.

Elə bu vaxt saray alimi utandığından başını aşağı salıb belə cavab verdi: "Məsələnin cavabını bilmirəm. Özünüz buyurun, biz də istifadə edək!"

İmam (ə) da gözəl bir dəlillə cavabı deyib dostları şad, düşmənləri isə qəmgin etdi.

Bu vaxt Məmun Abbasilərə xitab edib dedi: "Sizin aranızda belə məsələlərə cavab verə bilən bir şəxs vardırmı?"

Cavab verdilər: "Allaha and olsun ki, yoxdur".

Sonra Məmun elə həmin məclisdə qızı Ümmü Fəzli imama (ə) ərə verdi.

## İMAMIN (ə) ELMİ MƏQAMI

Əvvəlki səhifələrdə imamın Məmunun məclisində məşhur saray alimini məğlub edərək bütün alimlərin diqqət mərkəzinə çevrildiyini bəyan etmişdik. Bu bölmədə isə Məmunun qardaşı, Abbasi xəlifəsi Mötəsimin məclisində baş vermiş əhvalatı qeyd edirik. Bu hadisə saray alimlərini o qədər qəzəbləndirdi ki, hətta Mötəsimi imamı öldürmək üçün təhrik etdilər.

Həmin əhvalat belə baş vermişdi. Bir oğrunu cəzalandırmaqdan ötrü Mötəsimin məclisinə gətirdilər. Lakin o, əvvəlcə məclisdəki alimlərdən öz nəzərlərini bildirmələrini istədi. Bu arada onların rəisi olan məşhur bir alim elə bir rəy söylədi ki, Mötəsim onun sözünü qəbul etmədi. Məsələni həll etmək üçün imam Cavadı (ə) da həmin məclisə dəvət etdilər. Həzrət məclisə gəldikdə alimlərin hamısı imamın ehtiramına ayağa qalxdılar. Həzrət (ə) onların arasında əyləşib Quran və Peyğəmbərin (s) hədislərinə əsasən oğrunun cəzasını müəyyən etdi.

Mötəsim imamın hökmünü qəbul edib, həyata keçirilməsini əmr etdi. Məğlub olduqlarından olduqca narahat olan alimlər, imam gedəndən sonra Mötəsimin yanına gəlib dedilər: "Siz bu işiniz ilə bizi məhkum edib şiələrə qiymət verdiniz. Şübhəsiz camaat başa düşəcəkdir ki, siz və bizim hamımız

haqsız, imam və onun ardıcılları isə haqlıdırlar".
Bu sözlər Mötəsimə bərk təsir etdiyindən imamı öldürmək qərarına gəldi.

## MƏMUNUN SONU

Misirdə Məmuna qarşı qiyam qaldırıldı. Məmun da bu qiyamı yatırtmaq üçün hərəkət edib onu məğlubiyyətə uğratdıqdan sonra Rumu fəth etdi və tutduğu əsirlərlə bərabər geri döndü. Qayıdarkən Rəqqə adlı bir yerə çatdı. Orada Qüşəyrə adlı bir bulaq var idi, ab-havası xoş olduğuna görə çadır qurub orada bir müddət qalmaq istədiyini bildirdi. Məmun orada xəstələndi. O, Rəqqə və Qüşəyrənin mənasını öyrənəndən sonra bunun nəsh olduğunu güman etdi. Çünki, bir gün Rəqqə adlı bir yerdə öləcəyini eşitmişdi. Buna görə daha da narahat olub bir müddət titrədi və elə orada öləcəyini anladı.

Nəhayət Məmun neçə gün xəstəlikdən sonra orada öldü. Onun ölümündən sonra napak və qəsavətli qardaşı Mötəsim onun yerində oturdu və imam Cavadı (ə) Mədinədən Bağdada gətirdi ki, o Həzrəti yaxından nəzarət altında saxlaya bilsin.

## İMAMIN (ə) SƏHABƏLƏRİ

İmam Cavadın (ə) zamanında şərait çox pis olduğundan daha az tələbə yetişdirildi. İmamın görkəmli tələbələrindən bəzisi bunlardır:

**1.** Əli ibn Məhziyar. O, imamın xüsusi dostlarından idi, pak və zahid bir kişi sayılır, Əhvazda yaşayırdı. Əhli-beyt əsərlərini ehtiva edən təqribən 30 kitab ondan yadigar qalmışdır. İbn Məhziyar axırda elə bir yüksək məqama çatdı ki, imam onun haqqında belə yazdı: "Allahın adı ilə. Ey Əli! Allah sənə yaxşı bir mükafat verəcək, səni öz cənnətində yerləşdirəcək və iki aləmin nemətlərindən faydalandıracaqdır. Mən xeyirxahlıq və xidmətdə sənin kimi olan kimsəni görməmişəm".

**2.** Əbu Nəsr Bəzənti. O, Kufə əhalisindən və imamın xüsusi əshabından idi. Onun fiqhi və elmi məqamını bütün şiə alimləri qəbul edirdilər. O, imam Rzanın (ə) hüzuruna yetişən və imamın ona xüsusi hörmət bəslədiyi şəxsdir.

**3.** Zəkəriya ibn Adəm: Qum əhalisindən və imamın dəyərli əshablarından biri idi. Qəbri Qum şəhərindədir.

O, imamın haqqında dua etdiyi və vəfalı dostu olaraq tanıtdığı şəxsdir. Əshabından birisi "mənim yolum uzaqdır, buna görə də din əhkamını sizdən soruşa bilmirəm" - dedikdə, imam (ə) buyurmuşdu: "Din və dünya işlərində mənim əminim olan Zəkəriya ibn Adəmlə məsləhət et!".

## İMAMIN (ə) ŞƏHADƏTİ

İmamın şəhid olması barədə müxtəlif rəvayətlər nəql olunmuşdur. Böyük tarixçi İbn Şəhr Aşub bu barədə belə yazıbdır: "Mötəsim imama qarşı bəslədiyi kin-küdurət üzündən imamın arvadı Ümmü Fəzli o Həzrəti öldürməyə təhrik etdi. Müxtəlif vədə və həvəslər Ümmü Fəzli imamı zəhərləyib şəhid etməyə vadar etdi. O Həzrət (ə) 220-ci hicri ilinin Zilhəccə ayının 6-da çərşənbə axşamı günü 25 yaşında ikən, şəhid olundu. Pak bədənini babası imam Musa Kazimin (ə) qəbrinin yanında torpağa tapşırıldı. Bu iki imamın məzarı Kazimeyn adı ilə tanınır və şiələrin ziyarətgahıdır».

# ON İKİNCİ MƏSUM
# İMAM ƏLİYYƏN-NƏQİ (ə)

İMAMIN ŞƏXSİYYƏTİ

**Adı:** Əli
**Ləqəbi:** Hadi və Nəqi
**Kunyəsi:** Əbül-həsən
**Atası:** Həzrət imam Muhəmməd Təqi (ə)
**Təvəllüdü:** Hicri 214-cü il
**İmamlıq müddəti:** 34 il
**Ömrü:** 40 il
**Şəhadəti:** 254-cü Hicri-qəməri ilində Abbasi xəlifəsi Mötəz tərəfindən şəhid edilmişdir.
**Məzarı:** İraq, Samirra şəhəri.

## TƏVƏLLÜDÜ

Hadi ləqəbi ilə məşhur olan imam Əliyyən-Nəqi (ə) 214-ci hicri-qəməri ilinin Zilhəccə ayının 15-də Mədinə yaxınlığındakı Surya adlı bir məntəqədə dünyaya gəldi. Atası imam Cavad (ə), anası isə təqvalı və fəzilətli bir kəniz olan Səmanə xanım idi. Həzrət (ə) 220-ci hicri ilində atasının şəhadətindən sonra imamlıq məqamına çatdı. Uşaq olmasına baxmayaraq bütün şiələrin diqqətini özünə cəlb etmişdi. Belə ki, Abbasi xəlifələri ondan çox çəkinir və onu müxtəlif yerlərə sürgünə göndərirdilər. Necə ki, Mütəvəkkil imamı Mədinədən Samirraya gətirdi və imam ömrünün axırına qədər orada qaldı.

## İMAMIN (ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

Həzrət Hadi (ə) zöhd və təqva baxımından misilsiz idi. Misal üçün, Mütəvəkkilin məmurları onun evinə basqın etdikdə onu sadə bir otaqda ibadət halında görmüşdülər. O, Quranı çox sevər, xalqın işini sahmana saldıqdan sonra həmişə Quran oxuyardı. Camaatla xoş və gülərüzlə rəftar edər, ahəstə addımlarla yeriyərdi. Yoxsulların vəziyyəti ilə maraqlanar və bəzən otuz min dinara qədər pulu dar gündə olan yoxsullara bağışlayardı. Belə ki, bir gün Mütəvəkkil tərəfindən Həzrətə göndərilən 30 min dinarın hamısını yoxsul bir ərəbə bağışladı.

Mütəvəkkilin anası imam Hadinin (ə) zöhd və imanına heyran olmuşdu. Bir gün ayağı yaralanmış Mütəvəkkili həkimlər sağalda bilmədikdə Mütəvəkkilin anası Fəth ibn Xaqanı o Həzrətin evinə göndərdi ki, imamdan dərman alıb gətirsin. Həzrətin göndərdiyi dərman Mütəvəkkili sağaltdı. Bütün həkimlər bu işə mat qalmışdılar. Anasının təşəkkür üçün göndərdiyi min dinarın hamısını Həzrət yoxsullar arasında payladı.

## İMAMIN (ə) YOXSULLARA ETDİYİ KÖMƏKLİKLƏR

Bir gün rəssam Yunus qorxa-qorxa imamın hüzuruna gəlib belə dedi: “Ey Peyğəmbərin övladı! Mən öldürülmək ərəfəsindəyəm. Məndən sonra siz ailəmə baxarsız”. Həzrət (ə) əhvalatı soruşduqda o, belə izah etdi: “Abbasilərin adamlarından biri mənə bir qaş-daş verib ki, üstünə rəsm çəkim. Lakin qaş-daşın üstündə işləyərkən yarı bölündü. Sabah qaş-daşı geri almaq üçün gələcəklər, əgər əhvalatı bilsələr, məni öldürəcəklər”.

İmam (ə) başını aşağı salıb dedi: “Sənin haqqında dua etdim. Arxayın ola bilərsən ki, onlar daha sənə heç bir ziyan yetirməyəcək. Əksinə bu iş sənin xeyrinə qurtaracaq”.

Sabahısı gün Yunus məmurlardan biri ilə ayaqları titrəyə-titrəyə həmin kişinin evinə getdi. Çox keçmədən evin yiyəsi gəlib ona dedi: “Ey Yunus! Qaş-daşın üstünə bir rəsm çəkəcəkdin. Lakin həmin qaş-daşın üstündə mənim iki qızım dalaşırlar. Əgər mümkündürsə, onu iki böl və hər birinin üstündə ayrı-ayrı naxış sal. Bu iş üçün sənə ayrıca bir mükafat da verəcəyəm”. Yunus “icazə verin bu barədə bir az fikirləşim” - deyə oradan çıxdı və sevincək imamın hüzuruna gələrək ona etdiyi bu yaxşılıq üçün təşəkkür etdi.

## ÇƏTİN DÖVR

İmamların öz mübarizələrinə, eləcə də zülmkar hökmdarlara qarşı müxalifətlərinə davam etmələri islam və şiəlik tarixinin ən parlaq səhifələrindən sayılır. Onların zülm ilə barışmamaları və yoxsulların tərəfini saxlamaları zülmkarları qəzəbləndirirdi.

Həzrət Hadi (ə) həyatı boyu yeddi Abbasi xəlifəsini görmüşdü. Lakin o Həzrətin yaşadığı ən ağır dövr Mütəvəkkilin xəlifə olduğu dövrdür. Çünki Mütəvəkkil çirkin, imansız və şöhrətpərəst bir adam idi. Zahirdə özünü dindar göstərsə də bu oyun, yalnız siyasi hədəflərini həyata keçirməkdən ötrü idi. Mütəvəkkil 226-cı hicri ilində əmr etdi ki, imam Hüseynin (ə) qəbrini Fərat çayının suları altında qoyaraq uçurdub yerində əkin əksinlər. Beləliklə də o, bu əməli ilə xalqı Kərbəla şəhidlərinin qəbrini ziyarət etməkdən məhrum qoymaq istəyirdi. Mütəvəkkil yaxşı bilirdi ki, bu qəbirlərdən hər biri ürəyi yanmış aşiqləri dünyanın hər tərəfindən özünə tərəf çəkən möhkəm bir səngərdir. Mütəvəkkil çalışırdı ki, xalqı Əli (ə) xanədanından uzaqlaşdırsın. Mütəvəkkil törətdiyi ağır cinayətdən (yəni imamı qətlə yetirməkdən) sonra heç vaxt rahatlığın nə olduğunu bilmədi və nəhayət şiə türklər tərəfindən öldürüldü.

## İMAM HADİ (ə) VƏ QEYBDƏN XƏBƏRDARLIĞI

Bir gün yaltaq adamlardan biri Mütəvəkkilə belə dedi: “Siz nə üçün məmurlarınıza imam Hadiyə (ə) hörmət etmələrini və o içəri girəndə pərdələri qaldırmaları və qapıları açmalarını əmr edirsiniz? Bu işlər sizin şərəfinizi alçaldır. Qoy imam da başqa adamlar kimi gəlib getsin ki, xalqın gözündə nüfuzdan düşsün. Mütəvəkkil onun istəyini qəbul edib məmurlarına əmr etdi ki, imam gələndə pərdələri qaldırmayıb qapıları açmasınlar.

Bir gün məmurlardan birisi qaça-qaça Mütəvəkkilin yanına gəlib dedi: “İmam gəlir, lakin hər qapıya çatanda qapılar öz-özünə açılır və pərdələr qalxırlar. Bu vəziyyət artıq hamının diqqətini cəlb edib, əgər belə davam etsə, imamın dəyəri və üstünlüyü hamıya bəlli olacaq, nəticədə isə sənin hökumətin təhlükəyə düşəcəkdir”.

Mütəvəkkil dərhal məmurlarına əmr etdi ki, imamla əvvəllər olduğu kimi davranaraq o Həzrətə daha artıq hörmət etsinlər.

## HAQQ YOLUNDA ŞƏHADƏT

Bir gün Mütəvəkkil uşaqlarının müəllimi olan ibn Sikkitdən “mənim uşaqlarımı çox sevirsən, yoxsa Peyğəmbərin iki oğlu Həsən və Hüseyni?” - deyə soruşdu.

O, dərhal və cəsarətlə belə cavab verdi: “Həzrət Əlinin (ə) qulu olan Qənbəri də səndən və sənin uşaqlarından daha artıq sevirəm!”

Bu zaman Mütəvəkkil yerində ilan təki qovrularaq dərhal əmr etdi ki, bu böyük şəxsiyyətin dilini peysərindən çıxarsınlar və beləliklə onu 58 yaşında ikən şəhid etdilər.

## MÜTƏVƏKKİLİN ƏLİ (ə) XANƏDANINA OLAN EHTİRAMSIZLIĞI

Mütəvəkkil israf etməkdə, eləcə də xalqın sərvətini boş yerə xərcləməkdə şöhrət qazanmışdı. Hətta günü bu gün də Samirra şəhərində mövcud olan qüllənin ucaldılmasında bir milyon yeddi yüz min qızıl dinar pul xərcləmişdi. Lakin bütün bunlara baxmayaraq Peyğəmbərin (s) övladını elə ağır vəziyyətə salmışdı ki, Peyğəmbərin qızları Mədinədə ip əyirməklə güzəranlarını təmin edirdilər. Hətta iş o yerə çatmışdı ki, əyinlərinə geymək üçün bir dənə təzə paltarları belə yox idi. Mütəvəkkil Əli (ə) övladları ilə sərt davranır, Əli (ə) düşmənlərilə dost, eləcə də onlara Əli (ə) və xanədanını ələ salıb təhqir etmək üçün külli miqdarda pul verirdi. Həmişə yanında bir təlxək də var idi ki, iyrənc rəftarları ilə Əlini (ə) lağa qoyub Mütəvəkkili güldürürdü.

Mütəvəkkilin Əli (ə) övladlarına qarşı etdiyi hörmətsizlik hətta o dərəcəyə çatmışdı ki, bir gün öz məktublarının birində Mədinə valisinə belə yazdı: “Hər kim Əli (ə) xanədanına yardım etsə, yaxud onlarla oturub-dursa, onu ağır şəkildə cəzalandır!”

Mütəvəkkil 243-cü Hicri-qəməri ilində imam Hadini (ə) Mədinədən Samirraya sürgün etdi və o Həzrəti oğlu imam Həsən Əskəri (ə) ilə birlikdə ömürlərinin sonuna qədər hərbi bazasının yanında nəzarət altında saxladı. Elə buna görə də 11-ci imam (ə) Əskəri ləqəbi ilə məşhur oldu.

# İMAMIN (ə) ELMİ MƏQAMI

Həzrət Hadinin (ə) elmi nübuvvət məktəbindən qaynaqlandığı üçün elm nuru mübarək ürəyinə saçılaraq onu yaradılış sirrindən xəbərdar edirdi. Onun elmi haqqında bir neçə örnəyi burada qeyd edirik:

1. Bir gün Rum padşahı Abbasi xəlifələrindən birinə belə bir məktub yazdı: "İncildə oxuduğumuza görə səmavi bir surə vardır ki, hər kəs onu oxuyub əməl etsə, Allah onu cəhənnəmə atmayacaqdır. Bizə həmin surənin hansı surə olduğunu yazın. Çünki biz onu İncildə tapa bilmədik".

Abbasi xəlifəsi bütün alimləri toplayaraq bu barədə onlardan soruşdu, lakin heç biri cavab verə bilmədi. Xəlifə imam Hadini (ə) də dəvət edərək həmin məsələni ondan da soruşdu. İmam (ə) belə buyurdu: "O, hər bir müsəlmanın gecə-gündüz neçə dəfə namaz üstə oxuduğu "Həmd" surəsidir". Həzrət (ə) daha sonra bir sıra əlavə izahat da verərək bütün alimləri heyrətdə qoydu. İmamın verdiyi cavabı Rum padşahına göndərdilər. O da məktubu oxuyaraq sevindi və müsəlmanlığı qəbul etdi.

# İMAMIN (ə) QEYBİ XƏBƏRLƏRİ

İmam Hadi (ə) Allah-taala və qeyb aləmi ilə əlaqədar olduğuna görə o Həzrətdən bəzi möcüzələr görünmüşdür ki, Allahın qüdrətindən olan örnəklərdən sayılır.

İmamın əshabından biri İraqdan Mədinəyə gəlib o Həzrətin hüzuruna yetişmək şərəfinə nail oldu. Həzrət (ə) ondan Abbasi xəlifəsi Əlvasiqin halını soruşdu. O, belə cavab verdi: "Mən İraqdan çıxdığım zaman xəlifə sağ idi, Mütəvəkkil zindanda idi və ibn Zəyyat xalq arasında məşhur olmuşdu".

İmam (ə) isə belə buyurdu: "Allahın istədiyi olacaq. Dostum, bunu bil ki, Vasiq ölüb, Mütəvəkkil onun yerinə keçib, ibn Zəyyat isə Mütəvəkkilin əmri ilə öldürülübdür".

İmamın səhabəsi soruşdu: "Nə vaxt?"

İmam (ə) buyurdu: "Sən Bağdaddan çıxdığın vaxtdan altı gün sonra".

# İMAMIN (ə) HAKİMLİYİ

Mütəvəkkil zamanında bir qadın Həzrət Fatimənin qızı Zeynəb olduğunu iddia edirdi. Mütəvəkkil ona "Zeynəb çoxdan ölübdür, halbuki sən isə cavan bir qızsan" - dedi.

Həmin qadın belə dedi: "Doğrudur, amma Peyğəmbər əlini mənim başıma sürtdü və dua etdi ki, həmişə cavan qalım. Buna görə də mən qırx ildən bir dəfə yenidən cavanlaşıram".

Mütəvəkkil bütün böyük alimləri toplayıb onlardan bu "qadının iddiası barədə nə deyirsiniz" - deyə soruşdu.

Onlar hamısı "yalan deyir" - dedilər. Mütəvəkkil "yalan dediyini bilirəm. Lakin onu məhkum etmək üçün dəliliniz nədir?" - dedi. Onlar isə belə dedilər: "Biz bilmirik, bu məsələni imam Hadi (ə) həll etməlidir".

Mütəvəkkil dərhal imamı çağırtdırıb əhvalatı olduğu kimi ona danışdı. Həzrət belə buyurdu: "Əgər doğru deyirsə, onu qəfəsdə saxladığınız şirlərin yanına aparın. Çünki yırtıcı heyvanlar Fatimənin övladlarına toxunmazlar və onların ətini yeməzlər". Mütəvəkkil həmin qadına "nə deyirsən?" - dedi. Qadın dedi: "Bu adam məni öldürtmək istəyir. Əgər düz deyirsə, özü bu işi görsün". Mütəvəkkil dedi: "Doğru deyir, özün əvvəlcə bu işi gör". İmam (ə) buyurdu: "Eybi yoxdur" və qəfəsdəki şirlərin yanına gedib onların arasında əyləşdi. Hamı heyrətlə gördü ki, şirlər imamın qarşısında ehtiramla oturublar və bəzən özlərini ona sürtürlər, Həzrət də mehribanlıqla şirlərin baş-qulağını oxşayır. Həzrət daha sonra şirlərə əmr etdi ki, qırağa çəkilib yol açsınlar. Şirlər də bir bucağa çəkildilər və Həzrət (ə) qəfəsdən çıxıb Mütəvəkkilin yanına gəlib belə buyurdu: "Ey qadın! İndi növbə sənindir". Həmin qadın ağlayıb yalvarmağa başladı və dedi: "Mən filankəsin qızıyam, bir kələk qurmaq istədim, lakin kələyim baş tutmadı".

# MÜTƏVƏKKİLİN MƏCLİSİNDƏ

Xalqın imam Hadiyə (ə) bəslədiyi məhəbbətdən narahat olan xudbin Abbasi xəlifəsi Mütəvəkkil həmişə imamı öldürməyi düşünürdü. Bir gün ona xəbər gətirdilər ki, imam (ə) qiyam etmək istəyir və bu məqsədlə də evində silah və pul gizlədibdir. Mütəvəkkil məmurlarına əmr etdi ki, gecəyarısı Həzrətin evinə basqın edib hər yeri axtarsınlar, tapdıqları pul və silahları isə imam ilə birlikdə onun hüzuruna gətirsinlər.

Mütəvəkkil sarayında kef məclisi qurmuşdu. Çalğıçılar çalır, müğənnilər isə oxuyurdular. O, səbirsizliklə imamı gətircəkləri anı gözləyirdi. Məmurlar nərdivanla imamın evinin damına çıxıb oradan

evə girdilər və imamı otaqların birində namaz qılan halda gördülər. Onlar otaqları nə qədər gəzsələr də bir az pul və bir qılıncdan başqa heç bir şey tapmadılar. Onları götürüb Həzrətin özü ilə birlikdə Mütəvəkkilin hüzuruna apardılar.

İmam (ə) məclisə girəndə Mütəvəkkil onu öz yanında oturtdu və bir şərab badəsini o Həzrətə vermək istədi. İmam (ə) belə buyurdu: "Allaha and olsun ki, əlimi ona vurmayacağam". Kefli olan Mütəvəkkilin gözü heç bir şeyi görmürdü, buna görə də imama "onda mənim üçün bir şer oxumalısan" - dedi. Həzrət (ə) buyurdu: "Mən ulu babam Əlidən (ə) yadigar qalan şerdən başqa heç bir şer bilmirəm". Mütəvəkkil "onu oxu" - dedi. İmam (ə) babası Əlinin (ə) hidayətedici və təsirli şerini oxuyub Mütəvəkkilin vücudunda tufan qopardı. Elə ki, Mütəvəkkil özünə gəldi, ağladı. Sonra da əmr etdi ki, imamı ehtiramla evinə qaytarsınlar. İmamın evindən gətirdikləri pulun üstünə bir miqdar da pul qoyub imam qaytardılar. İmamın oxuduğu şerin bir hissəsinin tərcüməsi belədir:

Onlar hündür zirvələri özləri üçün ev etdilər
və daima silahlı kişiləri keşikçi qoydular,
lakin heç biri ölümdən qaça bilmədi.
Nəhayət, təmtəraqlı saraylarından qəbir
çuxuruna çəkildilər və bədbəxtliklə ora girdilər.
Bu vaxt haqqın səsi ucaldı: Hara getdi
o ziynətlər, taclar, təntənə və calal?
Hara getdi başqalarının sərvəti ilə bəslənən və
onlara iftixar edən ərköyün simalar?
Qəbir onları rüsvay etdi və onların üzü
qurdların ziyafət meydanına çevrildi.
Onlar vaxtilə istədiklərini yeyib-içdilər,
lakin bu gün heyvanlara yem olublar.

İmamın səmavi ahənglə oxuduğu öyüd dolu şerləri Mütəvəkkilə elə təsir etmişdi ki, badəni yerə vurub sındırdıqdan sonra ağlamağa başlamışdı.

## İMAMIN (ə) ŞƏHADƏTİ

Abbasilərin rəhmsiz xəlifəsi Mütəvəkkildən sonra imam (ə) yenə də əzab-əziyyət içində yaşadı və nəhayət 40 yaşında ikən Mötəzin əli ilə şəhid olduqdan sonra Samirrada torpağa tapşırıldı.

## İMAMIN (ə) TƏLƏBƏLƏRİ

İmamın şiddətli nəzarət altında olmasına və xalqla əlaqəsinin kəsilməsinə baxmayaraq, elm çeşməsinin aşiqlərindən bir dəstə imamla gizli şəkildə əlaqə saxlayıb o çeşmədən bacardıqları qədər elm içirdilər. Həmin səhabələrdən bəziləri bunlardan ibarətdir:

1. Öz zəmanəsinin böyük alimlərindən sayılan və pəhrizkarlığı ilə şöhrət qazanan Əbdüləzim Həsəni. İmam Hadi (ə) dəfələrlə öz əshabına buyurmuşdu: "Bir məsələ ilə qarşılaşdığınız zaman, Əbdüləzimdən soruşun və mənim salamımı ona yetirin!". Bir dəfə Əbdüləzim öz etiqadlarını imama bəyan etdikdə imam (ə) buyurdu: "Allaha and olsun ki, bu, Allah-taalanın öz bəndələri üçün bəyəndiyi həqiqi etiqaddır".

İmamın nəslindən olan Əbdüləzim təqibə məruz qalıb Rey şəhərində gizləndi və elə orada da xəstələnib vəfat etdi. Onu ziyarət etdiyi Həzrət Həmzənin qəbrinin yanında dəfn etdilər.

2. Həzrət Rza (ə), Həzrət Cavad (ə) və Həzrət Hadinin (ə) əshabından olan və onların hamısından rəvayət nəql edən Həsən ibn Səid Əhvazi. O, əvvəlcə Kufədə yaşayırdı, sonra qardaşı ilə Əhvaza, oradan da Quma gəldi və Qumda da vəfat etdi. O, fiqh və islam əxlaqı mövzularında otuz cildə yaxın kitab yazmışdır. Onun dedikləri və rəvayətlərini alimlər qəbul edirdilər. Rəhmətlik Əllamə Məclisi onun məqamını yüksək qiymətləndirmişdir.

3. Bilikli fəqih və bacarıqlı bir natiq Fəzl ibn Şazan Nişaburi. Həmişə imamın dostları ilə oturub-durar və onlardan faydalanardı. Özü də imam Hadinin (ə) dəyərli əshabından sayılırdı. Onun yazdığı kitabların sayı təxminən yüz səksən cild olmşudu. O, imam Hadidən (ə) sonra imam Həsən Əskərinin əshabından oldu və bir gün imamın məclisinə daxil olduqda o Həzrət (ə) onu tərifləyib Xorasan əhalisinə tapşırdı ki, ondan və əsərlərindən istifadə etsinlər. Təqibə məruz qaldığına görə Beyhəqə gedib orada xəstələndi və imam Əskərinin (ə) zamanında vəfat etdi.

# ON ÜÇÜNCÜ MƏSUM
# İMAM HƏSƏN ƏSKƏRİ (ə)

## İMAMIN ŞƏXSİYYƏTİ

**Adı:** Həsən
**Ləqəbi:** Əskəri
**Kunyəsi:** Əbu Muhəmməd
**Atası:** Həzrət imam Əliyyən Nəqi (ə)
**Təvəllüdü:** Hicri 232-ci il
**İmamlıq müddəti:** 7 il
**Ömrü:** 28 il
**Şəhadəti:** 260-cı Hicri-qəməri ilində Abbasi xəlifəsi Mötəmid tərəfindən şəhid edilmişdir.
**Məzarı:** İraq, Samirra şəhəri.

## TƏVƏLLÜDÜ

İmamət səmasının on birinci parlaq ulduzu Mədinə şəhərində doğuldu və Samirra şəhərində batdı. O Həzrətin adı Həsən, Kunyəsi Əbu Muhəmməd, tanınmış ləqəbləri isə Zəki və Əskəri idi. Atası Həzrət Hadi (ə), anasının adı isə Susən idi. Həzrət 22 yaşında ikən atası şəhid oldu. Atasının şəhadətindən sonra onun imamlıq müddəti 7 il, mübarək ömrü isə 28 il çəkdi. O Həzrət (ə) 260-cı hicri ilində Abbasi xəlifəsi Mötəmid tərəfindən şəhid olunaraq Samirra şəhərində dəfn olundu. Onun yeganə övladı həmin vəd olunmuş Həzrət imam Mehdidir (ə.f) ki, zühur edərək dünyanı ədalətlə dolduracaqdır.

İmam Həsən Əskərinin (ə) zamanında Həzrətin özü şiddətli nəzarət altında olduğuna görə islam öz nüfuzunu əldən vermişdi. Hakimiyyətdə olanlar, xüsusilə də Mütəvəkkil, hər hansı yolla olursa-olsun camaatı imamdan uzaqlaşdırmağa çalışırdı. Çünki hal-hazırda qeyb olub, gələcəkdə isə İslam ümmətinin rəhbərliyini öhdəsinə alaraq vahid dünya hökumətini quracaq on ikinci imam, imam Həsən Əskərinin (ə) oğlu olacaqdı. Elə buna görə də imamı nəzarət altında saxlayırdılar. Lakin Allah-taala, Musanı Fironun sarayında saxladığı kimi, islam ümmətinin gələcək rəhbərini də gözlərdən uzaq və gizlincə dünyaya gətirdi.

## İMAMIN (ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

İmam Həsən Əskəri (ə) çox vüqarlı və əzəmətli bir insan idi. O, öz zamanında Quranın misilsiz müfəssiri sayılırdı. Yüz nəfərdən çox məşhur alim o Həzrətin məclisində iştirak edirdi. İraqda qaldığı 16 il ərzində Şamdan Mədinəyə qədər olan ərazi o Həzrətin nüfuz dairəsində idi. İmamın elmi və mənəvi nüfuzu o qədər böyük idi ki, Abbasi xəlifəsi Mötəzin sarayında yaşayıb elə orada da işləyən alimlər belə ona heyran qalıb tabe olmuşdular.

İmam (ə) İrana etdiyi səfər zamanı Qum və Rey şəhərlərindən keçərək Ləvasana gəldi. Əhli-beyt (ə) məktəbinin tərəfdarları onu sevinclə qarşıladılar. Həzrət (ə) Ləvasanda camaatla görüşüb onlara bir məscid tikərək onu öz mərkəzlərinə çevirmələrini tapşırdı. İmamın bu əmri xalqın həyatında o qədər təsiredici və mühüm rol oynadı ki, deyilənə görə hətta bir gündə 70 məscid tikməyə başlamışdılar.

Peyğəmbər (s) xanədanının düşmənlərindən olan və Abbasi aparatında çalışan Əhməd ibn Xaqan adlı bir şəxs belə demişdir: “Mən Samirrada Bəni Haşim xanədanından nəciblik, böyüklük və fəzilət baxımından imam Həsən Əskəridən (ə) başqasını görməmişəm. Əgər xəlifəlik Abbasilərin əlindən çıxsa, heç kim imam Həsən Əskəridən (ə) başqa xəlifə olmağa layiq deyildir. Daha sonra demişdir: “Bir gün atamın yanında idim. Onun Peyğəmbər (s) xanədanının düşmənlərindən olmasına baxmayaraq, həmişə Həsən Əskəri (ə) onun yanına gəldikdə yerindən qalxıb onun əlindən öpər, öz yerini ona verər və imamı müəllimin qarşısında duran bir şagird kimi dinləyərdi”.

Əbu Yüsif imamın səxavət və əliaçıqlığı barədə belə deyir: “Mən çətin bir vəziyyətdə idim, belə ki, uşaqlarıma çörək pulu qazana bilmirdim. Hamımız ac və narahat idik. Dəfələrlə Abbasilərin sarayına getmişdim ki, orada olan qohumlarımızdan köməklik alım. Lakin onlar o qədər məğrur idilər ki, sözümə qulaq asmırdılar. Bir gün imam Həsən Əskərinin (ə) hüzuruna gedib vəziyyətimi onun üçün danışdım.

Həzrət 400 dinardan ibarət pulunun hamısını mənə verib belə buyurdu: “Get, ailəni ağır vəziyyətdən qurtar!”

Bir dəfə Həzrət iki yüz min dinar Əli ibn Cəfər üçün göndərdi ki, yoxsul və möhtac əshabı arasında paylasın.

Həzrət (ə) altı il davam edən imamlıq müddətində üç ilini zindanda keçirmişdi, lakin qarşılaşdığı çətinliklər və narahatçılıqlara baxmayaraq həmişə xalqla yaxşı rəftar edirdi. Ən çirkin və qəddar məmurları zindana keşikçi təyin etmişdilər ki, o Həzrətə əzab-əziyyət etsinlər. Lakin onlar imamın zöhd və ibadətinə heyran qalıb onunla yaxşı rəftar edirdilər. Bir gün zindan müdiri bu işlərinə görə onlara etiraz etdikdə belə cavab verdilər: “O, bir insandır - həmişə Allahına ibadət və dua ilə məşğul olan bir insan. Gündüzlər oruc tutur, gecələr də ibadət edir. Bizə nəzər saldıqda isə bədənimiz titrəyir. Bizdən belə bir şəxsiyyətə əziyyət etməyi necə tələb edirsiniz?”

Mütəvəkkilin vəziri Abdullah Xaqan çox qürurlu və etinasız bir adam olmasına baxmayaraq, imamı görəndə yerindən qalxar və əgər ata minmiş olsaydı, atdan düşərdi. O, imam (ə) haqqında belə deyib: “Həsən Əskəri gecələr dua və ibadətlə məşğul olan, gündüzlər isə oruc tutan bir insan idi. Ürəyi o qədər pak idi ki, hətta düşmənlərini dua etməyi belə unutmazdı. Yoxsul bir adamla qarşılaşdıqda bütün pulunu ona verərdi».

Bir dəfə xəlifənin əmri ilə imam Həsən Əskərini (ə) yırtıcı heyvanların yanına saldılar ki, heyvanlar onu parçalasınlar. Lakin yırtıcı heyvanlar o Həzrətin ətrafına yağışıb özlərini onun ayaqlarına sürtdülər. Bu səhnəni görən xəlifə onu azad buraxaraq Həzrətə hörmət etmək istədi”.

Samirrada bir monastır var idi ki, başçısı xristianların böyüklərindən sayılırdı. O, çox hörmətli bir adam idi. Həmin xristian bir gün imamın hüzuruna gələrək müsəlman oldu. Ondan müsəlman olmasının səbəbini soruşduqda isə belə cavab vermişdi: “Mən bu kişidə yalnız Həzrət İsada mövcud olan nişanələri görmüşəm”.

## İMAMIN (ə) ELMİ

İmamın elmi dalğalı və dərin bir dəniz kimi idi ki, elmə susamışları doyururdu. Xarəzminin dediyinə görə elm aşiqlərindən on səkkiz min nəfər o Həzrətin elmi məclislərindən istifadə edirdilər. Abbasi xəlifəsinin sarayına mənsub olan Muhəmməd ibn Məsud Şirazi imama beyət edən ilk saray alimi olub. Bu şöhrətli alim Mötəzin sarayında çalışırdı.

Mənbələrdə yazıldığına görə, o Həzrətin elmi o qədər çox idi ki, Əbu Nəsr Farabinin ustadı olan Kendi onunla mübahisə edə bilməyib, islamın ziddinə yazdığı kitabını odlamışdı.

Xristian alimlər imamın elminə, eləcə də dərin biliyinə o dərəcədə heyran olmuşdular ki, onu Məsih adlandırırdılar. İmam (ə) ayrı-ayrı ölkələrdən gələn və ona sual vermək istəyən şəxslərə onların öz dili ilə danışdığı zaman hamını heyrətdə qoymuşdu.

## RAHİBLƏRİN İFŞA OLUNMASI

İllərin birində Samirrada quraqlıq oldu. Bu zaman Abbasi xəlifəsi Mötəmid camaata əmr etmişdi ki, dua etmək üçün çölə getsinlər.

Camaat üç gün dalbadal çölə gedib namazı qılıb dua etdilər, lakin yağış yağmadı. Sabahısı gün xristianlar öz alimləri ilə birlikdə çölə gedib dua etdilər və yağış yağdı. Neçə gündən sonra yenə də gedib dua etdilər, yenə də yağış yağdı. Bu hadisə müsəlmanları həyəcanlandırmışdı və əksəriyyətin ürəyi xristianlara tərəf yönəlmişdi. Bu vəziyyətdə narahat olan Abbasi xəlifəsi Mötəmid bir nəfəri zindana göndərdi ki, imam Həsən Əskərini (ə) bu məsələni həll etmək üçün zindandan çıxartsın. İmam (ə) məsələni öyrənən kimi, belə buyurdu: “Onlardan istə ki, sabah da yağış yağdırmaq üçün çölə getsinlər”.

Sabahsı gün imam (ə) da izdihamla birlikdə çölə getdi. Bu dəfə də xristianlar əllərini qaldırıb Allahdan yağış istədilər. Çox keçmədi ki, göydə bir bulud görsənərək yağmağa başladı. İmam əmr etdi ki, əllərini qaldıran bir xristianın barmaqlarının arasındakı şeyi alıb gətirsinlər. Həmin adamın əlini tutub barmaqlarının arasına baxdıqda qara bir sümük gördülər. Sümüyü alıb imamın hüzuruna gətirdilər. Həzrət onu bir parçaya büküb xristian kişiyə “indi dua et ki, yağış yağsın” - dedi. Xristian kişi əlini göyə qaldıran kimi buludlar çəkilib getdi və günəş çıxdı. Camaatın hamısı heyrətləndi. Xəlifə bu işin sirrini imamdan soruşduqda imam (ə) belə buyurdu: “Bu sümük parçası Allahın peyğəmbərlərindən birinin sümüyüdür, onun qəbrindən götürüblər. Allahı bu sümüyə and verirlər. Allah da həmin sümüyün hörmətinə onların istəyini qəbul edib yağış yağdırır. Hər kəs bu sümüyü əlində saxlasa, yenə elə olar”. Xalqın qarşısında imtahan etdikdən sonra, imamın sözü düz çıxdı və hamı o Həzrətə afərin dedi.

## İMAMIN (ə) TƏRBİYƏ ÜSULU

İmam Sadiqin (ə) nəslindən olan Əbülhəsən Qumda yaşayır və çirkin əməllər sahibi kimi tanınırdı. Bir gün Əbülhəsən Qum şəhərində imam Həsən Əskərinin (ə) nümayəndəsi olan Əhməd ibn İshaq Əşərinin qapısına gələrək evə girmək üçün izn istədi. Lakin imamın nümayəndəsi onu gördüyü pis işinə görə qəbul etmədi.

Əbülhəsən kor-peşman evinə qayıtdı və ona edilən bu hörmətsizliyə görə çox narahat oldu.

Həmin ildə Əhməd ibn İshaq Əşəri Məkkəyə getdi, qayıdan baş imam Həsən Əskərinin (ə) qapısına gələn Əşərini imam da qəbul etmədi.

Çox yalvar-yaxardan sonra imamın hüzuruna gəlib bu işin səbəbini soruşdu. Həzrət (ə) belə buyurdu: “Səninlə bizim əmioğlumuzla rəftar etdiyin kimi rəftar etdim”.

Əşəri dedi: - Ey Peyğəmbərin övladı, mən onu tərbiyələndirmək və gördüyü pis işlərindən uzaqlaşdırmaq üçün bu işi gördüm.

Həzrət (ə) buyurdu: “Sənin gördüyün iş doğru deyildi. İslamda yolunu azmış insanlarla belə rəftar etməzlər, əksinə onları hidayət edib doğru yolu göstərərlər”.

Əşəri Quma qayıtdı və bu münasibətlə hamı onun görüşünə gəlmişdi. Onların arasında Əbülhəsən də var idi. Əşəri onu görən kimi yerindən qalxıb ona hörmət etdi və öz yerini ona verdi. Əbülhəsən onun bu işindən heyrətlənib dedi: - Bu işin keçmişdəki rəftarınla çox fərqlidir. Məni əhvalatdan xəbərdar et. Əşəri əhvalatı olduğu kimi ona danışdı. Əbülhəsən o qədər utanmışdı ki, evə qayıtdıqdan sonra pis işləri buraxıb təqvalı olmaq qərarına gəldi və ondan sonra zahid və pak kişilərdən oldu.

## İMAMIN (ə) QEYB ALƏMİ İLƏ ƏLAQƏSİ

Bir çox kitablarda imamın möcüzəli işlərindən çoxlu rəvayət nəql olunub. Biz burada həmin rəvayətlərdən bir neçəsini qeyd edirik:

1. Cəfər Cürcani deyir: “Həccə getmişdim və imam Həsən Əskərinin (ə) hüzuruna gəldim. Dostlarının verdiyi pullar mənim yanımda idi. İmamdan pulları kimə verəcəyimi soruşmaq istəyirdim ki, hüzurunda olmaq şərəfinə nail olandan sonra mən heç bir söz demədən Həzrət (ə) özü belə buyurdu: “Yanındakı pulları xidmətçim Mübarəkə ver!” Mən pulları ona təhvil verib imama “Cürcandakı dostlarınız sizə salam söylədilər” - dedim. İmam (ə) belə buyurdu: “Allah onları mükafatlandırsın. Sən Cürcana qayıtdıqdan sonra Allah sənə bir oğlan uşağı əta edəcək. Adını Şərif qoy. O, bizim dostlarımızdan olacaq. Allah-taala bizim dostlarımızdan olan İbrahimə də bir oğlan uşağı əta edəcək. Ona da de ki, oğlunun adını Əhməd qoysun. O da bizim dostlarımızdan olacaq!” Mən imamla xudahafizləşib getdim və sonralar elə imamın buyurduğu kimi oldu.

2. Sünnü alimlərindən Şəblənci, Əbu Haşimdən belə nəql etmişdir: “Mən imamın əshabından dörd nəfərlə birlikdə zindanda idim. Həzrət (ə) bizim yanımıza gəldi. Biz onun ətrafına yığışıb söhbət etməyə başladıq. Bizim aramızda özünü Əli (ə) övladından sanan bir kişi də var idi. Həzrət ona işarə etdi ki, bayıra çıxsın. O, gedəndən sonra imam (ə) belə buyurdu: “Bu kişi yalan deyir. O, bizdən deyildir. O, xəlifənin casusudur və sizin haqqınızda məlumat hazırlayaraq paltarında gizlətmişdir ki, xəlifəyə çatdırsın”. Biz onu gətirib paltarını axtardıq və imamın buyurduğu kimi bizim haqqımızda yazılmış məlumatı ondan tapdıq ki, əgər xəlifənin əlinə yetişsəydi, bizim hamımızı öldürərdi. Biz həmin kağızı məhv etdik və o gündən etibarən həmişə ehtiyatla hərəkət etməyi qərara aldıq”.

3. İbrahim adlı bir şəxs belə deyir: “Mənimlə qardaşıma xəbər verdilər ki, atamız uzaq bir yerə səfərə gedib, lakin ondan heç bir xəbər-ətər yoxdur. Qardaşımla birlikdə Mədinədən İraqa tərəf yola düşdük. Mən imam Həsən Əskərinin (ə) yanına gedib ondan kömək almaq istəyirdim. Çünki imamlıq elmi ilə atamı tapmaq üçün mənə kömək edə bilən yeganə şəxs yalnız o Həzrət idi. Uzaq yollardan gəlib o Həzrətin qapısına yetişdim. Bir müddət orada oturdum. Bir nəfərin Həzrətin evindən çıxmasını gözləyirdim ki, ona nə üçün oraya gəldiyimi deyim ki, o da imama xəbər versin. Düşüncəyə dalıb gələcəyimi düşünürdüm ki, elə bu zaman evin qapısı açıldı və Həzrətin xidmətçisi bayıra çıxdı və “Mədinədən imamı görmək üçün gələn İbrahim adlı müsafir sizin hansınızdır?” - deyə soruşdu.

Mən sevinə-sevinə yerimdən qalxıb “İbrahim mənəm” - dedim. O, mənə baxıb əlindəki kisəni mənə verdi və dedi: “İmam buyurdu ki, yol xərclərini ödəyəcək pul bu kisədədi. Bunu al, yoluna davam et. Çox keçməz ki, atanı taparsan”.

Mən təəccüblənərək kisəni aldım və öz-özümə dedim ki, mən hələ imamla görüşüb əhvalatı ona danışmamış, necə ola bilər ki, o Həzrət (ə) mənim məqsədimdən xəbərdar olsun. Xidmətçiyə “məni Həzrətin hüzuruna apar ki, atamın harada oludğunu mənə desin” - demək istəyirdim ki, birdən yadıma

düşdü ki, o, imamın "yoluna davam et" - deyə buyurduğunu mənə bildirmişdi. Başqa bir tərəfdən isə sirli bir qüvvə məni Təbəristana doğru çəkir və məhz ora səfər etməyə məcbur edirdi. Mən də Təbəristana tərəf yola düşdüm. Oraya yetişəndən sonra bir müddət o yan-bu yanı gəzdim və nəhayət atamla qarşılaşdım. Ona tərəf qaçıb onu qucaqladım. Atamı tapa bildiyim üçün çox sevinirdim. Mən bütün əhvalatı təfsilatı ilə atama danışdım və ikimiz də başa düşdük ki, imam bizim gizli sirlərimizdən xəbərdar imiş. Mənim heyrətim o vaxt artdı ki, imamın mənə verdiyi puldan təkcə bir dirhəmin qaldığını gördüm, bu da mənə istədiyim yerə çatmaq üçün kifayət idi.

4. İsmail adlı bir şəxs isə belə deyir: "İmam Həsən Əskərinin keçəcəyi yolun üstündə oturmuşdum ki, Həzrət oradan keçəndə ondan köməklik istəyim. Mən qabaqca 200 qızıl sikkə gizlətmişdim ki, gələcəkdə çətinliyə düşəndə xərcləyəm. Düşüncəyə dalmışdım ki, birdən imam Həsən Əskəri (ə) yanımdan keçdi. Ona tərəf qaçıb qabağını kəsdim və öz yoxsulluğum barədə danışıb and içdim ki, dünya malından heç nəyim yoxdur. Mənim and içməyim Həzrəti narahat etdi. Lakin xidmətçisinə "yanında nə qədər pulun varsa bu kişiyə ver!" - deyə buyurdu. Xidmətçi əlini cibinə salıb bir kisə qızıl çıxardıb mənə verdi. Sonra Həzrət (ə) mənə tərəf dönüb belə buyurdu: "Biz heç kimi öz köməyimizdən məhrum etmərik. Lakin sən yalandan and içdin və Allahı qəzəbləndirdin. Bundan sonra heç vaxt bu işi görmə və Allahın nemətini danma. Həmişə Allaha ümidvar olub sənə verdiyi nemətdən istifadə et. Sən 200 qızıl sikkəni bir yerdə gizlətmisən ki, dar gündə işinə yarasın. Lakin bunu bil ki, möhtac olduğun vaxt onu tapmaycaqsan!"

İsmail belə davam edir: "İmam (ə) bu sözləri ilə mənə necə yanıldığımı başa saldı və imamın buyurduğu kimi də oldu. Bir gün həmin sikkələrə ehtiyacım olduqda onları basdırdığım yerə getdim. Lakin oranı qazdıqdan sonra sikkələri yerində görmədim. Sonra aşkar oldu ki, oğlum məndən xəbərsiz sikkələrin hamısını götürüb qaçıb. Deməк, imamın buyurduğu kimi ehtiyacım olanda sikkələri tapa bilmədim. Ondan sonra belə qərara gəldim ki, Allah qarşısında pak və əməli-saleh olub pis işlərdən çəkinəm".

## İMAMIN (ə) ÖZ SƏHABƏLƏRİNDƏN BİRİNƏ YAZDIĞI MƏKTUB

Həzrət (ə) öz əshabına məktublar yazıb göndərirdi. Həmin məktublardan biri Əli ibn Babəveyh Qumiyə yazılmış məktubdur. Bu məktubun bəzi hissələrinin tərcüməsi belədir: "Allaha həmd və sənadan sonra, bizim əshabımızdansan deyə tövsiyə edirəm: pəhrizkar ol, camaatın səhvlərini bağışla, öz qəzəbinə hakim ol, qohumlarını-əqrəbana həmişə baş çək, yoxsulların ehtiyaclarını təmin et, dinini düzgün şəkildə qiymətləndir, Quranı öyrən, namaz və ibadətlərinə diqqətli ol. Mənim əmirlərimi yerinə yetirmək və şiələrimi onları həyata keçirməyə vadar etmək sənin borcundur".

## İMAMIN (ə) ŞƏHADƏTİ

İmam (ə) dörd yaşında ikən atası ilə birlikdə Samirraya sürgün edilib xəlifənin əsgərlərinin bazasında nəzarət altında saxlanılmışdı. Buna görə də Əskəri ləqəbi ilə məşhur idi.

Atasının şəhadətindən sonra Abbasi xəlifəsi Mötəmidin əmri ilə həbs olundu. İmamın paklığı bütün məhbusları ona tərəf yönəltmişdi və hamı o Həzrətə bağlanmışdı. Xəlifənin məmurları hər gün imamın vəziyyəti barədə xəlifəyə məlumat verirdilər. Nəhayət o Həzrət (ə) 260-cı hicri ilinin Rəbiül-əvvəl ayının 8-də şəhid oldu və Samirrada atasınan yanında dəfn olundu.

Həzrətin şəhadətindən sonra azğın bir kişi olan və xəlifənin adamlarından sayılan qardaşı Cəfər Kəzzab meyidə namaz qılmaq istəyirdi. Lakin balaca uşaq olan imamın oğlu irəli gəlib əmisini dala itələdi və özü onun yerində dayanıb atasının meyidinə namaz qıldı. İmam Həsən Əskərinin (ə) oğlu olan on ikinci imamın qısa qeyblik dövrü elə bu vaxtdan başlandı və yalnız xüsusi şiələri onun hüzuruna gəlmək şərəfinə nail ola bilirdilər. Lakin Abbasi xəlifələrinin o Həzrətin gizləndiyi yeri tapmaq üçün cəhd etdiklərindən sonra onun uzun qeybət dövrü başlandı və o Həzrətin inqilab edəcəyi günə kimi gizli qalacaqdır.

# ON DÖRDÜNCÜ MƏSUM İMAM MEHDİ (ə.f)

İMAMIN ŞƏXSİYYƏTİ

| | |
|---|---|
| **Adı:** | Muhəmməd |
| **Ləqəbi:** | Hadi, Mehdi və Qaim |
| **Kunyəsi:** | Əbülqasim |
| **Atası:** | Həzrət imam Həsən Əskəri (ə) |
| **Anası:** | Nərcis Xatun |
| **Təvəllüdü:** | 256-cı Hicri ili |

## TƏVƏLLÜDÜ

On ikinci imamın (ə.f) pak vücudunun mübarək günəşi 255-ci hicri-qəməri ilinin Şəban ayının 15-də parlayaraq şiələrin ürəyini öz nuru ilə işıqlandırdı.

Abbasi xəlifələri və hökumət adamları imamların on iki olduğunu, eləcə də onların sonuncusu olan imam Həsən Əskərinin (ə) oğlunun uzun qeybəti olacağını və dünya hökumətini quracağını eşitmişdilər.

Bundan qorxuya düşən zalım hökmdarlar bu işin qarşısını almaq istəyirdilər, lakin bilmirdilər ki, Firon o qədər güc və iqtidarına, hətta körpə uşaqları belə vəhşicəsinə öldürməsinə baxmayaraq Allahın iradəsinin qarşısını ala bilmədi. O, Musanı tapmaq üçün bütün evləri bir-bir axtarırdı, lakin eyni zamanda axtardığı uşağı öz qucağında bəsləyirdi. Zəmanənin Fironu sayılan Abbasi xəlifəsi Mötəmid imamın evini nəzarət altında saxlayırdı və zəhərlənmiş xəstə imamı zindandan evinə göndərdikdə saray adamlarından beş nəfəri də ona qoşdu ki, imamın evində baş verən bütün hadisələri ona xəbər versinlər. Bundan əlavə, bir neçə mamaçanı da imamın evinə göndərdi ki, o Həzrətin həyat yoldaşının yanında dursunlar.

İmam Həsən Əskərinin (ə) şəhadətindən sonra bütün Samirra matəmə qərq oldu və hamı tətil edərək imamın evinə sarı axışırdılar. Xalq dəfn mərasimini yerinə yetirmək üçün cənazəni əlləri üstündə aparırdılar. Abbasi xəlifəsi cəmiyyətin axınından dəhşətə gələrək çalışırdı ki, bu cinayəti ört-basdır edib imamın öz əcəlilə öldüyünü bildirsin. Mötəmidin özü də dəfn mərasimində iştirak etmək üçün öz qardaşını ora göndərdi. Qardaşına bunu da tapşırmışdı ki, camaatdan imamı kimsənin öldürmədiyinə dair şahidlik etmələrini istəsin. Digər tərəfdən isə, imamın ölü namazını qılacaq və onun var-dövlətinə varis olacaq bir övladı olmadığını xalqa inandırmaqdan ötrü Həzrətin bütün var-dövlətini paylamağa başladı.

Lakin göstərdiyi bütün bu təşəbbüslərə baxmayaraq Allahın iradəsi artıq həyata keçmişdi. İmamın oğlu atasının şəhid olduğu zaman beş yaşında idi, məhz elə bu yaşında da imamlığa çatdı. Necə ki, İsa (ə) da hələ beşikdə ikən peyğəmbərliyə yetişmişdi.

O, hələ yaşının az olmasına baxmayaraq atasının cənazəsinə meyid namazı qılmaq istəyən və camaatın içində pis adam sayılan əmisi Cəfəri kənara itələyərək özü atasının namazını qıldı. Namazı qılandan sonra da gözlərdən qeyb oldu. İmam Həsən Əskərinin (ə) zamanından şiələr onu, atasının evində görmüş və atasının onun haqqında tapşırıqlarını eşitmişdilər. Bundan əlavə, atasının şəhadətindən sonra da müddətlərlə gizli şəkildə o Həzrətlə əlaqə saxlamışdılar.

## İMAM ZAMAN (ə.f.) NECƏ DÜNYAYA GƏLDİ

İmam Həsən Əskərinin (ə) bibisi Həkimə belə demişdir: “Şəban ayının on beşi, cümə axşamı günündə qardaşım oğlu imam Həsən Əskərinin (ə) evinə getmişdim. Xudahafizləşib qayıtmaq istəyirdim ki, imam belə buyurdu: “Ey əziz bibi, bu gecə bizim yanımızda qal. Çünki uşağımız dünyaya gələcək”. Mən sevinib Nərcisin yanına getdim, lakin onda boyluluqdan heç bir nişanə görmədim. Heyrətlənib öz-özümə “mən ki, uşağın dünyaya gəlməsindən heç bir əsər-əlamət görmürəm” - deyirdim ki, elə bu vaxt imam buyurdu: “Ey bibi, narahat olma. Nərcis Musanın anası kimidir. Uşaq da Musa kimidir! Gizlincə və əsər-əlamətsiz dünyaya gələcək. Uşaq sübh azanı deyiləndə dünyaya gələcəkdir. Nərcisin yanına get!”

Mən sevinib Nərcisin yanında qaldım və imamın dediyi kimi hələ sübh doğmamışdan qabaq

təvəllüdün nişanələri aşkar oldu və mənimlə onun arasında işıqdan bir maneə meydana gəldi, belə ki, mən daha Nərcisi görə bilmirdim. Mən qorxub otaqdan eşiyə çıxdım və imamın hüzuruna gedib vəziyyəti ona izah etdim. Həzrət gülümsəyərək buyurdu: "Bir azdan otağa qayıt, onu görəcəksən". Mən otağa qayıdıb təzə doğulmuş körpəni gördüm. O, səcdəyə gedib barmağını göyə qaldırmış və Allahın böyüklüyü və birliyinə şəhadət verərək ona sitayiş edirdi".

## ANASI NƏRCİSİN ƏHVALATI

Həzrət Hadinin (ə) xidmətçilərindən biri Büşr Ənsari bu haqda belə deyir:

"Bir gün Həzrət Hadi (ə) məni çağırıb belə buyurdu: "Yerinə yetirilməsi sənin üçün xeyirli olacaq bir iş öhdənə qoymaq istəyirəm". Daha sonra Həzrət (ə) bir məktubla içində 220 dinar olan bir kisəni mənə verib buyurdu: "Bunları alıb, Bağdadda Fərat çayının sahilində gözlə. Sübh açılanda ora bir gəmi gələcək. Gəmidə satmaq üçün gətirilmiş çoxlu kəniz vardır. Müştərilərin çoxu Bəni Abbasdan və bəzi başqa cavanlardan ibarət olacaq. Həmin gəmidə özünü müştərilərə göstərmək istəməyən bir qız vardır. Cavanlardan birisi qabağa gəlib qızın yiyəsinə "mən onu 200 dinara alıram" - deyəcək. Lakin həmin qız razı olmayacaqdır. Sonra onun yiyəsi "səni satmaqdan başqa çarəmiz yoxdur. Təslim olmalısan" - deyəcək. Lakin o "bir az döz, mənim müştərim indi gələcək" - deyəcək. Elə bu vaxt sən qabağa gedib məktubu ona ver və de: "Əgər xanım bu məktubun sahibinə meyl edirsə, onu alıram". O, məktubu oxuyandan sonra sevinəcək. Sonra sən onu yiyəsindən alıb gətirərsən".

Büşr belə davam edir: "İmamın buyurduqlarını yerinə yetirdim və onu yiyəsindən aldım. Yolda gələrkən özü haqqında maraqlı bir hekayə danışıb dedi: "Mən Rum padşahının qızıyam. Mənim babam Həzrət İsanın (ə) yaxın adamlarından olub. Atam məni öz qardaşı oğluna vermək istəyirdi. Bir gün sarayda təntənəli bir yığıncaq təşkil edib qardaşı oğlu ilə məni birlikdə taxtda oturtmuşdu. Xristianların böyükləri məni ona ərə vermək üçün yığışmışdılar. Birdən saray titrədi və hər şey bir-birinə dəydi, gözümün qabağında əmioğlum taxtdan yıxıldı. Yenə də bir dəfə yığıncaq təşkil etdilər, lakin yenə eyni hadisə baş verdi. Xristianların böyükləri bu işin nəhs olduğunu söyləyib saraydan çıxıb getdilər. O gecə mən narahat və ruhdan düşmüş bir halda yatmışdım. Yuxuda gördüm ki, nurani kişilər saraya gəliblər. Onlardan birini Həzrət İsa (ə), o birisinin də islam Peyğəmbəri (s) olduğunu söyləyirdilər. İslam Peyğəmbəri (s) Həzrət İsaya (ə) belə buyurdu: "Mən öz oğlum üçün sizin övladınıza elçiliyə gəlmişəm". İsa (ə) sevinib qəbul etdi. Mən bu yuxu barədə heç kəsə danışmadım. Bir gün xəstələndim və atam bütün həkimləri çağırdı, amma heç biri məni sağalda bilmədi. Mən atamdan yaxşılaşmağım üçün zindanda olan bütün müsəlmanları azat etməsini xahiş etdikdə isətiymi qəbul edib onları azad etdi və mənim halım bir az düzəldi. Həmin gecə nurani qadınları yuxuda gördüm. Onlardan birisi İsanın (ə) anası Məryəm (s.ə.), digərinin isə Fatimeyi Zəhra (s.ə.) olduğunu söyləyirdilər. Peyğəmbərin qızı irəli gəlib belə dedi: "Əgər sən mənim övladımın həyat yoldaşı olmaq istəyirsənsə, müsəlman olmalısan!"

Mən yuxuda ikən onun əlilə müsəlman oldum. Sonra o, məni özü ilə imam Həsən Əskərinin (ə) yanına gətirdi. Onun məhəbbəti ürəyimə düşdü və daha dözə bilmədim. Nəhayət bir gecə imam Həsən Əskərini (ə) yuxuda görüb ondan necə həyat yoldaşı ola biləcəyimi soruşdum. O, belə buyurdu: "Atan yaxın gələcəkdə bir ordu ilə müsəlmanlarla döyüşməyə gələcəkdir. Siz ordunun arxa hissəsində olacaqsınız. Müsəlmanlar qələbə çalıb sizi əsir götürərək satmaq üçün Bağdada gətirəcəklər. Gəmi Fəratın sahilində dayanacaq və səni satmaq üçün gəmidən çıxaracaqlar. Səni almaq üçün bir neçə müştəri gələcək, amma sən döz, atam tərəfindən bir məktubla səni alacaq bir şəxs gələcək".

Mən yuxudan ayıldıqda çox sevindim. Bir müddət keçdikdən sonra imamın buyurduğu kimi oldu. Ey Büşr, indiyə kimi heç kəs bu sirri bilmir və məni tanımırdı. Sənə danışdığım bu əhvalatı heç kimə demə və bu sirri gizli saxla!"

Büşr deyir: "O, yolda öz hekayəsini mənim üçün danışarkən mən tir-tir titrəyirdim. Məhz həmin andan etibarən ona çox hörmət bəsləməyə başladım və bir qulluqçu kimi daima yanında oldum. Sonra onu mövlam imam Hadinin (ə) hüzuruna apardım. Həzrət (ə) ondan "necə müsəlman oldun?" - deyə soruşduqda, belə cavab verdi: "Özünüzün daha yaxşı bildiyiniz bir şeyi məndən soruşursunuz". Sonra isə imam (ə) ona belə buyurdu: "Sənə muştuluq verirəm ki, dünyanı ədalətlə dolduracaq uşaq səndən dünyaya gələcək!" Sonra bacısı Həkiməyə xitabən belə buyurdu: "Bacı, gözlədiyin xanım budur. Onu apar və islam əhkamını ona öyrət!" Həkimə onu mehribanlıqla qucaqlayaraq hörmətlə öz yanına apardı.

## İMAMIN (ə.f) HƏYATININ DÖVRLƏRİ

İmamın həyatını üç dövrə bölmək mümkündür:

**a)** Təvəllüdündən atasının şəhadətinə qədər olan beş illik dövr. Bu qısa müddət ərzində əshabından və dünyanın hər tərəfindən alimlər və fəqihlər imam Həsən Əskərinin (ə) görüşünə gəldikdə bu balaca uşaqla da görüşərək ondan bəzi mövzular haqqında suallar soruşurdular. İmam Həsən Əskəri (ə) öz oğlunu onlara təqdim edərək onun barəsində əshabına müxtəlif tövsiyələr edirdi.

**b)** İmamın altı yaşından başlayaraq 74 yaşına qədər davam edən qeybəti-süğrası (yəni kiçik qeyb dövrü). Bu dövrdə hökumət adamları onu görməkdən məhrum idilər. Amma imamın əshabı və həqiqi şiələr onun yanına gedib istədikləri sualları ona verirdilər. Bu dövrdə imam (ə.f) ilə xalq arasında vasitəçi olan, eləcə də camaatın istək və məktublarını imama gətirib cavabını onlara aparan dörd nəfər bunlar idi:

**1. Osman ibn Səid;**
**2. Muhəmməd ibn Osman;**
**3. Hüseyn ibn Ruh;**
**4. Əli ibn Muhəmməd Səymuri.**

Onlar Həzrətin etibarlı əshablarından sayılırdılar və hər biri, o birisindən sonra, öz öhdəliyini yerinə yetirirdi.

**v)** Üçüncü dövr 329-cu Hicri-qəməri ilindən başlayaraq bu günə qədər davam edən qeybəti-kübra (yəni böyük qeybolma) dövrüdür. Bu dövrün nə qədər davam edəcəyini Allahdan başqa heç kim bilmir. Həzrət (ə.f.) bu dövrdə xalq arasında gizli və kimsənin onu tanımayacağı bir şəkildə hərəkət və rəftar edir. Onu görən olsa da tanıya bilməz. Yalnız o, gedəndən sonra Həzrətdə gördükləri əlamətlərdən onun imam (ə.f.) olduğunu başa düşərlər.

## İNTİZAR

İmamın özünü xalqa tanıtmadığı qeybəti-kübra dövründə islam məsələləri barədə dərin biliyə malik olan ləyaqətli fəqihlər xalqın və islam cəmiyyətinin məsələlərini həll edir, xalqın din və dünyasını nəzərə alaraq məsum imamın zühuru üçün zəmin yaradırlar. Bu dövrdə xalqın hamısı intizardadır, lakin bu o demək deyildir ki, imamın zühuruna imkan yaratmaq üçün çalışmayıb hərəkətsiz qalsınlar. Gözləyən insan ümidvar, hərəkətli, bilikli, mömin, imama etiqad bəsləyən və nəhayət imamın zühuru üçün zəmin hazırlayan bir insandır. Belə bir insan eynilə dağın zirvəsinə çıxmaq üçün çalışan və bu yolda zəruri olan hər bir şeyi qabaqcadan hazırlayan bir alpinistə bənzəyir. Dağın zirvəsinə çatmaq istəyən bir insan xəyallarla və əli-qolu bağlı oturmaqla hədəfinə yetişməz. Bu intizarın nəticəsində insan hərəkət, çalışmaq, güc, düşüncə və yeniliklər əldə edir. Əgər bu əhəmiyyətli prinsip cəmiyytdə mövcud olmasa, insanlar hərəkətsiz, ümidsiz olaraq parlaq bir gələcəyi gözləməzlər.

İslamda "intizar" əqidəsi din və məzhəbin ayrılmaz bir hissəsidir. Bu əqidə parlaq bir gələcəyin, ictimai ədalətin tam şəklidə həyata keçiriləcəyi müjdəsini verir. Bu məqsədə çatmaq üçün öz ardıcıllarını elə yetişdirir ki, qaranlıqlarla, zülmlə, dəccallarla, süfyanlarla döyüşüb öz daimi hərəkətlərilə vahid dünya hökumətini təsis etmək üçün zəmin yaratsınlar və nəhayət Allahın vəd etdiyi bu şəxs olan imam Mehdi (ə.f.) islamın bütün hədəflərini həyata keçirəcəkdir, inşaallah.

## İMAM ZAMANIN (ə.f.) MÖCÜZƏLƏRİ

İmamın möcüzələri çoxdur. Biz burada onlardan ikisini qısaca olaraq nəql edirik:

**1.** Şeyx Tusi, Abbasi xəlifəsi Mötəzidin məmurlarından olan Rəşiqdən bu hadisəni belə nəql etmişdir:

Rəşiq belə deyir: "Bir gün Abbasi xəlifəsi Mötəzid məni çağırıb "eşitdiyimə görə imam Həsən Əskərinin evində bir uşaq vardır" - dedi və məmurlarından iki nəfəri mənə qoşub belə əmr etdi: «Tezliklə Samirraya, imam Həsən Əskərinin (ə) evinə gedib həmin uşağı öldürün və başını mənə gətirin». Biz sürətlə gəlib imamın evinin qapısına çatdıq. Qapıda bir qul oturmuşdu. Ona əhəmiyyət verməyib evə girdik. Çox gözəl bir ev idi. Bir bucaqda bir pərdə asılmışdı. Pərdəni qaldırıb su ilə dolu bir böyük otaq gördük. Suyun üstündə bir xalça var idi, xalçanın üstündə də bir oğlan uşağı namaz qılırdı. Məmurlardan biri otağa girdi və dərhal suya batdı. Biz onu çətinliklə qurtardıq, amma özündən gedib bihuş oldu. O biri məmur da otağa girən kimi suya batdı. Onu da çıxartdıq və bihuş oldu. Bir müddətdən sonra ikisi də huşa gəldi. Qorxudan titrəyərək atlarımıza minib xəlifənin sarayına doğru

hərəkət etdik. Gecə yarısı oraya çatdıq. Xəlifə yatmayıb bizi gözləyirdi. Əhvalatı olduğu kimi onun üçün danışdıq. O da bizim kimi qorxudan titrəyib “heç kim bundan xəbərdar olmasın və bu sirri heç kimə deməyin, yoxsa sizi öldürərəm” - dedi. Abbasi xəlifəsi Mötəzid nə qədər ki, sağ idi, bu macəranı bir kəsə danışmamışdım.

**2.** Əli ibn Sinanın qeyd etdiyinə görə, Qum əhalisindən bir dəstə imam Həsən Əskərinin (ə) xidmətinə yetişmək üçün bir miqdar pul ilə birlikdə Samirraya doğru yola düşmüşdülər. Ora yetişəndə Həzrətin şəhid olduğunu eşitdilər. Nə edəcəklərini bilmirdilər. Nəhayət onları imam Həsən Əskərinin qardaşı Cəfərlə tanış etdilər. Onlar Samirraya gəlməklərinin səbəbini Cəfər üçün danışdılar. Cəfər də onlara “pulu mənə verin, onun xəlifəsi mənəm” - dedi. Amma onlar “imamın yanımızdakı pulların miqdarını və hər bir kisənin kimin olduğunu bilməsi lazımdır. Əvvəllər də biz belə edərdik” - dedilər. Cəfər hirslənib belə dedi: “Qardaşım da bunları bilmirdi. Siz yalan deyirsiniz. Bu qeybi bir məsələdir. Allahdan başqa heç kim qeybdən xəbər verə bilməz”. Amma onlar sözlərindən dönmədilər. Nəhayət Cəfər onlardan xəlifəyə şikayət etdi. Xəlifə də onlara əmr etdi ki, pulu Cəfərə versinlər. Amma onlar “bu pul bizim yanımızda əmanətdir. İmamın xəlifəsi varsa, pulu ona verməliyik, yoxsa sahiblərinə qaytarmaqdan başqa heç bir çarəmiz yoxdur” - dedilər. Xəlifə onların sözünü təsdiq edib onları sərbəst buraxdı.

Onlar Quma qayıtmaq istədikləri vaxt bir cavan oğlan onlara yaxınlaşıb “imam sizi çağırır” - dedi. Hamısı sevinib onunla birlikdə imam Həsən Əskərinin (ə) evinə getdilər. Orada üzündə imamlıq nişanəsi aşkar olan gənc imamı gördülər.

Onlar Cəfərə dedikləri sözü Həzrət imam Zamana da söylədikdə, Həzrət (ə.f) gülərək onlara belə buyurdu: “Oturun, sizə bu kisələrin sahiblərinin kimlər olduğunu söyləyim!” Sonra pul kisələrinin sahiblərini və içində nə qədər pul olduğunu bir-bir bəyan etdi. Onlar axtardıqları şəxsi tapdıqlarına görə sevinib kisələri Həzrətə verdilər və məsələlərini soruşdular. Həzrət (ə) məsələlərinin hamısının cavabını verdi, sonra isə əmr etdi ki, bundan sonra oraya pul gətirməyib, Bağdadda təyin etdiyi vəkilinə aparsınlar. Sualları olduqda da həmin vəkilə müraciət edib onun vasitəsilə cavabları öyrənsinlər. Onlar imamla xudahafizləşib evdən çıxdılar və Allaha bu nemətinə görə şükr etdilər.

## İMAMLA (ə.f) GÖRÜŞƏNLƏR

Qeybəti-kübra dövründə imam Zaman (ə.f.) özünü kimsəyə göstərmədiyi və xalqın o Həzrətlə görüşməkdən məhrum olduğu bir halda, bir sıra aşiq və pakürəkli adamlar bəzən imamı görüb onunla danışıblar. O cümlədən:

**1.** Şəmsəddin ibn İsmail Herqeli atası haqqında belə demişdir:

“Atamın budunda bir yara izi var idi. Bir gün atam həmin yara barədə belə dedi: “Cavanlığımda budum yaralanmışdı və mənə çox əziyyət edirdi. Bir gün Hillə şəhərində dostum böyük alim Seyyid Rəziyəddin Tavusun yanına getdim. O, həkimləri çağırdı ki, budumun yarasını müalicə etsinlər. Onlar belə nəzər verdilər ki, əgər budum üzərində cərrahiyə əməliyyatı aparılsa, damarım kəsilər və ölərəm. Gələn il də Seyyid məni Bağdada apardı. Bağdadın həkimləri də Hillə həkimlərinin sözünü təkrar etdilər. Bir gün ümidsiz bir halda Samirraya imamları ziyarət etmək üçün getdim. Gecəni orada qaldım və imam Zamanı (ə.f.) köməyə çağırdım. Səhərçağı Dəclə çayının sahilinə gedib paltarımı yudum və qüsl etdim ki, yenidən ziyarətə qayıdım. Yolda dəvəyə minmiş iki nəfərlə qarşılaşdım. Onların çöldə yaşayan ərəblər olduğunu güman etdim. Onlar mənə salam verdilər. Onlardan biri mənə “yaxın gəl” - dedi. Mən paltarımı təmizlədiyim və çöl ərəblərini pak bilmədiyim üçün yaxın getmədim. Çünki paltarım hələ yaş idi və qorxudurm ki, onların əli paltarıma toxunduqda paltarım və bədənim yenidən murdar olsun. Elə bu fikirdə idim ki, birdən onlardan biri məni özünə tərəf çəkərək əlini budumun yarasının üstünə qoyub basdı və “ey İsmail, rahat oldun. Artıq ağrı çəkməyəcəksən!” - dedi. Mən təəccüblənib onun mənim adımı haradan bildiyini düşünürdüm ki, xudahafizləşib getdi. Mən öz-özümə “bəlkə imamımdır…” - deyə düşünüb dalınca getdim və yalvardım ki, dayansın. Birdən qayıdıb “ey İsmail, qayıt get!” - dedi. Mən qulaq asmadım və yenə də onun dalınca getdim. İmamla birlikdə olan kişi dedi: “Ey İsmail, imamın əmrinə tabe olmadığından utanmırsan?!” Bu vaxt mən yəqin etdim ki, o, bu ümmətin başçısı və imamıdır. Dayanıb ona baxdım və bir azdan sonra daha onları görmədim”.

Şəmsəddin belə deyir: “O gündən sonra atam ardıcıl olaraq hər il Samirraya gedirdi ki, bəlkə bir daha imamı görsün. Lakin daha imamı görmədi və onu görmək həsrətilə də dünyadan getdi”.

**2.** Seyid Muhəmməd Cəbəlamili dostlarından biri üçün etdiyi səfəri belə nəql etmişdir: “Məşhədə getmişdim. Kifayət qədər pulum olmadığından çox çətinliklə keçinirdim. Bir gün karvanın hərəkət etməyə hazırlaşdığını eşitdim. Mən qarnımı doyurmaq üçün bir tikə çörəyim də olmadığına görə hərəmə gedib ağladım. Sonra özümü karvana yetirmək qərarına gəldim. Çünki əgər qalsaydım, qışın

soyuğunda ölərdim. Ac-acına yola düşdüm və qup-quru qızmar bir biyabana çatdım. Susuzluqdan hərəkət etməyə qadir deyildim. Yemək üçün ot-ələf də tapılmırdı. Hava qaranlıqlaşandan sonra yırtıcı heyvanların nərəsi məni dəhşətə gətirmişdi. Mən ağlayıb ölümə təslim oldum. Çox keçməmişdi ki, ay çıxdı və heyvanlar susdular. Bu zaman bir yüksəklik görüb ona tərəf getdim. Orada bir bulaq gördüm. Çox sevindim, dəstəmaz alıb namaz qıldım. Aclıqdan daha hərəkət edə bilmirdim. Orada yatıb ölümə təslim oldum. Birdən mənə tərəf gələn bir atlını gördüm. Öz-özümə "oğrudur, amma heç bir şeyim olmadığına görə hirsindən məni öldürəcək" - deyə düşündüm. Lakin mənim yanıma çatanda salam verdi. Salamını aldım. Bildim ki, oğru deyildir. Sonra mənə "burada nə edirsən?" - dedi. Çətinliklə cavabını verdim: - Çox acam və yolumu azmışam.

Dedi: - Yanında neçə dənə qovun vardır, niyə acsan?

Mən hər yeri axtarıb heç bir şey tapa bilmədiyim üçün zarafat etdiyini sandım. Ona dedim: - Məni lağa qoyma. Burax elə burada ölüm.

Dedi: - Zarafat etmirəm. Arxana bax!

Arxama baxdıqda üç dənə qovun gördüm.

Dedi: - Onlardan birini ye, ikisini də saxla. Bu yoldan düz get, axşamüstü bir çadıra çatacaqsan. Onlar səni karvana yetirərlər. Sonra gözümdən qeyb oldu. Tez özümə gəlib başa düşdüm ki, imam Zaman (ə.f) imiş. Əmrə uyğun olaraq qovunlardan birini yedim, ikisini də götürüb yola düşdüm. Sabahsı gün nahar vaxtı qovunlardan birini də yedim və buyurduğu kimi axşamüstü bir çadıra çatdım. Onlar məni çadırın içinə aparıb doyunca yedirtdikdən sonra məni karvana yetirdilər.

## İNSAN BU QƏDƏR YAŞAYA BİLƏRMİ?

Fiziologiya elminə görə insanın bədəni milyonlarla hüceyrədən ibarətdir. Zaman keçdikcə qocalmış hüceyrələr ölür, nəticədə isə cavan hüceyrələr onların yerini tutur. Beləliklə həyat və yaşayış davam edir.

İnsanı qocaldan, hüceyrələrin fəaliyyətini dayandıran və insanı ölümə tərəf sövq etdirən şey, müxtəlif yollarla insanın bədəninə girən və hüceyrələrə hücum edərək onları məğlub edən mikroblardır.

Tibb elmi sübut etmişdir ki, öz cismi vəziyyətini, zərərli qida və maddələri öyrənən, eləcə də səhiyyə üsullarına riayət edən şəxsin ömrü daha uzun olar və tez qocalmaz.

Elə buna görə də alimlər müxtəlif təcrübələrlə müvəffəq olublar ki, bəzi heyvanların ömrünü bir neçə dəfə çoxaltsınlar. Beləliklə, insanlar da geniş bilik və səhiyyə qaydalarını həyata keçirib tətbiq etməklə uzun ömürlü ola bilərlər.

Alimlər bir elmi sirri öyrənmək üçün illər boyu çalışmalıdırlar. Lakin bütün elmlər Allah tərəfindən ona əta olunmuş imam Zamanın (ə.f.) bu uzun yolu getməyə ehtiyacı yoxdur və yüz illik yolu bir anda keçib nəticəyə çata bilər.

Buna görə də onun tərəfindən bu mövzuda heç bir problem yoxdur. Onun elmi Allah tərəfindən təmin olduğundan, yüz illərlə cavanlığını qoruyaraq yaşaya bilir.

Digər tərəfdən isə, imam Zamanın (ə.f.) ömrünün uzunluğu odun Həzrət İbrahimə (ə) soyumasından, Həzrət Musanın (ə) keçə bilməsi üçün Nilin yarılmasından, onun əsasının ilana çevrilməsindən və yüzlərlə bu kimi örnəkdən daha heyrətləndirici deyildir. Bu, Allah-taalanın qüdrətinin bariz nümunəsidir.

Bunlardan əlavə Quran və tarix keçmiş peyğəmbərlərin və camaatdan bəzilərinin uzun ömrünü açıq aydın bizə göstərməkdədir. Misal üçün Həzrət Nuh (ə) 950 il, Loğman (ə) 400 il, Buxtun-nəsr 1507 il, Süleyman (ə) 712 il və Hindistan padşahı Firuzray isə 537 il yaşamışdır.

Bütün bunlar onu göstərir ki, insanın uzun ömürlü ola bilməsi elm və biliyə zidd deyildir, əksinə həmişə mümkündür.

# ƏXLAQ

# İSLAMDA ELM VƏ ALİMİN FƏZİLƏTİ

İslam dini həyatın bütün sahələrində olduğu kimi, təlim və təhsil sahəsinə də xüsusi diqqət yetirmişdir. Peyğəmbərə (s) nazil olan ilk ayələrdə Allah-taala yaradılışın necəliyi haqda xəbər verdikdən sonra, bəşəriyyətə bəxş olunan ilk nemətin məhz elm olmasını buyurur.

**“[Ya Peyğəmbər! Qurani-kərimi bütün məxluqatı] yoxdan yaradan Rəbbinin adı ilə [Bismillah deyərək] oxu!**

**O, insanı laxtalanmış qandan yaratdı.**

**[Ya Peyğəmbər!] Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir!**

**O Rəbbin ki, qələmlə [yazmağı] öyrətdi.**

**O Rəbbin ki, insana bilmədiklərini öyrətdi”.**

Allah-taala elm sahiblərini başqalarından üstün tutur:

**“...Allah da sizdən iman gətirənlərin və [xüsusilə] elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın...”**

**“...Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir...”**

Hikmətə nail olmağın yollarından biri də elm və agahlıq əldə etməkdir.

**“...Elmdə qüvvətli olanlar isə: «Biz onlara iman gətirdik, onların hamısı Rəbbimiz tərəfindəndir», - dedilər...”**

**“Ondan əvvəl elmə çatmış kəslər yanlarında Quran oxunduğu zaman üzü üstə səcdəyə qapanarlar”.**

**“...Allahdan bəndələri içərisində ancaq alimlər qorxar...”**

# PEYĞƏMBƏRİN (s) KƏLAMLARINDA ELM VƏ ALİMİN DƏYƏRİ

«Allah-taala xeyir və səadətini istədiyi şəxsləri öz dinində idrak və düşüncə sahibi edər.

“Ümmətimin alimləri Bəni-İsrail peyğəmbərləri ilə bərabərdirlər”.

“Alimlər peyğəmbərlərin varisləridir”.

“Göylərdə və yerdə olanların hamısı alimlərin bağışlanmasını istəyər”.

“Alimlər insanları peyğəmbərlərin gətirdikləri şəriətlə hidayət etdikləri, mücahidlər isə peyğəmbərlərin gətirdiklərinin təlim olunmasının keşiyində durduqları üçün peyğəmbərlik məqamına ən yaxın olan kəslərdir”.

“Qiyamət günü alimlərin mürəkkəbi şəhidlərin qanı ilə ölçülər”.

“Həqiqətən yer üzünün alimləri göydəki ulduzlara bənzəyərlər. Onların gecənin qaranlığında dəniz və quruda saçdıqları işıqla insanlar öz yollarına davam edər, söndükdə isə yolu azmaq təhlükəsi ilə qarşılaşarlar”.

Allah-taala İbrahimə (ə) vəhy edərək buyurdu: “Ey İbrahim! Həqiqətən Mən Özüm aliməm, alimləri də sevirəm”.

“Bir alimin ölümü bir qəbilənin ölümündən daha ağırdır”.

“Alimlərin məqamı abid və pəhrizkarların məqamından yetmiş dəfə ucadır. Onlar arasındakı məsafə o qədər böyükdür ki, çapar atlar bu iki məqamın arasını yetmiş ilə qət edərlər. Alimlərin onlardan üstün olmaları bundan irəli gəlir ki, abidlər ibadətlə məşğul olduqları bir halda, şeytan bidətçilik məqsədilə onları haqq yoldan azdırmaq istərkən, yayılmaqda olan bidətin qarşısını məhz alimlər alarlar”.

## PEYĞƏMBƏRİN (s) KƏLAMLARINDA ŞAGİRD VƏ TƏLƏBƏLƏRƏ VERİLƏN QİYMƏT

“Elm öyrənmək hər bir müsəlmana vacibdir”.

“Elm Çində olsa belə öyrənin. Çünki elm öyrənmək hər bir müsəlmana vacibdir”.

“Allah-taala elm dalınca gedib onu əldə edən şəxslərə iki mükafat, elm dalınca gedib onu əldə edə bilməyənlərə isə bir mükafat bəxş edər”.

“Allahın cəhənnəm odundan nicat tapmış şəxsləri görmək istəyənlər tələbələrə nəzər salsın. And olsun canım əlində olan Allaha! Elə bir tələbə yoxdur ki, elm əldə etmək üçün alimlərin yanına gediş-gəliş etdikləri zaman atdıqları hər bir addımda bir illik ibadətin savabını qazanmamış olsun. Atdığı hər bir addımın müqabilində Cənnətdə onunçün bir ev tikilər. Üzərinə qədəm basdığı yer belə Allah-

taaladan onun bağışlanmasını istər. Gününü başa vurmaqla Allah-taala onun bütün günahlarını bağışlayıb əfv edər. Mələklər şəhadət verərlər ki, onlar Allahın cəhənnəm odundan nicat verən kəslərdir".

"Elmə yiyələnənlər sanki gündüzləri oruc tutub gecələrini ibadətlə keçirərlər. Elmdən nəyisə öyrənmək onun üçün Əbu Qubeys dağı boyda qızıl ehsan etməkdən daha xeyirlidir".

"Elm məqsədilə evindən çıxan şəxs qayıdanadək Allah yolunda olar".

"Nadanlar arasında olan tələbə, ölülər arasında olan diriyə bənzəyər».

"Elm öyrənərkən dünyasını dəyişən tələbə şəhadətə nail olmuş olar".

"İslamın dirçəlişinə səbəb olan, elmə yiyələnən şəxslərlə Cənnətdə peyğəmbərlər arasında yalnız bir dərəcə fasilə olar".

"Mələklər tələbələrin əldə etdiklərini elmə razılıq əlaməti olaraq öz qanadlarını onların ayaqları altına salarlar".

"Elm öyrənmək məqsədilə səfərə çıxan şəxsləri Allah-taala Cənnətin yollarından birinə hidayət edər".

Nəql olunmuş hədislərdən birində deyilir:

Bir gün Peyğəmbər (s) məscidə daxil olub orada bəzilərinin ibadət, bəzilərinin də elm öyrənməklə məşğul olduğunu görüb buyurur: "Onlar ibadət edib Allahı çağırır, bunlar isə elm öyrənməklə nadan və cahilləri həqiqətdən agah edirlər. Mən də Allah tərəfindən elm öyrədib həqiqəti agah etmək üçün göndərilmişəm".

Peyğəmbər (s) sözlərini bitirib elm öyrənənlərə tərəf gedir.

## VALİDEYNİN HÜQUQU

İslam dini ictimai bir dindir. Onun davamçıları Allaha xatir bir-birlərini sevir və səmimi dostluq əlaqələri qururlar.

Bu dərsdən etibarən valideyn-övlad, möminlər və saleh insanlar, qohum-əqrəba, ər-arvad, dost-tanış və qonşuların qarşılıqlı olaraq bir-birinin üzərində olan hüquqları haqda söhbət açacağıq.

## ATA-ANAYA YAXŞILIQ

Müqəddəs islam dinində bu məsələyə xüsusi diqqət yetirilir. Belə ki, Allaha ibadətdən sonra ata-anaya yaxşılıq hər bir insanın üzərinə düşən ən ümdə vəzifələrdən biri sayılır. İsra surəsinin 23-25-ci ayələrində bu haqda deyilir:

"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi [onlara yaxşı baxıb, gözəl davranmağı] buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında [yaşayıb] qocalığın ən düşgün çağına yetərsə, onlara: "uf!" - belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!»

Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: "Pərvərdigara! Onlar məni körpəliyimdən [nəvazişlə] tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" - de.

Rəbbiniz ürəklərinizdə olanları [qəlblərinizin sirlərini] ən yaxşı biləndir. Əgər əməlisaleh olsanız [ata-ananıza bilmədən etdiyiniz pislikdən peşman olub tövbə etsəniz və bundan sonra onlarla yaxşı davransanız, bilin ki] Rəbbiniz, həqiqətən, tövbəkarları bağışlayandır!"

Göründüyü kimi Allah-taala insanları ibadətə əmr etdikdən sonra dərhal onlara ata-anaya yaxşılıq etməyi tövsiyə edir. İmam Sadiq (ə) ayənin izahında buyurur:

"Yaxşılıq və xeyirxahlıq bundan ibarətdir ki, onlarla [valideynlərlə] xoş rəftar etmiş olasan.

Onlara o qədər diqqət yetirməlisən ki, ehtiyac duyduqları şeyləri onlar istəməzdən əvvəl dərk edib onların ixtiyarına qoymalısan".

Hədislərdən birində deyilir:

"Peyğəmbərdən (s) ata-ananın övladın üzərində hansı hüquqa malik olduğu haqda soruşduqda dedi:

"Onlar sənin həm cənnətin, həm də cəhənnəmindirlər".

Yəni, insanın cənnət və cəhənnəmə getməsi valideynlərinə göstərdikləri qayğıdan asılıdır.

Peyğəmbərdən (s) bu məzmunda nəql olunmuş başqa bir hədisdə deyilir:

"Cənnət anaların ayaqları altındadır". (Yəni, cənnətə analara layiqincə qayğı göstərməklə nail olun).

Başqa sözlə desək, övladlar öz üzərinə düşən borclarını yerinə yetirməli və layiqincə anaların haqlarını ödəməlidirlər.

Başqa bir hədisdə cənnətin valideynlərin ayaqları altında olduğu göstərilir. Yəni, insan cənnətə nail olmaq üçün ata-ananın qarşısında öz övladlıq borcunu layiqincə yerinə yetirməlidir.

İmam Səccaddan (ə) "Hüquq risaləsi" adı ilə nəql olunmuş məşhur bir hədisdə deyilir:

"Üzərinə düşən ən başlıca vəzifə ananın, sonra atanın, sonra da övladlarının haqqını ödəməkdir".

Hədisin davamında imam Səccad (ə) ananın haqqının ödənilməsinin əhəmiyyəti barədə buyurur:

"Ananın sənin üzərində olan haqqı hər şeydən böyükdür. O, kimsənin nəvaziş etməsi mümkün olmayan bir yerdə səni nəvaziş etmiş və kimsənin yemək verməsi mümkün olmayan bir yerdə öz canı və qanı ilə qidalandırmışdır. Bil ki, o, səni gözü, qulağı, əl-ayağı, dərisi və bir sözlə bütün varlığı ilə qorumuş, dünyaya gəldiyin vaxtadək ağrı və çətinliklərə dözüb, səbr və təmkinlə keşiyində durmuşdur. Özü ac olsa da səni doyurmuş, susuz olsa da sənə su vermiş, yarı çılpaq olsa da səni geyindirmiş, qızmar günəşin altında dursa da öz bədənini sənin üçün kölgə etmiş, gecələri yatmayıb sənin şirin yuxuya dalmağın üçün əzab-əziyyətlərə dözmüşdür. Unutma ki, ana bətni sənin ilk evin, qucağı ilk beşiyin, sinəsi qidan, bədəni isə sipərin olmuşdur. Ağrı və çətinlikləri uzaqlaşdırmaq üçün sənə görə istiyə-soyuğa dözməli olmuşdur. Elə isə onun qədrini bil və layiqincə haqqını ödə. Və yadında saxla ki, onun haqqını yalnız Allahın köməyi ilə ödəyə bilərsən".

Sonra imam Səccad (ə) övladın atanın qarşısında öz borcunu necə ödəməsi haqda buyurur:

"Bil ki, atan sənin kök və gövdən, sənsə onun budağısan; O olmasaydı, sən də olmazdın; Səndə olan bütün gözəl xüsusiyyətlərin kökü və mənşəyi atandır. Elə isə bütün bu nemətlərin qarşısında onun layiqincə qədrini bil və Allaha şükr və səna et".

## XOŞAGƏLMƏZ RƏFTARLARDAN ÇƏKİNMƏK

Allah-taala Maidə surəsinin 23-cü ayəsində insanlara ata-ana ilə gözəl rəftar etməyin vacib olmasını xatırlatdıqdan sonra onlarla kobud rəftar etməyi qəti qadağan edərək buyurur:

"...Uf! - belə demə, üstlərinə qışqırıb acı söz söyləmə..."

Diqqət yetirmək lazımdır ki, insanın hər hansı bir səhv və ya kobudluqla rastlaşarkən etiraz əlaməti olaraq dilə gətirdiyi ən sadə və münasib söz «uf!» kəlməsidir. Deməк Allah-taala bizlərə valideynlərə qarşı hətta belə bir kiçik kobudluğa yol verməməyimizi də qəti qadağan etmişdir.

İmam Sadiq (ə) bu haqda buyurur:

"Ən sadə kobudluq "uf!" deməkdir. Əgər bundan da sadə ifadə olsaydı, Allah-taala onu da qadağan edərdi". Əgər valideyinlərə "uf!" deməklə narazılıq bildirmək kobudluq sayılırsa, onda onları döymək, söymək və təhqir etməyin nə dərəcədə qəbahət və haram olması məlum məsələdir.

Məsum imamlardan (ə) nəql olunmuş bir çox hədislərdə valideynə qarşı kobudluq edənlərin ağır əzablarla cəzalandırılacaqları göstərilir.

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə ata-anaya qarşı pis rəftar etmək Allaha şərik qoşmaq, döyüş meydanını tərk etmək kimi böyük günahlardan biri sayılır.

"Qiyamət günü Allah dərgahında böyük günahlardan biri də Allaha şərik qoşmaq, günahsız mömin bir şəxsi öldürmək, fərarilik və valideynə qarşı pis rəftar etməkdir".

Başqa bir hədisdə deyilir:

"Allah tərəfindən (valideynlərlə pis rəftar edənlərə) belə bir xitab olunar: İstədiyin hər bir işi gör və bil ki, səni bağışlamayacağam!".

Yəni, valideynin üzünə qayıdanlar nə qədər xeyirxah işlər görsələr də belə, Allahın nəzərindən uzaq olarlar. Lakin unutmaq olmaz ki, bütün günahları tövbə etməklə aradan aparmaq mümkündür və bu günah nə qədər böyük olsa da insan peşman olaraq Allah-taaladan bağışlanmasını diləyə bilər.

Valideynlərə qarşı edilən kobud rəftarlar haqda iki mühüm mətləbə işarə etmək lazımdır:

**1.** Hədislərdə göstərilən valideynlərə qarşı kobud rəftarların nümunələri;

İmam Səccaddan (ə) nəql olunmuş hədisdə deyilir:

"Ata-anaya acıqla baxmaq və onlara qəzəblənmək valideynə qarşı kobudluq hesab olunur".

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir:

"Valideyni kədərləndirən şəxs onlara qarşı kobud rəftar etmiş olur".

İsra surəsinin 24-cü ayəsindən və bu məzmunda nəql olunmuş bir çox hədis və hədislərdən bu nəticəyə gəlmək olur ki, valideynə qarşı olunan hər hansı bir hörmətsizlik və kobud rəftar islam nöqteyi-nəzərindən haram və böyük günahlardan hesab olunur. Valideyn övladına qarşı haqsızlığa yol versə belə, övlad onlara qarşı kobudluğa yol verməməlidir.

İmam Sadiqdən (ə) nəql olunmuş hədisdə deyilir:

"Allah-taala valideynə - övladına qarşı haqsızlığa yol versə belə - acıqla baxan şəxslərin namazlarını qəbul etməz".

**2.** Kobud rəftar etməkdən çəkinmək və gözəl davranmağın vacibliyi təkcə mömin və müsəlman valideynlərə deyil, eləcə də qeyri-müsəlman və müşrik valideynlərə də aid olunur. Yəni, valideyn qeyri-müsəlman və müşrik olsa da belə, onlarla gözəl rəftar edilməli və heç bir kobudluğa yol verilməməlidir. Loğman surəsinin 14-15-ci ayələrində bu haqda buyurulur:

"Biz insana ata-anasına yaxşılıq etməyi [valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı] tövsiyə etdik. Anası onu [bətnində] çox zəif bir halda daşımışdı. Uşağın süddən kəsilməsi isə iki il ərzində olur. [Biz insana buyurduq]: Mənə və ata-anana şükr et. Axır dönüş Mənədir!

Əgər ata-anan bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, [bu işdə] onlara itaət etmə. [Qalan] dünya işlərində onlarla gözəl keçin [onlara itaət et]...»

Ayənin məzmunundan belə bir qənaətə gəlmək olur ki, valideyn qeyri-müsəlman, müşrik olsa və övladını Allaha şərik qoşmağa və ya Onu inkar etməyə vadar etsə də belə, onlarla gözəl davranılmalı və kobudluğa yol verilməməlidir.

Şübhəsiz ki, belə bir rəftar onlarda islama qarşı rəğbət hissinin yaranmasına, hətta onu qəbul etmələrinə də səbəb ola bilər.

Tarixdə baş vermiş hadisələrdən birində deyilir. İmam Sadiqin (ə) vasitəsi ilə islamı qəbul etmiş Zəkəriyya ibn İbrahim deyir: "İmam Sadiq (ə) məni islam dini ilə tanış etdikdən sonra bu ilahi dini rəğbətlə qarşılayıb [qəbul edib] ondan soruşdum: - Atam, anam və qohum-əqrəbalarımın hamısı məsihidirlər və anamın gözləri görmür. Mən onlarla birlikdə yaşayır, bir qabda yemək yeyirəm. Bunun bir nöqsanı vardırmı?

İmam Sadiq (ə) soruşdu:

- Onlar donuz əti yeyirlərmi?

Dedim, nəinki yemir, hətta ona əl də vurmurlar.

İmam Sadiq (ə) buyurdu:

- Elə isə bunun heç bir nöqsanı yoxdur. Ananın qayğısına qal, onunla gözəl rəftar et və dünyasını dəyişdikdə onun dəfnini öz üzərinə götür.

Zəkəriyya deyir: "Kufəyə imam Sadiqin (ə) yanına qayıdanadək onun tövsiyələrini yerinə yetirirdim. Anama yemək verir, paltarlarını yuyur və daim ona qulluq edirdim. Bir gün anam mənə dedi:

- Oğlum! Nə qədər ki, bizim dinimizdə idin, mənə nə belə qayğı göstərir, nə də belə qulluq edirdin?!

Dedim: - Bizə bu xeyirxah işi Peyğəmbərin (s) övladlarından biri tövsiyə etmişdir.

Anam dedi: - O peyğəmbərdirmi?

Dedim: - Xeyir, lakin peyğəmbər övladıdır.

Dedi: - Yox, o peyğəmbərdir. Çünki, bu peyğəmbər tövsiyələrindəndir.

Dedim: - Yox, ana o peyğəmbər deyildir. Çünki, bizim peyğəmbərdən (Həzrət Məhəmməddən (s)) sonra yer üzünə heç bir peyğəmbər gəlməyəcəkdir və o peyğəmbər övladıdır.

Anam dedi: - Oğlum! Sənin qəbul etdiyin din, dinlərin ən yaxşısıdır. Məni bu dinlə tanış et.

İslam dini haqda ona bəzi məlumatlar verdim və o da dediklərimi qəbul edib müsəlman oldu. Ona namaz qılmağı öyrətdim. Günorta və axşam namazlarını qıldı və həmin gün vəziyyəti ağırlaşdı və dünyasını dəyişdi. Onu müsəlmanlarla birlikdə islam qayda-qanunları ilə dəfn etdik.

## MEHRİBANÇILIQ

İsra surəsinin 24-cü ayəsində valideynlərlə gözəl rəftar etmək və onlarla gülərüz və mehribanlıqla davranmaq tövsiyə olunur. İmam Sadiq (ə) ayənin izahında buyurur:

"Onlara gülər üzlə nəzər sal, səsini onların səsindən ucaltma, onlara əl qaldırma və yol gedərkən onlardan irəli keçmə".

O Həzrət həmin ayənin "Pərvərdigara! Onlar məni körpəliyimdən [nəvazişlə] tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" hissəsinə çatdıqda buyurdu:

"Səni döydükləri zaman (mehribanlıqla) söylə: Allah sizi bağışlasın!"

## QOHUM-ƏQRƏBA İLƏ GÖZƏL ÜNSİYYƏT

Hər bir müsəlmanın üzərinə düşən digər ictimai vəzifələrdən biri də ona yaxın olan qohum-əqrəba ilə sıx ünsiyyətdə olması və onlarla gözəl rəftar etməsidir. O, vaxtaşırı öz müsəlman qardaşının görüşünə getməli və onların vəziyyəti ilə yaxından maraqlanmalıdır. Qarşılaşdıqları çətinliklərdə onlara yardım etməli, qəm-qüssələrində şərik olmalıdır ki, onlar özlərini tək hiss etməyib təsəlli tapa bilsinlər. Eyni zamanda onların həm sevinc, həm də kədərlərinə şərik olmalıdır ki, aralarındakı dostluq və

qardaşlıq əlaqələri daha da güclənsin. Səhvə yol verdikləri zaman bir müsəlman kimi onlara tövsiyə etməli, günahdan çəkinməkdə köməklik göstərməlidir.

Çətinliklərlə qarşılaşdığımız və hər hansı bir səhvə yol verdiyimiz zaman yaxın qohum-əqrəbalarımızın bizə köməklik göstərməsini və problemlərimizin həllində yardımçı olmalarını istədiyimiz kimi, təbii ki, belə bir rəftarı onlar da bizdən gözləyirlər.

Deməli, yaxın qohum-əqrəba ilə sıx ünsiyyətdə olmaq ilk növbədə buna riayət edən şəxslər üçün faydalıdır.

Əli (ə) bu haqda buyurur:

"Ey camaat! Bu bir həqiqətdir ki, var-dövlət sahibi olsanız da qohum-əqrəbanızdan və onların himayəsindən ehtiyacsız deyilsiniz. Hər bir şəxsin qohum-əqrəbası və ailə üzvüləri ona ən böyük arxa və yardımçıdırlar. Qarşılaşdığı çətinliklərdə hamıdan çox onlar maraqlanar, çətinliklərin aradan qaldırılmasında çalışarlar".

"Agah olun ki, maddi vəziyyətiniz imkan verdiyi təqdirdə qohum-əqrəbalarınız çətinliklərlə üzləşərkən onlardan üz döndərib tək qoymamalısınız. Var-dövlətiniz onlardan gizlətməklə artmayacaqdır və əgər onların yolunda sərf edərsinizsə, yenə də azalmayacaqdır. Bilin ki, əgər qohum-əqrəba ilə əlaqəni kəsərsinizsə, onları edəcəyiniz yardımdan, özünüzü isə hər şeydən məhrum etmiş olursunuz. Onlarla gözəl davranıb mehribançılıqla rəftar etdikdə isə, qohumluq əlaqələrini daha da möhkəmlətmiş olursunuz".

Nəql olunmuş bir çox hədislərdə "qohum-əqrəba ilə gözəl ünsiyyətdə olmaq" hətta dinin bir hissəsi kimi qiymətləndirilmiş, ömrün uzanmasına və insanın cənnətlə mükafatlandırılmasına səbəb olduğu göstərilmişdir.

Misal olaraq Peyğəmbərdən (s) və məsum imamlardan (ə) nəql olunmuş bir neçə hədisə işarə edirik:

"Məni görüb-eşidənlərə, burada olmayanlara, hələ ata belində və ana bətnində olan ümmətimin gələcək nəslinə tövsiyə edirəm ki, qohum-əqrəba ilə aralarındakı fasilə bir illik məsafə olsa belə, sıx ünsiyyətdə olsunlar. Çünki bu, dinin bir hissəsidir".

İmam Əli ibn Hüseyn (ə) Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir:

"Allah hər kimin ömrünü uzadıb ruzisini bol edərsə, sevinər və daim şad olar. Onlar da qohum-əqrəba ilə gözəl rəftar edər və onlarla sıx ünsiyyətdə olarlar. Həqiqətən "Sileyi-rəhim" [qohum-əqrəba ilə sıx ünsiyyətdə olmaq] dil açaraq Allah-taalaya deyər: "İlahi! Öz qohum-əqrəbası ilə gözəl əlaqədə olanlara qarşı rəhimli və mərhəmətli ol. Onlarla əlaqəsini kəsənlərlə əlaqəni kəs və rəhmət dərgahından uzaq et".

Başqa bir hədisdə imam Rza (ə) Peyğəmbərdən (s) nəql edərək deyir:

"Hər kim mənə bir şeyə zəmanət verərsə, mən onun üçün dörd şeyə zamin olaram: Qohum-əqrəba ilə gözəl rəftar edənləri Allahın sevməsinə, ruzisinin artmasına, ömrünün uzanmasına və Allahın vədə verdiyi cənnətə daxil etməsinə"

İmam Məhəmməd Baqirdən (ə) nəql olunmuş hədisdə deyilir:

"Qohum-əqrəba ilə gözəl əlaqədə olmaq insanın əməllərini saflaşdırır, var-dövlətini çoxaldır, çətinliklərini həll edir və əcəlini təxirə salır".

Məlum oldu ki, qohum-əqrəba ilə gözəl rəftar etmək, onlarla sıx münasibət saxlamaq, qəm-qüssələrinə şərik olmaq, qarşılaşdıqları çətinliklərdə onlara köməklik etmək hər bir müsəlmanın üzərinə düşən ən başlıca vəzifələrdən biridir.

Bəzən kimlərsə yolun uzaqlığını, işin çoxluğunu və bu kimi digər bəhanələri əllərində əsas tutaraq qohumluq əlaqələrinin bərqərar olunmasını qeyri-mümkün hesab edir və beləliklə özlərini üzürlü sanmağa çalışırlar. Bəzən də qohum-əqrəbanın soyuq münasibətlərini dəlil gətirərək üzərlərinə düşən bu dini vəzifədən boyun qaçırmaq istəyirlər. Lakin, bütün bunlar əvvəlcədən Həzrət Peyğəmbər (s) və imamların (ə) diqqətindən yayınmamış, bu barədə öz davamçılarına zaman və məkanı nəzərə alaraq dəyərli tövsiyələr etmişlər. Həzrət Peyğəmbərin (s) tövsiyələrinin birində buyurulur:

"Bir il yol getməli olsan da belə, öz qohum-əqrəbana baş çək!".

Yəni, əgər qohum-əqrəbaya baş çəkmək bir il vaxt aparsa da belə, bunu yerinə yetirmək lazımdır. İmam Sadiqdən (ə) nəql olunmuş başqa bir hədisdə deyilir:

Bir şəxs Peyğəmbərin (s) yanına gəlib deyir: Ya Rəsuləllah! Qohum-əqrəbam mənə yaxşı münasibət bəsləmədikləri üçün mən də onlardan uzaq olmağa çalışıram.

Peyğəmbər (s) buyurdu:

- Belə etsəniz, Allah sizin hamınızı özündən uzaq edər.

Həmin şəxs soruşdu: - Bəs nə etməliyəm?

Peyğəmbər (s) buyurdu:

- Səni özündən uzaq edənləri bağışlamağı (güzəştə getməyi) bacar, səninlə əlaqəni kəsənlərlə əlaqə yarat və sıx ünsiyyətdə ol. Sənə qarşı haqsızlıq və zülm edənləri əfv et və bil ki, hər şeyə qadir olan Allah onlarla münasibətdə sənə arxa olacaqdır.

Həzrət imam Əli (ə) bu barədə buyurur:

"Qohum-əqrəbanız sizinlə əlaqəni kəssə də belə, onlarla sıx münasibətdə olun".

İmam Sadiqdən (ə) nəql olunmuş hədisdə deyilir:

"Qohum-əqrəba ilə yaxın ünsiyyətdə olmaq və onlara xeyirxahlıq etmək günahları azaldır və qiyamət gününün sorğu-suallarını asanlaşdırır".

Həzrət Peyğəmbər (s) bu haqda buyurur:

"Salam verməklə olsa da belə, qohum-əqrəba ilə əlaqə saxlayın".

Başqa bir hədisdə deyilir:

"Bir içimlik su qədər də olsa da belə, (yəni müddəti olduqca az olsa belə) qohum-əqrəbanızla yaxşı ünsiyyətdə olun. Qohumluq əlaqələrinin güclənməsinə səbəb olan ən başlıca amil onlarla gözəl rəftar etmək, pislik və kobudluqdan çəkinməkdir".

# QOHUMLUQ ƏLAQƏLƏRİNİN KƏSİLMƏSİ

Artıq məlum oldu ki, qohum-əqrəba ilə gözəl münasibətdə olmaq, onların dərd-qəminə şərik çıxmaq, qarşılaşdıqları çətinliklərdə onlara köməklik etmək hər bir müsəlmanın üzərinə düşən ən başlıca vəzifələrdəndir.

Həzrət Peyğəmbər (s) və məsum imamlardan (ə) bu məzmunda bir çox hədislər nəql olunmuş və onun əhəmiyyətinə xüsusi diqqət yetirilmişdir.

İndi isə baxaq görək qohumluq əlaqələrini kəsmək nə kimi nəticələr verir. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, bu məsələ Qurani-Kərimdə də öz əksini tapmış və qohumluq əlaqələrini kəsənlərə bağışlanmayacaqları haqda ciddi xəbərdarlıq edilmişdir. "Məhəmməd" surəsinin 22-ci ayəsində deyilir:

"Əgər [Məhəmməd əleyhissəlamdan] üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və [cahiliyyət dövründə olduğu kimi] qohumluq tellərini qırmaq gözlənilməzmi?!"

Başqa bir ayədə qohumluq münasibətlərini kəsənlər "fitnə-fəsad törədənlər" və "ziyana uğrayanlar" adlandırılır:

"O kəslər ki, Allahla [Ona iman gətirmək və itaət etmək barəsində] əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır [möminlərlə dostluğu, qohum-əqrəba ilə əlaqələri kəsir] və yer üzündə fitnə-fəsad törədirlər. Məhz beləleri [dünyada və axirətdə] ziyana uğrayanlardır!"

Bu məzmunda Həzrət Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir:

"Qohumluq əlaqələrini kəsənlərə Allahın rəhməti şamil olmayacaqdır".

İmam Baqirdən (ə) nəql olunmuş hədisdə deyilir:

"Peyğəmbərin (s) kitabında deyilirdi: Qohumluq əlaqələri kəsildiyi zaman var-dövlət fitnə-fəsad törədən şəxslərin əlinə düşər".

# QONŞULARIN HÜQUQU

Müqəddəs islam dinində tövsiyə olunan şeylərdən biri də qonşuların hüquqlarının qorunmasıdır. İmam Sadiqdən (ə) bu məzmunda nəql olunmuş hədisdə deyilir:

"Qonşularınızla gözəl rəftar edin. Çünki, bunu sizlərə Allah-taala əmr etmişdir

Hədisdə istinad olunan ilahi əmr Nisa surəsinin 36-cı ayəsinin məzmununu təşkil edir. Orada deyilir:

"Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya, qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın yoldaş və dostlara, [pulu qurtarıb yolda qalan] müsafirlərə, sahib olduğunuz qul və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah özünü bəyənənləri və lovğalıq edənləri sevməz!"

Həzrət Peyğəmbər (s) səhabələrə qonşuların hüquqlarına riayət etməyi tövsiyə edər və bunun nə ilə nəticələnəcəyi haqda buyurardı:

"Cəbrail qonşular barədə mənə o qədər tövsiyə edərdi ki, qonşunun qonşudan irs aparmalı olduğunu güman edərdim".

Həzrət imam Əlidən (ə) nəql olunmuş başqa bir hədisdə deyilir:

"Qonşularınızın hüququna riayət etdikdə Allahı nəzərə alın (yəni hər zaman Allahı xatırlayın və Onun buyuruqlarına tabe olun). Çünki, bunu sizlərə Peyğəmbəriniz tövsiyə etmişdir. Peyğəmbər (s) bu məsələyə o qədər diqqət yetirərdi ki, belə güman edərdik qonşularımız bizdən irs aparırlar".

Burada Həzrət Peyğəmbərin (s) qonşuların hüququna riayət etməyə dair etdiyi tövsiyələrin bir neçəsini gətirdik.

"Mömin olmaq istəyirsinizsə, qonşularınızla gözəl davranın".

"İnsan anasına hörmət etdiyi kimi qonşusuna da hörmət etməlidir".

Həzrət Peyğəmbərdən (s) soruşurlar:

- Ey Allahın peyğəmbəri! Zəkatdan başqa insanın var-dövlətinə düşəcək digər ödənişlər də varmı?

Həzrət (s) buyurdu: "Bəli, qohum-əqrəbaya və qonşulara yaxşılıq etmək. Qonşusu ac oludğu bir halda tox qarına yatan şəxs mənə iman gətirməmişdir".

Peyğəmbər (s), qonşuların bir-birlərinin üzərində olan hüquqlarını belə izah edir:

- Qonşularınızın sizin üzərinizdə nə kimi hüquqlara malik olduqlarını bilirsinizmi?

Dedilər: - Xeyr.

Həzrət (s) buyurdu:

"Əgər onlar sizdən kömək istəyirlərsə, yardım etməli, borc istədikdə [imkan daxilində] verməli, bir şeyə ehtiyac duyduqda ehtiyaclarını təmin etməli, uğur qazandığı zaman onu təbrik edib sevincinə şərik olmalı, xəstələnərsə, görüşünə getməli, əzizlərindən birini itirdiyi zaman başsağlığı verməli, dünyasını dəyişdiyi zaman dəfn mərasimində iştirak etməli, ev tikdiyin zaman icazəsi olmadan onun evinə külək və günəşin düşməsinin qabağını kəsməməli və meyvə aldığın zaman ona da verməlisən. Əgər bunu etməzsinizsə, heç olmasa uşaqlarınız əlində meyvə küçəyə çıxmasın. Çünki, yoxsul qonşunuzun uşağının meyvəyə tamahı düşə bilər. Ləziz yeməklər bişirdiyin zaman onlara da bir pay verin və yeməyin iyi ilə onları buna həsrət qoymayın".

İmam Səccad (ə) "Hüquq risaləsi"ndə qonşunun hüquqları haqda buyurur:

"Qonşun səfərdə olduğu zaman (və ya evdə olmadığı müddət ərzində) onu əvəz etməli, gəldiyi zaman gülər üzlə qarşılamalı və ona öz səmimiyyətinizi bildirməlisiniz. Hər hansı bir çətinliklə qarşılaşdığı və ya haqqı tapdalandığı zaman əlinizdən gələn köməyi ona etməlisiniz. Bir şeyi israr etdiyi zaman boyun qaçırmayın. Pislik gördüyünüz zaman güzəştə getməyi bacarın və onların bu hərəkətlərinə göz yumun. Nəsihətinizi qəbul edəcəyini bildiyiniz zaman onlara nəsihət edin. Çətinliklərlə qarşılaşdıqları zaman onları tək qoymayın, buraxdıqları səhvləri düzəltməyə çalışın. Günah etdikləri zaman onları bağışlamağı və eyblərini örtməyi bacarın. Və nəhayət onlarla gözəl davranıb, səmimiyyətlə rəftar edin".

Bu məzmunda digər məsum imamlardan da bir çox nəsihətamiz hədislər nəql olunmuşdur. İmam Həsən (ə) buyurur:

"Kiçik yaşlarımda görərdim ki, anam Həzrət Zəhra (ə) cümə günləri axşam namazından sonra qonşu və tanıdığı bütün şəxslərin adını çəkər və onlar üçün dua edərdi. Bir gün qulaq asdım ki, görüm özü üçün də dua edirmi? Lakin nə qədər diqqət yetirdimsə, öz istək və hacətlərini dilinə də gətirmədi. Səhər açıldıqda anamdan soruşdum:

- Ana, dünən axşam etdiyin dualara qulaq asırdım, başqalarına xeyir-dua edir, amma özün üçün əsla dua etmədin?!

Anam buyurdu: "Oğlum, əvvəl qonşu, sonra evin içi".

Əhli-beyt (ə) tərəfindən nəql olunmuş hədislərdə qonşularla gözəl rəftar etməklə yanaşı, hüquqlarının qorunması və onlarla səmimi ünsiyyətdə olmaq barəsində də kifayət qədər hədis nəql olunmuşdur.

Həzrət Əli (ə) bu haqda buyurur:

"Hər kim qonşularına yaxşılıq edərsə, başqalarından daha çox qayğı görər".

Başqa bir yerdə buyurur:

"Hər kim qonşuları ilə gözəl rəftar etsə, qonşularının sayı bir o qədər çox olar".

Göründüyü kimi, Həzrət Əli (ə) özünün birinci hədisində bunu nəzərdə tutmuşdur ki, əgər insan qonşuları ilə gözəl rəftar etmiş olarsa, təbii ki, onlar da qarşılaşdığı çətinliklərdə öz köməklərini ondan əsirgəməyəcəklər.

İkinci hədisdə isə buna işarə edir ki, əgər insan öz qonşuları ilə səmimi ünsiyyət bərqərar edib onlara qarşı gözəl əxlaq nümayiş etdirərsə, onlar da öz növbələrində onunla mehribanlıqla rəftar etmiş olarlar. Bu isə insanı tənhalıq və qəriblik hissi keçirməyə qoymaz, hamı onun bu gözəl xüsusiyyətini görüb onunla qonşuluq etmək istəyər.

İmam Sadiq (ə) qonşuların insana qarşı olan təsiri və xeyir-bərəkətləri haqda buyurur:

"Yaxşı qonşuluq etmək ruzinin artmasına səbəb olur".

Başqa bir hədisdə buyurur:
"Qonşularla gözəl rəftar etmək ömrü uzadır və yerlərin abadlaşmasına səbəb olur".

# QONŞUNUN ƏZAB-ƏZİYYƏTİ

Nəql olunmuş hədislərdə qonşuların hüquqlarına riayət olunmasına böyük əhəmiyyət verildiyi kimi, onlara qarşı hörmətsizlik və kobudluq edilməməsinə də böyük diqqət yetirilmişdir. Həzrət Peyğəmbər (s) buyurur:

"Allaha və axirət gününə iman gətirmiş şəxs öz qonşusuna əziyyət etməməlidir".

Ənsardan biri Həzrət Peyğəmbərin (s) yanına gəlib deyir:

- Ya Rəsuləllah! Filan qəbilənin yanında bir ev aldım. Qonşu olacağım şəxsdən mənə xeyir dəyəcəyinə ümid etmirəm, həmçinin zərərinin yetişməyəcəyindən də arxayınam.

Həzrət Peyğəmbər (s) üzünü imam Əli (ə), Salman, Əbuzər və Miqdada tutub buyurur:

"Məscidə gedib uca səslə deyin: "Qonşusunun əzab-əziyyətindən əmin olmayan şəxs iman gətirməmişdir".

Başqa bir hədisdə deyilir: "Bir şəxs Həzrət Peyğəmbərin (s) yanına gəlib öz qonşusundan şikayətlənir. Həzrət Peyğəmbər (s) ona səbr etməyi tövsiyə edərək buyurur:

"Səbr et! Bəlkə o öz rəftarını dəyişsin".

Şikayət üçün ikinci dəfə Həzrət Peyğəmbərin (s) yanına gəldikdə yenə də ona səbr etməyi tövsiyə edir. Üçüncü dəfə şikayətə gəldikdə isə Həzrət Peyğəmbər (s) buyurur:

"Cümə günü ev əşyalarını bayıra çıxarıb camaatın gəlib-getdiyi yolun üstünə qoy. Onlar səndən bunun səbəbini soruşduqda de ki, qonşum mənə əziyyət etdiyi üçün belə edirəm".

Həmin şəxs Həzrət Peyğəmbərin (s) dediyi kimi də edir. Qonşusu el arasında rüsvay olacağını görüb yalvar-yaxar edərək evinə qayıtmasını xahiş edir və söz verir ki, bundan sonra bir daha onun narahatçılığına səbəb olacaq heç bir iş görməyəcəkdir.

Nəql olunmuş hədislərdə həmçinin qonşuların çətinlikləri ilə maraqlanmağa və bu işdə səhlənkarlığa yol verməməyə təkid olunur. Həzrət Peyğəmbər (s) buyurur:

"Qonşusu ac olduğu bir halda tox qarına yatan şəxs müsəlman deyildir".

Başqa bir hədisdə Həzrət Əli (ə) Həzrət Peyğəmbərdən (s) nəql edərək buyurur:

"Qonşusu ac olduğu bir halda tox qarına yatan şəxs Allaha və axirət gününə iman gətirməmişdir".

Səhabələr heyrətə gələrək soruşdular:

- Elə isə vay bizim halımıza!

Həzrət Peyğəmbər (s) buyurdu:

"Yediyiniz xurma və yeməklərinizin artığı, pul, əxlaq və artıq paltarlarınızla Allahın qəzəbini yatırın".

Yəni yediyiniz yemək, geydiyiniz paltar, pul və s. şeyləri sədəqə verməklə Allahın razılığını qazanmağa çalışın.

Bunu da qeyd etmək lazımdır ki, hədislərdə qonşu deyildikdə dörd tərəfdən ətrafdakı qırx ev nəzərdə tutulur.

Həzrət Əli (ə) buyurur:

"Məscidin sahəsi qırx addım, qonşuluq isə hər dörd tərəfdən qırx ev hesab olunur".

İslamın böyük alim və görkəmli şəxsiyyətləri Həzrət Peyğəmbər (s) və məsum imamların sünnəsinə tabe olaraq qonşunun hüququna riayət edilməsinə böyük diqqət yetirmişlər.

Misal olaraq onlardan bir neçəsinə işarə edirik.

Görkəmli fiqh alimlərindən olan mərhum Seyyid Cavad Amili öz xatirələrində yazır: "Günlərin bir günündə axşam yeməyini yediyim zaman illər boyu elmindən bəhrələndiyim mərhum ustad Bəhrul-ülumun xidmətçilərindən biri qapını döyüb məni səslədi. Qapını açdıqda dedi: "Ustad sizi çağırır, şam süfrəsi kənarında əyləşib amma siz gəlməyincə əlini yeməyə uzatmayacaq." Tələm-tələsik evdən çıxıb ustadın evinə gəldim. Evə daxil olduqda əsəbi halda üzünü mənə tutub dedi:

- Heç Allahdan çəkinmirsən?!

Ustadın bu sözlərindən heyrətə gələrək təəccüblə soruşdum:

- Deyə bilərsinizmi təqsirim nədir?

Dedi: - Yeddi gündür qonşun ailəsi üçün yemək tədarükü görə bilmir və neçə müddətdir ki, qonşuluqdakı dükandan ucuz xurmalar nisyə götürür. Bu gün də xurma almaq üçün dükana gedib, dükançı borcunun çoxaldığını bəhanə gətirib ona nisyə heç bir şey verməyib. O da xəcalət çəkərək kor-peşiman evinə qayıdıb və bu gün ailəsi ac qalıbdır.

Dedim: - Ustad! And olsun Allaha, bütün bunlardan xəbərsizəm, yoxsa əlimdən gələn köməyi

əsirgəməzdim.

Dedi: - Məni də narahat edən budur ki, nə üçün bu müddət ərzində qonşundan xəbər tutmayıb, ac qaldıqları günlərdə onlara heç bir köməklik etməmisən. Əgər xəbərin olan halda kömək etməsəydin, müsəlman yox, yəhudi hesab olunardın.

Sonra yeməklə dolu məcməyi mənə verib dedi: "Xidmətçi ilə birlikdə həmin şəxsin evinə gedin və bu yeməkləri ona verib deyin ki, bu gün şam yeməyini birlikdə yeyəcəyik."

Sonra ayağa qalxıb bir qədər pul verib dedi: "Bu pulu da süfrənin altına qoyarsan...."

# ƏXLAQİ DAVRANIŞLAR

Cəmiyyət arasında düzgün əlaqə və rabitə bərqərar etmək üçün bir sıra meyarlara riayət etməliyik ki, ilk növbədə özümüzü gözəl şəxsiyyət və bir ideal insan kimi tanıtdıra bilək. Çünki, bir tərəfdən gözəl əxlaq və davranış tərzi görməklə camaatda bizə qarşı rəğbət hissi yaranacaq, digər tərəfdən də özümüz insani [mənəvi] dəyərlərə nail olacağıq. Və eyni zamanda başqalarının bizim üzərimizdə nə kimi hüquqlara malik olduqlarını bilməli və onların hüquqlarının tapdalanmasına yol verməməliyik.

Bu meyarlar ümumiyyətlə iki hissəyə bölünür: Onlardan biri başqalarının qarşısında nümayiş etdirməli olduğumuz xüsusiyyət və rəftar normaları, digəri isə tərk etməyimiz zəruri olan bəzi xoşagəlməz xislət və xüsusiyyətlərdir. Başqa sözlə desək, birinci dəstəyə aid olan meyarlar islam dininin bizlərə tövsiyə etdiyi gözəl əxlaqi xüsusiyyətlər, ikinci hissəyə aid olanlar isə ictimai həyatımızda tərk etməyimiz zəruri olan bir sıra mənfi xüsusiyyətlərdir. Deməli, ictimai həyatın normal hal tapması üçün biz ilk növbədə mənfi xüsusiyyətlərdən çəkinməli və gözəl əxlaqa malik olmalıyıq. Gözəl əxlaqa malik olmaq və xoşagəlməz xüsusiyyətlərdən çəkinməyə də "əxlaqi davranış" deyilir. Bu dərsimizdə onların hər biri haqda ayrı-ayrılıqda söhbət açacağıq.

## GÖZƏL XASİYYƏT

Hamı başqalarının hörmət və ehtiramını qazanmaq istəyir. İnsanların qəlblərinə yol tapmağın və onların razılığının qazanılmasının ən başlıca amili gözəl əxlaq və xüsusiyyətə malik olmaqdır. Gözəl əxlaq təkcə insanların razılığını əldə etməyin başlıca amili deyil, bir çox digər insani dəyərlərin də əsasını təşkil edir. Yəni, insan gözəl əxlaqa malik olmayınca, onda digər insani dəyərlər özünü büruzə vermir. Məsələn, gözəl əxlaqa malik olmayan bir şəxsdə şücaət, səxavətlilik və bu kimi digər xüsusiyyətlər müşahidə olunsa da, onlar öz həqiqi dəyərlərini tapmır. Gülərüz və mehribançılıqla verilməyən hədiyyəni kimsə qəbul etmir. Deməli, bütün müsbət keyfiyyətlər yalnız o zaman özünün həqiqi dəyərini tapa bilər ki, bu xüsusiyyətlərə malik olan hər bir şəxs gözəl əxlaqa yiyələnmiş olsun.

Əxlaqın tərifində deyilir:

Əxlaq - elə bir daxili hissiyyata deyilir ki, digər müsbət xüsusiyyətlərlə yanaşı, insanı başqaları ilə gözəl ünsiyyətdə olmağa da sövq etmiş olsun.

İmam Sadiqdən (ə) nəql olunmuş hədislə bu tərif arasında sıx bağlılıq vardır. Belə ki, imam Sadiqdən (ə) "gözəl əxlaq nədir?" - deyə soruşduqda buyurur:

"Gözəl əxlaq odur ki, başqaları ilə şirin dillə danışıb mehribanlıqla rəftar etmiş olasan və müsəlman qardaşınla görüşdükdə onu gülər üzlə qarşılayasan".

Gözəl əxlaqa yiyələnməyin və başqaları ilə gözəl ünsiyyətdə olmağın fəziləti haqda Həzrət Peyğəmbər (s) və məsum imamlardan kifayət qədər hədis və rəvayətlər nəql olunmuşdur. Misal olaraq burada onlardan bir neçəsini gətiririk:

"Sizin ən yaxşınız, ən gözəl əxlaqa yiyələnənlərinizdir. Gözəl əxlaq sahibləri o kəslərdir ki, bir-birləri ilə qarşılaşarkən təvazökarlıq edər və başqaları ilə daim gözəl ünsiyyətdə olaraq evinin qapsını onların üzünə açıq qoyarlar.

"Gözəl əxlaqa yiyələnənlərin savabı gecələri ibadətlə keçirən və gündüzləri oruc tutan şəxsin savabı qədər olar".

"Qiyamət günü insanların əməl tərəzilərinə qoyulacaq ilk şey onların gözəl əxlaqı olacaqdır".

"Qiyamət günü əməl tərəzisində gözəl əxlaqdan ağır şey olmayacaqdır".

"Qiyamət günü mənə ən yaxın olanınız və ən sevimliniz gözəl əxlaqa yiyələnəniz olacaqdır".

"Sizin üçün gözəl əxlaqdan yaxşı heç bir şey yoxdur".

"Ən gözəl yaxşılıq, gözəl əxlaqdır".

"Sizin ən yaxşılarınız ən xoşrəftar olanlarınızdır. Belə şəxslər mülayimliklə bir-birlərinə xidmət edər, digərləri ilə ünsiyyət yaradar və digərləri də onlarla ülfət taparlar. Bu insanların qapısı hamının üzünə açıq olar".

Qələm surəsinin 4-cü ayəsində Allah-taala öz Peyğəmbərini (s) belə bir gözəl ifadələrlə vəsf edir:

"Doğrudan da sən böyük bir əxlaq sahibisən!"

Başqa bir ayədə Allahın mərhəməti sayəsində Peyğəmbərin (s) gözəl əxlaqa yiyələnməsi, insanların ona iman gətirməsinin əsas səbəbi kimi göstərilir:

"Ya Məhəmməd! Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə onlar sənin ətrafından dağılıb gedərdilər..."

Həzrət Peyğəmbərə (s) hamıdan yaxın olan və onu hamıdan daha yaxşı tanıyan Əmirəl-möminin Əli (ə) o Həzrətin şəxsiyyəti haqda buyurur:

"O, hamıdan mehriban, bağışlayan, hövsələli, düzdanışan və əhdə vəfa edən idi. Hamı ilə gözəl rəftar edər və xoş ünsiyyətdə olardı. Onu ilk dəfə görənlər vəcdə gələr, əxlaq və rəftarına heyran olardı. Ünsiyyətdə olan şəxslər dərhal onu tanıyır və onu sevməyə başlayardılar. Ondan əvvəl və sonra onun kimi ikinci bir şəxs görmədim".

Əli (ə) Peyğəmbərin (s) digər xüsusiyyətləri haqda deyir:

"Həzrət Peyğəmbər (s) bir yəhudiyə pul borclu idi. Günlərin bir günündə həmin şəxs Həzrət Peyğəmbərin (s) yanına gəlib borcunun qaytarılmasını istədi. Həzrət Peyğəmbər (s) buyurdu:

- Hələlik sənin pulunu qaytara bilməyəcəyəm, bir qədər səbr et!

Yəhudi dedi:

- Pulumu qaytarmayınca, buradan heç bir yerə gedən deyiləm.

Peyğəmbər (s) buyurdu:

- Elə isə mən də sənin yanında oturacağam.

Onlar səhərdən axşamadək bir yerdə oturdular və Həzrət Peyğəmbər (s) namazlarını da elə oradaca qıldı. Səhabələr bu əhvalatdan narahat olub həmin şəxsə hədə-qorxu gələrək xəbərdarlıq etməyə başladılar. Peyğəmbər (s) üzünü onlara tutub buyurdu:

- Bu necə rəftardır, onunla edirsiniz?

Dedilər:

- Ya Rəsuləllah! Bu nə işdir, elə bil burada sizi həbs etmişdir.

Buyurdu:

- Allah-taala məni başqalarına zülm etmək üçün peyğəmbərliyə göndərməmişdir.

Həmin günün səhəri zöhr namazı vaxtı həmin yəhudi məscidə gəldi və islamı qəbul edib müsəlman oldu.

Sonra üzünü Peyğəmbərə (s) tərəf tutub dedi: "And olsun Allaha! Əgər Tövratda sənin barəndə deyilənləri oxumasaydım, belə etməzdim. Orada sənin barəndə deyilir: "Allahın peyğəmbəri Məhəmməd ibn Abdullahın doğulduğu yer Məkkə, hicrət edəcəyi yer isə Mədinədir. O nə tünd xasiyyətli və nə də əsəbidir. Başqaları ilə səmimiyyət və mehribanlıqla rəftar edər. Kimsəni nə söyər, nə də təhqir edər”. Mən də Allahın birliyinə və sənin peyğəmbərliyinə iman gətirib öz var-dövlətimi Allah yolunda sədəqə verirəm. Bunlar mənim var-dövlətimdir. İstədiyin kimi hökm verə bilərsən".

Bilməliyik ki, islam zühur etdikdən sonra Həzrət Peyğəmbərin (s) vasitəsilə islamı qəbul edən şəxslərin əksəriyyəti məhz onunla ünsiyyətdə olduqdan və onun gözəl insani xüsusiyyətlərinin şahidi olduqdan sonra bu ilahi dini qəbul etmişlər.

# ƏXLAQ VƏ GÖZƏL DAVRANIŞIN NƏTİCƏLƏRİ

Cəmiyyətdə gözəl əxlaq nümayiş etdirmək və insanlarla gözəl davranmaq bir çox müsbət nəticələr verir. Onlardan bəziləri o qədər aşkardır ki, əsla izaha heç bir ehtiyacı yoxdur. Buna baxmayaraq Həzrət Peyğəmbər (s) və məsum imamlardan (ə) nəql olunmuş hədislərdən istifadə edərək onlardan bir neçəsi haqda söhbət açacağıq. Peyğəmbər (s) buyurur: "Gözəl əxlaq ruzinin artmasına səbəb olur". İmam Əli (ə) buyurur: "Gözəl əxlaq ruzini artırır və dostları bir-birləri ilə munis edir". Yəni, daim bir-birləri ilə səmimi ünsiyyətdə olmalarına səbəb olur.

"Xoşxasiyyət şəxslərlə ünsiyyətdə olmaq istəyənlər və onları sevənlərin sayı çox olar".

"Həqiqətən gözəl əxlaq və davranış ömrü uzun, şəhərləri isə abad edir".

"Günəş dərini qurutduğu kimi, gözəl rəftar da səhv və günahları qurudub aradan aparır. Sirkə balı xarab etdiyi kimi, kobud rəftar da əməlləri məhv edir".

Göründüyü kimi İmamlar (ə) bir tərəfdən bizləri gözəl davranışa sövq edir, digər tərəfdən isə xoşagəlməz rəftar və davranışlardan çəkindirərək bunun nə ilə nəticələnəcəyini çatdırırlar. Peyğəmbər (s) buyurur: "Xoşagəlməz davranış bağışlanmaz bir günahdır". İmam Əli (ə) buyurur: "Kobud rəftar ən pis xüsusiyyətdir".

"Pis davranış həyatın acısı və sağlamlıq üçün bir təhlükədir".
"Kobud rəftar səmimiyyət və mehribançılığı aradan aparır, insanı daim qorxu içində saxlayır".
"Kobud rəftar yaxınları qorxudur, özgələrin nifrətinə səbəb olur".
Peyğəmbər (s) buyurur: "Bu iki xisləti möminlərdə görmək olmaz: paxıllıq və kobud rəftar".

# TƏVAZÖKARLIQ

Gözəl əxlaqa malik olduqdan sonra yaşadığı cəmiyyətdə hər bir şəxsə zəruri olan xüsusiyyətlərdən biri də təvazökarlıqdır. Allah-taala əməli-saleh insanların məziyyətlərini sadalayarkən təvazökarlığı ən mühüm xüsusiyyətlərdən biri kimi göstərir.

Furqan surəsinin 63-cü ayəsində buyurulur:

"Rəhmanın [əsil] bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqları [xoşlarına gəlməyən bir söz dedikləri] zaman onlarla gözəl, yumşaq danışarlar".

Göründüyü kimi, ayədə göstərilən təvazökarlıq hər bir əməli-saleh insanın yol getdiyi zaman özündən büruzə verdiyi ən başlıca xüsusiyyətdir. Çünki, insan yol gedərkən özündən asılı olmayaraq batini xüsusiyyətlərini nümayiş etdirir. Belə ki, hər bir təvazökar və ya təkəbbürlü insanı onun rəftarından, yol getməyindən və ya oturub-durmasından tanımaq olar.

Bu səbəbdən də Əli (ə) təvazökarlığı pəhrizkar və əməli-saleh insanların səciyyəvi xüsusiyyəti kimi qiymətləndirib buyurur:

"Pəhrizkarlar təvazökarlıqla yol gedərlər".

Başqa bir ayədə Allah-taala möminlərə dindən çıxdıqları və ya uzaq düşdükləri təqdirdə onları başqa bir qövm ilə əvəz edəcəyi haqda xəbərdarlıq edib buyurur:

...

"Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, [bil ki] Allah [onun yerinə] elə bir tayfa gətirər ki, Allah onları, onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar..."

Peyğəmbər (s) təvazökarlığı insanın vüqar və başucalığı hesab etmişdir:

"Həqiqətən təvazökarlıq insana baş ucalığı və yüksək məqam nəsib edir. Elə isə təvazökar olun ki, Allah-taala sizləri başı uca və vüqarlı etsin".

Başqa bir yerdə buyurulur:

"Hər kəs Allaha xatir təvazökarlıq etsə, Allah-taala onu vüqarlı edər. Həmin şəxs özünü nə qədər zəif hesab edərsə, camaatın nəzərində bir o qədər ucalar və hamının rəğbətini qazanmış olar".

İmam Sadiq (ə) buyurur:

"Loğman oğluna tövsiyə edərək buyurdu: "Təvazökarlıqdan böyük insana vüqar və başucalıq gətirən bir şey yoxdur. Təvazökar insan Allah qarşısında ən yüksək məqama nail olar"".

"Allahın mələklərindən ikisi daim insanlara nəzarət edərlər. Allaha görə təvazökarlıq edənlərin məqamını yüksəldər, təkəbbür və lovğalıq edənləri isə xar və rüsvay edərlər".

Peyğəmbər (s) və məsum imamlardan (ə) təvazökarlığa dair bir çox hədislər nəql olunmuşdur və biz burada onlardan bir neçəsini gətirməklə kifayətlənirik.

İmam Əli (ə) buyurur:

"Şərəfli insanın zinəti təvazökarlıqdır".

İmam Əli (ə) övladı imam Həsən Müctəbaya (ə) etdiyi tövsiyələrin birində buyurur:

"Sənə təvazökar olmağı tövsiyə edirəm. Çünki, təvazökarlıq ibadətlərin ən böyüyüdür".

İmam Həsən Əsgəri (ə) buyurur:

"Təvazökarlıq elə bir nemətdir ki, kimsə ona həsəd aparmır".

Diqqət yetirmək lazımdır ki, təvazökarlıq dedikdə hər bir şəxsə layiqincə ehtiram etmək və özümüzü onlardan üstün tutmamaq nəzərdə tutulur. Bunu da nəzərdən qaçırmamalıyıq ki, təvazökarlıq yalnız Allaha xatir edilməli və bu işdə də ən başlıca məqsəd Allahın razılığını qazanmaq olmalıdır. Zalım, lovğa, kafir və müşrik şəxslərə gəldikdə isə, onların qarşısında əsla təvazökarlıq edilməməlidir.

Təvazökarlıq ayrı-ayrı şəxslərin daşıdığı ictimai mövqe, vəzifə və məqamına görə deyil, onların iman və təqvasına görə olmalıdır.

Peyğəmbər (s) və imam Sadiqdən (ə) nəql olunmuş hədisdə deyilir:

"Varlıların var-dövlətinə xatir onların qarşısında təvazökarlıq edən şəxs dininin üçdə ikisini itirmiş olur".

İslam dini iman və təqvadan savayı başqa bir yüksək meyar təyin etmədiyi üçün, insanların var-dövlətlərinin və cəmiyyətdə tutduqları yüksək mövqelərinin qarşısında deyil, onların ali-mənəvi şəxsiyyətlərinin və təqvalarının qarşısında təvazökarlıq etmələrini tövsiyə edir. Bunu da nəzərə

almalıyıq ki, hər şeydə olduğu kimi, təvazökarlıq etməkdə də həddi aşıb ifrat və təfritə varmamalıyıq. Çünki, təvazökarlıq həddindən artıq edildikdə insanın şəxsiyyətinə xələl gətirir və lazım olduğundan az edildikdə isə insanda lovğalıq və təkəbbür hisslərinin yaranmasına səbəb olur. Bu səbəbdən də təkəbbürdən qurtarmaqla yanaşı, həddindən artıq təvazökarlıq etməkdən də çəkinmək lazımdır. Qeyd etdiyimiz kimi, təkəbbürlü şəxslərin qarşısında təvazökarlıq etmək olmaz. Çünki, bu iş həmin şəxsin onların qarşısında kiçilməsinə, həm də onların daha da lovğa və təkəbbürlü olmalarına səbəb olur.

## TƏVAZÖKARLIĞIN ƏLAMƏT VƏ LAZIMİ HƏDDİ

Təvazökarlığın əlamətlərini və hansı həddə olmasını bilmək üçün hər şeydən əvvəl məsum imamlardan (ə) bu barədə nəql olunmuş hədislərə diqqət yetirməliyik. İmam Rzadan (ə) təvazökarlığın hansı həddə olmasını soruşduqda buyurur:

"İnsanları sevdiyin qədər onlara qarşı təvazökar ol ki, onlar da sənə qarşı bir o qədər hörmət etsinlər".

İmam Sadiq (ə) buyurur:

"Təvazökarlıq ona deyilir ki, iştirak etdiyin məclis sənin səviyyəndən aşağı olsa belə, orada olmağına razı olasan; qarşılaşdığın hər bir şəxs ilə görüşüb hal-əhval tutasan; haqlı olsan belə, mübahisə etməkdən çəkinəsən; unutma ki, bütün xeyir və yaxşılıqlar təvazökarlıqdan irəli gəlir".

Başqa bir hədisdə buyurur:

"İnsan pəhrizkar olduğuna görə başqalarının onu sevmələrinə can atmamalıdır".

## TƏVAZÖKARLIĞIN NƏTİCƏLƏRİ

Təvazökarlığın müsbət nəticələrindən biri imam Musa Kazimdən (ə) nəql olunmuş hədisdə belə izah olunur:

"İlahi hikmət məhz təvazökar insanın qəlbində özünə yer tapır, amma təkəbbürlü insanlar isə belə bir gözəl insani xüsusiyyətdən məhrumdurlar. Çünki, Allah-taala təvazökarlığı əql, təkəbbürü isə cəhl və nadanlıq üçün bir vasitə qərar vermişdir".

Buna oxşar başqa bir hədisdə deyilir:

"Günlərin bir günü İsa (ə) üzünü Həvarilərinə tutub buyurdu:

- Bir istəyim var, əgər onu yerinə yetirəcəyinizə söz verirsinizsə, deyim.

Hamı bir nəfər kimi dedi: - Hər nəyi əmr etsən, tabe olacağıq.

İsa (ə) ayağa qalxıb bir-bir onların ayaqlarını yudu. Həvarilər utandıqlarından xəcalət hissi keçirdilər. Lakin tabe olacaqlarına söz verdikləri üçün İsaya (ə) bir söz demədilər. O da bir-bir onların ayaqlarını yuyub ayağa qalxdı. Həvarilər dedilər:

- Sən bizim müəllimimiz və tərbiyəçimizsən, yaxşı olardı ki, biz sənin ayaqlarını yuyaq.

İsa (ə) buyurdu:

"Bu işi görməklə insanlara xidmət etməyin ən xeyirxah iş olduğunu demək istəyirdim. Bu işlə həm özüm təvazökarlıq etmiş oldum, həm də sizlərə təvazökarlıq dərsini öyrətdim.

Məndən sonra insanların hidayət olunmalarını öz öhdənizə götürdükdə təvazökarlığı hər şeydən üstün tutun və bilin ki, toxum qayalıqlarda yox, yumşaq torpaqda bitdiyi kimi, təvazökarlıq da [sağlam qəlblərdə] özünə yer tapır".

Həzrət Əlidən (ə) nəql olunmuş hədislərdə təvazökarlığın verdiyi müsbət nəticələr belə bəyan olunur:

"Təvazökarlığın səmərəsi dostluq və məhəbbət, təkəbbürün səmərəsi isə kin-küdurət və düşmənçilikdir."

"Təvazökarlıq sizlərə vüqar və ucalıq libasını geyindirər".

Peyğəmbərdən (s) nəql olunmuş başqa bir hədisdə deyilir:

"Allah-taala təvazökar olmağı əmr etmişdir ki, biriniz digərinizin haqqını tapdayıb öyünməyəsiniz".

Bir gün Peyğəmbər (s) öz səhabələri ilə səfər zamanı bir yerdə düşərgə qurmalı olurlar. Belə qərara gəlirlər ki, bir qoyun kəsib ətini kabab etsinlər. Səhabələrdən biri qoyunun kəsilməsini, başqa birisi soyulmasını, digəri isə bişirilməsini öz öhdəsinə götürür. Beləliklə, yemək hazırlamaq üçün hərə öz üzərinə bir məsuliyyət götürdü. Peyğəmbər (s) hər kəsin bir işi üzərinə götürdüyünü görüb buyurur: "Elə isə odun yığmaq da mənim boynuma". Səhabələrdən biri dedi: "Ya Rəsuləllah! Sizin zəhmət çəkməyiniz lazım deyil. Biz özümüz nə lazımsa edəcəyik". Peyğəmbər (s) buyurdu: "Bilirəm ki, siz bu işləri görəcəksiniz. Lakin, Allah-taala özünü başqalarından fərqləndirən şəxsləri sevmir". Bunu deyib səhraya tərəf getdi və kifayət qədər quru odun yığdı”.

İmam Həsən Əsgəridən (ə) nəql olunan digər hədisdə deyilir:

"Bir gün Həzrət Əlinin (ə) evinə iki nəfər qonaq gəlir. Onlardan biri ata, digəri isə onun övladı idi. O Həzrət onları gülər üzlə qarşılayıb evə dəvət etdi və özü də onların qarşısında oturdu.

Sonra buyurdu ki, yemək gətirsinlər. Yemək yeyib qurtardıqdan sonra Həzrətin xidmətçisi Qənbər əl yumaq üçün ləyən və su gətirdi. Əli (ə) dolçanı Qənbərin əlindən alıb özü qonaqların əlinə su tökməyə başladı. Yaşca böyük olan şəxs xəcalət çəkdiyindən nə edəcəyini bilməyib yerindən qalxaraq dedi:

- Ya Əmirəl-möminin! Allah sənin mənim əlimə su tökdüyünü görürmü?

Əli (ə) buyurdu:

- Otur əllərini yu. Allah həm səni, həm də özünü səndən üstün tutmayan və axirətdə dünya əhlinin ona on dəfə çox xidmət etmək məqsədilə sənə xidmət edən bəndəsini də görür. Sonra qonağı yerində oturdub buyurdu:

- Səni and verirəm Allaha! Qənbər əlinə su tökərkən özünü nə qədər rahat hiss edirsənsə, indi də özünü bir o qədər rahat hiss et və əllərini yu.

O Həzrət sözlərini bitirib suyu qonağın əllərinə tökdü. Yaşca böyük olan qonaq əllərini yuyub qurtardıqdan sonra Həzrət Əli (ə) dolçanı oğlu Məhəmməd Hənəfiyyəyə verib buyurdu: "Əgər bu oğlan tək mənə qonaq gəlsəydi, mən özüm onun əllərinə su tökərdim. Amma Allah-taala ata ilə oğul arasında eyni səviyyədə ehtiram qoyulmasını istəmir. Ata, atanın əlinə su tökdüyü kimi, oğul da oğulun əlinə su tökməlidir". Məhəmməd Hənəfiyyə dolçanı alıb qonağın əlinə su tökdü".

İmam Həsən Əsgəri hədisi nəql etdikdən sonra buyurur:

"Hər kim Əlidən (ə) belə örnək götürərsə, onun həqiqi tərəfdarlarından olar".

## ƏHDƏ VƏFALI OLMAQ

İctimai əlaqələrin bərqərar olunmasında hər bir müsəlmana zəruri olan digər əxlaqi xüsusiyyətlərdən biri də əhdə vəfalı olmaqdır.

Qurani-Kərimin bir çox ayələrində və məsum imamlardan nəql olunmuş hədislərdə bu məsələyə böyük əhəmiyyət verilmişdir. Bağlanılan bütün əhd-peymanlara əməl etməyi Quran vacib hesab edir:

"...Əhdə vəfa edin. Çünki [insan] əhd barəsində [qiyamət günü] cavabdehdir. [İnsan verdiyi əhdi yerinə yetirib-yetirmədiyi haqda sorğu-suallara tutulacaqdır]".

"Ey iman gətirənlər! Əhdlərə sadiq olun...".

Əhd-peymana əməl olunmasının zəruri olduğunu qeyd etməklə yanaşı, onun pozulmamasına da ciddi xəbərdarlıq edilir:

"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz (vədə verirsiniz)?..."

Bağlanılan əhd-peymana istər fərdi olsun, istərsə də ümumi, istər müsəlmanlarla olsun, istərsə də müşrik və kafirlərlə, vəfalı olmaq hər bir müsəlmana vacibdir. Allah-taala Qurani-Kərimdə Peyğəmbərə (s) xitab edərək buyurur:

"...Onlarla əhdinizə axıra qədər [müddəti bitənədək] vəfa edin...".

İmam Sadiq (ə) buyurur:

"Üç halda heç kəsin üzrü qəbul olunmaz:

1. Əmanəti öz sahibinə qaytarmayanın (mal sahibinin əməli-saleh bir şəxs olub-olmamasından asılı olmayaraq);
2. Kimliyindən asılı olmayaraq əhdinə vəfa etməyənin;
3. Ata-anaya yaxşılıq etməyənin (istər onlar əməli-saleh olsun, istərsə də yox)."

# ƏHDƏ VƏFA ETMƏYİN ƏHƏMİYYƏTİ

Əhdə vəfalı olmağın zəruriliyi və nə qədər əhəmiyyətli olduğu artıq bizə bəlli oldu. İndi isə baxaq görək islam nöqteyi-nəzərindən digər mənəvi dəyərlərlə yanaşı əhdə vəfalı olmağın nə kimi əhəmiyyəti vardır?

Burada bir neçə məsələyə diqqət yetirmək lazımdır:

**1.** Qurani-Kərimdə deyilir:

"O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar [onlara tapşırılmış əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərlər]".

Peyğəmbər (s) bu haqda buyurur:

"Allaha və Qiyamət gününə iman gətirmiş hər bir şəxs verdiyi vədəyə əməl etməlidir".

Əli (ə) buyurur:

"Möminlərin nişanələrindən biri də onların əhdə vəfalı olmalarıdır."

"Dinin sütunlarından biri də əmanətə və əhdə vəfa etməkdir".

Qurani-Kərimin başqa bir ayəsində əhdə vəfa etmək əməli-saleh insanların xüsusiyyətlərindən biri kimi göstərilir:

"Yaxşı insanlar əhd-peyman bağladıqda ona vəfalı olarlar".

Başqa bir ayədə Allah-taala Həzrət İsmayıla (ə) vəsf edərkən buyurur:

"[Ya Məhəmməd!] Quranda İsmaili də yada sal! O öz vədinə sadiq və [Bizim tərəfimizdən öz ümmətinə] göndərilmiş bir peyğəmbər idi".

Həzrət İsmayılın (ə) peyğəmbərliyindən də əvvəl onun əhd-peymana sadiq olduğu göstərilir. Belə ki, nəql olunmuş hədislərdən birində deyilir:

"Həzrət İsmayıl (ə) günlərin bir günü onunla görüşmək istəyən bir şəxslə görüş yeri təyin edir. O Həzrət vədinə əməl edərək hər gün həmən yerə gedir və həmən şəxsi gözləyir. Lakin bir il ardıcıl getməsinə baxmayaraq, həmən şəxsi görə bilmir. Onu görənlər harada olduğunu və nə üçün vədəsinə xilaf çıxdığını soruşurlar. Həmən şəxs nəhayət Həzrət İsmayılın (ə) yanına gəlib görüşü unutduğu üçün bu müddət ərzində gəlmədiyini bildirir. Həzrət İsmayıl (ə) təmkinlə onu dinləyib buyurur: «And olsun Allaha! Əgər bu gün də gəlməsəydin, ömrümün sonuna qədər buraya gələcəkdim».

Bu əhvalatdan sonra Həzrət İsmayıla (ə) "Sadiqul-vəd" ləqəbi verildi".

**2.** İmam Sadiqdən (ə) nəql olunmuş hədislərdən birində əhdə vəfalı olmaq hər bir müsəlmanın üzərinə düşən vəzifələrdən biri kimi göstərilir:

"Mömin mömininin qardaşıdır. Göz təki ona yol göstərər və heç vaxt haqqını mənimsəyib xəyanət etməz. Vədə verdiyi zaman aldatmadan əhdinə sadiq qalar".

Əli (ə) buyurur:

"Əhdə vəfalı olmaq sədaqətlə yanaşı olmalıdır. Və mən əhdə vəfadan möhkəm bir şey təsəvvür etmirəm. İnsan Allahın hüzuruna qayıdacağını bildiyi halda başqalarına qarşı necə hiylə işlədə bilər?!"

Elə bir dövranda yaşayırıq ki, hiyləgərlik zirəklik hesab olunur və nadan insanlar bu şəxsləri zirək və bacarıqlı adlandırırlar. Görəsən onlar bundan nə kimi mənfəət əldə edirlər? Allah onları öldürsün! Şübhəsiz ki, [həqiqi] zirək və bacarıqlı insanlar hiyləgərliyin yolunu bilmirlər. Lakin ilahi yasaq və qadağalar onları bu işdən çəkindirir. Bunu bacarsalar da heç vaxt həyata keçirmirlər. Lakin, dinlə heç bir əlaqəsi olmayan şəxslər öz gündəlik həyatlarında dəfələrlə bu çirkin işə əl atarlar.

İmanı zəif olanlar, dinə inam və etiqadı olmayan şəxslər heç nədən çəkinmədən öz əhd-peymanlarına sadiq qalmaz və çox asanlıqla hər şeyi alt-üst etməyə hazır olarlar. Bu bir həqiqətdir ki, Allaha iman gətirmiş əməli-saleh şəxslər müxtəlif bəhanələrə əl atıb verdikləri vədəyə əsla xilaf çıxmazlar.

Bu səbəbdən də müşriklərin bağladıqları əhd-peymanlara riayət etməmələrinə baxmayaraq, Həzrət Peyğəmbər (s) onların ardı-arası kəsilməyən təzyiqlərinə dözür və onlarla bağladığı əhd-peymanları pozmurdu.

Nəhayət Tövbə surəsinin ilk ayəsi nazil oldu və müşriklərə çox ciddi xəbərdarlıq edildi:

"[Bu], Allahdan və Onun Peyğəmbərindən saziş bağladığınız müşriklərə [onlarla olan əhdlərin pozulması, əlaqələrin kəsilməsi haqqında] xəbərdarlıqdır!"

Tövbə surəsinin bu və sonrakı ayələri nazil olduqdan sonra bir neçə qəbilələr istisna olmaqla, müsəlmanlarla müşriklər arasında bağlanılan əhd-peymanlara bir dəfəlik son qoyuldu.

**3.** İstər Həzrət Peyğəmbər (s), istərsə də onun davamçıları olan məsum imamlar (ə) müsəlmanların bağladıqları əhd-peymanlara və öz vədələrinə sadiq qalmalarına təkid etmiş və onların pozulmasına yol verməmələrini tövsiyə etmişlər.

Peyğəmbər (s) bunu hətta münafiqlərin xüsusiyyətlərindən biri kimi qiymətləndirib buyurur:

"Üç şey münafiqlərin xüsusiyyətlərindəndir:

1. Bir şey danışdıqları zaman yalan söyləyərlər;
2. Bağladıqları əhd-peymanı pozarlar;
3. Verilən əmanətlərə xəyanət edərlər."

Əli (ə) Malik Əştərə verdiyi göstərişlərin birində buyurur:

"Camaata vədə verdiyin zaman öz əhdinə sadiq qal. Çünki əhdə vəfa etməmək Allahla insanlar arasında düşmənçiliyə [insanların Allahdan uzaq düşmələrinə] səbəb olur. Allah-taala buyurur:

"Etməyəcəyiniz bir şeyi demək Allahın qəzəbinə səbəb olur".

İmam Sadiq (ə) buyurur:

"Möminin öz din qardaşına verdiyi vədə, kəffarəsi olmayan nəzir kimidir. (Yəni, verilmədikdə kəffarə ilə əvəz etmək olmur). Əhdini pozmuş şəxs Allahın qəzəbinə gələrək Onunla müxalifət etmiş olur. Allah-taala Öz kitabında buyurur:

"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz. Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar".

Əli (ə) buyurur:

"Öhdəsindən gələ bilməyəcəyin hər hansı bir şey haqda əhd-peyman bağlama".

"Yerinə yetirəcəyiniz şeyin öhdəsindən gələcəyinə əmin olmayınca vədə verməyin".

# SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAQ (1)

Hər bir insan gündəlik həyatında özü kimi bir çox cəmiyyət üzvləri ilə qarşı-qarşıya gəlir və onlarla daimi ünsiyyətdə olur. Cəmiyyət üzvlərinin hər birinin özlərinə xas rəftar, davranış və təfəkkür tərzi vardır. Bəzən elə şəxslərlə rastlaşırıq ki, onlar bir sıra əxlaqi xüsusiyyətlərə malik olmadıqları üçün adi davranış qaydalarında və başqaları ilə ünsiyyətdə kobudluğa yol verirlər. Bu da tərəf-müqabilin incimәsinə və narahatçılığına səbəb olur. Bəs bu kimi xoşagəlməz rəftar və davranışların müqabilində nə etmək lazımdır?

Təbiidir ki, bu vəziyyətdə hər şeydən əvvəl insanın zehninə belə bir çıxış yolu gəlir: ya onlarla tamamilə əlaqəni kəsməli, ya da yalnız gözəl əxlaqa malik olan şəxslərlə ünsiyyətdə olmalı. Belə təsəvvür olunur ki, insan yalnız bu yolla öz asayiş və rifahını təmin edə bilər. Qeyd etmək lazımdır ki, bu işi həyata keçirmək qeyri-mümkündür. Çünki, hər bir cəhətdən gözəl xüsusiyyətlərə malik olan və bütün gözəl əxlaqi səciyyələrə yiyələnən belə bir ideal şəxsi tapmaq demək olar ki, qeyri-mümkündür.

# ÇIXIŞ YOLU NƏDƏDİR?

İslam dininin belə bir şəraitdə bizlərə tövsiyə etdiyi şey, daha dəqiq desək, göstərdiyi yol "səbirli və təmkinli" olmaqdır.

Burada üç mühüm məsələyə xüsusi diqqət yetirmək lazımdır:

1. Qəzəbin mahiyyəti və qəzəb qüvvəsindən bəhrələnmək (istifadə etmək) tərzi;
2. İslam dinində səbirli və təmkinli olmağın dəyər və əhəmiyyəti;
3. İslam dininin səbr və təmkinliyə olan baxışı. Həzrət Peyğəmbər (s) və İmamların (ə) başqalarının kobud rəftarlarının qarşısında səbr və təmkinli olmaları.

# QƏZƏB

Nəql olunmuş bir çox hədislərdə qəzəbin həddən artıq mənfi xüsusiyyət olduğu göstərilmiş və müsəlmanlara bu xoşagəlməz xüsusiyyətdən uzaq olmaları tövsiyə olunmuşdur. Bəzi hədislərdə qəzəbin hətta bütün pisliklərin əsas səbəbkarı (açarı) olduğu göstərilir. İmam Sadiq (ə) buyurur:

"Qəzəb bütün pisliklərin açarıdır".

Əli (ə) buyurur:

"Qəzəb elə bir şeydir ki, əgər onu özbaşına buraxsan, hər şeyi dağıdar və viran edər".

"Qəzəb öz sahibini həlak edər və eyblərini üzə çıxarar".

"Qəzəb gizli kinləri aşkar edər".

Digər hədislərdə qəzəb şöləli alova bənzədilir.

Peyğəmbər (s) buyurur:

"Qəzəb, şeytanın alov şöləsindəndir".

Əli (ə) buyurur:

"Qəzəb şölələnən bir alovdur. Onu udan şəxs söndürər, udmadıqda isə özünü onun içərisinə atar".

"Qəzəbdən uzaq olmağa çalışın, çünki qəzəb iblisin böyük qoşunlarından biridir".

Bəzi hədislərdə isə qəzəb dəli-divanəliyə bənzədilir.

Əli (ə) buyurur:

"Qəzəbdən uzaq olmağa çalışın, çünki, qəzəbin əvvəli dəlilik, sonu isə peşimançılıqdır".

"Qəzəb bir növ dəlilikdir. Çünki, qəzəblənən şəxs tutduğu işdən peşiman olur. Yox əgər peşiman olmazsa, dəliliyinin daha da gücləndiyi bəlli olur".

"Qəzəb əql və düşüncəni korlayır və insanı düz yoldan uzaqlaşdırır".

İmam Sadiq (ə) buyurur:

"Qəzəbinə yiyələnməyən şəxs, əqlinə də yiyələnməmişdir".

Bəs insan öz qəzəbini cilovladıqda necə? Belə bir xüsusiyyətə yiyələnməsi yenə də mənfi haldırmı?

Bu məzmunda nəql olunmuş bir çox hədislərdə insanın belə bir xüsusiyyətə malik olması müsbət hal kimi göstərilir.

Əli (ə) buyurur:

"Ən böyük var-dövlət insanın öz qəzəbini boğmasıdır". (Qəzəbləndiyi zaman özünü idarə edə bilməsidir.)

"İnsanların ən güclüsü o kəsdir ki, qəzəblənməsin (və ya qəzəbləndiyi zaman özünü ələ ala bilsin)".

"Qəzəbini boğa bilən şəxs şeytana qalib gəlmiş olur. Şeytan isə qəzəbini boğa bilməyən kəsləri öz ixtiyarına alar".

"Qəzəb sizin düşməninizdir. Elə isə özünüzü onun ixtiyarına buraxmayın (onun qarşısında təslim olmayın)".

"Qəzəb və şəhvəti ağlına qalib gələn şəxslər dörd ayaqlı heyvanlara bənzərlər".

Nəql olunmuş hədislərdə qəzəbinə qalib gələn şəxslər ən iradəli və qüdrətli insanlar kimi qiymətləndirilirlər.

Peyğəmbərdən (s) bu məzmunda nəql olunmuş hədisdə deyilir:

"Güc və qüdrət güləşməkdə və sınanmaqda deyildir. Ən qüdrətli insan o kəsdir ki, qəzəbləndiyi zaman özünü ələ ala bilsin".

"Həqiqi pəhləvan (Həzrət (s) bu kəlməni üç dəfə təkrar edir) o kəsdir ki, qəzəbləndiyi zaman rəngi qızarır, bədəni əsir, lakin öz qəzəbini boğa bilir".

Əli (ə) buyurur:

"İnsanların ən güclüsü o kəsdir ki, qəzəbləndiyi zaman özünü ələ ala bilsin".

İmam Baqir (ə) buyurur:

"Qəzəbini yatırdan şəxsdən qüdrətli kəs yoxdur".

Peyğəmbərin (s) dövrünə dəlalət edən hədislərdən birində deyilir:

"Köçəri ərəblərdən biri Mədinəyə gəlib Həzrət Peyğəmbərdən (s) ona nəsihət etməsini xahiş edir. Peyğəmbər (s) ona yalnız bunu deyir:

"Qəzəblənmə!"

Həmin şəxs ona edilən bu kiçik tövsiyə ilə qənaətlənib öz qəbiləsinin yanına qayıdır. O, öz el-obasına yetişdikdə görür ki, onun qəbiləsindən olan bir şəxs digər qəbilənin malını qarət etmiş, bunun üçün də iki qəbilə arasında qarşıdurma yaranmış və hər iki tərəfdən xəsarət alanlar olmuşdur. Dərhal qılıncını siyirib intiqam almaq istəyir. Lakin birdən Peyğəmbərin (s) "qəzəblənmə!" deyərək ona tövsiyə etdiyi söz yadına düşür. Bir qədər fikrə gedir və öz-özünə düşünür, nə üçün haqsız qan töküb, ölümlə üz-üzə gəlməlidi? O həmin qəbilənin yanına gəlib deyir: «Gəlin artıq qan tökməyək, nə qədər xəsarət

almısınızsa mənim var-dövlətimdən götürün». Qəbilə başçıları onun bu sözlərini eşidib bayaqkı düşmənçiliyi kənara qoyub cavab verirlər. Mərdlikdə biz də səndən geri qalan deyilik. Elə isə biz də öz haqqımızdan keçirik. Beləliklə, Peyğəmbərin (s) etdiyi hikmət dolu kiçik tövsiyə haqsız qanların tökülməsinin, el-obaların viran qalıb yandırılmasının qarşısını alır.

Bu hədisdə iki mühüm məsələyə toxunulur:

**1.** Qəzəb bir mənfi xüsusiyyət kimi məzəmmət olunmalıdır;

**2.** Qəzəblənərkən insan özünü ələ ala bilməyi bacarmalıdır.

Lakin nəql olunmuş növbəti hədislərdə olduqca əhəmiyyət kəsb edən üçüncü məsələ ilə də qarşılaşırıq. O da Allah yolunda qəzəblənmək və haqq-ədalət uğrunda mübarizə aparmaqdır.

Əli (ə) buyurur:

"Allah yolunda qəzəb qılıncını itiləyən şəxs küfr əhlinin (haqdan uzaq düşmüş) pəhləvanlarını qətlə yetirməyə daha çox qadir olar".

"Fasiqlərlə düşmənçilik edən şəxs Allaha xatir qəzəblənərsə, Allah da ona xatir qəzəblənər və Qiyamət günü ona sevinc və şadlıq nəsib edər".

Həzrət Musa (ə) Allaha etdiyi münacatların birində soruşur:

"Qiyamət günü Sənin kölgəndən başqa heç bir kölgə olmadığı bir halda, Sənin sakinlərin kimlərdirlər ki, onlara Öz ərşində sığınacaq verirsən?"

Allah-taaladan belə bir xitab gəlir:

"O kəslər ki, haram etdiyim şeylərin halal olunduğunu görüb yaralanmış pələng kimi qəzəblənərlər".

Nəql olunmuş hədislərdən belə bir nəticəyə gəlmək olur ki, Allah-taala qəzəb hissini insanların fitrətində ona görə qərar vermişdir ki, onlar düşmən müqabilində din və əqidələrinin qorunmasında layiqincə müqavimət göstərə bilsinlər. Demək, bu daxili qüvvədən yalnız o zaman istifadə etməliyik ki, haqq olan dinimizə, namus və əqidəmizə düşmənlər tərəfindən təcavüz və ya hörmətsizlik edilmiş olsun. Varlığını ilahi nemət hesab edən hər bir saf əqidəli müsəlman Allah düşmənlərini öz düşməni sanmalı, ilahi qanunlara qarşı olan hər hansı bir hörmətsizliyi öz şərəf və namusuna qarşı hörmətsizlik hesab etməli və haqq-ədalətin müdafiəsində əlindən gələni əsirgəməməlidir. O, düşmənə qarşı olduqca qətiyyətli və barışmaz mövqe tutmalıdır.

Qurani-Kərimin bir çox ayələrində də Peyğəmbərin (s) kafir və münafiqlərə qarşı mübarizə aparmasına əmr olunduğunun şahidi oluruq:

"[Ya Peyğəmbər!] Kafirlərə və münafiqlərə qarşı vuruş! [Kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv et!] Onlarla sərt davran!..."

Başqa bir yerdə deyilir:

"...Onunla [Peyğəmbərlə (s)] birlikdə olanlar [möminlər] kafirlərə qarşı sərt, bir-birinə [öz aralarında] isə mərhəmətlidirlər..."

Lakin mömin və iman sahiblərinə gəldikdə qəzəb və digər mənfi xüsusiyyətlər kənara qoyulmalı, onlarla səmimiyyət və mehribançılıqla rəftar olunmalıdır. Dərsin əvvəlində nəql olunmuş hədislər də məhz bu mətləbə dəlalət edir.

## SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAQ (2)

Qurani-Kərimdə güzəştə getmək, səbirli və təmkinli olmaq möminlərə xas olan xüsusiyyət kimi göstərilir:

"O, pəhrizkarlar ki, bolluqda da, qıtlıqda da [mallarını yoxsullara] xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər".

Başqa bir ayədə Allah-taala pisliyə pisliklə deyil, yaxşılıqla cavab verməyi tövsiyə edir:

"Yaxşılıqla pislik eyni ola bilməz! [Ey mömin kimsə!] Sən pisliyi yaxşılıqla dəf et! [Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!] Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!

Bu [xislət] yalnız [dünyada məşəqqətlərə] səbr edənlərə verilir və yalnız böyük qismət [savab, fəzilət] sahiblərinə əta olunur!"

Göründüyü kimi Allah-taala, düşmənçiliyin səmimi dostluğa çevrilməsini, pisliklərin qarşısında səbirli və təmkinli olmağı, pisliklərə yaxşılıqla cavab verməyi tövsiyə edir. Çünki, intiqam almaq düşmənçiliyin aradan qaldırılması deyil, insanı qıcıqlandıran daxili hisslərin yatırılmasıdır.

Nəql olunmuş hədislərdən birində deyilir:

"Günlərin bir günü bir şəxs Həzrət Əlinin (ə) qarşısında o Həzrətin xidmətçisi olan Qənbəri təhqir edir. Qənbər həmin şəxsi susdurmaq istədikdə Əli (ə) Qənbəri səsləyib deyir: "Əl saxla, onunla işin olmasın. Əgər belə etsən, Allahı özündən razı salmış, şeytanı qəzəbləndirmiş və düşmənini cəzalandırmış olarsan. And olsun insanları yaradan və dənləri göyərdən Allaha! Möminlər, Allahı səbirli və təmkinli olmaqla razı saldıqları kimi başqa heç bir şey ilə razı sala bilməzlər. Şeytanı sükut etməklə qəzəbləndirdikləri kimi başqa heç bir şeylə qəzəbləndirə bilməzlər. Nadan insanları etinasızlıqla cəzalandırdıqları kimi başqa heç bir şeylə cəzalandıra bilməzlər".

İndi isə Məsum imamlardan bu məzmunda nəql olunmuş hədisləri nəzərdən keçirək. Bu hədislər həmin məsələnin mahiyyətini açıqladığı üçün onların məzmununa xüsusi diqqət yetirmək lazımdır.

## SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAQ HAQDA NƏQL OLUNMUŞ HƏDİSLƏR

Əli (ə) buyurur:

"**Səbirli və təmkinli** olmaq bütün pisliklərin üzərinə pərdə çəkir".

"**Səbirli və təmkinli** olmaq parlaq bir nurdur. Əql isə onun cövhəridir".

"**Səbirli və təmkinli** olmaqdan böyük şərəf yoxdur".

"**Səbirli və təmkinli** olmağı öyrənin. Çünki, səbr möminin ən yaxın dostu və köməkçisidir".

"**Səbirli və təmkinli** olmağı sənə tövsiyə edirəm. Çünki səbr, elmin səmərəsidir".

Başqa bir hədisdə buyurur:

"**Səbirli və təmkinli** olan şəxs daim şad və sevinc içində olar".

"**Təmkinli** şəxsin ilk mükafatı səbr etdiyi üçün camaatın onu cahil və nadan şəxslərin yanında müdafiə etmələridir".

"Sənin qarşında **səbirli və təmkinli** olan şəxs sənə qalib gəlmiş olur".

İmam Cavad (ə) bu haqda buyurur:

"Səbr alimin geyimidir (paltarıdır). Elə isə onu üzərinizdən çıxarmayın".

## QƏZƏBİN YATIRILMASI HAQQINDA NƏQL OLUNMUŞ HƏDİSLƏR

Peyğəmbər (s) buyurur:

"Allah-taala qəzəbini yatıra bilən şəxslərin qəlblərini imanla doldurar".

Əli (ə) buyurur:

"Qəzəbini boğa bilən şəxsin eyb və nöqsanlarını Allah-taala örtər".

İmam Baqir (ə) buyurur:

"Qəzəbini uda bilən şəxs, əgər bunu edərsə, Allah-taala Qiyamət günü onun qəlbini iman və fərəhlə doldurar (yəni, ona mənəvi rahatlıq nəsib edər)".

İmam Sadiq (ə) Həzrət Peyğəmbərdən (s) nəql edərək buyurur:

"Qəzəbini uda bilən şəxs əgər bunu edərsə, Allah-taala ona səbirli və təmkinli olduğu üçün şəhid savabını verər".

Nəql etdiyi başqa bir hədisdə buyurur:

"İnsanların ən ehtiyatlısı qəzəbini daha çox boğan şəxslərdir".

## SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAĞIN HƏDDİ-HÜDUDU

Həzrət Əli (ə) buyurur:

"Qəzəbi udmaq səbr və təmkinli olmağın səmərəsidir".

İmam Həsən Müctəbadan (ə) səbr haqda soruşduqda buyurur:

"Qəzəbi udmaq, insanın özünü ələ alması deməkdir".

Başqa bir hədisdə buyurur:

"Qəzəbləndiyi zaman özünü ələ alan və qəzəbini boğa bilən şəxslərin vurğunuyam".

Hədislərdən birində deyilir:

Bir şəxs imam Sadiqin (ə) yanına gəlib deyir: "Bundan belə qəzəblənməmək və kiminləsə sərt davranmamaq qərarına gəlmişəm. Lakin dostlarım bunu mənə məsləhət görmürlər və deyirlər ki, əgər belə etsən, hamının nəzərindən düşüb xar və rüsvay olacaqsan". İmam Sadiq (ə) həmin şəxsin cavabında buyurur:

"Xar və rüsvay olan yalnız zalımlardır".

Nəql olunmuş hədislərdən belə bir qənaətə gəlmək olur ki, insanların haqqa hidayət olmalarını və onlara əxlaqi dəyərləri təlim etməyi öz öhdələrinə götürmüş Peyğəmbər (s) və Məsum imamlar (ə) müsəlmanlar arasında səmimi münasibətlərin bərqərar olunması, anlaşılmazlıqların, kin-küdurətin, ədavət və düşmənçiliklərin aradan qaldırılmasında çıxış yolunu güzəşt etməkdə, səbirli və təmkinli olmaqda görmüşlər. Onlar öz davamçılarına daim pisliklərin müqabilində yaxşılıq etməyə, qarşılaşdıqları çətinliklərdə və onlara qarşı edilən hörmətsizliklərin qarşısında səbirli və təmkinli olmağa tövsiyə etmişlər. Lakin, necə olursa-olsun, daim yaranmış şəraiti nəzərə almalı və hər şeydən əvvəl çıxış yolunu hər hansı bir cəza tədbirinə əl atmaqda deyil, şəri qanunlar çərçivəsində lazımi tədbirlər görmək lazımdır.

# TƏMKİNLİ DAVRANIŞ

Burada Peyğəmbər (s) və Məsum imamların (ə) onlara qarşı edilən hörmətsizlik və kobud rəftar müqabilində necə davrandıqları və yüksək əxlaq nümunələri nümayiş etdirmələri haqda söhbət açacağıq. Nəql olunmuş hədis və tarixi sənədlərdə onların, hətta qatı düşmənlərinə qarşı necə mülayim rəftar etmələrinin və bununla onların qəlblərinə yol tapmalarının şahidi oluruq. Bir sözlə, o Həzrətlərin başa vurduqları şərəfli həyat onların davamçıları üçün ən yaxşı örnək, əxlaq və həyat dərsidir. Söhbətimizi Peyğəmbərin (s) sünnəsi ilə başlayırıq.

Os və Xəzrəc, Mədinənin iki böyük və nüfuza malik olan qəbilələrindən idi. Cahiliyyət dövründə onların arasında daimi qarşıdurmalar və illər boyu davam edən müharibələr baş verərdi. Baş vermiş döyüşlərdə hər iki tərəf ağır itkilər verir və böyük çətinliklərlə qarşılaşırdılar. Lakin Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra müqəddəs islam dininin və Peyğəmbərin (s) şərəf, əzəmət və ucalığı sayəsində bu iki qəbilə arasında sülh və əmin-amanlıq bərqərar oldu. Bir gün hər iki qəbilənin adamları birlikdə məclis qurduqları zaman Şas ibni Qeys adlı bir yəhudi onların məclisinə gəlib nəzər salır. İki qəbilə arasında yaranmış səmimi dostluq əlaqələri onu olduqca narahat edir. Belə qərara gəlir ki, yəhudi cavanlarından birini onların məclisinə göndərərək sülh və asayişlərini pozub, qarşıdurma yaratsın. Cavan yəhudi, Qeysin dediyi kimi də edir. O, məclisə daxil olub bir kənarda əyləşir. Qəbilə üzvlərinin biri ilə etdiyi söhbətdə onun yadına əvvəllər baş vermiş qanlı Buğas gününü salır. Hər iki qəbilə yenidən köhnə ədavətlərini xatırlayaraq qarşı-qarşıya durub silaha əl atırlar. Bu xəbər tez bir zamanda bütün şəhərə yayılır. Peyğəmbər (s) bundan xəbər tutub tez özünü onların məclisinə çatdırır. Məclisə daxil olub onlara müraciət edərək buyurur: "Ey müsəlmanlar! Allahı yada salın, Allahı! Mən sizin aranızda ola-ola yenidən cahiliyyət adət-ənənələrinə qayıdırsınız?! Allah-taala sizləri islam dini ilə haqqa hidayət etdiyi və cahiliyyətin zülmətindən nicat verdiyi bir halda yenidən küfrə üz tutursunuz?!" Peyğəmbərin (s) belə bir təsirli çıxışından sonra hər iki qəbilə qılınclarını yerə atıb öz peşimançılıqlarını və o Həzrətə (s) bundan belə də tabe olacaqlarını bildirdilər. Beləliklə yəhudi cavanın mənfur niyyəti baş tutmadı və yenidən hər iki qəbilə arasında sülh və qardaşlıq bərqərar oldu.

İkinci hədisdə deyilir: "Bir gün Peyğəmbər (s) öz səhabələri ilə birlikdə Mədinə məscidində olarkən bir çöl ərəbi məscidə daxil olub Peyğəmbərdən (s) pul istəyir. Peyğəmbər (s) onu əliboş qaytarmayıb bir qədər pul verir. Lakin həmin şəxs ona verilən məbləğdən razı qalmayıb Peyğəmbəri (s) acılayır. Səhabələr bundan hiddətə gəlib onu cəzalandırmaq istəyir. Peyğəmbər (s) təmkinlə onları sakitləşdirib çöl ərəbini evinə aparır. Həmin şəxs evə daxil olduqda Peyğəmbərin (s) olduqca sadə bir şəraitdə yaşadığını görüb təəccüblənir. Çünki o, yanlış olaraq belə təsəvvür edirdi ki, Peyğəmbər (s) də şahlar kimi eyş-işrət içində yaşayır, onun da xəzinələri və ətrafında əyan-əşrafı vardır. Bunun üçün də peşimançılığını etiraf edərək Peyğəmbərdən (s) üzr istəyir. O Həzrət onun üzrxahlığını qəbul edib buyurur: "Sən dünən səhabələrin yanında məni təhqir etdin, indi isə mənə öz minnətdarlığını bildirirsən. Qorxuram onlarla qarşılaşdıqda sənə zərər yetirmiş olsunlar. Bunun üçün də yaxşı olardı ki, bu sözlərini onların yanında da təkrar edəsən". Həmin şəxs bununla razı olub Peyğəmbərlə (s) birlikdə məscidə gəlir. Peyğəmbər (s) üzünü səhabələrə tutub buyurur: "Bu şəxs məndən razı qaldığını bildirir, elədirmi?" Çöl ərəbi səhvini etiraf edib Peyğəmbərin (s) dediklərini təsdiq edir və səhabələrin qarşısında o Həzrətə bir daha öz minnətdarlığını bildirir. Sonra Peyğəmbər (s) yenidən üzünü səhabələrə tutub buyurdu: "Bu şəxs ilə mənim aramda baş vermiş əhvalat, dəvəsi hürküb qaçmış bir çöl ərəbinin hekayəsinə bənzəyir. Camaat ona kömək məqsədilə səs-küy salaraq dəvənin dalınca düşürlər, amma onlar dəvəni tuta bilməyib, əksinə onu daha da uzaqlaşdırırlar. Dəvənin sahibi onlardan kömək etməmələrini xahiş edir. Özü bir qədər ot götürüb dəvəyə tərəf gedir. Beləliklə dəvənin cilovunu ələ keçirir və dəvəsini minib yolunu davam edir. Əgər mən də dünən sizin qarşınızı almasaydım onu ölümcül hala salardınız. Lakin mülayim rəftarla onun qəlbini ələ ala bildim".

Üçüncü əhvalat imam Həsən (ə) haqqında nəql olunmuşdur. Bir gün imam Həsən (ə) atla yol gedərkən Şam əhlindən olan bir nəfər şəxs onu görüb lənət oxumağa və təhqiramiz sözlər deməyə başladı. Qurtardıqda, imam Həsən (ə) gülər üzlə ona tərəf gəlib salam verib buyurdu: "Güman edirəm bu yerlərdə qəribsən və məni kiminləsə səhv salırsan. Əgər bir şeyə ehtiyacın varsa, onu ödəməyə hazıram; bu yerlərə bələd deyilsənsə, sənə bələdçilik edə bilərəm; kömək istəyirsənsə, sənə köməklik edim; acsansa sənə yemək verim; paltarın yoxdursa, sənə paltar verim; qalmağa yerin yoxdursa, sənə yer verək; bizlərə tərəf gəlmisənsə, qonağımız ol. Hər halda səni bir qonaq kimi qəbul etmək üçün kifayət qədər yerimiz və imkanımız var". Həmin şəxs imam Həsənin (ə) bu sözlərini eşidib peşiman olur və xəcalətindən ağlamağa başlayır. Sonra üzrxahlıq istəyərək deyir: "Şəhadət verirəm ki, sən Allahın yer üzərindəki xəlifəsisən. Allah-taala kimləri bu məqama təyin etdiyini çox yaxşı bilir. Bu günə qədər səni və atanı özümə ən qatı düşmən hesab edirdim. Lakin bundan belə hamıdan çox sevdiyim və hörmət etdiyim şəxs olacaqsınız".

Beləliklə, imam Həsən (ə) Bəni-üməyyə sülaləsindən olan qatı bir Əhli-beyt (ə) düşmənini gözəl əxlaq nümayiş etdirməklə ən yaxın şəxslərdən birinə çevirir.

# ƏFV VƏ GÜZƏŞT

Məlum olduğu kimi, ayrı-ayrı fərdlərin hüquqlarının tapdalanması əksər hallarda sakitliyə riayət etməmək, başqalarının növbəsinə girmək, qanunsuz olaraq kiminsə məziyyətindən istifadə etmək və onlarla bu kimi hallarda baş verir. Əgər hər gün rastlaşdığımız belə hallarda cəmiyyət üzvləri bir-birlərinə güzəşt etməzsə və biri digərinin səhvinə göz yummazsa, cəmiyyətdə özbaşınalıq baş alıb gedər və hərc-mərclik ictimai problemə çevrilər. Belə bir şəraitdə müqəddəs islam dininin öz davamçılarına tövsiyə etdiyi şey də səbirli və təmkinli olmaq və bu işdə mümkün qədər güzəştə getməkdir. Allah-taala Qurani-Kərimdə Əraf surəsinin 199-cu ayəsində buyurur:

"Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!" Unutmaq olmaz ki, əfv və güzəşt dedikdə, insan yalnız bəzi hallarda deyil, bütün şəraitlərdə daimi olaraq bu xüsusiyyətə malik olmalı və bu, onun üçün bir növ vərdiş və adət halına çevrilməlidir. Nəql olunmuş hədislərdə yuxarıda qeyd olunan ayənin təfsiri haqda deyilir: "Peyğəmbər (s), Həzrət Cəbraildən ayənin mənası haqqında soruşdu. Cəbrail (ə) cavab verir: "Bilmirəm, gərək ayənin mənasını Allah-taaladan soruşum". Bir qədər sonra Peyğəmbərin (s) yanına nazil olub deyir: "Ey Məhəmməd! Allah-taala sənə zülm edən (haqqını tapdalayan) şəxsi bağışlamağı, səndən nəyisə əsirgəyən şəxsə güzəşt etməyi və səninlə əlaqəsini kəsmiş şəxslərlə səmimi münasibətdə olmağını əmr edir".

Başqa bir ayədə əfv və güzəşt etmək mömin və əməli-saleh şəxslərin xüsusiyyətlərindən biri kimi göstərilir:

…"O müttəqilər ki, bolluqda da, qıtlıqda da [mallarını yoxsullara] xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər..." Digər iki ayədə Allahın güzəşt etməyə əmr etdiyi və bunun müqabilində Allah tərəfindən bağışlanmalarına müjdə verildiyi göstərilir:

...Məgər [bu yaxşılıq müqabilində] Allahın sizi [günahlarınızı] bağışlamağını istəmirsiniz? Allah, [bəndələrini] bağışlayan və rəhm edəndir!"

...Amma [tövbə edəcəkləri təqdirdə] onları əfv etsəniz, [təqsirlərindən] keçsəniz və bağışlasanız, [bilin ki] Allah günahları çox bağışlayan və rəhm edəndir!"

Peyğəmbər (s) və Məsum imamlardan (ə) nəql olunmuş hədislərdə də bu məsələyə xüsusi diqqət yetirilmiş və müsəlmanlara bu gözəl xüsusiyyətə yiyələnmələri tövsiyə edilmişdir. Peyğəmbər (s) buyurur: "Allah çox bağışlayan, rəhm və əfv edənləri sevəndir".

"Hər kim müsəlman bir şəxsin səhvini bağışlayarsa, Allah-taala da onun günahlarını bağışlayar".

"Əfv etməyi və güzəştə getməyi bacarın. Çünki əfv və güzəşt insanların yalnız əzəmət və ucalığını artırır. Allahın sizi ucaltmasını istəyirsinizsə, siz də başqalarını əfv edib günahlarını bağışlayın".

"Çox əfv edən şəxsin ömrü uzun olar".

Əli (ə) buyurur: "Əfv və güzəşt etmək, xüsusiyyətlərin ən yaxşısıdır".

"Bu iki şeyin savabını hesablamaq olmaz: Əfv etmək və ədalətli olmaq".

"İnsanların ən pisi səhvləri bağışlamayan və pisliklərə göz yummayanlardır".

"Ən böyük eyb intiqam almağa tələsmək və az güzəşt etməkdir".

İmam Sadiq (ə) buyurur: "Biz Əhli-beytin səxavət və mərdliyi bizlərə zülm edən şəxsləri əfv etməyimizdədir".

Başqa bir hədisdə buyurur: "Bu üç şey dünya və axirətin ən gözəl xüsusiyyətlərindəndir: Sənə zülm edən (haqqını tapdalayan) şəxsi əfv etmək, əlaqəni kəsən şəxslərlə ünsiyyətdə olmaq və sənə qarşı hörmətsizlik edən şəxslərə qarşı səbr və təmkinli olmaq".

## HANSI ŞƏRAİTDƏ ƏFV VƏ GÜZƏŞT OLUNMALIDIR

Müqəddəs islam dini öz davamçılarını əfv və güzəşt etməyə dəvət etməklə yanaşı, özlərinin və başqalarının haqlarının tapdalanmasına yol verməməyə də əmr edir. Belə bir şəraitdə nə kimsənin haqqı tapdalanır, nə də zəiflik üzündən kimsə öz haqqından keçib günahkarı əfv və güzəşt etməli olur. Deməк, əfv və güzəşt etmək yalnız o zaman öz həqiqi dəyərini tapa bilər ki, insan intiqam almağa qadir olmuş olsun, lakin alicənablıq üzündən buna yol verməsin.

Nəql olunmuş bir çox hədislərdə bu mətləbə xüsusi diqqət yetirilir. Misal olaraq burada onlardan bir neçəsini gətiririk. Peyğəmbər (s) buyurur:

"Allah-taala qüdrəti çataraq əfv və güzəşt edən şəxsin səhvə yol verdiyi zaman günahlarını bağışlayar".

"Əfv və güzəşt etməkdə insanların ən yaxşısı cəzalandırmaq üçün qüdrəti çatan, lakin əfv və güzəştə gedənlərdir".

Əli (ə) buyurur:

"Düşmənin üzərində qalib gəldiyiniz zaman əfv və güzəşt etməyi qüdrətinizin şükrü hesab edin".

"Əfv etmək qüdrətin zəkatıdır".

İmam Həsən (ə) bu haqda buyurur:

"İnsanların ən güzəştlisi o kəsdir ki, qüdrəti çatdığı zaman əfv etməyi bacarsın".

İmam Sadiq (ə) buyurur:

"Qüdrəti çataraq əfv və güzəşt etmək peyğəmbər və müttəqilərin xüsusiyyətlərindəndir".

Peyğəmbərin (s) zamanında müsəlmanların ən böyük qələbəsi Məkkənin fəthi olmuşdur. Böyük qüdrətə malik olan islam ordusu Məkkəyə daxil olarkən müşriklər artıq əvvəlki qüdrət və nüfuzunu itirib müsəlmanlardan asılı vəziyyətə düşmüşdülər. Orduya rəhbərlik edən Səd ibn Ubadə şəhərə daxil olarkən belə bir şüar verir:

"Bu gün müharibə və mübarizə günüdür. Bu gün qadınların əsir alınacaqları gündür".

Bu xəbəri eşidən Həzrət Peyğəmbər (s) bərk narahat olur. O, Həzrət Əliyə (ə) bayrağı Səd ibn Ubadədən alıb orduya rəhbərlik etməyi və - "Xeyr! Bu gün mərhəmət və bağışlanma günüdür!" - şüarını verməyi əmr edir.

Haqqında söhbət açacağımız məsələlərdən biri də hansı şəraitlərdə və kimlərin əfv və güzəşt olunmasıdır.

Güzəşt etməyə gəldikdə, biz yalnız şəxsi məsələlərdə haqqımızı tapdalayan və bizə qarşı hörmətsizlik edən şəxsləri əfv edib bağışlaya bilərik. İlahi və ictimai hüquqlara qarşı hörmətsizlik edildikdə isə, kiməsə güzəşt edib bağışlamağa heç bir ixtiyara malik deyilik.

Güzəşt və əfv nümunəsi olan Həzrət Peyğəmbərin (s) həyatına nəzər saldıqda bir daha bu həqiqətin şahidi oluruq ki, o Həzrət ictimai ədalətin bərqərar olunmasında - ictimai pozğunluğa yol verildikdə - kimsəyə güzəşt etməmiş və müqəssirləri əfv edərək cəzasız qoymamışdır. Həyat yoldaşı Ümmü Sələmənin kənizinin oğurluq etməsini buna misal çəkmək olar. Xəsarət çəkən şəxslər Peyğəmbərin (s) yanına şikayətə gəldikdə Ümmü Sələmənin xahişini nəzərə almadan onların hər birini təmkinlə dinləyib kənizin cəzalandırılmasına dair müvafiq tədbir görür.

Başqa bir misala nəzər salaq. Əli (ə) ətraf məntəqələrə göndərdiyi valilərdən birinin beytul-malı mənimsədiyini eşidib ona belə bir xəbərdarlıq məktubu yazır: "Allahdan qorx və camaatın malını özlərinə qaytar! Əgər bunu etməsən və Allah mənə səni görməyimə imkan verərsə, müşrikləri cəhənnəmə vasil etdiyim bu qılıncla səni öz cəzana çatdıracağam. And olsun Allaha! Əgər Həsən və Hüseyn sənin gördüyün bu işi görsəydilər, onları cəzalandırmaqda əsla peşiman olmazdım".

Demək, şəxsi məsələlərdə əfv və güzəştə yol verilsə də, ilahi və ictimai hüquqların bərpa olunmasında bu iş qeyri-mümkündür. Əgər buna yol verilərsə, yalnız Allahın izni, Peyğəmbər (s) və onların naibləri tərəfindən ola bilər.

Bir şeyi də nəzərdən qaçırmaq olmaz ki, əfv və güzəşt yalnız öyüd-nəsihətdən ibrət alan və bunun qədrini bilən şəxslərə edilməlidir. Çünki, onlar xəbərdarlıq olunarkən buraxdıqları səhvə birdəfəlik son qoyur və düzgün nəticə çıxarırlar. Nadan və inadkar insanlar isə əksinə, əvvəlkindən daha çox başqalarının haqqını tapdalayır və onlara edilən öyüd-nəsihətlərdən heç bir nəticə çıxarmırlar.

Əli (ə) bu barədə buyurmuşdur:

"Əfv və güzəşt alicənab insanı nə qədər islah edirsə, nadan insanı bir o qədər fasid edir".

İmam Zeynülabidin (ə) buyurmuşdur:

"Sənə pislik edən şəxsin haqqı onu bağışlamağından ibarətdir. Əfv etməyin zərərli olduğunu bildikdə isə onun üzərində hakim ol. Allah-taala buyurur: "Haqqı tapdalanan şəxslər intiqam aldıqda günahkar sayılmazlar".

# İNSAF

İctimai əlaqələrin bərqərar olunmasında insaf və ədalət islam əxlaqının əsasını təşkil edir. Burada "insaf" dedikdə, insanların özlərinə rəva bildikləri və sevdikləri hər bir şeyi başqalarına da rəva görüb onlar üçün istəmələri nəzərdə tutulur. Bu bir həqiqətdir ki, insanların əksəriyyəti haqq-ədalət deyildikdə, olduqca canfəşanlıq göstərir, onun əməli olaraq həyata keçirilməsinə gəldikdə isə, ədalət onların zərərinə olarsa, ya əməl etmir, yaxud da öhdəsindən gələ bilməyib öz üzərlərindən atmağa çalışırlar.

Əli (ə) bu barədə buyurur:

"Haqqın tərifi hər şeydən daha genişdir, əmələ gəldikdə isə hər şeydən daha məhdud və kiçik olur".

Yəni, haqq-ədalətdən söz düşdükdə hamı bu haqda çox danışır, əmələ gəldikdə isə bir çox hallarda biri digərinin haqqını tapdalayır və ictimai ədalətin bərqərar olunmasında üzərinə düşən məsuliyyəti lazımınca yerinə yetirmir.

Bu səbəbdən də Qurani-Kərimin bir çox ayələrində ictimai ədalətin bərqərar olunmasına xüsusi diqqət yetirilmiş və bu mətləbə dəfələrlə təkid olunmuşdur:

...

"...Söz söylədiyiniz zaman [lehinə və əleyhinə danışdığınız adam] qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi [dini vəzifələrinizi, andlarınızı] yerinə yetirin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə düşünüb öyüd-nəsihət qəbul edəsiniz!"

Başqa bir ayədə buyurur:

"Ey iman gətirənlər! [Şahidliyiniz] sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! [Əleyhinə şahidlik edəcəyiniz şəxs] istər dövlətli, istərsə kasıb olsun, hər halda Allah onların hər ikisinə sizdən daha yaxındır! Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib-büzsəniz və ya [doğru şəhadət verməkdən, yaxud ümumən şahidlikdən] boyun qaçırsanız, [bilin ki,] Allah etdiyiniz işlərdən xəbərdardır!"

Göründüyü kimi ayədə ədalətə təkid olunmaqla yanaşı, iki mühüm məsələyə də işarə olunur:

1. Ayrı-ayrı şəxslərin özlərinin və ya qohum-əqrəbasının zərərinə olsa belə, ədalətli olmalı;
2. İnsanların yoxsul və ya varlı olmalarını nəzərə alıb onların istəklərinə uyğun hökm çıxarmamaq.

Məsələn yoxsulların maddi vəziyyətlərinin aşağı səviyyədə olduğunu görüb, haqq onlarla olmasa belə, rəhm edib onların tərəfi saxlanılmamalı və ya dövlətlilərin var-dövlətə olan əlaqələrini görüb onların xeyrinə hökm çıxarılmamalıdır.

Qurani-Kərimin başqa bir ayəsində bu mətləbə işarə olunaraq buyurulur:

"Ey iman gətirənlər! Allah qarşısında [borcunuzu yerinə yetirməkdə] sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir şəxsə qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!"

Göründüyü kimi bu ayədə də Allah-taala haqq-ədalətə əmr etdikdən sonra bir daha düşmənçilik, kin-küdurət üzündən insafı əldən verməməyi xatırladır. Belə ki, bir çox hallarda insanlar başqalarından bir pislik gördükdə intiqam almaqda həddi aşır və belə olduqda təbii ki, ədalətə riayət etməyə qadir olmurlar.

Əldə olunan hədislərdə də bu mətləbə xüsusi diqqət yetirildiyinin şahidi oluruq.

Peyğəmbər (s) buyurur:

"İnsanların ən ədalətlisi o kəsdir ki, özünə istədiyi şeyi başqaları üçün də istəsin və özünə rəva bilmədiyi şeyi başqaları üçün də rəva bilməsin".

Başqa bir hədisdə buyurur:

"Yoxsullara əl tutan və camaata köməklik edən şəxs, həqiqi mömindir".

Həzrət Əli (ə) insafı insanın vüqar və izzəti hesab edir:

"Allah-taala camaatla insafla rəftar edən şəxsin izzət və əzəmətini daha da artırar".

Dərsin əvvəlində qeyd olunan hədislərdə ədalət və insafın tərifi ilə tanış olduq. Növbəti hədislərdə isə ədalətli olmağın hədd-hüdudu və mahiyyətinə işarə olunacaqdır. Həzrət imam Əli (ə) imam Həsən Müctəbaya (ə) etdiyi vəsiyyətində buyurur:

"Ey övladım! Nəfsini özünlə başqaları arasında tərəzi qərar ver. Özünə istədiyin şeyləri onlar üçün də istə. Özün üçün istəmədiyin şeyləri başqaları üçün də istəmə. Kimsənin sənə zülm etməsini istəmədiyin kimi, sən də onlara zülm etmə. Başqalarının sənə yaxşılıq etmələrini istədiyin kimi, sən də başqalarına yaxşılıq et. Özünə məsləhət görmədiyin şeyləri başqalarına da məsləhət görmə. Özünün onlara qarşı etdiyin rəftarı bəyəndiyin kimi, onların da sənə qarşı etdiklərini bəyən və qəbul et. Bilmədiyin şey haqqında bir şey söyləmə, yalnız sənə məlum olan şeylər haqqında danış. Başqalarının sənə sevmədiyin şeyləri demələrini sevmədiyin kimi, sən də başqalarının sevmədiklərini onlara demə!"

Nəql olunmuş hədislərin bir çoxunda "insafun-nasi minən-nəfsi" ifadəsindən istifadə olunur. Bu dərsdə Peyğəmbər (s) və Həzrət Əlidən (ə) nəql olunmuş hədislərdə də bu ifadədən istifadə olunduğunun şahidi oluruq. Mənası isə budur ki, insan özü ilə başqaları arasında hökm çıxardığı zaman, özünü başqalarının yerinə qoymalı, özünü haqlı hesab etdiyi kimi başqalarını da haqlı hesab etməli və ya əksinə, müqəssir olduğu zaman başqaları haqda cəza tədbiri nəzərdə tutduğu kimi, özünü də cəzalandırmağa hazır olsun. Bunlarla yanaşı, haqsız olduğu zaman da özünə bəraət qazandırmağa çalışmamalıdır. Buradan belə məlum olur ki, Həzrət Əli (ə) oğlu imam Həsənə (ə) etdiyi vəsiyyətnamədə sözün əsl mənasında "insafun-nasi minən-nəfsi" cümləsini təfsir etmişdir.

Həmçinin Malik Əştərə verdiyi göstərişdə buyurur:

"Özünlə Allah, camaat, yaxınlar və qohum-əqrəba arasında insafa riayət et! Belə etmədiyin təqdirdə, zülmkar hesab olunarsan. Allah bəndələrinə zülm edən kəslər Allahın düşmənləridirlər. Onlar tövbə edib zülmkarlıqdan əl çəkməyincə Allahla müharibə etmiş olarlar".

## ƏXLAQİ İNCƏLİK

İmam Sadiq (ə) buyurur:

"İstəyirsinizmi sizin üçün Allahın təyin etdiyi ən ağır və vacib məsuliyyətin nədən ibarət olduğunu açıqlayım?

Sonra imam (ə) üzünü səhabələrə tutub buyurur: "Camaatla insafla rəftar etmək və onların hüquqlarını qorumaq".

Nəql olunmuş başqa bir hədisdə deyilir:

İmam Baqirin (ə) səhabələri onları maraqlandıran bir neçə sualı məktuba yazaraq Əbdül Əla adlı bir şəxs ilə Mədinəyə göndərirlər. Bu suallarla yanaşı onun imam Sadiqdən (ə) şifahi olaraq müsəlmanın öz müsəlman qardaşının üzərində nə kimi hüquqa malik olması haqda soruşmasını da xahiş edirlər. Əbdül Əla deyir: Məktubu imam Sadiqə (ə) verib ondan müsəlmanların bir-birlərinin üzərində hansı hüquqa malik olmaları haqda soruşdum.

İmam Sadiq (ə) sonuncu (şifahi) sualımdan başqa bütün suallarıma təmkinlə cavab verdi.

Sonra buyurdu: "Allahın insanların üzərinə qoyduğu ən ağır vəzifə bu üç şeydən ibarətdir:

1. Ədalət və insafa riayət etmək. Belə ki, hər bir müsəlman öz müsəlman qardaşı ilə elə rəftar etməlidir ki, başqalarının da onunla eyni tərzdə rəftar etmələrini istəyir;
2. Müsəlman qardaşının şəraitini nəzərə almalı və öz malını onlardan əsirgəməməlidir;
3. Hər zaman Allahı xatırlamalı. Lakin bu heç də o demək deyildir ki, daim "sübhanəllah" və "əlhəmdulillah" deyərək zikr etməlidir. Xeyr. O, haramla qarşılaşdığı zaman Allahın onun gördüyü bütün işlərdən agah olduğunu yəqin edərək ondan uzaq olmağa çalışmalıdır".

Göründüyü kimi haqq-ədalətə, insafa riayət etmək insanın üzərinə düşən ən ağır vəzifələrdən biri kimi göstərilir. Bunun üçün ilk növbədə insan öz nəfsi ilə mübarizə aparmalı və lazım gələrsə başqalarını özündən üstün tutmağı bacarmalıdır.

## ZARAFAT VƏ GÜLƏRÜZLÜLÜK

Əxlaqi xüsusiyyətlərdən biri də gülərüzlülükdür. Peyğəmbər (s) və məsum imamlar (ə) yaşadıqları cəmiyyətdə qarşılaşdıqları şəxslərlə gözəl və səmimi münasibətdə olmuş və bunu öz davamçılarına da tövsiyə etmişlər:

"İnsanlara var-dövlətinizlə sevinc gətirə bilməzsiniz. Elə isə onlarla gülərüz və mehribanlıqla rəftar edin".

Yəni, var-dövlətiniz nə qədər çox olsa da, insanların (mənəvi) çətinliklərini həll edə bilməzsiniz. Elə isə öz səmimi rəftarlarınızla onların sevincinə səbəb olun.

Əli (ə) mehriban və təbəssümlü olmağı möminlərin xüsusiyyətlərindən biri hesab edərək buyurur:

"Möminlərin sevinc və şadlığı onların çöhrəsində aşkar olar, qəm-qüssələri isə qəlblərində gizlənər".

Bu səbəbdən də hər hansı bir çətinliklə qarşılaşan mömin şəxs öz mömin qardaşları ilə ünsiyyətdə olarkən özünü kədərli göstərməklə onların qəm-qüssəsinə səbəb olmamalıdır. Gündəlik həyatımızda hamı bir sıra çətinliklərlə qarşılaşır və təbii ki, bu, onların narahatçılıqlarına səbəb olur. Əgər hər birimiz gündəlik həyatda qarşılaşdığımız çətinliklər ucbatından öz müsəlman bacı və qardaşlarımızla soyuq münasibətdə olarıqsa, həyat bizim üçün olduqca acı və mənasız olacaqdır. Bu səbəbdən də cəmiyyətdə sevinc, şadlıq və yüksək əhval-ruhiyyə hiss olunsun deyə, Həzrət Əlinin (ə) tövsiyə etdiyi kimi, üzlərdə sevinc və təbəssüm olmalı, kədər və qəm-qüssə isə qəlblərdə gizli qalmalıdır.

## GÜLƏRÜZLÜLÜYÜN MÜSBƏT NƏTİCƏLƏRİ

Bu məzmunda Peyğəmbər (s) və məsum imamlardan (ə) kifayət qədər hədis nəql olunmuşdur. Burada onlardan bir neçəsini qeyd edək:

Peyğəmbər (s) buyurur:

“Təbəssümlü və gülərüzlü olmaq kin-küdurəti aradan aparır”.

Əli (ə) buyurur:

“Təbəssümlü olmaq dostluğun (möhkəm) ipidir”.

O Həzrət yenə də buyurur:

“Təbəssümlü olmaq bir (növ) qohumluqdur”.

İnsanların dostluq əlaqələrinin daha da səmimiləşməsinə və düşmənlərin qəlblərindən kin-küdurətin götürülməsinə səbəb olacaq ən gözəl şey onların bir-birləri ilə qarşılaşarkən gülərüzlə davranmaları, el-obasından uzaq düşdükdə (ailə üzvlərinə) yardım etmələridir.

Başqa bir hədisdə deyilir:

“Gülərüzlülük alicənablığa dəlalət edir”.

İmam Baqir (ə) gülərüzlülüyü insanlar arasında dostluğun, səmimiyyətin artmasının və insanın Allaha yaxınlaşmasına səbəb olacaq ən başlıca amillərdən biri hesab edir. O Həzrət bu haqda buyurur:

“Gülərüzlülük insanların bir-birləri ilə dostluq və səmimiyyətinə və Allaha yaxınlaşmalarına, qaraqabaqlıq isə onların bir-birləri ilə düşmənçiliyinə və Allahdan uzaq düşmələrinə səbəb olur”.

Əli (ə) buyurur:

“Din [müsəlman] qardaşlarınızla qarşılaşdığınız zaman əl-ələ görüşüb bir-birinizdən ayrılana qədər təbəssümlü olun. Belə edərsinizsə, boynunuzdakı günahlar bağışlanar”.

Nəql olunmuş növbəti hədislərdə isə müsəlmanların bir-birləri ilə daha da səmimi əlaqədə olmalarına sövq edən bu gözəl əxlaqi xüsusiyyətin axirət nəticələrinə toxunulur.

İmam Sadiq (ə) buyurur:

“Bu üç şeydən birinə riayət edən şəxsə Allah-taala cənnəti vacib edər:

1. Yoxsulluqda başqalarına əl tutmaq;
2. Camaatla gülərüzlə rəftar etmək;
3. İnsaflı olmaq [ədalətə riayət etmək]”.

## ZARAFAT ETMƏK

**Zarafatın müsbət xüsusiyyət olduğu haqda nəql olunmuş hədislər.**

Peyğəmbər (s) buyurur:

“Mömin zarafatcıl və xoştəbiətli, münafiq isə qəmgin və qəzəbli olar”.

“Zarafat edirəm, lakin həqiqətdən başqa bir şey söyləmirəm”.

İmam Baqir (ə) buyurur:

“Allahın sevdiyi şəxslərdən biri də o şəxsdir ki, nalayiq sözlər demədən zarafat edir”.

İmam Baqir (ə) üç şeyi möminlərin əyləncəsi hesab edir. Onlardan biri də dostlarla zarafatdır.

İmam Sadiqin (ə) səhabələrindən Yunis Şeybani adlı birisi deyir:

“İmam Sadiq (ə) məndən soruşdu:

- Bir-birinizlə zarafat edirsinizmi?

Dedim:

- Çox az.

Buyurdu:

- Belə olmayın. Çünki gözəl xüsusiyyətlərdən biri də zarafat etməkdir. Zarafat etməklə öz din qardaşlarınızı sevindirmiş olursunuz. Peyğəmbər (s) birini sevindirmək istərkən onunla zarafat edərdi”.

**Çox zarafat etməyin pislənilməsi.**

Zarafat etmək nə qədər müsbət xüsusiyyət hesab olunsa da təbii ki, onun hədd və hududu gözlənilməlidir. Belə ki, bir çox hədislərədə çox zarafat etmək mənfi hal kimi göstərilmişdir:

Peyğəmbər (s): «Çox zarafat etmək abrı aparır».

İmam Əli (ə): «Nə qədər çox zarafat var ki, mübahisə ilə nəticələnir».

İmam Rza (ə): «Çox zarafat etmək iman nurunu aradan aparar».

# ÇƏTİNLİKLƏRİN HƏLLİ

Əvvəlki dərslərdə deyildiyi kimi, möminlər bir-birləri ilə qardaş və həmrəy olmalıdırlar. Bu isə o deməkdir ki, onlar bir ailə üzvləri kimi bir-birlərinin qayğılarına qalmalı, sevinc və kədərlərini birgə bölüşdürməlidirlər. Belə ki, hər bir insan özünü başqalarının sevinc və kədərində şərik hesab edirsə, başqalarından da özünə qarşı həmin rəftarı gözləyir.

Peyğəmbər (s) özünün məşhur hədislərindən birində buyurur:

“Möminlər mehr və məhəbbət baxımından bir bədən üzvü kimidirlər. Bədən üzvlərindən biri ağrıdığı zaman, digər bədən üzvləri də onunla həmdərd olurlar”.

Möminlərin birlik və həmrəyliyinə dair bundan gözəl ifadə tapmaq mümkün deyil.

Maidə surəsinin 2-ci ayəsində deyilir:

“...Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun...”

Peyğəmbər (s) buyurur:

“Müsəlmanların xeyir və şərində iştirak etməyən və yardım diləyən müsəlmanın dadına çatmayan şəxs müsəlman deyildir”.

İmam Sadiq (ə) buyurur:

“Çətinlikdə olan müsəlman qardaşını gülər üzlə qarşılamayan şəxs Allaha, Həzrət Məhəmmədə (s) və Həzrət Əliyə (ə) iman gətirməmişdir. İmkanı çatdığı təqdirdə özü onun ehtiyacını ödəməli, çatmadıqda isə başqalarını bu işə sövq etməlidir. Buna əməl etməyən şəxs ilə bizim [Əhli-beytin] aramızda heç bir vilayət [əhd-peyman] yoxdur”.

Nəql olunmuş hədislərdə var-dövlətini müsəlmanların rifahı naminə onların ixtiyarına qoymayan şəxslərin acınacaqlı aqibətləri, Allahın qəzəbinə düçar olacaqları və nəticədə var-dövlətlərinin Allah düşmənlərinin yolunda sərf edəcəkləri nəql olunur.

İmam Baqir (ə) buyurur:

“Müsəlman qardaşının qarşılaşdığı çətinliyin aradan qaldırılmasında və ehtiyaclarının ödənilməsində köməklik göstərməyən şəxs nəticədə günah edər və itaətsizlikdən çəkinməyən kəslərə yardım etməyə vadar olar. Bunun üçün onlar heç bir savaba nail olmazlar”.

İmam Sadiq (ə) buyurur:

“Allah-taala imkanı çatdığı təqdirdə bizim ehtyacı olan davamçılarımıza kömək etməyən şəxsi düşmənlərimizin ehtiyaclarını aradan qaldırmağa vadar edər və həmin şəxs qiyamət günü ağır əzaba düçar olar”.

İmam Musa Kazim (ə) bu haqda buyurur:

“İmkanı çatdığı təqdirdə yanına gələn müsəlman qardaşının ehtiyacını ödəməyən şəxs özü ilə Allah arasında olan əlaqəni kəsmişdir”.

İmam Sadiqdən (ə) nəql olunmuş başqa bir hədisdə ehtiyacı olan şəxslərə yardım etməyənlərin Allaha və onun peyğəmbərinə xəyanət etdikləri göstərilir.

Allah-taala mömin qardaşından ehtiyac duyduğu şeyi əsirgəyən və ya başqalarının vasitəsilə onun çətinliklərini aradan qaldırmayan şəxsləri qiyamət günü üzü qara və əlləri boyunlarından asılı bir halda məhşərə daxil edər. Onlar məhşərə daxil olarkən deyərlər: “Bunlar Allaha və onun peyğəmbərinə xəyanət edən kəslərdir. Sonra onların cəhənnəmə aparılmalarına əmr olunar”.

Məşhur islam alimlərindən biri olan Vaqidi deyir: “İki nəfər şəxslə dostluq edərdim. Onlardan biri seyyid idi. Biz üç dost həddindən artıq səmimi idik. Bir il maddi vəziyyətim olduqca aşağı səviyyəyə düşdü və bütün ili yoxsulluqla başa vurmalı oldum. Bayram qabağı həyat yoldaşım mənə dedi: Biz çətinliyə dözə bilərik. Uşaqlar isə qonşu uşaqlarının bayrama necə təm-təraqla hazırlaşdıqlarını və təzə paltarlar geydiklərini görüb öz köhnə paltarlarından xəcalət çəkər və qəlbləri sınar. Əgər mümkünsə bir qədər pul tap ki, uşaqlar üçün təzə paltarlar alaq.

Seyyid dostuma məktub yazıb ondan bir qədər pul göndərməsini istədim. O da tez bir zamanda mənə min dirhəm pul göndərdi. Pul kisəsinin ağzını açmağa macal tapmamış, o biri dostumdan

məktub aldım. Məktubda məndən kömək istəyirdi. Pul kisəsini açmadan ona göndərdim. Beləliklə, həyat yoldaşımın yanına əliboş qayıdacağımdan xəcalət çəkib məscidə tərəf getdim. Yolda təsadüfən seyyid dostuma rast gəldim. Həmin pul kisəsi də onun əlində idi. Göndərdiyi pulu nə etdiyimi soruşduqda əhvalatı olduğu kimi ona danışdım. Dostum pul kisəsini göstərib dedi ki, sən onu mənim özümə qaytarmısan. Sözün doğrusu əlimdə olan pulu sənə göndərdikdən sonra özüm olduqca ağır vəziyyətə düşdüm. Bunun üçün də dostumuza məktub yazıb ondan kömək etməsini istədim. Lakin onun da vəziyyəti ağır olduğu üçün mənə heç bir köməklik edə bilmədi. Bunun üçün də sənə məktub yazıb köməklik etməyini istəmişdir. Beləliklə, pul kisəm mənim özümə qayıtmışdır. İndi ki, belədir, bu pulu üç hissəyə bölməliyik ki, hər üçümüz ondan istifadə edə bilək".

Qurani-Kərimdə möminlər arasındakı əlaqə haqda deyilir:

"...Özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar..."

İmam Sadiq (ə) müsəlmanları bir-birlərinə əl tutmağa sövq etmək məqsədilə buyurardı:

"Biri məndən nə isə bir şey istədiyi zaman mümkün qədər tez onun ehtiyacını ödəməyə çalışıram. Çünki, qorxuram o öz ehtiyacını başqa bir yolla təmin edə və mənim ona köməklik etməyimə fürsət olmaya".

Nəql olunmuş bir çox hədislərdə müsəlmanların çətinliklərinin aradan qaldırılmasına və bu işin olduqca böyük savabı olduğuna dəfələrlə işarə olunmuşdur. Dərsin sonunda biz onlardan bir neçəsinə işarə edirik:

Əli (ə) buyurur:

"Müsəlman qardaşına köməklik edən şəxsin ruzisi bol olar".

İmam Sadiq (ə) buyurur:

"(Müsəlman) qardaşlarınıza kömək etməklə Allaha yaxınlaşın".

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə buyurulur:

"And olsun Allaha! Mömin bir şəxsin ehtiyacını ödəmək bir ay oruc tutub ibadət etməkdən daha yaxşıdır".

# MÖMİNLƏR ARASINDA SÜLH VƏ ƏMİN-AMANLIĞIN BƏRQƏRAR OLUNMASI

Ötən dərsdə yüksək əxlaqi xüsusiyyətlərdən biri olan möminlərə yardım və onların maddi vəziyyətlərinin yaxşılaşdırılması haqda söhbət açdıq. Qeyd etdik ki, mömin bir şəxsin öz mömin qardaşına miqdarından asılı olmayaraq maddi yardım etməsi onun rifahının yaxşılaşması ilə yanaşı, qəlbinə də sevinc gətirməsinə səbəb olur.

Bu xüsusiyyətə hər bir müsəlman malik olmalı və bunu üzərinə düşən ən ümdə dini və insani vəzifələrdən biri hesab etməlidir. Bu dərsdə digər əxlaqi xüsusiyyətlərdən biri, yəni möminlər arasında sülh və əmin-amanlığın bərqərar olunması haqda söhbət açacaq və bu məzmunda nəql olunmuş bir neçə hədis oxuyacağıq.

Peyğəmbərdən (s) soruşurlar:

- Allah yanında ən sevimli iş nədən ibarətdir?

Buyurur: - Müsəlmanları sevindirməyə çalışmaq.

- Müsəlmanları necə sevindirməli?

Buyurdu: - Ac olduğu zaman doydurmaq, kədərli olduğu zaman qəm-qüssəsini dağıtmaq və borclu olduğu zaman borcunu ödəmək.

Əli (ə) səhabələrindən biri olan Kumeylə tövsiyə edərək buyurur:

Ey Kumeyl! Ailə üzvlərini gündüzlər fəzilət (savab) qazanmağa və gecələr yuxuda olan camaatın ehtiyaclarını ödəməyə vadar et. And olsun hər şeyi eşidən Allaha! Yad bir dəvə sürüdən ayrıldığı kimi, Allah-taala qəlblərə sevinc gətirən şəxslərin qəlblərindən qəm-qüssə ilə qarşılaşdıqları zaman dərdi uzaqlaşdırar.

İmam Baqir (ə) buyurur: «Müsəlman qardaşınızın üzünə gülüb onun dərd-qəmini dağıtmaq ən xeyirxah işlərdəndir. Allah yanında ən xeyirxah (sevimli) iş mömin bir şəxsi sevindirməkdir».

İmam Sadiq (ə) buyurur:

"Sizlərdən heç biriniz belə güman etməsin ki, mömin bir şəxsi sevindirməklə yalnız onu sevindirmiş olursunuz. And olsun Allaha, həmin şəxs həm biz Əhli-beyti, həm də Peyğəmbəri (s) sevindirmiş olur".

Peyğəmbər (s) buyurur:

Mömin bir şəxsi sevindirən bir şəxs məni sevindirmişdir və məni sevindirən şəxs Allahı sevindirmişdir.

İmam Sadiq (ə) buyurur:

Allah-taala Davuda (ə) belə bir vəhy nazil etdi:

"Bəndələrimdən xeyirxah iş görənin hər birini cənnətə daxil edəcəyəm".

Davud (ə) soruşdu:

- İlahi! Həmin xeyirxah iş nədən ibarətdir?

Buyurdu: - Bir xurma ilə olsa belə, mömin bəndələrimin qəlblərinə sevinc bəxş edib onları razı salmaq.

Davud (ə) sonra dedi:

- İlahi! Səni tanıyan bəndələrin Sənin üzərində olan haqları da bundan ibarətdir ki, bəslədikləri ümidi onlardan kəsməyəsən.

Peyğəmbər (s) buyurur:

"Könül açan sözlərlə müsəlman qardaşının qəlbinə sevinc gətirən və qəm-qüssəsini dağıdan şəxs bu müddət ərzində Allahın rəhmət kölgəsində olar".

Nəql olunmuş hədislərdən möminlərin qəlblərinə sevinc gətirməyin nə qədər fəzilətli və Allah yanında sevimli bir iş olduğu artıq bizə məlum oldu.

Bu gözəl xüsusiyyətə hər bir müsəlman adət etməli və hansı şəraitdə olursa olsun, ona əməl etməyə cəhd göstərməlidir.

Axırda belə bir nəticəyə gəlirik ki, öz müsəlman qardaşının çətinliklərinin aradan qaldırılmasında əlindən gələn köməkliyi edən, onların qəlblərinə sevinc və şadlıq gətirən şəxslər Allahın, Peyğəmbərin (s) və onun Əhli-beytinin məhəbbət və razılığını qazanmış olur.

Hər bir müsəlmanın üzərinə düşən ən başlıca vəzifələrdən biri də onun möminlər arasında sülh və əmin-amanlıq, asayiş və səmimiyyətin bərqərar olunmasında əlindən gələn köməkliyi göstərməsidir. Bu məzmunda nəql olunmuş hədis və Quran ayələri haqda söhbət açmazdan əvvəl qeyd etmək lazımdır ki, möminlərin bir-birləri ilə əlaqələrini kəsmələri və yaranmış cüzi ixtilaflar nəticəsində bir-birlərinə düşmən kəsilərək soyuq münasibət bəsləmələri heç də müsəlmana xas olan xüsusiyyətlərdən deyildir.

Peyğəmbər (s) bu barədə buyurur:

«İki nəfər müsəlman şəxs üç gündən artıq bir-birindən küsülü qalsalar, dindən xaric olmuş olarlar. Onlardan biri digəri ilə barışmayınca aralarında dini münasibətlər bərqərar olunmayacaq. İlk barışığa gedən şəxs cənnətə daha tez daxil olar».

İmam Sadiq (ə) buyurur:

«Bir-birindən küsən iki nəfər müsəlman şəxs (xüsusilə müqəssir olanı) qəzəb və nifrətdən savayı bir şey əldə etməzlər».

Maidə surəsinin 91-ci ayəsində deyilir:

“Şübhəsiz ki, şeytan aranıza ədavət və kin salmaq, sizi Allahı yada salmaqdan və namaz qılmaqdan ayırmaq istər...”

İmam Sadiq (ə) buyurur:

İki nəfər müsəlman bir-biri ilə küsülü olduğu zaman iblis sevinc hissi keçirər. Barışdıqda isə dizləri titrəyib yerə yıxılaraq fəryad edər: «Vay halıma, artıq həlak oldum!»

Qurani-kərimdə buyurulur:

“Həqiqətən, möminlər [dində] qardaşdırlar. Buna görə də [aralarında bir mübahisə düşsə] iki qardaşınızın arasını düzəldin...”

“...Ona görə də, əgər [həqiqi] möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin...

“Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq sədəqə verməyə, yaxud yaxşılıq etməyə və ya insanlar arasında sülh yaratmağa əmr edən şəxsin söhbətindədir. Allahın razılığını qazanmaq üçün belə işlər görən şəxsə [axirətdə] böyük mükafat verəcəyik!”

Əli (ə) vəfat etməzdən əvvəl oğlanları Həsən və Hüseynə (ə) bu vəsiyyəti edir:

«Sizləri, övladlarınızı, bütün qohum-əqrəbalarımı və mənim vəsiyyətnaməmi oxuyan bütün şəxsləri işlərində nizam-intizama hidayət etməyə, pəhrizkar olmağa və bir-birinizə səmimi münasibət bəsləməyə tövsiyə edirəm. Babanız Peyğəmbər (s) buyurardı:

[Dost və qohum-əqrəbanın bir-birləri ilə] gözəl münasibətdə olmaları bir illik qılınan namaz və tutulan orucdan daha yaxşıdır».

Qeyd olunan ayə və hədislərdən müsəlmanlar arasında kin-küdurətin aradan qaldırılmasının, dostluq və səmimiyyətin yenidən bərpa olunmasının əhəmiyyəti açıq-aşkar bəlli oldu.

## YETİM VƏ KİMSƏSİZLƏRƏ QAYĞI GÖSTƏRMƏK

Möminlərə sevinc bəxş etməklə yanaşı, islam dininin tövsiyə etdiyi xeyirxah işlərdən biri də yetim və kimsəsizlərin qayğısına qalmaq və onları himayəyə götürməkdir. Ata-anasını itirmiş kimsəsiz uşaqların qayğısına qalan müqəddəs islam dini bu məsələyə xüsusi diqqət yetirmişdir. Allah-taala Qurani-kərimdə Peyğəmbərə (s) xitab edərək buyurur:

«Məgər o səni yetim ikən tapıb sığınacaq vermədimi?!»

Sonra Peyğəmbərə (s) tövsiyə edərək buyurur:

«Elə isə yetimə zülm etmə!»

Bildiyimiz kimi, Peyğəmbər (s) dünyaya gəldiyi ilk gündən etibarən ata qayğısından məhrum qalmış və kiçik yaşlarından anasını itirərək yetimlik acısını dadmışdır. O Həzrət (s) yetim uşaqlara mehriban olmaqla yanaşı, onlara qayğı göstərər və müsəlmanlara kimsəsiz uşaqları öz himayələrinə almalarını və imkan daxilində onların məişətlərini təmin etmələrini tövsiyə edərdi. Bu haqda buyurardı:

"Allahın ən sevdiyi ev, o evdir ki, orada yetim bir uşaq hörmət və nəvazişlə yaşamış olsun".

"Yetim uşaqlara qarşı olduqca mehriban ol və bil ki, hər nə əksən, onu da biçərsən".

"Cənnətdə [olduqca gözəl] bir saray vardır. Ora fərəh və şadlıq adı ilə şöhrət tapmışdır. Oraya daxil olan şəxslər yalnız möminlərin yetim uşaqlara sevinc bəxş edən şəxslər olacaqdır".

"Üç nəfər yetim uşağı öz himayəsinə alan şəxs sanki gündüzlər oruc tutub, gecələri ibadətlə keçirmiş və səhərdən axşamadək Allah yolunda cihad etmişdir. (Sonra iki orta barmaqlarına işarə edib buyurdu): - Bunlar iki bacı olduqları kimi, qiyamət günü mən də onunla cənnətdə qardaş olacağam".

"Xeyirxahlıq ona deyərlər ki, insan Allaha xatir öz var-dövlətindən yetim uşaqlar və ehtiyacı olan yaxın qohum-əqrəbalarına sərf etmiş olsun".

Qurani-Kərim üç gün ardıcıl olaraq ailəsinin iftar yeməyini yoxsul bir kimsəyə verən Əlinin (ə) belə bir xeyirxah və insanpərvər əməlini bu gözəl ifadələrlə vəsf edir:

«Onlar öz iştahaları çəkdiyi, özləri yemək istədikləri halda [və ya Allah rizasını qazanmaq uğrunda] yeməyi yoxsula, yetimə və əsirə yedirdərlər.

[Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər]: Biz sizi ancaq Allah rizasından ötrü yedirtdik. Biz sizdən [bu ehsan müqabilində] nə bir mükafat, nə də bir təşəkkür istəyirik».

Qurani-Kərimin başqa bir ayəsində buyurulur:

«Xeyr! [Belə deməyin]. Doğrusu siz özünüz yetimə hörmət etmirsiniz [yetimin haqqını vermirsiniz].
Bir-birinizi yoxsulu yedirtməyə rəğbətləndirmirsiniz».

«[Ya Peyğəmbər!] Dini [haqq hesab gününü] yalan hesab edəni [Əbu Cəhli] gördünmü?
O elə adamdır ki, yetimi itələyib qovar [haqqını verməz];
Və [xalqı] yoxsulu yedirtməyə rəğbətləndirməz [nə özü fəqiri yedirdər, nə də özgəsini qoyar]».

Diqqət yetirmək lazımdır ki, yetim və kimsəsizlərin, o cümlədən yoxsul və fəqirlərin maddi və mənəvi yardımdan məhrum olmaları dini nöqteyi-nəzərdən küfr və dinin özünün təkzib olunması hesab olunur.

Nəql olunmuş hədislərdə də müsəlmanlara yetim və yoxsullara maddi və mənəvi dayaq olmağa xüsusi diqqət yetirilmişdir.

Peyğəmbər (s) bu haqda buyurur:

«Allah-taala mehribançılıqla yetim bir uşağın başını sığallayan şəxsin əməl dəftərinə əlinin altındakı tükün sayı qədər savab yazar».

Peyğəmbərin (s) səhabələrindən biri deyir: «Bir gün Peyğəmbərin (s) yanında oturmuşduq. Bir oğlan uşağı Peyğəmbərin (s) yanına gəlib dedi:

- Atam vəfat etmiş, anam, mən və bacım yoxsulluq içində yaşayırıq. Allahın sənə bəxş etdiyi şeylərdən bizə də ehsan et ki, sənə öz tükənməz nemətlərindən razı qaldığın qədər əta etsin.

Peyğəmbər (s) üzünü oğlana tutub buyurdu:

- Necə də gözəl sözlər dedin!

Sonra Bilalı çağırıb buyurdu: "Evdə olanlardan bu oğlan üçün gətir".

Bilal evdən cəmi iyirmi bir dənə xurma gətirdi və onları Peyğəmbərə (s) verdi. Peyğəmbər (s) onları oğlana verib buyurdu:

- Yeddisi sənin, yeddisi ananın, yeddisi də bacının olsun.

Orada olanlardan Muaz ibn Cəbəl adlı bir şəxs ayağa qalxıb oğlanın başına sığal çəkib dedi: "Allah-taala səni atanın yerinə layiqli bir şəxs etsin". (Oğlanın atası mühacirlərdən idi).

Peyğəmbər (s) üzünü Muaza tutub soruşdu:

- Bunu etməkdə məqsədin nə idi?

Dedi: - Heç, sadəcə olaraq ona mehribanlıq göstərmək istədim.

Peyğəmbər (s) buyurdu:

- Sizlərdən hər hansı biriniz mehribanlıqla yetim və kimsəsiz uşaqları nəvaziş edib başına sığal çəkərsə, Allah-taala əlinizin altındakı tükün sayı qədər məqamınızı ucaldar və bütün pislikləri sizlərdən uzaq edər».

Həzrət Əli ibn Əbu Talib (ə) özünün xilafəti dövründə günlərin bir günü küçədə zəhmətlə su daşıyan bir qadınla rastlaşır. Əli (ə) kömək məqsədilə qadına yaxınlaşıb su dolçasını alıb onun evinə gətirir. Yolda qadının güzəranı ilə maraqlanır və ailəsinin hansı vəziyyətdə olduğu haqda soruşur. Qadın Əlini (ə) tanımadığı üçün deyir:

- Əli ibn Əbu Talib ərimi sərhəd məntəqələrini qorumaq üçün göndərdi və orada qətlə yetirildi. Əli uşaqlarımı yetim qoydu. Bunun üçün də uşaqlarımın və özümün təminatımı ödəyim deyə, başqalarına xidmətçilik etməli oluram. Həzrət Əli (ə) bir söz deməyib suyu qadının evinə gətirib öz evinə qayıtdı. Lakin iztirab və nigarançılıq hissi onu rahat buraxmadı. Beləliklə gecəni səhərədək oyaq qaldı. Həmin günün səhəri bir bağlama yemək hazırlayıb qadının evinə gətirdi. Həzrət Əli (ə) yolda səhabələrdən bir neçəsi ilə rastlaşır və onlar bağlamanı onun əvəzinə həmin evə aparmalarını istəyirlər. Lakin, Əli (ə) onlara cavab verərək buyurur: "Qiyamət günü mənim günahlarımı kim öz üzərinə götürəcək?!"

Əli (ə) nəhayət həmin dul qadının evinə çatır və qapını döyür. Qadın içəridən səslənərək - kimdir? - deyə soruşur. Əli (ə) cavab verir:

- Dünən sənin su dolçanı evinə gətirən şəxsəm. Qapını aç, uşaqların üçün bir qədər yemək gətirmişəm.

Qadın qapını açıb dedi:

- Allah səndən razı olsun və mənimlə Əli ibn Əbu Talibin arasında özü qəzavət etsin.

Əli (ə) içəri daxil olub buyurdu:

- Savab bir iş görmək istəyirəm. Bu iki işdən birini seç, ya mən uşaqlarını saxlayım, sən isə buğda üyüdüb çörək bişir, ya da uşaqları sən saxla, mən buğdanı üyüdüb çörəyi bişirim.

Qadın dedi:

- Yəqin ki, çörəyi mən səndən yaxşı bişirərəm. Elə isə uşaqlardan muğayat ol.

Qadın buğdanı üyüdüb xəmir yoğurduğu zaman Əli (ə) gətirdiyi ətdən bir qədər kabab bişirib uşaqları yedizdirməyə başladı. O, hər bir tikəni uşaqların ağzına qoyduğu zaman deyirdi:

- Oğul! Əli sizi çətinliyə saldığı üçün onu bağışlayın...

Xəmir hazır olduğu zaman qadın səsləndi:

- Ey Allah bəndəsi, təndiri qala ki, çörək bişirim.

Əli (ə) təndiri qalayıb üzünü şölələnən oda yaxınlaşdırıb buyurdu: "Əli, dad alovun dadını! Bu, dul qadınların və yetim uşaqların haqqını ödəməyən şəxsin cəzasıdır".

Elə bu zaman yaxın bir qonşu qadının həyətinə daxil olub Əlini (ə) görcək tanıdı və üzünü qadına tutub dedi:

- Vay sənin halına! Heç bilirsən kimi özünə xidmətçi tutmusan?! O, möminlərin əmiri Əli ibn Əbu Talibdir (ə).

Qadın Əlini (ə) tanıdıqdan sonra tələm-tələsik ona tərəf gəlib dedi:

- Xəcalətliyəm, ey Əmirəl-möminin!

İmam cavabında buyurdu:

- Xəcalətliyə qalsa, haqqınızı ödəmədiyim üçün sizin yanınızda xəcalətli olan mənəm.

Qurani-Kərimin bir çox ayələrində yoxsullara maddi yardım etdikdən sonra onlara minnət qoyulmamasını təkid edərək iman sahiblərinə bununla öz əməllərini batil etməmələrinə ciddi xəbərdarlıq edir:

“Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla [özünü xalqa göstərmək üçün] sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın...”

# SALAM VERMƏK

İnsanlar qədim zamanlardan bəri hansı millət və mədəniyyətə mənsub olmalarından asılı olmayaraq, bir-birləri ilə görüşərkən sevinc, istək və rəğbətlərini bildirmək üçün özlərinə məxsus ünsiyyət formaları seçmiş, öz hiss və duyğularını müxtəlif hərəkətlərlə çatdırmaq istəmişlər. İslam mədəniyyətində bu xoş məram və rəğbət hissi «salam» sözü ilə ifadə olunmuş və tərəf müqabillərin əl-ələ və ya çiyin-çiyinə görüşmələri ilə bildirilmişdir. İmam Sadiq (ə) bu haqda buyurur:

«Salam bizim ümmətin salamlaşma tərzi və Allahın bizim üçün pənah və sığınacağıdır».

Qurani-kərimin bir çox ayələrində müsəlmanlara «salam» vermək islami və ilahi bir iş kimi xatırladılır:

«...Evlərə daxil olduğunuz zaman özünüzü [bir-birinizi, qohum-əqrəbanızı, dostlarınızı və dindaşlarınızı] Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın. Allah öz ayələrini sizə belə izah edir ki, bəlkə düşünüb daşınasınız».

«Rəhmanın [əsl] bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə, təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqları [xoşlarına gəlməyən bir söz dedikləri] zaman onlarla gözəl, yumşaq danışarlar».

Yəni, cahillər onlara [müsəlmanlara] xoşagəlməz sözlər dedikdə, onlarla gözəl və mülayim danışarlar.

Həzrət İbrahimin (ə) əhvalatında (dastanında) deyilir: İbrahim (ə) bütlərə boyun əymədikdə əmisi onun daşqalaq olunacağı ilə hədələyir.

«İbrahim belə cavab verir: Sənə salam olsun! [Allah özü sənə rəhm etsin. Məndən sənə heç bir pislik gəlməz]. Mən Rəbbimdən sənin bağışlanmağını diləyəcəyəm. O, mənə qarşı çox mehriban, lütfkardır [duamı qəbul edər!]».

Elə həmin əhvalatda deyilir: Mələklər İbrahimin (ə) yanına nazil olub salam verdikdə onlarla salamlaşaraq belə cavab verir:

«Həqiqətən, elçilərimiz [mələklər] İbrahimin yanına müjdə [İshaqın anadan olacağı xəbəri] ilə gəlib: Salam! - dedilər. İbrahim də: Salam! - deyə cavab verdi...»

Peyğəmbər (s) və məsum imamlardan (ə) nəql olunmuş bir çox hədislərdə bu məsələyə dəfələrlə toxunulmuş və müsəlmanlar bu gözəl adət-ənənəyə sövq olunmuşlar. Misal olaraq onlardan bir neçəsinə işarə edirik:

Peyğəmbər (s) buyurur: «Cənnətdə elə evlər vardır ki, içəridən çölü, çöldən isə içərisini görmək olur. Bu evlərə ümmətimdən yalnız o kəslər sakin olar ki, camaatla yumşaq davranıb uca səslə onlara salam versin və yoxsullara yemək verib gecələri namaz [gecə namazı] qılıb ibadətlə keçirmiş olsunlar». Peyğəmbər (s) Əbdülmütəllib övladlarına müraciət edərək buyurdu: «Ey Əbdülmütəllib övladları! [Bir-birinizlə] uca səslə, açıq-aydın salamlaşın, qohum-əqrəbalarınızdan hal-əhval tutun, camaat şirin yuxuda olduqları zaman gecələri ibadətlə keçirin, yoxsullara yemək verin, camaata gözəl

sözlər deyin ki, Cənnətə daxil olasınız».

Peyğəmbər (s) buyurur:

«Qarşılaşdığınız hər bir şəxs və ev sakinləri ilə salamlaşın ki, Allah-taala yaxşı işlərinizi və xeyir-bərəkətinizi artırsın».

Peyğəmbər (s) buyurur: «Salam Allah-taalanın adlarından biridir. Elə isə onu uca səslə deyin».

İmam Sadiq (ə) buyurur: «Allahın salam və rəhməti sənə şamil olsun» - deyən şəxslərin əməl dəftərlərinə iyirmi beş savab yazılar».

# SALAM VERMƏYİN QAYDALARI

Salamın əhəmiyyəti ilə tanış olduqdan sonra onun necə verilməsi və qaydaları haqda da ümumi məlumat əldə etmək yerinə düşərdi.

**1.** Salamlaşmaq xeyirli iş olduğu üçün Allah-taala Qurani-kərimdə bu haqda buyurur:

"...Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın..."

Elə isə möminlər salam verməkdə bir-birlərini qabaqlamağa çalışmalıdırlar. Peyğəmbərin (s) həyatına nəzər saldıqda bu həqiqətin şahidi oluruq ki, o Həzrət qarşılaşdığı bütün şəxslərdən əvvəl salam verər və onları qabaqlamağa qoymazdı.

Əli (ə) bu haqda buyurur:

"Salamın yetmiş savabı vardır, altımış doqquzu salam verənin, biri isə salamı alanın payına düşər".

İmam Sadiq (ə) buyurur:

"[Sözünü] salamla başlayan şəxs Allaha və Onun Peyğəmbərinə (s) daha yaxındır".

**2.** Salam və onun cavabı uca səslə verilməlidir ki, həmin şəxs salamın cavabını eşidə bilsin.

İmam Sadiq (ə) bu haqda buyurur:

"Salamı uca səslə verin ki, sonra deməyəsiniz ki, salam verdim, amma salamımı almadı. Çünki salamı asta verdiyiniz üçün onlar da onu eşitməyə bilərlər. Başqalarının salamını aldıqda da uca səslə dillənin ki, (onlar da) deməsinlər ki, salam verdim, amma cavab vermədi".

**3.** Salam hər sözə başlamazdan əvvəl verilməlidir.

Peyğəmbər (s) bu haqda buyurur:

"Salam vermədən əvvəl sözə başlayan şəxslərə cavab verməyin".

Başqa bir hədisdə buyurur:

"Salam verməyənədək bir kəsi süfrənə dəvət etmə".

İmam Hüseyn (ə) buyurur:

"Salam vermədən bir kəsə iş görməyə icazə verməyin".

**3.** Hər bir şəraitdə salam vermək gözəl xüsusiyyətdir.

Peyğəmbər (s) yol gedərkən hətta küçədəki azyaşlı uşaqlara də salam verərdi. Peyğəmbər (s) özü bu haqda buyurur:

"Beş şeyi ömrümün sonunadək tərk etməyəcəyəm. Onlardan biri uşaqlara salam verməkdir. Onlara salam verirəm ki, bu, məndən sonrakılar üçün də adət kimi qalsın".

**4.** İslam dinində kimlərin əvvəl salam vermələrinə də müəyyən şərtlər qoyulmuşdur.

Peyğəmbər (s) bunu belə izah edir:

"Atlı piyadaya, atlı qatıra minənə, kiçik böyüyə, az kütlə özündən sayca çox olan kütləyə, ayaq üstə olan oturana salam verməlidir".

**5.** Salamın cavabı daha gözəl tərzdə və ya heç olmasa həmin qaydada alınmalıdır.

Nisa surəsinin 86-cı ayəsində bu haqda deyilir:

"Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya [eynilə sahibinə] qaytarın! Şübhəsiz, Allah hər şeyi hesaba alandır".

Hədislərdən birində deyilir: Səhabələrindən biri Peyğəmbərin (s) yanına gəlib o Həzrətə "əssəlamu ələyk" ifadəsi ilə salam verir. Peyğəmbər (s) cavabında buyurur: "Ələykəs-salam və rəhmətullah". Başqa birisi "əssəlamu əlyekə və rəhmətullah" - deyərək salam verir. Peyğəmbər (s) cavabında buyurur: "Əssəlamu ələykə və rəhmətullahi və bərəkatuh". Üçüncü bir şəxs gəlib "əssəlamu əlyekə və rəhmətullahi və bərəkatuh" - deyərək salamlaşır. Peyğəmbər (s) həmin qaydada "əssəlamu əlyekə və rəhmətullahi və bərəkatuh" - buyuraraq salamın cavabını verir. Orada olan və Peyğəmbərin (s) verdiyi bütün cavabları eşidən səhabələrdən biri o Həzrətə deyir:

- Ya Rəsulləllah! Birinci və ikinci şəxsin verdiyi salamın cavabına bir söz artırdınız, üçüncü şəxsin salamını isə olduğu kimi qaytardınız...

Peyğəmbər (s) buyurdu: "Çünki o, artırmaq üçün bir şey qoymadı. Mən də ona həmin qaydada cavab verdim".

# ƏMANƏT

Əxlaqi məsələlərindən biri də əmanətdir. Əmanət müxtəlif şəkillərdə ola bilər. Hər hansı bir əşya və ya pul, gizli saxlanılmalı sirr və məlumat və ya qorunub saxlanılmasında məsuliyyət tələb olunan hər hansı bir şey. Əmanət tapşırılan adam da etibarlı, etimadlı və düz danışan olmalıdır. Əmanət qəbul olunduqdan sonra tam məsuliyyətlə qorunmalı və sahibi istədikdə olduğu kimi geri qaytarılmalıdır. Əmanətə xəyanət böyük günah və başqalarının hüququna təcavüz hesab olunur.

Qurani-kərimdə möminlərin ən başlıca xüsusiyyətlərindən biri də onların "əmanətdar" olması göstərilir.

Muminun surəsinin 8-ci ayəsində deyilir:

"O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar [onlara tapşırılmış əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərər]".

Başqa bir ayədə Allah-taala əmanətin öz sahibinə qaytarılmasını əmr edir:

«Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir».

Peyğəmbər (s) buyurur:

«Əmanətə xəyanət edən şəxslərin dini yoxdur»;

«Əmanətə xəyanət edən kəslər bizdən deyildir»;

«Münafiqlik və ikiüzlülüyün üç əlaməti vardır: bir şey deyərkən yalan söyləmək, vədə verdikdə vədəyə əməl etməmək və əmanətə xəyanət etmək».

İmam Sadiq (ə) buyurur:

«İnsanları tanımaq üçün [namaz qılarkən] rüku və səcdələrinin uzun olmasına baxmayın. Çünki, bəzən bu onlar üçün adət halına çevrilir və adətlərini pozduqda özlərində narahatçılıq hiss edirlər. Onları tanımaq istəyirsinizsə, düz danışmalarına və əmanətə vəfadar olmalarına diqqət yetirin».

Əmanət islam dinində o qədər böyük əhəmiyyət kəsb edir ki, məsum imamlardan (ə) nəql olunmuş hədislərdə əmanətin qorunub saxlanılmasında əməli-saleh və fasiq şəxslər arasında heç bir fərq qoyulmamışdır. Hansı şəraitdə olursa olsun, əmanət lazımınca qorunmalı və vaxtı çatdıqda öz sahibinə qaytarılmalıdır.

İmam Sadiq (ə) bu haqda buyurur:

«Əmanəti öz sahibinə qaytarın, istər onlar əməli-saleh olsunlar, istərsə də fasiq. Əgər Əlinin (ə) qatili mənə bir şey əmanət versəydi [istədikdə] onun özünə qaytarardım».

İmam (ə) buyurur:

«Əmanəti öz sahibinə qaytarın, hətta əgər o, Hüseyn ibn Əlinin (ə) qatili olmuş olsa belə!»

Əli (ə) buyurur:

«Bir şəxs sənə xəyanət etsə belə, onun sənə verdiyi əmanətə xəyanət etmə və əgər o sənin sirrini açsa belə, sən onun sirrini açıb ifşa etmə».

Əmanətə sadiq və vəfalı olmaq barədə də kifayət qədər hədis nəql olunmuşdur.

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir:

«Əmanətə sadiq və vəfalı olmaq ehtiyacsızlığa, xəyanət isə fəqir və yoxsulluğa səbəb olar».

# DOST VƏ YOLDAŞ (1)

Hər bir insan yaşadığı cəmiyyətdə təbii olaraq, kimlərləsə dostluq edir, gediş-gəliş əlaqələri yaradır və səmimi münasibətlər bərqərar edir. İslam dininin dostluq əlaqələrinin bərqərar olunmasına və dostlar arasında səmimiyyətin güclənməsinə böyük əhəmiyyət verdiyi haqda əvvəlki dərslərimizdə söhbət açdıq. Qurani-kərimin bir çox ayələrində və Əhli-beytdən (ə) nəql olunmuş hədislərdə dəfələrlə bu mətləbə toxunulmuş və bu haqda dəyərli məsləhətlər verilmişdir. Əli (ə) bu haqda buyurur:

«Dostu, sirdaşı olmayan kəslər heç nə əldə etməmişlər».

«Dostlar müxtəlif bədənlərdə vahid ruhdurlar».

Lakin islam, dostluğa ləyaqəti olmayan şəxslərlə dostluq etməyi məsləhət görmür. Yaxın dost insana yaxın qohumlardan daha yaxın olduqda təbii ki, ona başqalarından daha çox təsir göstərəcəkdir. Peyğəmbər (s) buyurur: «İnsan, dostunun dinində olur. Elə isə kiminlə dostluq etdiyinizə diqqət yetirin». Yəni insan, dostluq etdiyi şəxsin təsiri altına düşür. Bəzən onun müsbət xüsusiyyətlərindən bəhrələnir, bəzən də mənfi xüsusiyyətlərindən zərər çəkir.

«İnsanları dostluq etdiyi şəxslərlə tanıyın. Çünki hər bir şəxs xoşuna gəldiyi kəslərlə dostluq edər».

Əli (ə) buyurur: «Hər bir adam öz səviyyəsində olan şəxslərə doğru meyl edir».

«Yaxşı insanlarla yalnız özləri kimi əməli-saleh şəxslər, fasiq və nadanlarla da günahdan çəkinməyən kəslər dostluq edər».

Nəql olunmuş hədislərin məzmunundan belə bir nəticəyə gəlmək olur ki, hər bir insan özünə dost seçdiyi zaman hər şeydən əvvəl onun kimliyinə və xüsusiyyətlərinə diqqət yetirməlidir. Allah-taala Qurani-kərimdə iki yerdə daim Onu yad edən kəslərlə dostluq etməyi tövsiyə edir:

**«[Ya Rəsulum!] Rəbbinin camalını diləyərək səhər-axşam Ona dua edənləri yanından qovma...»**

**«Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbrli apar [nəfsini qoru]...»**

Peyğəmbər (s) alicənab şəxslərlə dostluq etməyi tövsiyə edərək buyurur: «İnsanların ən xoşbəxti o kəsdir ki, alicənab şəxslərlə əlaqə saxlamış olsun».

Başqa bir hədisdə Peyğəmbər (s) təqvalı və pəhrizkar insanlarla yoldaşlıq etməyi tövsiyə edir: «O kəslərlə dostluq edin ki, onları görməklə Allahı yada salasınız və onların söylədikləri şeylər və gördükləri hər bir iş sizlərə axirəti xatırlatsın».

Peyğəmbər (s) başqa bir hədisdə yoxsullar və hikmət sahibləri ilə yoldaşlıq etməyi tövsiyə edir:

**«Bilmədiklərinizi alimlərdən soruşun və hikmət sahibləri ilə ünsiyyətdə olub yoxsullarla həmsöhbət olun».**

Başqa bir hədisdə Əli (ə) buyurur: «Hikmət sahibləri ilə yol yoldaşı, alimlərlə həmsöhbət olun. Dünyadan uzaq olun ki, cənnəti özünüzə məskən edəsiniz». Ən çox xeyir və dəyərli məsləhətlər hikmət və düşüncə sahibləri ilə ünsiyyətdə olmaqla əldə olunur.

Həqiqi dostluq odur ki, dostlar bir-birlərinin eyb və nöqsanlarını gizlədib, qarşılıqlı olaraq müsbət xüsusiyyətlərindən bəhrələnə bilsinlər. Sadiq dostlar daim bir-birlərinin çətinliklərini aradan qaldırmağa çalışar və yalnız tərif, hörmət və ehtiram məqsədilə dostluq etməzlər. İmam Baqir (ə) bu haqda buyurur: «O kəslərlə dostluq et ki, səni ağladar, lakin xeyirini istər. Güldürüb aldatmaq istəyən şəxslərdən isə daim uzaq olmağa çalış. Bilin ki, tezliklə hamı Allaha tərəf qayıdacaq və orada hər şeydən agah olacaqsınız».

İmam Cəfər Sadiq (ə) buyurur:

**«Dostların arasında hamıdan çox sevdiyim o kəslərdir ki, eyb və nöqsanlarımı mənə hədiyyə etmiş olsun».**

İmam Sadiqin (ə) bu hədisində diqqəti cəlb edən məsələ bundan ibarətdir ki, verilən hədiyyələr insana sevinc bəxş etdiyi kimi, sadiq dostların bir-birlərinin eyb və nöqsanlarını xatırlamaları da onlara sevinc bəxş etsin.

Qeyd etdik ki, insan özünə dost seçdiyi zaman onların əxlaq və davranışlarına, şəxsiyyət və kimliyinə diqqət yetirməlidir. Demək o kəslərlə dostluq etməliyik ki, ilk növbədə mənəvi inkişafımıza və yaşadığımız cəmiyyətdə baş ucalığımıza səbəb olsunlar. Bu dərsdə Əhli-beytin (ə) bizlərə kimlərlə dostluq etməmək barədə buyurduğu tövsiyələr haqda söhbət açacağıq. Hər şeydən əvvəl bilmək lazımdır ki, insan Allah-taala tərəfindən heç də mütləq şəkildə azad və ixtiyar sahibi olan bir varlıq kimi öz ixtiyarına buraxılmamışdır. Bu səbəbdən də o, istədiyi şəxslərlə ünsiyyət yaradıb öz əlaqələrini istədiyi kimi bərqərar edə bilməz. İmam Zeynulabidin (ə) bu haqda buyurur: «Heç də elə deyildir ki, insan istədiyi şəxslərlə ünsiyyətdə olub onlarla dostluq edə bilsin. Çünki, Allah-taala buyurur:

**«[Ya Rəsulum!] Ayələrimizi istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər Şeytan [bu qadağan əmrini] sənə unutdursa, xatırlayandan sonra o zalim tayfa ilə bərabər oturma».**

Nəzərdən qaçırmamalıyıq ki, haram işlərdən çəkinməyən və günah etməyə adət edən şəxslərlə ünsiyyətdə olmaq tez bir zamanda bizə də öz mənfi təsirini göstərəcək və onlar kimi bizim də qəlbimizi qaraldıb ilahi əzaba düçar edəcək. Tarixdə deyilir:

İmam Rzanın (ə) yaxın səhabələrindən olan Süleyman Cəfəri nəql edərək deyir: Bir gün imam Rza (ə) atama dedi:

- Nə üçün Əbdürrəhman ibn Yəqub ilə gediş-gəliş edirsən?

Atam dedi:

- O, mənim dayımdır.

İmam Rza (ə) buyurdu:

- O, Allahın vəsf və məhdud olduğu haqda xoşagəlməz fikirlər irəli sürür, halbuki, Allahı vəsf etmək olmaz!

Atam dedi:

- Onun dediklərindən mənə nə, mən ki bu əqidədə deyiləm?!

İmam Rza (ə) atamın cavabında buyurdu:

- Qorxmursanmı ki, onun üçün nazil olan bəla sizə də şamil olsun?! Həzrət Musanın (ə) səhabələrindən birinin əhvalatını eşitmisənmi? Həmin şəxsin atası Fironun tərəfdarlarından idi. Fironun qoşunu Musa (ə) və ona iman gətirmiş şəxsləri təqib edərkən o, atasına nəsihət etmək və onu da özlərinə qoşmaq üçün Fironun dəstəsinə tərəf getdi. Atası onu gördükdə onunla müxalifət edib özündən uzaqlaşdırdı. Beləliklə onlar dəryaya yaxınlaşdılar. Elə bu zaman ilahi əzab nazil oldu və onların hər ikisi Fironun qoşunu ilə birlikdə dənizdə boğuldular. Musa (ə) bundan xəbər tutduqda Cəbraildən (ə) onun aqibətini soruşdu. Cəbrail (ə) buyurdu: «Qərq oldu, Allah rəhmət etsin. Onun əqidəsi atasından tam fərqli idi, lakin ilahi əzab nazil olduqda günahkarların kənarında olan kəslər nicat tapmazlar».

İndi isə dostluğa layiq olmayan şəxslər haqda nazil olmuş Quran ayələrinə və məsum imamlardan nəql olunmuş hədislərə nəzər salaq:

Maidə surəsinin 57-ci ayəsində kafir və dini məsxərə edən şəxslərlə dostluğun qətiyyətlə qadağan olunduğu göstərilir:

«Ey iman gətirənlər! Sizdən əvvəl kitab verilmiş olanlardan dininizi oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost tutmayın...»

İkinci dəstəyə aid olanlar Peyğəmbər (s) və məsum imamlara (ə) töhmət və tənə vuran kəslərdir. Həzrət Məhəmmədə (s) peyğəmbərlik verildiyi ilk illərdə Hicaz bütpərəstlərindən olan Üqbə ibn Əbi Muit adlı bir şəxs var idi. O, müşrik və bütpərəst olmasına baxmayaraq, olduqca qonaqpərvər idi. Bir gün Peyğəmbər (s) onun evinin kənarından keçdiyi zaman Həzrəti nahara dəvət edir. Peyğəmbər (s) ayaq saxlayıb buyurdu:

- Səninlə yalnız o zaman bir süfrə arxasında əyləşərəm ki, islamı qəbul edib müsəlman olasan!

Üqbə, Peyğəmbərin (s) süfrə arxasında oturmaq üçün onun qarşısına belə bir şərt qoyduğunu görüb kəlmeyi-şəhadətini deyib müsəlman oldu. Üqbənin Ubəyy adlı başqa bir dostu da var idi. Üqbənin müsəlmanlığı qəbul etməsi xəbərini eşidib olduqca narahat oldu və əsəbi halda onun yanına gəlib bir xeyli danlayaraq dedi:

- Sən öz dinindən çıxırsanmı?!

Üqbə cavabında dedi:

- Elə bir şəxs mənə qonaq oldu ki, müsəlman olmasaydım, süfrəmin kənarında oturmağa razı olmazdı.

Ubəyy dedi:

- İndi ki, belədir, mən öz dostluğumu səninlə kəsirəm. Əgər dostluğumuzun davam etməsini istəyirsənsə, öz dininə qayıdıb Peyğəmbərə töhmət vurmalısan.

Ubəyy çox israr etdikdən sonra Üqbə onun dediyi kimi edir, islam dinindən xaric olur və Bədr döyüşündə müsəlman fədailəri tərəfindən qətlə yetirilir. Ubəyy isə bir il sonra Ühüd döyüşündə qətlə yetirilir. Beləliklə hər ikisi müşrik olduqları halda dünyalarını dəyişirlər.

Əli (ə) buyurur: «Müsəlman bir şəxsə fasiq və dinsiz adamlarla dostluq və qardaşlıq münasibətləri bərqərar etmək yaraşmaz. Çünki, onun gördüyü bütün işlər öz nəzərində gözəl və tərifə layiqdir. Bunun üçün də dostluq etdiyi əməli-saleh müsəlmanın özü kimi olmasını istər. Nə dünya, nə də axirətdə onun müsəlmana bir xeyiri dəyməyəcəkdir. Əksinə, vaxtaşırı müsəlmanın yanına gediş-gəliş etməsi ona rüsvayçılıqdan savayı bir şey nəsib etməyəcəkdir».

Əli (ə) buyurur: «Müsəlman bu üç (xüsusiyyətə malik olan) şəxslərlə - yalançı, nadan və əxlaqsız adamlarla səmimi [qardaşlıq] münasibətində olmamalıdır». Həmçinin imam Baqir (ə) buyurur:

Atam Əli ibn Hüseyn (ə) bir gün məni yanına çağırıb dedi:

- Oğlum! Beş şəxslə ünsiyyətdə olmamağı sənə tövsiyə edirəm. Onlarla nə həmsöhbət ol və nə də yoldaşlıq et.

Atamdan onların kim olduğunu soruşduqda buyurdu:

- Yalançılarla həmsöhbət olma. Onların söylədikləri hər bir söz ilğıma bənzər. Yaxını sənə uzaq, uzağı isə yaxın göstərər. Fasiqlərlə də ünsiyyətdə olmaqdan çəkin. Onlar səni bir tikə yeməyə və ya ondan da dəyərsiz bir şeyə satmağa hazır olarlar. Paxıllardan uzaq olmağa çalış. Çünki bir şeyə ehtiyac duyduğun zaman öz mallarını səndən əsirgəyərlər. Nadan və cahillərlə də ünsiyyətdə olma. Çünki onlar sənə xeyir vermək istəyərlər, lakin ziyan yetirərlər. Qohumluq əlaqələrini kəsən şəxslərdən də uzaq olmağa çalış. Çünki Allah-taala onları öz kitabında (Qurani-kərimdə) lənətləmişdir.

Dörd şey hədərə gedər, onlardan birincisi vəfasızlarla dostluqdur.

İmam Baqir (ə) buyurur: «Bu dörd şəxsdən - nadan, paxıl, qorxaq və yalançı adamlardan daim uzaq olmağa çalışın. Nadanlar sənə xeyir vermək istəyər, amma zərər yetirərlər, paxıllar daim səndən almaq istəyər, verməyə gəldikdə isə xəsislik edərlər, qorxaqlar (xətərlə üzləşdikdə) səni və öz doğma

ata-anasını qoyub qaçmağa belə hazır olarlar. O ki qaldı yalançılara, onlar düz danışsalar da, dediklərinə inanma».

## QEYBƏT (1)

### QEYBƏTİN TƏRİFİ

Qeybətin lüğəti mənası «iştirakı olmadan kiminsə (və ya kimlərinsə) ünvanına xoşagəlməz sözlər deməkdir». Şəri termin olaraq isə «qeybət» - müsəlmanın öz müsəlman bacı-qardaşının iştirakı olmadan onun eyb və nöqsanları haqda danışmasından ibarətdir. Belə ki, əgər həmin şəxs onun haqda deyilən sözləri eşitsə, inciyib narahat olar. Eyb və nöqsan deyildikdə istər əxlaqi, istər cismi, istərsə də məişət çatışmazlıqları və s. nəzərdə tutulur. Peyğəmbər (s) bu haqda buyurur: «Qeybət - müsəlman bacı-qardaşınızın eşitmək və ya başqalarının bilməsini istəmədiyi hər hansı bir şey haqda danışmağa deyilir». Peyğəmbərdən (s) soruşurlar: - Əgər onun haqda deyilənlər doğru olsa yenə də qeybət hesab olunur?

Həzrət (s) buyurdu: «Əgər həmin eyb və nöqsan onda olarsa və onu başqalarına deyəriksə qeybət, əks təqdirdə isə ona töhmət vurmuş olarıq». Başqa bir hədisdə deyilir: Peyğəmbərin (s) səhabələri bir şəxs barədə söhbət edir və bir-birlərinə deyirdilər: - Filankəs nə qədər də aciz və bacarıqsızdır. Peyğəmbər (s) onların söhbətini eşidib buyurur:

- Onun qeybətini etdiniz!

Dedilər:

- Biz yalnız onda olanları dedik.

Buyurdu: «Əgər onda olmayanları desəydiniz, ona böhtan atmış olardınız». İmam Sadiq (ə) buyurur: «Qeybət ona deyilir ki, Allah-taala mömin bacı-qardaşınızın gizli saxladığı eyb və nöqsanları başqalarına bildirəsiniz».

İmam Musa Kazim (ə) buyurur: «Əgər bir şəxs orada olmayan başqa birisinin camaatın bildiyi eyb və nöqsanları haqda danışarsa, qeybət etməmişdir. Lakin camaatın bilmədiyi hər hansı bir çatışmazlığı haqda bir söz deyərsə, onun qeybətini etmişdir. Onda olmayan hər hansı bir şey haqda bir söz dedikdə isə ona böhtan atmış olur».

Qeyd etməliyik ki, qeybəti olunan şəxs mömin və müsəlman olsa, onda haram olar. Kafir və müşriklərin qeybətini etməyin isə heç bir nöqsanı yoxdur. Həmçinin, qeybəti olunan şəxsin kimliyi məlum olmalıdır və dinləyicilər onu tanımalıdırlar. Haqqında danışılan şəxsin kimliyi bəlli olmadıqda isə, deyilən sözlər qeybət hesab olunmur.

## QEYBƏTİN HARAMLIĞI

Qeybətin haram və böyük günahlardan biri olduğu haqda bir çox Quran ayələrini və Əhli-beytdən (ə) nəql olunmuş hədislərə istinad etmək olar. Allah-taala Qurani-kərimdə buyurur:

**«...Bir-birinizin qeybətini etməyin! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar [qeybət də belədir]...»**

Göründüyü kimi ayədə müsəlmanın qeybəti onun qətlə yetirilməsinə və qeybət edən şəxsin onun ətini yeməsinə bənzədilir. Bu da günahın böyüklüyünə dəlalət edir. Günahsız bir şəxsin qətlə yetirilməsi haram olduğu kimi, onun qeybətini etmək də bir o qədər haram və böyük günahlardandır. Qan tökülməklə bir şəxs qətlə yetirildiyi və onu bir daha həyata qaytarmaq qeyri-mümkün olduğu kimi, qeybəti olunan şəxsin də haqqında xoşagəlməz sözlər deməklə onun şəxsiyyətinə xələl gəlir və mənəviyyatının qorunması qeyri-mümkün olur. Müsəlmanların qanı, canı və malı toxunulmaz olduğu kimi, onların şəxsiyyət və mənəviyyatı da qorunmalı və onlara qarşı hörmətsizliklərə yol verilməməlidir.

Peyğəmbər (s) buyurur: **«Müsəlmanın canı (qanı), malı və şəxsiyyəti müsəlmana haramdır».**

Peyğəmbər (s) buyurur: «Dünyada qardaşının ətini yeyən şəxsləri (qeybət edənləri) qiyamət günü onun (qeybəti olunan) yanına aparıb belə əmr edərlər: Diri olduğu halda ətini yediyin kimi, indi də onun ölmüş cəsədinin ətini ye! O da məcbur olub fəryad çəkərək ölmüş qardaşının ətini yeyər. Merac gecəsi səmaya qalxdığım zaman üz-gözlərini dırnaqları ilə cıran bir dəstə insanla qarşılaşdım. Cəbraildən (ə) onların kim olduğunu soruşdum. Dedi: «Onlar camaatın qeybətini edən və abır-həyalarına xələl gətirən kəslərdir».

**«Qeybət etməkdən çəkinin! Çünki, qeybət zinadan daha da pisdir. Çünki, zinakar tövbə etməklə günahlarını bağışlatdıra bilər. Lakin qeybət edən şəxs qeybətini etdiyi şəxsi**

**özündən razı salmayınca (halallıq almayınca) bağışlanmır».**

Əli (ə) buyurur: **«Qeybət etməkdən çəkinin! Çünki o, cəhənnəm itlərinin yeməyidir».**

İmam Sadiq (ə) buyurur: «Qeybət hər bir müsəlmana haramdır. Atəş odunu yandırdığı kimi, qeybət də insanın gördüyü xeyirli işləri (savabını) məhv edib aradan aparır».

Qiyamət günü bəzi şəxsləri Allah-taalanın hüzuruna gətirib əməl dəftərini əlinə verərlər. O, əməl dəftərini açdıqda orada heç bir xeyirli iş görməyib təəccüblə Allah-taaladan soruşar:

- İlahi! Bu mənim əməl dəftərim deyildir. Çünki, burada mənim ibadətlərim yazılmamışdır.

Ona deyilər: «Sənin Allahın nə bir şeyi unudur, nə də səhvə yol verir. Əməllərini camaatın qeybətini etməklə məhv edib aradan aparmısan».

Sonra məhşərə bir başqasını gətirər və əməl dəftərini onun özünə verərlər. O, öz əməl dəftərində xeyli ibadət etdiyini görüb təəccüblə deyər:

- İlahi! Bu mənim əməl dəftərim deyildir. Çünki, dünyada mən bu qədər ibadət etməmişəm.

Ona deyərlər: «Filankəs sənin qeybətini etdiyi üçün gördüyü xeyirli işlər sənin əməl dəftərinə yazılmışdır».

Ariflərdən birinə: «filankəs sənin qeybətini etdi» - dedikdə, gülümsəyib həmin şəxsin evinə bir qutu şirni aparmalarını və ona belə bir xəbər çatdırmalarını istəyir: «Eşitdim öz xeyirli işlərinin bir qismini mənim əməl dəftərimə göndərmisən. Bunun üçün sənə öz təşəkkürümü bildirib bu şirni qutusunu sənə hədiyyə göndərirəm».

Qeybət etmək böyük günahlardan sayıldığı və qeybət edən şəxs Allahın qəzəbinə gəldiyi kimi, qeybətə qulaq asmaq da haram və böyük günahlardan hesab olunur. Peyğəmbər (s) bu haqda buyurur: «Qeybətə qulaq asan şəxs qeybət edənlər kimidir».

# XƏBƏRÇİLİK VƏ MƏSXƏRƏ

Mənfi və olduqca xoşagəlməz xüsusiyyətlərdən biri də xəbərçilikdir. Bu ruhi xəstəliyin qoyduğu mənfi təsirlərdən biri də insanların bir-birlərinə qarşı etimadsızlığı, kin-küdurət, ədavət və sairə xoşagəlməz hallardır. Xəbərçilik ixtilafların yaranmasına səbəb olan ən başlıca amillərdən biri olduğu üçün Quranda və nəql olunmuş hədislərdə bu mətləbə dəfələrlə işarə olunmuş və o, böyük günahlardan biri kimi göstərilmişdir. Xəbərçiliyin tərifində deyilir: Hər hansı bir şəxs barədə danışılan zaman dinləyicinin deyilənləri olduğu kimi həmin şəxsin özünə çatdırmasına xəbərçilik deyilir. Məsələn, «filan şəxs sənin barəndə belə fikirdədir» - demiş olsun. Bunu da qeyd edək ki, həmin şəxs barədə yalnız mənfi təəssürat yarada bilən sözlər xəbərçiliyə çevrilə bilər. Məlumdur ki, hər hansı bir şəxsi təriflədikdə kin-küdurətə səbəb olacaq heç bir səbəb yaranmır. Görkəmli islam alimlərindən olan Şəhid Sani xəbərçilik haqda deyir: «Xəbərçilik o sirlərin açılmasına deyilir ki, deyən və ya nəzərdə tutulan şəxsi sarsıtmış olsun». Bu tərifə əsasən sirrin açılması istər ifadə, istər yazı, istərsə də işarələrlə olsun, xəbərçilikdir. Möminlər, qohum-əqrəba və dostlar arasında ixtilaf və ədavətin salınması qətiyyətlə pislənir və bu iş böyük günahlardan sayılır:

**«...Fitnə, qətldən daha şiddətlidir...»**

**«...Fitnə salmaq vuruşmaqdan daha betərdir...»**

Fitnə-fəsada və düşmənçiliyə səbəb olan xəbərçilik haqda deyilir:

**«[Dalda] qeybət edib [üzdə] tənə vuran hər kəsin vay halına!»**

«Və həm də itaət etmə [yalan yerə] hər and içənə, alçağa. Yalandan çox-çox and içənlərə, eyb axtaran və sözgəzdirənlərə itaət etmə».

Peyğəmbər (s) səhabələrə xitab edərək buyurur:

**«Sizin içərinizdə olan ən pis şəxsləri özünüzə tanıtdırımmı? Dedilər: Bəli, ya Rəsuləllah! Buyurdu: «O kəsdir ki, daim əməli-saleh insanların eyb və çatışmazlıqlarını axtarar və dostlar arasında təfriqə yaratmaq istəyər».**

Başqa bir hədisdə deyilir: «Allahın daha çox nifrət etdiyi şəxs o kəsdir ki, əməli-saleh insanların eyb və çatışmazlıqlarını axtarar və xəbərçilik etməklə dostlar arasında təfriqə yaratmaq istəyər».

Əli (ə) buyurur: «Xəbərçilikdən uzaq olun. Çünki xəbərçilik düşmənçiliyə, insanın Allahdan və camaatdan uzaq düşməsinə səbəb olur».

Peyğəmbər (s) xəbərçiliyin müsəlmana yaraşmayan bir xüsusiyyət olması haqda buyurur: «Xəbərçilik və düşmənçilik [cəhənnəm] odundadır. Bu iki şey müsəlmanın qəlbində özünə yer tapmaz».

Başqa bir hədisdə buyurur: **«Xəbərçilər Cənnətə daxil olmazlar».**

# XƏBƏRÇİLƏRLƏ RƏFTAR VƏ DAVRANIŞ

Xəbərçilər müsəlmanlar arasında təfriqə salıb öz çirkin niyyətlərinə nail olmasınlar deyə, Şəhid Sani Quran və nəql olunmuş hədislərə istinad edərək, onların dediklərini dinləyən şəxslərin üzərinə altı vəzifənin düşdüyünü qeyd edir:

1. Hər şeydən əvvəl sözlərinə etina etməyib onları qəbul etməməli. Hücurat surəsinin 6-cı ayəsində onlar haqqında deyilir:

«...Əgər bir fasiq sizə pis bir xəbər gətirsə, dərhal onun doğruluğunu yoxlayın...»

2. Xəbərçilik etməkdən çəkindirib onlara nəsihət etməli. Loğman surəsinin 17-ci ayəsində bu mətləbə işarə olunaraq buyurulur:

«...Yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə...»

3. Onlarla, dedikləri sözlərə görə şəxsi qərəzlə deyil, Allaha xatir düşmənçilik etməli; Çünki, Allahın dostları ilə dostluq, düşmənləri ilə düşmənçilik etmək lazımdır.

4. Dediklərini eşidərkən dərhal müsəlman qardaşına qarşı pis fikrə düşməməlidir. Hücurat surəsinin 12-ci ayəsində bu haqda deyilir:

«...Çox zənn və gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi [heç bir əsası olmayan zənn] günahdır...»

5. Xəbərçinin söylədiklərindən maraqlanıb başqalarının şəxsi həyatına dəxalət etməməlidir. Həmin ayədə deyilir: «...[Bir-birinizin eyb və sirrini] arayıb axtarmayın...»

6. Həmin şəxs özü də xəbərçilik etməsin deyə, eşitdiklərinə razı olub başqalarına danışmamalıdır. Bu barədə nəql olunmuş hədislərdən birində deyilir:

Uzun illər ayrılıqdan sonra böyük alimlərdən birinin dostu onun görüşünə gəlir. Dostu söhbət əsnasında başqa birisinin alim barədə dediklərini ona nəql edir. Alim eşitdiklərindən çox narahat olub

deyir:

«Neçə ildən sonra mənim görüşümə üç böyük günahlamı gəldin?! Əvvəla ona görə ki, məni o şəxsə qarşı bədbin edib aramızda düşmənçilik yaratdın. İkincisi ona görə ki, bir qədər əvvəl çox rahat idim, indi isə eşitdiklərimdən kədərlənib nigarançılıq çəkməyə başladım və nəhayət üçüncü ona görə ki, başqasının haqqını tapdaladığın üçün mənim nəzərimdə öz etimadını itirmiş oldun».

Bu səbəbdən də xəbərçilərlə qarşı-qarşıya gəldikdə hər şeydən əvvəl onların dedikləri təkzib olunmalı və onlara qarşı olduqca etinasız yanaşmaq lazımdır. Unutmamalıyıq ki, əgər xəbərçi başqalarının dediklərini bizə çatdırırsa, sözsüz ki, bizim də dediklərimizi başqalarına çatdırmaqda heç nədən çəkinməyəcəkdir. Bunun üçün də onlara etimad etməməli və dedikləri təkzib olunmalıdır ki, əvvəla onlar gördükləri işdən peşiman olub bir daha təkrar etməsinlər. Digər tərəfdən də xəbərçilərin çirkin niyyətləri müsəlmanlar arasında dostluq və qardaşlığın aradan getməsinə səbəb olmasın.

Tarixə nəzər saldıqda məsum imamların xəbərçilərlə kəskin şəkildə davrandıqlarının şahidi oluruq. Belə ki, bir şəxs Həzrət Əlinin (ə) hüzurunda başqa birisi barədə xoşagəlməz sözlər dedikdə, o Həzrət dərhal onun sözünü kəsərək buyurdu: «Bil ki, sənin dediklərini yaxşıca araşdıracağıq. Düz demiş olsan (xəbərçilik etdiyin üçün) düşmən olduğun üçün, yalan olduqda isə (başqaları barədə xoşagəlməz sözlər dediyin üçün) cəzalandıracağıq. Əgər bağışlanmağını istəsən, səni bağışlayarıq!».

Həmin şəxs gördüyü işdən peşiman olub üzr istədi.

# MƏSXƏRƏ

Məsxərə və ya istehza - kimlərinsə əxlaqi və cismi xüsusiyyətlərinə gülmək və ya güldürmək məqsədilə qeyri-adi tərzdə bəyan və ya təqlid olunmasına deyilir. Möminlərin şəxsiyyət və mənəviyyatına xələl gəlməsinə və onların təhqir olunmasına səbəb olduğu üçün islam dinində kiminsə məsxərə və ya istehza olunması qətiyyətlə pislənilir. Qurani-kərimdə möminlərə etinasız yanaşanlar və onları xar və rüsvay etmək istəyən şəxslər haqda deyilir:

**«...Şərəf-şan da, qüvvət və qələbə də yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur...»**

Başqa bir ayədə deyilir:

**«İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır».**

Peyğəmbər (s) buyurur:

**«Allah-taala buyurur: And olsun Öz izzət və cəlalıma! Elə bir məxluq yaratmadım ki, onu mömin bəndələrimdən çox sevmiş olum».**

Cabir ibn Abdullah deyir: «Bir gün Peyğəmbər (s) Kəbəyə nəzər salıb buyurdu: «Mərhaba sənə ey Kəbə! Allah yanında nə qədər hörmətin var! And içirəm ki, Allah yanında möminlərin hörməti səndən çoxdur. Çünki, Allah-taala səni bir, möminləri isə üç şeyə görə hörmət sahibi etmişdir. Onların malı, canı və haqlarında kimsəyə bədbin olmaq halal edilməmişdir»».

İmam Baqir (ə) buyurur: **«Möminlərin hörməti Kəbədən daha çoxdur».**

# HƏSƏD (PAXILLIQ)

Mənfi xüsusiyyətlərdən və böyük günahlardan biri də həsəddir. Qurani-kərimdə Həzrət Adəmin (ə) yaradılışından söhbət açılarkən yer üzərində baş verən ilk günahın həsəd üzündən baş verdiyinə işarə olunur. Məhz bu xislət İblisin cənnətdən qovulmasına və tarixdə ilk dəfə yer üzərində qan tökülməsinə səbəb olur. O gündən etibarən bu şeytani xislət qəlblərdə özünə yer etmiş və minlərlə haqsız insanın qanının tökülməsinə, kin-küdurətin yaranmasına səbəb olmuşdur.

## HƏSƏDİN TƏRİFİ VƏ NÖVLƏRİ

Həsəd - hər hansı bir şəxsin başqa birisinin malik olduğu ilahi nemətlərdən (istər maddi olsun, istərsə də mənəvi) məhrum olmasını arzu etməsinə deyilir. Belə şəxslər bəzən bu yolda əzab-əziyyətə qatlaşmağa belə hazır olarlar.

## HƏSƏDİN NÖVLƏRİ

**1.** Özündə olmasını arzu etməsə belə, başqasının hər hansı bir nemətdən məhrum olmasını istəyər;

**2.** Başqa birisinin malik olduğu hər hansı bir şeydən məhrum olmasını arzu etməklə yanaşı, özünün də həmin şeyə malik olmasını istəyər;

**3.** Həmin şeyin özündə olmasını istəməsə də, ona oxşarına malik olmasını arzu edər. Əldə

etmədikdə isə başqalarının həmin şeydən məhrum olmasını istəyər;

**4.** Başqalarının malik olduqları şeylərin oxşarını özündə də olmasını arzu edər və eyni zamanda onların da malik olduğu şeylərdən məhrum olmalarını istəməz.

Yuxarıda qeyd olunan dörd xüsusiyyətdən üçü mənfi, sonuncu xüsusiyyət isə müsbətdir və buna «qibtə» deyilir. Qibtə nəinki mənfi xüsusiyyət deyil, əksinə, insanın əxlaq və mənəviyyatının təkamülünə də səbəb olur. Bəzən insan başqalarına qibtə etməklə onların malik olduqları şeyləri əldə etmək üçün zəhmətə qatlaşmalı olur və bununla yanaşı başqalarının da zərər çəkmələrini arzu etmir. İmam Sadiq (ə) bu haqda buyurur: «Möminlər qibtə edər, lakin həsəd aparmazlar, münafiqlər isə həsəd aparar, lakin qibtə etməzlər».

## QURANIN HƏSƏDƏ OLAN BAXIŞI

Allah-taala Peyğəmbərə (s) xitab edərək həsədin şeytani vəsvəsələrlə eyni olduğunu bildirir:

**1.** "[Ya Peyğəmbər!] De ki: Pənah aparıram sübhün Rəbbinə!

**2.** Yaratdıqlarının [insanların, cinlərin, vəhşi heyvanların] şərrindən;

**3.** Zülmətə bürünməkdə olan gecənin [və ya batan ayın, ziyası sönən ulduzların] şərindən;

**4.** [Ovsun oxuyub] düyünlərə üfürən [yaxud cadu edib iplərə düyün vuran] qadınların şərindən;

**5.** Və bir də paxılın şərindən!"

Başqa bir ayədə Allah-taala möminlərə, başqalarına verilənləri arzu etməmələrini tövsiyə edir. Çünki, hər bir insanın nəsibi vardır:

"Allahın [maddi, yaxud mənəvi cəhətdən] birinizi digərinizdən üstün tutduğu [birinizə digərinizdən artıq verdiyi] şeyi [özünüzə] arzulamayın. Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır. [Dilədiyiniz şeyi] Allahın lütf və mərhəmətindən istəyin! Şübhəsiz ki, Allah hər şeyi olduğu kimi biləndir!

## NƏQL OLUNMUŞ HƏDİSLƏRİN HƏSƏDƏ VƏ HƏSƏD EDƏN ŞƏXSLƏRƏ MÜNASİBƏTİ

Peyğəmbərdən (s) nəql olunur ki, Allah-taala Həzrət Musaya (ə) xitab edərək buyurur:

Ey İmran oğlu! Camaata verdiklərimə göz dikib həsəd aparma və nəfsini [gördüklərinə] tabe etmə. Çünki, həsəd aparan şəxslər verdiyim nemətlərdən narazı qalıb bəndələrim arasında böldüyüm nemətləri əldə etmək istəyər.

Peyğəmbər (s) səhabələrə müraciət edərək buyurur:

- Allahın nemətlərinə təcavüz etməyin!

Səhabələr soruşdu:

- Ya Rəsuləllah, kimlər Allahın nemətlərinə təcavüz edərlər?

Buyurdu:

- Başqalarına həsəd aparan kəslər.

Əli (ə) buyurur:

«**Həsəd** sağalmayan bir xəstəlikdir».

«**Həsəd** xəstəliklərin ən ağırıdır».

«**Həsədin** verdiyi səmərə dünya və axirət bədbəxtçiliyidir».

«**Həsədi** tərk edənlər insanların ən sevimlisidir».

**Həsəd** aparan şəxslərə gəldikdə isə, Əli (ə) buyurur:

«**Həsəd** aparan şəxslər bol-bol həsrət çəkər və neçə bərabərində günaha düçar olarlar».

«**Həsəd** aparan şəxslər heç vaxt faydalanmazlar».

«**Həsəd** aparan şəxslərə insanların malik olduqları nemətləri itirmələrindən başqa heç nə rahatlıq gətirmir».

«**Həsəd** aparan şəxslər başqalarının qəm-qüssəsində sevinər, onların sevincində isə kədərlənərlər».

**Həsəd** aparan şəxslər hər hansı bir şəxsin nə isə əldən verməsini özünə qənimət hesab edər.

**Həsəd** aparan şəxslər dostluğunu dildə aşkar edər, düşmənçiliyini isə qəlbində gizli saxlayar. Bunun üçün də onların adı dost, xisləti isə düşməndir.

**«Dostların ən pisi həsəd aparan şəxslərdir».**

İmam Sadiq (ə) həsəd aparan şəxslər barədə buyurur:

«Həsəd aparan şəxslər iblis kimi ziyanı başqalarına vurmazdan əvvəl özlərinə vurarlar. Belə ki, o, Adəmə həsəd aparmaqla özünün lənətlənməsinə, Adəmin isə peyğəmbərliyə seçilməsinə səbəb oldu.

## YALAN

Yalan böyük günah və olduqca mənfi xüsusiyyət olduğu üçün qətiyyətlə pislənmişdir. Yalan, danışanın etimad və etibarını itirməsi ilə yanaşı, cəmiyyətdə etimadsızlıq, şəkk və tərəddüd toxumunu səpir. İnsanların bir-birlərinə etimad etmədikləri bir cəmiyyətdə yaşamaq isə, məlum olduğu kimi dözülməz və acınacaqlıdır.

## YALANIN TƏRİFİ

Yalan - həqiqətə uyğun olmayan şeylərə deyilir. Əhəmiyyət doğuran məsələlərdən biri budur ki, danışılan sözün yalan olması mümkün olduğu kimi, bəzi iş və əməllərin də yalan olması mümkündür. Məsələn, hər hansı bir şəxsin özünü şəxsiyyətli bir insan kimi göstərməsini, amma həqiqətdə heç də elə olmadığını buna misal çəkmək olar. Demək yalan həm sözdə, həm də əməldə ola bilər. Yuxarıda verilən tərif onların hər birinə şamil olur.

## QURANIN YALANA OLAN BAXIŞI

Quranın bir çox ayələrində yalan və onun müxtəlif yönləri haqda söhbət açılmış və insanın bu mənfi xüsusiyyəti tərk etməsinə təkid olunmuşdur. Biz onlardan bir neçəsinə işarə edirik:

**1.** Həcc surəsinin 30-cu ayəsində Allah-taala insanları bütlərə pərəstiş etməkdən çəkinmələrini əmr etməklə yanaşı, yalandan da çəkinmələrini əmr edir:

**“...Bütlərdən qaçının, yalan sözlərdən də [Allaha şərik qoşmaqdan da] çəkinin”.**

**2.** Nəhl surəsinin 105-ci ayəsində yalan danışmağın imansızlıqla bərabər olduğu göstərilir:

**“Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Onlar əsil yalançıdırlar!”**

**3.** Zumər surəsinin 3-cü ayəsindən belə qənaətə gəlmək olur ki, yalançılar Allahın hidayətindən məhrum və aqibətləri acınacaqlı olan şəxslərdir:

**“...Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz.”**

Başqa bir ayədə buyurur:

**“...Şübhəsiz ki, Allah [Ona şərik qoşmaqla, böhtan atmaqla] həddi aşanı və yalançını doğru yola müvəffəq etməz”.**

**4.** Allahın hidayətindən məhrum olan kəslər Onun qəzəb və lənətinə düçar olarlar. Ali-İmran surəsinin 61-ci ayəsində Peyğəmbərlə (s) məsihilər arasında yaranmış qarşıdurma haqda söhbət açılarkən Nəcran keşişlərinə xitab edilərək buyurulur:

**“...Sonra [Allaha] yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!”**

Başqa bir ayədə deyilir:

**“...Əgər yalan deyirsə, Allah ona lənət eləsin!...”**

## YALAN HƏDİSLƏRDƏ

**1.** Hədislərin bir çoxunda yalan “imanı aradan aparan” və bu kimi digər ifadələrlə bəyan edilir.

Peyğəmbər (s) buyurur:

**«Çox yalan danışmaq imanı məhv edib aradan aparır».**

Başqa bir hədisdə buyurur:

«Yalan danışmaqdan çəkinin. Çünki yalan insanı imandan uzaqlaşdırır».

Əli (ə) buyurur:

«Yalandan uzaq olun. Çünki yalan insanı imandan uzaqlaşdırır. Daim həqiqəti söyləyən sadiq insanlar hidayət yoluna qədəm qoyarlar, yalançılar isə bədbəxtçilik və rüsvayçılıqla üzləşərlər».

Nəql olunmuş bir çox hədislərdə deyilir ki, yalan, möminlərə xas olmayan bir xüsusiyyətdir. Onlar bu günaha çox nadir hallarda düçar olarlar. Yalançılar isə bunu özlərinə peşə edərlər. Həsən ibn Məhbubdan nəql olunan hədisdə deyilir:

İmam Sadiqdən (ə) soruşdum:

- Mömin paxıl ola bilərmi?

Buyurdu: - Bəli.

Soruşdum, - bəs yalançı necə,- buyurdu: - Xeyr, mömin yalançı ola bilməz. Sonra sözlərinə davam edərək buyurdu: - Mömin hansı xasiyyətə malik olsa da, xain və yalançı ola bilməz.

**2.** Yalanın bütün pisliklərin amili olduğu haqda deyilir:
«Yalan insanları pisliklərə, pisliklər isə cəhənnəmə sövq edər».
İmam Həsən Əskəri (ə) buyurur:
«Günah və pisliklərin açarı yalan olan evlərdə olar».
**3.** Digər hədislərdə yalanın ən pis əxlaqi xüsusiyyətlərdən biri olduğu göstərilir. Əli (ə) bu haqda buyurur:
«Yalan danışmaqdan çəkinin, çünki ən pis əxlaqi xüsusiyyətlərdən olan yalan, pozğunluğun bir növüdür».
«Yalan danışmaq ən pis əxlaqi xüsusiyyət və insanlar arasında nifaq salmaqdır».
«Yalançılıqdan pis adət yoxdur».
Peyğəmbər (s) buyurur:
«Ən böyük cinayət yalan danışmaqdır».
Başqa bir yerdə buyurur:
«Ən böyük xəyanət odur ki, mömin qardaşın sənin danışdığın sözləri təsdiq edə, sən isə ona yalan satmış olasan».
Həzrət Əli (ə) buyurur:
«Düzlük əmanətdarlıq, yalançılıq isə xəyanətdir».
Başqa bir yerdə buyurur:
«Sözlərin ən pisi yalandır».
Həmçinin buyurur:
«İmanın nişanələrindən biri də budur ki, ziyanına olsa belə, düz sözü xeyrinə olan yalandan üstün tutasan».
İmam Sadiq (ə) buyurur:
**«Ağıllı insanlar yalan danışmaz, əgər onların xeyrinə olsa belə».**

# QURANDA DÜZLÜK VƏ SƏDAQƏT BARƏDƏ

İslamın yalana olan münasibəti bəlli oldu. Burada düzlük və sədaqət barədə də söhbət açmağı məqsədəuyğun hesab edirik. Tövbə surəsinin 119-cu ayəsində deyilir:

**“Ey iman gətirənlər! Allahdan qorxun və [imanında, sözündə, işində] doğru olanlarla olun!...”**
Başqa bir ayədə isə Allah-taala düz danışan və düz yolda olanlara böyük nemət (Cənnəti) müjdə verir:
**“Allah buyurdu: Bu, [Qiyamət günü] elə bir gündür ki, düz danışanlara düzlükləri fayda verər. Onları [ağacları] altında çaylar axan cənnətlər gözləyir. Onlar orada əbədi olaraq qalacaqlar. Bu, [möminlər üçün] böyük uğur və qurtuluşdur!”**
Peyğəmbər (s) bu haqda buyurur:
«Qiyamət günü sizlərdən mənə ən yaxın olanınız düz danışanlarınızdır».
Əli (ə) buyurur:
«Düz danışmaq böyük şərəf və ucalıqdır».
Başqa bir yerdə buyurur:
«Düz danışmaq ədalətlə qardaşdır».
İmam Sadiq (ə) buyurur:
«Allah elə bir peyğəmbər göndərməmişdir ki, düz danışan və əmanətdar olmasın».

# DİŞLƏRİN YUYULMASI

Peyğəmbər (s) buyurur:
“Cəbrail (ə) dişlərin yuyulmasını mənə o qədər təkidlə tövsiyə edərdi ki, güman edərdim bu, dinin vacib olan hökmlərindəndir”.
İmam Sadiq (ə) buyurur:
“Dişləri yumaq peyğəmbərlərin gözəl adət-ənənələrindəndir”.
Peyğəmbər (s) buyurur:
“Əgər mənim ümmətimə çətin olmasaydı, namaz üçün dəstəmaz aldıqları zaman dişlərini yumağı onlara vacib edərdim”.
Başqa bir hədisdə buyurur:

"Diş yuyulduqdan sonra qılınan namaz, dişlər yuyulmadıqdan sonra qılınan yetmiş beş namazdan daha fəzilətlidir".

Peyğəmbər (s) Əliyə (ə) etdiyi tövsiylərinin birində buyurur: "Namazdan əvvəl hər dəfə dəstəmaz aldığın zaman dişlərini yu".

Başqa bir yerdə buyurur:

"Dişləri yumaq dəstəmazın bir hissəsi, dəstəmaz isə imanın bir hissəsi deməkdir".

"Ağızlarınızla Quran qiraət etdiyiniz üçün vaxtaşırı dişlərinizi yuyun".

"Ağızlarınızı təmiz saxlayın, çünki onunla Quran qiraət edirsiniz".

Səhabələrə xitab edərək buyurur:

"Quranın yolunu təmiz saxlayın". Səhabələrdən biri - Quranın yolu hansıdır? - soruşduqda buyurur, - ağızlarınız. Daha sonra nə ilə təmizlənməsini soruşduqda buyurur: "Diş fırçaları ilə".

Başqa bir hədisdə buyurur:

"Ağızlarınız Allah yollarından biridir. Allahın ən sevdiyi gözəl olan yollardır (ağızlardır). Elə isə bacardığınız qədər ağız və dişlərinizi təmiz saxlayın".

Peyğəmbər (s) səhabələrdən birinə müraciət edərək buyurur: "Nə üçün mənim yanıma gəldiyiniz zaman dişlərinizi qara görürəm?! Onları yumaqla təmizliyinizə diqqət yetirin!"

## DİŞ FIRÇASININ MÜSBƏT XÜSUSİYYƏTLƏRİ

Peyğəmbər (s) Həzrət Əliyə (ə) xitab edərək buyurur: "Ey Əli! Dişləri yumağın insana on iki xeyri var: Həm adət-ənənəmə riayət olunur, həm də ağız təmiz saxlanmaqla gözün görmə qabiliyyəti güclənir. Həmçinin, Allahı razı salır, dişləri ağardır, ağızın natəmizliyini aradan aparır, damağı bərkidir, iştahanı gücləndirir, xeyirxahlığı çoxaldır və nəhayət, mələklərin sevincinə səbəb olur".

Əli (ə) buyurur:

"Dişləri yumaq Peyğəmbərin (s) ənənələrindən biridir. Bu gözəl ənənəyə əməl etməklə həm Allahın razılığına nail olmaq olur, həm də ağızın təmizliyinə".

Başqa bir yerdə buyurur:

"Dişləri yumaq gözün görmə qabiliyyətini artırır".

İmam Sadiq (ə) buyurur:

"Dişlərinizi yuyun, çünki bu, sinədəki vəsvəsənin aradan getməsinə səbəb olur".

İmam Rza (ə) buyurur:

"Dişləri yumaq görmə qabiliyyətinin güclənməsinə, saç və tüklərin çıxmasına və gözün sulanmasının qarşısını almağa səbəb olur".

Diş yumağın başqa bir müsbət xüsusiyyəti haqda Peyğəmbər (s) buyurur: "Dişləri yumaq fəsahətliliyi daha da artırır".

## DİŞLƏRİ NECƏ YUMALI?

Peyğəmbər (s) bu haqda buyurur:

"Dişlərinizi uzununa deyil, eninə fırçalayın".

Hədislərdən birində deyilir: "Peyğəmbər (s) dişlərini hər gecə-gündüz üç dəfə uzununa deyil, eninə fırçalayardı. O, dişlərini adətən yatmazdan əvvəl, sonra və namaz qılmazdan əvvəl təmizləyərdi".

Peyğəmbər (s) buyurur:

"Oruc tutan zaman dodaqları quruyan şəxslər səhər (azandan əvvəl) və axşam çağı dişlərini yusun."

"Səhər çağı və dəstəmaz almazdan əvvəl dişləri yumaq ən gözəl adət-ənənələrdəndir".

Başqa bir hədisdə buyurur:

"Fürsət olmadıqda belə, heç olmasa üç gündən bir dişlərinizi yumağa çalışın".

## TÜKLƏRİN QISALDILIB SƏLİQƏYƏ SALINMASI

Saç və bığın qısaldılması, saqqalın dibindən qırxılmaması və başın daranması islamın tövsiyə etdiyi ədəb-ərkan qaydalarındandır.

Peyğəmbər (s) buyurur:

"Bığ və burun tüklərini qısaldıb vaxtaşırı saçlarınızı darayın. Belə etməklə öz gözəlliyinizi qoruyub saxlamış olarsınız".

İmam Sadiq (ə) buyurur:

"Burun tüklərini qısaltmaq üzün görünüşünə xüsusi gözəllik və yaraşıq verir".
"Bığ tüklərinizi uzatmayın, çünki şeytan oranı özünə sığınacaq edir".
İmam Sadiq (ə) buyurur:
"Bığlarını qısaltmayan kəs bizdən deyildir".
Peyğəmbər (s) buyurur:
"Bığlarınızı qısaldın, saqqalınızı (dibdən) qırxmayın və özünüzü yəhudilərə oxşatmayın".

# DIRNAQLARIN TUTULMASI

Peyğəmbər (s) buyurur:
"Hər kim cümə günləri dırnaqlarını tutarsa, Allah-taala bütün ağrı və xəstəlikləri onun barmaqlarından uzaq və onları daim sağlam edər".
Səhabələrdən biri deyir: İmam Cəfər Sadiqdən (ə) ruzinin artması üçün mənə dua öyrətməsini xahiş etdim. İmam (ə) cümə günlərində bığ tüklərimi azaldıb, dırnaqlarımı tutmağı mənə tövsiyə etdi".
İmam Cəfər Sadiq (ə) buyurur:
"Cümə günü dırnaqları tutmaq, cüzam və qotur kimi qorxulu xəstəliklərin qarşısını alır".
Başqa bir hədisdə buyurur: "Cümə günü bığ tüklərini qısaldıb dırnaqlarını tutan hər bir şəxs "Bismillah və əla sunnəti Muhəmməd və ali Muhəmməd" deyərsə, tutduğu hər bir dırnağın və kəsdiyi hər bir tükün müqabilində Həzrət İsmayıl (ə) övladlarından bir qul azad etmək savabı qazanmış olar".
Əlbəttə, nəzərdən qaçırmamalıyıq ki, nəql olunmuş hədislərdə cümə gününə təkid olunması həmin günün əhəmiyyətindən və təmizliyə verilən diqqətdən irəli gəlir. Yəni, tük və dırnaqlar uzandıqda onların qısaldılmasının cümə gününə təxirə salınması heç də zəruri deyildir. Bu mətləbə dəlalət edəcək hədislərdən birində deyilir:
İmam Musa Kazimin (ə) səhabələrindən biri ona müraciət edərək deyir:
- Bəziləri bığ tüklərinin və dırnaqların cümə günlərində qısaldılmasına təkid edirlər?!
İmam Kazim (ə) təəccüblənərək buyurur:
"Allah pak və münəzzəhdir! Onları istər cümə, istərsə də qeyri günlərdə qısaldıb təmizliyinizə diqqət yetirin".
Lakin cümə günləri bığın və dırnaqların qısaldılması, ümumiyyətlə həmin gün təmizliyə riayət etməyin daha çox savabı vardır.
İmam Cəfər Sadiqin (ə) səhabələrindən biri cümə günü bığ tüklərinin və dırnaqların qısaldılması haqda ondan soruşduqda buyurur: "Belə bir gözəl adətə vərdiş edən şəxslər gələn cüməyədək daim təmizlikdə olarlar".
Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir: "Cümə və cümə axşamı günlərində bığ tüklərini və dırnaqlarını qısaldan şəxslər diş və göz ağrılarından amanda qalarlar".
İmam Sadiq (ə) dırnaqların necə tutulması haqda buyurur: "Cümə günü dırnaqlarınızı tutduqda sol əlinizin kiçik barmağından başlayıb, sağ əlinizin kiçik barmağında qurtarın".

# ƏTİRLƏRDƏN İSTİFADƏ

Nəql olunmuş hədislərdə möminlərə paltar və bədənlərinin səliqə və təmizliyinə diqqət yetirmələri ilə yanaşı, gözəl ətirlərdən istifadə etmələrinə də təkid olunmuşdur. Bu məzmunda nəql olunmuş bir çox hədislərdə möminlərin, ətirlərdən istifadə etməsi məsləhət görülməklə yanaşı, böyük savaba nail olacaqları haqda da danışılmışdır.
Peyğəmbər (s) buyurur:
"Gözəl iy qəlbə güc verir".
"Ətir vurmaq peyğəmbərlərin gözəl adət - ənənələrindən olmuşdur".
İmam Rza (ə) buyurur:
"Peyğəmbərlərin gözəl xüsusiyyətlərindən biri də gözəl ətirlərdən istifadə etmək olmuşdur".
İmam Sadiq (ə) buyurur:
"Həqiqətən Allah gözəllik və zinətləndirməyi sevər, qəmginlik və qaraqabaqlığı xoşlamaz. Allah-taala Öz bəndəsinə nemət bəxş etdiyi zaman onun əlamətlərini Öz bəndəsində görmək istər. Onun qəmgin və qaraqabaq görməsini isə əsla istəməz".
İmam Sadiqdən (ə) bunun necə olduğunu soruşduqda buyurur: "Paltarını təmizləyib, gözəl ətirlər vurmuş olsun və evinin divarlarını ağardıb tozunu alaraq səliqə-səhmana diqqət yetirsin. Həqiqətən

gün batmazdan əvvəl həyəti işıqlandırmaq həm yoxsulluğa son qoyur, həm də ruzinin artmasına səbəb olur".

Peyğəmbər (s) buyurur:

"Dünyanızda məni sevindirən iki şey var: ailə qurub gözəl ətirlərdən istifadə etməniz, gözlərimə nur verən isə namazdır".

Peyğəmbər (s) buyurur:

"Dörd şey peyğəmbərlərin gözəl adət - ənənələrindən olmuşdur: gözəl ətirlərdən istifadə etmək, ailə qurmaq, dişləri yumaq və vaxtaşırı hənadan istifadə etmək".

Başqa bir hədisdə buyurur:

"Mələklər gözəl ətirləri iylədikləri üçün möminlər bu gözəl ənənəni tərk etməməlidirlər. Elə isə cümə günlərində ətir vurmağı unutmayın".

İmam Cəfər Sadiq (ə) buyurur:

"Gözəl ətirlərə nə qədər pul xərcləsəniz, israfa yol vermiş olmazsınız".

İmam Musa Kazim (ə) buyurur:

"İnsan ətir vurmağı tərk etməməlidir. Əgər gündəlik ətirdən istifadə etməyə imkanı olmazsa, iki gündən bir, buna da qadir olmadıqda, heç olmasa həftədə bir dəfə ətirdən istifadə etməlidir".

İmam Cəfər Sadiq (ə) başqa bir hədisdə buyurur:

"Peyğəmbər (s) ətirə çörəkdən daha çox pul xərclərdi".

Əli (ə) buyurur:

"Bu bir həqiqətdir ki, Peyğəmbərə (s) ətir və ya şirniyyat şeyləri gətirdikdə heç vaxt onu geri qaytarmazdı".

Ənəs ibn Malik deyir:

"Peyğəmbər (s) sovqat olaraq gətirilən ətirləri geri qaytarmazdı".

Səhabələrdən biri deyir:

İmam Sadiqdən (ə) sovqat olaraq verilən ətrin geri qaytarılmaması haqda soruşduqda buyurur:

"Belə bir böyük hörməti geri qaytarmaq yaxşı iş deyildir".

## AYAQ YOLUNUN QAYDALARI

Məsum övliyaların bəzən paltar, mənzil və ətraf mühitin təmizliyi haqda etdikləri tövsiyələrlə tanış olduqdan sonra, ayaq yolunun qayda-qanunları və oranın təmizliyi barədə olunan dəyərli tövsiyələrə işarə etməyi məqsədə uyğun hesab edirik.

## ÖVRƏT ÖRTÜLÜ OLMALI

Hər bir müsəlman bütün hallarda, xüsusilə də ayaq yoluna gedərkən öz övrətini başqalarından gizli saxlamağa çalışmalıdır. Həmçinin birinin başqa birisinin övrətinə baxması da haram və böyük günah hesab olunur. Peyğəmbər (s) özünün "Mənahi" adlı hədisində buyurur:

"Çarəsizlikdən açıq havada qüsl aldıqda övrətinizi başqalarından gizli saxlayın. Hamamda qüsl aldıqda belə hökmən övrətinizi fitə ilə örtün. İstər kişilər, istərsə də qadınlar bir-birlərinin övrətlərinə baxmamalıdırlar. Agah olun ki, belə şəxslərə yetmiş min mələk nifrin edər və lənət oxuyar. Allah-taala bilərəkdən müsəlman qardaşının və yad qadının övrətinə nəzər salan şəxsləri, tövbə etmədikdə münafiqlər arasına qoyaraq dünyalarını dəyişmədən böyük rüsvayçılıqla üzləşdirər".

İmam Cəfər Sadiq (ə) Nur surəsinin 30-cu ayəsinin izahında buyurur: "Qurani-kərimin bütün ayələrində övrətin qorunması barədə söhbət açıldıqda, bu ayə istisna olmaqla, zinadan qorumaq nəzərdə tutulur. Burada isə başqalarının övrətinə nəzər salmaq nəzərdə tutulur. Ayədə buyurulur:

"[Ya Məhəmməd!] Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər, ayıb yerlərini qorusunlar [və ya örtülü saxlasınlar]. Bu, onlar üçün [ədəb-ərkan, təmizlik baxımdan] daha yaxşıdır".

## NECƏ OTURMALI?

Ayaq yolunda oturarkən nə arxa, nə də qabaq tərəf qibləyə olmamalıdır. Fiqhi bəhslərdə bu mətləbə toxunularaq deyilir: «Ayaq yolunda ikən üzü və arxası qibləyə tərəf olan şəxslər günaha yol vermiş olurlar».

Peyğəmbər (s) "Mənahi" hədisində bu mətləbə işarə edərək buyurur: "Ayaq yolunda olduğunuz zaman üzü və arxası qibləyə oturmayın".

Başqa bir hədisdə buyurur:

"Ayaq yolunda olduğunuz zaman üzü və ya arxası qibləyə tərəf deyil, şərq və ya qərb tərəfə oturun".

Açıq havada ayaq yoluna getdikdə küləyin əks istiqamətində oturmamağı nəzərə almaq lazımdır. İmam Rzadan (ə) ayaq yolunda necə oturmaq haqda soruşduqda buyurdu:

"Üzü və ya arxası küləyin istiqamətinə oturulmamalıdır".

## DANIŞIB SÖHBƏT ETMƏMƏLİ

Ayaq yolunda oturarkən heç kəslə danışılmamalı və Quran oxunulmamalıdır. Lakin azan vaxtı Allahı zikr edib zümzümə etməyin heç bir nöqsanı yoxdur.

İmam Rza (ə) buyurur: «Peyğəmbər (s) ayaq yolunda ikən kimsəyə cavab verməyi və söhbət etməyi qadağan edərdi".

Əli (ə) buyurur: "Yeddi halda Quran oxunmamalıdır: Rüku və səcdəyə gedərkən, hamam və ayaq yolunda olarkən, qadınlar heyz və nifas, kişi və qadınlar isə cənabət halında olduqları zaman."

İmam Cəfər Sadiq (ə) buyurur:

"Ayaq yolunda olduğunuz zaman azan səsini eşitdikdə müəzzinin dediklərini təkrar edib Allahı yad edin. Çünki yaxşı olar ki, Allah bütün hallarda yad edilsin".

## DİGƏR QAYDALAR

Ayaq yoluna sol ayaqla daxil olub, oradan sağ ayaqla xaric olunmalıdır və ayaq üstə idrar olunmamalıdır.

İmam Sadiq (ə) buyurur: "Üzürsüz olaraq ayaq üstə idrar etmək və nəcasəti sağ əllə təmizləməklə insan özü-özünə zülm etmiş olur".

Qayalıqlara, axarı olmayan sulara, habelə, havaya səpərək idrar olunmamalıdır.

# ӘНКАМ

# İSLAMDA ƏHKAMIN ƏHƏMİYYƏT VƏ DƏYƏRİ

İslam dini sonuncu və ən kamil din olduğu üçün onun bütün qayda-qanunları insan fitrəti ilə uyğundur və həyatın müxtəlif sahələrində insana nicat yolunu göstərir.

Bəşərin səadəti istər bu dünyada, istərsə də axirətdə gündəlik həyatın müxtəlif sahələrində (həm fərdi və həm də ictimai cəhətdən) islami qayda-qanunlara əməl etməklə birbaşa bağlıdır. İslam dininin nicatverici proqramları əsasən üç mühüm sahəyə ayrılır:

a) Etiqadi proqramlar, yaxud üsuliddin;

b) Əməli proqram və göstərişlər; bunlar firuiddin, yaxud əməli hökmlər adlandırılır.

v) Psixoloji məsələlər, bunlar əxlaq adlandırılır.

**Birinci** qismdən olan məsələlər insanın əqidə və fikrinin sağlamlaşdırılması ilə əlaqədar proqramlardan ibarətdir ki, mükəlləf şəxs onlar barəsində yəqinə çatmalı, onları dəlil əsasında qəbul edib inanmalıdır. İslamın bu kimi proqramları etiqadi məsələlər olduğundan və onlarda yəqinə çatmağa ehtiyac duyulduğundan onlarda başqasının dediyinə inanmaq (təqlid etmək) düzgün deyildir.

Əməli proqramlardan ibarət olan **ikinci** qism məsələlər bir sıra əmr və nəhylərdən ibarətdir ki, əmrlərin yerinə yetirilməsi və qadağan olunmuş işlərin tərk edilməsi ilə bizləri tanış edir. Belə proqramlar toplusuna «Əhkam» deyilir.

Mükəlləf şəxs bu kimi əmr və nəhyləri tanıyıb onları dərk etmək üçün müctəhiddən təqlid etməsi gərəkdir.

## *HÖKMLƏRİN QİSMLƏRİ*

**1-Vacib:** Yerinə yetirilməsi vacib, tərk olunması isə ilahi əzaba səbəb olan əməllərə deyilir, məsələn namaz.

**2-Haram:** Tərk edilməsi vacib, yerinə yetirilməsi isə ilahi əzaba səbəb olan əməllərə deyilir, məsələn yalan danışmaq.

**3-Müstəhəbb:** Yerinə yetirilməsi bəyənilən və savabı olan, amma tərk edilməsində əzabı olmayan işlərə deyilir, məsələn gecə namazı.

**4-Məkruh:** Tərk edilməsi bəyənilən və savabı olan, lakin yerinə yetirilməsi ilahi əzaba səbəb olmayan əməllər, məsələn xörəyi yandıra-yandıra yemək.

**5-Mübah:** Yerinə yetirilməsi və tərk edilməsi eyni səviyyədə olan iş, onun nə əzabı vardır, nə də savabı. Bizim gündəlik əməllərimizdən çoxu kimi.[1]

### Təqlid

**Təqlid** – şəriət məsələlərində müctəhidin göstərişlərinə əməl etmək deməkdir. Yəni təqlid edən şəxsin öz işlərini müctəhidin fətvasına uyğun yerinə yetirməsidir.

1. Təqlid edən şəxsə müqəllid deyilir.
2. Beləliklə, məlum olur ki, şəriət məsələlərində müsəlmanların əksəriyyətinin vəzifəsi təqlid etməkdir.
3. Başqalarının təqlid etdiyi müctəhidin özünə isə "mərcəye –təqlid" deyilir.
4. Təqlid olunan müctəhid gərək aşağıdakı sifətlərə malik olsun[2]:

- **Adil olsun;**
- **Diri olsun;**
- **Kişi olsun;**
- **Baliğ (yəni həddi-büluğa çatmış) olsun;**
- **12 imam şiəsi olsun;**
- **Vacib ehtiyata əsasən «Ələm» (digərlərindən daha bilikli) olub, dünyaya həris olmasınlar.**

---

[1] *Şəhid Sədr, "Əl-fətavəl-vazihə", 1-ci cild, səh.83*

[2] *Lənkərani. T.m, məs.3; Sistani. T.m, məs.2*

## Mərcəyi təqlidin haqqında izahat

1-Adil o şəxsə deyilir ki, ədalət qüvvəsinə (səciyyəsinə) malik olsun. Ədalət də nəfsani bir halət və səciyyədir ki, insanı təqvaya vadar edir, onu kəbirə günahlara mürtəkib olmaqdan və kiçik günahlara israr etməkdən çəkindirir.

2. Təzə mükəlləf olan, yaxud indiyə qədər təqlid etməyən şəxs dünyadan getmiş müctehidə təqlid edə bilməz. O diri bir müctehidə təqlid etməlidir.

3. Əgər bir kəs müctehiddən təqlid etsə və həmin müctehid vəfat etsə bu zaman ölü müctehidə təqlid etməkdə qalmaq, diri müctehidin icazəsi ilə olmalıdır.

4-Ölü müctehidə təqlid etməkdə qalan şəxs ölü müctehidin fətva vermədiyi yeni məsələlərdə diri müctehidə təqlid etməlidir.[1]

5. Mükəlləfin təqlid etdiyi müctehid Cəfəri məzhəbinin davamçısı olmalıdır. Yəni 12 imamı qəbul edən şiə olmalıdır. Cəfəri məzhəbinə mənsub olanlar qeyri imamçı alimlərin fətvasına əsasən əməl etməməlidirlər.

6. İslam dini qadın və kişinin vəzifələrini onların təbiyətinə və yaradılışına münasib təyin etmişdir. Elə buna görə də «Mərcəiyyət» kimi çox ağır bir məsuliyyəti xanımların öhdəsindən götürmüşdür. Bu onların azadlıqlarının əldən alınmaları mənasında deyildir. Xanımlar da islamın elmlərində inkişaf edib ictihad dərəcəsinə yetişib, əhkamı Quran və Sünnə mənbələrindən ələ gətirmək qabiliyyətinə çata bilərlər. Bu zaman onlar heç kəsdən təqlid etməyə bilərlər.

7-Ələm o şəxsə deyilir ki, o hökmlərin (Quran və Sünnətdən) istinbat olunmasında daha ustaddır.

8-Mükəlləfin ələm müctehidi tanımaq üçün axtarış aparması vacibdir.[2]

9-Mükəlləf şəxs təqlid etməkdə müstəqildir və başqalarına tabe olmur. Məsələn, qadın bu məsələdə ərinə tabe deyildir və onun əri başqa müctehidə təqlid edirsə belə onun özü hər kəsi ələm hesab etsə ona təqlid etməlidir.[3]

---

[1] *"İstiftaat", 1-ci cild, səh.12, sual:20*

[2] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.6, məsələ:5*

[3] *"İstiftaat", 1-ci cild, səh.13, sual:25*

# İCTİHAD VƏ TƏQLİD

## 1. Ələm müctəhidi tanımağın yolları:

- İnsanın özü bir şəxsin ələm olmasına yəqinlik və ya xatircəmlik tapsın. Məsələn, özü bu sahədə mütəxəssis olub ələm müctəhidi tanıya bilsin.
- Ələm müctəhidi başqalarından seçə bilən iki adil və alim şəxs hər hansı bir müctəhidin ələm olmasını təsdiq etsinlər.
- Bir müctəhidin ələm olması camaat arasında o qədər məşhur olsun ki, insan üçün yəqinlik, yaxud xatircəmlik hasil olsun.

## 2. MÜCTƏHİDİN FƏTVASINI ƏLDƏ ETMƏYİN YOLLARI:

- Müctehidin özündən eşitmək;
- İki, yaxud bir nəfər adil şəxsdən eşitmək;
- İnsanın etibar etdiyi bir nəfərdən eşitmək;
- Müctehidin risaləsində hökmü görməklə;[1]

3-Əgər bir məsələdə ələm müctehidin fətvası olmasa, müqəllid həmin məsələdə fətvası olan digər bir müctehidə müraciət edə bilər, vacib ehtiyata görə fətvasına rücu etdiyi müctehid sair müctehidlərdən ələm olmalıdır.[2]

4-Əgər müctehidin hər hansı bir məsələdəki fətvası dəyişsə, onun yeni fətvasına əməl olunmalıdır və əvvəlki fətvasında qalmaq caiz deyildir.[3]

5- İnsanın çox zaman qarşılaşdığı və ehtiyac duyulan hökmləri öyrənməsi vacibdir.

### *Mükəlləf*

Əhkama əməl etməsi vacib olan şəxsə mükəlləf deyilir. ***Mükəlləfin iki şərti vardır: aqil*** və ***baliğ*** olmaq.

***Aqil*** – yəni əqli cəhətdən sağlam olan insan. Deməli ruhi xəstələr istisnadırlar.

***Baliğ*** – yəni həddi-buluğa yetişmiş insan. Deməli uşaqlar baliğ deyillər.

### *Həddi-büluğ yaşı*

Oğlanlar 15 yaşlarını və qızlar isə 9 yaşlarini tamamladıqda həddi buluğa yetişirlər. Bundan sonra onlar bütün şərii vəzifələrinə əməl etməlidirlər. Lakin bu yaşdan az olan uşaqlar əgər namaz kimi yaxşı işləri düzgün şəkildə yerinə yetiriblərsə onun savabını alacaqlar. Ancaq diqqət etməliyik ki, təyin olunan yaş hədləri mütləq qəməri təqvimi ilə hesablanır. Çünki, hər bir qəməri ili şəmsi ilindən on gün və on səkkiz saat azdır. Yəni hər bir qəməri il 354 gün və altı saatdan ibarətdir.

Deməli 9 il şəmsi ilindən 96 gün 18 saat azaldılsa, qəməri ililə 9 il və 15 il şəmsi ilindən 161 gün 6 saat azaldılsa, qəməri illə 15 il hasil olur.

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.8, məsələ:21*
[2] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.7, 11-ci məsələ.*
[3] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.12, məsələ:31*

## Vacib ehtiyatla müstəhəbb ehtiyat arasındakı fərq:

**Ehtiyat müstəhəbb**–fətva ilə yanaşı olan ehtiyatdır. Yəni o məsələdə müctəhid nəzərini açıqladıqdan sonra ehtiyat yolunu da göstərir. Müstəhəbb ehtiyatda müqəllid ya həmin ehtiyata, yaxud onunla yanaşı fətvaya əməl etməlidir. Həmin məsələdə başqa müctehidə müraciət edə bilməz. Bu məsələdəki kimi:

Əgər şəxs paltarının və ya bədəninin nəcis olmasını bilməsə və namazdan sonra anlasa,namazı düzdür. Amma ehtiyat budur ki, əgər vaxt varsa namazını təkrar qılsın.

**Ehtiyat vacib**–fətva olmayan ehtiyatdır.

Ehtiyat vacibdə müqəllid həm həmin ehtiyata əməl edə bilər, həm də başqa müctehidin fətvasına müraciət edə bilər. Bu məsələdəki kimi: Ehtiyata əsasən təzə (göy) olan üzüm ağacının yarpağına səcdə olunmasın.

# *TƏHARƏT*

Birinci fəsildə qeyd olunduğu kimi İslamın əməli proqramların məcmuəsi **"əhkam"** adlandırılır. Onlardan bir qismi vaciblərdir. Vacib əməllərin ən mühümü və ən əsaslısı isə namazdır.

Namazla əlaqədar məsələləri üç qismə bölmək olar:

1-Müqəddimati işlər;

2-Müqərrinati işlər;

3-Namazı batil edən işlər.

**Müqəddimati işlər:** Namaz qılan şəxs namazdan qabaq həmin işlərə əməl etməlidir.

**Müqərrinati işlər:** Namazın içinə aid olan məsələlərdir, o cümlədən təkbirətül-ehramdan salama qədər olan işlər.

**Namazı batil edənlər:** Bu, namazı batil edən şeylər barəsindədir.

### *Namazın müqəddimati işləri*

Bu böyük ibadətin yerinə yetirilməsindən öncə namaz qılan şəxsin diqqət mərkəzində olan məsələlərdən biri təharət və paklıqdır.

Namaz qılan şəxs öz bədən və paltarının nəcis şeylərdən paklamalıdır. Nəcasətin özü və nəcis əşyaların paklanma yollarını öyrənmək üçün onları bəyan edirik:

Nəcis şeyləri tanımaq üçün İslamın ümumi bir qaydasına diqqət yetirin:

| |
|---|
| Aləmdə hər bir şey pakdır, yalnız on bir şey nəcisdir və başqa şeylər də onlara toxunduqda nəcis olur. |

Nəcasət
- 1. Bövl (sidik), 2. Ğait ⇒ İnsanın və əti haram, qanı sıçrayıcı olan hər bir heyvanın. Məsələn: siçan, pişik
- 3. Məni, 4. Qan, 5. Murdar ⇒ İnsanın və sıçrayıcı qanı olan heyvanın. Məsələn: qoyun
- 6. İt, 7. Donuz ⇒ Quruda yaşayan növləri (suda yaşayan növləri nəcis deyil)
- 8. Şərab
- 9. Pivə
- 10. Kafir
- 11. Nəcis yeyən dəvənin təri*

Bövl və ğaiti nəcisdir
- İnsanın
- Heyvanın — Qanı sıçrayıcı• və əti haram olsa

Təharət təmizlikdən, nəcasət isə çirklilikdən ayrı bir məsələdir. Bir şey təmiz ola bilər, amma İslam hökmləri nəzərindən pak olmaya bilər. İslam həm təharəti, həm də paklığı istəmişdir. Yəni insan həm özünün paklıq və təmizliyinə, həm də öz yaşayış mühitinin paklıq və təmizliyinə diqqət yetirməlidir. İndi təharət barəsində söhbətə başlayırıq.

1-İnsanın, həmçinin qanı atıcı, əti haram olan bütün heyvanların bövl və ğaiti nəcisdir.

2-İnək və qoyun kimi əti halal olan heyvanların, atıcı qanı olmayan ilan və balıq kimi heyvanların

bövl və ğaiti pakdır.[1]

3-Əti məkruh olan heyvanların, o cümlədən ulaq və at kimi heyvanların bövl və ğaiti pakdır.[2]

4-Qarğa kimi əti haram olan heyvanların (quşların) fəzləsi nəcisdir.[3]

### *Ölü heyvanın hökmləri*

1-Ölü insan, hətta təzə ölmüş olsa və bədəni soyumamış olsa belə bütün bədəni – dırnağı, tükü və dişləri kimi ruhsuz olan hissələri istisna olmaqla – nəcis olur. Yalnız aşağıdakı şəxslər istisnadır:[4]

a) Döyüş meydanında şəhid olan şəxs;

b) Qüsl verilmiş insan (üç qüslu tamam olan).

### *Murdar olmuş heyvan*

1-Atıcı qanı olmayan heyvanın ölmüşü, balıq kimi pakdır;

2-Atıcı qanı olan heyvanın ölüsünün ruhsuz hissələri, o cümlədən tükü, buynuzu pakdır. Ruh olan hissələri məsələn, dərisi və əti nəcisdir.[5]

Murdar heyvan
- 1-İt və donuz ⇨ Bunların bütün üzvləri nəcisdir.[1]
- 2-İt və donuzdan başqa heyvanlar
  - **1-** Qanı sıçrayıcıdır
    - **1.** Ruhu olan üzvləri nəcisdir. Məsələn: ət və dərisi.[2]
    - **2.** Ruhsuz üzvləri pakdır. Məsələn: tük və dırnağı.[3]
  - **2-** Qanı sıçrayıcı deyilsə ⇨ Bütün üzvləri pakdır. Məsələn balıq.[2]

### *Qanın hökmləri*

1-İnsanın və atıcı qanı olan hər bir heyvanın, o cümlədən toyuq, qoyun və s.-nin qanı nəcisdir.

2-İlan və milçək kimi atıcı qanı olmayan heyvanların qanı pakdır.

3-Bəzən yumurtanın içində müşahidə olunan qan nəcis deyildir, lakin ehtiyat vacibə görə onu yeməkdən çəkinmək lazımdır. Əgər qanı yumurtanın sarısı ilə bir-birinə qatışdırsalar və aradan getsə, o sarını da yeməyin eybi yoxdur.

4-Dişlərin dibindən gələn qan, əgər ağız suyu ilə qarışıb aradan getsə pakdır, bu halda ağız suyunu udmağın da işkalı yoxdur.[6]

---

[1] *"Ürvətül-vusqa", 1-ci cild, səh.55*

[2] *"Ürvətül-vusqa", 1-ci cild, səh.55*

[3] *"Tovzihul-məsail", məsələ:85; *Ayətullah Xamenei:* ***Əti haram olan quşların fəzləsi nəcisdir.*** *("İstiftaat"ın müntəxəbatı, 4-cü sual).*

[4] *"Ürvətül-vusqa", 1-ci cild, səh.58*

[5] *"Ürvətül-vusqa", 1-ci cild, səh.58, "Təhrirul-vəsilə", 1-ci cild, səh.115*

[6] *"Tovzihul-məsail", məsələ:96, 96-101*

**IV DƏRS**

# PAK ŞEYLƏR NECƏ NƏCİS OLUR

Əvvəlki dərsdə bəyan olundu ki, aləmdə bir neçə şey istisna olmaqla hər bir şey pakdır, lakin pak şeylər də nəcis şeylərə toxunmaqla nəcis ola bilər, o zaman ki, onlardan biri (pak şey, yaxud nəcis şey) rütubətin birindən digərinə keçə biləcəyi tərzdə yaş olsa.[1]

1-Əgər pak şey nəcis bir şeyə toxunsa və onlardan biri rütubətin birindən digərinə sirayət edə biləcəyi tərzdə yaş olsa pak şey də nəcis olur.

2-Aşağıdakı hallarda paklığa hökm olunur:

* Pak şeylə nəcis şeyin bir-birinə toxunub-toxunmamasını bilməsə;
* Pak və nəcis şeyin yaş olub-olmamasını bilməsə;
* Rütubətin birindən digərinə sirayət edib-etməməsini bilməsə;[2]

### *Bir neçə məsələ:*

1-Nəcis bir şeyin yeyilməsi və ya içilməsi haramdır.[3]

2-Əgər insan bir şəxsin nəcis şey yediyini, yaxud nəcis libasda namaz qıldığını görsə, ona deməsi lazım (vacib) deyildir.[4]

3-İnsan pak bir şeyin nəcis olub-olmamadığında şəkk etsə pakdır, o şeyin nəcis və ya pak olmasını başa düşə bilərsə belə bu barədə axtarış axtarması da lazım deyildir. Hətta o şeyin nəcis və ya pak olduğunu anlamaq iqtidarında olsa da belə.[5]

### *Mütəhhirat (pak edicilər)*

**Nəcis şeylər necə pak olur?**

Zatən nəcis olmayan bütün nəcis şeylər paklanır. Pakedicilər aşağıdakılardan ibarətdir:

1-Su;
2-Torpaq;
3-Günəş;
4-İslam;
5-Nəcasətin aradan qaldırılması;[6]

Su nəcis şeylərin çoxunu paklayır, onun müxtəlif qismləri vardır ki, onları tanınması bununla əlaqədar məsələlərin daha yaxşı öyrənməsinə kömək edir.

| | | | |
|---|---|---|---|
| | 1-Muzaf | 1-Quyu suyu; | |
| | | 2-Cari (axar) su; | |
| Suların növləri: | | 3-Yağış suyu; | |
| | 2-Mütləq | 4-Durmuş su; | |
| | | | Kürr su; |
| | | | Qəlil su. |

***Muzaf su:*** Muzaf su ya bir şeydən alınan (alma və qarpız suyu kimi) və ya bir şeylə qarışaraq artıq kürr su deyilməyən sudur (şərbət kimi şeylər).

***Mütləq su:*** Muzaf su olmayan sulara mütləq su deyilir.

[1] *"Tovzihul-məsail", məsələ:125*
[2] *"Tovzihul-məsail", məsələ:126, "Ürvətul-vusqa", 1-ci cild, səh.79, məsələ:1*
[3] *"Tovzihul-məsail", məsələ141*
[4] *"Tovzihul-məsail", məsələ143*
[5] *"Tovzihul-məsail", məsələ123, "Ürvətül-vüsqa", 1-ci cild, səh.79, 1-ci məsələ*
[6] *"Tovzihul-məsail", məsələ148*

### *Muzaf suyun hökmləri*

1-Nəcis bir şeyi paklamır (mütəhhiratdan deyildir).

2-Nəcasətə toxunduqda özü də nəcis olur, hətta nəcasət az olsa və suyun iyi, dadı və rəngi dəyişməsə belə;

3-Onunla dəstəmaz və qüsl düzgün deyildir.[1]

### *Mütləq suyun qismləri*

Su ya yerdən qaynayır;

Yaxud səmadan yağır;

Yaxud da nə yerdən qaynayır, nə də göydən yağır.

Göydən yağan suya yağış deyilir.

Yerdən qaynayan su əgər cərəyanda olsa ona cari (axar) su deyilir, əgər cərəyanda olmasa ona quyu suyu deyilir.

Yerdən qaynamayan, göydən yağmayan suya **"rakid"** su deyilir.

Əgər rakid suyun miqdarı çox olsa kürr, az olsa qəlil su adlanır.

**Kürr suyun miqdarı**

**Həcmi:** 42,875 qarış: eni, uzunluğu və hündürlüyünün hər biri heç olmazsa üç qarış yarım olan qaba tökülərək onu dolduran su kürr miqdarındadır.

**Çəkisi:** 377, 419 kloqram.

**Qəlil suyun miqdarı:**

Kürrdən az olan su qəlildir.

Çirklilikləri və nəcasəti yalnız mütləq su pak edir. Muzaf suyun çirkli bir şeyi təmizləməsi mümkündür, lakin nəcis şeyi heç vaxt pak etməz.

Gələn dərsdə mütləq suların hökmləri, onlarla nəcis şeyləri necə paklamağı öyrənəcəyik.

[1] *"Tovzihul-məsail", məsələ:47 və 48*

# SULARIN HÖKMLƏRİ

***Qəlil su:***

1-Qəlil su nəcasətə toxunmaqla nəcis olur (yəni nəcis bir şeyin üstünə tökülsə, yaxud nəcis şey ona dəysə).[1]

2-Əgər kürr, yaxud cari (axar) su nəcis olmuş qəlil suya birləşib onunla qarışsa nəcis su paklanır (məsələn: nəcis olmuş qabdakı qəlil su kürr mənbəyinə birləşən kranta birləşdirilsə və suyu onun üzərinə açıb onunla qarışdırsalar).[2]

## *Kürr, cari və quyu sularının hökmləri*

1-Qəlil sudan başqa mütləq suların bütün qismləri nəcasətin iy, dad və rəngini özünə almayınca pakdır. Əgər su, nəcasətə toxunmaq nəticəsində onun iyini və yaxud dadını özünə götürsə nəcis olur. (Buna əsasən bu hökmdə cari su, quyu suyu, kürr suyu, hətta yağış suyu da müştərəkdir.)[3]

2-Kürr mənbəyinə birləşən Böyük binaların su boruları kürr suyunun hökmündədir.[4]

## *Yağış suyunun bəzi xüsusiyyətləri*

1-Əgər yağış üzərində nəcasətin eyni olmayan nəcis bir şeyin üstünə bir dəfə yağsa, o şey paklanar.

2-Əgər yağış nəcis paltar və fərşin (xalça, palaz) üzərinə yağsa paklanar və onu sıxmaq vacib deyildir.

3-Əgər yağış nəcis olmuş torpağın üstünə yağsa pak olar.

4-Əgər yağış suyu bir yerdə toplansa, kürrdən az olsa belə yağış yağan müddətdə nəcis şeyi onda yusalar, nəcasətin iyi, dadı və yaxud rəngini özünə götürməyincə pakdır.[5]

## *Sularda şəkkin hökmləri*

1-Kürr miqdarında olub-olmaması məlum olmayan bir qədər su nəcasətə toxunmaqla nəcis olmur, lakin kürr suyunun sair hökmlərinə malik deyildir.

2-Əvvəllər kürr suyu miqdarında olan, sonra isə qəlil su olub-olmamasında şəkk edilən su kürr su hökmünə malikdir.

3-Pak və ya nəcis olması məlum olmayan su pakdır.

4-Əvvəllər pak olan, sonradan nəcis olub-olmamasında şəkk edilən su pak hökmündədir.

5-Əvvəllər nəcis olan, sonra isə pak olub-olmaması məlum olmayan su nəcis su hökmündədir.

6-Əvvəllər mütləq olub sonradan muzafa çevrilib-çevrilmədiyi məlum olmayan su mütləq su hökmündədir.[6]

## *Nəcis şeylərin su ilə paklanma qaydası*

Həyat mayası olan su bir çox nəcasətləri paklayır. O pak edicilərdən sayılır və gündəlik onunla əlaqədar çoxlu məsələlər qarşıya çıxır.

İndi isə nəcis şeylərin su ilə necə paklanmasını öyrənirik.

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.14, məsələ:14; "Tovzihul-məsail", məsələ:16*

[2] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.14, məsələ:11*

[3] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.13, məsələ:4*

[4] *"Tovzihul-məsail", məsələ:35*

[5] *"Tovzihul-məsail", məsələ:37, 40, 41 və 42*

[6] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.49; "Təhrirul-vəsilə", 1-ci cild, səh.15, məsələ:15*

**Nəcis şeyin paklanması:**

1- Qab
- 1.Kürr su ilə: 1 dəfə
- 2.Qəlil su ilə: 3 dəfə

⟹ Şərabla nəcis olmuş qablardan, it və ya donuzun maye halında olan bir şeyi yediyi qablardan başqa

2-Qabdan başqa şeylər
- 1. Bövllə nəcis olmuşsa
  - **1-** Kürr su ilə: bir dəfə
  - **2-** Qəlil su ilə: iki dəfə
- 2. Bövldən başqa bir şeylə nəcis olmuşsa
  - **1-** Kürr su ilə: bir dəfə
  - **2-** Qəlil su ilə: bir dəfə

**İzah:**

**a)** Nəcis şeyləri paklamaq üçün əvvəlcə onun üzərində olan nəcasətin eyni aradan qaldırılmalı, sonra yuxarıdakı cədvəldə qeyd olunan miqdarda suya çəkilməlidir. Məsələn: nəcis qab, nəcasət aradan qaldırıldıqdan sonra kürr suda bir dəfə yuyulsa kifayətdir.

**b)** Suyu özünə çəkən və sıxılmağa qadir olan palaz, paltar, libas və onun kimi şeylər qəlil su ilə paklandıqda hər dəfə yuyulduqdan sonra daxilində olan suyun çıxması üçün sıxılmalı, yaxud başqa bir yolla onun suyu götürülməlidir. Kürr və cari suda da vacib ehtiyata görə su onun daxilini əhatə etməlidir.[1]*

**c)** Nəcis şeylərin paklanmasının hökmlərində axar və quyu suyu kürr suyu kimidir.

***Nəcis olmuş qabı aşağıdakı yolla paklamaq olar:***

**Kürr su ilə:** O qabı kürr suya bir dəfə batırıb çıxartmaqla;

**Qəlil su ilə:** Onu üç dəfə su ilə doldurub boşaltmaq, yaxud üç dəfə bir miqdar suyu onun içinə töküb elə hərəkət etdirmək lazımdır ki, nəcis olmuş yerlərə çatsın və bundan sonra çölə töksünlər.

---

[1] * *Ayətullah Xamenei: Sıxmaq lazım deyil, əksinə hərəkətlə olsa belə suyun çıxması kifayətdir. ("Əcvibətul-"İstiftaat", 1-ci cild, səh.27, sual:75)*

# NƏCİS TORPAĞIN SUYA ÇƏKİLMƏSİ QAYDASI

**Torpağın paklanma qaydası**

**1- Kürr su**
Əvvəlcə nəcasəti aradan qaldırmaq lazımdır, sonra isə həmin yerə kürr, yaxud axar suyu elə çatdırmaq lazımdır ki, nəcis olmuş yerin hər tərəfinə su çatmış olsun.

**2- Qəlil su**
1– Üstündə su axa bilməyən (yəni suyu canına çəkən) yer qəlil su ilə pak olmaz*

2– Daş və ya kərpiclə döşənmiş olan və ya suyun batmadığı bərk yer qəlil su ilə pak olur. Bu halda onun üstünə axıncaya qədər su tökülməlidir. Amma həmin suyun yığıldığı yer nəcisdir.[3]

**Məsələ 1:** Nəcis olmuş divar da nəcis olmuş torpaq kimi paklanır.[1]
**Məsələ 2:** Yeri paklayan zaman əgər sular cari olsa və quyunun içinə getsə, yaxud o yerdən çölə çıxsa suyun cərəyan etdiyi hər yer paklanır.

### Torpaq

1-Əgər ayağın, yaxud ayaqqabının altı yol gedərkən nəcis olsa və yerə toxunduğuna görə onun nəcasətləri aradan getsə, pak olur. Deməli yer yalnız ayağın və ayaqqabının altını paklayır, həm də gərək:
* Torpaq pak olsun;
* Torpaq quru olsun (nəm olmasın);
* Yalnız torpaq, qum, daş, kərpic və bu kimi şeylərdən olan yer paklayıcı sayılır.[2]

**Məsələ:** Əgər ayağın və ya ayaqqabının altının yerə sürtülməsi nəticəsində nəcasət aradan qalxarsa pak olur, lakin daha yaxşı olar ki, heç olmazsa on beş addım yol gedilsin.*[3]

### Günəş

Günəş də sonradan qeyd olunacaq şərtlər daxilində aşağıdakı şeyləri paklayır:
* Yeri;
* Bina və onda işlədilən qapı-pəncərə kimi şeyləri;
* Bitkilər və ağacları.[4]

### *Günəşin paklayıcı olmasının şərtləri*

* Nəcis şey o qədər yaş olmalıdır ki, bir şey ona toxunduqda o da yaş olsun;
* Günəşin saçması ilə qurusun; Əgər rütubətli qalsa pak olmaz;
* Pərdə və bulud kimi şeylər günəşin saçmasına mane olmasın. Amma əgər çox nazik olsalar və günəşin saçmasının qarşısını almasa eybi yoxdur;
* Günəş onu təklikdə qurutmuş olsun, misal üçün küləyin köməyi ilə qurutmamış olsun;
* Günəş saçarkən onda nəcasətin eyni olmasın; Deməli əgər nəcasətin eyni olsa günəşin saçmasından qabaq aradan qaldırılmalıdır;

---

[1] *"Tovzihul-məsail", məsələ:180*
[2] *"Tovzihul-məsail", 183 və 192-ci məsələlər.*
[3] ** Ayətullah Xamenei:* ***Əgər təqribən quru və pak yerin üzərində on addım gedilsə, nəcis olmuş ayağın və ya ayaqqabının altı pak olur.*** *"Ürvətül-vüsqa", 1-ci cild, səh.125*
[4] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.129; "Təhrirul-vəsilə", 1-ci cild, səh.133*

* Divarın, yaxud yerin zahirini və batinini bir dəfəyə qurutmuş olsun; Deməli əgər onun üz tərəfini bu gün, daxilini isə sabah qurutsa, yalnız onun üz hissəsi pak olur.

**Məsələ**: Əgər yer də bu kimi şeylərlə nəcis olsa, lakin rütubətli olmasa onun üzərinə müəyyən qədər su, yaxud onun rütubətli olmasına səbəb olan başqa bir şey tökülməli, sonra günəş ona saçmalıdır. Bu zaman onu pak edər.[1]

### *İslam*

Əgər kafir şəhadət kəlmələrini desə müsəlman olur və islamı qəbul etməsi səbəbi ilə onun bütün bədəni (hətta təri və ağzının suyu belə) pak olur.

Şəhadət kəlmələri: **Əşhədu ənla ilahə illəllah, aşhədu ənnə Muhəmmədən rəsulullah.**[2]

### *Nəcasətin eyninin aradan qaldırılması*

Aşağıdakı iki halda əgər nəcisin eyni aradan qaldırılsa, nəcis şey paklanır və suya çəkməyə ehtiyac yoxdur:

1-Heyvanın bədəni: Məsələn nəcasət yeyən toyuğun dimdiyindən nəcis aradan qaldırıldıqdan sonra dimdiyi pak olur.

2-İnsanın bədəninin batini: Ağzının, burnunun və qulağının içi kimi.

Deməli, əgər dişlərin dibindən qan gəlsə və yaxud bir nəfər nəcis yemək yesə, ağzında nəcis yemək qalıqları və qan olmasa, yaxud ağzın suyu ilə qarışaraq aradan gedəcək miqdarda az olsa pakdır.[3]

---

[1] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.129-131; "Təhrirul-vəsilə", 1-ci cild, səh.130*

[2] *Yenə orada*

[3] *"Tovzihul-məsail", məsələ:216-217*

**VII DƏRS**

# DƏSTƏMAZ

Namaz qılan şəxs, namaz qılmazdan öncə dəstəmaz alaraq özünü bu böyük ibadət üçün hazırlamalıdır.

Bəzi hallarda da qüsl etməlidir, yəni bədəninin hər bir yerini yumalıdır. Əgər dəstəmaz ala, yaxud qüsl edə bilməsə, onun yerinə təyəmmüm adlı başqa bir əməli görməlidir ki, bu dərs və gələn dərsdə onların hər birinin hökmü ilə tanış olacaqsınız.

### Dəstəmaz necə alınır?

Dəstəmazda əvvəlcə üz yuyulur, sonra sağ, ondan sonra isə sol qol yuyulur. Bu üzvlər yuyulduqdan sonra əlin içində qalan rütubətlə başa məsh edilir, yəni əl onun üzərinə çəkilir. Sonra əvvəlcə sağ ayaq, sonra isə sol ayağın üstünə məsh çəkilir. İndi dəstəmazın əməlləri ilə daha artıq tanış olmaq üçün aşağıdakı cədvələ baxın.

Dəstəmaz işləri
- 1-*Yumaq*
  - 1- *üz*
    - *Uzunu:* alının yuxarısındakı tük bitən yerdən çənənin axırına qədər;
    - *Eni:* orta barmaqla baş barmağın arası qədər
  - 2- *sağ qol*, 3- *sol qol*
    - Dirsəkdən barmaqların ucuna qədər
- 2- *Məsh*
  - 1-*baş* ⇨ Başın ön tərəfi, alının üst hissəsi
  - 2-sağ ayaq, 3-*sol ayaq*
    - Ayaqların üzərinə barmaqların ucundan ayağın qabarıq hissəsinə qədər

### Dəstəmazın əməllərinin izahı

**Yumaq:**

1-Üzün və əllərin yuyulmasında vacib miqdar qeyd olunanlardır. Lakin həmin vacib miqdarın yuyulduğuna yəqin etmək üçün onun ətrafı da bir qədər yuyulmalıdır.[1]

2-Ehtiyat vacibə görə üzü və əlləri yuxarıdan aşağı istiqamətdə yumaq lazımdır. Əgər aşağıdan yuxarı yuyulsa dəstəmaz batil olur.[2]

### MƏSH
### Başa məshin çəkilməsi

1-Məshin yeri: Başın, alının yuxarı hissəsində olan dörddə bir (qabaq) hissəsi məsh yeridir.

2-Məshin vacib miqdarı: Nə qədər olsa kifayətdir (o qədər olmalıdır ki, "məsh çəkib" deyilə bilsin).

3-Onun müstəhəbb miqdarı: Eni üç bağlı barmaq, uzunluğu isə bir barmaq miqdarındadır.

4-Sol əllə məsh etmək: caizdir.[3]

5-Məshin başın dərisinə çəkilməsi vacib deyil, hətta başın qabağında olan tüklərə də çəkilməsi səhihdir. Amma əgər başın tükləri çox uzundursa və daranan zaman üzə düşürsə, o halda gərək başın dərisinə, yaxud tüklərin dibinə məsh edilsin.

6-Başın başqa yerlərinin tüklərinə məsh çəkmək səhih deyildir, hətta onlar məsh yerində bir yerə

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.21, məsələ:1 və 2*

[2] *Tovzihul məsil, məsələ:243*

[3] * *Ayətullah Xamenei:* **Başa və ayaqlara məsh edilməsi dəstəmazın əldə qalan rütubətindən olmalıdır. Ehtiyat budur ki, başa sağ əllə məsh edilsin, lakin məshin yuxarıdan aşağı olması vacib deyildir.**

yığılmış olsa da.[1]

### *Ayağa məsh çəkilməsi*

1-Məshin yeri: ayağın üstüdür;

2-Məshin vacib miqdarı: uzunluğu barmağın başından ayağın üstündəki çıxıntıya qədər.[2] Eni isə hər nə qədər olsa kifayətdir, hətta bir barmaq enində də ola bilər.

3-Məshin müstəhəbb miqdarı: ayağın üstünün hər yeri.

4-Sağ ayağa sol ayaqdan qabaq məsh çəkilməlidir. Lakin sağ ayağa sağ əllə, sol ayağa sol əllə məsh çəkilməsi vacib deyil.[3]

### *Başa və ayağa məsh çəkilməsində müştərək məsələlər*

1-Məshdə əli başa və ayaqlara çəkmək lazımdır. Əgər əli saxlayıb başı və ya ayaqları hərəkət etdirsələr dəstəmaz batildir. Amma əgər əli çəkəndə baş, yaxud ayaq azacıq hərəkət etsə eybi yoxdur.[4]

2-Əgər məsh çəkmək üçün əlin içində rütubət qalmamışsa əli başqa su ilə islatmaq olmaz, gərək başqa dəstəmaz üzvlərindən rütubət götürülüb məsh çəkilsin.[5]

3-Əlin rütubəti o miqdarda olmalıdır ki, başa və ayaqda iz qoya bilsin.[6]

4-Məsh çəkilən yer (baş və ayaqların üstü) quru olmalıdır. Deməli əgər məsh çəkilən yer yaş olsa onu qurutmaq lazımdır. Amma əgər onun rütubəti əlin rütubətinin təsir qoyacağına mane olmayacaq qədər az olsa, eybi yoxdur.[7]

5-Əl ilə başın, yaxud əl ilə ayağın arasında, çadra, papaq, corab, ayaqqabı kimi şeylər fasilə salmamalıdır hətta çox nazik və zərif olsalar və rütubət dəriyə çatsa da belə (amma zərurət və çıxılmaz hallarda istisna olunur).[8]

6-Məsh çəkilən yer pak olmalıdır. Deməli əgər nəcisdirsə və onu suya çəkmək mümkün deyildirsə, təyəmmüm edilməlidir.[9]

---

[1] * *Ayətullah Xamenei:* ***Sün'i tüklərə (parikə) məsh çəkmək, əgər onun götürülməsi qeyri-mümkün olarsa, eybi yoxdur.*** *("Əcvibətul-"İstiftaat", 1-ci cild, səh.35, sual:105 və səh.41 və 131, "Tovzihul-məsail", məsələ:249, 250, 251 və 257; "Təhrirul-vəsilə", 1-ci cild, səh.23, məsələ:14)*

[2] * *Ayətullah Xamenei:* ***Barmaqların başından ayağın büküldüyü yerə qədər məsh etsin.*** *("İstiftaat"ın müntəxəbatı, səh.13)*

[3] *"Tovzihul-məsail", məsələ:252 və 253, "Ürvətül-vüsqa", 1-ci cild, səh.209*

[4] *"Tovzihul-məsail", məsələ:255*

[5] *"Tovzihul-məsail", məsələ:257*

[6] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.212, məsələ:26*

[7] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.212, məsələ:26*

[8] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.212, məsələ:27*

[9] *"Tovzihul-məsail", məsələ:260*

# DƏSTƏMAZIN ŞƏRTLƏRİ

Dəstəmaz aşağıda deyiləcək şərtlərlə səhihdir. Onlardan hər birinin aradan getməsi ilə dəstəmaz batil olur.

**Dəstəmazın şərtləri**

- ***1- Dəstəmaz suyunun və qabının şərtləri***
  - 1- Dəstəmaz suyu pak olsun (nəcis olmasın)
  - 2- Dəstəmaz suyu mübah olsun (qəsbi olmasın, yəni öz malı olsun və ya başqasınındırsa, icazəli olsun)
  - 3- Dəstəmaz suyu mütləq olsun (muzaf olmasın)
  - 4- Dəstəmaz suyunun qabı mübah olsun*
  - 5- Dəstəmaz suyunun* qabı qızıl və gümüş olmasın
- ***2- Dəstəmaz üzvlərinin şərtləri***
  - 1- Pak olsun
  - 2- Suyun dəstəmaz üzvlərinə yetişməsinə maneə olmasın
- ***3- Dəstəmaz almağın şərtləri***
  - 1-Tərtibə riayət etmək (dəstəmaz əməllərində göstərildiyi kimi ardıcıl dəstəmaz almaq)
  - 2- Muvalata riayət etmək (dəstəmaz əməlləri arasında fasilə olmasın)
  - 3- Özü şəxsən yerinə yetirsin (başqa birindən kömək almasın)
- ***4- Dəstəmaz alanın şərtləri***
  - 1- Suyun istifadəsinin ona zərəri olmasın
  - 2- Dəstəmazı "qəsdi-qürbət"-lə olsun (riyakarlıqla olmasın)

### *Dəstəmaz suyu və onun qabının şərtləri*

1-Nəcis və muzaf su ilə dəstəmaz almaq batildir, istər şəxs onun nəcis, yaxud muzaf olmağını bilsin, istərsə də bilməsin və ya unutmuş olsun.[1]

2-Dəstəmaz suyu mübah olmalıdır. Buna əsasən aşağıdakı hallarda dəstəmaz batildir:

* Sahibinin razı olmadığı su ilə dəstəmaz almaq. (Onun razı olmadığı məlumdur.)

* Sahibinin razı olub-olmadığı məlum olmayan su.

* Xüsusi şəxslərə vəqf olunan su, məsələn bəzi mədrəsələrin hovuzları, bəzi hotellərin və müsafirxanaların dəstəmazxanaları kimi.[2]

3-Böyük arxlardan dəstəmaz almağın eybi yoxdur, istər insan sahibinin bu işə razı olmasını bilsin, istərsə də bilməsin. Amma əgər onların sahibləri dəstəmaz almağının qarşısını alsalar vacib ehtiyat dəstəmaz almamaqdır.[3]

4-Əgər dəstəmazın suyu qəsbi qabda olsa və onunla dəstəmaz alınsa batildir.[4]

---

[1] *"Tovzihul-məsail", məsələ:265*

[2] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.225, məsələ:6, 7 və 8; "Tovzihul-məsail", 267-272-ci məsələlər*

[3] *"Tovzihul-məsail", məsələ:271*

[4] *"Tovzihul-məsail", dəstəmazın şərtləri, 4-cü şərt*

### *Dəstəmaz üzvlərinin şərtləri*

1-Dəstəmaz üzvlərini yuyarkən və məsh edərkən pak olmalıdır.[1]

2-Əgər dəstəmaz üzvlərində bir şey olsa və suyun ona yetişməsinin qarşısını alsa, yaxud məsh üzvlərinin üstündə olsa, hətta suyun ona çatmasının qarşısını almasa belə dəstəmaz üçün aradan qaldırılmalıdır.[2]

3-Avtoqələmlərin saldığı xətlər, rəng ləkələri, yağlılıq və krem əgər qatlığı olmayan rəng olsa dəstəmaza mane deyil. Əgər qatlığı olsa (dərinin üstünü tutmuşsa) aradan qaldırılmalıdır.[3]

### *Dəstəmazın keyfiyyətinin şərtləri*

***Tərtib***[4]

Dəstəmazın işləri aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

* Üzün yuyulması;
* Sağ əlin yuyulması;
* Sol əlin yuyulması;
* Başa məsh çəkilməsi;
* Sağ ayağa məsh çəkilməsi;
* Sol ayağa məsh çəkilməsi.

Əgər dəstəmazın əməllərinin ardıcıllığı pozulsa dəstəmaz batil olur

**Muvalat**

1-Muvalat – yəni dəstəmazın əməllərini ardıcıl, fasiləsiz yerinə yetirmək, onların arasında fasilə salmamaq

2-Əgər dəstəmazın əməllərinin arasında çox fasilə salsa, belə ki, bir yeri yumaq, yaxud məsh etmək istədikdə ondan əvvəl yuyulan, yaxud məsh edilən yerlərin rütubəti qurumuş olsa dəstəmaz batildir.[5]

- **Başqalarından kömək almamalıdır.**

1) Dəstəmaz işlərini şəxsən yerinə yetirə bilən bir şəxs başqalarından kömək almamalıdır. Deməli əgər başqa bir şəxs onun üzünü, yaxud əllərini yusa və yaxud onun məshini yerinə yetirsə dəstəmazı batildir.[6]

2) Dəstəmaz ala bilməyən bir şəxs naib tutmalıdır ki, ona dəstəmaz aldırsın. Əgər əmək haqqı da istəsə imkanı olan təqdirdə verməlidir. Amma dəstəmaz niyyətini özü etməlidir.[7]

### *Dəstəmaz alanın şərtləri*

1-Dəstəmaz alacağı təqdirdə xəstələnəcəyini bilən, yaxud xəstələnəcəyindən qorxan bir şəxs təyəmmüm etməlidir, əgər dəstəmaz alarsa batildir. Amma əgər suyun ona zərərli olmasını bilmədən dəstəmaz alsa, sonra zərərli olduğunu bilsə, dəstəmazı səhihdir.[8]

2-Dəstəmaz qürbət qəsdi ilə, yəni Allah taalanın əmrini yerinə yetirmək üçün alınmalıdır.[9]

3-Niyyəti dildə demək, yaxud qəlbdən keçirmək vacib deyil. Sadəcə olaraq dəstəmaz aldığını bilirsə kifayətdir. Belə ki, əgər ondan "nə edirsən?" - deyə soruşsalar, "dəstəmaz alıram" - deyə bilsin.[10]

---

[1] *"Tovzihul-məsail", səh.35, 6-cı şərt*
[2] *"Tovzihul-məsail", səh.37, 13-cü şərt və məsələ:259*
[3] *"İstiftaat", 1-ci cild, səh.36-37, 40 və 45-ci suallar*
[4] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.28*
[5] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.28, məsələ:15; "Tovzihul-məsail", məsələ:283*
[6] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.234*
[7] *"Tovzihul-məsail", məsələ:286*
[8] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.232; "Tovzihul-məsail", məsələ:288 və672*
[9] *"Tovzihul-məsail", səh.31, 8-ci şərt*
[10] *"Tovzihul-məsail", məsələ:282*

# CƏBİRƏ DƏSTƏMAZI

**Cəbirənin tərifi:** Yaranın üzərinə qoyulan dərman, yaxud yaranın bağlandığı şey cəbirə adlanır.

1-Dəstəmaz üzvlərində yara, yaxud sınıqlığı olan şəxs adi qaydada dəstəmaz ala bilərsə, elə o cür də dəstəmaz almalıdır.[1]

Məsələn:

a) Yaranın üstü açıqdır, suyun da ona heç bir zərəri yoxdur.

b) Yaranın üstü bağlıdır, lakin onun açılması mümkündür, suyun da zərəri yoxdur.

2-Əgər yara üzdə və əllərdə olsa, üstü də açıq olsa, suyun tökülməsinin də zərəri olarsa, onun ətrafı yuyulsa kifayətdir.[2]

3-Əgər yara, yaxud sınıqlıq başın qabaq tərəfində, yaxud ayaqların üstündədirsə (məsh yerlərindədirsə), onun üstü açıqdırsa və ona məsh edə bilməzsə, gərək onun üzərinə pak bir parça qoysun, əldə qalan dəstəmaz suyunun yaşlığı ilə parçanın üstündən məsh etsin.[3]

### CƏBİRƏ DƏSTƏMAZININ YERİNƏ YETİRİLMƏSİ QAYDASI

Cəbirə dəstəmazında yuyulması və yaxud məsh edilməsi mümkün olan yerlər adi qaydada yuyulmalı və məsh edilməlidir, mümkün olmayan hallarda isə yaş əllə cəbirənin üstünə çəkmək lazımdır.

### BİR NEÇƏ MƏSƏLƏ:

1-Əgər cəbirə yaranın ətrafını adi qaydadan artıq örtmüş olsa və onun götürülməsi mümkün olmasa, cəbirə dəstəmazı almaq vacibdir və ehtiyat vacibə görə təyəmmüm də etmək lazımdır.[4]

2-Vəzifəsinin cəbirə dəstəmazı, yoxsa təyəmmüm olduğunu bilməyən bir şəxs vacib ehtiyata görə hər ikisini etməlidir.[5]

3-Əgər cəbirə üzün hər yerini, yaxud əllərdən birinin hər yerini örtmüş olsa, cəbirə dəstəmazı kifayətdir.[6]

4-Əlinin içində və barmaqlarında cəbirəsi olan, dəstəmaz vaxtı onun üstünə yaş əllə çəkən bir şəxs başına və ayaqlarına da həmin rütubətlə məsh edə bilər, həmçinin dəstəmazın başqa üzvlərindən də rütubət götürə bilər.[7]

5-Əgər üzdə və əllərdə bir neçə cəbirə olsa, onların arası yuyulmalıdır. Əgər cəbirələr başda, yaxud ayaqların üstündə olsa onların arasına məsh edilməlidir. Cəbirə olan yerlərdə isə cəbirə göstərişlərinə əməl edilməlidir.[8]

### Hansı işlər üçün dəstəmaz alınmalıdır

1-Namaz qılmaq üçün (meyyit namazından başqa);

2-Kəbənin vacib təvafını yerinə yetirmək üçün;

3-Bədənin hər hansı bir yerini Qurana, yaxud Allahın adına toxundurmaq üçün;[9]

### Bir neçə məsələ

1-Əgər namaz, yaxud vacib təvaf dəstəmaz olmadan yerinə yetirilsə batildir;

2-Dəstəmazı olmayan bir şəxs bədəninin hər hansı bir yerini aşağıdakı şeylərə vura bilməz:

* Quranın yazısı; lakin onun tərcüməsinin eybi yoxdur;

---

[1] *"Tovzihul-məsail", məsələ:324 və 325*

[2] *Yenə orada*

* *Ayətullah Xamenei:* ***Ehtiyat budur ki, əgər onun üzərinə yaş əllə çəkməyin zərəri yoxdursa, yaş əli onun üzərinə çəksinlər.***

[3] *"Tovzihul-məsail", məsələ:326*

* *Ayətullah Xamenei:* ***Əgər dəstəmaz məhəlli yara olsa və onun üzərinə yaş əllə çəkmək mümkün olmasa dəstəmaz əvəzinə təyəmmüm etmək lazımdır. Lakin yaranın üstünə bir parça qoyub, onun üstünə əl çəkə bilərsə, ehtiyat odur ki, təyəmmümdən əlavə belə bir məshlə dəstəmaz da alsın.***

[4] *"Tovzihul-məsail", məsələ:335*

[5] *"Tovzihul-məsail", məsələ:343*

[6] *Tovzihul məsil, məsələ:330*

[7] *"Tovzihul-məsail", məsələ:332*

[8] *"Tovzihul-məsail", məsələ:334*

[9] *"Tovzihul-məsail", məsələ:316*

* Hansı dildə yazılmasından asılı olmayaraq Allahın adı: Allah; Xuda,
* Peyğəmbər (s.)-in adı (vacib ehtiyata görə);
* İmamların (ə) adları (ehtiyat vacibə görə);
* Həzrət Zəhra (ə.s)-ın adı (ehtiyat vacibə görə).[1]

3-Aşağıdakı işlər üçün dəstəmaz almaq müstəhəbdir:

* Məscidə və imamların hərəminə getmək üçün;
* Quran oxumaq üçün;
* Quranı yanında (üstündə) gəzdirmək üçün;
* Bədənin hər hansı bir yerini Quranın cildinə, yaxud haşiyəsinə toxundurmaq üçün;
* Qəbiristan əhlinin ziyarəti üçün.[2]

### *Dəstəmaz necə batil olur?*

1-İnsandan bövl, ğait, yaxud mədə yelinin xaric olması;
2-Qulağın eşitmədiyi və gözün görmədiyi dərəcədə olan yuxu;
3-Əqli aradan aparan şeylər, məsələn dəlilik, məstlik, bihuşluq;
4-Qadınların istihazəsi;
5-Qüslə səbəb olan şeylər, o cümlədən cənabət və məssi-meyyit kimi.[3]

---

[1] *"Tovzihul-məsail", məsələ:317 və 319*

[2] *"Tovzihul-məsail", məsələ:322*

* *Ayətullah Xamenei:* ***Müstəhəbdir ki, insan hər bir halda dəstəmazlı olsun; xüsusilə məscidə, şərif qəbirlərə daxil olmaq, Qur'an tilavət etmək üçün, eləcə də yatmaq istədiyi və başqa vaxtlarda dəstəmazlı olması müstəhəbdir.***

[3] *"Tovzihul-məsail", məsələ:323*

# QÜSL

Bəzi vaxtlar namaz üçün (dəstəmazala yerinə yetirilməli olan hər bir iş üçün) qüsl etmək lazım gəlir. Yəni Allahın əmrinə itaət etmək üçün bədənin hər bir yeri yuyulmalıdır. İndi isə qüslun harada vacib olması və onun necə alınmasını bəyan edirik:

***Vacib qüsullar in***
- 1- Kişilər və qadınlar arasında müştərək olan qüsllər
  - 1-Cənabət
  - 2- Məssi meyyit
  - 3- Meyyit
  - 4- Nəzir, and içmə və sair səbəblə vacib olan qüsllər
- 2-Qadınlara məxsus olan qüsllər
  - 1- Heyz
  - 2- İstihazə
  - 3- Nifas

Qüslün tərif və qismlərini bəyan etdikdən sonra vacib qüsüllərin hər birinə aid olan məsələləri araşdırırıq.

### *CƏNABƏT QÜSLU*

1-İnsan necə cünub olur?

***1-Cənabətin səbəbləri***[1]
- 1- Məninin bayıra çıxması
  - – İstər az olsun, istərsə də çox;
  - – İstər yuxuda olsun, istərsə də oyaq
- 2-Cima (cinsi əlaqə)
  - – İstər halal, istərsə də haram yol ilə olsun;
  - – İstər məni gəlsə, istərsə də gəlməsə;

2-Əgər məni öz yerindən hərəkət etsə, lakin çölə gəlməsə cənabətə səbəb olmaz.[1]

3-Məninin xaric olduğunu bilən, yaxud xaric olan mayenin məni olduğunu bilən şəxs cünubdur və qüsl etməlidir.[2]

4-Bir şəxs özündən xaric olan mayenin məni olub-olmamasını bilməsə, bu yaşlıq məninin əlamətlərinə malik olduqda cünubdur və bu haldan başqa hallarda cənabət hökmünə malik deyildir.[3]

5-Məninin əlamətləri:[4]

* Şəhvətlə çölə gəlsin;

* Təzyiqlə və sıçrayışla gəlsin;

* Çölə gəldikdən sonra bədən süstləşsin.

Buna əsasən bir nəfərdən bir su xaric olsa və o, onun məni olub-olmamasını bilməsə, sayılan işarələrin hamısına malik olsa cünubdur, əks halda cünub olmur. Hətta əgər bu əlamətlərdən biri mövcud olmasa belə. Qadın və xəstə şəxslər bu hökmdən istisnadır, onlarda bir nişanə – yəni məninin şəhvətlə çölə gəlməsi kifayətdir.

6-Müstəhəbdir ki, insan məni çölə gəldikdən sonra bövl etsin. Əgər bövl etməsə və qüsuldan sonra məni, yoxsa başqa bir rütubət olduğunu bilmədiyi bir rütubət xaric olsa məni hökmündədir.[5]

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.36, məsələ:1*

[2] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.136; "Ürvətül-vüsqa", 1-ci cild, səh.378*

[3] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.136; "Ürvətül-vüsqa", 1-ci cild, səh.378*

[4] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.136; "Ürvətül-vüsqa", 1-ci cild, səh.378*

[5] *"Tovzihul-məsail", 348-ci məsələ*

### *CÜNUB ŞƏXSƏ HARAM OLAN ŞEYLƏR*[1]

* Bədənin hər hansı bir yerini Quranın yazılarına, Allahın adına və vacib ehtiyata görə peyğəmbərlərin, imamların və həzrəti Zəhranın (ə) adına vurmaq.
* Hətta bir qapısından daxil olub, digər qapısından çıxmaqla olsa belə, "Məscidul-həram"a və "Peyğəmbər" (s) məscidinə getmək.
* Sair məscidlərdə dayanmaq.
* Hətta məscidin çöl tərəfindən olsa belə bir şeyi məscidin içərisinə qoymaq.
* Vacib səcdəsi olan surələri oxumaq, hətta onun bir hərfi olsa belə.[2]
*İmamların (əleyhimus-salam) hərəmində dayanmaq (ehtiyat vacibə görə).

### *Quranın səcdə olan surələri*[3]

*34-cü surə – "Səcdə" surəsi;
*41-ci surə – "Fussilət" surəsi;
*53-cü surə – "Nəcm" surəsi;
*96-cı surə – "Ələq" surəsi;

3-Əgər cünub olan şəxs məscidin bir qapısından daxil olub digər qapısından çıxsa (arada dayanmadan keçsə), eybi yoxdur. Amma "Məscidul-həram" və "Məscidun-Nəbi"də məscidin içindən keçmək də caiz deyil.[4]

4-Əgər bir şəxs öz evində (həmçinin müəssisədə, yaxud idarədə) müəyyən bir yeri namaz üçün qərar versə, məscid hökmünə malik deyil.[5]

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.38 və 39*
[2] ** Ayətullah Xamenei: **Səcdə ayələrini tilavət etmək.***
[3] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.38 və 39*
[4] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.38 və 39*
[5] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.288, məsələ:3*

# Qüslun yerinə yetirilməsi

Qüsldə bədənin hər yeri, baş və boyun yuyulmalıdır, istər cənabət qüslu kimi vacib qüsl olsun, istərsə də cümə qüslu kimi müstəhəbb qüsl olsun. Başqa sözlə desək bütün qüsullarda yeganə fərq niyyətdədir.

### *QÜSL AŞAĞIDAKI TƏRTİBLƏ YERİNƏ YETİRİLMƏLİDİR*

***Qüsl etməyin qaydası***

- 1-***Tərtibi***
  - Baş və boyun, sonra bədənin sağ tərəfi, daha sonra isə bədənin sol tərəfi yuyulmalıdır.
- 2-**İrtimasi**[2]
  - Qüsl niyyəti ilə bir dəfəyə suya girsə və bədən bütövlüklə suyun altında olarsa;
  - Yaxud qüsl niyyəti ilə tədrici olaraq suya girsə və su bütün bədənini əhatə edərsə;
  - Yaxud suyun altına getdikdən sonra qüsl niyyəti edərək bədəni hərəkət etdirir.

### *İzah:*

Qüslu iki cür yerinə yetirmək olar: tərtibi və irtimasi. Tərtibi qüsulda əvvəlcə baş və boyun, ondan sonra bədənin sağ yarısı, sonra isə sol yarısı yuyulur.

İrtimasi qüsulda isə bədənin hamısı bir dəfəyə suda qərar tutur. Deməli o vaxt irtimasi qüsl etmək olar ki, bədənin hamısını onun altına aparmaq qədərində su olsun.

### *Qüslun düzgün olmasının şərtləri*

1-Dəstəmazın səhih olmasında deyilən bütün şərtlər, qüslun da səhih olmasında şərtdir. Yalnız muvalat istisna olunur. Həmçinin bədənin yuxarıdan aşağı yuyulması də şərt deyildir.[1]

2-Üzərində bir neçə vacib qüslu olan şəxs onların hamısının niyyəti ilə bir qüsl edə bilər.

3-Cənabət qüslu almış olan şəxs namaz üçün dəstəmaz almamalıdır. Lakin başqa qüsullarla namaz qılmaq olmaz və dəstəmaz alınmalıdır.[2]

4-İrtimasi qüsldə bədənin hər yeri pak olmalıdır, lakin tərtibi qüsldə bədənin hamısının eyni zamanda pak olması vacib deyil və əgər üç hissədən hər birini qüsl verməzdən qabaq paklasa kifayətdir.[3]

5-Cəbirə qüslu eynilə cəbirə dəstəmazı kimidir, lakin vacib ehtiyata görə onu tərtiblə yerinə yetirmək lazımdır.[4]

6-Vacib oruc tutan şəxs oruc olduğu halda irtimasi qüsl edə bilməz. Çünki oruc tutan şəxs başının hər yerini suya sala bilməz. Lakin əgər unutqanlıq üzündən irtimasi qüsl etsə, səhihdir.[5]

7-Qüsldə bədənin hər bir yerinin əl ilə yuyulması vacib deyil. Belə ki, qüsl niyyəti ilə su bədənin hər yerinə çatsa kifayətdir.[6]

---

[1] *"Tovzihul-məsail", məsələ:380*
[2] *"Tovzihul-məsail", məsələ:391*
[3] *"Tovzihul-məsail", məsələ372*
[4] *"Tovzihul-məsail", məsələ:339*
[5] *"Tovzihul-məsail", məsələ:371*
[6] *"İstiftaat", 1-ci cild, səh.56, 117-ci sual*

### *Məssi-meyyit qüslu*

1-Əgər bir şəxs bədənin hər hansı bir yerini ölmüş və soyumuş, qüslu verilməmiş bir meyyitin bədəninə vursa məssi-meyyit qüslu etməlidir.[1]

2-Aşağıdakı hallarda insanın bədəninin ölüyə dəyməsi qüslə səbəb olmaz:

*Müharibə meydanında şəhid olan şəxsə; bu şərtlə ki, müharibə meydanında can vermiş olsun.

*Bədəni isti olan, hələ soyumamış ölü.

*Qüslü verilmiş ölü.[2]

3-Məssi-meyyit qüslunu eyni ilə cənabət qüslu kimi yerinə yetirmək lazımdır, lakin məssi-meyyit qüslu edən şəxs namaz qılmaq istəsə, dəstəmaz almalıdır.[3]

### *Meyyit qüslu*

1-Mömin şəxs dünyadan getdikdə, ona qüsl verib kəfənə bükmək, namaz qılıb sonra dəfn etmək bütün mükəlləflərə vacibdir. Əgər bir neçə nəfər bu işi yerinə yetirsə, başqalarının üzərindən götürülür.[4]

2-Meyyitə üç qüsl verilməsi vacibdir:

Birincisi: Sidr qatılmış su ilə;

İkincisi: Kafur qatılmış su ilə;

Üçüncüsü: Xalis su ilə;[5]

3-Meyyit qüslu cənabət qüslu kimidir. Vacib ehtiyat odur ki, tərtibi qüsl mümkün oluncaya qədər ona irtimasi qüsl verilməsin.

## *QADINLARA MƏXSUS OLAN QÜSULLAR*

**Heyz, nifas, istihazə.**

1-Qadının doğuş zamanı gördüyü qan nifas qanı adlanır.[6]

2-Qadının aylıq adəti günlərində gördüyü qan heyz adlanır.[7]

3-Qadın heyz, yaxud nifas qanından pak olduğu zaman namaz və paklıqla şərtlənən sair işlər üçün qüsl etməlidir.[8]

4-Qadının gördüyü qanlardan biri də istihazədir və onun bəzi hallarında namaz və təharətə ehtiyaclı olan sair ibadətlər üçün qüsl edilməlidir.[9]

---

[1] *"Tovzihul-məsail", məsələ:521*
[2] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.63; "Tovzihul-məsail", məsələ:522 və 526; "İstiftaat", səh.179*
[3] *"Tovzihul-məsail", məsələ:530*
[4] *"Tovzihul-məsail", məsələ:542*
[5] *"Tovzihul-məsail", məsələ:550*
[6] *"Tovzihul-məsail", məsələ:508*
[7] *"Tovzihul-məsail", səh.55*
[8] *"Tovzihul-məsail", məsələ:446 və 515*
[9] *"Tovzihul-məsail", məsələ:395 və 396*

# TƏYƏMMÜM
## (DƏSTƏMAZ VƏ QÜSL ƏVƏZİNƏ OLAN TƏYƏMMÜM)

Aşağıdakı hallarda dəstəmaz və qüsl əvəzinə təyəmmüm etmək lazımdır:

1-Su tapılmazsa, yaxud onu əldə etmək mümkün olmazsa;

2-Suyun insana zərəri olsa (məsələn sudan istifadə etdikdə onda müəyyən xəstəlik yaranacaqsa);

3-Əgər suyu dəstəmaz və ya qüsl üçün işlədəcəyi təqdirdə özü, həyat yoldaşı, yaxud övladları, yaxud dostu-tanışı, yaxud onunla əlaqədar başqa şəxslər susuzluqdan öləcəklərsə, yaxud xəstələnəcəklərsə; həmçinin canının qorunması vacib olan bir şəxs su verilməyəcəyi təqdirdə tələf olması gözlənilən qədər susuz olsa, hətta ixtiyarında olan heyvan olsa belə (suyu ona verməlidir və təyəmmüm etməlidir);

4-İnsanın bədəni, yaxud paltarı nəcis olsa, su da onu paklamaqdan artıq olmasa, başqa paltarı da olmasa;

5-Qüsl etmək, yaxud dəstəmaz almaq üçün vaxtı olmasa;

## Necə təyəmmüm edək?

### TƏYƏMMÜMÜN ƏMƏLLƏRİ

1-İki əlin içini birlikdə təyəmmümün səhih olduğu şeylərə vurmaq;

2-Hər iki əli birlikdə alının bütövünə və onun iki tərəfinə – tük bitən yerdən qaşların üstünə və burunun yuxarısına qədər çəkmək;

3-Sol əlin içini bütünlüklə sağ əlin üstünə çəkmək;

4-Sağ əlin içini bütünlüklə sol əlin üstünə çəkmək;

Təyəmmümün bütün işləri təyəmmüm qəsdi ilə və Allahın göstərişinə itaət etmək məqsədi ilə olmalı, eləcə də qüsl, yoxsa dəstəmaz əvəzində edilməsi məlum edilməlidir.

## Təyəmmüm etməyin səhih olduğu şeylər

* Torpaq;
* Qum;
* Müxtəlif daşlar, o cümlədən qara daş, mərmər daş, gəc daşı (bişməmişdən qabaq), əhəng daşı (bişirilməmişdən qabaq).
* Bişmiş palçıq: kərpic və kuzə kimi.

## Bir neçə məsələ

1-Dəstəmaz əvəzinə alınan təyəmmümün, qüsl əvəzinə alınan təyəmmümlə heç bir fərqi yoxdur, yalnız niyyətdə fərqlənir.

2-Dəstəmaz əvəzinə təyəmmüm edən bir şəxs üçün dəstəmazı batil edən işlərdən qarşıya çıxsa təyəmmümü batil olur.

3-Qüsl əvəzinə təyəmmüm edən bir şəxs üçün qüsl yaradan səbəblərdən biri, o cümlədən cənabət, yaxud məssi-meyyit kimi işlər qarşıya çıxsa, təyəmmümü batil olur.

4-Təyəmmüm o halda səhih ola bilər ki, dəstəmaz ala bilməsin, yaxud qüsl edə bilməsin. Buna əsasən əgər heç bir üzrü olmadan təyəmmüm etsə, səhih deyildir. Əgər üzrü olsa və aradan qalxsa, məsələn su tapmadığına görə təyəmmüm etmişsə, sonradan su tapılsa, təyəmmümü batil olur.

5-Əgər cənabət qüslu əvəzinə təyəmmüm edərsə, namaz üçün dəstəmaz alması lazım deyil. Lakin əgər başqa qüsullar əvəzinə təyəmmüm etmişsə, təyəmmümlə namaz qıla bilməz, namaz üçün dəstəmaz almalıdır. Əgər dəstəmaz ala bilməsə, dəstəmaz əvəzinə daha başqa bir təyəmmüm etməlidir.

## Təyəmmümün səhih olması şərtləri:

* Təyəmmüm üzvləri, yəni alın və əllər pak olmalıdır.
* Alın və əllərin üstü yuxarıdan aşağıya doğru məsh edilməlidir.
* Üzərinə təyəmmüm edilən şeylər pak və mübah olmalıdır.
* Tərtibə riayət edilməlidir.
* Muvalata riayət edilməlidir.
* Əl ilə alın arasında, həmçinin əlin içi ilə arxası arasında məsh edərkən bir şey fasilə salmamalıdır.[1]

[1] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.495; "Tovzihul-məsail", məsələ:692, 694, 704 və 706*

## XIII DƏRS

# NAMAZIN VAXTI

Təharət məsələlərini öyrəndikdən sonra namazı qılmaq üçün hazırlaşırıq.

Namazın məsələləri və hökmləri ilə tanış olmaq üçün əvvəlcə qeyd etmək lazımdır ki, namaz ya vacibdir, ya da müstəhəbb. Vacib namazlar da iki qismdir: Onların bəziləri gündəlik vəzifədir və gecə-gündüz ərzində xüsusi vaxtlarda yerinə yetirilməlidir. Onlardan bəziləri isə bəzi vaxtlar müəyyən hadisələr səbəbi ilə vacib olur və gündəlik proqram deyildir. Vacib namazlarla tanış olmaq üçün aşağıdakı cədvələ diqqət yetirin.

**Namazın növləri**

- ***1-Vacib***
  - 1-Gündəlik (yəvmiyyə) namazlar
    1. Sübh; – 2 rəkət
    2. Zöhr; – 4 rəkət
    3. Əsr; – 4 rəkət
    4. Məğrib; – 3 rəkət
    5. İşa; – 4 rəkət
  - 2-Məqtəi• namazlar
    1. Ayət;
    2. Meyyit;
    3. Allah evinin vacib təvafı;
    4. Ata və ananın böyük oğula vacib olan qəza namazı;*
    5. İcarə, nəzir, and, əhd və s. kimi şeylərlə vacib olan namazlar
- ***2-Müstəhəb***: – müstəhəb namazlar çoxdur

### *GÜNDƏLİK NAMAZLARIN VAXTLARI*

Gündəlik namazlar beşdir və onların məcmusu on yeddi rəkətdən ibarətdir.

| | |
|---|---|
| Sübh namazı: | iki rəkət; |
| Zöhr namazı: | dörd rəkət; |
| Əsr namazı: | dörd rəkət; |
| Məğrib namazı: | üç rəkət; |
| İşa namazı: | dörd rəkət; |

Gündəlik namazlarla əlaqədar qarşıya çıxan ilk sual budur ki, bu namazlar hansı vaxtda qılınmalıdır.

Sübh namazının vaxtı – sübh namazından gün çıxan vaxta qədər;

Zöhr və əsr namazlarının vaxtı – şəri zöhrdən məğribə qədər;[1]

Məğrib və işa namazının vaxtı – məğribdən gecə yarısına qədər.[2]

### *İzah:*

**Sübh azanın vaxtı**

Sübh azanına yaxın vaxtlarda günçıxan tərəfdən bir ağartı əmələ gəlib yuxarı doğru hərəkət edir, buna "birinci fəcr" deyilir. Bu ağlıq yayıldığı zaman ikinci fəcr və sübh namazının ilk vaxtı olur.[3]

**Zöhr**

Əgər taxta parçasını, yaxud başqa bir şeyi şaquli istiqamətdə yerə batırsaq, onun kölgəsi özünün ən az miqdarına çatıb sonra artmağa başladığı vaxt **şəri zöhr** və zöhr namazının ilk vaxtı olur.[4]

---

[1] * *Ayətullah Xamenei:* ***Əsr namazının axır vaxtı günəşin qüruba endiyi vaxta qədərdir.*** *("İstiftaat"ın müntəxəbatı, 22-ci sual)*

[2] *"Tovzihul-məsail", məsələ:731 və 736*

[3] *"Tovzihul-məsail", məsələ:731*

[4] *"Tovzihul-məsail", məsələ:729*

**Məğrib**
Gün batdıqdan sonra məşriq tərəfdən yaranan qırmızılıq aradan getdiyi zaman məğrib olur.[1]

**Gecə yarısı**
Əgər günəşin batdığı vaxt ilə sübh azanı arasında olan zaman fasiləsini iki yerə bölsək, onun yarısı gecə yarısı və işa namazının axır vaxtı sayılır.[2]

## *Namaz vaxtlarının hökmləri*

1-Gündəlik namazlardan başqa namazların xüsusi vaxtları yoxdur, onların qılınması, hansı səbəblə vacib olubsa, o zamana bağlıdır.

Məsələn: Ayət namazı zəlzələ baş verməsi, gün və ay tutulması, yaxud müəyyən hadisələr zamanı, meyyit namazı müsəlman bir şəxsin dünyadan getdiyi zaman vacib olur. Bunların hər biri öz yerində geniş şəkildə bəyan ediləcəkdir.

2-Əgər namazın hamısı vaxtından əvvəl qılınarsa, yəni qəsdən namazı onun şəri vaxtından əvvəl başlasalar batildir.[3]

Əgər namaz öz vaxtında qılınarsa, şəriət istilahında ona "əda" namazı deyilir.
Əgər namaz vaxtı keçəndən sonra qılınarsa, şəriət istilahında "qəza" namazı adlanır.

3-İnsanın namazı vaxtın əvvəlində qılması müstəhəbdir. Əvvəl vaxta nə qədər yaxın olsa, bir o qədər yaxşıdır. Amma onun təxirə salınması müəyyən səbəblərə görə, məsələn gözləyib namazı camaat ilə qılmaq istəsə, bu istisna olunur.[4]

4-Əgər namazın vaxtı az olsa və onun müstəhəbb əməllərini yerinə yetirəcəyi təqdirdə namazın bir hissəsi qəzaya gedəcəksə, onun müstəhəbblərini tərk etmək lazımdır. Məsələn əgər qunut tutacağı surətdə vaxt keçəcəksə, qunut tutmamalıdır.[5]

[1] *"Tovzihul-məsail", məsələ:735*

[2] *"Tovzihul-məsail", məsələ:740; Ehtiyat vacib budur ki, işa namazı üçün mətndə qeyd olunduğu kimi və gecə namazı üçün günçıxan vaxta qədər hesab olunsun. ("Tovzihul-məsail", məsələ:739)*

[3] *"Tovzihul-məsail", məsələ:744*

[4] *"Tovzihul-məsail", məsələ:751*

[5] *"Tovzihul-məsail", 747*

# QİBLƏ, GEYİM

1-Məkkədə yerləşən və Məscidul-həramda qərarlaşan Kəbə evi qiblədir.

2-Məkkədən kənarda, ondan uzaqda olan şəxs "üzü qibləyə dayanıb namaz qılır" - deyilə biləcək qədər üzü qibləyə dayansa, kifayətdir.[1]

## Namazda bədəni örtmək

Namaza başlamazdan əvvəl diqqət yetirilməli olan məsələlərdən biri də geyim məsələsidir. İndi geyimin miqdarını və onun şərtlərini bəyan edirik.

## Geyimin miqdarı:

1-Kişilərdə: gərək övrətlərini örtsünlər, daha yaxşı olar ki, göbəkdən dizə qədər örtsünlər.

2-Qadınlar: Bütün bədənlərini örtməlidirlər, yalnız aşağıdakı yerlərdən başqa:

* Əlləri – biləyə qədər;
* Ayaqları – topuğa qədər;
* Üzünün dəstəmazda yuyulduğu miqdarı;[2]

3-Qadınlar üçün əllərini, ayaqlarını və üzlərini əvvəlki məsələdə deyilən qədər örtmələri namazda vacib deyil. Ama onun örtülməsinin də eybi yoxdur.[3]

4-Namaz qılanın paltarı aşağıdakı şərtlərə malik olmalıdır:

* Pak olmalıdır (nəcis olmamalıdır);
* Mübah olmalıdır (qəsbi olmamalıdır);
* Murdar olmuş heyvanın, məsələn islam şəriətinə uyğun olaraq kəsilməyə heyvanın hissələrindən olmamalıdır. Hətta qayış və papaq belə;
* Əti haram olan heyvandan olmamalıdır. Məsələn pələng, yaxud donuz dərisindən hazırlanmamalıdır;
* Namaz qılan kişidirsə, onun paltarı xalis ipəkdən və qızılla toxunulan olmamalıdır;

Yuxarıdakı şəraitdə ən çox insanların qarşısına çıxması mümkün olan birinci şərtdir. Çünki qəsbi və murdarın cinsindən olan paltarla namaz qılan çox nadir hallarda olur. Buna görə də birinci şərtin izahına başlayırıq.

Qeyd olunmalıdır ki, paltardan əlavə namaz qılanın bədəni də pak olmalıdır.

### AŞAĞIDAKI HALLARDA NƏCİS BƏDƏN, YAXUD PALTARLA NAMAZ QILMAQ BATİLDİR:

* Qəsdən nəcis paltarla, yaxud bədənlə namaz qılsa, yəni bədən və ya paltarının nəcis olduğunu bilə-bilə həmin halda namaz qılarsa.[4]
* Məsələni öyrənməkdə səhlənkarlıq etsə və məsələni bilmədiyinə görə nəcis paltar və libasla namaz qılmış olsa.[5]
* Bədən və ya paltarın nəcis olduğunu bilirmiş, lakin namaz vaxtı bunu unutmuş və onunla namaz qılmışsa.[6]

### AŞAĞIDAKI HALLARDA NƏCİS PALTAR VƏ YA LİBASLA NAMAZ QILDIQDA SƏHİHDİR

* Bədənin, yaxud paltarın nəcis olmasını bilməsə və namazdan sonra başa düşsə;[7]
* Bədənində olan yara vasitəsilə bədəni, yaxud paltarı nəcis olsa və onu suya çəkmək, yaxud dəyişmək çətin olsa;[8]
* Namaz qılanın paltarı və ya bədəni nəcis qana bulaşmış olsa, lakin onun həcmi dirhəmdən

---

[1] *"Tovzihul-məsail", məsələ:776*
[2] *"Tovzihul-məsail", məsələ:788 və 789*
[3] *"Tovzihul-məsail", məsələ:789*
[4] *"Tovzihul-məsail", məsələ:799*
[5] *"Tovzihul-məsail", məsələ:800*
[6] *"Tovzihul-məsail", məsələ:803*
[7] *"Tovzihul-məsail", məsələ:802*
[8] *"Tovzihul-məsail", məsələ:848*

azdırsa;[1]

* Nəcis paltar və ya bədənlə namaz qılmağa məcbur olsa. Məsələn onu paklamağa suyu olmasa;

***Bir neçə məsələ:***

Əgər namaz qılanın əlcək, corab kimi kiçik paltarları nəcis olsa, yaxud kiçik nəcis dəsmal onun cibində olsa, amma o, murdar olmuş heyvanın hissələrindən, yaxud əti haram olan heyvanlardan olmasa işkalı yoxdur.[2]

2-Namazda əba və ağ paltar geyinmək, paltarların ən yaxşısını geymək, gözəl ətirdən istifadə etmək, əqiq üzük taxmaq müstəhəbdir.[3]

3-Qara, çirkli və dar paltar, üstündə şəkil olan paltarı geymək və paltarın namaz üstündə düymələrin açıq olması məkruhdur.[4]

---

[1] *Bir dirhəm təqribən iki riyallıq sikkə qədərindədir.*

[2] *Yenə orada*

[3] *Yenə orada*

[4] *"Tovzihul-məsail", məsələ:865*

# Namaz qılanın yeri, AZAN VƏ İQAMƏ

**İnsanın namaz qıldığı yer aşağıdakı şərtlərə malik olmalıdır:**

* Mübah olmalıdır (qəsbi olmamalıdır);
* Hərəkətsiz olmalıdır (hərəkətdə olan avtomobil kimi olmamalıdır);
* Onun qiyam, rüku və səcdələrini səhih şəkildə yerinə yetirmək üçün dar və onun tavanı alçaq olmamalıdır.
* Səcdə halında alnını qoyduğu yer pak olmalıdır.
* Namaz qılınan yer nəcisdirsə, namaz qılanın bədəninə, yaxud paltarına sirayət edə biləcək tərzdə rütubətli olmamalıdır.
* Alnını qoyduğu yer (səcdə halında) dizlərinin yerindən və ehtiyat vacibə görə ayağının barmaqlarının yerindən dörd bağlı barmaq alçaq və ya uca olmamalıdır.[1]

## Namaz qılanın yerinin hökmləri

1-Qəsbi yerdə (məsələn ev sahibinin icazəsi olmadan daxil olduğu evdə) namaz qılmaq batildir.[2]

2-Çarəsizlik halında hərəkət edən şeyin üzərində, məsələn qatarda və təyyarədə, eləcə də tavanı alçaq, yaxud yeri dar (səngər kimi) və kələ-kötür olan yerlərdə namaz qılmağın eybi yoxdur.[3]

3-İnsan ədəb qaydalarına riayət edərək Peyğəmbərin (s) və imamların (ə) qəbirlərinin qabağında (arxası o qəbrə tərəf) namaz qılmamalıdır.[4]

4-İnsanın namazı məsciddə qılması müstəhəbdir və islamda bu məsələ barəsində çoxlu tövsiyələr edilmişdir.[5]

5-Məsciddə çox hazır olmaq və namaz qılmanın əhəmiyyəti barədə:

- Məscidə çox getmək müstəhəbdir;
- Çox namaz qılanı olmayan məscidə getmək müstəhəbdir;
- Məscidin qonşularının üzürlü səbəbi olmasa, məsciddən başqa yerdə namaz qılmamalı;
- Müstəhəbdir ki, insan məscidə getməyən şəxs ilə:

Yemək yeməsin, işlərində onunla məşvərət etməsin, onun qonşusu olmasın, ondan qız alıb qız verməsin.[6]

## NAMAZ ÜÇÜN HAZIRLIQ

Dəstəmaz, qüsl, təyəmmüm, namazın vaxtı, geyimi və məkanı öyrəndikdən sonra indi də namaz qılmanı öyrənməyə başlayaq.

### *AZAN VƏ İQAMƏ*

1-Namaz qılan şəxsin, gündəlik namazlardan qabaq əvvəlcə azanı, ondan sonra iqaməni deyib sonra namaza başlaması müstəhəbidir.[7]

**AZAN:**

Allahu əkbər (4 dəfə).
Əşhədu əl-la ilahə illəllah (2 dəfə).
Əşhədu ən-nə Muhəmmədən Rəsuləllah (2 dəfə).
Əşhədu ən-nə Əliyyən vəliyyullah (2 dəfə).
Həyyə ələs-səlat (2 dəfə).
Həyyə ələl-fəlah (2 dəfə).

---

[1] *"Tovzihul-məsail", namaz qılanın yeri*
[2] *"Tovzihul-məsail", məsələ:866*
[3] *"Tovzihul-məsail", məsələ:880*
[4] *"Tovzihul-məsail", məsələ:884*
[5] *"Tovzihul-məsail", məsələ:893*
[6] *"Tovzihul-məsail", məsələ:896 və 897*
[7] *"Tovzihul-məsail", məsələ:918 və 926*

Həyyə əla xəyril-əməl (2 dəfə).
Allahu əkbər (2 dəfə).
La ilahə illəl-lah (2 dəfə).

**İQAMƏ:**

Allahu əkbər (2 dəfə).
Əşhədu əl-la ilahə illəllah (2 dəfə).
Əşhədu ən-nə Muhəmmədən Rəsuləllah (2 dəfə).
Əşhədu ən-nə Əliyyən vəliyyullah (2 dəfə).
Həyyə ələs-səlat (2 dəfə).
Həyyə aləl-fəlah (2 dəfə).
Həyyə əla xəyril-əməl (2 dəfə).
Qəd qamətis-səlat (2 dəfə).
Allahu əkbər (2 dəfə).
La ilahə illəl-lah (1 dəfə).

2-«Əşhədu ənnə Əliyyən vəliyyullah» cümləsi azan və iqamənin tərkib hissəsi deyildir. Lakin - «Əşhədü ənnə Muhəmmədən rəsulullah» cümləsindən sonra Allaha yaxınlaşmaq qəsdi ilə deyilsin.

## *AZAN VƏ İQAMƏNİN HÖKMLƏRİ:*

1-Azan və iqamə namaz vaxtı daxil olduqdan sonra deyilməlidir. Əgər ondan əvvəl deyilərsə, batildir.[1]

2-İqamə azandan sonra deyilməlidir, əgər ondan əvvəl deyilərsə, səhih olmaz.[2]

3-Azan və iqamənin cümlələri arasında çox fasilə salınmamalıdır. Əgər onların arasında adi normadan artıq fasilə salınsa, yenidən (əvvəldən) deyilməlidir.[3]

4-Əgər camaat namazı üçün azan və iqamə deyilmiş olsa, o camaatla namaz qılan şəxs öz namazları üçün azan və iqamə deməməlidir.[4]

5-Müstəhəbb namazlarda azan və iqamə yoxdur.[5]

6-Övladın dünyaya gəldiyi ilk gündə onun sağ qulağına azan, sol qulağına isə iqamə deyilməsi müstəhəbdir.[6]

7-Azan demək üçün təyin olunan şəxsin ədalətli, vaxtı tanıyan və səsinin uca olması müstəhəbdir.[7]

---

[1] *"Tovzihul-məsail", məsələ:935*
[2] *"Tovzihul-məsail", məsələ:931*
[3] *"Tovzihul-məsail", məsələ:920*
[4] *"Tovzihul-məsail", məsələ:923*
[5] *"Ürvətül-vüsqa", 1-ci cild, səh.601*
[6] *"Tovzihul-məsail", məsələ:917*
[7] *"Tovzihul-məsail", məsələ:941*

**XVI DƏRS**

# NAMAZIN VACİBATI

1-Namaz “Əllahu əkbər” deməklə başlanır və “Salam”la sona çatır;
2-Namazda yerinə yetirilən işlər ya vacibdir, ya da müstəhəbb;
3-Namazın vacibatı 11 şeydir, onlardan bəziləri rükn, bəziləri isə qeyri-rükndur;

***Namazın vacibatı***

- ***Rükn***
  1. Niyyət
  2. Qiyam
  3. Təkbirətül - ehram
  4. Ruku
  5. Səcdə
- ***Qeyri rükn***
  1. Qiraət
  2. Zikr
  3. Təşəhhüd
  4. Salam
  5. Tərtib
  6. Müvalat

### *Rükn ilə qeyri rükn arasındakı fərq*

Namazın rüknləri onun əsas hissələri sayılır. Belə ki, onlardan biri yerinə yetirilməsə, yaxud artırılsa, hətta unutmaq üzündən olsa belə namaz batildir.

Namazın digər vaciblərinin yerinə yetirilməsi vacib olmasına baxmayaraq, unutqanlıq üzündən azaldılsa, yaxud artırılsa, namaz batil deyil.[1]

### *Namazın vacibatının hökmləri*

#### *Niyyət*

1-Namaz qılan şəxs namazın əvvəlindən axırına qədər namaz qıldığını bilməli və onu Allahın əmrini yerinə yetirmək üçün etməlidir.[2]

2-Niyyətin dillə deyilməsi vacib deyildir, lakin dillə deyilsə də eybi yoxdur.[3]

3-Namaz hər növ riyakarlıqdan və özünü göstərməkdən uzaq olmalıdır. Yəni namazı yalnız Allahın əmrini yerinə yetirmək üçün qılmaq lazımdır. Belə ki, namazın hamısı, yaxud bir qismi Allahdan başqası üçün olsa batildir.[4]

#### *Təkbirətul-ehram*

Əvvəldə qeyd olunduğu kimi namaz “Əllahu əkbər” deməklə başlanır, buna təkbirətul-ehram deyilir. Çünki məhz bu təkbiri deməklə namazdan əvvəl caiz olan işlər, məsələn yemək, içmək, gülmək, ağlamaq namaz qılan şəxsə haram olur.

### *Təkbirətul ehramın vacibatı*

1-Ərəbcə düzgün deyilməlidir;
2-”Əllahu əkbər” deyən zaman bədən hərəkətsiz olmalıdır;

---

[1] *“Tovzihul-məsail”, məsələ:942*
[2] *Yenə orada*
[3] *“Tovzihul-məsail”, məsələ:943*
[4] *“Tovzihul-məsail”, məsələ:946 və 947*

3-Təkbirətul-ehram elə deyilməlidir ki, əgər heç bir maneə olmazsa özü eşitsin, yəni çox ahəstə deməsin;

4-Vacib ehtiyata əsasən həmin təkbiri ondan qabaq deyilən sözə birləşdirməsin;[1]

Müstəhəbdir ki, təkbirətul-ehram deyən zaman, eləcə də namaz arasındakı sair təkbirləri deyən zaman əllər qulağın dibinə qaldırılsın.[2]

### *Qiyam*

Qiyam – ayaq üstə dayanmağa deyilir, bu iş bəzi hallarda namazın rüknüdür və onun tərk edilməsi namazı batil edir. Lakin ayaq üstə namaz qıla bilməyən şəxslərin vəzifəsi gələcək məsələlərdə qeyd olunacaqdır.

**Qiyamın qismləri**
- ***Rükn***
  - 1-Təkbirətul-ehram deyən zaman qiyam
  - 2-Rukudan əvvəlki qiyam
- ***Qeyri***
  - 1-Qiraət zamanındakı qiyam
  - 2-Rukudan sonrakı qiyam

### *Qiyamın hökmləri*

1-Təkbirətul-ehramdan əvvəl və onu dedikdən sonra təkbirətul-ehramın qiyam halında deyilməsinə yəqin olacağı qədər ayaq üstə dayanmaq vacibdir.[3]

2-Rukudan əvvəlki qiyam o deməkdir ki, ayaq üstə dayandıqdan sonra rükuya getsin. Deməli əgər rükunu unudaraq qiraətdən sonra səhvən səcdəyə getsə və səcdəyə çatmazdan əvvəl xatırlasa tam ayaq üstə dayanmalı, sonra rukuya getməli, daha sonra səcdələri yerinə yetirməlidir.[4]

3-Ayaq üstə olarkən aşağıdakı işlərdən çəkinmək lazımdır:

* Bədəni hərəkət etdirmək;
* Hər hansı tərəfə əyilmək;
* Bir yerə, yaxud bir şeyə söykənmək;
* Ayaqları çox aralı qoymaq;
* Ayaqları yerdən qaldırmaq;[5]

4-Namaz qılan şəxs qiyam halında hər iki ayağını yerə qoymalıdır. Lakin bədənin ağırlığının hər iki ayaq üstündə (bərabər şəkildə) olması vacib deyil, əgər ağırlığı birinin üstünə düşsə də işkalı yoxdur.[6]

5-Heç bir vəch ilə ayaq üstə namaz qıla bilməyən şəxs oturmalı və üzü qibləyə namaz qılmalıdır. Əgər oturan halda da namaz qıla bilməsə, uzanan halda qılmalıdır.[7]

6-Rukudan sonra tam qalxıb düzəlmək, sonra səcdəyə getmək vacibdir. Əgər bu qiyam qəsdən tərk edilsə, namaz batildir.[8]

---

[1] *"Tovzihul-məsail", məsələ:948, 949, 951 və 952*
[2] *"Tovzihul-məsail", məsələ:955*
[3] *"Tovzihul-məsail", məsələ:959*
[4] *"Tovzihul-məsail", məsələ:960*
[5] *"Tovzihul-məsail", məsələ:961, 963 və 964*
[6] *"Tovzihul-məsail", məsələ:963*
[7] *"Tovzihul-məsail", məsələ:970 və 971*
[8] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.162, məsələ:1; "Ürvətül-vüsqa", 1-ci cild, səh.665, məsələ:4*

| XVII DƏRS |
|---|

# NAMAZIN VACİBATI

### *Qiraət*

Gündəlik vacib namazların birinci və ikinci rəkətində əvvəlcə həmd, ondan sonra bütöv bir surə oxunmalıdır.[1] Üçüncü və dördüncü rəkətlərində isə ya təkcə həmd surəsi, ya da üç dəfə təsbihati ərbəə oxunmalıdır. Əgər bir dəfə də oxunsa kifayətdir.[2]

**Həmd (Fatihə) surəsi**

*Bismillahir-rəhmanir-rəhim*

«Əl-həmdu lil-lahi rəbbil aləmin. Ərrəhmanir-rəhim. Maliki yəvmid-din. İyyakə nə-budu və iyyakə nəstəin. İhdinəs-siratəl mustəqim. Siratəl-ləzinə ən-əmtə əleyhim. Ğəyril məğzubi əleyhim vələz-zallin».

Birinci və ikinci rəkətində Həmddən sonra bütöv başqa bir surə oxunmalıdır. Məsələn: Tövhid surəsi.

**Tövhid (İxlas) surəsi**

*Bismillahir-rəhmanir-rəhim*

«Qul huvəl-lahu əhəd. Allahus-səməd. Ləm yəlid və ləm yuləd. Və ləm yəkul-ləhu kufuvən əhəd».

Namazın üçüncü və dördüncü rəkətlərində isə ya təkcə həmd surəsi, ya da üç dəfə təsbihati ərbəə oxunmalıdır. Əgər bir dəfə də oxunsa kifayətdir.

**Təsbihati ərbəə:**

"Subhanəllahi vəlhəmdu lillahi vəla ilahə illəllahu vəllahu əkbər."

### *Qiraətin hökmləri*

1-Namazın üçüncü və dördüncü rəkətinin qiraəti astadan oxunmalıdır. Lakin birinci və ikinci rəkətlərdə həmd surənin hökmü aşağıdakı kimidir:[3]

| Namaz | Namaz qılan | Hökm |
|---|---|---|
| Zöhr və əsr | Kişi[4] və qadın | Astadan qılmalıdır |
| Məğrib, işa və sübh | Kişi | Ucadan qılmalıdır |
| | Qadın | Əgər naməhrəm onun səsini eşitməsə ucadan qıla bilər, lakin əgər eşidərsə, ehtiyat vacibə görə astadan qılmalıdır. |

2-Əgər namazı ucadan qılmalı olduğu yerdə qəsdən astadan, yaxud astadan qılmalı olduğu yerdə qəsdən ucadan qılarsa, namaz batildir. Amma əgər unutqanlıq, yaxud məsələni bilməməzlik üzündən olsa səhihdir.[5]

---

[1] *Tozihüul məsail, məsələ:978*
[2] *"Tovzihul-məsail", məsələ:1005*
[3] *"Tovzihul-məsail", məsələ:992, 994 və 1007*
[4] *Kişi üçün deyilən hökmlər oğlanlara da aiddir.*
[5] *"Tovzihul-məsail", məsələ:995*

3-Əgər həmd-surəni oxuyarkən səhv etdiyini anlayarsa (məsələn ucadan qılmalı olduğu yerdə astadan qıldığını bilsə), qıldığı hissələri yenidən oxuması lazım deyil.[1]

4-İnsan namazı öyrənməli, onu səhv qılmamalıdır. Ümumiyyətlə səhih şəkildə öyrənə bilməyən şəxs necə bacarırsa o cür də qılmalıdır. Müstəhəbb ehtiyat budur ki, namazı camaatla qılsın.[2]

5-Əgər insan bir kəlməni səhih hesab edir, məsələn təşəhhüddəki "əbduhu" kəlməsini "əbdəhu" olduğunu hesab edir və namazda da belə oxuyurdusa, sonra səhv oxuduğunu bilsə namazı yenidən qılması lazım deyil.[3]

6-Aşağıdakı hallarda namaz qılan şəxs birinci və ikinci rəkətdə surəni oxumamalı yalnız "Həmd" ilə kifayətlənməlidir:

a) Namazın vaxtı az olsa;

b) Surəni oxumamağa məcbur olsa, məsələn surəni oxuyacağı təqdirdə oğru, yaxud yırtıcı heyvan, yaxud başqa bir şey ona xəsarət vuracaqsa;[4]

7-Vaxtın azlığı şəraitində təsbihati ərbəəni bir dəfə demək lazımdır.[5]

## *Qiraətin bəzi müstəhəbbləri*

1-Birinci rəkətdə "Həmd"dən qabaq "Əuzu billahi minəş-şəytanir-rəcim" demək;

2-Zöhr və əsr namazının birinci və ikinci rəkətlərində "Bismillahir-rəhmanir-rəhim"i ucadan demək;

3-Həmd-surəni (ayələrini) bir-birindən fasiləli demək və hər bir ayənin axırında vəqf etmək, yəni onun axırını sonrakı ayənin əvvəlinə birləşdirməmək;

4-Həmd və surəni oxuyan zaman onun mənalarına diqqət yetirmək;

5-Bütün namazların birinci rəkətində "İnna ənzəlna", ikinci rəkətində isə "Qul huvəllahu əhəd" surəsini oxumaq.[6]

## *Zikr*

Rüku və səcdənin vaciblərindən biri zikr, yəni "Subhanəllah", yaxud "Əllahu əkbər" kimi zikrləri deməkdir. Bunun əlavə şərti sonradan qeyd olunacaq.

---

[1] *Yenə orada*

[2] *"Tovzihul-məsail", məsələ:997*

[3] *"Tovzihul-məsail", məsələ:1001*

[4] *"Tovzihul-məsail", məsələ:979*

[5] *"Tovzihul-məsail", məsələ:1006*

[6] *"Tovzihul-məsail", məsələ:1007 və 1008*

# NAMAZIN VACİBATI

***Ruku***

1-Namaz qılan şəxs hər rəkətdə, qiraətdən sonra əllərini dizinə qoya biləcək qədər əyilməlidir. Bu əmələ ruku deyilir.[1]

***Rukunun vacibatı***

- ***Yuxarıda deyilən miqdarda əyilmək***
- ***Zikr***
- ***Rukunun** zikrini deyərkən bədənin aram olması***
- ***Rukudan sonra qalxıb dayanmaq***
- ***Rukudan sonra bədənin aram olması***

### *Rukunun zikri*

Rukuda hər hansı zikr deyilsə kifayətdir, lakin vacib ehtiyat budur ki, üç dəfə "Subhənəllah", ya bir dəfə "Subhanə rəbbiəl-əzimi və bihəmdih"dən az olmasın.[2]

### *Rukuda bədənin aram olması*

1-Rukuda vacib zikr deyilən zaman bədən aram olmalıdır.[3]

2-Əgər ruku miqdarına əyilməzdən və bədəni aram olmazdan qabaq qəsdən rukunun zikrini desə, namazı batildir.[4]

3-Əgər vacib zikrin tamam olmasından qabaq qəsdən rukudan qalxsa, namazı batildir.[5]

### *Rukudan sonra qalxmaq və bədənin hərəkətsiz olması*

Rukunun zikri tamam olduqdan sonra qalxmaq və bədən hərəkətsiz, aram olduqdan sonra səcdəyə getmək lazımdır. Əgər qalxmazdan əvvəl, yaxud bədən aramlaşmamışdan qabaq qəsdən səcdəyə getsə namazı batildir.[6]

### *Adi qaydada ruku edə bilməyən şəxsin vəzifəsi*

1-Tam ruku miqdarında əyilə bilməyən bir şəxs bacardığı qədər əyilməlidir;

2-Ümumiyyətlə əyilə bilməyən şəxs, oturan halda ruku etməlidir;

3-Oturan halda ruku edə bilməyən şəxs ayaq üstə namaz qılmalı və ruku üçün başı ilə işarə etməlidir.[7]

***Rukunun bəzi müstəhəbləri***

1-Rukunun zikrini 3, 5, 7, hətta daha artıq təkrarlamaq müstəhəbdir;

2-Rukuya getməzdən əvvəl düz dayandığı halda təkbir deməsi müstəhəbdir;

3-Ruku halında iki ayaqların arasına (yerə) baxmaq müstəhəbdir;

4-Rukunun zikrindən əvvəl, yaxud sonra salavat göndərmək müstəhəbdir;

5-Rukudan sonra ayağa qalxıb bədən aram olduqdan sonra "Səmiəllahu limən həmidəh" demək müstəhəbdir.[8]

---

[1] *"Tovzihul-məsail", məsələ:1022*
[2] *"Tovzihul-məsail", məsələ:1028*
[3] *"Tovzihul-məsail", məsələ:1030*
[4] *"Tovzihul-məsail", məsələ:1032*
[5] *"Tovzihul-məsail", məsələ:1033*
[6] *"Tovzihul-məsail", məsələ:1040*
[7] *"Tovzihul-məsail", məsələ:1037*
[8] *"Tovzihul-məsail", məsələ:1043*

***Səcdələr***

1-Namaz qılan şəxs müstəhəbb və vacib namazlarının hər rəkətində iki səcdəni yerinə yetirməlidir.[1]

2-Səcdə belədir ki, namaz qılan şəxs alnını, iki əlinin içini, dizlərini və ayağının baş barmaqlarının ucunu torpağa qoysun.

| | |
|---|---|
| ***SƏCDƏNİN VACİBATI*** | 1-Bədənin (yuxarda qeyd olunan) yeddi üzvünü yerə qoymaq;<br>2-Zikr demək;<br>3-Səcdənin zikrini deyən halda bədənin hərəkətsiz olması;<br>4-İki səcdənin arasında qalxıb oturmaq və bədənin aram olması;<br>5-Zikr deyən zaman yeddi üzvün yerdə olması;<br>6-Səcdə yerlərinin bir səviyyədə olması (alçaq-uca olmaması);<br>7-Alnı səcdə etməyin səhih olduğu şeylərin üstünə qoymaq;<br>8-Alnın, üzərinə qoyulan şeyin pak olması;<br>9-İki səcdə arasında muvalat (fasilə salmamaq); |

[1] *"Tovzihul-məsail", məsələ:1045*

**XIX DƏRS**

# SƏCDƏNİN VACİBATI

***Zikr:***

Səcdədə hər hansı zikr deyilsə kifayətdir, lakin vacib ehtiyat budur ki, zikrin miqdarı üç dəfə "Subhanəllah"dan, yaxud bir dəfə "Subhanə rəbbiəl-əla və bihəmdih"dən az olmasın.[1]

***HƏRƏKƏTSİZLİK***

1-Səcdədə vacib zikrlər deyilən zaman bədən hərəkətsiz olmalıdır.[2]

2-Əgər alnı torpağa çatmazdan və bədəni sakitləşməzdən əvvəl qəsdən zikri desə namaz batildir. Əgər unutqanlıq üzündən olarsa, yenidən bədənin aram olduğu halda zikr deməlidir.[3]

***BAŞI SƏCDƏDƏN QALDIRMAQ***

1-Birinci səcdənin zikri qurtardıqdan sonra qalxıb oturmaq, bədən sakit olduqdan sonra ikinci dəfə səcdəyə getmək lazımdır.[4]

2-Əgər zikr tamam olmazdan qabaq qəsdən başını səcdədən götürsə, namazı batildir.[5]

***YEDDİ ÜZVÜN YERDƏ OLMASI***

1-Əgər səcdənin zikrini deyən vaxt yeddi üzvdən birini qəsdən yerdən qaldırsa, namaz batildir. Amma zikr demədiyi bir zamanda alından başqa digər üzvləri yerdən götürsə və yenidən qoysa eybi yoxdur.[6]

2-Əgər ayağın baş barmağı ilə birlikdə başqa barmaqlarını da yerə qoysa eybi yoxdur.[7]

***SƏCDƏ ÜZVLƏRİNİN EYNİ SƏVİYYƏDƏ OLMASI***

1-Namaz qılanın alnının yeri dizlərinin yerindən dörd bağlı barmaqdan artıq uca və ya alçaq olmamalıdır.[8]

2-Ehtiyat vacibə görə namaz qılanın alnının yeri ayaq barmaqlarının qoyulduğu yerdən də dörd bağlı barmaqdan artıq alçaq və ya hündür olmamalıdır.[9]

**Alnı üzərinə səcdə edilməsi səhih olan şeylərin üstünə qoymaq:**

1-Səcdədə alnı torpağa, yaxud torpaqdan göyərib yeməli və geyməli olmayan şeylərə qoymaq lazımdır.[10]

2-Üzərinə səcdə edilməsi səhih olan şeylərin bəzi nümunələri:

* Torpaq;
* Daş
* Qum;
* Bişmiş palçıq;
* Gəc;
* Taxta;
* Çəmənlik;

---

[1] *"Tovzihul-məsail", məsələ:1049*

[2] *"Tovzihul-məsail", məsələ:1050*

[3] *"Tovzihul-məsail", məsələ:1051 və 1052*

[4] *"Tovzihul-məsail", məsələ:1056*

[5] *"Tovzihul-məsail", məsələ:1052*

[6] *"Tovzihul-məsail", məsələ:1054*

[7] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.173, məsələ:2; "Ürvətül-vüsqa", 1-ci cild, səh.676, məsələ:7*

[8] *"Tovzihul-məsail", məsələ:1057*

[9] *"Tovzihul-məsail", məsələ:1057*

[10] * *Ayətullah Xamenei:* ***Sement və mozaikin üzərinə də səcdə etməyin eybi yoxdur.*** *(səh.148, 298-ci məsələ)*
*"Tovzihul-məsail", məsələ:1076*

## SƏCDƏNİN HÖKMLƏRİ

1-Mədəndən çıxarılan qızıl, gümüş, əqiq və firuzə kimi şeylərə səcdə etmək səhih deyildir.[1]

2-Allahdan başqası üçün səcdə etmək haramdır.[2]

3-Yerdən göyərib heyvanların yemi olan ot və saman kimi şeylərə səcdə etmək səhihdir.[3]

4-Pambıq və sair kimi şeylərdən hazırlansa belə kağıza səcdə etmək səhihdir.[4]

5-Səcdə etmək üçün hər şeydən yaxşı həzrəti Seyyidüş-şühəda (ə)-ın türbəti, ondan sonra isə aşağıdakı tərtiblərdir:

* Torpaq;
* Daş;
* Bitki.[5]

6-Əgər birinci səcdədə möhür alına yapışsa və möhürü götürüb yerə qoymadan yenidən həmin halda səcdəyə getsə namaz batildir.[6]

### Adi qaydada səcdə edə bilməyən şəxsin vəzifəsi

1-Alnını səcdəyə çatdıra bilməyən bir şəxs bacardığı qədər əyilməli və möhürü balış kimi uca bir şeyin üzərinə qoyub səcdə etməlidir. Lakin əllərinin içi, dizləri və ayağının baş barmaqlarını adi qaydada yerə qoymalıdır.[7]

2-Əgər əyilə bilmirsə səcdə üçün oturmalı və başı ilə işarə etməlidir.[8] Amma vacib ehtiyata görə möhrünü yuxarı qaldırmalı və alnını onun üzərinə qoymalıdır.

### Səcdənin bəzi müstəhəbb əməlləri

1-Aşağıdakı hallarda təkbir demək müstəhəbdir:

* Rükudan sonra və birinci səcdədən əvvəl;
* Birinci səcdədən sonra oturub bədəni hərəkətsiz olan vaxtda;
* İkinci səcdədən əvvəl, oturduğu halda və bədənin hərəkətsiz olduğu zaman;
* İkinci səcdədən sonra;

2-Səcdələri uzatmaq müstəhəbdir.

3-Birinci səcdədən sonra bədən hərəkətsiz olduğu zaman "Əstəğfirullahə Rəbbi və ətubu iləyh" demək müstəhəbdir;

4-Səcdələrdə salavat çevirmək müstəhəbdir;[9]

---

[1] *"Tovzihul-məsail", məsələ:1076*
[2] *"Tovzihul-məsail", məsələ:1090*
[3] *"Tovzihul-məsail", məsələ:1078*
[4] *"Tovzihul-məsail", məsələ:1082*
[5] *"Tovzihul-məsail", məsələ:1083*
[6] *"Tovzihul-məsail", məsələ:1086*
[7] *"Tovzihul-məsail", məsələ:1068*
[8] *"Tovzihul-məsail", məsələ:1069*
[9] *"Tovzihul-məsail", məsələ:1091*

*XX DƏRS*

# NAMAZIN VACİBATININ HÖKMLƏRİ

### *Quranın vacib səcdələri*

1-Quranın dörd surəsində səcdə ayəsi vardır, belə ki, insan əgər o ayəni oxusa, yaxud başqası oxuyan zaman ona qulaq assa, o ayə tamam olduqdan sonra dərhal səcdə etməlidir.[1]

2-Quranın vacib səcdəsi olan surələr aşağıdakılardır:
1-32-ci surə – "Səcdə" surəsinin 15-ci ayəsi;
2-41-ci surə – "Fussilət" surəsinin 37-ci ayəsi;
3-53-cü surə – "Nəcm" surəsinin axırıncı ayəsi;
4-96-cı surə – "Ələq" surəsinin axırıncı ayəsi;[2]

3-Əgər bu səcdəni unutsa, hər vaxt yadına düşsə, gərək səcdə etsin.[3]

4-Əgər səcdə ayəsini maqnitafon lentindən eşitsə, səcdə etməsi vacib deyil.[4]

5-Əgər səcdə ayəsinin mikrofondan, yaxud televizordan və ya radiodan eşitsə, əgər insanın səsini çatdırırsa və lent yazısından istifadə olunmursa, yəni səsin efirə buraxıldığı zaman bir şəxs ayəni oxuyursa və bununla da onun səsini başqa yerə çatdırırsa, səcdə etmək vacibdir.[5]

6-Bu ayələr üçün səcdə edilən zaman alnı yeyilən və geyilən şeylərin üstünə qoyub səcdə etmək olmaz, lakin səcdənin sair şərtlərini riayət etmək vacib deyil.[6]

7-Bu səcdədə zikr demək vacib deyil, müstəhəbdir.[7]

### *8-Təşəhhüd*

-Vacib namazların ikinci rəkətində və axırıncı rəkətində ikinci səcdədən sonra oturub bədən hərəkətsiz olduğu zaman təşəhhüd, yəni aşağıdakı kəlmələr deyilməlidir:[8]

*"Əşhədu əlla ilahə illəllah, vəhdəhu la şərikə ləh, və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd"*

### *9-Salam*

1-Hər namazın axırıncı rəkətində təşəhhüddən sonra salam demək və namazı sona çatdırmaq lazımdır.

2-Namazın vacib miqdarı aşağıdakı iki cümlədir:
* *Əssəlamu ələyna və əla ibadillahissalihin;*
* *Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh;*[9]

3-Bu iki salamdan əvvəl aşağıdakı cümləni demək müstəhəbdir:
* *Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh.*

Və yaxşı olar ki, hər üçünü də desin.[10]

### *10-Tərtib*

Namaz bu tərtiblə (ardıcıllıqla) qılınmalıdır: Təkbirətul-ehram, qiraət, ruku, səcdə, ikinci rəkətdə səcdədən sonra təşəhhüd oxumaq və axırıncı rəkətdə təşəhhüddən sonra salam vermək;

---

[1] *"Tovzihul-məsail", məsələ:1093*
[2] *"Tovzihul-məsail", məsələ:1093*
[3] *"Tovzihul-məsail", məsələ:1093*
[4] *"Tovzihul-məsail", məsələ:1096*
[5] *"Tovzihul-məsail", məsələ:1096*
[6] *"Tovzihul-məsail", məsələ:1097*
[7] *"Tovzihul-məsail", məsələ:1099*
[8] *"Tovzihul-məsail", məsələ:1100*
[9] *"Tovzihul-məsail", məsələ:1105*
[10] *"Tovzihul-məsail", məsələ:1105*

**11-Muvalat**

1-Muvalat dedikdə namazın hissələrinin bir-birinin ardınca yerinə yetirilməsi və onların arasında fasilə salınmaması nəzərdə tutulur.

2-Əgər namazın hissələri arasında “namaz qılır” deyilməyəcək qədər fasilə salınsa, namazı batildir.[1]

3-Ruku və səcdələri uzatmaq və böyük surələr oxumaq muvalatı pozmur.[2]

**Qunut:**

1-Namazın ikinci rəkətindəki həmd və surədən sonra və rukudan əvvəl qunut tutmaq, yəni əlləri qaldırıb üzün qarşısında saxlamaq və zikr və ya dua etmək müstəhəbdir.[3]

2-Qunutda hər bir zikr, hətta bir dəfə “subhanəllah” deyilsə belə kifayətdir. Aşağıdakı duanı da oxumaq olar:

*“Rəbbəna atina fiddunya həsənətən və fil-axirəti həsənətən və qina əzabənnar.”*[4]

## Namazın təqibatı

Namaz bəhsində təqibat dedikdə, namazın salamından sonra zikr, dua və Quran oxumaq nəzərdə tutulur.

1-Yaxşı olar ki, insan təqibat halında üzü qibləyə olsun;

2-Təqibatın ərəbcə olması vacib deyil, lakin yaxşı olar ki, dua kitablarında göstəriş verilən şeylər oxunsun;

3-Həzrəti Zəhra (ə)-ın təsbihini demək, yəni 34 dəfə “Əllahu əkbər”, 33 dəfə “Əlhəmdu lillah”, 33 dəfə “Subhanəllah” demək müstəhbdir.[5]

---

[1] *“Tovzihul-məsail”, məsələ:1114*
[2] *“Tovzihul-məsail”, məsələ:1116*
[3] *“Tovzihul-məsail”, məsələ:1117*
[4] *“Tovzihul-məsail”, məsələ:1118*
[5] *“Tovzihul-məsail”, məsələ:1122*

## XXI DƏRS

# NAMAZI BATİL EDƏN ŞEYLƏR

Namaz qılan şəxsə, təkbirətul-ehramı deyib namaza başladığı zamandan onun axırına qədər bəzi işlər haramdır ki, əgər namazda onların birini yerinə yetirsə, namazı batildir. Namazı batil edən şeylər aşağıdakılardır:

* Yemək və içmək;
* Danışmaq;
* Gülmək;
* Ağlamaq;
* Üzü qiblədən çevirmək;
* Namazın rüknunu azaldıb-artırmaq;
* Namazın surət və formasını pozmaq;

### NAMAZI BATİL EDƏN ŞEYLƏRİN HÖKMLƏRİ

- ***Danışmaq:***

1-Əgər namaz qılan şəxs qəsdən bir söz deyərək onunla müəyyən bir mənanı çatdırmaq istəsə namazı batildir.[1]

2-Əgər qəsdən iki, yaxud daha artıq hərfi olan bir kəlməni desə, hətta onunla bir mənanı çatdırmaq məqsədi olmasa belə, ehtiyat vacibə görə namazını yenidən qılmalıdır.[2]

3-Namaz halında bir kəsə salam vermək olmaz, lakin əgər bir şəxs namaz qılana salam versə, onun cavabını vermək vacibdir və bu zaman "salam" kəlməsi qabaqda deyilməlidir. Məsələn "əssəlamu əleykə", yaxud "əssəlamu əleykum" deməlidir, amma "əleykuməs-salam" deyə bilməz.[3]

- ***Gülmək və ağlamaq:***

1-Əgər namaz qılan şəxs qəsdən uca səslə gülsə namazı batildir.

2-Təbəssüm və gülümsəmək namazı batil etmir.

3-Əgər namaz qılan şəxs dünya işləri üçün səslə qəsdən ağlasa namazı batildir.

4-Səssiz ağlamaq, Allahın qorxusundan və yaxud axirət üçün ağlamaq, hətta səslə olsa belə namazı batil etmir.[4]

- ***Üzü qiblədən çevirmək:***

1-Əgər namaz halında qəsdən "üzü qibləyədir" deyilməyəcək şəkildə üzünü çevirsə, namazı batildir.

2-Əgər səhvən üzünün hər tərəfini sağa, yaxud sola çevirsə, ehtiyat vacib budur ki, namazı yenidən qılsın. Lakin əgər qiblənin sağ və sol tərəfinə çatmasa səhihdir.[5]

- ***Namazın formasını pozmaq:***

1-Əgər namaz əsnasında namazın formasını pozan bir iş görsə, məsələn əl çalsa, havaya tullansa və sair kimi işlər görsə, hətta unutmaq üzündən olsa belə namazı batildir.[6]

2-Əgər namaz əsnasında "namaz qılmır" deyiləcək qədər sakit qalsa, namazı batildir.[7]

3-Vacib namazı boşlamaq (pozmaq) haramdır. Amma aşağıdakı məcburiyyət və çarəsizlik halları istisna olunur:

* Canın hifz olunması üçün;

---

[1] *"Tovzihul-məsail", səh.154*
[2] *"Tovzihul-məsail", səh 154*
[3] *"Tovzihul-məsail", məsələ:1137*
[4] *"Tovzihul-məsail", səh.156*
[5] *"Tovzihul-məsail", məsələ:1131*
[6] *"Tovzihul-məsail", səh.156*
[7] *"Tovzihul-məsail", məsələ:1152*

* Malın hifz olunması üçün;
* Maddi və fiziki zərərin qarşısını almaq;
4-Aşağıdakı şərtlərlə camaatın borcunu vermək üçün namazı pozmağın eybi yoxdur.
* Borclu öz borcunu istəyir;
* Namazın vaxtı çox az deyil, yəni borcunu qaytardıqdan sonra namazı vaxtında qıla bilər;
* Namaz əsnasında borcunu qaytara bilmirsə;[1]
5-Çox əhəmiyyəti olmayan mal üçün namazı pozmaq məkruhdur.[2]

## *Namazda məkruh olan şeylər*

1-Gözləri yummaq;
2-Barmaqlar və əllərlə oynamaq;
3-Həmd, yaxud surə oxuyarkən, yaxud zikr deyərkən bir kəsin sözünü eşitmək üçün sükut etmək;
4-Xüzu və xüşunu aradan aparan hər bir iş görmək;
5-Başı azacıq miqdarda sağa və ya sola döndərmək (çox miqdarda döndərmək namazı batil edir);[3]

[1] *"Tovzihul-məsail", məsələ:1159, 1161*
[2] *"Tovzihul-məsail", məsələ:1162*
[3] *"Tovzihul-məsail", məsələ:1157*

# AZAN, İQAMƏ, VƏ NAMAZIN TƏRCÜMƏSİ

**Allahu əkbər**

Allah böyükdür.

**Əşhədu əl-la ilahə illəllah**

Şəhadət verirəm ki, Allahdan başqa bir məbud yoxdur.

**Əşhədu ən-nə Muhəmmədən Rəsuləllah**

Şəhadət verirəm ki, Muhəmməd (s) Allahın Rəsuludur.

**Əşhədu ən-nə Əliyyən əmirəl-momininə vəliyyullah**

Şəhadət verirəm ki, həqiqətən Əli (ə) möminlərin əmiri və Allahın vəlisidir.

**Həyyə ələs-səlat**

Tələsin namaza

**Həyyə ələl-fəlah**

Tələsin səadətə tərəf

**Həyyə əla xəyril-əməl**

Tələsin xeyir əmələ tərəf

**Qəd qamətis-səlat**

Namaz bərpa olur

**Allahu əkbər**

Allah böyükdür.

**La ilahə illəl-lah**

Allahdan başqa məbud yoxdur

**NAMAZIN TƏRCÜMƏSİ**

**<u>Təkbirətul-ehram:</u>**

**Allahu əkbər**

Allah hər kəsdən və hər şeydən böyükdür.

## <u>Həmd (Fatihə) surəsi:</u>

***Bismillahir-rəhmanir-rəhim***

Mərhəmətli, rəhmli Allahın adı ilə!

**Əl-həmdu lil-lahi rəbbil aləmin.**

Həmd (şükür və tə'rif) olsun Allaha - aləmlərin Rəbbinə,

**Ərrəhmanir-rəhim.**

(Bu dünyada hamıya) mərhəmətli, (axirətdə isə ancaq mö'minlərə) rəhmli olana,

**Maliki yəvmid-din.**

Haqq-Hesab (qiyamət) gününün sahibinə!

**İyyakə nə-budu və iyyakə nəstəin.**

Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!

**İhdinəs-siratəl mustəqim.**

Bizi doğru (düz) yola yönəlt!

**Siratəl-ləzinə ən-əmtə ələyhim.**

Ne'mət verdiyin kəslərin yoluna!

**Ğəyril məğzubi ələyhim vələz-zallin.**

Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!

## Tövhid (İxlas) surəsi

***Bismillahir-rəhmanir-rəhim***

Mərhəmətli, rəhmli Allahın adı ilə!

**Qul huvəl-lahu əhəd.**

(Ya Peyğəmbər!) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur);

**Allahus-səməd.**

Allah (heç kəsə, heç nəyə) möhtac deyildir!

**Ləm yəlid və ləm yuləd.**

O, nə doğmuş, nə də doğulmuşdur!

**Və ləm yəkul-ləhu kufuvən əhəd.**

Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!

## Rukunun zikri:

**«Subhanə rəbbiəl əzimi və bihəmdihi»**

Öz böyük Allahıma sitayiş edirəm və pak və münəzzəh sanıram.

## Səcdənin zikri:

**«Subhanə rəbbiəl əla və bihəmdihi»**

Öz uca və əzəmətli Allahıma sitayiş edirəm və pak və münəzzəh sanıram.

## Təsbihati ərbəə:

**"Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər."**

Allah pak və münəzzəhdir, sitayiş ona məxsusdur, yaradan Allahdan başqa tanrı yoxdur, Allah hər şeydən böyükdür.

## Təşəhhüd:

**Əşhədu əlla ilahə illəllah,**

Şəhadət verirəm ki, Allahdan başqa bir məbud yoxdur.

**Vəhdəhu la şərikə ləh,**

O, təkdir və heç bir şəriki yoxdur.

**Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh.**

Və şəhadət verirəm ki, Muhəmməd Allahın quludur və elçisidir.

**Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd**

Allahım Muhəmmədə və onun ailəsinə salam salavat göndər.

### Salam:

**Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh.**

*Allahın salamı, rəhmət və bərəkəti üzərinə olsun Ya Peyğəmbər!*

**Əssəlamu ələyna və əla ibadillahissalihin;**

*Allahın salamı bizə (namaz qılanlara) və Allahın saleh bəndələrinə olsun!*

**Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh;**

*Allahın salamı sizə və rəhmət və bərəkəti üzərinizə olsun!*

# NAMAZIN ŞƏKKİYYATI

Bəzən namaz qılan şəxs namazın hissələrini yerinə yetirib-yetirməməkdə şəkk edə bilər. Məsələn təşəhhüdü oxuyub-oxumamasında, bir səcdə, yoxsa iki səcdə etdiyində şəkk edir, bəzən isə qıldığı namazın neçə rəkət olduğunda şəkk edir, məsələn üçüncü, yaxud dördüncü rəkət olduğunu bilmir.

***Namazda şəkk ilə əlaqədar xüsusi hökmlər vardır. Onun bütün təfərrüatı ilə qeyd olunması bu kitabın həcminə sığmaz, lakin şəkkin qismlərini və onların hər birinin hökmünü qısa şəkildə bəyan edirik.***

## NAMAZIN ŞƏKKİYYATININ QİSMLƏRİ[1]

### Namazın hissələrində şəkk

a) Əgər namazın hissələrinin birinin yerinə yetirilməsində şəkk etsə, yəni o hissəni yerinə yetirdiyini, yoxsa yetirmədiyini bilməsə, əgər sonrakı hissəyə daxil olmayıbsa, yəni hələ o hissənin məhəlli keçməyibsə onu yerinə yetirməlidir. Lakin sonrakı hissəyə daxil olduqdan sonra şəkk yaransa, yəni onun məhəlli keçdikdən sonra şəkk etsə, belə şəkkə etina olunmur və namazı davam etdirir, namazı da səhihdir.

b) Əgər namazın bir hissəsinin düzgün olub-olmamasında şəkk etsə, yəni yerinə yetirdiyi hissənin səhih olduğunu, yoxsa səhih olmadığını bilməsə bu halda şəkkinə etina etmir. Yəni o hissənin səhih olduğunu əsas tutur və namazı davam etdirir, namazı da səhihdir.

**2-Rəkətlərin sayında şəkk:*[2]**

1-Əgər sübh namazı kimi iki rəkətli, yaxud məğrib namazı kimi üç rəkətli namazın rəkətlərin sayında şəkk edirsə, batildir;

2-Əgər bir, yaxud daha artıq rəkətdə şəkk etsə namazı batildir;

3-Əgər namaz əsnasında neçə rəkət qıldığını bilməsə namazı batildir;

*** Etina olunmamalı şəkklər:[3]**

1-Müstəhəbb namazlar;

2-Camaat namazında (bunun izahı gələcəkdir);

3-Namazın salamından sonra; əgər namaz qurtardıqdan sonra rəkətlərin, yaxud hissələrin barəsində şəkk yaransa, namazı yenidən qılmaq lazım deyil;

4-Namazın vaxtı keçəndən sonra; əgər namazın vaxtı keçəndən sonra namazı qılıb-qılmaması barədə şəkk etsə, onu qılmaq lazım deyil;

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.98, 99 və 200*

[2] *Namazın rəkətlərinin sayında başqa hallar da vardır, amma bu kimi halların irəli gəlməsi çox az olduğundan onları qeyd etmirik. Bu məsələ ilə əlaqədar "Tovzihul-məsail" risaləsinin 1165-1200-cü məsələlərinə müraciət edə bilərsiniz.*

[3] *"Tovzihul-məsail", səh.168*

## *4 RƏKƏTLİ NAMAZLARIN RƏKƏTLƏRİ SAYINDAKI ŞƏKK*[1]

| *Şəkk* | *Qiyam halında* | *Rukuda* | *Rukudan sonra* | *Səcdədə* | *Səcdələrdən sonra, oturan halda* | *Namaz səhih olan hallarda namaz qılanın vəzifəsi* |
|---|---|---|---|---|---|---|
| 2 ilə 3 arasında | batil | batil | batil | batil | səhih | Bənanı üçə qoyub bir rəkət də qılır, namazın salamından sonra ya bir rəkət ayaq üstə, ya da iki rəkət oturan halda ehtiyat namazı qılır. |
| 2 ilə 4 arasında | batil | batil | batil | batil | səhih | Bənanı dördə qoyub namazı tamamlayır, namazdan sonra ayaq üstə iki rəkət ehtiyat namazı qılır. |
| 3 ilə 4 arasında | səhih | səhih | səhih | səhih | səhih | Bənanı dördə qoyub namazı tamamlayır, namazdan sonra ya bir rəkət ayaq üstə, ya da iki rəkət oturan halda ehtiyat namazı qılır. |
| 4 ilə 5 arasında | səhih | batil | batil | batil | səhih | Əgər şəkk qiyam halında irəli gəlibsə, rüku etmədən oturub namazı tamamlayır, bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılır. Əgər şəkk oturan halda qarşıya çıxsa, bənanı dördə qoyub namazı tamamlayır, namazdan sonra bir cüt səcdeyi-səhv edir. |

### *Qeydlər*

1-Namazda qılınan və ya yerinə yetirilən hər şey namazın hissəsidir.

2-Əgər namaz qılan şəxs namazın bir hissəsinin qılıb-qılmadığında şəkk etsə, məsələn ikinci səcdəni yerinə yetirib-yetirmədiyini bilməsə bu halda sonrakı hissəyə daxil olmayıbsa, o hissəni yerinə yetirməlidir. Amma əgər sonrakı hissəyə daxil olubsa öz şəkkinə etina etməməlidir.

***Deməli, əgər oturan halda və təşəhhüdə başlamadığı bir zaman bir səcdə, yoxsa iki səcdə etməsində şəkk etsə, daha bir səcdə etməlidir. Amma təşəhhüd əsnasında, yaxud ayağa qalxdıqdan sonra şəkk etsə, səcdəni etməsi lazım deyil və namazı davam etdirməlidir, namazı da səhihdir.***

3-Namazın hər hansı bir hissəsini yerinə yetirdikdən sonra, məsələn "Həmd"i oxuduqdan, yaxud onun bir kəlməsini dedikdən sonra düzgün yerinə yetirib-yetirmədiyində şəkk etsə öz şəkkinə etina etməməlidir və həmin hissəni yenidən oxuması lazım deyil. Namazı davam etdirməlidir və səhihdir.

4-Rəkətdə şəkk, yəni namaz əsnasında qılınmış rəkətlərin sayında şəkk etsə, məsələn təsbihatı oxuyan zaman üçüncü, yoxsa dördüncü rəkət olduğunu bilməsə.

5-Əgər müstəhəbb namazların rəkətlərinin sayında şəkk etsə, bənanı ikiyə qoyur, çünki vitr namazından başqa bütün müstəhəbb namazlar iki rəkətlidir. Deməli əgər bir ilə iki, yaxud iki ilə ondan artıq rəkətlər arasında şəkk yaransa, bənanı ikiyə qoyur və namazı səhihdir.

6-Camaat namazında əgər imam camaat şəkk etsə, lakin məmum şəkk etməsə və misal üçün "Allahu əkbər" deməklə imamı başa salsa, imam camaat öz şəkkinə etina etməməlidir (həmçinin əgər məmum şəkk etsə, lakin imam şəkkdə olmasa, imam necə namaz qılırsa o da həmin cür qılmalıdır və namazı səhihdir).

7-Əgər namazı batil edən şəkklərdən biri qarşıya çıxsa, bir az fikirləşməlidir: əgər bir şey yadına düşməsə və şəkk olduğu kimi qalsa, namazı pozsun və təkrarən yenidən qılsın.

### *Ehtiyat namazı*

1-Ehtiyat namazı vacib olan hallarda, məsələn üçlə dörd arasındakı şəkkdə namazın salamından sonra onun formasını pozmadan, namazı batil edən bir işləri görmədən ayağa qalxmaq, azan və iqamə demədən təkbir demək və ehtiyat namazı qılmaq lazımdır.

[1] *"Tovzihul-məsail", məsələ:1199; "Ürvətül-vüsqa", 2-ci cild, səh.20, məsələ:3*

### *Ehtiyat namazının sair namazlarla fərqi*

* Onun niyyəti dildə deyilməməlidir;
* Surəsi və qunutu yoxdur (iki rəkətli olsa belə);
* Həmd ahəstə səslə oxunmalıdır (vacib ehtiyata görə);

2-Əgər bir rəkət ehtiyat namazı vacib olsa, səcdələrdən sonra təşəhhüd oxunur və salamlar deyilir. Əgər iki rəkət vacib olsa, birinci rəkətdə təşəhhüd-salam deyilməməli, bir rəkət də (təkbirətul-ehram olmadan) əlavə edilməli və ikinci rəkətin axırında təşəhhüd oxuyub salamları demək lazımdır.[1]

### *Səcdeyi-səhv*

1-Səcdeyi-səhvin vacib olduğu hallarda, məsələn dördlə beş rəkət arasında oturan halda şəkk qarşıya gəldikdə, namazın salamından sonra səcdəyə gedib belə demək lazımdır. *“Bismillahi və billah, əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd”.*

Daha yaxşı olar ki, belə deyilsin: *“Bismillahi və billah, əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh”.* Sonra qalxıb oturmalı, yenidən ikinci dəfə səcdəyə getməli və həmin zikrləri təkrar etməlidir. Daha sonra oturub təşəhhüd və salamı oxumalıdır.[2]

2-Səcdeyi-səhvdə təkbirətul-ehram yoxdur.

[1] *“Tovzihul-məsail”, məsələ:1215 və 1215*
[2] *“Tovzihul-məsail”, məsələ:1250*

# MÜSAFİRİN NAMAZI

İnsan səfərdə dörd rəkətli namazları iki rəkət (şikəstə) qılmalıdır, bu şərtlə ki, onun səfəri təqribən 44 kilometrə qədər olan səkkiz fərsəxdən az olmasın.

### *Bir neçə məsələ*

1-Əgər müsafir namazı tamam olan yerdən – vətəni kimi – aşağısı dörd fərsəx getsə və dörd fərsəx qayıtsa, bu səfərdə namazını şikəstə qılmalıdır.[1]

2-Səfərə gedən şəxs namazlarını o zaman şikəstə qılmalıdır ki, o öz vətənindən oranın divarlarını görməyəcəyi, azan səsini eşitməyəcəyi qədər uzaqlaşsın. Bu miqdar uzaqlaşmadan qabaq namaz qılmaq istəsə, tamam qılmalıdır.[2]

3-Əgər evləri və divarları olmayan bir yerə səfər etmək istəsə, onda o yerlərin divarının olması təqdirində həmin yerdən görünəcək qədər uzaqlaşsa, namazını şikəstə qılmalıdır.

4-Əgər bir yerə, yolunun biri səkkiz fərsəxdən az, digəri isə səkkiz fərsəx, yaxud ondan çox olan iki yolla getsə, onda səkkiz fərsəx getdiyi yolda namazlarını şikəstə qılmalıdır. Amma səkkiz fərsəxdən az olan yolla getsə namazını dörd rəkətli qılmalıdır.[3]

### *Aşağıdakı səfərlərdə namaz tamam qılınmalıdır:*

1-Səkkiz fərsəx getməzdən qabaq öz vətənindən, yaxud on gün qalmaq istədiyi yerdən keçsə.

2-Əvvəldən səkkiz fərsəxlik səfərə getmək qəsdi olmasa və bu məqsəd olmadan bu məsafəni ötsə; məsələn itirdiyini axtaran şəxs kimi.

3-Yol əsnasında səfər məqsədindən dönsə, yəni dörd fərsəx məsafəyə çatmazdan qabaq qalan yolu getmək fikrindən dönsə.

4-İşi-peşəsi səfər olan şəxs. Məsələn qatar sürücüləri, şəhər kənarında olan maşın sürücüləri, təyyarəçilər və matroslar (onun peşəsi olan səfərlərdə).

5-Haram səfərə gedən şəxs; məsələn ata-ananın əziyyətə düşməsinə səbəb olan səfərlər.[4]

### *Aşağıdakı yerlərdə namaz tamam qılınır:*

1-Vətəndə;

2-On gün qalacağını bildiyi, yaxud qalmağa bəna qoyduğu yerdə;

3-Tərəddüdlə otuz gün qalmış olduğu yerdə; yəni bu müddət ərzində qalması və ya getməsi məlum olmayan və otuz gün ərzində də həmin halda qalan şəxs heç bir yerə getməzsə, bu halda otuz gündən sonra namazı tamam qılmalıdır.[5]

## *Vətən haradır?*

1-Vətən o yerdir (şəhər, yaxud kənd) ki, insan oranı öz iqamətgahı və yaşayışı üçün seçmiş olsun. İstər orada dünyaya gəlmiş olsun və ata-anasının vətəni olsun, istərsə də özü oranı yaşayış üçün seçmiş olsun.

2-İnsanın öz əsl vətənindən başqa yerdə həmişəlik qalmaq məqsədi olmayınca ora onun vətəni hesab olunmaz.[6]

3-Əgər özünün əsl vətəni olmayan bir yerdə bir müddət qalıb, daha sonra başqa yerə getmək istəsə, həmin yer onun vətəni hesab olunmaz. Məsələn təhsil müddətində bir şəhərdə qalan tələbələr kimi.[7]

4-Əgər bir şəxs bir yerdə həmişəlik qalmaq niyyəti olmadan camaatın onu həmin yerin əhalisindən hesab edəcəkləri qədər qalsa, həmin yer onun vətəni hökmünə malik olur.[8]

5-Əgər əvvəllər onun vətəni olan, amma hal-hazırda orada yaşamaq fikrindən döndüyü bir yerə

---

[1] *"Tovzihul-məsail", məsələ:1272 və 1273*

[2] *"Tovzihul-məsail", müsafirin namazı, 8-ci şərt*

[3] *"Tovzihul-məsail", məsələ:1279*

[4] *"Tovzihul-məsail", müsafirin namazı*

[5] *"Tovzihul-məsail", 4-cü şərt və məsələ:1328-1335-1353*

[6] *"Tovzihul-məsail", məsələ:1331*

[7] *"Tovzihul-məsail", məsələ:1330*

[8] *"Tovzihul-məsail", məsələ:1331*

getsə, hətta əgər özü üçün başqa bir vətən də seçməmiş olsa, namazını bütöv qılmamalıdır..[1]

6-Vətəninə qayıdan müsafir, vətəninin divarını gördükdə, azanın səsini eşitdikdə namazını bütöv qılmalıdır.[2]

## *On gün qalma niyyəti*

1-Bir yerdə on gün qalmaq niyyətində olan müsafir əgər orada on gündən artıq qalsa, səfər etmədiyi vaxta qədər namazını bütöv qılmalıdır, yenidən on gün qalmaq niyyəti etməsi lazım deyil.[3]

2-Əgər müsafir on gün qalmaq fikrindən dönsə:

a) Dörd rəkətlik namaz qılmadıqdan qabaq öz fikrindən dönür: **Namazı şikəstə qılmalıdır.**

b) Dörd rəkətlik bir namaz qıldıqdan sonra öz niyyətindən dönür: **Orada olduğu müddətə qədər namazlarını bütöv qılmalıdır.**[4]

### *Namazını bütöv qılmalı olan müsafirlər:*

a) Əgər namazı şikəstə qılacağını bilmirdisə: Qıldığı namazlar səhihdir.[5]

b) Səfər hökmünü bilirdi, lakin onun bəzi incəliklərini bilmirdi, yaxud müsafir olduğunu bilmirdisə: Qıldığı namazları yenidən qılmalıdır.[6]

### *Namazını şikəstə qılan qeyri-müsafir*

Namazını bütöv qılmalı olan şəxs şikəstə qılarsa, hər halda namazı batildir.[7]

---

[1] *"Tovzihul-məsail", məsələ:1334*
[2] *"Tovzihul-məsail", məsələ:1319*
[3] *"Tovzihul-məsail", 1347*
[4] *"Tovzihul-məsail", məsələ:1342*
[5] *"Tovzihul-məsail", məsələ:1359*
[6] *"Tovzihul-məsail", məsələ:1360-1361-1362*
[7] *"Tovzihul-məsail", məsələ:1363*

# QƏZA NAMAZI

İnsan vacib namazlarını onun öz vaxtında qılmalıdır, əgər üzürsüz səbəblərə görə onun namazı qəzaya getsə günahkardır, tövbə edib onun qəzasını yerinə yetirməlidir.

*1-İki halda namazın qəzasını qılmaq vacibdir:*

a) Vacib namazı onun öz vaxtında qılmamışsa;

b) Vaxt keçdikdən sonra qıldığı namazın batil olduğunu bilsə;[1]

2-Qəza namazı olan bir şəxs onu qılmaqda səhlənkarlıq etməməlidir, amma dərhal yerinə yetirməsi də vacib deyil.[2]

3-İnsanın qəza namazları ilə əlaqədar müxtəlif vəziyyətləri:

* Qəza namazı olmadığını bilir: Heç bir şey ona vacib deyil.
* Qəza namazı olub-olmamasında şəkk edirsə: Heç bir şey ona vacib deyil.
* Qəza namazı olmasına ehtimal verir: Müstəhəbdir ki, ehtiyatən onun qəzasını yerinə yetirsin.
* Qəza namazı olduğunu bilir, lakin onların sayını bilmir, məsələn dörd dənə, yoxsa beş dənə olduğunu bilmir: Az qədəri qılsa kifayətdir.
* Əgər onların sayını bilirsə, lakin unutmuşsa: Az miqdarı qılsa kifayət edər.
* Onların sayını bilir: Qəzalarını yerinə yetirməlidir.[3]

4-Gündəlik namazların qəzalarının tərtiblə qılınması vacib deyildir, məsələn bir şəxs bir gündə əsr namazını, sonrakı gündə isə zöhr namazını qılmamış olsa, əvvəlcə əsr, sonra zöhr namazını qəza etməsi vacib deyil.[4]

5-Qəza namazını camaatla qılmaq olar, istər imam camaatın namazı əda olsun, istərsə də qəza, hər ikisinin də eyni namaz qılması vacib deyil. Məslən əgər sübh namazının qəzasını imam camaatın zöhr, yaxud əsr namazı ilə qılsa işkalı yoxdur.[5]

6-Əgər namazını şikəstə qılmalı olan müsafirin zöhr, əsr, ya işa namazı qəzaya getsə, onu iki rəkətli qılmalıdır, hətta onu səfərdən başqa vaxtlarda da yerinə yetirməli olsa belə.[6]

7-Səfərdə oruc tutmaq olmaz, hətta qəza orucunu belə, lakin qəza namazını səfərdə qılmaq olar.[7]

Əgər bir kəs səfərdən başqa hallarda qəzaya gedən namazları səfərdə qılmaq istəsə zöhr, əsr və işa namazlarını dörd rəkətli qəza etməlidir.[8]

9-Qəza namazını hər bir vaxtda qılmaq olar, yəni sübh namazının qəzasını zöhr və yaxud gecə qılmaq olar.[9]

### *Atanın qəza namazı*

1-İnsan diri olduğu vaxta qədər, hətta öz namazını qılmağa qadir olmasa belə başqası onun namazını qəza edə bilməz.[10]

2-Atanın vəfatından sonra[11] onun yerinə yetirmədiyi namaz və orucların qəzası onun böyük oğluna vacibdir və müstəhəbb ehtiyat odur ki, anasının qəzaya getmiş namaz oruclarını da qəza etsin.

3-Böyük oğulun atanın[12] qəza namazları ilə əlaqədar müxtəlif vəziyyətləri:

a) Atanın qəza namazı olduğunu bilir və:

---

[1] *"Tovzihul-məsail", məsələ:1370-1371*

[2] *"Tovzihul-məsail", məsələ:1372*

[3] *"Tovzihul-məsail", məsələ:1374 və 1383*

[4] *"Tovzihul-məsail", məsələ:1375*

[5] *"Tovzihul-məsail", məsələ:1388*

[6] *"Tovzihul-məsail", məsələ:1368*

[7] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.224, məsələ:5, "Ürvətul-vusqa", 1-ci cild, səh.734, məsələ:10*

[8] *"Tovzihul-məsail", məsələ:1368*

[9] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.293, məsələ:11, "Ürvətul-vusqa", 1-ci cild, səh.734, məsələ:10*

[10] *"Tovzihul-məsail", məsələ:1387*

[11] ** Ayətullah Xamenei:* ***Yaxud ananın vəfatından sonra.***
*"Tovzihul-məsail", məsələ:1390*

[12] *Ayətullah Xamenei:* ***Yaxud ananın.***

* Onun sayını da bilir: Onu qəza etməlidir.
* Onların sayını bilmir: Əgər az miqdarı yerinə yetirsə kifayətdir.
* Özünün yerinə yetirib-yetirmədiyində şəkk etsə: Ehtiyat-vacibə görə qəza etməlidir.[1]

b) Atasının qəza namazı olub-olmamasında şəkk edirsə: Ona heç bir şey vacib deyil.[2]

4-Əgər oğul ata-anasının qəza namazlarını qılmaq istəsə, namazın qaydasına əməl etməlidir. Məsələn sübh, məğrib və işa namazlarını uca səslə qılmalıdır.[3]

5-Əgər böyük oğul atasının oruc və namazlarını qəza etməmişdən əvvəl dünyadan getsə, ikinci oğul heç bir şey vacib deyil.[4]

---

[1] *"Tovzihul-məsail", məsələ:1390-1392*
[2] *"Tovzihul-məsail", məsələ:1391*
[3] *"Tovzihul-məsail", məsələ:1395*
[4] *"Tovzihul-məsail", məsələ:1398*

# CAMAAT NAMAZI

İslam ümmətinin vəhdəti islam dinin ciddi əhəmiyyət verdiyi məsələlərdən biridir. Onun qorunub davam etməsi üçün xüsusi proqramlar tökmüşdür. Onlardan biri də camaat namazıdır.

Camaat namazında xüsusi şərtlərə malik olanlardan biri camaatın qabağında dayanır, başqaları isə münəzzəm cərgələrlə onun arxasında dayanıb onunla həmahəng surətdə namaz qılır.

Bu dəstənin əvvəlində dayanana **imam camaat**, onun ardında dayanıb namaz qılanlara isə **məmum** deyilir.

### *Camaat namazının əhəmiyyəti*

Rəvayətlərdə camaat namazının çoxlu savab və mükafatı qeyd olunur, əhkam məsələlərinin bəzilərinə diqqət yetirməklə bu ibadətin əhəmiyyətini başa düşürük. Burada onların bəzilərini qeyd edirik:

1-Camaat namazında iştirak etmək hər kəs, xüsusilə məscidə qonşu olanlar üçün müstəhəbdir.[1]

2-Müstəhəbdir ki, insan namazı camaatla qılmaq üçün gözləsin.

3-Camaat namazı əvvəl vaxtda qılınmasa belə, əvvəl vaxtda qılınan fürada namazdan daha yaxşıdır.[2]

4-Qısa və müxtəsər şəkildə qılınan camaat namazı uzun-uzadı qılınan fürada namazdan daha yaxşıdır.[3]

5-İnsanın heç bir üzrü olmadan camaat namazını tərk etməsi layiq deyildir.

6-Etinasızlıq üzündən camaat namazında iştirak etməmək caiz deyildir.[4]

### *Camaat namazının şərtləri*

Camaat namazı bərqərar olunan zaman aşağıdakı şərtlərə riayət edilməlidir:

1-Məmum imamdan qabaq dayanmamalıdır və ehtiyat vacib budur ki, bir qədər arxada dayansın.

2-İmamın dayandığı yer, məmumların dayandığı yerdən uca olmamalıdır.

3-İmam ilə məmumun arasındakı fasilə, eləcə də cərgələrin arasındakı fasilə çox olmamalıdır.

4-İmamla məmumun, eləcə də cərgələrin arasında divar, pərdə və hasar kimi şeylər maneə olmamalıdır. Amma qadınlarla kişilərin arasında pərdə asılmasının eybi yoxdur.[5]

**İmam camaat həddi-büluğa çatmış, adil olmalı və namazı düzgün qıla bilməlidir.**[6]

### *Camaat namazına qoşulmaq (iqtida etmək)*

Hər rəkətdə yalnız qiraətlə ruku arasında imama iqtida etmək olar. Deməli əgər bir kəs imam camaatın rukusuna çatmasa, sonrakı rəkətdə iqtida etməlidir. Əgər imamın yalnız rukusuna da çatsa, bir rəkət hesab olunur.

### *Camaat namazına qoşulmağın müxtəlif vəziyyətləri*

**Birinci rəkətdə**

**1-Qiraət əsnasında: Məmum Həmd və surəni oxumur, sair əməlləri imam camaatla birlikdə yerinə yetirir.**

**2-Rukuda:** rukunu və sair əməlləri imam camaatla birlikdə yerinə yetirir.[7]

---

[1] *"Tovzihul-məsail", məsələ:1399*

[2] *Təklikdə qılınan və camaatla qılınmayan namaza furada namazı deyilir.*

[3] *"Tovzihul-məsail", məsələ:1402*

[4] *"Tovzihul-məsail", məsələ:1401*

[5] *"Ürvətul-vusqa", 1-ci cild, səh.7*

[6] *"Tovzihul-məsail", məsələ:1453*

[7] *"Tovzihul-məsail", məsələ:1427*

## İkinci rəkətdə

**1-Qiraət əsnasında:** Məmum Həmd və surəni oxumur, o, imamla birlikdə qunutu, rukunu və səcdəni yerinə yetirməlidir. İmam camaat təşəhhüd deyən zaman ehtiyat vacibə görə yarı qalxmış vəziyyətdə oturmalıdır. Əgər namaz iki rəkətlidirsə, digər bir rəkəti təklikdə qılmalı, namazı tamamlamalıdır. Əgər namaz üç, ya dörd rəkətlidirsə, ikinci rəkətdə (bu imam camaatın üçüncü rəkətidir) Həmd-surəni oxuyacaq (imam camaat hətta təsbihatı oxusa belə) və imam camaat üçüncü rəkəti qurtarıb dördüncü rəkət üçün qalxmaq istədikdə məmum iki səcdədən sonra təşəhhüd oxuyub sonra qalxmalı, üçüncü rəkətin qiraətini oxumalı və namazın axrıncı rəkətində – imam camaatın təşəhhüd və salamla namazı qurtardığı vaxt bir rəkət də əlavə etməlidir.[1]

**2-Rukuda:** Rukunu imam camaatla birlikdə, sair əməlləri isə qeyd olunduğu kimi yerinə yetirir.

## Üçüncü rəkətdə

**1-Qiraət əsnasında:** Bildiyiniz kimi əgər insan iqtida etsə Həmd-surə, yaxud təkcə Həmdi oxumaq qədər vaxt varsa iqtida etməlidir, bu zaman Həmdi və surəni, yaxud təklikdə Həmdi oxumalıdır. Əgər vaxt olmadığını bilirsə ehtiyat vacibə görə gözləməli, imam rukuya getdikdən sonra iqtida eləməlidir.

**2-Rukuda:** Əgər rukuda iqtida edərsə, onu imamla birlikdə yerinə yetirir, o rəkət üçün Həmd surə saqit olur. Namazın sair əməllərini əvvəldə qeyd olunduğu kimi yerinə yetirir.[2]

## Dördüncü rəkətdə

**1-Qiraət əsnasında:** Üçüncü rəkətdə iqtida etməyin hökmünə malikdir. İmam camaat namazın axırıncı rəkətində təşəhhüd və salam üçün oturduğu zaman məmun həm qalxaraq namazı təklikdə qıla bilər, həm də yarı oturan vəziyyətdə qalxaraq imam camaatın təşəhhüd salamını gözləyər və daha sonra ayağa qalxa bilər.

**2-Rukuda:** Rukunu və səcdələri imamla qılır (imam camaatın dördüncü rəkəti və məmumun birinci rəkətidir) namazın sair əməllərini qeyd olunduğu kimi yerinə yetirir.[3]

---

[1] *"Tovzihul-məsail", məsələ:1439-1440*

[2] *"Tovzihul-məsail", məsələ:1442-1443, "Təhrirul-vəsilə", 1-ci cild, səh.271-272, məsələ:5*

[3] *Yenə orada*

# CAMAAT NAMAZININ HÖKMLƏRİ

1-Əgər imam camaat gündəlik namazlardan birini qılırsa, gündəlik namazlardan hər birini ona iqtida edərək qılmaq olar. Deməli əgər imam əsr namazını qılırsa məmum zöhr namazını ona iqtida edə bilər, yaxud əgər məmum zöhr namazını qıldıqdan sonra camaat namazı bərqərar olsa, əsr namazını imamın zöhr namazına iqtida edə bilər.[1]

2-Məmum özünün qəza namazlarını imamın əda namazına iqtida edə bilər. Hətta əgər gündəlik namazlardan başqasının qəzası olsa belə. Məsələn imam camaat zöhr namazını qılırsa, o sübh namazının qəzasını iqtida edə bilər.[2]

3-Camaat namazı aşağısı iki nəfərin vasitəsilə bərqərar olur: biri imam, digəri isə məmum. Amma cümə, qurban və fitr bayramları namazı bundan istisna olunur.[3]

4-Yağış istənilməsi üçün olan **istisqa** namazından başqa heç bir müstəhəbb namazını camaat namazı şəklində qılmaq olmaz.[4]

## *Camaat namazında məmumun vəzifəsi*

1-Məmum təkbirətul-ehramı imamdan qabaq deməməlidir, hətta ehtiyat vacibə görə imamın təkbiri tamam olmamış təkbir deməməlidir.[5]

2-Məmum Həmd və surədən başqa namazın hər bir şeyini özü oxumalıdır, amma əgər onun birinci, yaxud ikinci rəkəti imamın üçüncü və ya dördüncü rəkəti ilə eyni olsa, Həmd və surəni oxumalıdır.[6]

**Camaat namazında məmumun imama necə tabe olması:**

a) Oxumalılarda: məsələn Həmd-surədə, zikr və təşəhhüddə imamdan qabağa keçmək və ya arxada qalmağın eybi yoxdur, yalnız təkbirətul-ehram istisnadır.

b) Əməllərdə, o cümlədən ruku kimi. Rukudan və səcdədən qalxmaqda imamdan qabağa keçmək caiz deyildir, yəni imamdan əvvəl rukuya getmək və ya qalxmaq, səcdəyə getmək və ya qalxmaq caiz deyildir. Amma çox olmadığı təqdirdə geri qalmağın işkalı yoxdur.[7]

***Bir məsələ:***

Əgər imam camaat rukuda olan zaman iqtida eləsə, aşağıdakı hallardan bir neçəsi mümkündür:

- İmam camaatın rukusunun zikri tamam olduqdan sonra rukuya getsə: onun camaat namazı səhihdir.
- Ruku həddinə çatan zaman imamın rukusunun zikri tamam olur, lakin hələ rukudadır: namazı camaatla səhihdir.
- Rukuya gedir, lakin imamın rukusuna da çatmır: namazı fürada şəkildə səhihdir və onu tamamlamalıdır.

---

[1] *"Tovzihul-məsail", məsələ:1408*

[2] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.265, məsələ:1, "Ürvətul-vusqa", 1-ci cild, səh.765, məsələ:3*

[3] *Ürvətul-vusqa, 1-ci cild, səh.766, məsələ:8*

[4] *"Ürvətul-vusqa", 1-ci cild, səh.764, məsələ:2*

[5] *"Tovzihul-məsail", məsələ:1967*

[6] *"Tovzihul-məsail", məsələ:1461*

[7] *"Tovzihul-məsail", məsələ:1467-1469-1470, "Ürvətul-vusqa", 1-ci cild, səh.785*

**Əgər məmum səhvən imamdan əvvəl**

- 1-Rukuya getsə[1] ⇨ Qalxıb yenidən imamla birlikdə rukuya getsin.
- 2-Rukudan qalxarsa[2] ⇨ Rukuya qayıtmalı, imamla birlikdə qalxmalıdır. Bu halda rükn olan rukunun artıqlığı səbəbi ilə namaz batil olmur.
- 3-Səcdəyə getsə[*****] ⇨ Başını səcdədən qaldırsın və imamla səcdəyə getsin.
- 4-Səcdədən qalxarsa ⇨ yenidən səcdəyə qayıtmalıdır.[4]

***CAMAAT NAMAZININ MÜSTƏHƏBB VƏ MƏKRUH ƏMƏLLƏRİNDƏN BƏZİLƏRİ***

1-İmam camaatın cərgələrin ortasında dayanması, həmçinin elm, kamal, təqva əhlinin birinci cərgədə dayanmaları müstəhəbdir.

2-Camaat namazının cərgələrinin münəzzəm olması, bir cərgədə dayananların arasından fasilə düşməməsi müstəhəbdir.

3- Cərgələrdə yer olduğu surətdə insanın təklikdə dayanması məkruhdur.

4-Məmumun namazının zikrlərini imamın eşidəcəyi təqdirdə qılması məkruhdur.[1]

[1] *"Tovzihul-məsail", məsələ:197-198*

# CÜMƏ NAMAZI
# BAYRAM NAMAZI

Müsəlmanların həftəlik yığıncaqlarından biri cümə namazıdır. Namaz qılanlar cümə günündə zöhr namazının yerinə cümə namazı qıla bilərlər.[1]

### Cümə namazının əhəmiyyəti

Mərhum imam Xomeyni cümə namazının əhəmiyyəti barəsində belə yazır: «Cümə namazı və onun iki xütbəsi həcc, qurban və fitr bayramları namazı kimi müsəlmanların böyük mərasimlərindəndir, lakin çox təəssüflə, müsəlmanlar bu ibadətin mühüm siyasi vəzifələrindən qafildirlər, halbuki insan İslamın siyasi, ictimai və iqtisadi məsələlərinə azacıq diqqət yetirməklə anlayır ki, İslam siyasət dinidir və dini siyasətdən ayrı hesab edənlər nə İslamı, nə də siyasəti başa düşməyən nadanlardır».[2]

### Cümə namazının qılınma qaydası

**Vacibləri**

Cümə namazı sübh namazı kimi iki rəkətdir, lakin onun iki xütbəsi vardır ki, imam cümənin vasitəsilə namazdan qabaq söylənilir.

**Müstəhəbləri**

1-Həmd və surənin uca səslə (imam cümənin vasitəsilə) oxunması;
2-Birinci rəkətdə Həmd surəsindən sonra “Cümə” surəsinin oxunması (imam cümə tərəfindən);
3-İkinci rəkətdə Həmddən sonra “Münafiqun” surəsini oxumaq (imam cümənin vasitəsilə);
4-İki qunut tutma: biri birinci rəkətdə rukudan əvvəl, digəri isə ikinci rəkətdə rukudan sonra.[3]

### Cümə namazının şərtləri

1-Camaat namazında riayət olunmalı şərtlərin hamısı cümə namazında da şərtdir.
2-Cümə namazı camaat şəklində qılınmalıdır və fürada səhih deyildir.
3-Cümə namazının təşkil olunması üçün lazım olan ən aşağı say beş nəfərdir: biri imam, dördü isə məmum.
4-İki cümə namazı qılınan yer arasında ən aşağısı bir fərsəx fasilə olmalıdır.[4]

### Xütbələri oxuyarkən imam cümənin vəzifələri

1-Allaha Həmd səna etmək;
2-Peyğəmbəri Əkrəm (s)-ə və müsəlmanların imamlarına salavat göndərmək;
3-İnsanları Allah qarşısında təqvalı olmağa, günahlardan çəkinməyə tövsiyə etmək;
4-Quranın kiçik surələrindən birini oxumaq;
5-Allahdan mömin kişi və qadınlar üçün bağışlanmaq diləmək.
Yaxşı olar ki, aşağıdakı mətləbləri də bəyan etsin:
1-Müsəlmanların dünya və axirət həyatında ehtiyac olduğu şeyləri;
2-Camaatı dünyada baş verən, müsəlmanların xeyrinə və ya zərərinə olan işlərdən agah etmək;
3-Müsəlmanların istiqlaliyyət və azadlığı yolunda rol oynayan iqtisadi və siyasi məsələləri, eləcə də onların sair millətlərlə davranış tərzi;
4-Müsəlmanları, zalım və istismarçı dövlətlərin onların iqtisadi və siyasi işlərinə dəxalətindən agah etmək.[5]

---

[1] *“Təhrirul-vəsilə”, 1-ci cild, səh.231, məsələ:1*
[2] *“Təhrirul-vəsilə”, 1-ci cild, səh.234, məsələ:9*
[3] *“Təhrirul-vəsilə”, 1-ci cild, səh.232*
[4] *“Təhrirul-vəsilə”, 1-ci cild, səh.231*
[5] *“Təhrirul-vəsilə”, 1-ci cild, səh.233-234*

***Cümə namazı qılanların vəzifəsi***

1-Vacib ehtiyata əsasən xütbələrə qulaq asmalıdır;

2-Müstəhəbb ehtiyata görə danışmaqdan çəkinməlidir, əgər danışmaları xütbələrin faydasının aradan getməsinə və ya onların qulaq asmamasına səbəb olarsa tərk olunması vacibdir.

3-Ehtiyat müstəhəbb budur ki, xütbə deyilən zaman dinləyicilər üzlərini imam cüməyə tərəf tutub otursunlar, namazda icazə verilən miqdardan artıq o tərəfə bu tərəfə baxmasınlar.[1]

# Bayram namazı

«Qurban» və «Fitr» bayramlarına məxsus namazları qılmaq müstəhəbdir.

***BAYRAM namazının vaxtı***

1-Bayram namazının vaxtı günəş çıxandan zöhrə qədərdir.[2]

2-Müstəhəbdir ki, Qurban bayramı namazını gün qalxandan sonra qılsınlar.

3-Müstəhəbdir ki, Fitr bayramında gün qalxandan sonra iftar edib, fitrə zəkatını versinlər, sonra namaz qılsınlar.[3]

***Bayram namazının qılınma qaydası***

Qurban və Fitr bayram namazı iki rəkətdir və doqquz qunutu vardır, aşağıdakı şəkildə qılınır:

* **Birinci rəkətdə** Həmd və surədən sonra beş təkbir demək, hər təkbirdən sonra bir qunut tutmaq və beşinci qunutdan sonra digər bir təkbir deyib ruku və səcdəni yerinə yetirmək lazımdır.

* **İkinci rəkətdə** Həmd və surədən sonra dörd təkbir deyib hər təkbirdən sonra bir qunut tutmaq, dördüncü qunutdan sonra digər bir təkbir deyərək ruku, səcdə, təşəhhüd və salamı deyərək namazı sona çatdırmaq lazımdır.

* Bayram namazının qunutunda hər dua və zikr oxunsa kifayətdir, lakin yaxşı olar ki, savab ümidi ilə aşağıdakı dua oxunsun:

*“Allahummə əhləl-kibriyai vəl-əzəməti və əhləl-cudi vəl-cəbərut. Və əhləl-əfvi vər-rəhməti və əhlət-təqva vəl-məğfirəti əsələkə bi həqqi hazəl-yovm. Əlləzi cəəltəhu lil-muslиminə iyda. Və li Muhəmmədin səlləllahu ələyhi və alihi zuxrən və şərəfən və kəramətən və məzida. Ən tusəlliyə əla Muhəmmədin və Ali-Muhəmməd və ən tudxiləni fi kulli xəyrin ədxəltə fihi Muhəmmədən və Alə Muhəmməd. Və ən tuxricəni min kulli suin əxrəctə minhu Muhəmmədən və Alə Muhəmməd. Sələvatukə ələyhi və ələyhim. Allahummə inni əsələkə xəyrə ma səələkə bihi ibadukəs-salihun, və əuzu bikə mimməstəazə minhu ibadukəl-muxləsun.”*

[1] “Təhrirul-vəsilə”, 1-ci cild, səh.235, məsələ:14

[2] “Tovzihul-məsail”, məsələ:1517

[3] “Tovzihul-məsail”, məsələ:1518

# AYƏT NAMAZI, MÜSTƏHƏBB NAMAZLAR

Vacib namazlardan biri də ayət namazıdır, o, asiman və yerdə baş verən bəzi hadisələr zamanı vacib olur. Məsələn:

* Zəlzələ;
* Ayın tutulması;
* Günün tutulması;
* İldırım, şimşək, qara-qırmızı yellər və sair, belə ki, camaatın əksəriyyəti qorxsun.[1]

### Ayət namazının qılınma qaydası

1-Ayət namazı iki rəkətdir və hər rəkətində beş ruku vardır.

2-Ayət namazında hər rukudan əvvəl Həmd və Quranın digər bir surəsi oxunur. Bu halda iki rəkətin məcmusunda on Həmd və on surə oxunur. Lakin bir surəni beş yerə bölərək hər rukudan qabaq onun bir hissəsini oxumaq da olar. Bu halda iki rəkətdə iki Həmd və iki surə olacaqdır.

Burada ayət namazında İxlas surəsinin necə bölüşdürülməsini bəyan edirik:

*** Birinci rəkət**

| | |
|---|---|
| Həmd və Bismillahir-rəhmanir-rəhim: | ruku |
| Qul huvəllahu əhəd: | ruku |
| Əllahus-səməd: | ruku |
| Ləm yəlid vələm yuləd: | ruku |
| Vələm yəkun ləhu kufuvən əhəd: | ruku |

Sonra səcdə edilir və ikinci rəkət üçün ayağa qalxılır.

*** İkinci rəkət**

İkinci rəkət də eynilə birinci rəkət kimi qılınır, daha sonra təşəhhüd və salam deməklə namaz sona yetirilir.[2]

### Ayət namazının hökmləri

1-Əgər ayət namazına səbəb olan səbəblərdən biri bir şəhərdə baş verərsə, yalnız həmin şəhərin camaatı ayət namazı qılmalıdır və sair yerlərdə olanlara vacib deyildir.[3]

2-Əgər ayət namazının bir rəkətində beş dəfə həmd və surə oxunsa, digər rəkətində isə bir Həmd oxunub, surəni beş yerə bölsələr namaz düzgündür.[4]

3-Müstəhəbdir ki, ikinci, dördüncü, altıncı, səkkizinci, onuncu rukulardan sonra qunut oxunsun. Əgər onuncu rükudan qabaq bir qunut oxunsa da kifayətdir.[5]

4-Ayət namazının rukularından hər biri rükndür. Belə ki, səhvən və ya qəsdən artırılıb-azaldılsa namaz batildir.[6]

5-Ayət namazını camaatla qılmaq olar. Bu halda həmd və surələri yalnız imam camaat oxuyacaqdır.[7]

### Müstəhəbb namazlar

1-Müstəhəbb namazlara **nafilə** deyilir.

2-Müstəhəbb namazlar çoxdur və onların hamısının qeyd olunması bu kitaba sığmaz. Lakin çox əhəmiyyət kəsb etdiyinə görə onlardan bəzilərini qeyd edirik.[8]

---

[1] *"Tovzihul-məsail", məsələ:1491*
[2] *"Tovzihul-məsail", məsələ:1508*
[3] *"Tovzihul-məsail", məsələ:1494*
[4] *"Tovzihul-məsail", məsələ:1509*
[5] *"Tovzihul-məsail", məsələ:1512*
[6] *"Tovzihul-məsail", məsələ:1515*
[7] *"Ürvətul-vusqa", 1-ci cild, səh.730, məsələ:13*
[8] *"Tovzihul-məsail", məsələ:764*

### *Gecə namazı*

Gecə namazı on bir rəkətdir və aşağıdakı ardıcıllıqla qılınır:
İki rəkət: Gecə nafiləsi niyyəti ilə
İki rəkət: Gecə nafiləsi niyyəti ilə
İki rəkət: Gecə nafiləsi niyyəti ilə
İki rəkət: Gecə nafiləsi niyyəti ilə
İki rəkət: Şəf nafiləsi niyyəti ilə
Bir rəkət: Vətr nafiləsi niyyəti ilə[1]

**Gecə namazının vaxtı**

1-Gecə namazının vaxtı gecə yarısından sübh azanına qədərdir və yaxşı olar ki, sübh azanına yaxın vaxtlarda qılınsın.[2]

2-Müsafir və gecə namazını gecə yarısından sonra qılmağı çətin olan şəxs onu gecənin əvvəlində qıla bilər.[3]

### *Gündəlik namazların nafilələri*

Gecə-gündüz ərzində qılınan on yeddi rəkət namazın iyirmi üç rəkət nafiləsi vardır ki, onları da qılmağın çox savabı vardır. O cümlədən sübh namazının ondan qabaq qılınan iki rəkətdən ibarət nafiləsidir ki, onun çox fəziləti vardır.

### *Ğüfeylə namazı*

Müstəhəbb namazlardan biri də məğrib namazından sonra qılınan **ğüfeylə** namazıdır.

### *Ğüfeylə namazının qılınma qaydası*

Ğüfeylə namazı iki rəkətdir, birinci rəkətində həmddən sonra surənin əvəzinə aşağıdakı ayə oxunur:[4]

*"Və zənnuni iz zəhəbə muğazibən fə zənnə ən lən nəqdirə ələyhi fə nada fizzulumati ən la ilahə illa ənt, subhanəkə inni kuntu minəzzalimin, fəstəcəbna ləhu və nəccəynahu minəl-ğəmm, və kəzalikə nuncil-muminin."*

İkinci rəkətdə isə həmddən sonra surənin yerinə aşağıdakı ayə oxunur:

*"Və indəhu məfatihul-ğəybi la yələmuha illa hu, və yələmu ma fil-bərri vəl-bəhri və ma təsqutu min vərəqətin illa yələmuha, və la həbbətin fi zulumatil-ərzi və la rətbin və la yabisin illa fi kitabin mubin."*

Qunutda isə bu dua oxunur:[5]

*"Allahummə inni əsələkə bi məfatihil-ğəybilləti la yələmuha illa ənt, ən tusəlliyə əla Muhəmmədin və Ali-Muhəmməd, və ən təfələ bi kəza və kəza.[6] Allahummə əntə vəliyyu neməti, vəl-qadiru əla təlibəti, tələmu hacəti, fə əsələkə bi həqqi Muhəmmədin və Ali-Muhəmməd, ələyhi və ələyhimussəlam ləmma qəzəytəha li."*

---

[1] *"Tovzihul-məsail", məsələ:765*
[2] *"Tovzihul-məsail", məsələ:773*
[3] *"Tovzihul-məsail", məsələ:774*
[4] *"Tovzihul-məsail", məsələ:775*
[5] *"Ən təğfirə li zünubi" cümləsinin yerinə başqa hacətləri Allahdan istəmək olar.*
[6] *"Və kəza və kəza" kəlmələrinin yerinə öz istək və hacətlərini Allahdan istəsin.*

**XXXI DƏRS**

# ORUC

## Orucun tərifi

İslamın insanların ruhi-mənəvi təkamülə çatması üçün nəzərdə tutduğu vacib əməllərdən və illik proqramlardan biri də orucdur. Oruc bundan ibarətdir ki, insan sübh azanından məğrib azanına qədər Allahın əmrini yerinə yetirmək üçün şərhi sonradan veriləcək bəzi işlərdən çəkinsin. Orucun hökmləri ilə tanış olmaq üçün onun növlərini bilmək lazımdır:

**Orucun**
- ⇨ Vacib
- ⇨ Haram
- ⇨ Müstəhəbb
- ⇨ Məkruh

## VACİB ORUCLAR

Aşağıdakı oruclar vacibdir:

* Mübarək Ramazan ayının orucu;
* Qəza orucu;
* Kəffarə orucu;
* Nəzir vasitəsilə vacib olan oruc;
* Atanın qəza orucu[1] böyük oğula vacibdir.[2]

## Haram oruclardan bəziləri

* Fitr bayramının (Şəvval ayının birinin) orucu;
* Qurban bayramının orucu (Zil-həccənin onu);
* Ata-anasının əzab-əziyyətə düşməsinə, incimәsinə səbəb olacaq təqdirdə övladın müstəhəb orucu;
* Ata-ananın qadağan etdiyi təqdirdə övladın tutduğu müstəhəbb oruc (ehtiyat-vacibə görə);[3]

## Müstəhəbb oruclar

Haram və məkruh günlərdən başqa ilin bütün günlərində oruc tutmaq müstəhəbdir, lakin bəzi günlərə daha artıq təkid edilmişdir ki, onları aşağıda şərh edirik:

* Hər cümə axşamı və cümə günləri;
* Məbəs günü (Rəbiul-əvvəlin iyirmi yeddisi);
* Qədir-xum bayramı (on səkkizi zil-həccə);
* Peyğəmbər (s)-in milad günü (on yeddisi Rəbiul-əvvəl);
* Ərəfə günü (Zil-həccənin doqquzu); Əgər oruc tutulması o günün dualarının oxunuşuna mane olmazsa.
* Bütün Şəban və Rəcəb ayları;
* Novruz bayramı günü;
* Hər ayın on üç, on dörd, on beşinci günləri.[4]

## Məkruh oruclar

* Qonağın ev sahibinin icazəsi olmadan müstəhəbb oruc tutması;
* Ev sahibinin qadağan etdiyi halda qonağın müstəhəbb oruc tutması;
* Atanın icazəsi olmadan övladın müstəhəbb oruc tutması;
* Aşura gününün orucu;
* Ərəfə günündə insanın duaya getməsinin qarşısını alan oruc;
* Qurban, yoxsa Ərəfə günü olduğunu bilmədiyi günün orucu;[5]

---

[1] *Ayətullah Xamenei:* ***Ata və ananın.***
[2] *"Ürvətul-vusqa", 2-ci cild, səh.206, "Tovzihul-məsail", məsələ:1390*
[3] *"Tovzihul-məsail", məsələ:1739-1742*
[4] *"Tovzihul-məsail", məsələ:1748*
[5] *"Tovzihul-məsail", məsələ:1747*

### *Orucun niyyəti*

1-Oruc ibadətdir və yalnız Allahın fərmanını yerinə yetirmək üçün tutulmalıdır.[1]

2-İnsan Ramazan ayının hər gecəsində sabahın orucu üçün niyyət edə bilər. Yaxşı olar ki, Ramazan ayının birinci gecəsində bütün ayın orucunun niyyətini etsin.[2]

3-Müəyyən olunmuş vacib orucda orucun niyyəti üzürsüz yerə sübh azanından sonraya qədər təxirə salınmamalıdır.[3]

4-Müəyyən vacib orucda hər hansı üzr səbəbinə görə, məsələn unutmaq, yaxud səfərdə olmağa görə oruc niyyəti etməmişsə orucu batil edən bir iş görməmiş olsa zöhrə qədər oruc niyyəti edə bilər.[4]

5-Orucun niyyətini dildən keçirtmək vacib deyildir, əksinə Allahın göstərişlərini yerinə yetirmək məqsədi ilə sübh azanından məğribə qədər orucu batil edən bir iş görməzsə kifayətdir.[5]

## ORUCU BATİL EDƏN ŞEYLƏR - 1

Oruc tutan şəxs, sübh azanından məğrib azanına qədər bəzi işlərdən çəkinməlidir. Əgər onlardan birini görsə oruc batil olur. Bu işlərin məcmusuna orucu batil edənlər deyilir ki, aşağıdakılardır:

* Yemək və içmək;
* Qatı tozu boğaza çatdırmaq;
* Başın hər yerini suya salmaq;
* Qusmaq;
* Cinsi yaxınlıq etmək;
* İstimna etmək;
* Sübh azanına qədər cənabətli qalmaq.[6]

### *Orucu batil edən şeylərin hökmləri*

❖ **Yemək və içmək:**

1-Əgər oruc tutan şəxs qəsdən bir şeyi yesə, yaxud içsə orucu batil olar.[7]

2-Əgər bir şəxs dişinin arasında qalan bir şeyi qəsdən udsa orucu batil olar.[8]

3-Ağız suyunu udmaq, çox olsa belə, orucu batil etmir.[9]

4-Əgər oruc tutan şəxs unutduğuna (oruc olduğunu bilmədiyinə) görə bir şey yesə və yaxud içsə orucu batil olmaz.[10]

5-İnsan zəifliyinə görə orucunu yeyə bilməz, lakin əgər onun zəifliyi adətən dözüləsi olmayan vəziyyətdə olsa oruc yeməyinin işkalı yoxdur.[11]

*** İynə vurdurmaq:**

İynə vurdurmaq, əgər qida maddələri əvəzinə olmazsa, orucu batil etmir, hətta həmin bədən üzvünü keyləşdirsə belə.[12]

❖ **Qəliz tozu boğaza çatdırmaq:**

1-Əgər oruc tutan şəxs qəliz tozu boğaza çatdırsa orucu batil olar, istər un kimi yeməlilərin tozu olsun, istərsə də torpaq kimi yeməli olmayanların.

2-Aşağıdakı hallarda oruc batil olmaz:

---

[1] *"Tovzihul-məsail", məsələ:1550*
[2] *"Tovzihul-məsail", məsələ:1550*
[3] *"Tovzihul-məsail", məsələ:1554-1561*
[4] *"Tovzihul-məsail", məsələ:1554-1561*
[5] *"Tovzihul-məsail", məsələ:1550*
[6] *"Tovzihul-məsail", məsələ:1572*
[7] *"Tovzihul-məsail", məsələ:1573*
[8] *"Tovzihul-məsail", məsələ:1574*
[9] *"Tovzihul-məsail", məsələ:1579*
[10] *"Tovzihul-məsail", məsələ:1575*
[11] *"Tovzihul-məsail", məsələ:1583*
[12] *"Tovzihul-məsail", məsələ:1576*

* Toz qəliz olmasa;
* Boğaza çatmasa (yalnız ağızda yığılsa);
* İxtiyarsız olaraq boğazına çatsa;
* Oruc olmasını unutsa;
* Qəliz tozun boğazına çatıb-çatmamasında şəkk etsə.[1]

❖ **Başın hər yerini suya salmaq:**

1-Əgər oruc tutan şəxs başının hər yerini qəsdən mütləq suya batırsa, orucu batil olur.
2-Aşağıdakı hallarda oruc batil deyil:
* Başını səhvən suya salsa;
* Başının bir hissəsini suyun altına salsa;
* Bir dəfə başının yarısını, digər dəfə başının o biri yarısını suyun altına salsa;
* İxtiyarsız olaraq suya düşsə;
* Başqa bir şəxs onun başını zorla suyun altına salsa;
* Başının hər yerinin suyun altına batıb-batmamasında şəkk etsə.[2]

❖ **Qusmaq:**

1-Əgər oruc tutan şəxs qəsdən qusarsa, hətta xəstəliyinə görə olsa belə orucu batildir.[3]
2-Əgər oruc tutan şəxs oruc olduğunu unudaraq, yaxud ixtiyarsız olaraq qussa orucu batil olmaz.[4]

❖ **İstimna:**

1-Əgər oruc tutan şəxs istimna etsə, yəni özü ilə məninin çölə gəlməsinə səbəb olan bir iş görsə orucu batildir.[5]
2-Əgər məni ixtiyarsız olaraq gəlsə, məsələn yuxuda cünub olsa orucu batil olmaz.[6]

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.286, "Tovzihul-məsail", məsələ:1608-1618*
[2] *"Tovzihul-məsail", məsələ:1609-1910-1913-1615, "Ürvətul-vusqa", 2-ci cild, səh.187, məsələ:48*
[3] *"Tovzihul-məsail", məsələ:1646*
[4] *"Tovzihul-məsail", məsələ:1646*
[5] *"Tovzihul-məsail", məsələ:1588*
[6] *"Tovzihul-məsail", məsələ:1589*

# ORUCU BATİL EDƏN ŞEYLƏR- 2

❖ **Sübh azanına qədər cənabətli qalmaq:**

Əgər cünub şəxs sübh azanına qədər qüsl etməsə, yaxud vəzifəsi təyəmmüm olduğu təqdirdə təyəmmüm etməsə, bəzi hallarda orucu batil olur. O cümlədən:

1-Əgər sübh azanına qədər qəsdən qüsl etməsə, yaxud vəzifəsi təyəmmüm etmək olduğu halda təyəmmüm etməsə:

* Ramazan günlərində və qəza orucunda: **orucu batildir.**

* Qalan günlərdə: **orucu səhihdir.**

2-Əgər qüslu, yaxud təyəmmümü unutsa, bir, yaxud bir neçə gündən sonra yadına düşsə:

* Ramazan ayının günlərində: **o günləri qəza etməlidir.**

* Ramazan ayının qəzasını tutduğu günlərin orucunda: **vacib ehtiyata görə o günləri qəza etməlidir.**

* Ramazan ayından və onun qəzasından başqa oruclarda, məsələn nəzr və kəffarə orucu kimi: **orucu səhihdir**.[1]

3-Əgər oruc tutan şəxs yuxuda cünub olsa, dərhal qüsl etməsi vacib deyildir və orucu səhihdir.[2]

4-Əgər Ramazan ayının gecəsində cünub olan şəxs sübh azanından qabaq qüsl etmək üçün oyanmayacağını bilirsə yatmamalıdır, əgər yatsa və oyanmasa orucu batildir.[3]

### *Oruc tutana məkruh olan işlər*

1-Zəifliyə səbəb olan işlər görmək, məsələn qan vermək;

2-Ətirli gülləri, bitkiləri iyləmək (ətir vurmaq məkruh deyil);

3-Bədənində olan paltarı islatmaq;

4-Yaş çubuqla dişləri qurdalamaq, yaxud misvak vurmaq.[4]

### *Orucun qəza və kəffarəsi*

*** Orucun qəzası**

Əgər bir şəxs orucu vaxtında tutmasa onun qəzasını başqa gündə tutmalıdır. Vaxtı keçəndən sonra yerinə yetirilən oruca qəza orucu deyilir.

*** Orucun kəffarəsi**

Kəffarə – orucu batil etmək üçün təyin olunan cərimədir və aşağıdakılardan ibarətdir:

* Bir qul azad etmək;

* Otuz bir günü ardıcıl tutulmaq şərtilə iki ay oruc tutmaq;

* 60 fəqiri doyuzdurmaq, yaxud onların hər birinə bir müdd təam vermək.

Kəffarə vacib olan bir şəxs bu işlərdən birini görməlidir. Müasir dövrdə fiqhi mənada olan qul tapılmadığından ikinci və ya üçüncü işləri görməlidir. Əgər bunların heç biri müyəssər olmazsa, bacardığı qədər fəqirlərə təam verməlidir. Əgər ümumiyyətlə təam verə bilməsə istiğfar etməlidir.[5]

**Aşağıdakı hallarda orucun qəzası vacibdir, lakin kəffarəsi yoxdur:**

1-Qəsdən qusarsa;

2-Ramazan ayında cənabət qüslnu unudub, cənabət halında bir və ya bir neçə gün oruc tutarsa;

3-Ramazan ayında sübh olub-olmaması barədə axtarış aparmadan orucu batil edən işlərdən görərsə, məsələn su içsə daha sonra sübh olduğu məlum olsa;

4-"Sübh olmayıbdır" deyən bir şəxsin sözünə əsasən orucu batil edən bir iş görə və sonra sübh olması məlum olsa;

* Əgər oruc tutan şəxs Ramazan ayının orucunu tutmasa, yaxud onu qəsdən batil etsə, qəza və kəffarə vacib olar.

---

[1] *"Tovzihul-məsail", məsələ:1622, 1634, 1636*

[2] *"Tovzihul-məsail", məsələ:1632*

[3] *"Tovzihul-məsail", məsələ:1625*

[4] *"Tovzihul-məsail", məsələ:1657*

[5] *"Tovzihul-məsail", məsələ:1660-1661*

# Orucun qəza və kəffarəsinin hökmləri

1-Orucun qəzasını dərhal tutmaq vacib deyil, lakin ehtiyat vacibə görə sonrakı ilin Ramazan ayına qədər tutulmalıdır.[1]

2-Əgər bir neçə Ramazan ayının qəzası olsa, hansını əvvəldə tutsa eybi yoxdur. Lakin əgər axrıncı Ramazan ayının orucunun qəzasının vaxtı azalsa, məsələn axrıncı Ramazan ayından on gün qəzası olsa və Ramazan ayına da on gün qalmış olsa əvvəlcə onun qəzasını tutmalıdır.[2]

3-İnsan kəffarəni yerinə yetirməkdə səhlənkarlıq etməməlidir, amma onu dərhal yerinə yetirməsi vacib deyil.[3]

4-Əgər insana kəffarə vacib olsa və bir neçə il üstündən keçsə və onu yerinə yetirməsə ona heç bir şey əlavə edilmir.[4]

5-Əgər səfər kimi üzürlü səbəblərə görə oruc tutmasa və Ramazan ayından sonra üzrü aradan qalxsa, sonrakı ilin Ramazan ayına qədər onun qəzalarını qəsdən tutmazsa qəzasından əlavə hər gün üçün bir müdd təam da fəqirə verməlidir.[5]

6-Əgər oruc tutan şəxs haram bir işlə, məsələn istimna ilə orucu batil edərsə, ehtiyat vacibə görə cəm kəffarəsi verməlidir. Yəni bir qul azad etməli, iki ay oruc tutmalı və 60 fəqirə təam verməlidir. Əgər hər üçü mümkün olmazsa, mümkün olanını yerinə yetirməlidir.[6]

**Aşağıdakı hallarda nə qəza vacibdir, nə də kəffarə:**

1-Həddi-büluğa çatmamışdan qabaq tutmadığı oruclar;[7]

2-Təzə müsəlman olan şəxsin kafirlik halında tutmadığı oruclar; yəni bir kafir müsəlman olsa keçmişdəki oruclarının qəzası vacib deyildir.[8]

3-Qocalığa görə Ramazan ayında oruc tuta bilməyən Ramazan ayından sonra da onun qəzasını da tuta bilməyən bir şəxsə oruc tutmaq çətindirsə, hər gün üçün bir müdd təam fəqirə verməlidir.[9]

### *Ata-ananın orucunun qəzası*

Atanın vəfatından sonra onların böyük oğlu qəzaya getmiş namaz və oruclarını yerinə yetirməlidir. Ehtiyat müstəhəbb budur ki, ananın da qəza oruc-namazlarını yerinə yetirsin.[10]

### *Müsafirin orucu*

Səfərdə dörd rəkətli namazları iki rəkət qılmalı olan müsafir o səfərdə oruc tutmamalıdır, lakin onun qəzasını sonradan tutmalıdır. Namazını bütöv qılan müsafir, məsələn peşəsi səfər olan şəxs, səfərdə oruc tutmalıdır.[11]

---

[1] *"Ürvətul-vusqa" 2-ci cild, səh.233, məsələ:18, "Təhrirul-vəsilə", 1-ci cild, səh.298, məsələ:1*
[2] *"Tovzihul-məsail", məsələ:1698*
[3] *"Tovzihul-məsail", məsələ:1684*
[4] *"Tovzihul-məsail", məsələ:1685*
[5] *"Tovzihul-məsail", məsələ:1705*
[6] *"Tovzihul-məsail", məsələ:1665*
[7] *"Tovzihul-məsail", məsələ:1694*
[8] *"Tovzihul-məsail", məsələ:1695*
[9] *"Tovzihul-məsail", məsələ:1725-1726*
[10] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.227, məsələ:16, "Tovzihul-məsail", məsələ:1712-1390*
[11] *"Tovzihul-məsail", məsələ:1714*

### *Səfər edən şəxsin orucunun hökmləri*

**Səfərə çıxsa**
- zöhrdən qabaq** ⇨ Tərəxxüs həddinə çatanda öz orucunu batil etməlidir. Əgər o həddə çatmamışdan qabaq batil etsə, ehtiyati-vacibə görə kəffarə vacib olar.
- zöhrdən sonra*** ⇨ Orucunu axıra çatdırmalıdır.

**Səfərdən qayıdarsa**
- zöhrdən qabaq öz vətəninə, yaxud on gün qalmaq istədiyi yerə çatsa
  - – orucu batil edən işlərdən görməyibsə ⇨ O günün orucunu tutmalıdır
  - – orucu batil edən işlərdən görübsə ⇨ O günün orucunu tuta bilməz
- Zöhrdən sonra öz vətəninə çatsa ⇨ O günün orucunu tuta bilməz.

**Diqqət:** Ramazan ayında səfərə getməyin işkalı yoxdur, amma əgər orucdan boyun qaçırmaq üçün olarsa, məkruhdur.[1]

### *FİTRƏ ZƏKATI*

Hər kəs mübarək Ramazan ayı sona çatdıqdan sonra – Fitr bayramı günündə öz malının bir miqdarını fitrə zəkatı adı ilə fəqirə verməlidir.

### *FİTRƏ ZƏKATININ MİQDARI*

Şəxsin özü və onun çörək yeyəni olan şəxslərin hər biri üçün, məsələn, həyat yoldaşı, övlad və s. bir sa (təqribən 3 kilo).[2]

### *FİTRƏ ZƏKATININ NÖVÜ*

Fitrə zəkatı buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı və bu kimi şeylərdən olmalıdır. Həmçinin əgər bunlardan birinin pulunu versə kifayətdir.[3]

[1] *"Tovzihul-məsail", 1715-ci məsələ*
[2] *"Tovzihul-məsail", 1991-ci məsələ*
[3] *Yenə orada*

# XUMS

Müsəlmanların iqtisadi vəzifələrindən biri də xums verməkdir; yəni bəzi hallarda öz malının beşdə birini xüsusi yerlərdə xərclənmək üçün islam hakiminə verməlidir.

## *Yeddi şeyə xums vacibdir*

* İllik xərclərdən artıq qalanlar (kəsb mənfəəti);
* Mədən;
* Xəzinə;
* Müharibə qənimətləri;
* Dənizin dibinə girməklə əldə edilən cəvahirlər;
* Haram mala qarışan halal mal;
* Zimmi kafirin[1] müsəlmandan aldığı torpaq sahəsi;[2]

Xumsun verilməsi də namaz-oruc kimi vacibdir və qeyd olunan yeddi şeyə malik olan ağıllı və həddi-büluğa çatmış bütün şəxslər ona əməl etməlidir.

Hər kəs təklif həddinə çatmaqla eyni zamanda özünün oruc-namazını yerinə yetirmək fikrində olduğu kimi xums və zəkat verməyi və sair vacibləri də əməl etməyin fikrində olmalıdır. Buna görə də şəri məsələləri ehtiyac duyulan qədər öyrənmək və onların nə vaxt vacib olduğunu bilmək lazımdır. Biz bu kitabda xumsun vacib olduğu və cəmiyyət üzvlərinin əksəriyyətinin qarşılaşdığı hallardan birini araşdıracağıq, bu da insanın özünün və ailəsinin illik xərclərindən artıq qalan hissəsinin xumsudur.

Bu məsələnin aydın olması üçün iki sual və onun cavabını qeyd edirik:

1-İllik xərclik dedikdə məqsəd nədir?

2-Bir il qəməri aylarla hesablanmalıdır, yoxsa günəş ili ilə və onun əvvəli hansı vaxtdır?

## *İllik xərclər*

İslam dini insanların kəsb-ticarət və işinə ehtiram qoyur, onların öz ehtiyaclarının təmin olunmasını xums verməkdən irəli salır. Buna əsasən hər kəs il boyunda öz ehtiyaclarını öz qazancından təmin etsə və ilin axırında bir şey artıq qalmasa onun xumsu vacib deyildir. Lakin adi qaydada və ehtiyacları həddində yaşasa, xərclərdə ifrata varmasa və özünü də çətinliyə salmasa, ilin axırında da bir şey artıq qalsa, artıq qalanın beşdə birini müəyyən olunmuş yerlərdə xərclənmək üçün verməli, beşdə dörd hissəsini özü üçün saxlamalıdır.

Deməli, xərclər dedikdə insanın özünün və ailəsinin ona ehtiyac duyduğu şeylərdir. O cümlədən:

* Yemək və geyim;
* Qab-qacaq, xalça, palaz və sair kimi mənzil vəsaitləri;
* Təkcə ticarət və iş üçün olmayan nəqliyyat vasitəsi;
* Qonaqlıq xərcləri;
* İzdivac xərcləri;
* Ehtiyac duyulan kitablar;
* Ziyarət yoluna xərclədikləri;
* Bir kəsə verdiyi hədiyyə və mükafatlar;
* İnsanın verdiyi sədəqələr, nəzirlər və kəffarələr;[3]

## *Xums ili*

İnsan həddi-büluğa çatdığı ilk gündən namaz qılmalı, Ramazan ayının orucunu tutmalıdır. Onun əldə etdiyi ilk qazancdan bir il keçdikdən sonra, keçən ilin xərclərinin artıq qalanının xumsunu verməlidir. Buna əsasən xumsu hesablayarkən ilin əvvəli olaraq qazanc əldə etdiyi gün, onun axırı isə şəmsi ili ilə o tarixdən bir il keçənə qədərdir.

Deməli aşağıdakı şəxslər üçün ilin əvvəli belədir:

---

[1] *Zimmə – əhd və peymana deyilir və islam ölkələrində yaşayan qeyri-müsəlmanlar barəsindədir, belə ki, müsəlmanların ictimai qayda-qanunlarına riayət etmək və müəyyən məbləğdə vergi vermək əsasında onlarla əhd-peyman bağlanır, bunun əvəzində onların malları və canları toxunulmaz sayılır. Bunlara zimmi kafir deyilir.*

[2] *"Tovzihul-məsail", məsələ:1751*

[3] *"Ürvətül-vüsqa", 2-ci cild, səh.394*

* Əkinçi üçün: İlk məhsul tədarükü;
* Qulluqçular üçün: Əldə etdikləri ilk maaş;
* Fəhlələr üçün: Aldıqları ilk əmək haqqı;
* Dükan sahibi üçün: Yerinə yetirdiyi ilk müamilə;[1]

### *Aşağıdakı yollarla əldə edilən malın xumsu yoxdur*

1-İrs yolu ilə əldə olunan mal;
2-İnsana hədiyyə olunan mal;
3-İnsanın aldığı mükafatlar;
4-İnsana bayramlıq kimi verilən şeylər;
5-Bir şəxsə xums, zəkat və ya sədəqə kimi verilən mallar.[2]

### *Xumsu verməməyin təsirləri*

1-Malın xumsunu verməyincə ondan istifadə etmək olmaz. Yəni xumsu verilməmiş yeməyi yeyə bilməz, xumsu verilməmiş pul ilə bir şey ala bilməz.[3]

2-Əgər xumsu verilməmiş pul ilə (şəriət hakiminin icazəsi olmadan) alver edərsə, bu müamilənin beşdə bir hissəsi batildir.[4]

3-Əgər xumsu verilməmiş pulu hamamçıya verib orada qüsl etmək istəsə, qüslu batildir.[5]

4-Əgər xumsu verilməmiş pul ilə ev alsa, o evdə qılınan namaz batildir.[6]

### *Xumsun hökmləri*

1-Əgər qənaət etməklə illik xərclərdən bir şey artıq qalsa, onun xumsu verilməlidir.[7]

2-Əgər ev üçün aldığı avadanlıqlar və vəsaitlərdən ehtiyacsız olsa, vacib ehtiyata görə onun xumsunu verməlidir. Məsələn daha böyük bir soyuducu alsa və əvvəlki soyuducuya ehtiyacı olmasa.[8]

3-İllik qazanclarından həmin ildə sərf etmək üçün aldığı yeyinti maddələri və azuqə. Məsələn düyü, yağ, çay və sair. Əgər bu kimi şeylər ilin axırında artıq gəlsə xumsu verilməlidir.[9]

4-Əgər həddi-buluğa çatmamış uşağın sərmayəsi olsa və ondan qazanc əldə edilsə, vacib ehtiyata görə həddi-büluğa çatdıqdan sonra xumsunu verməlidir.[10]

### *Xumsun sərf olunma yerləri*

Malın xumsunu iki yerə bölmək lazımdır, onun bir hissəsi imam Zaman (ə)-ın hissəsidir və cameuş-şərait (insanın təqlid etdiyi) müctehidə, yaxud onun nümayəndəsinə verilməlidir. Digər yarısını isə cameuş-şərait müctehidə verməli, yaxud onun icazəsi ilə müəyyən şərtlərə malik olan seyyidlərə verilməlidir.[11]

**Xums verməyin mümkün olduğu seyyidlərin şərtləri:**

* Fəqir, yaxud səfərdə qalmış olsun, hətta öz şəhərində fəqir olmasa belə;
* On iki imamçı şiə olsun;
* Açıq-aşkarda günah etməsin (ehtiyat vacibə görə) və xums vermək onun günah işlərinə kömək olmasın;
* İllik xərcləri onun öhdəsinə olan həyat yoldaşı və övlad kimi şəxslərdən olmasın (ehtiyat vacibə görə).[12]

---

[1] *"Ürvətül-vüsqa", 2-ci cild, səh.394, məsələ:6*
[2] *"Ürvətül-vüsqa", 2-ci cild, səh.389; Əssabiu, səh.390, məsələ:51*
[3] *"Tovzihul-məsail", məsələ:1790*
[4] *"Tovzihul-məsail", məsələ:1760*
[5] *"Tovzihul-məsail", məsələ:383*
[6] *"Tovzihul-məsail", məsələ:873*
[7] *"Tovzihul-məsail", məsələ:1756*
[8] *"Tovzihul-məsail", məsələ:1781*
[9] *"Tovzihul-məsail", məsələ:1780*
[10] *"Tovzihul-məsail", məsələ:1794*
[11] *"Tovzihul-məsail", məsələ:1834*
[12] *"Tovzihul-məsail", məsələ:1835-1841*

***XXXVI DƏRS***

# *ZƏKAT*

Müsəlmanların mühüm iqtisadi vəzifələrindən biri də zəkat verməkdir. Zəkatın əhəmiyyətindən bunu qeyd etmək kifayətdir ki, Qurani-məciddə namazdan sonra qeyd olunur və imanın nişanəsi və insanın qurtuluşu əlaməti hesab olunur.

İmamlardan nəql olunan çoxlu hədislərdə deyilir: *"Hər kəs zəkat verməsə dindən çıxmışdır."*

Xumsda olduğu kimi zəkatın da müəyyən halları vardır, onun bir qismi insanın bədəni və həyatı ilə əlaqədardır ki, hər ildə Fitr bayramı günündə verilməlidir. Bu, maddi cəhətdən onu verməyə qadir olan şəxslərə vacibdir.

Digər bir hissəsi isə mal-dövlətlə əlaqədar olan zəkatdır. Bu, camaatın bütün mal-dövlətlərinə deyil, yalnız doqquz şeyə aid olur ki, onları üç dəstədə qeyd etmək olar.

***Zəkatın vacib olduğu şeylər**** [2]

- Bitkilər: (taxıl)
  - 1- Buğda
  - 2- Arpa
  - 3- Xurma
  - 4- Kişmiş
- Mal-heyvan
  - 5- Dəvə
  - 6- İnək
  - 7- Qoyun
- Xəzinə
  - 8- Qızıl
  - 9- Gümüş

**Nisab həddi:**

Qeyd olunan şeylərin zəkatı o zaman vacib olur ki, müəyyən bir həddə çatmış olsun, buna "**nisab həddi"** deyilir. Yəni əldə olunan məhsulun miqdarı, yaxud mal-heyvanın sayı o həddən aşağı olsa zəkat düşmür.

***Taxılın nisabı***

Qeyd olunan dörd məhsulun hamısının bir nisab həddi vardır və təqribən 850 kiloqramdır. Buna əsasən əldə olunan məhsul bu miqdardan az olduqda zəkatı yoxdur.[1]

## *DÖRD BİTKİ MƏHSULUNUN ZƏKATININ MİQDARI*

Bu məhsullardan biri nisab həddinə çatarsa, onun müəyyən miqdarı zəkat olaraq verilməlidir. Lakin bunların zəkatının miqdarı necə suvarılmaları ilə əlaqədardır və bu baxımdan üç yerə bölmək olar:

* Yağış və ya çay suyu ilə suvarılan məhsulun zəkatı onda birdir.

* Vedrə, su motoru ilə suvarılan məhsulun zəkatı iyirmidə birdir.

* Hər iki vasitə ilə: həm yağış və çay suyu ilə, həm də əllə suvarılan məhsulun yarısının zəkatı onda bir, yarısının zəkatı isə iyirmidə birdir.[2]

### *Mal-heyvanın nisabı*

***Qoyun:**

Qoyunun ilk nisabı 40-dır və onun zəkatı bir qoyundur. Qoyunların sayı 40-a çatmayana qədər zəkatı yoxdur.[3]

***İnək:**

İnəyin ilk nisabı otuzdur və onun zəkatı bir yaşı tamam olmuş və ikinci yaşına keçmiş bir danadır.[4]

***Dəvə:**

Dəvənin ilk nisabı beşdir və onun zəkatı bir qoyundur. Dəvələrin sayı 26-a çatana qədər hər beş dəvənin zəkatı bir qoyundur. Lakin onların sayı 26-a çatdıqda zəkatı bir dəvədir.[5]

### *Qızıl və gümüşün nisabı*

Qızılın nisabı 15 misqal, gümüşün nisabı 105 misqaldır. Hər ikisinin zəkatı da qırxda birdir.[1]

---

[1] *"Tovzihul-məsail", məsələ:1864*

[2] *"Tovzihul-məsail", məsələ:1875-1879*

[3] *"Tovzihul-məsail", məsələ:1913*

[4] *"Tovzihul-məsail", məsələ:1912*

[5] *"Tovzihul-məsail", məsələ:1910*

## Zəkatın hökmləri

1-Buğda, arpa, xurma və üzüm üçün çəkilən xərclər, o cümlədən toxumun qiyməti, fəhlələrə verilən pul, traktorun işlədilməsinin pulu və s. əldə olunan məhsuldan çıxıla bilər. Lakin nisab həddi bu miqdar çıxılmamışdan qabaq hesablanmalıdır. Əgər bu xərclər çıxılmamışdan qabaq nisab həddinə çatsa, onun zəkatını vermək vacibdir, lakin çıxılandan sonra qalanın zəkatı verilməlidir.[2]

**2-Mal-heyvanın zəkatı o vaxt vacib olur ki:**

* İnsan bir il müddətində onların sahibi olsun. Deməli əgər misal üçün yüz baş malı alsa və doqquz aydan sonra satsa, onlara zəkat vacib deyil.[3]

* Heyvan bütün il boyu işsiz olsun. Buna əsasən əkin sahəsində, yaxud yük daşınmasında istifadə olunan inək və dəvənin zəkatı yoxdur.[4]

* Heyvan bütün il boyu çöldə otlasın; deməli əgər bütün il boyunda, yaxud onun bir miqdarında biçilmiş, yaxud insanın öz əkdiyi otlardan yesə, zəkatı yoxdur.[5]

3-Qızıl və gümüşün zəkatı o vaxt vacib olur ki, sikkəli olsun və onunla müamilə adi qaydada olsun. Buna əsasən hal-hazırda bəzək əşyaları kimi istifadə olunanların zəkatı yoxdur.[6]

4-Zəkatı vermək ibadətdir və onu verən zaman zəkat niyyəti və Allahın əmrini icra etməkdən ibarət olan qürbət qəsdi edilməlidir.[7]

## Zəkatın sərf olunma yerləri

Zəkat səkkiz yerə sərf olunmalıdır; onların hamısında, yaxud bəzilərində sərf oluna bilər:

1-Fəqir və illik xərcləri özünün və ailəsinin xərclərindən az olan (çatmayan) şəxs;

2-Miskin və ümumiyyətlə səfil və biçarə olan şəxs;

3-İmam (ə), yaxud onun naibi tərəfindən zəkatın toplanıb saxlanması və müstəhəqlərə verilməsinə məmur edilən şəxs;

4-Bəzilərinin qəlblərini islama və müsəlmanlara qarşı rəğbətli etmək üçün. Məsələn, kömək olunacaq təqdirdə islam dininə meylli olan, yaxud müharibədə müsəlmanların xeyrinə kömək edən şəxslər;

5-Qulların azad edilməsi;

6-Öz borcunu qaytara bilməyən borclular üçün;

7-Allah yolunda; yəni faydası ümumi insanlara çatan və Allahın razılığına səbəb olan yol, saldırmaq, körpü və məscid tikdirmək kimi işlər;

8-Səfərdə pulu qurtarıb yolda qalan və vətəninə qayıtmaq xərclərinə malik olmayan şəxs. Hətta öz vətənində fəqir olmasa belə;[8]

---

[1] *"Tovzihul-məsail", məsələ:1896-1897*
[2] *"Tovzihul-məsail", məsələ:1880*
[3] *"Tovzihul-məsail", məsələ:1854*
[4] *"Tovzihul-məsail", məsələ:1908*
[5] *Yenə orada*
[6] *"Tovzihul-məsail", məsələ:1899*
[7] *"Tovzihul-məsail", məsələ:1957*
[8] *"Tovzihul-məsail", məsələ:1925*

**XXXVII DƏRS**

# ƏMR BE MƏRUF *(yaxşı işlərə dəvət etmək)* VƏ NƏHY ƏZ MÜNKƏR *(pis işlərdən çəkindirmək)*

Hər bir insan cəmiyyətdə baş verən xoşagəlməz işlər, tərk olunan və unudulan yaxşı işlər qarşısında məsuliyyət daşıyır. Buna əsasən əgər vacib bir iş tərk edilsə, yaxud haram işə baş qoşulsa onların qarşısında sükut edib laqeyd yanaşmaq caiz deyildir və vaciblərin bərqərar edilməsi və haramların qarşısını almaq üçün tədbir görmək bütün cəmiyyət fərdlərinə lazımdır və bu iş əmr be məruf və nəhy əz münkər adlanır.

### *Əmr be məruf və nəhy əz münkərin əhəmiyyəti*

İmamların (ə) bəzi kəlamlarında belə qeyd olunur:

* Əmr be məruf və nəhy əz münkər ən mühüm və şərafətli vacibatdandır.
* Dini vacibatlar əmr be məruf və nəhy əz münkər səbəbi ilə bərqərardır.
* Əmr be məruf və nəhy əz münkər dinin zəruri əməllərindəndir. Hər kəs onu inkar etsə kafirdir.
* Əgər insanlar əmr be məruf və nəhy əz münkəri tərk edərsə, xeyir-bərəkət aradan qalxar və duaları qəbul olunmaz.

### *Məruf və münkərin tərifi*

Din hökmlərində bütün vacib və müstəhəbb əməllərə məruf, haram və məkruh olan bütün işlərə münkər deyilir. Buna əsasən cəmiyyət üzvlərinin vacib və müstəhəbb əməllərə vadar edilməsi əmr be məruf, onların haram və məkruh işlərdən çəkindirilməsi isə münkər sayılır.

Əmr be məruf və nəhy əz münkər vacibi-kifayidir, belə ki, əgər müəyyən şəxslər onu kifayət miqdarda yerinə yetirsələr başqalarından götürülür. Əgər şərait mövcud ola-ola hamı onu tərk edərsə, onların hamısı vacib bir əməli tərk etmiş olur.[1]

### *Əmr be məruf və nəhy əz münkərin şərtləri*

Bəzi şərtlərin varlığı ilə əmr be məruf və nəhy əz münkər vacib olur. Onlar mövcud olmadıqda isə insandan vəzifə götrülür. O şərtlər aşağıdakılardır:

1-Əmr, yaxud nəhy edən şəxs başqalarının gördüyü işin haram, tərk etdiklərinin isə vacib olduğunu bilsin. Deməli bir şəxsin gördüyü işin haram olub-olmadığını bilmədiyi zaman onun qarşısını almaq vacib deyildir.

2-Əmr və nəhyin təsirli olduğuna ehtimal versin. Buna əsasən əgər təsirli olmadığını bilsə, əmr və nəhy etmək vacib deyil.

3-Günahkar şəxs öz işini davam etdirməyə israr etsin. Deməli əgər günahkar şəxsin bu işi tərk etməyi və yenidən təkrar etməməyi qərara aldığını bilsə və yaxud təkrar edə bilməyəcəyini bilsə, əmr və nəhy vacib deyil.

4-Əmr və nəhy onu edən şəxsin özünə, yaxınlarına, dostlarına, həmkarlarına və sairə möminlərə nəzərə çarpacaq dərəcədə fiziki, yaxud maddi zərər dəyməsinə, abır-heysiyyətinin getməsinə səbəb olmasın.[2]

### *ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏRİN MƏRTƏBƏLƏRİ*

Əmr be məruf və nəhy əz münkərin müxtəlif mərtəbələri vardır ki, əgər aşağı mərtəbəyə əməl etməklə məqsəd həyata keçərsə, sonrakı mərhələyə əməl etmək caiz deyildir. O mərtəbələr aşağıdakı kimidir:

**Birinci**-Günah əhli ilə elə davranmalıdırlar ki, onunla məhz həmin günaha görə belə rəftar edildiyini başa düşsün. Məsələn, ondan üz çevirsinlər, onunla üz-gözünü turşudaraq, qaşqabaqlı rəftar olunsun, yaxud onunla gediş-gəliş edilməsin.

**İkinci**-Dillə əmr və nəhy edilməsi. Yəni vacibi tərk edən şəxsə göstəriş versin ki, vacibi yerinə yetirsin, günah işi görən bir şəxsə göstəriş versin ki, günahı tərk etsin.

**Üçüncü**-Münkərin qarşısını almaq və vacibi bərqərar etmək üçün gücdən istifadə etmək, yəni günahkarı döymək.

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.463, məsələ:2*

[2] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.465-472, məsələ:1*

### Əmr be məruf və nəhy əz münkərin hökmləri

1-Əmr be məruf və nəhy əz münkər işində qanunsuzluğa yol verilməsin deyə, onun şərtlərini və yerlərini öyrənmək vacibdir.[1]

2-Əgər əmr və nəhy xahiş, nəsihət və moizə ilə yanaşı olmadan təsir qoymayacağını bilsə, əmr və nəhyi moizə, nəsihət və xahişlə yanaşı etməlidir. Əgər xahiş və moizənin təklikdə (əmr və nəhy olmadan) təsirli olacağını bilsə, həmin cür əməl etməsi vacibdir.[2]

3-Əgər əmr və nəhyi təkrar etməklə təsirli olduğunu bilsə və ya ehtimal versə, təkrarlaması vacibdir.[3]

4-Günaha israr etmək dedikdə məqsəd bir işin görülməsinə müdavimət etmək deyil, əksinə o əmələ mürtəkib olmaqdır, hərçənd digər bir dəfə də olsa belə. Deməli əgər bir dəfə namazı tərk etsə və yenidən tərk etmək niyyətində olsa, əmr be məruf vacibdir.[4]

5-Əmr be məruf və nəhy əz münkərdə şəriət hakiminin icazəsi olmadan günahkarı yaralamaq, yaxud öldürmək caiz deyil, yalnız o zaman caiz olar ki, münkər islamda çox əhəmiyyətli olan işlərdən olsun, bu hal istisna olunur. Məsələn, bir şəxs günahsız bir insanı öldürmək istəyərsə və onun qətl işinin qarşısını almaq da onu yaralamadan mümkün olmazsa.[5]

### ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏRİN ADABI (QAYDALARI)

Yaxşı olar ki, əmr be məruf və nəhy əz münkər edən şəxs:

* Ürəyiyanan bir həkim, nəvazişli və mehriban bir ata kimi olsun.

* Öz niyyətini xalis etsin, bu işi yalnız Allahın razılığı üçün görsün, öz işini hər növ təkəbbürçülükdən uzaq eləsin.

* Özünü pak-pakizə hesab etməsin; çox hallarda ola bilər ki, hazırda xətaya mürtəkib olan kimsənin bu əməli xoşagəlməz və Allahın qəzəbləndiyi bir iş olmasına baxmayaraq, Allahın sevdiyi xislətlərə də malik olsun.[6]

---

1 *Yenə orada, məsələ:8*

2 *"Təhrirul-vəsilə", 1-ci cild, səh467, məsələ:3*

3 *"Təhrirul-vəsilə", 1-ci cild, səh.468, məsələ:5*

4 *"Təhrirul-vəsilə", 1-ci cild, səh.470, məsələ:4*

5 *"Təhrirul-vəsilə", 1-ci cild, səh481, məsələ:11-12*

6 *"Təhrirul-vəsilə", 1-ci cild, səh.481, 14-cü məsələ*

**XXXVIII DƏRS**

# CİHAD VƏ MÜDAFİƏ

İslam günəşinin doğması ilə bütün dinlər və məktəblər batil oldu və onların heç biri qəbul olunası deyildir. Bütün bəşəriyyət onun barəsində azad şəkildə təhqiqat aparıb agahlıq üzündən qəbul etmək barədə azad olmalarına baxmayaraq onun proqramlarını qəbul etmək üçün hazır olmalıdır. İlk növbədə Peyğəmbər (s) və onun haqq canişinləri islamın xilaskar ayinlərini insanlara bəyan etmiş, onları bu proqramları qəbul etməyə çağırmışlar. İslamın qayda-qanunlarını qəbul etməyib imtina edənlər Allahın qəzəbinə düçar olacaq və müsəlmanların iti qılıncları ilə qarşılaşacaqlar. İslamın irəliləməsinə mane olanlarla, onu qəbul etməkdən imtina edənlərlə mübarizə ***cihad*** adlanır. İslamın bu yolla yayılmasının özünəməxsus taktikası, yolları vardır, yalnız Peyğəmbər (s)-in və onun hər növ günahdan, azğınlıqdan uzaq olan haqq canişinlərinin əli ilə baş verməlidir, məsum imamın hazır olduğu zamana məxsusdur. İmamın qeybdə olduğu hazırkı dövrdə belə cihad vacib deyildir. Lakin düşmənlərlə digər bir mübarizə növü olan müdafiə cihadı bütün müsəlmanların danılmaz haqqıdır: hər bir yerdə, hər bir zamanda və dünyanın hər bir yerində düşmənlərin təcavüzlərinə məruz qalsalar, yaxud dinləri təhlükə ilə üzləşsə, öz canlarını və dinlərini qorumaq üçün düşmənlərlə mübarizə aparmalı, onları məhv etməlidirlər. Bu dərsdə müdafiə cihadı adlı ilahi vacib əməl ilə tanış oluruq:

**MÜDAFİƏNİN NÖVLƏRİ**

**Müdafiənin növləri**
- 1-İslamın və islam ölkələrinin müdafiə olunması
- 2-Şəxsin canının və şəxsi hüquqlarının müdafiə olunması

### *İSLAMIN VƏ İSLAM ÖLKƏSİNİN MÜDAFİƏ OLUNMASI*

* Əgər düşmənlər islam ölkəsinə hücum edərsə,
* Yaxud müsəlmanların iqtisadi və hərbi mənafeyinə hakim kəsilmək üçün tədbir görərsə,
* Və ya İslam ölkələrinə siyasi cəhətdən hakim olmaq niyyətində olarsa:

Bütün müsəlmanlara vacibdir ki, düşmən müqabilində mümkün olan hər bir yolla müqavimət göstərərək onlarla mübarizə aparsınlar.

### *ŞƏXSİ CAN VƏ HÜQUQUN MÜDAFİƏ OLUNMASI*

1-Müsəlmanların canı və malı toxunulmazdır. Əgər bir kəs insana hücum edərsə, yaxud onunla bağlılığı olan şəxslərə, məsələn, oğluna, qızına, atasına, anasına, qardaşına hücum edərsə, onları müdafiə etmək və düşmənin qarşısını almaq, hətta hücum edənin qətlə yetirilməsi ilə nəticələnsə belə, vacibdir.[1]

2-Əgər oğru insanın malını oğurlamaq üçün hücum etsə, onu müdafiə etmək vacibdir.[2]

3-Əgər bir nəfər naməhrəmə baxmaq üçün başqasının evinə baxsa bu işin qarşısını almaq vacibdir, hətta onu döyməklə olsa belə.[3]

### *HƏRBİ FƏNDLƏRİ (döyüş texnikasını) ÖYRƏNMƏK*

Müasir dövrdə hərb ilə əlaqədar məsələlər çox inkişaf etmişdir və islam düşmənləri inkişaf etmiş müxtəlif modern texnika ilə təchiz olunmuşlar. Belə bir şəraitdə hərbi fəndləri, döyüş texnikasını öyrənmədən islamı və islam ölkələrini müdafiə etmək mümkün deyildir. Müdafiə də hərbi işləri öyrənmədən mümkün olmadığından, onu öyrənmə qabiliyyətinə malik olan, İslamın və ölkənin müdafiəsində onlara ehtiyac duyulacağına ehtimal verən bütün şəxslərə hərbi fəndləri öyrənmək vacbdir.

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.487-488*
[2] *Yenə orada*
[3] *"Təhrirul-vəsilə", 1-ci cild, sə.492, məsələ:30*

**XXXIX DƏRS**

# ALQI-SATQI

| | |
|---|---|
| ***Alqı-satqı növləri*** | 1- ***vacib***<br>2- ***haram***<br>3- ***müstəhəbb***<br>4- ***məkruh***<br>5- ***mübah*** |

### *Vacib alqı-satqı*

İslamda tənbəllik və işsizlik pislənildiyindən öz ailəsinin dolanışığını təmin etmək vacib sayılmışdır. Alqı və satqı yolundan başqa bir yolla ailələrini təmin edə bilməyənlər yəni qazanclarını tək bu yolla əldə etmək bacarığında olanlara alver yolu ilə yaşayış xərclərini ələ gətirsinlər və başqalarına möhtac olmasınlar.

### *MÜSTƏHƏBB ALQI-SATQI*

Öz əhli-əyalının ailə güzəranını genişləndirmək və digər müsəlmanlara mənfəət yetirmək müstəhəbb işlərdəndir. Məsələn: məhsul əkib, becərməklə məşğul olan əkinçi ki, öz yaşayış xərcini ələ gətirir, boş vaxtlarında kasıblara kömək etmək niyyəti ilə alver etsə savabı vardır.

### *HARAM ALQI-SATQI*

1-Nəcis şeylərin alveri;
2-Mənfəəti adətən haram olan əşyalar. Məsələn: Qumar;
3-Qumar və ya oğurluq yolu ilə əldə olunan bir şeyin alqı-satqısı;
4-Azdıran (yoldan çıxaran) kitabların alveri;
5-Saxta sikkələrlə (pulla) alver etmək;
6-Müsəlmanların əleyhinə güclənəcək islam düşmənlərinə bir şey satmaq.
7- Müsəlmanların əleyhinə güclənəcək islam düşmənlərinə silah satmaq.

**Bu yerlərdə alqı-satqı məkruhdur.**

- Alçaq insanlarla alver etmək;
- Sübh azanı ilə günəş çıxmasına qədər olan alqı-satqı;
- Başqası almaq istədiyi malın alverinə girişmək.

**ALVERİN ADABI**

- **Müstəhəblər**
  * Alverdə müştərilər arasında fərq qoymamaq;
  * Malın qiymətinin üstündə çox bərk dayanmasın.
  * Tərəflə alqı-satqı edən şəxs peşman olub alqı-satqını pozmaq istəsə, malı geri götürsün.

- **Məkruhlar**
  * Malı çox tərifləmək;
  * Müştəri ilə pis danışmaq;
  * Alverdə doğruya and içmək (yalandan and içmək haramdır).
  * Alver üçün hamıdan öncə bazara daxil olub hamıdan gec oradan çıxmaq;
  * Tərəziylə çəkmək və metrə ilə ölçməyi yaxşı bilinməyən yerlərdə malın çəkilib, ölçülməsi.
  * Alver sözdələşməyi bitdikdən sonra qiymətin azaltmasını istəmək.

**ALQI-SATQININ HÖKMLƏRİ**

1-Başqasının ev və əşyasını haram istifadə üçün satmaq və ya kirayə vermək haramdır.[1]

---

[1] *"Təhrirul-vəsilə", 1-ci cild, səh.501*

2-Yoldan azdıran kitabların satışı, alqısı, saxlanışı, yazması, oxunması və tədris edilməsi haramdır. Lakin düzgün məqsəd üçün olsa haram deyildir. Məsələn: kitabdakı sual və şübhələrə cavab vermək qəsdilə olarsa.

3-Satdığı malı qiymətsiz başqa malla qarışdırmaq haramdır. Məsələn: Yeşikdəki meyvənin üstünə yaxşı altına isə pislərini yığıb satmaq və ya südə su qarışdırıb satmaq kimi.

4-Vəqf olunmuş malı satmaq olmaz. Lakin xarab olarsa və istifadədən yararsız vəziyyətə düşərsə olar. Məsələn məscidin xalçası artıq istifadə üçün yararsız olarsa.

5-Bir kəsə kirayə verilmiş ev ya əşyanın alqı-satqısının eybi yoxdur. Lakin kirayə müddətində ondan istifadə etmək kirayə edən şəxsə aiddir.

6-Alverdə gərək satılan malın xüsusiyyətləri bilinsin. Lakin camaat arasında elə maraq olmayan və laqeyd yanaşılan xüsusiyyətləri söyləmək lazım deyil.

7-İki eyni cinsdən olan malın ölçüdən artığa alıb-satılması «Sələm» olduğundan haramdır. Məsələn bir ton buğda verib əvəzində bir ton iki yüz qram almaq kimi. Habelə birinə bir mal ya pul borc verib bir müddətdən sonra verdiyindən artığını almaq. Məsələn on min manat verib bir ildən sonra on iki min almaq kimi.

## ALVERİ BİR-BİRİNƏ VURMAQ (GERİLƏMƏK)

Aşağıdakı bəzi hallarda alıcı ya satıcı alqı-satqını poza bilər:

- Satıcı və ya alıcı aldanmış olsa;
- Alqı-satqıda müəyyən müddətə qədər hər ikisinin, yaxud birinin alqı-satqını poza bilməsini şərt qoysalar, şərtə uyğun olaraq alqı-satqını onlardan hər biri poza bilər. Məsələn alver zamanı deyiblər ki, peşman olan şəxs üç gün müddətində qaytara bilər.
- Alverdən sonra aldığı malın eybli olduğunu bilsə;

Satıcı malın xüsusiyyətlərini ona deyəndən sonra dediyi kimi olmadığı məlum olsa; məsələn desə ki, bu dəftər 200 vərəqdir, sonra məlum olsa ki, deyiləndən azdır.

Əgər alverdən sonra maldakı eybi bilərsə dərhal onu qaytarsın. Yoxsa alveri pozmaq haqqı olmaz.[1]

[1] *"Tovzihul-məsail", məsələ:2132*

XXXX DƏRS

# KİRAYƏ, BORC, ƏMANƏTDARLIQ

### *İcarə*

Əgər icarə verən (sahib) icarə alana desə ki: «Öz mülkümü sənə kirayə verdim» və o da «Qəbul etdim» desə, icarə müamiləsi səhih sayılır. Hətta əgər bir şey deməsələr, lakin sahib mülkünü icarə qəsdi ilə təhvil alana versə və o da icarə niyyəti ilə təhvil alsa düzgündür. Məsələn evin açarını verə və biri də ala.

**İcarəyə verilən malın şərtləri**

İcarəyə verilən mal aşağıdakı şərtlərə malikdir:

* Mal müəyyən olunmalıdır. Sahib əgər desə ki, «otaqlarımdan birini sənə kirayə verdim» düzgün olmaz.
* İcarə götürən şəxs malı ya mülkü görməlidir, ya sahib kirayə olunanın xüsusiyyətlərini elə deməlidir ki, ona tam məlum olsun.
* Kirayə verilən mal elə cins olsun ki, ondan istifadə etməklə malın özü aradan getməsin. Bəs çörək, meyvə və digər qida məhsullarının icarəsi səhih deyildir.

**İCARƏNİN HÖKMLƏRİ**

1- İcarəyə verilən malın istifadə müddəti müəyyən olmalıdır. Məsələn: «bir ay» ya «bir il».
2- Əgər icarə verdiyi şeyi təhvil versə, hətta icarə alan təhvil almasa və ya təhvil alıb icarə müddətinin axırına kimi istifadə etməsə də onun icarə haqqını verməlidir.
3- Əgər bir kəs məsələn bir fəhləni müəyyən gündə hər hansı bir işi görmək üçün tutsa, (məsələn: kərpicləri tikintinin içərisinə daşısın ya gəc vursun) fəhlə həmin işi görmək üçün iş başına gəlsə ona iş tapşırılmasa belə haqqı verilməlidir.
4- Əgər sənətkar götürdüyü şeyi xarab etsə, həmin malın dəyərini ödəməlidir. Məsələn: Mexanik maşınına bir xəsarət yetirərsə.
5- Əgər bir kəs evi, ya dükanı və ya bir otağı kirayə etsə və mülkün sahibi yalnız onun istifadə etməsini şərt etsə, kirayəçi başqasına icarəyə verə bilməz.

### *Borc*

Borc vermək müstəhəbb bir işdir. Qurani-Kərimdə və hədislərdə ona dair çoxlu tövsiyələr olunmuşdur. Borc verənin qiyamət günündə çox əcrləri olacaqdır.

### *BORCUN NÖVLƏRİ*

1- **Müddəti müəyyən olan borc:** yəni borcvermə zamanı borc alanın nə zaman qaytaracağı müəyyən edilir.
2- **Müddəti müəyyən olmayan borc**: Borcun qaytarılacağı zaman müəyyən edilmir.

### *Borcun hökmləri*

1– Müddəti təyin olunmuş borcda borc sahibi o müddət tamam olmamışdan qabaq öz borcunu tələb edə bilməz.

2-Amma əgər müddəti təyin olunmasa, hər vaxt istəsə, öz borcunu tələb edə bilər.

3– Əgər borc sahibi öz borcunu, tələb etməyə haqlı olduğu vaxt istəsə və borclu da verə bilsə dərhal verməlidir, təxirə salsa, günahkardır.

4-Əgər müəyyən məbləğdə pul bir kəsə verərkən şərt etsə ki, bir müddətdən sonra (məsələn bir ildən sonra) verdiyindən də bir az çox alacaqdır bu sələm hesab olur və haramdır. Məsələn 100 manat verə və şərt edə ki, bir ildən sonra 120 manat alacaqdır.

### VƏDİƏ (ƏMANƏTDARLIQ)

Əgər insan öz malını bir kəsə verib "sənin yanında əmanət qalsın" – desə, o da qəbul etsə vədiənin (əmanətin) hökmünə əməl etməlidirlər.

### Əmanətin hökmləri

1-Əmanəti saxlaya bilməyən bir şəxs ehtiyati-vacibə görə qəbul etməməlidir.[1]

2- Bir şeyi əmanət qoyan şəxs hər vaxt istəsə, geri ala bilər. Əmanəti qəbul edən şəxs də hər vaxt istəsə, onu sahibinə qaytara bilər.

3-Əmanəti qəbul edən şəxsin onu saxlamaq üçün münasib yeri olmasa, münasib yer hazırlamalıdır. Məsələn: puldur və onu evdə saxlaya bilmirsə banka tapşırsın.

4-Əmanəti qəbul edən şəxs onu elə saxlamalıdır ki, camaat "əmanətə xəyanət edibdir, onu saxlamaqda səhlənkarlıq edibdir" deməsin.

5-Əgər camaatın əmanəti aradan gedərsə:

A) Əgər əmanəti qəbul edən şəxs onu saxlamaqda səhlənkarlıq etsə əvəzini verməlidir.

B) Əgər əmanəti qəbul edən şəxs onu saxlamaqda səhlənkarlıq etməsə və əmanət təsadüfən tələf olsa, onun əvəzini verməməlidir. Məsələn malı sel apararsa.

[1] *Tozihul-məsail m. 2330*

# ARİYƏ, SƏDƏQƏ, TAPILAN ƏŞYA

### *Ariyə*

1-Ariyə insanın öz malını istifadə etmək üçün başqasına verib, əvəzində də heç nə almamağına deyilir. Məsələn: Velosipedini bir kəsə verir ki, mənzilinə gedib-qayıtsın.[1]

2- Bir şeyi ariyəyə götürən şəxs onu yaxşı qoruyub saxlamalıdır.

3- Ariyəyə götürülmüş mal tələf olsa, yaxud onda bir nöqsan yaransa:

❋ Əgər onu saxlayarkən səhlənkarlıq etməyibsə və onun istifadəsində həddini aşmayıbsa, zamin deyildir.

❋ Əgər onu saxlayarkən səhlənkarlıq edibsə və onun istifadəsində həddini aşıbsa, ona dəyən zərəri ödəməlidir.[2]

4-Əgər əvvəlcədən şərt qoysalar ki, o mala dəyən hər bir zərərə ariyəyə götürən şəxs zamindir, onda dəyən zərəri ödəməlidir.

### *Sədəqə*

Sədəqə Qurani-Kərimin ayələrində və məsum İmamların hədislərində çox tövsiyə olunmuş müstəhəbb işlərdən biridir. Sədəqəyə çox təkid olunmuş və hədsiz savab bəyan olunmuşdur. Belə ki, buyurulur: "Sədəqə dünyada böyük müsibətlərin və qəfil ölümlərin qarşısını alar, axirətdə isə böyük günahların silinməsinə səbəb olar və qiyamət sorğu-sualını asanlaşdırar."

Mövzunun əhəmiyyətini nəzərə alaraq, yazımızda onun bəzi hökmlərinə işarə edirik.

### *Sədəqənin hökmləri*

1– İnsan sədəqəni qəsdi-qürbətlə; hər cür riya və özünü göstərməkdən uzaq olaraq yalnız Allahın razılığı üçün verməlidir.

2– Sədəqəni geri almaq caiz deyil.

3– Seyyid olmayanın zəkatı seyyidə haram olduğu halda, sədəqə seyyidə halaldır.

4– Müsəlmanlarla müharibə etməyən, Peyğəmbər (s) və İmamlara hörmətsizlik göstərməyən kafirə də sədəqə vermək olar.

5– Yaxşı olar ki, sədəqə gizlin verilsin. Amma başqalarını da bu işə həvəsləndirmək məqsədi ilə aşkar da verilə bilər. Zəkatın isə aşkar verilməsi daha yaxşıdır.

6– Dilənmək və dilənçini əli boş qaytarmağın hər ikisi məkruhdur.

---

[1] *Tozihul-məsail m.2344.*
[2] *Tozihul-məsail m.2345.*

# TAPILAN ƏŞYA

1-Tapılan malı götürmək məkruhdur.

2-Əgər şəxs tapdığı bir şeyi götürməsə öhdəsində bir təklif yoxdur.

3-Əgər tapdığı şeyi götürərsə, onun aşağıda göstərilən məxsus hökmləri vardır:

A) Üzərində sahibini məlum edən elə bir nişanəsi yoxdursa, vacib ehtiyata əsasən sahibinin tərəfindən sədəqə versin.

B) Əgər bir nişanəsi varsa:

1) Onun qiyməti 6/12 noxud sikkəli gümüşdən az olsa:

* Sahibi məlum olsa, ona verməlidir;

* Sahibi məlum olmasa özünə götürə bilər.

2) Onun qiyməti 6/12 noxud sikkəli gümüşə yetişsə, gərək bir il boyunca elan etsin. Əgər sahibi tapılarsa ona verər, yox əgər tapılmazsa aşağıdakı variantlardan birini edə bilər:

* Özünə götürsün;

* Sahibi üçün tapılanacan saxlasın;

* Müstəhəbb ehtiyata əsasən sahibinin tərəfindən sədəqə versin.[1]

4-Sahibinin tapılması üçün elan edilməsi gərəkən yerlərdə, gərək ilk həftənin hər günündə bir dəfə, ondan sonra isə il boyunca həftədə bir dəfə camaatın kütləvi cəm olduğu bazar və camaat namazı kimi yerlərdə elan edilməlidir.[2]

5-Ehtiyati vacibə əsasən gərək dərhal elan etsin, təxirə salmasın.[3]

6-Əgər bilsə ki, elan etmənin heç bir faydası yoxdur, o zaman elan lüzumsuzdur.

7- Həddi-büluğa çatmamış bir uşaq bir şey tapdıqda onun vəlisi elan etməlidir.

## AYAQQABINI İTİRMƏK

Əgər insanın ayaqqabısını aparsalar və onun yerinə başqa ayaqqabı qalarsa, onun neçə məsələsi vardı:

1-Qalan ayaqqabının onun ayaqqabısını götürən şəxsin olduğunu bilərsə və sahibinin tapılmasından naümid olarsa və ya axtarılması çətindirsə onu öz ayaqqabısının əvəzinə götürə bilər. Lakin əgər o ayaqqabının dəyəri öz ayaqqabısının qiymətindən artıqdırsa və yenə də sahibinə yetişməkdən ümidsizdirsə «hakimi şəri»nin icazəsi ilə sahibinin tərəfindən sədəqə versin.

2-Qalan ayaqqabı onun ayaqqabısını aparan şəxsin olmadığını güman edərək götürsə gərək sahibini axtarsın. Sonda əgər sahibinin tapılmasından naümid olsa onun tərəfindən bir fəqirə sədəqə etsin. (Lakin yaxşı olar ki, heç götürməsin)[4]

---

[1] *Tovzihul-məsail 2564 və 2568.*

[2] *Təhrirul-vəsilə c.2 səh. 228,m.19 və 31*

[3] *Təhrirul-vəsilə c.2 səh. 226,m.9*

[4] *Tovzihul-məsail 2581.*

# YEMƏK VƏ İÇMƏK

Böyük Allah insanların istifadə etməsi üçün gözəl təbiət, heyvanlar, meyvələr və göyərtiləri onların ixtiyarında qoymuşdur ki, yeyib-içmək, geymək, yaşamaq və sair ehtiyacları üçün onlardan istifadə etsinlər. Lakin insanların canının, sağlamlığının və ruhunun qorunması, nəslin artırılması və başqalarının hüququna ehtiram qoyulması üçün müəyyən qayda-qanunlar qərar vermişdir ki, bu dərsədə yeməlilər və içməlilərlə əlaqədar onların bəzilərini qeyd edirik.

**Yeməklərin növləri**
- **1-Bitki**
  - * Meyvələr
  - Göyərtilər
- **2-Heyvan**
  - * Dörd ayaqlılar
    - Əhli
    - Vəhşi
  - * Quşlar
  - Dəniz heyvanları

## *Yeməlilərin hökmləri*

- ***Bitki mənşəli yeməklər***

Bütün meyvələr və göyərtilər halaldır, yalnız insanın bədəni üçün zərəri olanlar haramdır.

- ***Heyvan mənşəli yeməklər***

***Heyvanlar***
- ***1- Ev heyvanı***
  - 1- əti halal olan
    - - inək
    - - qoyun
    - - dəvə
  - 2- əti məkruh olan
    - - at
    - - qatır
    - - ulaq
  - 3- əti haram olan
    - - it
    - - pişik və s.
- ***2- Vəhşi heyvan***
  - 1- əti halal olan
    - - ceyran
    - - dağ keçisi
  - 2- əti haram olan
    - - Bütün növ yırtıcı heyvanlar: canavar, pələng və s. kimi

**Bir neçə məsələ:**
1-Bütün yırtıcıların əti haramdır, hətta yırtıcılıq baxımından tülkü kimi zəif olsalar belə;
2-Dovşan ətini yemək haramdır;

3-Bütün həşərat növləri haramdır.[1]

- ***Quşlar***

*Aşağıdakı quşların əti halaldır:
* Bütün göyərçin növləri (qumru da bir növ göyərçin sayılır);
* Bütün sərçə növləri (bülbül də sərçə növündən sayılır);
* Toyuq və xoruz;

**Aşağıdakı quşların əti haramdır:**
* Yarasa;
* Tovuz;
* Qarğa;
* Şahin kimi caynağı olan bütün quşlar;[2]

**Bir neçə məsələ:**
1-Qaranquşun və şanapipiyin ətini yemək məkruhdur.[3]
2-Əti halal olan quşların və ev toyuğunun yumurtası halal, əti haram olan quşların yumurtası isə haramdır.[4]
3-Çəyirtkə uçanlardandır və əti halaldır.[5]

- ***Su heyvanları***

1-Dəniz heyvanlarından yalnız pulcuğu olan balıq və bəzi dəniz quşlarının əti halaldır.
2-Dəniz çəyirtkəsi və uçanlardan sayılan meyqu (krevet) əti halaldır.[6]

**Bir neçə məsələ:**
1-Palçıq (torpaq) yemək haramdır;[7]
2-Xəstəlikdən şəfa tapmaq məqsədi ilə Həzrəti Seyyidüş-şühədanın (ə) türbətindən azacıq yeməyin işkalı yoxdur.[8]
3-Nəcis şeyi yemək və içmək haramdır.[9]
4-İnsan üçün zərərli olan şeyi yemək haramdır, məsələn yağlı yeməyin zərərli olduğu bir xəstənin yağlı yemək yeməsi haramdır.[10]
5-Dörd ayaqlı heyvanların toxumunu (xayasını) yemək haramdır.[11]
6-Şərab və insanı məst edən sair mayelərin içilməsi haramdır.[12]
7-Hər bir müsəlmana, aclıqdan, yaxud susuzluqdan ölüm ayağında olan bir müsəlmana çörək və su verib onu ölümdən xilas etmək vacibdir.[13]

### *Yemək yeməyin adabı*

**Müstəhəbb əməllər:**
1-Yeməkdən qabaq və sonra əlləri yumaq;
2-Yeməyə başlayanda "bismillah", qurtaranda "əlhəmdu lillah" demək;
3-Yeməyi sağ əllə yemək;

[1] *Yenə orada*
[2] *Yenə orada, məsələ:6*
[3] *"Tovzihul-məsail", məsələ:2624*
[4] *"Təhrirul-vəsilə", 2-ci cild, səh.158, məsələ:12*
[5] *"Tovzihul-məsail", məsələ:2622*
[6] *"Təhrirul-vəsilə", 2-ci cild, səh.115, məsələ:6 və 7*
[7] *"Təhrirul-vəsilə", 2-ci cild, səh.164, məsələ:7*
[8] *"Tovzihul-məsail", məsələ:2628*
[9] *"Tovzihul-məsail", məsələ:141*
[10] *"Tovzihul-məsail", məsələ:1630*
[11] *"Tovzihul-məsail", məsələ:2626*
[12] *"Tovzihul-məsail", məsələ:111 və 2632*
[13] *"Tovzihul-məsail", məsələ:2635*

4-Tikələri kiçik götürmək;
5-Yeməyi yaxşı çeynəmək;
6-Meyvəni yeməzdən əvvəl su ilə yumaq;
7-Süfrədə bir neçə nəfər olarsa, hər kəs öz qabağındakı yeməkdən yesin;
8-Ev sahibi hamıdan əvvəl yeməyə başlayıb, hamıdan sonra əlini çəksin;[1]

**Məkruhlar:**
1-Tox halda yemək;
2-Çox yemək;
3-Yemək yeyən zaman başqalarının üzünə baxmaq;
4-Xörəyi yandıra-yandıra yemək;
5-Yediyi yeməyi üfürmək;
6-Çörəyi bıçaqla kəsmək;
7-Çörəyi yemək qabının altına qoymaq;
8-Meyvəni tamamilə yeməzdən əvvəl atmaq.[2]

### *Su içməyin qaydaları*

**Müstəhəbbat:**
1-Gündüzlər ayaq üstə içmək;
2-Su içməzdən əvvəl "bismillah", axırda isə "əlhəmdu lillah" demək;
3-Suyu üç dəfəyə içmək;
4-Su içəndən sonra imam Hüseyn (ə) və onun ailəsini, köməkçilərini yad edib, onun qatillərinə lənət göndərmək.[3]

**Məkruhlar:**
1-Həddindən artıq çox su içmək;
2-Yağlı yeməkdən sonra su içmək;
3-Suyu sol əllə içmək;
4-Gecə ayaq üstə su içmək.[4]

[1] *"Tovzihul-məsail", məsələ:2636*
[2] *"Tovzihul-məsail", məsələ:2637*
[3] *"Tovzihul-məsail", məsələ:2638*
[4] *"Tovzihul-məsail", məsələ:2639*

# BAXMAQ, EVLƏNMƏK

Allahın verdiyi nemətlərdən biri də insanın görmə qabiliyyətidir. İnsan bu böyük nemətdən özünün və başqalarının kamal və tərəqqisi yolunda istifadə etməlidir.

Təbiətə və onun gözəlliklərinə baxmaq, başqalarının hüququna təcavüz sayılmazsa, eybi yoxdur. Lakin gözü başqalarına baxmaqdan və özünü də naməhrəmlərin baxışından qorumaq üçün xüsusi qaydalar vardır ki, onların bəzilərini bu hissədə bəyan edirik:

## MƏHRƏM VƏ NAMƏHRƏM

Məhrəm o kəsdir ki, onunla izdivac etmək haramdır və ona baxmaqda, başqa şəxslərlə əlaqədə olan məhdudiyyətlər yoxdur.

### Oğlanlara və kişilərə məhrəm olanlar

1-Ana və nənə;
2-Qız və qızın övladı;
3-Bacı;
4-Bacının övladları (bacının qızları);
5-Qardaşın övladları (qardaşın qızları);
6-Bibi (həm özünün bibisi, həm də atasının və anasının bibisi);
7-Xalası (həm özünün xalası, həm də atasının və anasının xalası).[1]

Qeyd olunanlar nəsəbi qohumluq (qan qohumluğu) səbəbi ilə bir-biri ilə məhrəmdirlər. Başqa bir dəstə isə izdivac səbəbi ilə oğlanlara və kişilərə məhrəm olurlar ki, aşağıdakılardan ibarətdir:

1-Qayınana və onun anası;
2-Arvadın (başqa ərindən olan) qızı, hətta öz qızı olmasa belə. Bu şərtlə ki, o qadınla yaxınlıq etmiş olsun.
3-Atanın arvadı (ögey anası);
4-Oğulun arvadı (gəlin).[2]

Qeyd olunan şəxslərdən başqa yerdə qalan bütün qadınlar naməhrəmdir, hətta insanın qardaşının arvadı və arvadının bacısı olsa belə. Baxmayaraq ki, arvadının bacısı (baldızı) ilə izdivac etməsi, onun öz həyat yoldaşı olduğu vaxta qədər haramdır. Yəni iki bacı ilə evlənmək caiz deyildir. Amma birinci bacısı dünyadan getsə, yaxud ona təlaq versə, eybi yoxdur.[3]

### Başqalarına baxmaq

1-Ərlə arvad bir-birinin hər bir yerinə, hətta ləzzət məqsədi ilə olsa belə baxa bilərlər.[4]

2-Ər-arvaddan başqa hər bir şəxsin başqasına baxması əgər ləzzət almaq məqsədi ilə olsa haramdır. İstər eyni cinsdən olsunlar, məsələn bir kişi başqa bir kişiyə baxsın, yaxud eyni cinsdən olmasınlar, məsələn kişinin qadına baxması kimi; istər məhrəmlərdən olsun, istərsə də qeyri-məhrəmlərdən. Bədənin hansı bir yerinə baxmağın da fərqi yoxdur.[5]

3-Kişinin qadının bədəninə baxması ləzzət məqsədi ilə olmasa onun xüsusi hökmləri vardır ki, indi onları bəyan edirik.

---

[1] *"Təhrirul-vəsilə", 2-ci cild, səh.263 və 264*
[2] *"Təhrirul-vəsilə", 2-ci cild, səh.277, məsələ:1*
[3] *"Təhrirul-vəsilə", 2-ci cild, səh.280, məsələ:15*
[4] *"Təhrirul-vəsilə", 2-ci cild, səh.243, məsələ:15-19*
[5] *Yenə orada*

**Kişinin qadına baxması-**

- 1-Məhrəm
  - 1-Övrətinə: haramdır
  - 2-Övrətdən başqa yerlərə: caizdir
- 2-Naməhrəm
  - 1-Üzünə və biləyə qədər əllərinə: caizdir
  - 2-Bədənin sair üzvlərinə: haramdır[1]

## EVLƏNMƏK

1-Bir kəsin həyat yoldaşı olmadığına görə harama düşürsə, məsələn naməhrəmə baxırsa, onun izdivac etməsi vacibdir.[2]

### Layiqli həyat yoldaşı

Yaxşı olar ki, insan izdivac etmək istədiyi şəxsin xasiyyətinə, xüsusiyyətlərinə diqqət yetirsin, təkcə onun gözəlliyi və mal-dövləti ilə kifayətlənməsin. Peyğəmbərin (s) nəzərində layiqli həyat yoldaşının xüsusiyyətləri aşağıdakılardır:

*Məhəbbətli olsun;
* İffətli və pak olsun;
* Öz ailəsində əziz olsun;
* Əri qarşısında təvazökar olsun;
* Yalnız öz əri üçün zinətlənib bəzənsin;
* Öz ərinə itaət etsin.[3]

### Nalayiq həyat yoldaşın xüsusiyyətləri

Peyğəmbəri Əkrəmdən (s) nəql olunan rəvayətlərdə nalayiq həyat yoldaşın xüsusiyyətləri aşağıdakılar kimi qeyd olunur:
* Öz ailəsində xar olsun;
* Həsədçi və kinli olsun;
* Təqvasız olsun;
* Başqaları üçün bəzənsin;
* Ərinə itaət etməsin.[4]

## İzdivac əqdi

1-İzdivacda onun xüsusi siğəsi oxunmalıdır və qızla oğlanın razı olması və bir-birini istəməsi kifayət deyildir. Deməli izdivac əqdinin oxunmadığı vaxta qədər elçilik məhrəm olmağa səbəb deyil və sair naməhrəm qadınlarla heç bir fərqi yoxdur.[5]

2-Əgər izdivac əqdinin bir hərfi səhv oxunsa və nəticədə mənası dəyişsə əqd batildir.[6]

1 "Tovzihul-məsail", məsələ:2433
2 "Tovzihul-məsail", məsələ:2443
3 "Təhrirul-vəsilə", 2-ci cild, səh.237
4 Yenə orada
5 "Tovzihul-məsail", məsələ:2663
6 "Tovzihul-məsail", məsələ:2371

XXXXIV DƏRS

# MƏSCİDİN HÖKMLƏRİ, QURAN, SALAM VERMƏK

## *Məscidin hökmləri*

**Bu işlər məsciddə haramdır:**

- Məscid qızılla zinətləndirilməməli[1];
- Əgər məscid xarab olsa da belə, onu satmaq;
- Məscidin nəcislənməsi. Əgər nəcis olarsa dərhal paklanılmalıdır.
- Məsciddən torpaq və ya qum aparmaq. Artıq torpağı çıxmaq şərti ilə.

**Məscidlə bağlı bu işlər müstəhəbdir:**

- Hamıdan tez məscidə getmək və hər kəsdən sonra məsciddən çıxmaq;
- Məscidin işığını yandırmaq;
- Məscidi təmizləmək;
- Məscidə daxil olanda əvvəl sağ ayaqla daxil olmaq;
- Məsciddən çıxanda əvvəl sol ayaqla çölə çıxmaq;
- Məsciddə məscidə ehtiram (təhiyyət) niyyəti ilə iki rəkət namaz qılmaq.
- Məscidə gedərkən ətirlənmək və ən yaxşı paltarı geyinmək;

**MƏSCİDDƏ AŞAĞIDAKI İŞLƏR MƏKRUHDUR:**

- Minarələri məscidin banından artıq qaldırmaq;
- Məsciddə namaz qılmadan keçid məhəlli ünvanında ötüb keçmək;
- Ağız və burunun suyunu məscidin (həyətinə) atmaq;
- Məsciddə yatmaq (çarəsizlik halı istisnadır).
- Məsciddə səsi ucaltmaq (azan üçün səsi ucaltmağın eybi yoxdur.);
- Məsciddə alış-verişlə məşğul olmaq;
- Dünya işləri barəsində söhbət etmək;
- Soğan və ya sarmısaq yedikdən sonra ağzının iyi ilə insanları əziyyət edənin məscidə getməsi.

**QURANIN HÖKMLƏRİ**

1-Quran hər zaman gərək pak və təmiz olsun. Quranın xətt və vərəqini murdarlamaq haramdır. Əgər nəcis olarsa onu dərhal paklamaq gərəkdir.

2-Əgər Quranın üz cildi nəcis olarsa və Qurana hörmətsizlik olarsa onu suya çəkmək lazımdır.

**Quranın xətlərinə toxunmaq**

1-Dəstəmazı olmayan kəsə bədəninin hər hansı hissəsini Quranın yazısına toxundurması haramdır.

2-Bütün bu məqamlarda Quranın yazısına dəstəmazsız toxunmaq haram sayılır:

* Quranın yazısında ayələrlə kəlmələr, hərflər və hətta hərəkələr arasında bir fərq yoxdur.

* Quranın üzərinə yazıldığı şey kağız olsun ya torpaq, divar olsun ya parça heç bir fərqi yoxdur.

* Quranın yazısında fərqi yoxdur qələmlə, tabaşirlə yazılmış olsun ya mətbədə çap olunsun, ya da ki, başqa bir şeylə.

* Quranın yazısı Quran kitabında olmasa da ona toxunmaq olmaz. Belə ki, əgər Quranın bir ayəsi başqa bir kitablarda olsa da, onun bir kəlməsi bir kağızın üzərində olsa və hətta Quran səhifəsinin ya da üzərində ayə olan başqa kitab səhifəsinin cırılmışına da dəstəmazsız toxunmaq haramdır.

3-Aşağıdakı hallar Quran yazısına toxunmaq hesab olunmadığından haram deyildir:

* Ona şüşə ya plastik arxasından toxunmaq;

---

[1] *Gülpaqani: Ehtiyati vacibə əsasən zinətləndirməsinlər, Xoyi, ehtiyati müstəhəbbə əsasən.*

* Quran vərəqinə, cildinə və ətrafına toxunmaq;
* Quranın tərcüməsi hər dildə olursa-olsun. Lakin Allah ismi hər dildə olursa-olsun dəstəmazsız toxunmaq haramdır. Məsələn: Xuda, (farsca) Ğmerti (gürcücə).

4-Quranla qeyri Quran arasında müştərək olan «Momin», «Əlləzinə» kimi kəlmələri yazan əgər Quran sözləri niyyəti ilə yazsa ona da dəstəmazsız toxunmaq haram olur.
5-Quran xətlərinə cənabətli olanın toxunması da haramdır.
6-Cənabətli şəxs Quranın səcdə ayələri olan surələrini də oxumamalıdır. (Bu haqda daha geniş şəkildə 10-cu dərsdə keçdik).
7-Cünub şəxsə Quranla bağlı bu işlər məkruhdur:
* Vacib səcdəsi olmayan surələrin yeddi ayəsindən artıq oxumaq;
* Bədəninin bir hissəsini Quran xətlərinin arasına, cild və ətrafına vurmaq;
* Quranı üzərində saxlamaq;
* Quranı üzərində gəzdirmək, oxumaq, yazmaq və haşiyəsinə toxunmaq üçün dəstəmaz almaq müstəhəbdir.

**Salam etmənin hökmləri**

1-Başqasına salam vermək müstəhəbb, salamın cavabını vermək isə vacibdir.
2-Namaz qılan halda olan kəsə salam vermək məkruhdur.
3-Namaz qılana salam verilsə onun cavabında salam verən kimi deməlidir: yəni «Salam» ya «Salam əleykə».
4-Namaz qılan kəs kimsəyə salam verə bilməz.
5-Salamın cavabını dərhal vermək lazımdır. Təxirə salan günah etmişdir.
6-Əgər hər iki nəfər eyni zamanda bir-birinə salam versə, gərək onlardan hər biri digərinə salamın cavabını bildirsin.
7-Kafirə salam vermək məkruhdur. Əgər o bir müsəlmana salam versə, vacib ehtiyata görə cavabında desin: «Əleykə» ya təkcə «salam».

**Salam vermənin adabı**
1-Müstəhəbdir:
* Minikdə olan piyadaya;
* Ayaq üstə olan oturana;
* Az qruppa çox qrupa (kütləyə);
* Kiçik böyüyə salam versin.
2-Namazdan qeyri halda müstəhəbdir salamın cavabını ondan yaxşı versin, əgər bir kəs desə: «Salam əleykum» müstəhəbdir cavabında deyilsin: Salam əleykum və rəhmətullah».
3-Kişinin qadına, xüsusilə də gənc xanıma salam verməsi məkruhdur.

# QƏSB, AND, YALAN, QEYBƏT

## QƏSBİN TƏRİFİ

***Qəsb*** – insanın nahaqdan və zülm üzündən başqasının malını, yaxud hüququnu mənimsəməsinə deyilir.

Qəsb böyük günahlardandır. Qəsbkar qiyamət günü ağır əzabla üzləşəcək.

***Qəsbin hökmləri***

- malın qəsbi
  - ***şəxsi***; evdən, yaxud mağazadan nəyisə oğurlamaq kimi
  - ***ümumi***; idarədən nəyisə oğurlamaq, yaxud xums və zəkat ödəməmək kimi
- hüququn qəsbi
  - ***şəxsi***; məsciddə başqasının yerini tutub orada namaz qılmaq kimi
  - ***ümumi***; camaatın məsciddən, körpüdən, yaxud küçədən keçməsinin qarşısını almaq kimi.

### *Qəsbin hökmləri*

1– Qəsbin bütün növləri haramdır və böyük günahlardan sayılır.

2– Əgər insan bir şeyi qəsb etsə, haram iş görməkdən əlavə, onu sahibinə qaytarması da vacibdir. Əgər həmin mal tələf olsa, onun əvəzini verməlidir.

3 – Əgər qəsb olunmuş malı xarab etsə, onu gərək təmir əlhaqqı ilə bir yerdə sahibinə versin. Əgər yenidən düzəlişetmə malın qiymətini aşağı salarsa, əvvəlki ilə müqayisədə fərqi ödəsin.[1]

4 – Əgər qəsb olunmuş malı dəyişib əvvəlkindən daha yaxşı bir şəklə salsa, (məsələn, qəsb olunmuş velosipedi təmir etsə) mal sahibi də malını həmin şəkildə istəsə, malını ona qaytarmalıdır. Çəkdiyi zəhmət üçün mal sahibindən muzd ala bilməz. Eyni zamanda həmin malı sahibinin icazəsi olmadan əvvəlki vəziyyətə qaytarmağa da haqqı yoxdur.[2]

## AND İÇMƏK

1-Əgər bir şəxs yaradan tanrının (Allah, Xuda kimi) adlarından birinə and içsə ki, filan işi görəcəm və ya tərk edəcəm, ona əməl etməsi vacibdir. Məsələn and içə ki, oruc tutacam və ya siqareti tərk edəcəm.

2-Əgər qəsdən öz andına əməl etməsə kəffarəsini verməlidir. Andın kəffarələri aşağıdakılardan ibarətdir:

* Bir qul azad etmək.
* 10 fəqiri doyuzdurmaq.
* 10 fəqiri geydirmək. (paltarla təmin etmək).

Əgər bunlardan heç birini yerinə yetirə bilməsə üç gün oruc tutmalıdır.

3-Əgər bir kəs düz olan bir şeyə and içərsə, onun andı məkruhdur. Lakin yalan bir şeyə and içərsə haramdır və böyük günahlardan hesab olunur.

---

[1] *"Tovzihul-məsail", məsələ:2553*

[2] *"Tovzihul-məsail", məsələ:2554*

### *Yalan*

1– Yalan danışmaq haram işlərdən və böyük günahlardan sayılır.

2– Çox mühüm bir iş üçün məsələn, bir nəfərin öldürülməsinin, yaxud ailənin dağılmasının qarşısını almaq üçün yalan danışmağın eybi yoxdur.

### *Qeybət*

Bir nəfərin xoşagəlməz bir işini, ya xüsusiyyətini, başqalarının bilməsini istəmədiyi halda, xəbərdar olmayanlara söyləmək, onun arxasıyca danışmaq «qeybət» sayılır.

**Qeybətin hökmləri**

1-Qeybət həm danışana, həm də eşidənə haramdır.

2-Əgər bir nəfər başqa birisinin qeybətini etdikdən sonra peşman olub tövbə etsə, haqqında qeybət etdiyi şəxsin özünə bu haqda deməsi lazım deyil.

3-Bir şəxs namaz qılmırsa, lakin günahını da aşkar etmirsə onun qeybətini etmək caiz deyildir. (Baxmayaraq ki, onu əmr be məruf etmək lazımdır).

## *ÜZÜ QIRXMAQ*

1- Üzü qırxmaq istər ülgüclə olsun istərsə də maşınla ehtiyati-vacibə görə haramdır.

Sual: 18, 19 yaşlarında olan bir gənc üzündə tük bitsin və ya yaxşı tüklənsin deyə iki-üç dəfə üzünə ülgüc vura bilərmi?

Cavab: Ehtiyati-vacibə görə üzü qırxmamalıdır. Lakin üzdə tük bitməyincə ülgüc vurmanın maneçiliyi yoxdur.[1]

---

[1] *İstiftat c.2, səh.30, s.79*

# [?] SUALLAR VƏ TAPŞIRIQLAR

## ƏQAİD

1. Dinimizin əsaslarını hansı etiqadlar təşkil edir?
2. Qoca qadın Tanrının varlığını necə isbat etdi?
3. Tanrının varlığına inam haradan qaynaqlanır və bunu izah etməyə çalışın?
4. İmam Sadiq (ə) Tanırya inamın fitri olmasını necə isbat edir?
5. Tanrının varlığını isbat etmək üçün bəzi misallar göstərin.
6. İmam Sadiqlə (ə) Əbu Şakir Disani arasındakı söhbətin məzmunu nədən ibarət idi?
7. Kainatın təsadüf nəticəsində yaranmasının mümkünsüzlüyünü izah edin.
8. Təsadüfün mümkünsüzlüyünə misal gətirin.
9. Allahın təkliyinə birinci dəlil nədən ibarətdir?
10. Bu məsələni isbat etmək üçün bəzi misallar göstərin.
11. Allahın təkliyinə ikinci dəlil nədən ibarətdir?
12. Allahın elminə dair Quran ayələrini sadalayın.
13. Həzrət Əli (ə) qeyri-mümkün varlıqların vücuda gəlməsi barədə verilən suala necə cavab verdi?
14. «Allah diridir» deyiləndə nə nəzərdə tutulur?
15. Hansı dəlilə əsasən Allah görən və biləndir?
16. Ədalət sifəti nə üçün Allaha xasdır?
17. Xoşagəlməz hadisələrin fəlsəfəsi nədən ibarətdir?
18. İnkar sifətlər deyildikdə nə nəzərdə tutulur?
19. Allahın inkar sifətlərini sadalayın.
20. Peyğəmbər kimlərdir və onların ümumi sayı nə qədərdir?
21. İmam Sadiq (ə) peyğəmbərlərin göndərilməsinin vacibliyi haqqında nə buyurur?
22. Peyğəmbərlərin məsumluğunu necə isbat etmək olar?
23. Peyğəmbərlər öz peyğəmbərliklərini isbat etmək üçün nəyə malik olmalıdırlar?
24. Peyğəmbərləri tanımaq üçün hansı yollar var?
25. Peyğəmbərlər hansı çətinliklərlə üzləşmişlər?
26. Əqidəmizə əsasən, peyğəmbərlər hansı xüsusiyyətlərə malik olmalıdırlar?
27. Ulul-əzm peyğəmbərlər və onlara nazil olan kitablar hansılardır?
28. Axırıncı peyğəmbər kimdir və onun möcüzəsi nədən ibarətdir?
29. Quran hansı cəhətlərdən möcüzəli kitabdır?
30. İmamət nədir?
31. İmamın vacibliyini dəlil əsasında isbat edin?
32. Əbu Əli Sina bu barədə nə deyir?
33. «Ğədir» hədisinin məzmunu nədən ibarətdir?
34. İmamətə dair daha hansı hadisələr var?
35. İmamların adlarını ardıcıllıqla sayın.
36. Peyğəmbərimiz sonuncu imam barəsində nə buyurub?
37. Sonuncu imamın xüsusiyyətlərini sadalayın?
38. İmam (ə) qeybdəkən, bizim vəzifələrimiz nədən ibarətdir?
39. Məad nədir?
40. Allahın ədalətinin və hikmətinin məad ilə əlaqəsini izah edin?
41. Məadın olacağına ikinci dəlil nədir?
42. Məad cismani olacaq, ya ruhani?
43. Məada inamın hansı təsirləri var?
44. Axirət aləminin mərhələlərini sadalayın.
45. Sirat körpüsünün neçə dayanacağı var?
46. Şəfaət nədir?
47. Vəd və Vəid nədir?

# TARİX

1. Bəni Haşim hansı qəbilədən idilər?
2. Əbdül-müttəlib zamanında hansı mühüm hadisə baş vermişdi?
3. Hansı şəhərdə və nə vaxt O, peyğəmbərliyə çatdı?
4. Peyğəmbərin (s) Mədinədə ilk mərhələdə gördüyü işləri yazın.
5. Müsəlmanların Ühüd müharibəsində məğlub olmasının səbəbi nə idi?
6. Xəndək müharibəsinin müqəddəratını hansı hadisə həll etdi?
7. Xeybər müharibəsində hansı taktikadan istifadə olundu?
8. Xristian alimləri nəyə görə Peyğəmbərlə (s) mübahilə etmədilər?
9. O, Həzrət Əlini (ə) harada xəlifə seçdi və onun haqqında nə dedi?
10. Peyğəmbərimizin (s) əxlaqi xüsusiyyətlərindən nümunələr söyləyin.
11. Niyə Əli (ə) Kəbədə dünyaya gəldi?
12. Məkkə müşrikləri Peyğəmbərimiz (s) haqqında hansı plan cızmışdılar və bu zaman o Həzrətin canını kim qorudu?
13. Həzrət Əli (ə) xristianla necə ədəblə davranmışdı?
14. Əli (ə) nə üçün düşməninin sinəsinin üstündən qalxaraq həmin anda onu öldürmədi?
15. Peyğəmbər (s) Əlini (ə) xəlifə təyin edəndən sonra onun barəsində nə buyurdu?
16. Qədir-xum hadisəsini necə qiymətləndirirsiniz?
17. Əlini (ə) zərbətləyən kim idi və hansı qrupdan idi?
18. İmam Əli (ə) öz qatili barədə oğlu imam Həsənə (ə) nə vəsiyyət etdi?
19. Nəyə görə Peyğəmbər (s) Əlinin (ə) Fatimə (s.ə) ilə evlənmək istəyini qəbul etmişdi?
20. Fatimə (s.ə) məsciddən qayıdandan sonra İmam Əliyə (ə) nə söylədi?
21. Həzrət Fatimənin (s.ə) qəbri niyə gizlin qaldı?
22. Nə üçün həzrət Peyğəmbər (s) oğlu və nəvəsi Həsəni çox sevərdi?
23. İmamın ən mühüm xasiyyətini izah edin.
24. O, qoca kişini necə başa saldı ki, səhv edir?
25. Müaviyə imamı necə yalqız qoydu?
26. İmam Həsən (ə) nəyə görə sülhü qəbul etdi və nə üçün zəhəri içdi?
27. Nə üçün imamın adını Hüseyn qoydular?
28. Həzrət (ə) kufəlilərin dəvəti qarşısında nəyə görə Müslimi göndərdi?
29. Hüseyn (ə) və əshabı Aşura günündə məğlub olmadılar. Nəyə görə?
30. Nə üçün həzrət Hüseynin xatirəsi ildən-ilə daha da möhkəmlənir?
31. Həzrətin xüsusiyyətləri haqqında nə bilirsiniz?
32. İmam Səccad(ə) nə üçün xəstələndi?
33. İmam Səccad (ə) Kufə və Şamda hansı mövzuları izah etdi?
34. Fərəzdək nəyə görə imam Zeynul-abidini məhd etdi?
35. Zalım hökmdarlar nə üçün imamı nəzarət altında saxlayırdılar?
36. Nəyə görə imam «Baqir» ləqəbi ilə məşhurlaşdı?
37. Hişamın məclisində nələr baş verdi?
38. İmam (ə) Əbdülməlikin qarşılaşdığı çətinliyi necə həll etdi?
39. İmam (ə) hansı xəlifənin əmri ilə şəhid edildi və harada torpağa tapşırıldı?
40. İmam Səccad (ə) şəhid olanda İmam Sadiq (ə)ın neçə yaşı var idi?
41. Nəyə görə İmam Sadiq (ə) bahalı paltar geyinirdi?
42. Nə üçün İmam Sadiq (ə) da başqa adamlar kimi işləyirdi?
43. Niyə evindəki buğdanı satmağı xidmətçisinə əmr etdi?
44. Həzrət Mədinədə İslami universiteti qurdu?
45. Şiə məzhəbi niyə Cəfəri məzhəbi adlanır?
46. İmam Kazim (ə) öz düşmənləri ilə necə davranırdı?
47. İmam Kazimin (ə) təbliğat üsulu necə idi?
48. İmamı, birinci dəfə hansı xəlifənin əmri ilə Bağdada apardılar?
49. Nəyə görə Harun Əli (ə) xanədanına qarşı pis rəftar edirdi?
50. İmam (ə) zindanda ikən Haruna nə yazdı?
51. İmam Rzanın (ə) əxlaqi xüsusiyyətlərindən beşini sayın.
52. Məmun həzrət Rza (ə) ilə mübahisə məclisləri qurmaqla hansı məqsədi güdürdü?
53. Məmun nə üçün imamı Xorasana dəvət etdi?
54. İmamın şəhid edilməsinə səbəb olan amillər hansılardır?
55. İmam Cavad (ə) qeyb aləminə əlaqəsi necə idi?
56. Nəyə görə Məmun qızını o həzrətə verməyə səy göstərirdi?
57. Həzrət (ə) oğluna nə yazdı?
58. İmam hansı xəlifənin zamanında şəhid olundu və nə üçün?
59. İmam Hadinin (ə) hansı əxlaqi xüsusiyyətləri var idi?
60. Mütəvəkkilə nə xəbər çatdırmışdılar və İmamın onun məclisində oxuduğu şeirin məzmunu nədən ibarət idi?
61. Nəyə görə imam Həsən Əskəri (ə) nəzarət altında idi?
62. Mütəvəkkilin vəziri imam haqqında nə düşünürdü?
63. Necə oldu ki, imam müsəlmanları nigarançılıqdan qurtarıb xristianları ifşa etdi?
64. İmam (ə) xalqla necə rəftar edirdi?
65. İmamın zamanında şiələrin vəziyyəti necə idi?
66. İmam Zaman (ə) hansı şəraitdə dünyaya gəldi?
67. O Həzrət neçə yaşında imamətə çatdı?
68. Qeybəti-kubra dövründə möminlərin vəzifəsi nədən ibarətdir?
69. Həzrətin uzunömürlülüyünü necə izah etmək olar?

# ƏXLAQ

1. Quran elm sahiblərinə necə qiymət verir?
2. Peyğəmbər (s) alimin hansı məqama layiq olduğunu buyurur?
3. Peyğəmbərdən (s) nəql olunmuş hədisdə kimlərin cəhənnəm odundan nicat tapacaqlarına işarə olunur?
4. Peyğəmbərdən (s) nəql olunmuş hədisdə hansı dəlillər üzündən alimlər abid və zahidlərdən üstün hesab olunurlar?
5. Allah-taala Qurani-Kərimdə ata-anaya yaxşılıq haqda nə buyurur?
6. İmam Səccad (ə) «Hüquq risaləsi» hədisində ananın haqqı barədə nə buyurur?
7. Peyğəmbər (s) valideynlərin üzünə ağ olmaq barədə nə buyurur?
8. Nəql olunmuş hədisə əsasən valideynə qarşı olunan kobudluqların bir neçəsini misal çəkin.
9. İmam Sadiq (ə) İsra surəsinin 24-cü ayəsinin izahında nə buyurur?
10. "Sileyi-rəhm" deyildikdə nə nəzərdə tutulur?
11. Nəql olunmuş hədislərdə “sileyi-rəhm" haqda nə deyilir?
12. İmam Rza (ə) "sileyi-rəhm" haqda nə buyurmuşdur?
13. Həzrət Peyğəmbər (s) qohumluq əlaqələrinin kəsilməsi haqda nə buyurmuşdur?
14. Həzrət Peyğəmbərin (s) qonşular haqda etdiyi tövsiyələrdən birini deyin.
15. Həzrət Əli (ə) qonşularla gözəl rəftar etmək haqda nə buyurmuşdur?
16. Qonşulara əziyyət etmək haqda nəql olunmuş hədisi nəql edin.
17. Seyyid Bəhrul-ülum qonşusundan xəbərsiz olan şəxs barədə nə buyurmuşdur?
18. İslam alimləri əxlaqı necə tərif etmişlər?
19. Allah-taala Qurani-kərimdə Peyğəmbərin (s) gözəl əxlaqını necə vəsf edir?
20. Peyğəmbərin (s) əxlaqi davranışlarından birini nəql edin.
21. Gözəl davranışın qoyduğu təsirlərdən biri haqda danışın.
22. Peyğəmbər (s) kobud rəftar haqda nə buyurmuşdur?
23. Təvazökarlığı izah edin.
24. Allah-taala Furqan surəsinin 63-cü ayəsində əməli-saleh insanların ilk növbədə hansı xüsusiyyətini qeyd edir?
25. İmam Rza (ə) təvazökarlığın lazımi həddi barədə nə buyurur?
26. Təvazökarlıq nə kimi müsbət nəticələr verir?
27. Allah-taala Qurani-Kərimdə əhd-peymanın pozulması haqda nə buyurur?
28. Əli (ə) Malik Əştərə göndərdiyi əhdnamədə əhdə vəfalı olmaq haqda nə buyurur?
29. Əhdə vəfalı olmaq islam dinində nə kimi əhəmiyyət daşıyır?
30. Nə üçün Allah-taala Həzrət İsmayılı (ə) "Sadiqul-vəd" adlandırır?
31. Əli (ə) əhd-peymanın bağlanılması üçün hansı şərtləri zəruri hesab edir?
32. Səbirli və təmkinli olmaq dedikdə nə nəzərdə tutulur?
33. Nəql olunmuş hədislərdə nə üçün qəzəb mənfi xüsusiyyət kimi qələmə verilir?
34. Əli (ə) qəzəbi udmaq haqda nə buyurur?
35. Əli (ə) Əbuzəri Rəbəzəyə yola salarkən qəzəb haqda ona nə deyir?
36. Səbirli və təmkinli olmağın verdiyi nəticələri izah edin.
37. Əli (ə) təmkinli olmağı nə üçün tövsiyə edir?
38. "Qəzəbi udmaqla" təmkinli olmaq arasında olan əlaqəni izah edin.
39. Peyğəmbər (s) və Məsum imamların onlara qarşı edilən kobudluqların qarşısında göstərdikləri işləri izah edin.
40. Əli (ə) valilərdən birinin beytul-malı mənimsədiyi üçün ona göndərdiyi məktubda nə yazır?
41. Nə üçün yalnız əməli-saleh insanlar əfv və güzəşt olunmalıdırlar?
42. İmam Sadiqdən (ə) nəql olunmuş hədisdə dünya və axirətdə bəyənilən neçə xüsusiyyətə işarə olunur?
43. İnsanlar varlı və ya yoxsul olduqları üçün nəyə görə haqq-ədalətin əksinə hökm çıxarmamalıdır?
44. Əli (ə) imam Həsənə (ə) etdiyi vəsiyyətdə insafa riayət etməkdə nəyi əsas meyar hesab edir?
45. İnsafın verdiyi nəticələrin bir neçəsini izah edin.
46. Başqalarını özü ilə bərabər tutmaq nə üçün mühüm əxlaqi xüsusiyyətlərdən hesab olunur?
47. İmam Sadiq (ə) ən ağır ilahi vəzifə nəyi hesab edir?
48. Zarafat hansı şəraitdə müsbət hal kimi dəyərləndirilir?
49. Əli (ə) zarafat haqda nə buyurur?
50. Gülərüzlülüyün axirət nəticələri haqda nəql olunmuş hədisi izah edin.

51. Çox zarafat etmək nə üçün pislənmişdir?
52. Nə üçün Peyğəmbər (s) müsəlmanların xeyir və şərrindən uzaq düşən şəxsi [həqiqi] müsəlman hesab etmir?
53. Qurani-Kərimdə möminlərin əlaqələri haqda nə deyilir?
54. Möminlərin çətinliklərinin aradan qaldırılması haqda nəql olunmuş hədislərdən bir neçəsini izah edin.
55. İmam Sadiq (ə) möminlərin ehtiyaclarının ödənilməsi haqda nə buyurur?
56. Peyğəmbər (s) Allah-taalanın ən sevdiyi işin nədən ibarət olduğu haqda nə buyurur?
57. Möminlərin qəlblərinə sevinc bəxş etmək yalnız elə onların maddi çətinliklərini aradan qaldırmaqlamı mümkündür?
58. Nəql olunmuş hədislərə nəzər salmaqla, deyin görək nə üçün möminlərin arasında yaranmış ixtilafı həll etmək Şeytanın qəm-qüssəsinə səbəb olur?
59. Allah-taala Peyğəmbərə (s) yetim və kimsəsizlər haqda nəyi əmr edir?
60. Yetim və kimsəsizləri öz himayəsinə götürən şəxsləri hansı savaba nail olacaqlarını ixtisarla bəyan edin.
61. Yoxsullara maddi yardım etdikdən sonra nə üçün onlara minnət qoyulmamalıdır?
62. Salama dəlalət edən ayələrdən hansı nəticəyə gəlmək olur?
63. İslam nöqteyi-nəzərindən kimlər daha tez salam verməlidir?
64. Salamın cavabı necə verilməlidir?
65. Əmanət neçə qismdir?
66. Əmanətdarlığa dair ayə və hədisləri misal göstərin.
67. Quran ayələri kimlərlə dostluq etməyi tövsiyə edir?
68. Nəql olunmuş hədisləri nəzərə alaraq kimlərlə dostluq və yoldaşlıq etməyə tövsiyə olunur?
69. Nə üçün hamı ilə dostluq etmək olmaz?
70. Sağlam əqidəyə malik olmayan şəxslərlə ünsiyyətdə olmağın nə kimi zərərləri vardır?
71. Üqbə ibn Əbi Muitin əhvalatından hansı nəticələri əldə etmək olar?
72. Qeybətin tərifini deyin.
73. Qurani-kərim qeybət edən şəxsi nə üçün ölü ətini yeyənlərə bənzədir?
74. Peyğəmbər (s) müsəlmanların şəxsiyyət və abır-həyalarının qorunmasını nə üçün vacib hesab edir?
75. Xəbərçiliyin qadağan olunmasına əsas səbəb nədir?
76. Xəbərçilərin müqabilində üzərimizə hansı vəzifələr düşür?
77. Məsxərə və istehza nə kimi mənfi nəticələr verir?
78. Həsədin tərifini deyin.
79. Həsədin növlərini bəyan edin.
80. Qibtə nədir?
81. Yalanın tərifini deyin.
82. Yalanın hansı mənfi xüsusiyyəti diqqəti daha çox cəlb edir?
83. Quranın yalançılara olan baxışını izah edin.
84. Nəql olunmuş hədislərdə yalan necə vəsf olunur?
85. Peyğəmbər (s) diş yuyulduqdan sonra qılınan namazın dəyər və əhəmiyyəti haqda nə buyurur?
86. Peyğəmbərin (s) diş yumaq haqda sadaladığı müsbət xüsusiyyətlərdən bir neçəsini əzbərdən deyin.
87. Dişlər nə zaman və necə yuyulmalıdır?
88. Məsum imamlar (ə) baş və üz tükləri haqda nə buyurmuşlar?
89. Məsum imamlar (ə) baş və üzün daranması haqda nə kimi tövsiyələr etmişlər?
90. İslam nöqteyi-nəzərindən dırnaqlar nə zaman və necə qısaldılmalıdır?
91. Peyğəmbər (s) gözəl ətirlər haqda nə buyurur?
92. Peyğəmbər (s) və məsum imamlar (ə) yaşayış yerlərinin təmizliyi haqda nə fikirdə olmuşlar?
93. Ayaq yolunda hansı tərəfə oturmaq haram hesab olunur?
94. Ayaq yolunda kiminləsə danışıb və ya kiməsə cavab vermək qadağandırmı?
95. Ayaq yolunun qaydalarını ixtisarla bəyan edin.

# ƏHKAM

1. İslamın əməli proqramlarının beş nümunəsini bəyan edin.
2. İctihad dərəcəsinə yetişən bir xanım öz fətvasına uyğun əməl edə bilərmi? Yoxsa başqasındanmı təqlid etməlidir?
3. Adil kimdir və necə məlum olur?
4. Meyyitə təqlid etməkdə qalan şəxsin zaman şəraitləri ilə əlaqədar irəli çıxan məsələlərdə (müharibə və cihad kimi) vəzifəsi nədir?
5. Başqasının İctihad dərəcəsinə yetişməsinə və Ələm olmasına kimlər şəhadət verə bilərlər?
6. Vacib əməlləri kimlər yerinə yetirməlidirlər?
7. Ölmüş ilan, əqrəb və qurbağanın hökmü nədir?
8. Dişi fırçalayan zaman ağızda müşahidə olan qanın hökmü nədir?
9. Dünyadan getmiş hansıinsanın bədəni pakdır?
10. Ölmüş qoyunun yunundan istifadə etmək olarmı?
11. Mütləq və muzaf suyun fərqi nədir?
12. Quyu və axar suyun fərqi nədir?
13. Uzunluğu 25, eni 5 və hündürlüyü bir qarış olan qabın suyu kürrdür, ya yox?
14. Bir nəfər rütubətli ayağını nəcis xalçanın üzərinə qoymuşdur, amma ayağının rütubətinin xalçaya sirayət edib-etmədiyini bilmir, bu halda ayağı nəcis olurmu?
15. Kürr suyu necə nəcis olar?
16. Yağışın yağması dayanan halda bir yerə yığışmış yağış suyu hökmü elə yağış suyu hökmündədirmi?
17. Əgər kürrdən artıq tutuma malik olan su mənbəyində mövcud olan suyun kürr olub-olmamasında şəkk etsək, hansı hökmə malikdir?
18. Qan ilə nəcis olmuş paltarı az su ilə necə pak etmək olar?
19. Mənzilin divarının bir qismi nəcis olmuşdur. Onu necə paklamağı izah edin.
20. Nəcis palçığa bulaşan ayaqqabının altı yol getməklə nə vaxt pak olar?
21. Günəş taxtanı, buğdanı və düyünü pak edirmi?
22. Əgər kafir şəhadət kəlmələrini farsca və yaxud ingiliscə desə pak olarmı?
23. Dəstəmazın əməllərini ardıcıllıqla deyin?
24. Saçının bir hissəsini qabağa darayan şəxsin məsh edərkən vəzifəsi nədir?
25. Baş və ayaqların məshində müştərək olan məsələlərdən dördünü bəyan edin.
26. Yol gedə-gedə başa məsh çəkmək olarmı?
27. Şiddətli soyuqda ayaqqabının və ya corabın üzərindən məsh olarmı?
28. Başa və ayaqlara çəkilən məshin vacib və müstəhəbb miqdarını deyin.
29. Dövlət müəssisələrinin dəstəmazxanasında qeyri işçilərin dəstəmaz almasının hökmü nədir?
30. İçilmək üçün nəzərdə tutulan soyuducu, yaxud mənbə suyundan dəstəmaz almağın hökmü nədir?
31. Özü dəstəmaz ala bilməyən şəxsin vəzifəsi nədir?
32. Dəstəmazda qürbət qəsdinin nə olduğunu izah edin.
33. Dəstəmazda tərtiblə muvalatın fərqi nədir?
34. Ayağının üç barmağının üstünü cəbirə örtən şəxsin dəstəmazla əlaqədar vəzifəsi nədir?
35. Cəbirə dəstəmazı almanı bir misalla izah edin.
36. Cəbirənin üzərində olan rütubətlə məsh etmək olarmı?
37. Əgər cəbirə nəcis olsa, onun götürülməsi də mümkün olmasa vəzifə nədir?
38. Mürgüləmək dəstəmazı batil edirmi?
39. Bir şəxs əgər meyyitə toxunarsa dəstəmazı batil olarmı?
40. Qadınla kişi arasında müştərək olan qüsullar hansılardır?
41. Bir şəxs yuxudan oyanarkən paltarında maye görür. Lakin hər nə qədər fikirləşsə də məni əlamətlərindən heç birini xatırlamır. Bu zaman vəzifəsi nədir?
42. Cünub olan şəxsin imamzadələrin hərəminə getməsinin hökmü nədir?
43. Cünub olan bir şəxs idarə və müəssisələrin namazxanasında dayana bilərmi?
44. Tərtibi qüsl necə yerinə yetirilir?
45. Kürr suyun miqdarında az olan suda irtimasi qüsl vermək olarmı?
46. Cünub şəxs cümə günündə cənabət və cümə niyyəti ilə bir qüsl versə onunla namaz qıla bilərmi? Yoxsa dəstəmaz da almalıdır?
47. Qüslun niyyətini açıqlayın.
48. Cəbhə kimi bir yerdə insanların içməsi üçün maşınlarla gətirilən su ilə qüsl vermək olarmı?
49. Meyyit qüslu ilə məssi-meyyit qüslunun fərqi nədir?
50. Hansı hallarda şəhidə qüsl verilməməlidir?
51. Nə zaman dəstəmaz və qüsl əvəzinə təyəmmüm alınır?
52. Kərpicə və kəsəyə təyəmmüm etməyin hökmü nədir?
53. Qüsl almaqdan xəcalət çəkən cünub bir şəxs qüsl əvəzinə təyəmmüm edə bilərmi?
54. Vacib və müstəhəbb namazlar arasındakı fərqi deyin.
55. Həmişə gecələr qılınan namazların adını deyin.

56. Ayət namazlarını vacib edən səbəblərdən ikisini deyin.
57. Bu gün yerə bir çubuq basdırmaqla günortanı müəyyən edin.
58. Əgər günəş günortadan sonra 6 :14-dən sonra batırsa, sübh azanı isə 4:14-də olursa belə bir gecənin gecə yarısı nə vaxt olur?
59. Məğribi təyin etmək üçün qərb istiqamətinəmi baxmalıyıq yoxsa şərqəmi?
60. Namaz qılanın paltarının şərtlərini sayın.
61. Əgər namazdan sonra paltarın nəcis olduğu məlum olarsa, namazın hökmü nədir?
62. Hansı hallarda namaz qılan şəxs paltarının nəcis olduğunu bilə-bilə namaz qıla bilər?
63. Əgər bir kəs namaz əsnasında paltarının nəcis olduğunu başa düşərsə, vəzifəsi nədir?
64. Çarəsizlik halında nəcis paltar, yaxud bədənlə namaz qılmağın caiz olmasına üç misal deyin.
65. Nəcis palaz-xalçada namaz qılmağın hökmü nədir?
66. Başqası özü üçün sərdiyi səccadə üzərində namaz qılmaq olarmı? Niyə?
67. Azanla iqamənin nə fərqi vardır?
68. Bizim məscidə getməyən şəxs ilə rəftarımızın necə olması müstəhəbdir?
69. Qatarda və təyyarədə namaz qılmağın hökmü nədir?
70. Azan və iqamənin deyilmədiyi iki yeri sadalayın.
71. Namazın rüknlərini sadalayın və onların qeyri-rüknlərlə olan fərqini bəyan edin.
72. Niyə əvvəlinci "Allahu-Əkbər" təkbirətul-ehram adlanır?
73. Niyyəti açıqlayın.
74. Qiyamı izah edib qismlərini sadalayın.
75. Rukudan əvvəlki və sonrakı qiyamı izah edin və onların fərqini deyin.
76. Qiraət nədir? İzah verin.
77. İndiyə qədər öz qiraətinizi bir kəs üçün oxumuşsunuzmu? Əgər cavab mənfidirsə, qiraətinizi ustadınız üçün oxuyun və onu düzəldin.
78. Təsbihati ərbəəni ucadan oxumaq olarmı?
79. Həmd və surəni namazda ucadan oxumaq vacibdirmi?
80. Bir kişi indiyə qədər sübh, məğrib və işa namazlarında Həmd və surəni ahəstə səslə qılmışdır, onun keçən namazları ilə əlaqədar vəzifəsi nədir?
81. İndiyə qədər öz namazınızda heç elə bir səhviniz olubmu ki, onu indi anlamış olasınız?
82. Hansı hallarda namaz qılan şəxs surəni oxumamalı və təsbihati-ərbəəni də bir dəfə deməlidir?
83. Ruku ilə rukunun zikrinin fərqi nədir?
84. Ruku halında dayanmanın həddi nə qədərdir?
85. Rukudan sonra ayaq üstə dayanmaq vacibdirmi?
86. Səcdənin tərifini deyin və onun namazın vacibatlarının hansı qismindən olduğunu bəyan edin.
87. Səcdənin vacibatlarından dördünü qeyd edin.
88. Səcdənin zikrində vacib hissəni söyləyin?
89. İki səcdə arasındakı muvalat dedikdə məqsəd nədir?
90. Badamın qabığına və taxtasına, ağacına, alma qabığına, portağal qabığına səcdə etməyin hökmü nədir?
91. Kağıza və kibrit qutusuna səcdə etməyin hökmü nədir?
**92.** Adi qaydada səcdə edə bilməyən şəxsin səcdədəki vəzifəsi nədir?
93. Qurani-kərimə müraciət etməklə vacib səcdəsi olan ayələri yazın.
94. Təşəhhüdün namazdakı yerini bəyan edin.
95. Namazın vacib və müstəhəbb hissələrini bəyan edin.
96. Tərtib ilə muvalatın arasındakı fərqi deyin.
97. Qunut üçün dərsdə qeyd olunan duadan başqa bir duanı yazın.
98. Namazı pozan şeylər hansılardır?
99. Əgər bir şəxs namaz qılana salam versə, namaz qılanın vəzifəsi nədir?
100. Hansı növ gülmək və ağlamaq namazı batil edir?
101. Əgər namaz qılan şəxsin bir uşağın sobaya yaxınlaşdığını görsə və bədənin yanmasını ehtimal versə, namazını poza bilərmi?
102. Müsafir namaz əsnasında başa düşür ki, qatar hərəkət etməyə hazırlaşır, qatara çatmaq üçün namazı poza bilərmi?
103. "İqamə"də olub "Azan"da olmayan cümləni tərcümə edin.
104. "Təsbihati-ərbəə"nin tərcüməsini söyləyin.
105. Dərsdə gələn surədən başqa Qurandan bir surəni seçib, tərcümə edin.
106. Namazın əvvəlinci və sonuncu cümləsinin tərcüməsi nədir?
107. (Azan və iqamədən əlavə) namazın cümlələri cəmdə neçədir? Əlbətdə təkrar cümləni çıxmanız şərtilə.
108. Əgər bir kəs təsbihati-ərbəəni oxuyan zaman təşəhhüdü oxuyub-oxumadığında şəkk etsə vəzifəsi nədir?
109. Namazın hissələrindəki şəkkə dörd misal göstərin.
110. Əgər bir şəxs Sübh və ya Məğrib namazında rəkətlərin sayının neçə olmasında şəkk edərsə, vəzifəsi nədir?
111. Əgər bir kəs dörd rəkətli namazda, ruku halında üçüncü ya dördüncü rəkətlər arasında şəkk etsə vəzifəsi nədir?

112. Əgər günortadan sonra saat dörddə Zöhr və Əsr namazlarının qılıb-qılmaması haqda şəkk edərsə nə etməlidir?
113. Bir şəxs Təkbirətul-ehramı dedikdən sonra düzgün deyib-deməməyi barəsində şəkk etsə nə etməlidir?
114. Əgər qiyam halında dördlə beş arasındakı şəkk yaranarsa vəzifəsi nədir?
115. Nə üçün ehtiyat namazında Həmd ahəstə oxunmalıdır?
116. Bu zamana qədər heç namazınızda şəkk etmisinizmi? Əgər cavabınız müsbətdirsə necə davrandığınızı izah edin.
117. Səcdeyi-səhvin yerinə yetirilməsi qaydasını bəyan edin.
118. Səfərdə gündəlik namazlardan toplam neçə rəkət azalır?
119. Bir şəxs öz yaşayış yerindən, oradan 32 kilometr şərqdə yerləşən bir kəndə gedir və sonra qayıdır. Ora ilə fasiləsi əlli kilometr olan qərbdəki bir kəndə gedir və öz vətəninə qayıdır. Bu iki kəndə getdiyi yol səfərlərinin əsnasında onun namazı tamamdır, yoxsa şikəstə?
120. Neçə illər xidmət üçün bir yerdə qalan dövlət işçiləri və qoşun rütbəlilərinə qaldıqları yer vətən hesab olunurmu?
121. Bir yerin vətən olmasının meyarını bəyan edin.
122. Hər gün kənddən üç fərsəx aralıda yerləşən əkin sahəsinə gedib-qayıdan bir əkinçinin namazının hökmü nədir?
123. Bir şəxs işləmək üçün kənddən şəhərə gəlmişdir. Kəndə getdiyi zaman namazını bütöv qılmalıdır, yoxsa şikəstə?
124. Unutduğuna görə namazını bütöv qılan müsafirin namazı səhihdirmi?
125. Əda və qəza namazının fərqi nədir?
126. Müəyyən müddətdə namazının qəzaya getdiyini bilən, lakin onların sayını bilməyən şəxsin vəzifəsi nədir?
127. Əgər zöhr və əsr namazından sonra sübh namazının qəzasını qılmaq istəsə, onun qiraətini ucadan deməlidir, yoxsa alçaqdan?
128. Bir oğlan atasının qəza namazı olub-olmadığını bilmir, atası da ona bir şey deməyibdir, onun vəzifəsi nədir?
129. Bu cümləni izah edin: "Etinasızlıq üzündən camaat namazında iştirak etməmək caiz deyildir».
130. Hansı hallarda dörd rəkətlik namazı dörd dəfə təşəhhüdlə oxumaq olar?
131. Məmum namazın hansı vacibatını oxumamalıdır?
132. Əgər bir kəs məğrib namazının ikinci rəkətinin rukusunda imama iqtida etsə, namazının qalanını necə qılmalıdır?
133. Ədaləti izah edin?
134. Namazı şikəstə olan müsafir imam zöhr namazını qılarkən iki rəkətlik əsr namazını ona iqtida edə bilərmi?
135. Məmum imamdan qabaq ruku və ya səcdəyə gedə bilərmi?
136. Əgər məmum başını səcdədən qaldırıb imamın səcdədə olduğunu görsə, nə etməlidir?
137. Əgər məmum cümə namazının birinci rəkətində səhvən qunutu tutmamış rukuya getsə, vəzifəsi nədir?
138. Camaatla qılına bilən müstəhəbb namaz hansıdır?
139. Zöhr namazı ilə cümə namazının fərqlərini sadalayın.
140. Cümə namazında məmumların sayı ən aşağısı nə qədər olmalıdır?
141. Keçən dərsləri nəzərdən keçirərək imam camaatın şərtlərini (ki, həmin şərtlər eyni zamanda Cümə namazında da keçərlidir) sayın.
142. Mərhum imam Xomeyninin nəzərinə görə dini siyasətdən ayrı hesab edənlər necə adamdır?
143. Bayram namazının neçə təkbiri və neçə qunutu vardır?
144. Nə üçün zəlzələ və bu kimi işlərlə əlaqədar qılınan namaza ayət namazı deyilir?
145. Ayət namazının neçə rukusu və neçə qunutu vardır?
146. Sinifdə şagirdlərdən biri Ayət namazını surəni bölməklə qılsın.
147. Ayət namazının rüknləri əvvəldən axıra qədər necədir?
148. Bir rəkətli namaz adı deyə bilərsinizmi?
149. Gündəlik namazın nafilələri gecə namazı ilə birlikdə neçə rəkətdir? Vacib namazların rəkətlərinin sayı ilə necə nisbətdədir?
150. Bu günlərdə oruc tutmağın hökmü nədir:
Məhərrəmin onu, Zil-həccənin onu, Zil-həccənin 9-u, Fərvərdinin biri, Şəvvalın biri.
151. Əgər atası övladına: «sabah oruc tutma» desə, övlad o zaman oruc tuta bilərmi?
152. Əgər bir şəxs sübh azanından sonra yuxudan oyansa, oruc niyyəti edə bilərmi?
153. Oruc halında dişləri yumaq və onların arasını qurdalamağın hökmü nədir?
154. Oruc halında saqqız çeynəməyin hökmü nədir?
155. Bir şəxs su içərkən oruc olmasını xatırlayır. Onun vəzifəsi və orucunun hökmü nədir?
156. Siqaret çəkmək orucu batil edən şeylərin hansı qismindəndir?
157. Oruc olan halda üzməyin hökmü nədir?
158. Orucun qəza və kəffarəsinin fərqi nədir?
159. Əgər müstəhəbb orucda sübh azanına qədər qüsl etməsə, orucunun hökmü nədir?
160. Əgər yuxudan cənabət qüslu etməyə vaxt olmadığı bir vaxtda oyansa vəzifəsi nədir?
161. Oruc halında ətir vurmağın hökmü nədir?

162. Bir şəxsin saatı geri qalır, ona uyğun olaraq obaşdanlıq yeyir, sonradan sübh azanından sonra yediyini bilir. Onun qəza və kəffarə ilə əlaqədar vəzifəsi nədir?
163. Ramazan ayının qəza orucunun vaxtını bəyan edin.
164. Orucun kəffarəsinin vaxtını bəyan edin.
165. Əgər bir kəs sonrakı ilin Ramazan ayına qədər orucunun qəzalarını tutmasa, vəzifəsi nədir?
166. Oruc tuta bilməyən qoca kişinin vəzifəsi nədir?
167. Əgər birinci oğul dünyadan getmiş olsa atanın qəza oruclarının tutulması kimin öhdəsinədir?
168. Səfərdə kimlər oruc tutmalıdır?
169. Hansı növ cəvahirata xums düşür?
170. Kəsb mənfəətini izah edin.
171. Xums ilinin əvvəli nə vaxtdır?
172. Hədiyyə bağlamasının və gözaydınlıq hədiyyəsinin xumsu vardırmı?
173. Xums hansı yerlərdə sərf olunmalıdır?
174. Zəkat bölməsində nisab dedikdə məqsəd nədir?
175. Nisab həddi çəkilən xərclər çıxıldıqdan sonra hesablanır, yoxsa ondan sonra?
176. Mal və heyvanın ilk nisab həddi və hər birinin zəkat miqdarı nə qədərdir?
177. Hər birinin çəkisi on misqal olan 18 qızıl sikkənin zəkatını hesablayın.
178. Çaydan su vuran motor vasitəsilə suvarılan əkin sahəsinin zəkatı onda birdir, yoxsa iyirmidə bir?
179. Məruf və münkər işlərin hərəsinə beş misal göstərin.
180. Əmr be məruf və nəhy əz münkər nə vaxt vacib olur?
181. Əgər bir kəsin nəcis libasda namaz qıldığını görsəniz ona deməyiniz vacibdirmi? Nə üçün?
182. Günahkar şəxsi nə zaman yaralamaq olar? İki misalla izah edin.
183. Cihad ilə müdafiənin fərqi nədir?
184. Müdafiənin qismlərini deyin və hər biri üçün misal göstərin.
185. Hərbiçilik öyrənmək kimlərə vacibdir?
186. Əsgərlik xidmətinin vacib olmasında nəyə əsaslanırsınız?
187. Hansı vəziyyətdə alver etmək müstəhəbdir?
188. Alverin haram olduğu yerlərdən beşini yazın.
189. Alverdə and içmənin nə hökmü vardır?
190. Sələmi izah edin və ona üç misal vurun.
191. İcarə verilməsi mümkün olan və icarəsi imkansız olan malların hərəsinə beş misal vurun.
192. Borcun növlərini misal vurmaqla izah edin.
193. Borcdakı sələmi izah edin və bir misal vurun.
194. Bir şəxsin yanında əmanət olduqdan sonra mal oğurlanarsa, təklif nədir?
195. Borcla əmanətin fərqi nədir?
196. Ariyəni izah edin və onun əmanətlə olan fərqini açıqlayın.
197. Hansı halda ariyə götürülmüş mala xəsarət yetişsə, ariyə götürənin səhlənkarlığı olmasa da belə zamindir.
198. Sədəqəni geri almanın hökmü nədir?
199. Zəlzələ nəticəsində zərər görmüş qeyri müsəlmana sədəqə vermənin hökmü nədir?
200. Əgər biri mədrəsədə bir kitab tapsa, vəzifəsi nədir?
201. İzdivac vasitəsi ilə kimlər bir-birinə məhrəm olur?
202. Qadınlardan neçəsi kişilərə məhrəmdir?
203. Bibinin və xalanın saçına baxmağın hökmü nədir?
204. Əmi arvadının və dayı arvadının bədəninə baxmağın hökmü nədir?
205. İzdivac etmək vacibdirmi?
206. Əhli heyvanlardan hansının əti haramdır?
207. Dovşan ətini yeməyin hökmü nədir?
208. Göyərçinin, qarğanın, sərçənin və qoyunun ağ ətini yeməyin hökmü nədir?
209. Siqaret çəkməyin hökmü nədir?
210. Yemək yeməyin müstəhəbb və məkruhlarından beşini bəyan edin.
211. Evdə namaz qılmaq üçün məsciddən möhür götürmənin hökmü nədir?
212. Məsciddə yatmanın və ondan ötüb keçmənin hökmü nədir?
213. Quranın yazılarını bədənə döymə ilə yazdırmanın hökmü nədir?
214. Dəstəmazsız qəbir daşına yazılan Quran ayəsinə toxunmanın hökmü nədir?
215. Quranla bağlı hansı işlər haramdır?
216. Namazda salamın cavabı necə olmalıdır?
217. Qəsbi izah edin və hüquq qəsbinə iki misal vurun.
218. Üzü azca tüklənmiş cavan xəcalət çəkdiyindən üzünü qırxa bilərmi?